AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

*Heydər Əliyev – 100*

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ İNGİLİSDİLLİ MƏTBUATDA AZƏRBAYCAN OBRAZI (1993-2003)

*(Məqalələr toplusu)*

**Bakı – 2023**

*Azərbaycan Dillər Universitetinin (ADU) Elmi Şurasının 03 iyun 2021-ci il tarixli (protokol №11) qərarı ilə çap olunur.*

**MÜSTƏQİLLİK DÖVRÜNDƏ İNGİLİSDİLLİ MƏTBUATDA AZƏRBAYCAN OBRAZI (1993-2003).** *Məqalələr toplusu.*
– Bakı: __________, 2023. – 448 səh.

*Kitabda 1993-2003-cü illərdə müxtəlif ölkələrdə ingilisdilli mətbuatda Azərbaycan haqqında dərc olunan məqalələrin Azərbaycan dilinə tərcüməsi yer almışdır. Dövrün tələbinə uyğun olaraq məqalələr əsasən Ermənistan-Azərbaycan münaqişəsi, Azərbaycanın neft-qaz sənayesi, siyasi həyatı, tarixi və mədəniyyəti ilə bağlı mövzuları əhatə edir. Bəzi məqalələrdə bəhs edilən hadisə və proseslərlə əlaqəli yol verilən qeyri-dəqiqliklər, təhriflər və s. barədə kitabın "Qeydlər" bölməsində şərhlər verilmişdir. Kitab tədqiqatçılar, siyasətçilər, Azərbaycan tarixi, iqtisadiyyatı, mədəniyyəti və respublikanın beynəlxalq əlaqələri ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.*

ISBN: 978-9952-8437-7-4

© ADU, 2023

Layihə rəhbəri

Kamal Abdulla — *ADU-nun rektoru, akademik*

Layihənin icraçı-koordinatorları

Aqşin Rüstəmov — *ADU-nun "Azərbaycanşünaslıq" Elmi Mərkəzinin müdiri, tarix üzrə fəlsəfə doktoru*

Suğra Ələkbərli — *ADU-nun "Azərbaycanşünaslıq" Elmi Mərkəzinin elmi işçisi*

Tərtibçilər

Şəhla Xudiyeva
Nərgiz Seyidova
Aysu Hüseynli
Pərvanə Cəfərova
Röya Əzizova
İradə Bəylərova
Gülnar Nağıyeva
İlahə Tağızadə
Eleonora Babayeva
Sabir Əliyev
Təvəkkül Zeynallı

Məsul redaktor

Aqil Şahmuradov — *ADU-nun Regionşünaslıq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*

Rəyçilər

Elşad Nəsirov — *Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi*

Solmaz Rüstəmova-Tohidi — *"Azərbaycanşünaslıq" Elmi Mərkəzinin baş elmi işçisi*

Abutalıb Cəlilov — *Bakı Dövlət Universitetinin Slavyan tarixi kafedrasının müdiri*

*Kitabın sonunda verilmiş qeydlər ADU-nun Regionşünaslıq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Aqil Şahmuradova aiddir.*

# ÖN SÖZ
# İLK TƏŞƏBBÜS – FAYDALI MƏNBƏ

Şərq və Qərb sivilizasiyalarının qovşağında yerləşən, qədim dövlətçilik ənənələrinə malik olan və dünya irs xəzinəsinə əhəmiyyətli töhfələr verən Azərbaycan özünün zəngin tarixi və mədəniyyəti, yaradıcı potensialı və görkəmli şəxsiyyətləri ilə həmişə diqqət mərkəzində olmuşdur. 1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, bir tərəfdən, onun qarşısında yeni, müstəqil inkişaf yolları və imkanları açıldı, digər tərəfdən isə, o, Cənubi Qafqazda üstünlük uğrunda mübarizə aparan iri dövlətlərin geosiyasi və geoiqtisadi maraq dairəsinə daxil oldu. Müstəqilliyin ilk illərində Azərbaycanın düçar olduğu sosial-iqtisadi və siyasi böhran, səriştəsiz idarəetmənin nəticəsi olaraq daha da dərinləşmiş, müxtəlif qruplar arasında hakimiyyət uğrunda gedən mübarizə vətəndaş müharibəsi həddinə çatmış və ümumilikdə respublikanın müstəqilliyi təhlükə altına düşmüşdü. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsinin davam etməsi vəziyyəti daha da ağırlaşdırmışdı. 1993-cü ilin iyun ayında, kifayət qədər mürəkkəb bir şəraitdə ümummilli lider Heydər Əliyevin[1] Azərbaycanda hakimiyyətə qayıdışı və onun rəhbərliyi altında həyata keçirilən müdrik, elmi əsaslara söykənən və gələcəyə ünvanlanan siyasət respublikanı xaosdan çıxardı, müstəqil dövlətçiliyin dayaqlarının yaradılması və möhkəmləndirilməsi ilə nəticələndi və Azərbaycan öz tarixinin yeni bir mərhələsinə, inkişaf mərhələsinə qədəm qoydu. Ölkədə daxili

sabitliyin yaradılması, sistem xarakterli islahatların aparılması, yeni neft strategiyasının həyata keçirilməsi, tarixi "İpək yolu"-nun bərpası istiqamətində addımların atılması, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum, TAP, TANAP qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin reallaşdırılması və nəhayət, prezident İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinin darmadağın edilməsi və işğal altında olan torpaqların azad olunması müstəqillik illərində Azərbaycanın əldə etdiyi uğurların bir hissəsidir.

Strateji coğrafi mövqeyə və zəngin təbii ehtiyatlara malik olan respublikanın daxili vəziyyəti və beynəlxalq əlaqələri, təşəbbüskarı olduğu və reallaşdırılmasında iştirak etdiyi regional və qlobal miqyaslı layihələr onun sərhədlərindən kənarda da diqqəti cəlb etmiş, xarici dövri mətbuatda öz əksini tapmış, obyektiv və ya subyektiv baxış bucağı altında işılandırılmışdır.

Azərbaycan Dillər Universitetində hazırlanan və oxucuların istifadəsinə verilən "Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı" kitabına ulu öndər Heydər Əliyevin Azərbaycanda prezidentliyi dövründə ingilisdilli xarici mətbuatda respublika haqqında çap edilmiş materialların bir hissəsinin Azərbaycan dilinə tərcümə olunan variantları daxil edilmişdir. Qeyd etmək lazımdır ki, 1993-2003-cü illərdə ümummilli liderin rəhbərliyi altında Azərbaycanda reallaşdırılan köklü dəyişikliklərin, cərəyan edən hadisə və proseslərin və həyata keçirilən xarici siyasət kursunun intensivliyi ingilisdilli xarici mətbuatda Azərbaycan haqqında çap edilmiş materialların sayının kifayət qədər çox olmasını şərtləndirmişdir. Bütün bu materialları bir kitabda əhatə etməyin qeyri-mümkünlüyü şübhə doğurmur. Eyni zamanda, inanırıq ki, ilk təşəbbüs olan bu layihə müəyyən mər-

hələlərlə bundan sonra da davam etdiriləcək, yeni-yeni materiallar üzə çıxarılacaq və oxuculara təqdim ediləcəkdir.

Oxucu kitabla tanış olduqca ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə xarici mətbuatda Azərbaycan haqqında verilən yazıların məzmununun müsbətə doğru necə dəyişdiyinin şahidi olacaq, respublikanın inkişafının həqiqi əks-sədasını duyacaq.

Kitabda yer alan məqalələr müxtəlif ölkələrdəki (İngiltərə, ABŞ, Kanada, Avstraliya, Rusiya və s.) mətbuat orqanlarından ("The Gazette", "The Times", "The Globe & Mail", "The Sydney Morning Herald", "The Moscow times", "The Washington Post", "Sunday Times", "The New York Times", "The Guardian", "The Economist", "The Daily Herald" və s.) götürülmüşdür. Bu məqalələr mövzu baxımından rəngarəng olsalar da, Ermənistan-Azərbaycan müharibəsi və Azərbaycanın neft strategiyası ilə bağlı olan materiallar üstünlük təşkil edir, bu da təbiidir, çünki Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını azad etmək və respublikanın əsas təbii sərvətlərindən olan neft ehtiyatlarından səmərəli, xalqın və dövlətin mənafeyinə uyğun istifadə etmək müstəqillik illərində respublikanın qarşısında duran əsas vəzifələr olmuşdur. Tərcümə edilərək, oxuculara təqdim edilən məqalələrin digər hissəsi Azərbaycanın tarixi, mədəniyyəti, ictimai-siyasi həyatı və iqtisadiyyatından bəhs edir.

"Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı" kitabı bir sıra müsbət məqamları ilə diqqəti cəlb edir. İlk növbədə o, Vətənimizin kənardan, xarici ölkələrdən necə göründüyü barədə təsəvvür yaradır. Qeyd etmək lazımdır ki, bu, Azərbaycanın xaricdə tanınması ilə yanaşı, bizim öz-özümüzü tanımamız baxımından da əhəmiyyətlidir.

Kitab üzərində iş məqalələrin Azərbaycan dilinə tərcümə edilməsi ilə məhdudlaşmamışdır. Eyni zamanda, Azərbaycan reallıqlarını mətbuat səhifələrində işıqlandırmağa çalışan bəzi müəlliflərin yol verdikləri qeyri-dəqiqliklər, təhriflər və ya saxtalaşdırmalar üzə çıxarılmış və belə məqamların hər biri barədə, həmçinin kitaba daxil edilən materiallarda öz əksini tapan hadisə və proseslərlə bağlı olan şəxslər, şəhər və kəndlər haqqında da müvafiq şərhlər verilmişdir. Bütün bunlara əsaslanaraq, siyasətçilər, tarixçilər, regionşünaslar, diplomatlar və digər mütəxəssislər üçün son dərəcə faydalı vəsait olan "Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı" kitabını həm də ciddi tədqiqat işi kimi qiymətləndirmək olar.

Azərbaycanda və onun ətrafında baş verən hadisələr tədqiqatçıların da maraq dairəsindədir. İstər respublikada, istərsə də onun hüdudlarından kənarda ölkəmiz haqqında elmi əsərlər nəşr olunur, tədqiqatlar aparılır və bu proses gündən-günə genişlənir. Kitabda yer alan və ilkin mənbə olaraq, ciddi elmi əhəmiyyət kəsb edən məqalələrdən tədqiqatçılar da bəhrələnə bilərlər.

Müstəqil Azərbaycanın davamlı inkişafı, daxili və xarici siyasətdə əldə etdiyi uğurlar ölkə xaricindəki anti-Azərbaycan qüvvələri narahat edir, isterikaya qapılan bu dairələr respublikamıza qarşı qarayaxma siyasəti həyata keçirməyə çalışır və bu zaman öz niyyətlərinə uyğun müxtəlif vasitələrdən istifadə edirlər. Xarici düşmənlərin Azərbaycana qarşı istifadə etdikləri vasitələrdən biri də mətbuatdır və bunu nəzərə alaraq, xarici mətbuatda, o cümlədən ingilisdilli qəzet və jurnallarda ölkəmizlə bağlı qərəzli yazıların da yer almasını təsadüfi hesab etmək olmaz. Onu da qeyd etmək lazımdır ki, bu yazıların böyük əksəriyyətinin müəllifi və ya ideya mənbəyi erməni diasporu və onun təsiri altında olan dairələrdir.

Bəzi məqalələrdə əksini tapan həqiqətdən uzaq, ifrat fikirlər və ya Azərbaycanla bağlı olmayan hissələr tərcümə zamanı ixtisar edilmişdir.

Sonda Azərbaycan Dillər Universitetinin, bu ağır və məsuliyyətli işin yerinə yetirilməsində iştirak edən bütün əməkdaşlarına təşəkkür edirəm.

***Kamal Abdulla,*** *akademik*
*Azərbaycan Dillər Universitetinin rektoru*

**Müəllif: Hugh Johnson**
**Tarix: 28.06.1993**
**Mənbə: The Gazette (ABŞ)**
**Məqalənin adı: Armenian troops press on in Azerbaijani territory**
***www.thegazette.com***

# ERMƏNİ QOŞUNLARININ AZƏRBAYCAN ƏRAZİSİNƏ BASQINI

Bakı, Azərbaycan: dünən Ermənistan qoşunları Azərbaycan ərazisinə hücum ediblər.[3] Məcburi köçkünlərin böyük köçündən sonra torpaqlar boş qalıb.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumata görə, erməni qoşunlarının Dağlıq Qarabağ anklavından[4] 1 km. məsafədə olan əraziyə irəliləməsi nəticəsində, şənbə günü Ağdam şəhərinin[5] mərkəzindən və ətrafdakı bir neçə kənddən 120.000 nəfərdən çox məcburi köçkün öz yurdunu tərk edib.

Azərbaycanın başqa əraziləri də atəşə tutulub və 1988-ci ildən bəri hər iki tərəfdən təxminən 15.000 nəfər ölüb. Bu, keçmiş Sovet İttfaqında ən dəhşətli etnik münaqişə hesab olunur.

Dağlıq Qarabağ regionunun erməni icması, əhalisinin əsas hissəsini müsəlmanların təşkil etdiyi Azərbaycandan ayrılmağa çalışır. Son zamanlarda Azərbaycanda baş verən hökümət böhranından istifadə edən Dağlıq Qarabağ qüvvələri anklavdan kənarda şərqə tərəf, Ağdam və digər şəhərlərə doğru irəlliləyiblər.

Azərbaycan öz ərazilərinin işğal edilməsində Ermənistanı günahlandırır.[6] Erməni silahlıları Dağlıq Qarabağda bufer zona yaratmağa çalışırlar.

Seçkidə[7] qələbə qazanan prezident Əbülfəz Elçibəyə[8] qarşı qiyamdan[9] sonra hakimiyyətə gələn Azərbaycanın yeni baş naziri Sürət Hüseynov[10] işğal olunmuş əraziləri geri alacağına söz verib.

**Müəllif: Serge Schmemann**
**Tarix: 09.07.1993**
**Mənbə: The New York Times (ABŞ)**
**Məqalənin adı: War and politics are clogging the path to prosperity in oil-rich Azerbaijan**
***www.nytimes.com***

# MÜHARİBƏ VƏ SİYASƏT AZƏRBAYCANIN ZƏNGİNLİYƏ GEDƏN YOLUNU BAĞLAYIR

Keçmiş sovet respublikalarının hamısı öz problemləri və perspektivləri ilə məşğul olur, lakin onların çoxu Azərbaycanda olduğu qədər seçimlə öyünə bilməz.

Xəzərin sahilindəki bu kiçik ölkə iki ildən də az müstəqillik dövründə müharibə, seçkilər, çevrilişlər, qırğınlar, korrupsiya, İslam dirçəlişi, kommunistlərin yenidən fəallaşması, beynəlxalq intriqalar, iqtisadi xaos və zənginlik vədlərinin nə olduğunu bilir – böyük neft sərvətləri var və əgər digər məsələlər həll olunarsa, onlardan istifadə etmək olar.

Qərb neft şirkətlərinin rəhbərlərindən ibarət qruplar korporativ təyyarələrdə Bakıya gəlib gedir və ya köhnə "İnturist" mehmanxanasıda yerləşərək, Xəzər dənizində dörd milyard barrel və ya daha çox olduğu ehtimal olunan ehtiyatlardan istifadə imkanını gözləyirlər.

**Sərvətin cazibəsi**

Bakını çətinliklə su ilə təmin edə bilən infrastruktura malik olan, iqtisadiyyatı sovet müstəmləkə üsul-idarəsinin dağılması, millətçi illüziyalar və azad sahibkarlığın ilk zərif tumurcuqları arasında ilişib qalan, qonşu Ermənistanla ağır və dözülməz mübarizə aparan ölkə üçün bunun gətirə biləcəyi zənginlik heyrətləndiricidir.

**Neft var, sifariş yoxdur**

Sabitlliyə son ümid maraqlı tərəfdən gəldi. Demək olar ki, müstəqilliyin elan olunmasından iki il sonra, siyasətin rusiyayönümlü kommunist rejimdən türkiyəyönümlü anti-kommunist koalisiyaya istiqamətləndiyi vaxt, taqətdən düşən ölkə, nəhayət, özünün, 18 il ərzində ona rəhbərlik etmiş ciddi kommunist rəhbərinə – 70 yaşlı Heydər Əliyevə[1] üz tutdu.

Keçmiş SSRİ xarici işlər naziri Eduard Şevardnadzenin[11] çarəsizlikdən geri çağırıldığı qonşu Gürcüstanda olduğu kimi, cənab Əliyev də, kommunizmə duyulan həsrətə və ya onun əvvəlki sərt Təhlükəsizlik Komitəsinin generalı kimliyinə görə yox, sadəcə olaraq, bu qarışıqlığı həll etmək üçün təcrübə və cəsarətə malik olan bir şəxs olaraq çağrılıb.

**Ermənilərin qələbələri**

Ən pis qarışıqlıq müharibədir. Mübahisəli Dağlıq Qarabağ ərazisi[12] uğrunda Ermənistanla beş il davam edən qanlı, sarsıdıcı döyüşlərdən sonra Azərbaycan biabırçı məğlubiyyətin astanasındadır. Bir il davam edən və iki aylıq hücumla başa çatan irəliləyiş nəticəsində ermənilər, demək olar ki, bütün ərazini, o cümlədən qərbə, Ermənistana uzanan geniş quru körpünü və şərqdə Azərbaycanın daxilindəki rayonu nəzarətdə saxlayırlar.[13]

Ağdam şəhəri ətrafında Ermənistan silahlı qüvvələrinin onlarla kəndi yerlə-yeksan etmələri[5] və Qarabağın paytaxtı Stepanakertə[14] qarşı əks-hücum planlaşdıran azərbaycanlıları bazadan məhrum edərək, şəhərin özünü ələ keçirməyə hazır olmaları Azərbaycan üçün son rüsvayçılıq idi.

**Müəllif: Edith M. Lederer**
**Tarix: 03.08.1993**
**Mənbə: The Daily Herald**
**(ABŞ)**
**Məqalənin adı: Underdog Armenia fends off Azerbaijan**
***www.dailyherald.com***

# QƏLƏBƏSİNƏ ÜMİDİNİ ÜZƏN ERMƏNİSTAN AZƏRBAYCANDAN UZAQLAŞIR

Martuni,[15] Dağlıq Qarabağ. İlk baxışdan Dağlıq Qarabağ müharibəsi[3] Davudun Goliata qarşı qeyri-mümkün mübarizəsinə bənzəyir.

Əsas döyüşçülər 100.000 nəfər əhalisi olan Dağlıq Qarabağ bölgəsinin ordusundan, yerdə qalan hissəsi isə 7 milyonluq Azərbaycandandır.

Dağlıq Qarabağın etnik erməniləri son bir ildə Azərbaycanın 10 faizini ələ keçirib.[6] Anklavı[4] artıq əsas dəstəkçisi olan Ermənistanla iki quru dəhliz birləşdirir.

Bu, necə baş verə bilər?

Azərbaycanın çətin vəziyyətə düşmüş prezidenti Əbülfəz Elcibəy[8] ölkədə ordunun yaradılmasının hələ başlanğıc mərhələdə olduğunu söyləyib, lakin Dağlıq Qarabağın etnik ermənilərinin təkbaşına qalib gələ bilməyəcəyini də də israr edib.

Üsyandan[9] qaçmaq məcburiyyəti qarşısında qalmaqdan əvvəl verdiyi bir müsahibədə Elçibəy söyləyib: "Başqa qüvvələrin, digər güclərin də bu qarşıdurmada iştirak etdiyi aydındır".

Hər bir tərəf digərinin kömək aldığını söyləyir, ancaq 5 illik müharibədə kimin iştirak etdiyini müəyyənləşdirmək praktiki olaraq mümkün deyildir. Müxbirlərin əksər döyüş bölgələrinə çıxışı qadağandır. Hər əsgərin və ya texnikanın mənşəyini yoxlamaq üçün bir üsul yoxdur.

Dağlıq Qarabağdan olan əsgərlər döyüşdə sərtlikləri ilə məşhurdurlar, onlar Sovet İttifaqı dağılmamışdan 2 il əvvəl Qırmızı Ordunun əfsanəvi döyüşçüləri sırasında idilər.

Bunun əksinə olaraq, Azərbaycandan və Orta Asiya respublikalarından olan müsəlman əsgərləri, ümumiyyətlə, inşaat işlərinə və digər işlərə cəlb edirdilər, onlar nadir hallarda ağır silahlarla təmasda olurdular.

Anonim olaraq danışan bir diplomata görə, döyüş qüvvələrinin 70-90 faizini Dağlıq Qarabağ dağ anklavının erməniləri təşkil edirdi.

Londondakı Beynəlxalq Strateji Araşdırmalar İnstitutu Dağlıq Qarabağın döyüş qüvvələrinin 8.000 nəfərdən ibarət olduğunu bildirib. Ermənistanın müdafiə naziri Vazgen Manukyan[16] bunu 10-15 min arasında qiymətləndirir.

Azərbaycanlılar əmindirlər ki, Ermənistan Rusiya və xaricdə yaşayan 3 milyon erməninin bir hissəsindən həm əsgər, həm də maddi-texniki baxımından böyük dəstək alır.

Elçibəy "zəncilər, almanlar, ukraynalılar, elit rus komandirləri, muzdlu əsgərlər və veteran terrorçuların" Dağlıq Qarabağ uğrunda vuruşduğuna dair məlumatlara sahib olduğunu söyləyib.

Dağlıq Qarabağ rəsmiləri isə, qüvvələrinin az sayda erməni könüllülərindən ibarət olduğunu və bunların arasında ən

azı bir erməni-amerikalı komandirin və bir erməni-fransız komandirin olduğunu bildirirlər.

London institutuna görə, Ermənistan ordusunda 50.000 əsgər var və Rusiyanın 7-ci Ordusunun təxminən 23.000 əsgəri Ermənistanın Leninakan şəhərindəndir.[17] Ermənistan və Rusiya rəsmiləri heç bir əsgərin münaqişədə iştirak etmədiyini israr edirlər.[18]

İnstitut bildirir ki, yalnız bir il əvvəl ordu qurmağa başlayan Azərbaycan 40.000 nəfərlik qüvvə toplayıb.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat katibi, kapitan Azad İsazadə,[19] bəzi sahələrdə "öz adamlarımız olmadığına görə", generallar da daxil olmaqla, yüksək səviyyəli zabitlərin təxminən yüzdə səkkizinin Rusiya, Belarusiya və ya Ukraynadan gəldiyini söyləyib.

Ermənilər rus muzdluları və xüsusilə də, müsəlman ölkəsi, qonşu Türkiyə tərəfindən Azərbaycana kömək edildiyini iddia edirlər.

Türk diplomatlar buna, "türk əsgərləri döyüşsəydi, aprel ayının əvvəlində Azərbaycan Kəlbəcər bölgəsini itirməzdi",[20] – deyə cavab veriblər. Qərb diplomatları rus muzdluların hər iki tərəf üçün çalışdığını söyləyirlər.

**Müəllif: Robert Haupt**
**Tarix: 27.08.1993**
**Mənbə: The Sydney Morning Herald (Avstraliya)**
**Məqalənin adı: New Armenian blitz on Azeris**
*www.smh.com.au*

# ERMƏNİLƏRİN AZƏRBAYCANLILAR ÜZƏRİNƏ YENİ HÜCUMU

Dünən erməni qüvvələri Azərbaycan ərazilərinə nəzarət etməyə imkan verən önəmli məntəqələrə açıq-aydın hərbi müdaxilə edib və minlərlə azərbaycanlını İrana tərəf sıxışdırmağa nail olublar.

Ermənistan tərəfindən hücum, İran sərhədindən 20 kilometr aralıda yerləşən Zəngilan[21] istiqamətində başlayıb. Erməni qüvvələri bölgənin mərkəzi olan Füzulini[22] və bütün cənub-qərbi Azərbaycanı hədəfə alıblar.

Bu, İran sərhədində təxminən 50.000 nəfər olduğu ehtimal edilən qaçqınların sayını artıracaq və yardım agentliklərinin fəaliyyətini ciddi şəkildə çətinləşdirəcəkdir.

Yerevan müharibənin Ermənistan deyil, mübahisəli statusu ilə[12] münaqişəyə səbəb olan Dağlıq Qarabağ anklavının[4] erməniləri tərəfindən aparıldığını iddia edir.[6] İran sərhədi yaxınlığında hərbi əməliyyatlara qarşı Tehranın xəbərdarlıqlarına Ermənistanın cavab vermədiyi də iddia olunur.

Birləşmiş Millətlər Təşkilatının rəsmiləri ermənilərin Azərbaycanın cənub-qərbinə təcavüzünün artıq 200 min nəfərdən çox qaçqın yaratdığını, hətta bir çoxunun Azərbaycanı İranla ayıran Araz çayının şimal sahilində sığınacaqsız qalaraq, gözlədiklərini söyləyirlər. Az sayda qaçqının İran sərhədini keçdiyi bildirilir.

"İnterfaks" Agentliyinin verdiyi xəbərə görə, erməni döyüşçülərinin Azərbaycana son basqını zirehli texnika və helikopterlərin müşayiəti ilə həyata keçirilib. Agentlik Azərbaycan hərbi mənbələrinə istinadən xəbər verir ki, dünən gecə saatlarına qədər qoşunlar Azərbaycanın içərilərinə doğru beş kilometrə qədər nüfuz ediblər.

Keçən ay Əbülfəz Elçibəy[8] hökumətinin süqutundan[23] sonra respublikanın cənub-şərqində üsyan baş verib. Bu üsyançıların Xəzər dənizi sahilindəki Lənkəranı tutmaq və respublika elan etmək cəhdləri, bazar ertəsi günü şəhərin mərkəzi meydanında üç nəfərin ölümü ilə nəticələnən qısa silahlı döyüşdən sonra dəf edilib.[24]

Azərbaycanın Prezidenti cənab Heydər Əliyev,[1] cənab Mütəllibovu[25] xəyanətdə günahlandırıb. Onun və digər qiyamçı liderlərin "xalq mühakiməsi" ilə qarşılaşacaqlarını söyləyib.

Dünən Azərbaycan Parlamentinin xüsusi iclasında çıxış edən cənab Əliyev Azərbaycan ordusunun pis vəziyyətdə olduğunu etiraf edib. O, ordunun əslində, "fərqli siyasi liderlərin komandanlığı altında olan qeyri-mütəşəkkil dəstələrdən ibarət olduğunu" deyib.

**Tarix: 28.08.1993**
**Mənbə: The New York Times**
**(ABŞ)**
**Məqalənin adı: War in Azerbaijan spurs exodus**
***www.nytimes.com***

# AZƏRBAYCANDAKI MÜHARİBƏ KÖÇƏ TƏKAN VERİB

Horadiz,[26] Azərbaycan, 27 avqust – Ötən həftə erməni və azərbaycanlı qüvvələr arasında döyüşlərin yenidən bərpa olunması Azərbaycanın cənub-qərbindən köç edən yeni qaçqın dalğasına səbəb olub və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığını regionda yardım işlərini dayandırmağa məcbur edib.

Yeni köçün Ermənistanla sərhəddə olan Zəngilan[21] şəhərindən İmişliyə, Azərbaycanın paytaxtı Bakıya gedən yolun təxminən yarısına qədər uzanan 90 millik magistral yol boyunca, təxminən 200.000 nəfəri əhatə etdiyi təxmin edilir. Birləşmiş Millətlər Təşkilatının məlumatlarına görə, müharibə nəticəsində qaçqın düşənlərin sayı təxminən bir milyon nəfərə çatıb. Onların ən azı yarısı son altı ayda evlərindən qovulub.

Əzilmiş maşınlar, yataq ləvazımatları və paltarlardan tutmuş, soyuducu və sobalara qədər hər şeyin üst-üstə qalandığı yük arabalarını dartan yük maşınları və traktorlar yeganə yolda sıxlıq yaradırlar. Heyvan cəsədləri yol boyu səpələnib, döyüşlə-

rin getdiyi Füzuli[22] və Cəbrayılda[27] törədilən yanğınlardan qalxan qara tüstü səmanı bürüyüb.

Qaçqınların əvvəlki dalğaları regiondakı məktəblərdə və digər ictimai binalarda mümkün olan bütün yerləri tutub və yeni qaçqınlar Azərbaycan və İran arasındakı sərhəddə yerləşən Araz çayından şimaldakı ərazilərdə düşərgə salmağa məcbur olublar.

"Mən dünyanın müxtəlif hissələrində çox qaçqının vəziyyətini görmüşəm", – Amerikanın müvəqqəti işlər üzrə vəkili Robert Finn[28] regiona səfərindən sonra deyib. "Bu, gördüyüm ən pislərindən biridir".

Birləşmiş Millətlər Təşkilatı ağır döyüşlərin getdiyi bölgəni o dərəcədə təhlükəli elan edib ki, Qaçqınların İşi üzrə Agentliyin orada işləməsinə icazə verilmir.

Birləşmiş Millətlər Təşkilatının fəaliyyəti nəticəsində hərbi əməliyyatlardan əziyyət çəkən qaçqınlar üçün ABŞ-nin göstərdiyi yardımlar da gecikir. Dövlət Departamenti qaçqınlar üçün 2 milyon dollar ayırdığını bəyan etsə də, ötən il müharibəyə görə Azərbaycana yardım göstərilməsinə Konqresin qoyduğu qadağa[29] səbəbindən, bu vəsaitlər Birləşmiş Millətlər Təşkilatı Ali Komissarının İdarəsi kimi təşkilatlar vasitəsilə çatdırılmalıdır.

The Press Democrat

**Müəllif: Rashit Gurdilek**
**Tarix: 04.09.1993**
**Mənbə: The Press Democrat (ABŞ)**
**Məqalənin adı: Turkey troops on border**
***www.thepressdemocrat.com***

## TÜRK QOŞUNLARI SƏRHƏDDƏ

Azərbaycanda böhran dərinləşir.

Cümə günü Ermənistanla sərhəddə daha çox əsgər toplayan Türkiyə Ermənistandan Azərbaycanın işğal olunmuş bölgələrindən "dərhal və qeyd-şərtsiz" geri çəkilməyi tələb edib.

Azərbaycanla həmsərhəd olan İran da, problemli keçmiş sovet respublikası ilə sərhəddə qoşun yeridib. İranın münaqişəyə müdaxilə etməsi, neftlə zəngin Azərbaycanda və digər keçmiş müsəlman sovet respublikalarında nüfuz uğrunda bu ölkə ilə rəqabət aparan Türkiyədə narahatlıq yaradıb.

Dağlıq Qarabağ erməni anklavına[4] nəzarət etmək üçün Azərbaycan əsgərlərinə qarşı mübarizə aparan erməni qoşunlarının[6] təzyiqi nəticəsində, Azərbaycandan olan minlərlə qaçqın İranla sərhəd bölgəyə sığınıb.

Ermənistan dövləti Dağlıq Qarabağdakı erməni separatçılarına dəstək verir. Dünyəvi müsəlman dövləti olan Türkiyə, türk dilli Azərbaycana rəğbət bəsləyir, lakin iki keçmiş sovet respublikası arasındakı müharibədən kənarda qalır.

Müsəlman Azərbaycanın daxilində xristian ermənilərin anklavı olan Dağlıq Qarabağ uğrunda müharibə beş ildir davam edir. Beynəlxalq təşkilatların məlumatına görə, nəticədə 15.000 nəfər ölüb və təxminən 1 milyon nəfər qaçqına çevrilib.

Qeyri-rəsmi "Anadolu" Xəbər Agentliyi sərhəd yaxınlığında Türkiyənin yeni hərbi qüvvələrinin yerləşdirildiyini qeyd edib. Türk hərbi mütəxəssislər "bu addımla Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin daha da yaxşılaşacağını" söyləyirlər.

Türk qəzetləri də Ermənistanla sərhəd boyunca hərbi aktivliyin artdığını bildirirlər.

Bu hadisələr, Türkiyənin baş naziri Tansu Çillər,[30] Nazirlər Kabinetinin üzvləri və İran hərbi birləşmələrinin yüksək rütbəli nümayəndələri arasında Azərbaycan sərhədində keçirilən görüşdən sonra baş verib.

Nazirlər Kabinetinin iclasından sonra verilən rəsmi açıqlamada erməni döyüşçülərinin Azərbaycan ərazilərindən "dərhal və qeyd-şərtsiz" çıxarılması barədə Ermənistana xəbərdarlıq edildiyi bildirilir.

"Anadolu", eyni zamanda, Ermənistanın İran və Türkiyə ilə həmsərhəd olan Azərbaycan anklavı Naxçıvana[31] qoşun göndərdiyi barədə məlumat verib.

Azərbaycanın təkziblərinə baxmayaraq, "Anadolu", Türkiyənin Xarici İşlər Nazirliyinə istinad edərək, İran "sərhədçilər"inin Araz çayı üzərindəki müştərək idarə olunan bəndin qorunması üçün Holda-Assam bölgəsində Azərbaycan ərazisinə 2 mil müdaxilə etdiyini bildirib.

İran nə bir açıqlama verib, nə də xəbəri təsdiq edib.

Azərbaycanın qərbində yerləşən bu ərazi Azərbaycan qüvvələrinin erməni hücumlarına məruz qaldığı yerdir.

Bəzi mətbuat nümayəndələrinin qeyd etdiyi kimi, birtərəfli hərbi müdaxilə nəticəsində Rusiya ilə qarşıdurma yaratmaqdan çəkinən Türkiyə Ermənistan qoşunlarının irəliləməsini müşahidə etmək üçün İranın atdığı addımları və təklif etdiyi əməkdaşlığı alqışlayıb.

**Müəllif: Deborah Seward**
**Tarix: 09.09.1993**
**Mənbə: Pittsburgh Post-Gazette (ABŞ)**
**Məqalənin adı: Turkish leader in Russia for talks on Caucasus war**
***www.post-gazette.com***

# TÜRKİYƏ LİDERİ QAFQAZ MÜHARİBƏSİNİ MÜZAKİRƏ ETMƏK ÜÇÜN RUSİYADA

Ermənistanın Azərbaycana hücumlarından narahat olan Türkiyənin baş naziri Qarabağdakı müharibə təhlükəsi haqqında prezident Boris Yeltsin[32] ilə danışıqlar aparmaq üçün dünən Moskvaya səfər edib.[33]

Rusiyaya səfəri zamanı baş nazir Tansu Çillər[30] erməni hərbi qüvvələri ilə müharibədə yalnız Rusiyadan yardım axtardığına görə Azərbaycanı tənqid edib.

Türkiyənin "Anadolu" Agentliyi onun söylədiklərinə istinad edərək məlumat verib ki, "Türkiyə Azərbaycanın daxili işlərinə müdaxilə edə bilməz. Əgər Azərbaycan öz xeyri üçün belə bir tələb irəli sürərsə, onda yalnız Rusiya tərəfdə kömək axtarması düzgün hesab edilməz".

İyun ayında baş nazir təyin edildikdən sonra ilk xarici səfərini edən Çillər Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunacağı halda ona qarşı müharibə elan etmək üçün parlamentə müraciət edəcəyi ilə hədələyib.

Türkiyə Azərbaycana rəğbət göstərir və Ermənistan ilə tarixi düşməndir. Rusiya ilə münaqişənin baş verəcəyindən ehtiyatlanan Türkiyə müsəlman Azərbaycanda müstəqillik uğrunda mübarizə aparan və xristian erməni anklavı olan Dağlıq Qarabağ[4] uğrunda müharibədə hərbi iştirakdan çəkinir.

İki keçmiş sovet respublikası arasında baş verən müharibədə 15.000 nəfər həlak olub və təxminən 1.000.000 nəfər qaçqın vəziyyətinə düşüb.

Bu həftə Rusiya Azərbaycan lideri Heydər Əliyevə,[1] qoşunları Azərbaycan ərazilərinin içərilərinə doğru irəliləyən Ermənistan ilə müharibəni dayandırmaq üçün yardım edəcəyinə vəd verib.

NATO-nun üzvü olan Türkiyə Əliyevin Türkiyədən üz çevirərək, Rusiyanın rəhbərlik etdiyi Kollektiv Təhlükəsizlik Təşkilatı[34] da daxil olmaqla, Müstəqil Dövlətlər Birliyinə[35] qoşulması barədə qərarından narahatdır.

Rusiya da, yardım etdiyi Ermənistanın sərhəddində Türkiyə hərbi qüvvələrinin toplanmasından məmnun deyildir. Rusiya həmçinin tarixi düşmən olan Türkiyənin Azərbaycan və keçmiş Sovet İttifaqının başqa müsəlman respublikalarına təsirinin genişlənməsindən də qəzəblənir.

H.Əliyevin müraciətində qoşun və hərbi texnika baxımından kömək göstərilməsi ilə bağlı xahiş öz əksini tapıb. Yeltsinin cavabı regionda təsir gücünü qorumaq üçün onun nə qədər irəliyə gedə biləcəyini göstərəcəkdir.

"Anadolu" Xəbər Agentliyi Çillərə istinadən, türk qoşunlarının rus qoşunları ilə birlikdə Azərbaycanda yerləşdirilməsi təklifinin irəli sürüldüyünü bildirib.

Bu əsrdə heç bir qarşıdurma olmasa da, 300 il ərzində bir-biri ilə 8 müharibə aparan Türkiyə və Rusiyanın hər biri Qafqazı öz təsir dairəsi hesab edir.

İran da region oyunçusudur. Onun şimal qonşusu Azərbaycan tərəfdən müharibəyə qoşulma şansı Rusiya və Qərbi narahat edir.

H.Əliyev 100.000 nəfərdən çox məcburi köçkün üçün qaçqın düşərgələrinin tikilməsinə kömək etmək məqsədilə İranın Azərbaycana 10.000 nəfər işçi göndərmək barədə təklifini qəbul edib.

Moskvada 4 günlük danışıqlardan sonra Əliyev, iyunda hərbi qiyam[9] yolu ilə devrilən Türkiyə tərəfdarı, prezident Əbülfəz Elçibəyin[8] zamanında pisləşən Azərbaycan-Rusiya əlaqələrindəki soyuqluğa son qoyub.[36]

XX əsrin 80-ci illərində Yeltsin ilə birlikdə Sovet Siyasi Bürosunda çalışan, Azərbaycanın keçmiş kommunist rəhbəri Əliyev söyləyib: "Biz məsələnin həllində Rusiya ilə birlikdə əsaslı rol oynamağa davam edəcəyik".

**Müəllif: Bill Keller**
**Tarix: 05.10.1993**
**Mənbə: The New York Times (ABŞ)**
**Məqalənin adı: Azerbaijan claims Armenians seized a key town**
*www.nytimes.com*

# AZƏRBAYCANIN İDDİASINA GÖRƏ ERMƏNİLƏR ONLARIN ƏSAS ŞƏHƏRLƏRİNDƏN BİRİNİ ƏLƏ KEÇİRİBLƏR

Azərbaycan hökuməti bu gün bildirib ki, Dağlıq Qarabağın erməni qüvvələri İranla sərhəddə əsas şəhər olan Horadizi zəbt ediblər.[26]

Beynəlxalq təşkilatlar bu hücumun İran ərazisinə məcburi köçkün axınına səbəb olacağı barədə xəbərdarlıq ediblər.

Azərbaycan Müdafiə Nazirliyi bu gün erməni qüvvələrinin Horadizi zəbt etdiyini bildirib. "Horadizin işğalı Bakıdan 250 mil şərqdə yerləşən cənub-qərb regionunda 230.000 nəfərə yaxın məcburi köçkünün çıxış yolunu kəsə bilər", – mətbuat katibi söyləyib. O, deyib: "Minlərlə məcburi köçkünün qaçıb canını qurtarması üçün bu, yeganə təhlükəsiz yoldur".

Minlərlə qaçqın müharibə ərazisini tərk edərək, Bakıya yaxın yerlərdə məskunlaşıb. Horadiz ermənilərin əlində oldu-

ğundan, Araz çayı vasitəsilə İrana keçmək qaçqınlar üçün yeganə çıxış yolu ola bilər.

Ermənsitan anklavının[4] sözçüsü isə Horadizin tutulmasını inkar edib və Ermənistanın paytaxtında müxbirlərə bildirib ki, regionda heç bir hərbi əməliyyat aparılmayıb.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakıdakı rəsmisi Maykl Tçanz[37] şəhərin işğal olunduğunu təsdiq edə bilməyib, lakin o, qaçqınların yeni axını olacağı barədə xəbərdarlıq edib.

"Azərbaycanın cənubunda vəziyyət çox ciddidir," – cənab Tçanz telefonla bildirib. "Əgər Horadiz işğal olunubsa, bu o deməkdir ki, qaçqınlar üçün başqa çıxış yolu qalmır. Qaçqınlar İrana getməyə çalışacaq, ancaq Araz çayı geniş və dərindir, onların üzüb çayı keçə biləcəklərinə əmin deyiləm".

Azərbaycanlı müxbirlər keçən həftə Qubadlı[38] və Cəbrayıl[27] da daxil olmaqla, ölkənin cənubunda bir sıra şəhərin ermənilərin əlinə keçdiyini bildiriblər. "Azərbaycanın cənub-qərbində yerləşən və Ermənistanla sərhəddə olan Zəngilan[21] həftə ərzində atəşə tutulub" – müxbirlər söyləyiblər.

Keçmiş sovet respublikası Azərbaycanın tərkibində olan və müstəqillik əldə etməyə çalışan erməni anklavı Dağlıq Qarabağda azərbaycanlılar və ermənilər arasında baş verən 5 illik müharibədə minlərlə insan həlak olub.

"İTAR-TASS" Xəbər Agentliyinin məlumatına əsasən, Azərbaycan parlamenti separatçı ermənilərlə birbaşa danışıqların aparılmasına öz etirazını bildirib. Azərbaycan höküməti indiyə qədər bu döyüşün arxasında Ermənistanın olduğunu təkidlə söyləyir və bildirir ki, separatçılar əməllərinə görə cavab verməlidirlər.

Qırmızı Xaç Komitəsinin rəsmisi cənab Tçanz bildirib: "Azərbaycanlılar iki cəbhədə vuruşurlar. Bizdə olan məlumata

əsasən Ermənistandan olan ermənilər sərhəddi keçib və Zəngilanın bəzi kəndlərini işğal ediblər".

Bu il Dağlıq Qarabağda erməni qüvvələri azərbaycanlı sakinləri anklavdan qovub çıxarıb və Azərbaycanın qərb və cənubuna doğru, İran və Türkiyəni narahat edəcək şəkildə irəliləyiblər.

Cümə günü Türkiyənin Xarici İşlər Nazirliyinin təmsilçisi bildirib ki, Ermənsitanın Azərbaycana hücumu Türkiyənin təhlükəsizliyini təhdid edir və Türkiyə xəbərdarlıq üçün öz hərbi qüvvələrini Ermənistan ilə sərhəddə göndərib.

Türkdilli Azərbaycanı dəstəkləyən Türkiyə bu günə qədər müharibəyə hərbi müdaxilədən uzaq durub və münaqişənin həlli üçün beynəlxalq vasitəçiliyi dəstəkləyir.

Buna əlavə olaraq, Türkiyə hökuməti Azərbaycanla sərhəddə öz qoşunlarını yerləşdirən İranın məcburi köçkünlər üçün təhlükəsiz ərazi yaratmasını tələb edib. İran Ermənistan və Azərbaycanı münaqişəni həll etməyə çağırır.

**Tarix: 11.12.1993**
**Mənbə: The Economist**
**(İngiltərə)**
**Məqalənin adı: The bear pauses: Azerbaijan**
***www. economist.com***

## AYI FASİLƏ EDİR: AZƏRBAYCAN

Azərbaycan Rusiyanı erməni hərbi qüvvələrini Dağlıq Qarabağdan çıxarmağa meylləndirməyə cəhd edir. Azərbaycan Rusiya ilə Xəzər dənizində milyardlarla barrel nefti əhatə edə biləcək neft-kəşfiyyatı müqaviləsi imzalayıb. Rusiyanın bu müəssisədə 10% payı var.

Ruslar bildirirlər ki, cənubda yerləşən keçmiş sovet respublikalarında onların maraqları yalnız strateji xarakter daşıyır və hamının xeyrinədir. Azərbaycanda baş verən son hadisələr bunun əksini göstərir. Noyabr ayında bu ölkənin Dövlət Neft Şirkəti Rusiyanın "LUKoil" şirkəti ilə gizli müqavilə imzalayıb və Xəzər dənizinin dərinrinliklərində milyardlarla barrel neft hasilatına aid planda ruslara 10%-lik pay verdiyi güman edilir.[39]

"British Petroleum"un rəhbərlik etdiyi qərb konsorsiumu qazma işlərinə tezliklə başlamaq üçün razılaşma imzalamağa ümid edirdi. Bakıdakı hökumət isə barmaqlarını oynadır və onlar artıq gələn ilə qədər yekun razılaşmanın olacağını gözləmirlər. Neft şirkətləri gecikməni əsasən Rusiya ilə əlaqələndirirlər.

Azərbaycan qərblilərin istifadə edə biləcəyi ərazini davamlı olaraq azaldıb; üç sahə iki olub, onların hər birində payların dörddə biri qəbul edən tərəfin hökumətinə ayrılıb. Bu, Rusiyanın payıdır. Bakıdakı diplomatlar bildirirlər ki, Azərbaycan hökuməti, Azərbaycanda ermənilərin məskunlaşdığı (və nəzarət etdiyi) Dağlıq Qarabağ anklavı[4] ətrafında münaqişənin tənzimlənəcəyi təqdirdə, ruslara 10%-dən çox pay verəcəyini vəd edib. Başqa sözlə, ruslar Dağlıq Qarabağı və ermənilərin işğal etdiyi digər əraziləri Azərbaycanın nəzarətinə qaytara bilsələr, mükafatlandırılacaqlar.

Ermənilər Qarabağdakı dağları aşaraq, ətraf düzənliklərə doğru irəliləyiblər və hazırda Azərbaycanın təxminən beşdə birini ələ keçiriblər. Onlar Azərbaycan-İran sərhədinin təqribən 100 kilometr (60 mil) hissəsinə nəzarət edirlər, 1 milyon nəfərə qədər mülki vətəndaş – azərbaycanlı əhalinin hər yeddi nəfərindən biri – müharibə nəticəsində köçkün düşüb. Azərbaycan Prezidenti Heydər Əliyev[1] etiraf edir ki, nə BMT-nin, nə də Qərbin hər-hansı qurumunun heç bir təzyiqi ermənilərin daha çox torpaq işğal etmələrinə mane ola bilmir. Ermənilər də hesab edirlər ki, yalnız Moskva döyüşləri dayandıra bilər. Bakıda çoxları hesab edir ki, cənab Əliyev neft razılaşmasından başqa, Azərbaycanda rus bazaları və İran sərhədində rus qoşunlarının yerləşdirilməsi barədə də vəd verib.[40] Bu, Rusiyanı Ermənistana qarşı Azərbaycanın yanında olmağa inandırmaq üçün kifayət edə bilərdi.

Hələlik cənab Əliyev sentyabrda, Rusiyanın üstünlük təşkil etdiyi Müstəqil Dövlətlər Birliyinə[35] qoşulmaq qərarından və ya bu ilin əvvəlində ordudakı qiyamdan və hakimiyyəti millətçi sələfindən aldıqdan sonra Moskva ilə bağladığı digər razılaşmalardan başqa heç nə göstərə bilmir. Ermənilər irəliləmək-

də davam edir, azərbaycanlılar evlərini itirməkdə davam edir və iqtisadiyyat pisləşməkdə davam edir.

Prezident Əliyev, görünür, Zaqafqaziyada hamı kimi hesab edir ki, Rusiya regiondakı problemləri həll etmək gücündədir. Bu kifayət qədər yanlış ola bilər. Belə olsa və ermənilər hücumlarını davam etdirsələr, Azərbaycan tamamilə parçalana bilər.

**Müəllif: Lyle Goldstein**
**Tarix: 1993**
**Mənbə: EBSCO (ABŞ)**
**Məqalənin adı: Flashpoint**
*www.ebsco.com*

# QAYNAR NÖQTƏ

Qafqazdakı münaqişə şiddətlənə bilər. Amerika Birləşmiş Ştatları bu ana qədər Bosniyaya hərbi müdaxilədən çəkinsə də, prezident Bill Klinton[41] və dövlət katibi Uorren Kristofer[42] keçmiş Yuqoslaviyada müharibənin[43] genişlənməməsi və bölgəyə yayılmaması üçün qətiyyətli olduqlarını açıq şəkildə bildiriblər. Bu yay, Balkan müharibəsi zonasında vəziyyəti sabitləşdirmək məqsədilə Makedoniyaya ABŞ-nin kiçik hərbi kontingenti göndərilib. Bir çoxları daha qətiyyətli addımların atılması ideyasını müdafiə edir, amma bu kiçik addım belə, Şərqi Aralıq dənizi bölgəsindəki beynəlxalq qarşıdurmanın qarşısını almaqda və ya ən azından söngitməkdə ABŞ-nin maraqlı olduğunu ortaya qoyur.

ABŞ rəsmiləri Qafqazdakı oxşar vəziyyətə xüsusi diqqət ayırmayıblar. Ermənistanla Azərbaycan arasındakı müharibə, üç narahat regional gücün – Rusiya, Türkiyə və İranın sərhədləri yaxınlığında yaşanır. Keçmiş Sovet İttifaqının cənub cinahında baş verən hadisələrə bir çox qüvvələr qoşulub, lakin böyük dövlətlərin bu müharibəyə cəlb olunmaması üçün diplomatik tədbirlər az görülüb. Mədəni əlaqələr, neft daxil olmaqla, qiymətli təbii sərvətlər Rusiya, Türkiyə və İranı fərqli şəkildə hərə-

kət etməyə təhrik edir. ABŞ və onun Qərb müttəfiqləri münaqişəni dayandırmaq üçün hərəkətə keçməsələr, bu üç regional gücün bəzi birləşmələri arasındakı toqquşma bütün Avropa və Yaxın Şərq üçün təhlükə yarada bilər.

Bölgədə Türkiyə və Rusiyanın bəzi son təşəbbüsləri hər iki gücün müharibənin böyüməsi potensialından xəbərdar olduğunu nümayiş etdirir. Bu dövr ərzində erməni qüvvələri Azərbaycan ərazisinin 20 faizini tutublar.

**Hadisələrdən kənarda**

Türkiyə və İran xristian ermənilərin müsəlman azərbaycanlılara qarşı bu hücumunu dayandırmaq problemi ilə qarşı-qarşıyadır. Hər iki güc Ermənistan hökumətinə sərt xəbərdarlıqlar edir. Türkiyə Parlamentinin sədri Hüsaməddin Cindoruk[44] aprel ayının əvvəlində radio verlişlərinin birində, erməni təcavüzünə qarşı hərbi cavab verməyi istisna etmədiklərini söyləyib. Eyni zamanda, "Müdafiə Xəbərləri" yaxınlıqdakı türk hərbi qüvvələri haqqında məlumat verib: "Ankara tanklar və mexanikləşdirilmiş birliklər göndərib və Ermənistanla şərq sərhədləri boyunca istənilən fövqəladə vəziyyətə hazırlaşmaq üçün qoşunları hazır vəziyyətə gətirib". Türk rəsmilərin iddialarına görə, Qafqazdakı qarşıdurma hökuməti müdafiənin modernləşdirilməsi haqqında 12 milyard dollarlıq proqramın maliyyələşdirilməsini artırmağa məcbur edə bilər. Aprelin ortalarında Ermənistan Müdafiə Nazirliyi türkləri Azərbaycana silah göndərməkdə və hərbi məsləhətlər verməkdə günahlandırıb, Ermənistanın hava məkanına keçən türk təyyarələrini vurmaqla hədələyərək, böhranı daha da dərinləşdirib. May ayının ortalarında erməni qüvvələrinin Türkiyə ilə Azərbaycanı birləşdirən dar və həssas Naxçıvan koridoruna hücumu, Türkiyəni,

onu Naxçıvandan ayıran Araz çayı üzərində, alternativ vasitə kimi, bir körpü inşa etməyə sövq edib.[45]

Azadlıq Radiosunun verdiyi məlumata görə, İran və Türkiyə ermənilərə təzyiq etməyin yollarını müzakirə ediblər. Eyni mənbə, aprel ayında İran parlamentinin Azərbaycana "mənəvi və maddi dəstəyi" artırmaq üçün səs verdiyini bildirib. Ermənilərin sentyabr ayının əvvəllərindəki hərbi qələbələri İranı öz qoşunlarını şimal sərhədinə köçürməyə məcbur edib. "Washinqton Post" qəzetinə istinad edən "İslam Respublikası Xəbər Agentliyi" vəziyyəti belə şərh edib: "Əgər sülh və sərhəd təhlükəsizliyimiz təhdid edilərsə ... liderlərimiz vəziyyətin öz-özünə düzəlməsini gözləyə bilməzlər".

Rusiya Azərbaycana oxşar xəbərdarlıq etməyib, lakin Rusiyanın Ermənistanla üstüörtülü müttəfiqliyinə də ciddi etiraz olunmayıb. Boris Yeltsin[32] iyun ayında etdiyi çıxışların birində Rusiyanın xaricdə hərbi bazalar şəbəkəsinin formalaşdırılması sxemini təsvir edib və bu, Rusiyanın Ermənistanda uzunmüddətli baza yaratmaq planını göstərir. Ancaq Rusiya Azərbaycanın onların ermənilərə həm qoşun, həm də silah verdiyinə dair ittihamlarını davamlı olaraq rədd edir.[46]

Bu isti atmosferdə həm Rusiya, həm də Türkiyə müharibənin genişlənməməsi üçün bəzi addımlar atıblar. Azadlıq Radiosuna görə, aprel ayında sərhəddə türk hərbi qüvvələrinin toplanmasına baxmayaraq, o vaxtkı baş nazir Süleyman Dəmirəl,[47] Türkiyənin hərbi münaqişəyə müdaxilə məsələsinə "o heç bir şeyi həll etməyəcək, çünki digər millətlər daha sonra Ermənistana kömək edəcəklər" sözləri ilə yekun vurub. Qafqazda atəşkəsə nail olmaq üçün Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) səyləri Türkiyə, Rusiya və Amerika Birləşmiş Ştatları tərəfindən dəstəklənir. Sentyabr ayının əvvəl-

lərində Rusiya və Türkiyə "münaqişə tərəflərinin və qonşuların bunu beynəlxalq mübahisəyə çevirmələrinin qarşısını almaq üçün" öz aralarında "qaynar xətt" və ya "böhran rabitəsi yaradacaqlarını elan ediblər", – "Washinqton Post"a məlumat verən Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü belə deyib.

Bütün bunlar həm Rusiyanın, həm də Türkiyənin vəziyyətin təhlükəli durumundan narahat olduqlarını nümayiş etdirir. Qərb hərtərəfli regional razılaşma əldə etmək üçün bu ölkələr üzərindəki təsirindən istifadə edərək, hadisələrə müdaxilə etməlidir. Xüsusilə, hazırda susqun görünən ABŞ diplomatiyası diqqəti müharibə əməliyyatları aparan iki ən güclü müttəfiqinə yönəltməlidir. Qafqazda vəziyyət dəyişdikcə, xarici güclərə müraciət etmək halları da artacaqdır. Məsələn, Azərbaycan bu yaxınlarda kömək üçün İrana müraciət edib. Azərbaycan Müdafiə Nazirliyinin sentyabr ayında hazırladığı bir hesabatda qeyd olunur: "Bu anda erməni qoşunları İran sərhədindən on kilometr məsafədədir".

Etnik, dini və mədəni görüşlərlə fərqlənən iki güclü bloka bölünmə göz qabağındadır. Harvard Universitetinin professoru Samuel P.Hantinqton[48] Qafqaz və keçmiş Yuqoslaviya müharibələri arasında əlaqələr qurur. 1993-cü ilin yayında baş verən hadisələrlə bağlı Hantinqton yazır: "İslamın şimal sərhədində, ortodoksal və müsəlman xalqlar arasında qarşıdurma getdikcə alovlanıb". O, həmçinin qeyd edir ki, "Dini etnik vahidlərin canlanması güclənir və cənub sərhədlərinin təhlükəsizliyi ilə bağlı Rusiyanın qorxuları artır". Bu baxımdan, Rusiya ilə Türkiyə arasındakı qarşıdurma, öz dinləri və mədəniyyətləri ilə bölgəyə hakim olmaq uğrunda əsrlər boyu davam edən mübarizənin davamı kimi görünür. İranın müsəlman dünyasında liderlik uğrunda Türkiyə ilə rəqabəti bu tənliyi xeyli dərəcədə çətinləşdirir.

Bu üçtərəfli münasibətlərin təhlili üçün güclərin hər birinin Qafqazdakı mənafelərinin diqqətlə araşdırılması tələb olunur.

**Türkiyənin hadisələrin axınına uyğun davranışı**

Türkiyənin Qafqazdakı hadisələrdə iştirakı, onun olduqca mürəkkəb xarici siyasətində görünür. Tikanlı kürd məsələsindən əlavə, düşmən qonşuları olan İraq, Suriya və Yunanıstan yeni dünya düzənində güclü bir təhlükəsizlik mühiti tələb edir. Avropa Birliyinə üzvlük məsələsində Avropa tərəfindən sıxışdırılan Türkiyə, Qərbi Avropa Birliyi ona ortaq status verdikdən sonra yumşaldı. Fars körfəzində müharibə zamanı İraqa qarşı davamlı müqavimət göstərdiyinə görə, Türkiyə əhəmiyyətli maddi mükafat alsa da, ABŞ ilə münasibətlər qeyri-sabit olaraq qalır. Türkiyəyə ayrılan qrantlar 1992-ci ildə ABŞ Konqresi tərəfindən kreditlərə çevrildi və bu dəyişiklik Türkiyənin xarici borcuna 450 milyon dollar əlavə etdi. Bu itkilər Türkiyəyə silah transferləri ilə ödənildi. Buna baxmayaraq, NATO-nun Yuqoslaviyadakı zəifliyi, Körfəz müharibəsi zamanı mövcud olan uğurlu ABŞ-Türkiyə hərbi ittifaqının ABŞ tərəfindən tam leqallaşdırılmaması, Qərblə güclü əlaqələri olmayan Türkiyəni bir qədər geridə qoyub.

Bu səbəblər Türkiyənin Şərqə üz tutmasını izah etməyə kömək edə bilər. 1992-ci ilin sonlarında Türkiyənin həm Pakistan, həm də Çin Xalq Respublikası ilə müdafiə sahəsində əməkdaşlıq müqavilələri imzalaması önəmli hadisələrdir. Əlbəttə ki, Türkiyənin əsas diqqət mərkəzində keçmiş Sovet İttifaqının Orta Asiya dövlətləri durur. Tanınmış türk liderlər bölgələri gəzərək, yeni dövlətlərə borc şəklində, ümumi dəyəri 1.25 milyard dollara bərabər yardım ediblər. 1992-ci ildə Türkiyənin müdafiə naziri Nevzat Ayaz[49] "Defence News"a verdiyi müsa-

hibədə Orta Asiyanın yeni dövlətləri ilə ortaq müdafiə siyasətini istisna edib, ancaq, xüsusilə bu dövlətlərin yeni milli silahlı qüvvələrinin hazırlanması ilə bağlı hərbi işbirliyinin olduğunu söyləyib. Ayazın sözlərinə görə, Türkiyə hərbi akademiyaları Orta Asiyalı tələbələri qəbul etməyə başlayıb. 1992-ci ilin sonlarına aid kəşfiyyat xəbərlərinin icmalında gizli hərbi təchizat əməliyyatlarının da gözlənildiyi bildirilir.

Türklərin Qafqazdakı mədəni, maliyyə, diplomatik və hərbi təşəbbüsləri üçün dörd əsas motiv məlumdur: daxili siyasət, neft, beynəlxalq nüfuz və ərazi. ABŞ-nin Türkiyədəki keçmiş səfiri Morton Abramovitz[50] bu yaxınlarda "Foreign Policy"də yazdığı kimi: "Orta Asiyaya göstərilən münasibət dünyada tək olduqlarına inanmağa vərdiş etmiş türklərə millətçi damğası vurdu. Siyasətçilər və mətbuat Türkiyənin Orta Asiyadakı roluna şişirdilmiş təsəvvürlər qatdı". "Orta Asiyanın sovet boyunduruğundan qurtuluşu türk millətçiliyini alovlandırdı", onun təsirləri Türkiyənin daxili siyasətində də özünü göstərir. Verdiyi müsahibədə, fundamentalist Rifah Partiyasının aparıcı üzvü Oğuzxan Asiltürk,[51] partiyasının hakimiyyətə gələcəyi təqdirdə, Azərbaycan adından hərbi müdaxilə edəcəyini söyləyib. 1992-ci ilin noyabr ayında keçirilən seçkilərdə Asiltürkün partiyası 23 bələdiyyədə orta hesabla 24,7% səs qazanıb. Aberdin Universitetinin professoru və NATO mütəxəssisi Ceymz Vili türk hökumətinin, məsələn, Bosniyada iddialı xarici siyasət yürütməli olduğunu söyləyir, çünki bu kimi məsələləri qəsb etmək üçün fundamentalist hərəkatlara icazə verilməməlidir.

Ticarət perspektivləri və xüsusilə də neft, Türkiyənin Qafqazdakı maraqlarına daxildir. Azərbaycan təxminən 4,5 milyard barrel neft ehtiyatlarına malikdir. Abramovitzə görə,

Türkiyə tranzit ödənişlərindən, boru kəmərlərinə, terminallara, neft emalı zavodlarına, həmçinin neft sənayesinə xidmətlərdən, tədarüklə əlaqəli nəqliyyat və maliyyədən faydalanmağa can atır. Bir boru kəməri layihəsinin yerinə yetirilməsi davam edir və 1995-ci ilə qədər tamamlanması gözlənilir. Fars Körfəzindəki müharibə və müharibədən sonrakı qeyri-sabitlik Fars Körfəzindəki neftdən asılılığı azalda bilər. Bu boru kəməri, Azərbaycanın bütövlüyünün və sabitliyinin təmin edilməsində Türkiyəyə artan strateji marağın göstəricisidir.

Nəhayət, nüfuz və ərazi məsələləri ilə bağlı suallar Qafqazda erməni zəfərinin perspektivinə türklərin həyəcanla baxmasına səbəb olur. Azərbaycanın məğlub olacağı təqdirdə Türkiyənin regional güc statusu açıq şəkildə zərbə alacaqdır. Belə bir məğlubiyyət türk diplomatiyasının uğursuzluğunu və yaxın müttəfiqlərinə silahlı kömək etmək istəməməsini ortaya qoyacaqdır. Üstəlik, türklər Ermənistanın Türkiyənin şimal-şərqindəki ərazilərə tarixi iddialarını irəli sürə biləcəyindən qorxurlar.

**İmperiya həsrəti**

Təcavüzkar bəyanatlar Rusiyanın Orta Asiyadakı nüfuzunu islam güclərinə təslim etmək istəmədiyini göstərir. Əlbəttə ki, xristianlıq Rusiyanı Gürcüstan və Ermənistanla birləşdirir, lakin onun bölgədəki mövcud maraqları sabitlikdir. Rusiyanın ABŞ-dakı səfiri Vladimir Lukinin[52] 1992-ci ilin payızında yazdığı məqalədə bu narahatlıqlar açıq şəkildə göstərilmişdir. O, postsovet Orta Asiya və Qafqaz haqqında yazır: "Rus nöqteyi-nəzərindən, tarixən qeyri-sabit olan ərazilərdəki xaotik vəziyyət ciddi təhlükələr yaradır. Bunlar, idarə olunmayan qaçqın axını, xarici ölkələrin etnik münaqişələrə, xüsusən də ermənilər və azərbaycanlılar arasında olan əlaqələrə təsiri, bu bölgələrdə yaşayan etnik ruslar üçün təhdidlər və hətta Rusiya sərhədləri

üçün potensial bir təhlükənin olmasıdır". Əlbəttə ki, bu narahatlıqlar islam fundamentalizminin yayılması qorxusu ilə əlaqədardır. Lukin bildirir ki, xüsusilə Azərbaycanda və Orta Asiyanın bəzi bölgələrində islam təməlçiliyinin dirçəlişi, yalnız Rusiyaya düşmən ünsürlər yaratmır, həm də Rusiyanın öz müsəlman bölgələrində əks-səda doğurur. Bəzi şərhçilər Rusiyanın bu narahatlığının Qafqazdakı türk təsirindən daha çox İran təsirindən qaynaqlandığını düşünürlər. Rusiya Xarici İşlər Nazirliyinin sentyabr ayının əvvəlində verdiyi açıqlamada "silahlı iranlıların Azərbaycan sərhədindən keçməsinə icazə verilməməsi" barədə Tehrana xəbərdarlıq edilib. Bu narahatlıqlar və sonrakı xəbərdarlıqlar Kremlin Qafqazı öz təsir dairəsində hesab etdiyini göstərir. Harvard Universitetindəki Rusiya Tədqiqat Mərkəzinin direktoru, professor Timati Kolton[53] bu yaxınlarda verdiyi bir müsahibədə deyib: "Bir çox ruslar Qafqazı öz ölkələrinin və mədəniyyətlərinin bir hissəsi hesab edirlər. Rusiyanın uzaqlaşması çətin olacaq".

Rusiyanın Qafqaza cəlb olunmasının digər bir səbəbi yaxın tarixdən qaynaqlana bilər. Son iki ildə Ukrayna ilə yanaşı, Azərbaycan hökuməti də Müstəqil Dövlətlər Birliyinin[35] hərbi komandanlığının ləğv edilməsinə səy göstərir.[54] Azərbaycan, əvvəlcə, milli silahlı qüvvələr yaratmaq üçün mübarizə aparan üç respublikadan biri idi. Bu prinsip 1992-ci ilin dekabrında imzalanan Minsk Sazişində qeyd edilib. Bu kiçik dövlət də Ukraynaya qoşularaq, MDB-nin baş komandanı, marşal Yevgeni Şapoşnikovun[55] iki illik hərbi islahatlar planını rədd etmişdir. MDB-yə yeni güclərin əlavə edilməsi səylərinə qarşı çıxan Azərbaycan keçmiş Sovet İttifaqı boyunca Rusiyanın gücünün azaldılmasına xidmət edir. Sovet dövrü Rusiya ordusunun güc

və nüfuzunun həsrəti Rusiyanın Qafqazdakı davranışını izah etməyə kömək edə bilər.

Bu cür mülahizələr Azərbaycanın demokratik yolla seçilmiş prezidenti, keçmiş dissident, millətçi Əbülfəz Elçibəyə[8] qarşı son çevrilişdə[9] Rusiyanın da yer ala biləcəyi barədə fərziyyələrə səbəb olub. Bakıda hakimiyyət uğrunda mübarizədə köhnə Kommunist Partiyası və Təhlükəsizlik Komitəsinin rəhbəri Heydər Əliyevin[1] fəaliyyəti daha çox maraq doğurur. İyun ayının sonlarında "Washinghton Post" qəzetində nəşr olunan bir məqalədə bildirilir ki, "Prezidentə qarşı döyüş Rusiya silahları ilə aparıldı" və xəbərdarlıq edilir: "Yeltsin hökuməti çətin vəziyyətdədir. Bu halda Rusiya xaos yaratmaq iqtidarında deyil".

Elçibəyə qarşı çıxış mühüm bir anda meydana gəldi. Prezident iyunun sonunda, "Britiş Petrolium", "Penzoil" və "Amoko" da daxil olmaqla, Qərb neft şirkətləri konsorsiumu tərəfindən Azərbaycanın üç neft yatağının işlənməsi barədə ilkin razılaşmaları imzalamaq üçün Londona uçmaq ərəfəsində idi. Bu danışıqlar təxminən 9 milyard dollar dəyərində bir müqavilə ilə əlaqəli idi. Bakıdakı siyasi qeyri-sabitlik hər hansı bir razılaşmanın bağlanmasını təxirə saldı. "Financial Times" qeyd edib: "Bu hadisələr şirkətləri müqavilə imzalamaqdan çəkindirdi". Azərbaycan liderlərinin əlindəki neft gəlirlərinin regional güc balansını qətiyyətlə dəyişdirə biləcəyi fikrini Rusiya və Ermənistan qəbul edə bilmirdi. Azərbaycanın mövcud hərbi problemləri təlim və rəhbərliklə əlaqəli olsa da, xarici hərbi məsləhətçilər və müasir silahlar şəklində hərbi güc əldə etməsi çox uzun çəkməzdi. Beləliklə, Rusiya və Ermənistan Azərbaycanın öz təbii sərvətlərindən istifadə edənə qədər özlərinin hərbi üstünlüyünü təmin etmək üçün böyük imkanlara sahibdirlər. Ancaq Azərbaycan döyüş meydanında məğlub olmaqda davam edər-

sə, İran və ya Türkiyənin, ya da hər ikisinin müdaxilə etmə ehtimalları qaçılmazdır.

**Etinasızlıq**

Son aylarda Ermənistanın Azərbaycana hücumu ilə bağlı həyəcanverici siqnallara baxmayaraq, İranın böhrana münasibətdə mövqeyi zahirən görünə biləcəyindən daha mürəkkəbdir. İranın həm Ermənistan, həm də Azərbaycanla tarixi əlaqələri var, çünki bunlar İranın, XVIII əsrin əvvəllərində Rusiya tərəfindən ələ keçirilən son hissələri idi. Buna əlavə olaraq, hazırda xeyli erməni və azərbaycanlı əhali İranda yaşayır və əlbəttə ki, İranın bu böhranda davranışlarına təsir göstərir. İran üzrə mütəxəssis, Harvard professoru Huşəng Çehabi[56] müsahibələrinin birində İranın əvvəlcə böhran vəziyyətində dürüst vasitəçi rolunu oynamağa çalışdığını, bir qədər erməni tərəfə meyl etdiyini qeyd edib. O, İran liderlərinin Ermənistana meylli olduqlarını iddia edir, çünki təcrid olunmuş Ermənistanın həm Amerika və Qərb maraqları üçün bir qalaya çevrilə biləcəyindən, həm də Türkiyənin Elçibəy vasitəsilə Bakıya təsirinin mümkün təhlükə olmasından qorxurdu. Çehabinin sözlərinə görə, İrana kütləvi qaçqın axını qorxusu İran diplomatlarını böhranın həllinə çalışmağa təşviq edib. İranlı diplomatlar 1991-ci ildə bir neçə həftə davam edən atəşkəsi təmin edə bilmişdilər.

1993-cü ilin yayında baş verən dağıdıcı erməni hücumları, İranın böhrandakı mövqeyini yenidən qiymətləndirməsinə səbəb oldu. Çehabi yazır: "Azərbaycan kəndləri bir-birinin ardınca dağıdıldıqca yüz minlərlə insan qaçqın oldu". "Bu bir İslam respublikasıdır; İran hökuməti bir şey etməli idi və buna görə siyasət ən azı ritorik səviyyədə daha çox anti-erməni halına gəldi". Elçibəyin hakimiyyətdən getməsi İranın Azərbaycanla münasibətlərində istiləşməyə də kömək etdi, çünki onun varisi

İranla daha çox işləmək arzusunu ifadə edib. Çehabi çoxsaylı və nüfuzlu Azərbaycan əhalisini sakitləşdirmək məqsədilə İranın son zamanlarda atdığı diplomatik addımları simvolik adlandırır. Bu jestlər İranın Ermənistanla müəyyən mədəni əlaqələri dayandırdığını və bəlkə də, daha ciddi şəkildə bölgədə hərbi manevr etdiyini göstərir.

Çehabi İranın digər regional güclərlə gərginliyini şişirtməməyə çağırıb. Məsələn, o, Türkiyə ilə İranın geniş iqtisadi və hətta məhdud təhlükəsizlik əlaqələrinin olduğunu qeyd edib. Çehabi, Hantinqtonun "Sivilizasiyaların toqquşması" adlı məqaləsində Qafqazla bağlı qeyd etdiyi qarşıdurmanın ikitərəfli çərçivəyə sığmayacağını iddia edir. Bununla birlikdə, o, Hantinqtonun öngörücülükdə "özünü asanlıqla doğruldan bir peyğəmbərə çevrilə biləcəyindən" qorxur, məqalənin böyük maraqla oxunduğunu və Tehrandakı paranoyaya aydınlıq gətirəcəyini qeyd edir. Aydındır ki, Qafqazdakı böhranın istənilən həll yolu İranın bölgədəki geniş nüfuzunun təsir dairəsində olacaqdır.

**Qəbul edilməyən risklər**

Qərb diplomatik təşəbbüsləri ehtiyatla davam etdirməlidir ki, üç böyük gücdən heç biri ögeylik duymasın, gücünü, təsir və etibarını qorumağı yeganə yol hesab etsin. Bu cür diplomatik addımın vacib nümunəsi ATƏM-in ABŞ, Rusiya və Türkiyənin ortaq şəkildə maliyyələşdirdiyi fəaliyyətində özünü göstərir.

İngiltərə-Amerika Təhlükəsizlik Şurasının baş analitiki Tasos Kokinides deyib: "İranı xaric və təcrid edən bir siyasət geri atəş aça bilər ... Qərb Türkiyə ilə İran arasında daha korporativ və daha az rəqabətli tənzimləməni təşviq etməlidir". Doğrudan da, müharibə ilə bağlı alovlandırıcı ən son açıqlamaları verən İrandır.

Uğuru təmin etmək üçün hər şey regional danışıqlar çərçivəsinə daxil olmalıdır. Bundan əlavə, danışıq tərəfləri Qafqaz tarixinin imperiya xarakterini nəzərə alaraq, bölgəyə yerləşdirilən sülhməramlı qoşunların Rusiya, Türkiyə və ya İrandan gəlməməli olduğunu qəbul etməlidirlər. Həqiqətən də, yalnız neytral qüvvələrə həm ermənilər, həm də azərbaycanlılar eyni dərəcədə etibar edə bilərlər. Rusiya Parlamentinin Xarici İşlər Komitəsinin rəhbəri Yevgeni Ambartsumov[57] avqustun ortalarında "keçmiş Sovet İttifaqında ABŞ-nin mübahisələrə vasitəçilik etməyə çalışmasının təhlükəli ola biləcəyini" söyləmişdi. Buna baxmayaraq, Klinton Administrasiyasının Moskvaya köməyi Rusiyanın yeni qonşularına qarşı davranışında nəzərə alınmalıdır.

Qərb Türkiyənin bölgədəki siyasətinə çox təsir edə bilər. Qərbin Türkiyəyə silah axınının qarşısını alması Qafqazda beynəlxalq gərginliyi azaltmaq üçün vacib addım olar. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu tərəfindən hazırlanan məlumatlara görə, Türkiyə 1993-cü ildə dünyada ikinci ən böyük silah idxalçısı olub. Türk müdafiə qüvvələri, Avropada Adi Silahlı Qüvvələr haqqında Müqaviləyə uyğun olaraq, silah sistemlərini mərkəzdən cənub bölgələrinə köçürən NATO-nun "Cascade" proqramından bəhrələniblər. Onlar çox sayda tank və zirehli personal daşıyıcısı, F-16 qırıcısı, A-10 hücum təyyarəsi, "Blackhawk" helikopterləri və "Stinger" zenit raketləri kimi yüksək texnoloji silahlara malik oldular.

Geniş hərbi modernləşdirmə proqramı yalnız Moskva və Tehranı qarşı-qarşıya qoya bilər. Türkiyənin düşmən qonşular ilə əhatə olunduğu doğru olsa da, hazırkı vəziyyət Fars Körfəzi müharibəsinin qalığıdır. Bu silah ötürməsini nə İraq, nə də Suriyanın təhdidi dayandıra bilməz. Qərbin silah ötürmə siyasəti,

Türkiyənin hərbi qabiliyyətinin güclənməsi Qafqazda daha geniş hərbi əməliyyatlar təhlükəsini artıra bilər.

Yalnız üçtərəfli münasibətlərin diqqətlə idarə olunması Qafqazdakı münaqişəni effektiv şəkildə həll edə bilər. Bu böhranın alovlanmasına imkan vermək, bölgədə böyük güclərin qarşıdurması riskini artırmaq deməkdir. Bu, beynəlxalq təhlükəsizlik və sabitlik üçün açıq şəkildə təhlükə yarada bilər.

**Müəllif: Steve Levine**
**Tarix:1993**
**Mənbə: EBSCO (ABŞ)**
**Məqalənin adı: When the victim becomes the bully**
***www.ebsco.com***

# QURBAN ZORAKIYA ÇEVRİLƏNDƏ

Ermənilər ənənəvi olaraq tarixin qurbanları sayılırlar, lakin görünür, indi onlar ssenarini yenidən yazmaq niyyətindədirlər. Son yeddi ayda erməni qoşunları və tankları Azərbaycan torpaqlarını işğal edərkən, serblərin Bosniyada etdiklərini də üstələdilər. Erməni yaraqlılarının kökləri Azərbaycanın tərkibindəki mübahişəli ərazi olan Dağlıq Qarabağa[12] dayanır və onlar artıq qana batırdıqları vətənlərində tamamilə möhkəmləniblər. Keçən ay cənuba – İran sərhədinə doğru irəliləyərək, 60.000 nəfərdən çox azərbaycanlı mülki vətəndaşı Araz çayı üzərindən İrana qovdular və boş qalan kəndləri qarət edərək yandırdılar. Qaçqın Solmaz Məmmədova deyir: "Dünya ermənilərə kömək etməkdən utanmalıdır".

On illərlə davam edən repressiv sovet hakimiyyətindən sonra ermənilərin keçmiş düşmənləri olan azərbaycanlılar bu respublikanı blokadaya alıb.[58] Yerevanda 1.5 milyon sakin elektrik enerjisi, ərzaq qıtlığı və isti su çatışmazlığı ilə ardıcıl olaraq beşinci qışı yaşayır. İndi bu "əbədi məzlumlar" Azərbay-

can ərazisinin dörddə birini işğal edib və Azərbaycanda az qala bir milyon mülki vətəndaş evini tərk etmək məcburiyyətində qalıb. ABŞ hökuməti də daxil olmaqla, Ermənistanın Vaşinqtondakı güclü lobbisinin dostları bundan dəhşətə gəliblər. Dövlət Departamentinin yüksək vəzifəli rəsmisi deyib: "İndi biz görürük ki, onlar qarşılarına çıxan hər bir kəndi sistemli şəkildə məhv edirlər. Bu, vandalizmdir".

Azərbaycan hökumətinin çöküşü Ermənistanın son uğurlarının çox hissəsini təmin edib. Son iki ildə Bakıda beş hökumət devrilib. Ruhdan düşən Azərbaycan qoşunları silah və zirehli texnikanı geridə qoyaraq, ermənilərin gəlişindən əvvəl mülki insanlarla birlikdə qaçıb. Bakıda olan bir qərbli səfir deyir: "Heç kim qaçan ordudan daha sürətli gedə bilməz". "NEWSWEEK"in məlumatına görə, hərbi tarazlığı bərpa etmək üçün bu yaxınlarda Azərbaycana 200 nəfər rusiyalı məsləhətçi gəlib.[59]

Ermənistanda heç də hər kəs bu hücumları dəstəkləmir. İllərdir Azərbaycanın atəşinə dözən Dağlıq Qarabağ əsgərləri[60] çəkdikləri əziyyətin əvəzində sərt intiqam almağa çalışırlar. Prezident Levon Ter-Petrosyan[61] da daxil olmaqla, Yerevandakı ermənilər isə elektrik enerjisinin yenidən bərpasını daha çox istəyirlər. Amerikalı erməni humanitar yardım işçisi deyib: "Bu kritik şəraitdə hücum artıq mənasızdır". Ermənistanın təcavüzü onun ABŞ-dən 176 milyon dollar dəyərində humanitar yardım almasına əngəl olmayıb. İndi Vaşinqton Azərbaycana da humanitar yardım göndərməyə başlayıb. Ermənistan beynəlxalq rəğbəti əldən verdiyini artıq başa düşür.

**Müəllif: Besik Urigashvili**
**Tarix: 01.02.1994**
**Mənbə: Bulletin of the Atomic Scientists (ABŞ) (Vol.50, Issue 1)**
**Məqalənin adı: The Transcaucasus: blood ties**
***www*.thebulletin.org**

# ZAQAFQAZİYA: QAN BAĞLARI

Yunanlar Zaqafqaziyanı "qızıl ölkəsi" kimi tanıyırdılar. Rəvayətə görə, insanlara od verən yunan tanrısı Prometey Qafqaz dağlarına zəncirlənmişdi. Əhdi-Cədid daşqından sonra Ağrı dağında dayanan Nuhun gəmisindən bəhs edir. Bu bölgə xristian mədəniyyətinin beşiyidir. Ermənistan və Gürcüstan xristianlığı IV əsrin əvvəllərində, Yunanıstan və ya Romadan əvvəl qəbul ediblər.[62]

Burada qonşu ərazilərdə yaşayan müxtəlif xalqların mədəniyyət və adət-ənənələri maraqlı və qeyri-adi şəkildə birləşib. Şərqə gedən həyati əhəmiyyətli ticarət yolları Zaqafqaziyadan keçirdi. Mühüm coğrafi mövqeyinə, gözəl və gur təbiətinə görə, Zaqafqaziya təbii olaraq, böyük dövlətləri özünə cəlb edirdi. Ərəblər, monqollar, farslar, daha sonra türklər və ruslar bölgəni ələ keçirməyə çalışırdılar. Nəticədə, Zaqafqaziya heç vaxt sülh içində yaşamayıb. Bölgənin tarixi fəthlər, müharibələr və daxili qarşıdurmaların tarixidir.

Bu gün Zaqafqaziya postsovet məkanında ən qeyri-sabit regiondur. Münaqişələrin birincisi 1988-ci ildə, Ermənistanın

Azərbaycandakı anklavı olan Dağlıq Qarabağda[4] başlayıb. O vaxtdan bəri müxtəlif münaqişələrdə 100 min nəfərdən çox insan həlak olub. Yüz minlərlə insan evlərini itirib, 1,5 milyona yaxın insan isə qaçqın vəziyyətinə düşüb. Qarabağda müharibə, əhalisinin əksəriyyətini ermənilər təşkil edən Dağlıq Qarabağ Muxtar Vilayətinin vilayət Şurası Azərbaycandan ayrılaraq Ermənistana birləşmək barədə qərar qəbul etdikdən sonra başlayıb.[63] Bu qərar 1978-ci il, respublikanın sərhədlərinin yalnız respublikanın özü dəyişikliyə icazə verəcəyi təqdirdə dəyişdirilə biləcəyinin qeyd olunduğu sovet konstitusiyası kontekstində qeyri-qanuni idi. Bununla belə, ermənilər aşkarlığın, yenidənqurmanın başlamasından ruhlanmışdılar və Qorbaçovun[64] liberallaşma siyasəti isə tarixi ədalət hissinə istinad edirdi. Onlar Qarabağın qədim zamanlardan erməni torpağı olduğunu[65] və Stalin[66] tərəfindən zorla Azərbaycana birləşdirildiyini[67] iddia edirdilər. Amma unudublar ki, son əsr yarım ərzində, 1918-ci ildən 1921-ci ilə qədər qısa bir dövr istisna olmaqla, nə Azərbaycan, nə Ermənistan, nə də Gürcüstan müstəqil dövlətçiliyə malik olmayıblar. Onlar XIX əsrin əvvəllərindən Rusiya imperiyasının əyalətləri olublar.

Neft iddiasında olan tərəflərin arqumentləri əsrlər boyu nə qədər tutarlı olsa da, onların Dağlıq Qarabağa iddiaları yalnız müharibəyə gətirib çıxara bilərdi. Millətçilik fonunda baş verən istənilən müharibə isə millətçiliyin qızışmasına gətirib çıxarır. Siyasətçilər öz məqsədlərinə çatmaq üçün millətçiliyə əl atmaqdan çəkinə bilmirlər. Zaqafqaziyadakı münaqişələr bu qaydanı sübut edir.

Qarabağ münaqişəsinin ardınca Gürcüstanın şimal-şərqində muxtar bölgə olan Cənubi Osetiyada münaqişə başladı.[68] Müharibə 1990-cı ilin dekabrında başlayıb. Buna təhrik edən,

bir tərəfdən Zviad Qamsaxurdiyanın[69] millətçi administrasiyası, digər tərəfdən isə Moskvadakı imperialist qüvvələr olub. Moskva hələ də Müstəqil Dövlətlər Birliyinə[35] daxil olmayan müstəqil Gürcüstanı zəiflətmək üçün osetin separatçılarını dəstəkləyir. Bu regionda ən son və ən qanlı müharibə Gürcüstanın şimal-qərbindəki gürcü-abxaz münaqişəsidir.[70]

Fərqli omalarına baxmayaraq, bütün bu müharibələr açıq şəkildə etnik və ərazi xarakterlidir. Müharibə edən tərəflərin hər biri "etnik təmizləmə"ni qəbul olunmuş praktika kimi qəbul edib. Qərbdə bu münaqişələrin dini xarakter daşıdığına inanılır. Bu düzgün deyil. Həm gürcülər, həm də osetinlər pravoslav xristianlardır: abxazların əksəriyyəti də xristiandır. Hər hansı dini ölçüyə malik olan yeganə münaqişə Ermənistan-Azərbaycan mübarizəsidir.[71] Azərbaycan isə islam fundamentalizminin yuvası deyil; köklü dünyəvi dövlətdir. Bu, fundamentalist İranın Ermənistanı dəfələrlə dəstəklədiyini göstərir. İranlılar bilirlər ki, islam fundamentalizminin Azərbaycanda böyük gələcəyi yoxdur. Zaqafqaziyadakı bütün müharibələr ərazi xarakterlidir.

Parçalanma prosesi davam edərsə, yeni münaqişələr yarana bilər. Məsələn, Gürcüstanda böyük erməni, azərbaycanlı və yunan anklavları var. Azərbaycanda böyük gürcü anklavı var. Azərbaycanın şimalında yarım milyon ləzgi yaşayır[72] və bu Şimali Qafqaz xalqının əksəriyyəti Rusiyanın tərkibindəki muxtar respublika olan Dağıstanda yaşayır. Bütün bu anklavlarda separatçı əhval-ruhiyyə bu və ya digər formada mövcuddur. Əgər bütün bu qüvvələr hərəkətə keçsə, təkcə Zaqafqaziya partlamayacaq. Türkiyə birbaşa münaqişəyə cəlb oluna bilər. Bu apokaliptik proqnoz deyil, real ehtimaldır. Bu ssenarinin yalnız bir alternativi var. Bütün ərazi iddialarına son qoyulma-

lıdır. Zaqafqaziyanın mövcud üç ölkəsində – Azərbaycan, Ermənistan və Gürcüstan ərazisində milli azlıqların hüquqlarına hörmət edilməli və onlar qanunla qorunmalıdır.

Son hadisələr göstərir ki, etnik qruplar tərəfindən müəyyənləşdirilən "tarixi hüquq" və "xalqın iradəsi" kimi arqumentlər tamamilə cəfəngiyyatdır. Rusiya regionda mühüm rol oynayır. Çox şey onun sözlərindən deyil, əməllərindən asılıdır. Rusiya Zaqafqaziya dövlətlərinin ərazi bütövlüyünü rəsmən tanıyıb. Eyni zamanda, "parçala və hökm et" qədim imperiya prinsipinə sadiq qalaraq, keçmiş müstəmləkələrində istənilən yolla separatizmi qızışdırır. Zaqafqaziya dövlətləri vahid iqtisadi və geosiyasi zonada yerləşir. Onlar bir-birinə lazımdır və onların Rusiya bazarına ehtiyacı var. Onların inteqrasiyası təbii proses olmalıdır və bu işdə əsas arqument polisin dəyənəyi və ya silah gücü deyil, azad bazar olmalıdır.

**Tarix: 05.02.1994**
**Mənbə: EBSCO (ABŞ)**
**Məqalənin adı: Azerbaijan**
***www.ebsco.com***

# AZƏRBAYCAN

**ABŞ-Azərbaycan əlaqələri.** 1991-ci ilin dekabrında Sovet İttifaqının dağılması "soyuq müharibə"yə son qoydu və siyasi və iqtisadi dəyişikliklərə başlayan yeni müstəqil dövlətlərlə ikitərəfli əlaqələr qurmaq imkanı yarandı.1992-ci ilin mart ayında ABŞ Azərbaycanın paytaxtı Bakıda öz səfirliyini açdı. Səfir Riçard Kozlariçdir.[73]

1992-ci ilin yanvarında ABŞ, yeni müstəqil dövlətlərin üzləşdiyi fövqəladə humanitar vəziyyətlə əlaqədar olaraq, Yeni Müstəqil Dövlətlərə Yardıma dair Əlaqələndirici Konfransın çağrılmasına təşəbbüs göstərdi. Nəticədə, 1992-ci ilin fevralında başlayan "Ümid Ver" əməliyyatı nəticəsində həmin dövlətlər son dərəcə vacib olan qida, yanacaq, dərman və sığınacaqla təmin edildi.

Birləşmiş Ştatlar Dağlıq Qarabağda, Azərbaycanın daxilində əsasən ermənilərin yaşadığı anklavda,[4] döyüşlərə son qoymaq üçün göstərilən səylərin gedişindən çox narahatdır və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin sülh prosesini irəlilətmək üzrə səylərində vacib rol oynayıb.

1992-ci ilin oktyabrında qəbul edilən "Rusiya və inkişaf etməkdə olan Avroasiya demokratiyaları və açıq bazarları üçün

Azadlığa Dəstək Aktı" ABŞ-nin yeni müstəqil dövlətlərlə davamlı əməkdaşlığının əsas elementidir. 1993-cü il sentyabrın 30-da Konqres yeni müstəqil dövlətlər üçün 2,45 milyard dollar həcmində, 1994-cü il büdcəsindən və 1993-cü ildə ayrılan əlavə maliyyə vəsaitləri hesabına maliyyələşdirilən yeni yardım paketini qəbul etdi və qüvvəyə minməsi üçün prezident Klinton[41] tərəfindən imzalandı. O, siyasi və iqtisadi dəyişikliklər və humanitar ehtiyaclarla məşğul olmağa davam edəcək.

"Azadlığa Dəstək Aktı", Azərbaycan höküməti "Ermənistan və Dağlıq Qarabağa qarşı bütün blokadaları və güc tətbiqi ilə hücumları" dayandırmaq üçün əyani addımlar atmayana və Prezident bunu müəyyənləşdirməyənə və Konqresə məlumat verməyənədək ABŞ hökümətinin Azərbaycan hökümətinə yardım etməsinə məhdudiyyətlər qoyur.[29]

Beləliklə, Azərbaycan xalqına humanitar və texniki yardım qeyri-hökümət təşkilatları vasitəsilə və ya yardım Azərbaycan hökümətinin cəlb olunmasını tələb etmirsə, birbaşa ABŞ höküməti tərəfindən göstərilə bilər. Azərbaycana yardım ciddi şəkildə məhdudlaşdırılıb.

1993-cü ilin dekabr ayında ABŞ Azərbaycana təxminən 34 milyon dollar dəyərində  humanitar və 2 milyon dollar həcmində texniki yardım göstərib. ABŞ-nin Azərbaycana yardımının əsasında, "Azadlığa Dəstək Aktı"na uyğun olaraq, icazə verildiyi kimi, humanitar yardım göstərilməsi və onun demokratiya və bazar iqtisadiyyatına keçidinə dəstək verilməsi dayanır.

**Humanitar yardım.** ABŞ, 1993-cü ilin qışında Azərbaycanda əhalinin ən zəif qruplarına qida,yanacaq, adyal və dərman yardımı göstərmək üçün Amerika özəl könüllülər təşkilatlarına 8 milyon dollar pul ayırıb. 1993-cü ilin noyabrında Azərbaycana BMT-nin Ümumdünya Ərzaq Proqramı çərçivəsində

iki fövqəladə reyslə göndərilən ərzaq paketlərinə əlavə olaraq, 20,000 ədəd sütkalıq humanitar təminat və 1,200 ədəd adyal hava yolu ilə çatdırılıb. 1993-cü ilin noyabrında ABŞ, Qafqaz regionunun bütün dövlətlərinə təcili zəruri ərzaq yardımının çatdırılmasını ləngidən uçuş problemlərinin həllinə kömək etmək üçün BMT-nin Ümumdünya Ərzaq Proqramına 1,6 milyon dollar vəsait ayırıb. BMT-nin Ümumdünya Ərzaq Proqramının Azərbaycan üçün etdiyi müraciətə əsasən, ABŞ təxmini dəyəri və daşınma xərcləri 772.000 dollar olan kərə yağı yardımı ayırıb.

1993-cü ilin avqust ayında ABŞ Azərbaycanda yaşayan məcburi köçkünlərə humanitar yardım göstərmək məqsədilə Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti və BMT-nin Qaçqınlar üzrə Ali Komissarının hər birinə 1 milyon dollar vəsait ayırıb. Əlavə olaraq, ehtiyacı olanlara, xüsusilə qaçqın və məcburi köçkünlərə paylamaq üçün 4000 adyal hava yolu ilə Bakıya çatdırılıb.

"Ümid Ver" əməliyyatı zamanı ABŞ Azərbaycana 1,8 milyon dollar dəyərində qida və 7,2 milyon dollar dəyərində dərman təhcizatı göndərib. 1993-cü ilin fevral ayında Müdafiə Departamenti Fövqəladə Tibbi Yardım Təşəbbüsü çərçivəsində Bakıya 20 ton əlavə tibbi təhcizat göndərib. Bundan əlavə, 1993-cü ilin iyun ayında özəl könüllü təşkilatları vasitəsilə 7.533 dollar dəyərində dərman, tibbi təhcizat və tibbi ləvazimat birbaşa ehtiyacı olanlara çatdırılıb. ABŞ həmçinin özəl şəxslərin ianəsi olan 36 ton tibbi təyinatlı malı və tərəvəz toxumlarını Bakıya göndərib.

**Demokratiyaya keçidi dəstəkləmək üçün kömək.** Müstəqil xəbər buraxılışlarının redaktor və menecerləri Amerika jurnalistikası və mediası layihəsində iştirak ediblər. ABŞ-nin Xəbər Agentliyi Azərbaycanın müstəqil yayımçılarını televiziya proqramları ilə təmin edir və "Amerikanın Səsi" radio proqramları

üçün müqavilə imzalanıb. ABŞ təhsildə islahatlar sahəsində, müəllimlərin və kurrikulumun inkişaf etdirilməsi üçün Azərbaycanın özəl universiteti ilə tərəfdaşlıq edir. Özəl təhsil müəssisələrinin bir çox tələbə və elmi işçisi ali təhsil mübadiləsi proqramlarında iştirak edir.

**İkitərəfli ticarət məsələləri.** 1993-cü ilin aprelində ABŞ və Azərbaycan arasında ikitərəfli ticarət müqaviləsi imzalanıb; o, Azərbaycan parlamenti tərəfindən təsdiqini gözləyir. 1992-ci ilin sentyabr ayında Xarici Özəl Yatırım Korporasiyası ilə müqavilə imzalanıb və o, parlamentdə müzakirə edilir.

**Hərbi məsələlər.** 1992-ci ilin iyulunda Azərbaycan, adi hərbi texnikanın əsas kateqoriyalarına hərtərəfli məhdudiyyətlər qoyan və bu məhdudiyyətləri aşan silahların məhv edilməsini nəzərdə tutan "Avropada adi silahlı qüvvələr haqqında Müqavilə"ni (AASQM) imzaladı. Baxmayaraq ki, o zaman Azərbaycan özünün adi hərbi qüvvələri haqqında, müqavilənin tələb etdiyi bütün məlumatları təqdim etməyib, o, AASQM üzrə digər məlumatları təqdim edib və öz ərazisində hərbi qüvvələrin yerində təftişinə razılıq verib. O, həmçinin nüvə silahına malik olmayan dövlət kimi "Nüvə silahının yayılmaması haqqında Müqavilə"yə də qoşulub.

**Siyasi vəziyyət.** 1991-ci il avqustun 30-da Azərbaycan keçmiş Sovet İttifaqından özünün müstəqilliyini elan etdi.[74] Kommunist Partiyasının birinci katibi Ayaz Mütəllibov[25] respublika prezidenti oldu. 1992-ci ilin mart ayında, Dağlıq-Qarabağda azərbaycanlıların soyqırımı baş verdikdən[75] sonra onun istefaya getməsi nəticəsində ölkə siyasi cəhətdən qeyri-sabitlik yaşadı. 1992-ci ilin mayında parlament çevrilişi nəticəsində Mütəllibov hakimiyyətə qayıtdı.[76] Onun planlaşdırılmış prezident seçkilərini dayandırmaq və bütün siyasi fəaliyyətə qadağa

qoymaq cəhdləri müxalif Azərbaycan Xalq Cəbhəsini (AXC)[77] müqavimət hərəkatı təşkil etməyə və əks-çevriliş nəticəsində hakimiyyətə gəlməyə təhrik etdi. AXC kommunistlərin çoxluq təşkil etdiyi Ali Soveti buraxdı və onun funksiyalarını 50 üzvdən ibarət ali qanunverici orqan olan Milli Şuraya[78] ötürdü.

1992-ci ilin iyununda keçirilən seçkilərdə[7] AXC-nin sədri Əbülfəz Elçibəy[8] prezident seçildi. Buna baxmayaraq, AXC hökuməti Dağlıq Qarabağ münaqişəsinə son qoymaqda və ya iqtisadiyyatı idarə etməkdə səriştəsizlik göstərdi və AXC rəsmilərinin çoxu rüşvətxor və bacarıqsız kimi tanındı. 1993-cü ilin iyununda, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə silahlı üsyan başladı.[9] Üsyançılar paytaxta doğru, faktiki olaraq, müqavimətsiz irəlilədikdə Prezident Elçibəy doğma region olan Naxçıvana qaçdı. Milli Şura prezident vəzifəsini yeni spiker, keçmiş Kommunist Partiyasının baş katibi və SSRİ Siyasi Bürosunun üzvü Heydər Əliyevə[1] həvalə etdi. Üsyan başçısı Sürət Hüseynov[10] baş nazir oldu. 1993-cü ilin avqustunda keçirilən referendumun nəticələrinə görə Elçibəy rəsmi olaraq hakimiyyətdən kənarlaşdırıldı[23] və 1993-cü ilin oktyabrında bir müxalif namizədlə seçkiyə qatılan Heydər Əliyev prezident seçildi.[79]

Prezident Elçibəyin dövründə söz, mətbuat və toplaşmaq azadlığına ümumilikdə riayət olunurdu. Çoxu siyasi partiyalarla əlaqəli olan qəzetlər məhdudiyyət olmadan fəaliyyət göstərirdi. Əliyev hakimiyyətə gələndən sonra mətbuat üzərində nəzarət və müxalif qruplara, xüsusilə də AXC-yə təzyiqlər artdı.[80]

1993-cü ilin aprelindən qüvvədə olan fövqəladə vəziyyət rejimi cəbhəyə yaxın rayonlara və İran sərhəddinə səfər etməyi ciddi şəkildə məhdudlaşdırırdı. Xarici ölkəyə səyahət etmək istəyən azərbaycanlılar öncə çıxış vizası və ya hökümətdən rəsmi pasport almalı idilər.

Həmkarlar İttifaqı əvvəlki tək dövlətdən asılıdır. Tətil etmək hüququ mövcuddur, əmək haqları müvafiq dövlət nazirlikləri tərəfindən müəyyənləşdirilir.

Rayon və şəhər məhkəmələrindən, apellyasiya məhkəməsi funksiyasını yerinə yetirən Ali Məhkəmədən ibarət olan məhkəmə sistemi sovet dövründə olduğu kimi qalır. Sovet DTK-sını Milli Təhlükəsizlik Nazirliyi əvəz edib.

Azərbaycanlıların çoxu islama etiqad etsə də, əhəmiyyətli rus provaslavlar və yəhudi icmaları da mövcuddur. Kommunist dövründə bağlanan məscidlər yenidən açılıb. Erməni kilsələri bağlı olaraq qalır, lakin din azadlığına heç bir məhdudiyyət yoxdur.

1992-ci ilin sentyabrında Prezident Elçibəy mədəni, dini və dil qruplarının özünəməxsusluğunun qorunub saxlanması, milli adət-ənənələrin, dini ayinlərin və mərasimlərin məhdudiyyətsiz həyata keçirilməsi və eləcə də müqəddəs ərazilərin istifadəsi və qorunması haqqında Fərman imzaladı. Hökümət azlıqların hüquqlarının qorunmasına dair qanun qəbul etsə də, Bakıda çox az sayda qalan ermənilərin təhlükəsizliyinə zəmanət verməkdə çətinlik çəkib.

**Dağlıq Qarabağ münaqişəsi.** 1923-cü ildə Azərbaycanın tərkibində muxtar vilayət kimi yaradılan,[81] əsasən ermənilərdən ibarət anklav – Dağlıq Qarabağ ətrafında gedən mübahisə Azərbaycanın əsas daxili məsələsidir. Vilayətin Ermənistan tərəfindən dəstəklənən erməni hissəsi (təxminən 75%) müstəqilliyə və Azərbaycandan ayrılmağa çalışır[3] Məsələnin həlli üçün davamlı beynəlxalq vasitəçilik cəhdlərinə baxmayaraq, zorakılıq və qan axıdılması davam edir. Bu münaqişə 1988-ci ilin əvvəlində Dağlıq Qarabağın birtərəfli qaydada müstəqilliyinin elan olunması və Ermənistan parlamentinin vilayətin birləşdi-

rilməsi barədə qətnamə qəbul etməsi ilə başlayıb.[63]1988-ci ilin fevralında Dağlıq Qarabağda ermənilərin nümayişləri kütləvi iğtişaşlara və Azərbaycanda yaşayan digər ermənilərə qarşı təmizləməyə gətirib çıxartdı.[82]

1991-ci ildə Sovet və Azərbaycan polisi erməniləri Dağlıq Qarabağdakı kəndlərdən deportasiya etdi.[83] 1991-ci ilin sentyabrında Dağlıq Qarabağ erməniləri müstəqil respublika yaratdıqlarını elan etdilər.[84]

1991-ci ilin noyabrında bir neçə azərbaycanlı rəsminin, rusiyalı və qazaxıstanlı müşahidəçilərinin helikopter qəzasında həlak olmasından sonra regionda döyüş əməliyyatları kəskinləşdi.[85] Azərbaycan erməni hərbiçiləri helikopterə atəş açmaqda günahlandırdı, fövqaladə vəziyyət elan etdi və regionun muxtariyyat statusunu ləğv etdi.[86]

1991-ci ilin dekabrında Dağlıq Qarabağın erməni əhalisi müstəqilliyə səs verdi.[87] 1992-ci ilin əvvəlinə kimi etnik erməni qüvvələri demək olar ki, orada azərbaycanlıların bütün məskənlərini zəbt etdilər. 1992-ci ilin mayına qədər ermənilər vilayət üzərində nəzarəti tamamilə ələ keçirdilər və Ermənistana gedən torpaq dəhliz yaratdılar.[13] 1993-cü ilin aprelində Dağlıq Qarabağ erməniləri Kəlbəcər rayonunu,[20] iyulunda Ağdamı[5] və avqust-oktyabr aylarında Azərbaycanın cənub-qərb ərazisini bütövlükdə zəbt edərək, münaqişəni Azərbaycanın digər ərazilərinə yaydılar.[6] Bu hücumlar nəticəsində təxminən 500.000 nəfər dinc azərbaycanlı evlərini tərk etməyə məcbur olub, bundan əlavə, 150.000 nəfər azərbaycanlı, münaqişənin əhatə etdiyi Dağlıq Qarabağı, Laçını və digər əraziləri tərk edib.

1988-ci ildən başlayaraq, Azərbaycan Dağlıq Qarabağı və Ermənistanı blokadaya alıb.[58] Ermənistan qüvvələri azərbaycanlıların Dağlıq Qarabağdakı məskənlərini dağıdıb və Azər-

baycan anklavı olan Naxçıvanı,[31] Azərbaycanın digər ərazilərindən Ermənistan vasitəsilə ayrılan muxtar respublikanı blokadaya alıblar.

Vəziyyətin pisləşməsinə cavab olaraq, 1992-ci ilin mayında BMT-nin baş katibi Butros-Qali[88] ABŞ-nin keçmiş dövlət katibi Sayrus Vənsin başçılığı altında faktaraşdırıcı missiya göndərdi.[89] Missiya belə bir nəticəyə gəldi ki, ATƏM-in nəzarəti altında həyata keçirilən vasitəçilik səyləri tərəfləri bir araya gətirmək üçün ən yaxşı ümid olub.

1992-ci ilin yazında ATƏM, münaqişənin sülh danışıqları yolu ilə həll olunmasına yardım etmək üçün Minsk Qrupunu[90] yaratdı (qrup Ermənistan, Azərbaycan, Rusiya, Türkiyə, ABŞ, Avropanın 6 ölkəsi və eləcə də Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının nümayəndələrindən ibarət idi). Hər iki tərəfdən tez-tez başladılan yeni döyüşlər inkişafa mane olub. 1993-cü il martın 4-də Minsk Qrupu atəşkəsin monitorinqi üçün ATƏM missiyasının şərtləri barədə razılığa gəldi.

1993-cü ilin iyununda bütün münaqişə tərəfləri Minsk Qrupunun atəşkəsi təmin etmək, zəbt olunmuş torpaqlardan qismən geri çəkilmək, beynəlxalq müşahidəçilərin yerləşdirilməsi, blokadanın aradan qaldırılması və danışıqların bərpa edilməsi barədə təkliflərini qəbul etdi. Təkliflərin həyata keçirilməsi ləngiyir.

Azərbaycanda yaşayan, 1988-1990-cı illərdə baş verən talanlar səbəbindən ölkəni tərk edən təxminən 400,000 nəfər erməni indi Ermənistan, Rusiya və digər ərazilərdə qaçqındırlar. Bu müddət ərzində təxminən 200,000 nəfər azərbaycanlı Ermənistanı tərk edib.

**Xarici əlaqələr.** Azərbaycan BMT, ATƏM və Şimali Atlantika Əməkdaşlıq Şurasının üzvüdür.

**İqtisadi baxış.** Azərbaycan bazar iqtisadiyyatına doğru ehtiyyatla irəliləyir. Dövlət müəssisələri özəlləşdirilməyib, lakin xüsusilə pərakəndə ticarət sektorunda çoxlu sayda xırda özəl müəssisələr meydana gəlib. Dağlıq Qarabağ münaqişəsi iqtisadi islahatlara doğru inkişafa əngəl törədir. Azərbaycan xarici ticarət və investisiyalar axtarır və hökümət ekspropriasiyasına qarşı təminat verən qanunlar qəbul edib.

Qərb neft şirkətləri hesab edirlər ki, Azərbaycan dünyada ən böyük işlənməmiş neft və qaz sahələrindən birinə malikdir. Bir neçə şirkət Xəzər dənizində icarə məsələləri ilə bağlı hökümətlə danışıqlar aparır.

Azərbaycan keçmiş sovet neft sənayesində istifadə edilən bir çox maşın və avadanlıqların mənbəyi olub. 1989-cu ildə SSRİ-nin ümumi neft hasilatının 2%-i, qaz hasilatının 1%-i Azərbaycanın payına düşürdü. Azərbaycan əsasən kənd təsərrüfatı ölkəsidir və Zaqafqaziyanın digər iki respublikası (Gürcüstan və Ermənistan) ilə müqayisədə, sənaye sahəsində çalışan əhalinin faizi azdır. 1988-ci ildə Azərbaycanda xalis istehsal SSR-i üzrə ümumi istehsalın 1,7%-ni təşkil edib.

Azərbaycan Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının üzvüdür. 1992-ci ildə isə İqtisadi Əməkdaşlıq Təşkilatının – keçmiş SSRİ-nin altı islam ölkəsi və həmçinin Əfqanıstan, İran, Pakistan və Türkiyənin daxil olduğu iqtisadi bloka üzvü olub.

**Ətraf mühit məsələləri.** Neft və neft-kimya sənayesinin Xəzər dənizini çirkləndirməsi keçmiş sovet rejiminin miras qoyduğu ciddi problemdir. Təmizləmə işləri hələ başlamayıb. Bir neçə ekoloji təşkilat mövcuddur və Azərbaycan bu sahədə elmi-texnoloji mübadilə etməkdə maraqlı olduğunu bildirib.

**Azərbaycana baxış.** Azərbaycan iki mötəbər sivilizasiyanın – XI əsr səlcuk türklərinin və qədim farsların – irsini özündə birləşdirir.[91] Azərbaycan Respublikası İran Azərbaycanı ilə sərhəddir, buna baxmayaraq, onlar siyasi cəhətdən vahid dövlətdə heç zaman birləşməyib.[92]

Azərbaycan b.ə 642-ci ilində ərəblər tərəfindən istila edildi və islamlaşdırıldı. Bundan sonra çiçəklənmə dövrü başladı. Ərəb imperiyasının süqutundan sonra, 13-15-ci əsrlərdə Azərbaycan monqolların, yerli Şirvanşahların və fars mənşəli Səfəvi sülaləsinin[93] hökümranlığı altında yenidən çiçəklənməyə başladı.

Azərbaycan ticarət yollarının üzərində və Xəzər dənizinin sahilində yerləşdiyi üçün Türkiyə, İran və Rusiya bu ərazi üzərində nəzarət uğrunda mübarizə aparıblar. Nəticədə, 1828-ci ildə ruslar Azərbaycan ərazisini indiki sərhəd boyunca İranla böldü. Ermənistan və Gürcüstanla Transqafqaz Federasiyası yaratmaq cəhdi uğursuz olduqdan sonra, 1918-ci ildə Azərbaycan müstəqil dövlət elan edildi. 1920-ci ilin əvvəlində, Qırmızı Ordunun aprel ayındakı istilasından bir qədər əvvəl, Azərbaycan müttəfiqlər tərəfindən de-fakto müstəqil dövlət kimi tanındı. 1922-ci ildə Azərbaycan Zaqafqaziya Federativ Sovet Respublikasının tərkibinə daxil oldu və 1936-cı ildə isə müttəfiq respublika oldu. 1991-ci il avqustun 30-da Azərbaycan müstəqilliyini elan etdi. Yeddi milyon nəfər əhalinin 83%-i azərbaycanlı, 6%-i ruslardan ibarətdir. Əhalinin çoxu şiə müsəlmandır.

**Tarix: 12.02.1994**
**Mənbə: The Economist (İngiltərə)**
**(Volume 330, İssue 7850)**
**Məqalənin adı: The hero of our time: Russia and Zaghagazia**
***www.economist.com***

# DÖVRÜMÜZÜN QƏHRƏMANI: RUSİYA VƏ ZAQAFQAZİYA

Rusiya öz təsir dairəsini birbaşa Türkiyə və İran sərhədlərinə qədər genişləndirir. Fevralın 3-də prezident Boris Yeltsin[32] – Zaqafqaziyada adlandırıldığı kimi, "yeni çar" – Gürcüstan lideri Eduard Şevardnadze[11] ilə, keçmiş sovet respublikasının yenidən Rusiyanın orbitinə qaytarılmasını təsdiqləyən müqavilə imzaladı. Müqaviləyə əsasən, Rusiya Gürcüstanda hərbi bazalar, stansiyalar, Gürcüstanın Türkiyə ilə sərhədində qoşunlar yerləşdirə, gürcü ordusunu öyrədə və silahlandıra bilər. Rusiya İran və Türkiyə ilə həmsərhəd olan Azərbaycanda da oxşar hüquqlar əldə etmək istəyir.

Gürcüstanla müqavilə cənab Şevardnadze üçün dönüş nöqtəsi idi, o, keçən yaz bəyan etmişdi ki, nə qədər ki, Rusiyanın Müdafiə Nazirliyinin hissələri Gürcüstanda separatçılara silah-sursat, kəşfiyyat və könüllülərlə yardım edir, Gürcüstan faktiki olaraq, "Rusiya ilə müharibə vəziyyətində idi". O, fikrini dəyişmək məcburiyyətində qaldı. Sovet İttifaqının ən açıq fikirli xarici işlər naziri olduğu dövrdə Qərbdə qazandığı dostlar, çal-

xanan postsovet Gürcüstanın dövlət başçısı olduqdan sonra ona dəstək sözlərindən başqa bir şey vermədilər.

Keçən ilin oktyabrında separatçılar və onların Rusiyadan gələn havadarları Gürcüstanın ən qərb əyaləti olan Abxaziyanı ələ keçirdikdən sonra ruslar cənab Şevardnadzeni seçim qarşısında qoydular: Müstəqil Dövlətlər Birliyinə[35] (və bizim təsir dairəmizə) daxil olmaq və ya ölkəsinin parçalanmasına baxmaq. Noyabrda keçmiş prezident Zviad Qamsaxurdiyanın[69] başçılıq etdiyi üsyan yalnız Rusiya qoşunları münaqişə bölgəsindən keçən dəmir yoluna yerləşdirildikdən sonra yatırıldı.

Vaxtilə cənab Şevardnadze Gürcüstanda keçmiş sovet respublikasını Qərbə yaxınlaşdıra biləcək adam hesab olunurdu. İndi isə o, istəməsə də, rus general-qubernatoru kimi görünür.

Qonşu Azərbaycanda Prezident Heydər Əliyev[1] Gürcüstanın taleyindən yayınmağa çalışır. O, çətin ki, bunu bacarsın. Rusiyanın müdafiə naziri, general Pavel Qraçov[94] Gürcüstanın paytaxtı Tbilisidə olarkən, cənab Yeltsin ilə birlikdə bütün Zaqafqaziyada hərbi bazalar yaratmaq istədiyini açıqlayıb. Yalnız Azərbaycan Rusiyanın "tələb"ini hələ də qəbul etməyib. Ruslar Azərbaycanın Türkiyə və İranla sərhədlərində öz əsgərlərini yerləşdirmək hüququ əldə etmək istəyirlər.

Cənab Əliyev rusların onu oyuna çəkməsinə və ya əvəzlənməsinə mane ola biləcək hər kəslə danışıqlar aparır. Amma İran və Türkiyə ona kömək etmək üçün, Rusiyaya görə çox narahatdırlar və hazırda Xəzər dənizinin Azərbaycan hissəsində qazma işləri aparnaq hüququ ilə bağlı danışıqlar aparan qərb neft şirkətləri hələ də cənab Əliyevin istədiyi kimi, öz hökumətlərini inandıra bilməyiblər ki, onların iqtisadi maraqları Qərbin strateji maraqları ilə üst-üstə düşməlidir.

**Tarix: 15.02.1994**
**Mənbə: The Moscow times (Rusiya)**
**Məqalənin adı: Oil deal near, Aliyev says**
***www.themoscowtimes.com***

# NEFT RAZILAŞMASI YAXINDADIR – ƏLİYEV DEYİB

Azərbaycan Prezidenti Heydər Əliyev[1] bildirib ki, Azərbaycan tezliklə Qərb neft şirkətlərinin konsorsiumu ilə dəniz neft yataqlarının işlənməsi üçün çoxmilyardlı layihəyə dair saziş imzalayacaq.

"Biz neft şirkətlərini danışıqlara dəvət etmişik və bu yaxınlarda saziş imzalanacaq", – Əliyev cümə günü İstanbulda keçirdiyi mətbuat konfransında deyib, lakin imzalama tarixini açıqlamayb. Xəzər dənizində üç yatağın işləməsinə dair razılaşma, keçən ilin iyununda sələfi Əbülfəz Elçibəyin[8] devrilməsindən[23] sonra dayandırılıb.

Doqquz milyard dollar dəyərində qiymətləndirilən ilkin sövdələşmənin şərtlərinə görə, 9 platformanın inşası və 900 quyunun qazılması nəzərdə tutulur, maliyyələşdirmənin 30 faizinə isə Azərbaycan cavabdehdir.

Yerdə qalan 70 faiz "BP/Statoil" 36,7 faiz, "Amoco" 24,3 faiz, "Pennzoil" 17 faiz, "Unocal" 16 faiz, "Mc Dermott" 3,5 faiz və "Turkish Petroleum" 2,5 faiz olmaqla bölüşdürülüb.

**Müəllif: Gina Gianzero**
**Tarix: 18.02.1994**
**Mənbə: Europe Journal (Issue 333)**
**Məqalənin adı: Order from chaos: who's who in the republics**
*www.journalgeneraldeleurope.org*

# XAOS İÇİNDƏ NİZAM: RESPUBLİKALARDA KİM KİMDİR

Keçmiş Sovet İttifaqı respublikalarında iqtisadi və siyasi inkişafla bağlı aparılan təhlillərin əksəriyyəti regionun əsas xarakterinin və müəyyənedici şərtlərinin sürətlə dəyişməsi səbəbindən tez köhnəlir. Sürətlə baş verən hadisələrin şahidi olmaq istəyənlər çox vaxt onların əhəmiyyətini başqa cür dərk edirlər. Respublikalar dövlətçilik əldə etdikdən bir neçə il sonra gənc hökumətlər dağılmış, etnik qarşıdıurmalar artmış, siyasi partiyalar çoxalmış, iqtisadiyyat isə çökmüşdü. Ümumi maneələrlə üzləşən, lakin unikal insan və fiziki resurslara malik olan keçmiş Sovet İttifaqının yeni dövlətlərində fərqli siyasi və iqtisadi islahatlar strategiyası həyata keçirilmişdir. Keçmiş Sovet İttifaqının hissələrinin yenidən qurulması və canlandırılması uzun sürən və qeyri-sabit proses olacağını vəd edir.

<…>

**Azərbaycan.** Müstəqillik əldə etməzdən əvvəl Azərbaycanda başlayan etnik gərginlik Zaqafqaziyanın bu respublikasının siyasi və iqtisadi həyatında dominantlıq edirdi. Qonşu Ermənistanla elan olunmamış müharibə nəticəsində Ermənistan qoşunları hazırda Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla, Azərbaycan torpaqlarının təxminən beşdə birinə nəzarət edir. Bir milyondan çox olduğu təxmin edilən azərbaycanlı qaçqınlar qonşu İrana və Azərbaycanın digər bölgələrinə axışırlar. Ölkənin digər bölgələrində də daha az intensiv etnik rəqabətin getdiyi bildirilir. Siyasi zorakılıq və onu müşayiət edən iqtisadi qeyri-sabitlik 1993-cü ilin yazında prezident Elçibəy[8] hökumətinin devrilməsi[9] və daha sonra Kommunist Partiyasının keçmiş rəhbəri Heydər Əliyevin[1] seçilməsi ilə nəticələndi. Hakimiyyətə gələndən sonra Əliyev, Ermənistanla münaqişəyə Rusiyanın müdaxilə edəcəyinə ümid edirdi. Bəzi müşahidəçilər hətta hesab edirlər ki, Əliyev Xəzər dənizində Azərbaycana aid neft yataqlarının istismarı ilə bağlı Rusiya ilə sövdələşməyə girərək, Rusiyanın dəstəyini əldə etməyə cəhd edə bilər. Qərb neft şirkətləri həmin neft yataqlarının işlənməsində kifayət qədər maraq göstərirlər.

**Müəllif: Jonathan Rugman**
**Tarix: 22.02.1994**
**Mənbə: The Guardian (İngiltərə)**
**Məqalənin adı: Oil eases Russian plan for Karabakh: Azerbaijan's president starts a visit to London today. Jonathan Rugman reports on Britain's business and political hopes**
*www.theguardian.com*

# NEFT RUSİYANIN QARABAĞDA SÜLH PLANINI ASANLAŞDIRIR: BU GÜN AZƏRBAYCAN PREZİDENTİNİN LONDONA RƏSMİ SƏFƏRİ BAŞLAYIR. CONATAN RAQMAN BRİTANİYANIN BİZNES VƏ SİYASƏTƏ DAİR ÜMİDLƏRİ HAQQINDA MƏLUMAT VERİR

Bu gün, britaniyalı nazirlər və "British Petroleum" şirkəti rəhbərlərinin, son dərəcə qiymətli neft razılaşması barədə iki il davam edən danışıqların yekunlaşmaması səbəbindən artan narazılığı fonunda Azərbaycan Prezidenti Heydər Əliyevin[1] Londona səfəri başlayır.[95]

Həmçinin Cənab Əliyevin Con Meycor[96] ilə, mübahisəli ərazi olan Dağlıq Qarabağ ərazisi[12] uğrunda Azərbaycan və Ermənistan arasında gedən müharibənin[3] sona çatdırılması istiqamətində əhəmiyyətli irəliləyişlərin olması haqqında məlumatları müzakirə edəcəyi də gözlənilir.

Keçən ilin noyabrında "BP" və Qərb neft şirkətlərinin konsorsiumu Xəzər dənizində Azərbaycanın iki neft yatağının kəşfiyyatı barədə müqavilə imzalayıb. Azərbaycan gündəlik 600.000 barrel hasilatdan əldə olunacaq gəlirin 80%-ni almalıdır. Yeddi milyard dollardan çox qərb sərmayəsi yatırımaq vəd olunub.

Neft razılaşması imzalanandan dərhal sonra Prezident Əliyev danışıqlardakı slovakiyalı nümayəndəsini, onun sənədi imzalamaq üçün səlahiyyətinin olmadığını bəyan edərək, işdən kənarlaşdırıb.

Cənab Əliyev Rusiyanın energetika naziri ilə danışıqlara başlayıb və güman olunur ki, yeni konsorsiumda Rusiyanın "LUKoil" neft şirkətinə 10% pay təklif edib.[97]

<...>

Azərbaycanın paytaxtı Bakıda olan bir Qərb diplomatı bildirib. "Rusların bizimlə birlikdə olmaları onların kənarda qalmalarından daha yaxşıdır".

Aydın məsələdir ki, Rusiyanın iştirakı "BP"nin mənfəətdəki payına təsir göstərməyəcək və cənab Əliyev genişlənmiş konsorsiumla yeni müqavilənin "tezliklə" bağlanacağını vəd edib.

Azərbaycanın neft yataqlarından Rusiyaya pay vəd edilməsi, Moskvanı Ermənistanı Azərbaycan torpaqlarından çıxmağa inandırmağa həvəsləndirməlidir.

Ermənistanın iqtisadi xilası, demək olar ki, tamamilə Rusiyadan asılıdır və Qərb diplomatları çoxdan iddia edirlər ki, Müstəqil Dövlətlər Birliyinin[35] hər iki üzvündə Rusiyanın iqtisadi maraqlarının olması, müharibə edən qonşuları sülh danışıqlarına razı salmaq üçün Moskvaya böyük şans verir.

Hər iki tərəf, həftə sonu razılaşdırılmış Rusiya planına əsasən, əvvəlcədən müəyyənləşdirilmiş mövqelərə doğru geri çəkilməlidir. Buna baxmayaraq, azərbaycanlılar Dağlıq Qaraba-

ğın statusu məsələsinin müzakirəsindən öncə ermənilərin tamamilə çıxarılmasında israr edirlər.

Dağlıq Qarabağda 100.000 erməni yaşayır və onlar azərbaycanlılarla əhatə olunub. Dörd il öncə Qarabağ erməniləri Ermənistanın tərkib hissəsi olduqlarını elan etmişdilər, indi isə onlar müstəqillik uğrunda vuruşduqlarını deyirlər.

Bu ayın əvvəlində Ermənistan prezidenti Levon Ter Petrosyanın[61] cənab Meycor ilə danışıqlar aparmaq üçün şəxsən Londona gəlməsini britaniyalı diplomatlar təsadüfi hesab edirlər, baxmayaraq ki, cənab Əliyevin səfəri zamanı Britaniya "qeyri-rəsmi vasitəçi" rolunu oynaya bilər.

Prezident Ter Petrosyan Britaniyada olduğu zaman bildirib ki, Britaniyanın Azərbaycandakı kommersiya maraqları Qarabağ məsələsinin həllində hökumətin işinə təsir göstərməməlidir.

Buna baxmayaraq, Ermənistan qüvvələri qoşunların çıxarılmasına çağıran BMT qətnamələrini[98] yerinə yetirməyiblər. Hal-hazırda onlar Azərbaycan torpaqlarının 20%-ni işğal altında saxlayırlar.

Mövcud atəşkəsin qüvvəyə minməsindən bir neçə gün əvvəl cənab Əliyev deyib: "İndi biz inanırıq ki, Ermənilərdən yaxa qurtarmaq üçün hərbi gücdən istifadə etməliyik". Münaqişə nəticəsində 10.000 nəfərdən çox insan qətlə yetrilib və bir milyon nəfərdən çox azərbaycanlı evlərini tərk etmək məcburiyyətində qalıb.

Dekabrdan etibarən Azərbaycan qüvvələri Füzuli və Cabrayıl rayonlarında kiçik irəliləyişlərə nail olublar,[22] onlar bunu yeni prezidentin liderliyi və orduda fərariliyin azlması ilə əlaqələndirirlər.

Bakıdakı Qərb diplomatı bildirib ki, erməni qüvvələri, ola bilsin ki, aclıq və soyuq hava səbəbindən geri çəkiliblər.

**Tarix: 01.03.1994**
**Mənbə: UN Chronicle (ABŞ)**
**Məqalənin adı: Conflicts, instability continue**
*www.un.org/en/chronicle*

# MÜNAQİŞƏLƏR VƏ QEYRİ-STABİLLİK DAVAM EDİR

1993-cü ilin sonlarına doğru bəzi keçmiş sovet respublikalarında – xüsusilə, Ermənistan, Azərbaycan və Tacikistanda baş verən silahlı qarşıdurmalar, vətəndaş iğtişaşları və iqtisadi xaos siyasi sabitliyi və regional təhlükəsizliyi təhlükə altına almış və ümumi humanitar vəziyyət ciddi şəkildə kəskinləşmişdi. BMT yeni müstəqillik əldə etmiş dövlətlərdə oktyabr ayından dekabr ayına qədər, 1992-ci ildə yeddi ölkədə yaradılan müvəqqəti ofislər vasitəsilə monitorinq və vasitəçilik səylərini davam etdirmiş və münaqişə zonalarına xüsusi missiyalar göndərmişdi.

Aşağıda bəzi son hadisələrin icmalı verilmişdir.

**Ermənistan və Azərbaycan**

Azərbaycan ərazisində ermənilərin məskunlaşdığı anklavda[4] – Dağlıq Qarabağda və onun ətrafında davam edən münaqişənin regionda sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyindən ciddi narahatlığını ifadə edən Təhlükəsizlik Şurası noyabrın 12-də aidiyyatı tərəflərdən "hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını" tələb etdi.

Təhlükəsizlik Şurası 1993-cü ildə 884 saylı qətnaməni[99] yekdilliklə qəbul edərək, Azərbaycanın Zəngilan rayonundan,[21] həmçinin Horadiz[26] şəhərindən və bu yaxınlarda işğal olunmuş digər ərazilərindən "işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını" tələb etdi.

Təhlükəsizlik Şurası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk Qrupunun,[90] birtərəfli atəşkəs haqqında bəyannamələri ilə bağlı təklifləri özündə ehtiva edən 4 noyabr Bəyannaməsini alqışlayaraq, tərəfləri Minsk Qrupuna dəstək olaraq, Rusiya Federasiyasının köməyi ilə əldə edilmiş atəşkəsi[105] "tezliklə bərpa etməyə, onu səmərəli və daimi etməyə" çağırıb. Eyni zamanda, Şura tərəfləri münaqişənin həllini Minsk prosesi çərçivəsində danışıqlar yolu ilə axtarmağa çağırıb.

Dağlıq Qarabağ ermənilərinin Şuranın əvvəlki qətnamələrinə[98] əməl etməsinə və "hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsinə" nail olmaq üçün Ermənistana öz təsir gücündən istifadə etməyə çağırış edilib.

Oktyabrın 14-də Şura, qoşunların işğal olunmuş ərazilərdən çıxarılması və "rabitə və nəqliyyat ilə bağlı bütün maneələrin aradan qaldırılması" da daxil olmaqla, Təhlükəsizlik Şurasının 822[100] (1993) və 853[101] (1993) saylı qətnamələrini yerinə yetirmək üçün Minsk Qrupunun "təxirəsalınmaz tədbirlərin yenilənmiş cədvəli"ni dərhal həyata keçirməyə çağırıb.

Təhlükəsizlik Şurasının yekdilliklə qəbul etdiyi 874 saylı qətnamədə[102] (1993) də tərəflər "münaqişənin təsirinə məruz qalan bütün rayonlara beynəlxalq humanitar yardımların maneəsiz çatdırılmasını təmin etməyə", beynəlxalq hüququ pozmaqdan çəkinməyə çağırılır.

**Digər məsələlər**

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) dekabrın 21-də verdiyi hesabatda, 1994-cü ilin əvvəllərində MDB-nin üç ölkəsi – Ermənistan, Azərbaycan və Gürcüstanın ciddi qida təminatı problemi ilə üzləşdiyi, təxminən 1 milyon nəfərin təcili ərzaq yardımına ehtiyacı olduğu bildirilir.

**Müəllif: Dilip Hiro**
**Tarix: 04.03.1994**
**Mənbə: New Statesman & Society (İngiltərə) (Vol 7, İssue 292)**
**Məqalənin adı: Azeris play Russian game**
***www.newstatesman.com***

# AZƏRBAYCANLILAR RUS OYUNU OYNAYIR

Keçən həftə Azərbaycan Prezidenti Heydər Əliyevin[1] Londona dövlət səfərinin[95] sonunda Britaniyanın ona hədiyyəsi cüzi 500.000 funt sterlinq oldu. Bu, altı ildir davam edən Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyon nəfər azərbaycanlının qaçqın düşdüyü və 7,5 milyon nəfər əhalisi olan respublikada adambaşına 50 pens deməkdir. Prezident Əliyev Xəzər dənizində konsessiya əldə etməyə iddia edən Qərb neft konsorsiumunun lideri "British Petroleum"a yalnız "dəyərləndirmə və qiymətləndirmə aparıldıqdan sonra" müqavilə bağlaya biləcəklərini söyləməklə, onların qorxularını aradan qaldırmış oldu.

Noyabr ayında Heydər Əliyev, danışıqlarda özünün əsas nümayəndəsini, respublikada gündəlik neft hasilatını üç dəfədən çox, 850.000 barrelə qədər artıra biləcək iki neft yatağı üzrə razılaşmanı parafladığına görə işdən azad etdikdən sonra müqavilə təhlükə altına düşüb – o, bəyan edib ki, nümayəndə səlahiyyətlərini aşıb.

Heydər Əliyev israr etdiyi müqavilənin "dəyərləndirilməsi və qiymətləndirilməsindən" əlavə, Rusiyanı da razı salmalı idi. Keçən il onun sələfi, pantürkist millətçi Əbülfəz Elçibəyin,[8] BP ilə müqavilə imzalamaq üçün Londona planlaşdırılan səfərindən bir neçə həftə əvvəl hakimiyyətdən kənarlaşdırılmasında[23] Rusiya əsas oyunçu idi.

Heydər Əliyev ruslarla anlaşmaq üçün BP-nin rəhbərlik etdiyi konsorsiumda, BP-yə vəd etdiyi mənfəəti azaltmadan, Rusiyanın "LUKoil" neft şirkətinə 10 faiz pay təklif edib.[97]

Rusları Azərbaycan siyasətində bu qədər vacib aktora çevirən Dağlıq Qarabağla bağlı böhran və Azərbaycanın daxilindəki erməni anklavıdır.[4] Altı il əvvəl Qarabağ erməniləri Azərbaycandan Ermənistana transfer olunmalarını tələb ediblər.[103] Bu situasiya hər iki respublikada etnik iğtişaşlara və sonradan Azərbaycandan (Qarabağ xaricində) 420.000 nəfər erməninin,[104] Ermənistandan isə 200.000 nəfər azərbaycanlının transsərhəd miqrasiyasına səbəb olub.

Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan və Ermənistanın müstəqil respublikalar kimi meydana çıxmasından sonra silahlı münaqişə daha da şiddətləndi. Bu, hal-hazırda 10.000 nəfərin ölümü və Azərbaycanın öz ərazisinin 20 faizinin, başqa sözlə Dağlıq Qarabağdan dörd dəfə böyük olan ərazinin itirilməsi və Ermənistanın nəzarətinə keçməsi ilə nəticələnib.

Erməniləri işğal olunmuş Azərbaycan ərazilərini boşaltmağa çağıran BMT Təhlükəsizlik Şurasının qətnamələrinin[98] icra edilməməsi azərbaycanlıları ümidsizliyə qərq edib, eyni zamanda, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin münaqişənin siyasi yolla həll edilməsinə vasitəçilik etmək cəhdləri də nəticəsiz qalıb. Bunun əsas günahkarı isə bütün "xarici qüvvələri" sülhməramlı misiyadan uzaq tutmaq istəyən və Va-

şinqtonun da dolayı dəstəyinə malik olan Rusiyadır. Rusiya isə enerji, qida və xammalın böyük hissəsi ilə təmin etdiyi Ermənistanın yanında durur.

1992-ci ildə Elçibəy Azərbaycanı Müstəqil Dövlətlər Birliyindən[35] çıxardıqdan sonra Rusiyanın Azərbaycana təzyiqi artdı və keçən il Heydər Əliyevin Azərbaycanı yenidən MDB-yə qaytararaq, bu qərarı ləğv etməsi isə Moskvanı sakitləşdirməyə kifayət etmədi. O, Azərbaycan neftinin bir hissəsini ruslara verməli və eyni dərəcədə önəmli olan Dağlıq Qarabağ böhranını beynəlmiləlləşdirmək cəhdlərini dayandırmalı idi. Keçən ay Azərbaycan və Ermənistan Boris Yeltsinin təzyiqi altında və Rusiyanın vasitəçiliyi ilə atəşkəs haqqında razılaşma imzaladılar.[105]

Buna baxmayaraq, görünən əlamətlər ümidverici deyil. Keçən həftə Əliyev Ermənistanı atəşkəsi qəsdən pozmaqda ittiham etdi və ermənilər Azərbaycan torpaqlarından tam çıxarılmayana qədər Dağlıq Qarabağın statusunu müzakirə etməkdən imtina etdi.[106] Keçmiş Sovet İttifaqında ən qədim etnik münaqişənin[71] tezliklə həllini təsəvvür etmək çətindir.

**Müəllif: Julie Corwin**
**Tarix: 02.07.1994**
**Mənbə: US. News & World Report (ABŞ) (Vol.116,İssue 5)**
**Məqalənin adı: Needy former Soviet republics look to Moscow**
*www.usnews.com*

# EHTİYAC İÇİNDƏ OLAN KEÇMİŞ SOVET RESPUBLİKALARI MOSKVAYA BEL BAĞLAYIR

Əgər Lenin[107] 1913-cü ildə "siyasi qurumlar iqtisadi təmələ söykənən üst qurumudur" fikrini təsdiq edərkən haqlı idisə, o zaman bu o deməkdir ki, Sovet İttifaqından çıxan yeni xalqların əksəriyyəti çox zəif təməl üzərində qurulmuşdur. Eyni zamanda, Baltikyanı ölkələr azadlıq əldə edərkən, çətin dövrlər köməyə ehtiyacı olan bəzi keçmiş sovet respublikalarını Moskvanın orbitinə qayıtmağa vadar edir və onlar üçün əsas ixrac bazarı və enerji tədarükçüsü olan Rusiya isə qonşularını istədiyinə məcbur etdirmək üçün iqtisadi təsir imkanlarına və hərbi gücə malikdir. Nəzəri olaraq, keçmiş respublikalar arasında əlaqələrin bərpası heç də pis fikir deyil, çünki onlar arasında ticarətin çökməsi keçmiş Sovet İttifaqında iqtisadi tənəzzülə səbəb olmuşdur. Rusiya iqtisadi imperiyasının dirçəldilməsi isə onun xarici siyasətindəki millətçi istiqamətlər və iqtisadi siyasətində mühafizəkarlığa dönüş ilə paralel gedir.

**Bəzi respublikaların vəziyyətinə nəzər salaq:**

Azərbaycan və Orta Asiyada Rusiyanın sərt taktikasından narazılıq getdikcə artır, lakin indiyədək Moskva, resurslarla zəngin olan bu ölkələrin vahid cəbhə yaratmaq cəhdlərini əngəlləyib;

**Azərbaycan**. Keçən ilin sonlarında Rusiya heç bir kapital qoymadan, Azərbaycanda neft hasilatı üzrə çoxmillətli bir razılaşmaya daxil oldu.[97] Hazırda Moskva qrupun Türkiyə vasitəsilə neft ixrac etmək planlarından imtina etməsini istəyir.[108]

Hələ 1992-ci ilin sonlarında Rusiya ticarət kreditləri və enerji subsidiyalaşdırılması şəklində digər respublikalara 6,8 milyard dollar köçürmüşdü, bu da onun ümumi daxili məhsulunun 8 faizini təşkil edirdi. Rusiyanın bəzi rəsmiləri Rusiya istehsalının bərpasına kömək edə biləcəyi ümidi ilə, digər respublikalara verilən ticarət subsidiyalarını yenidən artırmağa hazırdırlar. Hazırki Rusiya rəhbərliyi isə qonşularının hesablarını ödəmək iqtidarında deyil və bu, o deməkdir ki, Rusiyadan gələn köməyə görə yeni müstəqilliklərinin bir hissəsini güzəştə gedənlər çox məyus ola bilərlər.

**Müəllif: Michael Specter**
**Tarix: 10.07.1994**
**Mənbə: The New York Times (ABŞ)**
**Məqalənin adı: The world; Blood in faraway war seems to flow unseen**
*www.nytimes.com*

# DÜNYA; UZAQ MÜHARİBƏDƏ QAN GÖRÜNMƏDƏN AXIR

Amerikalılar çox vaxt belə uzaq yerləri, yalnız qədim nifrət oranı dözülməz iztirablar qazanına çevirdikdən sonra öyrənirlər. Anidən ən böyük miqyaslı müharibə təhlükəsindən xilas olan dünyada regional dəhşətlər tezliklə bu boşluğu doldurdu.

Bəlkə də, yeni yaranan dünyanın agrı-acısı heç bir yerdə Dağlıq Qarabağdakı qədər açıq-aşkar olmamışdır. Əsasən xristian ermənilərin yaşadığı anklav,[4] əhalisinin çoxu müsəlman olan keçmiş sovet respublikası Azərbaycanın tərkibində yerləşir. Bu həqiqətənmi Azərbaycanın bir hissəsidir? Birləşmiş Millətlər Təşkilatı bunu təsdiqləyir, Birləşmiş Ştatlar da bəli deyir. Rusiya da belə edir.

**Azadlığın qiyməti**

Onlar isə buranı Azərbaycanın bir hissəsi hesab etmirlər. Onlar buranı azad olmuş Dağlıq Qarabağ adlandırırlar. Ərazisi təxminən Delaver qədər olan bölgənin heyrətamiz dağlarının əksər hissəsini azad etmək üçün ən azı 20.000 nəfər insanın hə-

yatını itirdiyi və bir milyon nəfərin qaçqın düşdüyü müharibə ən azı 6 il davam edib.

Müharibə Ermənistanı aqrar cəmiyyətə çevirib. Azərbaycanın öz təbii sərvətlərindən bəhrələnməsinə mane olub. O, bütöv bir nəsli öldürüb, şikəst edib və ruhdan salıb.

Bu isə heç kimi maraqlandırmır, hətta səbəbini də anlamırlar. Ən azı buradakı insanlar belə düşünürlər.

"Siz bizim azadlıq uğrunda apardığımız mübarizəni tanımırsız" – Qarabağ Hava Qüvvələrinin[109] mayoru Albert Voskanyan bildirib. Bir gün o, hərbi helikopterə minmək üçün gözləyərkən, son zamanlar qarşısına çıxan ilk qərbliyə hər vəchlə sual verməyə can atırdı. "Sız buradakı əzablara necə göz yuma bilirsiniz? Necə tərəf tuta bilmirsiniz? Amerika hökuməti Qarabağda baş verənlərə tamamilə laqeyddirmi? Bizim erməni torpağında erməni kimi yaşamağa belə hüququmuz yoxdurmu?

Yaxşı suallardır, lakin onların Azərbaycanın paytaxtı, Xəzər dənizi limanı Bakıda olan düşmənləri də belə suallar verə bilərlər: Bəs siz illər boyu yaşadığımız şəhərləri viran qoymağı, evlərimizi yandırmağı və bizi torpaqlarımızdan zorla qovmağı Ermənistana necə icazə verə bilərsiniz?

Əgər etnik təmizləmə keçmiş Yuqoslaviyada pisdirsə, Dağlıq Qarabağın hərbi rəsmilərinin Azərbaycanın işğal edilmiş torpaqlarına qaçqınları köçürməyə icazə verdiklərini etiraf etdikləri burada heç vaxt bu barədə niyə bəhs edilmir? Bir şey etmək üçün nə qədər insanımız qaçqın və girov olmalıdır?

"Bütün bunların mənasız və ya daha pis olduğunu fikirləşməmək mümkün deyil", – Beynəlxalq Qırmızı Xaç Komitəsinin buradakı sahə tibb bacısı Annette Spiess deyib. "Gənclər illərdir bir-birini öldürürlər və görünür ki, bu vəziyyət get-gedə

daha da pisləşir. Onlar bacardıqları hər bir silahdan istifadə edir və qarşılarına çıxan hər binanı bombalayırlar".

"Ermənistan, sevdikləri gözəl diyarı məhv etməklə müharibədə qalib gəlir", – Azərbaycan Qırmızı Xaç Cəmiyyətinin prezidenti Abdulhalim Əhmədzadə deyib. "Bunun orda yaşayanlar üçün faydası nədir?

Buradakı təpələrdə iztirab çox olub və mümkündür ki, daha çoxu irəlidədir. Ermənilər əsrlər boyu, ulaqların hələ normal nəqliyyat növü hesab edildiyi dövrdən bu torpaqlarda yaşayıblar.[110] Bu ərazi, Stalin[66] tərəfindən, mal-qaranı otarmaq üçün örüş yerinə ehtiyac duyan Azərbaycana verilənə qədər,[67] Dağlıq Qarabağ Ermənistanın muxtar respublikası olub.[111] Həmin vaxtda 200.000 nəfər əhalinin 70 %-ni xristian ermənilər, 30%-dən az bir hissəsini isə, mədəni cəhətdən, ermənilərin qatı düşməni Türkiyəyə yaxın olan müsəlman azərbaycanlılar təşkil edirdi.[112]

**"Biz üzr istəməyəcəyik".**

1988-ci ildə bu ədalətsiz razılaşma pozulmağa başlayanda – Mixail Qarbaçov sovet dövlətində indiyədək təsəvvür belə edilməyən azadlıqdan bəhs etməyə başlayanda – Dağlıq Qarabağ səhərlərini müharibə bürümüşdü. Azərbaycanlılar və ermənilər köhnə sovet artilleriyası ilə döyüşərək, dünyanın ən gözəl dağ kəndlərinin külünü göyə sovururdular.

**Səbəblər sadədir, amma həll yolları yoxdur.**

Dağlıq Qarabağ erməniləri azad olmaq və Ermənistanla birləşmək istəyirlər. Onlar Azərbaycanın, fərqli mədəniyyətin və türk xalqının bir hissəsi olmaq istəmirlər. Azərbaycan indi qanuni olaraq sahib olduğu torpaqlarını istəyir.

Azərbaycanlılar Ermənistanın gücü və qətiyyəti qarşısında alçaldılıblar,[113] lakin onlar təslim olmaqdan imtina edirlər.

Müharibə o qədər dəhşətli olub ki, beynəlxalq yardım olmadan atəşkəsin əldə oluna biləcəyinə hər iki tərəfdən az adam inanır. Dağlıq Qarabağın hərbi komandiri Robert Koçaryan[114] bildirib ki, onun əsgərləri azərbaycanlıların yeni hücumlarına hazırlaşır. Ermənistanın paytaxtı Yerevanda çoxları üçün bu, regionun şimalında cənab Koçaryanın yeni qəddar hücuma hazırlaşdığını göstərən koddur. "Biz özümüzə məxsus olan şeylər uğrunda apardığımız mübarizəyə görə üzr istəmirik" – o, deyib. "Biz düşmənlərimizin məğlub olduğuna əmin olana qədər döyüşlərimizi davam etdirəcəyik".

Əgər bacarsaydı, beynəlxalq ictimai birliyin gəlməli olduğu yer buradur, . Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin himayəsi altında real danışıqlara başlamaq üçün edilən diplomatik səylər əsas etibarı ilə faydasız olub. Dünyanın hər bir böyük dövlətinin regionda, çaşdırıcı olsa da, marağı var və ən azı rəsmi olaraq neytraldır.

ABŞ-də bir milyon nəfərdən çox erməni var və ABŞ rəsmi olaraq neytral olsa da, Ermənistana əlindən gələn köməyi göstərib. Məsələn, Azərbaycana yardım etmək qanuna ziddir,[29] çünki o və Türkiyə Ermənistanın ərzaq ixracına və enerji idxalına mane olan blokadaya başlayıb.[58]

Türkiyə isə, təbii ki, Azərbaycanın güclü müttəfiqi olmaqla yanaşı, ABŞ-nin da güclü müttəfiqidir. Bölgədə öz gücünü bərpa etməklə ən çox qazanacağı aydın olan Rusiya, Azərbaycanın deyil, Ermənistanın güclü dostu kimi görünür.

"Rusiya həqiqətən Rusuyanın dostudur", – Yerevandakı bir diplomat deyib. "Onlar siyasi cəhətdən vacib bu bölgədə təmizləmə işi ərəfəsindədirlər, çünki bu barədə heç kim çox şeyi bilmir və ya maraqlanmır. Görünür, ABŞ-də belə bir hiss var ki,

Baltikyanı ölkələrə qarışmasan yaxşı olar, lakin burada istədiyini edə bilərsən".

Qafqaz sərvətləri ilə zəngindir, lakin coğrafi cəhətdən daha zəngindir. Onun Asiya, Yaxın Şərq və Avropanın kəsişməsində yerləşən torpaqları, 19-cu əsrdə olduğu kimi, yenidən hakimiyyət uğrunda gedən istənilən beynəlxalq oyunda kritik piyadaya çevrilmişdir.

Bununla belə, yanacaq çatışmazlığı, acıqlı, lakin sədaqətli vətəndaşları və ağrılı soyqrım irsi[115] ilə Ermənistan Qərbə inamını itirməyə başlayıb. Yerevan küçələrində beş nəfərdən müharibəyə necə son qoymaq barədə soruşun, ən azı dörd nəfər cavab verəcək: rusları çağırın.

"Sanki biz heç nə öyrənməmişik, siz isə az öyrənmisiniz" – Ermənistan parlamentinin deputatı, onun Qarabağ üzrə xüsusi komissiyasının sədri Seyran Bağdasaryan[116] deyib. "Bizim istədiyimiz azad insanlar kimi yaşamaqdır. Azadlıq Qərbin ən dəyər verdiyi şeydir. Azad olmaq şansımız olanda isə, yenidən rus dostlarımıza ehtiyac duyuruq. Sizin bizə kömək etmək şansınız olduqda isə, yanımızda olmursunuz".

**Tarix: 06.08.1994**
**Mənbə: The Economist (İngiltərə)**
**(Vol. 332, İssue 7875)**
**Məqalənin adı: Russia's Caucasian cauldron**
***www.economist.com***

# RUSİYANIN QAFQAZ QAZANI

Bir dəfə Fransa hökmdarı IV Henri[117] hər ailəyə qazanda bir toyuq söz vermişdi. Qafqazda isə yerli hərbi rəhbərlər deyəsən hər qaraja tank vəd edirlər. Onlar Avropanın Asiyaya keçdiyi regionda – digər slavyan sərhəd bölgəsi Balkanlarda döyüşlərdən, onların başa çatmasının daha çətin olduğunu sübut edən zorakılıq və qeyri-sabitlik dövrünün yaradılmasına kömək ediblər. Qafqazın bir hissəsi Rusiya üçün faktiki olaraq qadağa zonasına çevrilib. Milli qürur isə Kremlə tamamilə kənarda qalmağa imkan vermir.

Qara dənizlə Xəzər dənizi arasındakı ərazidə döyüşlər Zaqafqaziyanın üç müstəqil dövlətində daha şiddətli olub. Ermənistan və Azərbaycan 6 ildir ki, əsasən ermənilərin məskunlaşdığı Dağlıq Qarabağ anklavı[4] uğrunda vaxtaşırı döyüşürlər. Gürcüstanda qan tökülməyən yeganə etnik region Acarıstan[118] olub və hətta indi orada da sülh zəif görünür.

Kommunizmdən sonra, bütün respublikaların – ən azı nəzəri cəhətdən – Rusiya Federasiyasının bir hissəsi olduğu Şimali Qafqazda həyat çox kobud və qısa olub. Dağıstanda[119]

vəba xəstəliyi yayılıb. Qonşu Çeçenistanda,[120] qəzəblənmiş rusların bildirdiyinə görə, bu yaxınlarda hökumət rus casusu hesab edilən üç nəfərin kəsilmiş başlarını ictimaiyyətə nümayiş etdirib. Qərbə doğru, Rusiyanın digər respublikası Şimali Osetiya[121] vətəndaşları tərəfindən öz evlərindən qovulan 60.000 nəfər qaçqın İnquşetiya Respublikasında[122] tam səfalət içində yaşayır.

Rusiya üçün Qafqazdakı müharibə ilə Balkanlardakı müharibə arasında böyük fərq var. Hər şeydən əvvəl tarix və coğrafiya Rusiyanı Qafqaza daha çox çəkir. Ruslar 19-cu əsrin çox hissəsini dağlıq regionu zəbt etmək üçün mübarizədə keçiriblər. Bundan əlavə, Rusiyanın burada maddi maraqları da var. Krasnodar[123] və Stavropol[124] əyalətləri boyunca uzanan və bir vaxtlar rus kazaklarının cənubdakı hərbi postlarının yerləşdiyi Kuban[125] Rusiyanın "taxıl anbarı"dır. Əgər Qafqazdakı xaos Kubana yayılsaydı, Rusiya milyonlarla ton taxıl idxal etmək məcburiyyətində qalardı.

Bundan başqa, burada Rusiyanın daxili siyasəti də mövcuddur. Qafqazda sərtlik prezident Boris Yeltsinin[32] komandasına "qosudarstvenniki" – güclü dövlət tərəfdarı – olduqlarını göstərməyə və beləliklə də, rus millətçi opponentlərinə qarşı durmağa kömək edir. Rusiyanın cənub cinahında təcavüzkarcasına davranan müdafiə naziri Pavel Qraçovun[94] özünün həqiqətən komandan olduğunu sübut etməyin yollarını tapmağa ehtiyacı var.

Beləliklə, Rusiyanın Qafqaza müdaxilə etməsi üçün motivlər kifayət qədərdir. O, hətta etnik cəhətdən Balkanlardan da mürəkkəb olan daha böyük sahəyə girməyin risklərini də bilir. Əsrlər boyu dağlar çox azad, üsyankar xalqların qalıqları üçün sığınacaq olub. Təkcə Dağıstanda onlar 30-dan çox dildə danışırlar.

Onlarla ərazi mübahisəsi etnik parçalanmaları daha da gücləndirir. Onların bəziləri 1920-ci illərin əvvəllərində Rusiya nəzarətini bərpa edən bolşeviklərin təsadüfi dəyişikliklərinə gedib çıxır. Təəcüblü Naxçıvan[126] və Dağlıq Qarabağ[65] anklavları[31] 1921-ci il Sovet-Türkiyə müqaviləsinin məhsulu idi.[127] İkinci Dünya Müharibəsi zamanı Stalin[66] çeçenləri, inquşları, qaraçayları, kalmıkları, balkarları və Gürcüstanda yaşayan Axıska türklərini, almanlarla işbirliyində olduqları iddiası ilə Orta Asiyaya sürgün etməklə[128] vəziyyəti daha da pisləşdirib. Stalinin ölümündən onilliklər sonra onlara evlərinə qayıtmağa icazə verildikdə, qonşu xalqların onların torpaqlarını zəbt etdiyini görüblər.

Rusiyanın ultra-populist potensial lideri Vladimir Jirinovski[129] Rusiyanın Hind okeanına çıxışını təmin etmək üçün "cənuba son həmlə" etməyə çağırır. Eyni zamanda, onun özü belə, "Rusiyanın siyasi orqanizmində irin toplantısı" adlandırdığı Qafqazın yenidən işğalından ehtiyatlanır. Cənab Yeltsinin Cənubi Qafqaza münasibətdə siyasəti bu ehtiyatlılığı əks etdirir. Rusiya bu üçlüyü yalnız peyk kimi istəyir: yenidən udma çoxlu problemlər gətirər.

**İşlərin qarışması**

İndiyədək Rusiya Cənubi Qafqazda kifayət qədər uğur qazanıb. Birincisi, keçən il o, Gürcüstan və Azərbaycanı Müstəqil Dövlətlər Birliyinə[35] daxil olmağa məcbur etdi. Üçlükdə ən çox rusiyayönümlü olan Ermənistan əvvəldən bu Birliyin üzvdür. Sonra Gürcüstanı, daimi Rusiya hərbi bazalarını bu ölkə ərazisində yerləşdirməyə razı saldı. Gürcülər ötən ilin sonunda, Abxaziyada[130] Gürcüstandan ayrılmaq uğrunda vuruşan üsyançılara Rusiyanın gizli yardımını dayandırmağın yeganə yolunun bu olduğunu öyrəndilər.

Bu, həm də Rusiyanın daha böyük qələbəsinin açarı idi. Bu ilin ilk altı ayı ərzində Gürcüstan prezidenti Edvard Şevardnadze[11] beynəlxalq sülhməramlıların Abxaziyaya yerləşdirilməsinə çağırıb, amma bu, əhəmiyyətsiz olub. Daha sonra, iyunun sonunda o, Abxaziya ilə Gürcüstan arasındakı sərhəddi müşahidə etmək üçün 3000 rus əsgərini qəbul etməklə, Kremldə bişirilmiş sadə tortu yeməyə məcbur oldu - bu, Qara dəniz sahilində faydalı ərazi olan Abxaziyaya faktiki olaraq rus müştərisi olmaq imkanı verdi.

Rusiyanın ən böyük zəfəri iyulun 21-də BMT Təhlükəsizlik Şurasının bu sülhməramlılara legitimlik möhürü vurması oldu, baxmayaraq ki, o, ilkin olaraq onların göndərilməsinə heç vaxt sanksiya verməmişdir. Rusiya öz arxa həyətində tam fəaliyyət sərbəstliyi almayacağı təqdirdə, Amerikanın Haitiyə müdaxiləsinə veto qoya bilər.

İndi Kreml Dağlıq Qarabağa müdaxilə üçün BMT-nin razılığını almaq istəyir. Azərbaycan hökuməti Rusiyanın rəhbərlik etdiyi sülhməramlıları, onların yalnız üçdə birinin rus olacağı təqdirdə qəbul edəcəyini bildirib, lakin o vaxtdan azərbaycanlılar bu şərtdən əl çəkməli olublar, çünki Rusiya, Moskvanın Rusiyaya aid göl kimi gördüyü Xəzər dənizində neft sənayesini dirçəltmək üçün Azərbaycanın səylərini əngəlləməklə hədələyib.

Dağların şimal tərəfində Rusiyanın baş ağrıları daha şiddətlidir. Ən ağrılısı isə 1991-ci ilin sonunda Rusiyadan ayrıldığını elan edən Çeçenistandır.[131] O vaxtdan bəri Rusiya onu özünə tabe edə bilmir. Bir neçə gün əvvəl Rusiyanın baş naziri deyib ki, "Rusiya Çeçenistanla münasibətlərində konkret qərarlar qəbul etməli olacağı mərhələyə çatıb". Danışıqlar, deyəsən, bitib, çünki keçmiş sovet Hərbi Hava Qüvvələrinin generalı,

ərazini öz mülkü kimi idarə edən Cövhər Dudaev[132] artıq bəyan edib ki, "hazırda Rusiya ilə heç bir razılaşma ola bilməz". Rusiyanın rəqib qrupa dəstək verərək onu devirmək cəhdləri, görünür, heç bir nəticə vermir.

Yenə də son variant – Rusiyanın təcavüzü – təhlükə doğurur. Birincisi, qoşun göndərilməsi digər etnik münaqişələrə səbəb ola bilər. Dağıstanın qərb sərhəddində yaşayanların əksəriyyəti çeçenlərdir və onlar istənilən işğala qarşı çıxırlar. Stavropol kazakları hücum üçün onların ərazisindən plasdarm kimi istifadə olunmasını istəmirlər, çünki öz çeçenləri onsuz da kifayət qədər hiyləgərdir. Digər mümkün plasdarm olan İnquşetiya Şimali Osetiya ilə ərazi mübahisəsi səbəbindən artıq qarışıqlıq içindədir.

İkincisi, Rusiya Federasiyasında sayı təxminən 1 milyon nəfər olan çeçenlər qorxulu bir qüvvədir. Rusiya müdaxilə edərsə, Moskvadakı güclü çeçen mafiyası qan davasına başlayacaq. Çeçenistanda döyüşmək isə daha pis olardı.

Bununla belə, beynəlxalq hüquqa əsasən Çeçenistan, şübhəsiz ki, Rusiyanın tərkibindədir. Cənab Yeltsinin onun getməsinə necə icazə verəcəyini başa düşmək çətindir. Əgər o, qoşun göndərməli olsa, onda çar generalının, Qafqaz döyüşündə daha tez qalib gəlmək üçün nə lazımdır sualına verdiyi qısa cavabı xatırlaya bilər: "Bir çeçen".

**Tarix: 09.08.1994**
**Mənbə: Modern Power Systems (İngiltərə) (Vol.14 İssue 8)**
**Məqalənin adı: İran assists with Ordubad project**
***www.modernpowersystems.com***

# İRAN ORDUBAD LAYİHƏSİNƏ YARDIM EDİR

İran və Azərbaycan Ermənistanın Naxçıvana qarşı tətbiq etdiyi enerji blokadası ilə mübarizə aparmaq məqsədilə, Azərbaycanın Naxçıvan Muxtar Respublikasındakı Ordubad su elektrik stansiyasının genişləndirilməsi barədə razılığa gəliblər. Elektrik stansiyası İranın Naxçıvan, Ermənistan və Azərbaycanla sərhədini təşkil edən Araz çayı üzərində tikiləcək. Bu, mövcud Araz Su Elektrik Stansiyasının gücünü 50 faiz artıracaq.

Azərbaycan Dövlət Neft Şirkətinin rəhbəri bildirib ki, Naxçıvanda təxminən 700 GVt/saat enerji var, bunun 100 GVt/saatını Araz stansiyası verir. Təxminən 200 GVt/saat İrandan, 400 GVt/saat Türkiyədən gəlir.

Yeni müəssisədə işlərin gələn ilin yazına qədər başlanacağı gözlənilir. Layihənin tikinti planını Azərbaycan hazırlayacaq. Yeni stansiyanın planlaşdırılan gücü ildə 190 GVt/saatdır. Stansiya tamamlandıqdan sonra Azərbaycan artıq İrandan elektrik enerjisi almayacaq.

Azərbaycanın sərhəd şəhəri İmişli ilə İranın Parsabad şəhəri arasında İrana, hal-hazırda onun Naxçıvana verdiyi elektrik enerjisi qədər elektrik enerjisi vermək üçün elektrik kabelləri çəkilir.

İki ölkə enerji sistemlərinin birləşdirilməsi ideyasını da müzakirə edib və Azərbaycanın hazırda Ermənistanın işğalı altında olan cənub-qərb regionu ilə İran arasındakı Xudafərin körpüsünün yaxınlığında, Araz çayı üzərində böyük su elektrik stansiyası tikmək barədə prinsipial razılıq əldə olunub. Bu müəssisəyə dörd elektrik stansiyası daxil olacaq və onun 700 milyon dollara başa gələcəyi gözlənilir.

Daily Oil Bulletin

**Müəllif: Alan Kovski**
**Tarix: 12.08.1994**
**Mənbə: Daily Oil Bulletin (ABŞ)**
**Məqalənin adı: New Jersey firm becomes first from West to close production accord with Azerbaijan**
***www.dailyoilbulletin.com***

## NYU CERSİ ŞİRKƏTİ AZƏRBAYCANLA HASİLAT MÜQAVİLƏSİ BAĞLAYAN İLK QƏRB ŞİRKƏTİ OLDU

Vaşinqton – Nyu Cersidə yerləşən "United BMB Group İnc" Azərbaycanda neft hasilatına dair yekun sazişi imzalayan ilk Qərb konserni oldu.

Türk əsilli, "United BMB" şirkətinin əsasını qoyan və onun rəhbəri olan Əli Rza Bozkurt,[133] rəhbərlik etdiyi başqa bir şirkət, "BMB A.S. Türkiyə Engineering" şirkəti vasitəsilə, Qazaxıstanda üç yataqdan neft hasilatına dair artıq müqavilə imzalayıb. "BMB" şirkəti hələlik Qazaxıstandakı yataqların istismarına başlamayıb.

Bozkurt həm Azərbaycanda, həm də Qazaxıstanda ABŞ-nin xidmət şirkətlərindən istifadə etməyi planlaşdırır. Azərbaycanla bağlı planının qarşısında duran əsas maneə "Overseas Private İnvestment Corp." (OPİC) şirkətindən siyasi risk sığortası almaqdır. Bozkurt onsuz heç bir sövdələşmənin olmayacağını bildirib.

OPİC isə bildirib ki, Azərbaycandakı layihələri sığortalaya bilmir, çünki Azərbaycan Ermənistanla Dağlıq Qarabağ ərazisi uğrunda müharibə[3] apardığı üçün 1992-ci ildə qəbul edilən Azadlığa Dəstək Aktına[29] görə, o, bu ölkəyə yardımı dayandırıb.

Atəşkəs[105] may ayından bəri silahları susdurub. Münaqişənin həlli təkcə "United BMB" layihəsinin deyil, həm də Qərb konsorsiumuna "Azəri" və "Çıraq" dəniz yataqlarının işlənməsinə icazə verən milyardlarla dollarlıq sövdələşmənin tamamlanmasına imkan verə bilər.

"United BMB" sazişi çərşənbə günü axşam saatlarında burada Bozkurt və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti, ölkə Prezidentinin oğlu İlham Əliyev[2] tərəfindən imzalanıb. Bu, hələ Azərbaycan parlamenti tərəfindən təsdiqlənməlidir.

İcraçıların dediyinə görə, Azərbaycan sazişi ümumi məhsulun pay bölgüsü sazişləri əsasında modelləşdirilib, lakin onlar hasilatın bölünməsi və ya vergi dərəcələri ilə bağlı təfərrüatları açıqlamayıblar. Onlar bildiriblər ki, layihə Azərbaycanın vergi dəyişikliklərindən qorunur.

Layihə həyata keçəcəyi təqdirdə "United BMB" ilkin qiymətləndirmə mərhələsində 4 milyon dollar yatıracaq və sonrakı mərhələlərdə isə, daha çox öhdəliklər götürəcək. Bir quyu üçüncü, digəri isə dördüncü ildə istismara verilməlidir.

Müqavilə istismar potensialı və Bakıdan təxminən 20 mil qərbdə, Xəzər dənizinin yaxınlığında aşkar edilən iki yataq, "Qaradağ" və "Korgöz" yatağı olan 251 kvadrat mil ərazini əhatə edir. Ərazi qismən işlənilib, lakin azərbaycanlılar quyulardan neft axınını saxlamaqda çətinlik çəkirlər.

İki yataqdan 30-60 milyon barrel neft hasil ediləcəyi gözlənilir. "United BMB" şirkətinin layihə meneceri Riza Ogur Emek

bildirib ki, şirkəıt müəyyən edilmiş yataqların alt qatlarında kəşfiyyat işləri aparacaq.

Azərbaycanlılar 3.300-4.600 fut dərinlikdən, sıxlığı 27-28 APİ, tərkibində 0,2-0,3% kükürd olan neft hasil edirlər. Emek bildirib ki, "United BMB" şirkəti 11.500 fut dərinliyə çatmağı planlaşdırır.

Başqa bir maneə çox böyük miqdarda neft aşkar edilərsə, nə etməli problemidir. Bozkurt bildirib ki, İranla regional satış və mübadilə müqaviləsi əsasında az miqdarda neft nəql edilə bilər və bu, Azərbaycanda fəaliyyət göstərən türk şirkətləri bunu artıq edirlər.

Böyük həcmli kəşf isə, ixrac boru kəmərinin tikintisinə ehtiyac yaradacaq, Azərbaycan və Türkiyə hökumətləri bəyan ediblər ki, bu, Türkiyəyə çəkilməlidir, mümkündür ki, İran ərazisindən keçməklə.

İndi ABŞ vətəndaşı olan Bozkurt dövlət dilinin Azərbaycan türkcəsi olduğu bir ölkədə türkcə danışmağın sövdələşməni qazanmaq üçün üstünlük olduğunu vurğulayıb. Bozkurt özünün Qazaxıstan sövdələşməsi üçün Türkiyə hökumətindən yardım alıb. Bu layihə üçün "BMB" və tərəfdaşı "Siemens A.G." şirkəti Aktubinskdə 600 milyon dollar dəyərində elektrik stansiyası tikirlər. Bunun müqabilində "BMB" üç neft yatağının operatoru olacaq.

**Müəllif: Charles Fenyvesi**
**Tarix: 22.08.1994**
**Mənbə: U.S. News & World Report (ABŞ) (Vol.117 İssue 8)**
**Məqalənin adı: No more war**
*www.usnews.com*

# ARTIQ MÜHARİBƏ YOXDUR

Ermənistan və Azərbaycan diplomatik demarş tətbiq edir: faks ilə sülh.

Bir vaxtlar diplomatlar zərif masalar ətrafında əyləşərək, sülh danışıqları aparırdılar. Sonra Henri Kissincer[134] özünün məkik diplomatiyasının köməyi ilə sülhməramlılığı modernləşdirdi. Hal-hazırda müharibə vəziyyətində olan keçmiş sovet respublikaları – Ermənistan və Azərbaycan – bir addım da irəli gediblər. Azərbaycan daxilindəki erməni anklavı,[4] Dağlıq Qarabağ uğrunda altı ildir davam edən, on beş min nəfərdən çox insanın həyatına son qoyan və bir milyon nəfərdən çox insanın evlərini tərk etməsinə səbəb olan döyüşlərdən sonra iki köhnə düşmən faks vasitəsilə sülh bağlayır. Son bir neçə ay ərzində hər iki ölkənin liderləri, demək olar ki, hər gün faks vasitəsilə məktublaşırlar. Hazırda ABŞ-da ilk rəsmi səfərində olan Ermənistan prezidenti Levon Ter-Petrosyan[61] əmindir ki, fikir mübadiləsi ilin sonuna qədər daimi sülhə gətirib çıxaracaq.

**Tarix: 09.09.1994**
**Mənbə: UN Chronicle (ABŞ)**
**(Vol. 31, İssue 3)**
**Məqalənin adı: Seeking a new order through violence?**
*www.un.org/en/chronicle*

# ZORAKILIQ YOLU İLƏ YENİ NİZAM AXTARIRSINIZ?

Aprelin 6-da Belarusda rəsmi səfərdə olan baş katib Butros Butros Qali[88] bu ölkənin Elmlər Akademiyasında bəyan edib ki, tarix öz axarı ilə irəliləyir. O, vurğulayıb ki, "xalqlar və millətlər çox vaxt zorakılıq yolu ilə özlərinin kəsilmiş tarixləri ilə yenidən əlaqə yaratmağa çalışırlar. Bu gün dövlətlərdə nizam və sülh, "soyuq müharibə" dövründə olduğundan daha çox yerdə və daha çox yollarla sınaqdan keçirilir". Onun bəyanatı bəzi keçmiş sovet respublikalarında, xüsusilə də, aprel, may və iyun ayları ərzində BMT-nin nəzarətində olan Azərbaycan, Ermənistan və Tacikistandakı vəziyyəti əks etdirir.

Belarusun paytaxtı və 12 keçmiş sovet respublikasını birləşdirən Müstəqil Dövlətlər Birliyinin (MDB)[35] Katibliyinin yerləşdiyi Minskdə olduğu müddətdə cənab Butros-Qali Belarusun dövlət başçısı Meçislav İvanoviç Qrib[135] və digər yüksək vəzifəli şəxslərlə görüşüb.

Müzakirə olunan mövzular arasında tərksilah və konversiya, BMT və MDB arasında sülhyaratma sahəsində əməkdaş-

lıq, Baltikyanı ölkələrdə vəziyyət, keçid iqtisadiyyatına malik ölkələrin çətinlikləri və Çernobıl fəlakətinin nəticələri olub.

**Ermənistan/Azərbaycan**

İyunun 17-də, Təhlükəsizlik Şurasının üzvləri "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda" – ermənilərin məskunlaşdığı anklavda[4] – "və onun ətrafında" münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün ATƏM-in vasitəçilik səylərini dəstəklədiklərini bir daha təsdiq edərək, ATƏM-in Minsk Konfransı və Minsk Qrupunun[90] sədri Yan Eliassona[136] bu səylərə dair 9 iyun hesabatına görə təşəkkür ediblər.

Cənab Eliasson Şuraya (S/1994/687) məlumat verib ki, kövrək olan 12 may atəşkəsinə[105] "əsasən əməl olunur". ATƏM və Rusiya Federasiyası özlərinin vasitəçilik səylərini inteqrasiya etmək üçün bir neçə raund məsləhətləşmələr keçirmiş və atəşkəs rejimini möhkəmləndirmək üçün, həmçinin Rusiya Federasiyasının təklif etdiyi və "tərəflərin prinsip etibarı ilə qəbul etdikləri" MDB-A təklifi də daxil olmaqla, ATƏM müşahidəçilərinin göndərilməsini nəzərdə tutan saziş layihəsini işləyib hazırlamışlar. Mayın 27-də Azərbaycan Təhlükəsizlik Şurasına, sazişi imzaladığı barədə məlumat verib (S/1994/635) və Ermənistan tərəfinin indiyədək onu imzalamağa razı olmadığını bildirib.

Digər tərəfdən, cənab Eliasson bildirib ki, son hərbi əməliyyatlar nəticəsində, artıq mövcud olan 1 milyon nəfər qaçqın və köçkünə 50,000 nəfər də əlavə olunub. Cənab Eliasson onu da əlavə edib ki, bütün maraqlı tərəflər "bu faciəli münaqişənin" həllinə nail olmaq üçün konkret addımlar atmalıdırlar. Hazırda əlimizdə olan "tarixi fürsəti əldən vermək olmaz", – o, vurğulayıb.

The Washington Post

**Müəllif: Daniel Southerland**
**Tarix: 20.09.1994**
**Mənbə: The Washington Post (ABŞ)**
**Məqalənin adı: Azerbaijan, Western firms agree on Caspian Sea oil drilling plan**
*www.washingtonpost.com*

# AZƏRBAYCAN VƏ QƏRB ŞİRKƏTLƏRİ XƏZƏR DƏNİZİNDƏ NEFT QUYULARININ QAZILMASI PLANI ÜZRƏ RAZILIĞA GƏLİBLƏR

Diplomatlara və sənaye təmsilçilərinə görə, bu gün Qərbin yeddi neft şirkəti Xəzər dənizində neft quyuları qazmaq üçün Azərbaycanın milli neft şirkəti ilə milyardlarla dollar dəyərində olan müqavilə imzalayacaq.[137]

Konsorsiumda ən böyük paya sahib olan "Amoco Corp." və "British Petroleum PLC" şirkətlərinin mətbuat katibləri söyləyiblər ki, Azərbaycandakı neft yataqlarını inkişaf etdirmək üçün yeddi milyarddan artıq vəsait lazım olacaq.

"BP" şirkətinin mətbuat katibi Yan U.Fouler söyləyib ki, neft yataqlarında ən azı üç milyard barel layt markalı xam neft ehtiyatının olduğu sübuta yetirilib.

Eyni zamanda, konsorsiuma "Pennzoil Co.", "Unocal Corp.", "McDermott International Inc.", "Statoil and Ramco Oil

Services PLC" of Norway, "Turkish Petroleum Co." və "Saudi-owned Delta-Nimir" şirkətləri daxildir. "BP" və Çikaqoda yerləşən "Amoco"nun hər birinin 17 faiz payı var.

Belə görünür ki, istehsalın pay bölgüsü üzrə müqavilədə bir çatışmazlıq var: qapalı su hövzəsi olan Xəzər dənizinin qərb hissəsində yerləşən və açıq dəniz limanlarına çıxışı olmayan keçmiş sovet respublikasından nefti nəql etmək üçün boru kəməri üzrə hələ də razılıq yoxdur. Neft Türkiyədəki ixrac terminallarına çatmaq üçün Rusiya, İran və ya qeyri-stabil Qafqaz ərazisindən keçməli olacaq.

Vaşinqtondakı azərbaycanlı diplomatlar bildiriblər ki, Türkiyəyə və ya Rusiyaya İran və ya Ermənistandan keçməklə yeni boru kəmərinin inşası dörd ildən artıq zaman və təxminən iki milyard dollar vəsait tələb edəcək.

Diplomatlar söyləyiblər ki, boru kəmərinin tikintisi üzrə danışıqlar müqavilə imzalanandan dərhal sonra başlayacaq.

Onlar bildiriblər ki, müqaviləyə uyğun olaraq, Azərbaycan 30 il müddətində gəlirin təxminən 80 faizinə sahib olacaq. İlk neft 1997-ci ildə axmağa başlayacaq.

Baxmayaraq ki, Azərbaycan dünyada ən qədim neft hasil edən regionlardan biridir, onilliklər ərzində onun neft sərvətinin əksər hissəsini Rusiya ələ keçirib.

Azərbaycan özünün neft müqaviləsində Rusiyanın "LUKoil" neft şirkətinə on faiz pay verib.[97] Neft işi ilə məşğul olan bəzi rəhbər şəxslər düşünürlər ki, bu fakt Rusiyada layihəyə mane olmaq əvəzinə, onun uğurla nəticələnməsinə maraq yaradacaq.

Diplomatlar qeyd ediblər ki, neft müqaviləsi tam həyata keçirilərsə, "LUKoil" şirkətinin payı ən azı 10 milyard dollar dəyərində olacaq.

Rusiya neft sənayesi Yaxın Şərqdəki ehtiyatlarla rəqabət aparan ehtiyatlara nəzarət edir, lakin ötən altı ildə sənaye istehsalı, iqtisadiyyatın zəifləməsi və avadanlıqların aşınması səbəbindən təxminən yarıya qədər aşağı düşüb.

Azərbaycanın neft müqaviləsinə daxil olan bəzi qərb neft şirkətləri üç ildən artıq müddətdə Azərbaycanın rəhbər şəxsləri ilə danışıqlar aparıblar.

Danışıqlara Azərbaycandakı korrupsiya, siyasi qeyri-stabillik, hüquq və vergi strukturlarının olmaması, Azərbaycan və Ermənistan arasında elan edilməmiş müharibənin yaratdığı təzyiqlər və Bakının ərazilərin beşdə bir hissəsini itirməsi mane olub.

Əslində keçən il imzalanmalı olan müqavilə Azərbaycan prezidenti Əbülfəz Elçibəyin[8] keçən ilin iyununda hakimiyyətdən uzaqlaşdırılmasından[23] sonra təxirə salındı. Onu keçmiş Siyasi Büro üzvü olan Heydər Əliyev[1] əvəz etdi.

**Müəllif: Brian Killen**
**Tarix: 21.09.1994**
**Mənbə: The Globe & Mail (Kanada)**
**Məqalənin adı: Azerbaijan signs $7 – billion oil deal Western companies join with former Soviet republic to develop oil fields**
*www.theglobeandmail.com*

# AZƏRBAYCAN 7 MİLYARD DOLLARLIQ NEFT MÜQAVİLƏSI İMZALAYIR. QƏRB ŞİRKƏTLƏRİ NEFT YATAQLARININ İŞLƏNMƏSİ ÜÇÜN KEÇMİŞ SOVET RESPUBLİKASI İLƏ BİRLƏŞİR

Qərb neft konsorsiumu[138] Azərbaycanla, Xəzər dənizində üç neft yatağının işlənməsi üçün 7 milyard dollardan (ABŞ) çox dəyəri olan müqavilə[137] imzalayıb, bu da müharibədən əziyyət çəkən respublikada yeni bir neft bumuna ümidləri artırır.

Üç illik danışıqlar nəticəsində bir çox müxtəlif dövlətlərlə imzalanan dünənki saziş xarici neft şirkətləri ilə keçmiş sovet respublikası arasında ən böyük saziş idi.

Səksən faiz paya malik olan konsorsiuma Britaniyanın "British Petroleum Co. PLC" və "Ramco Energy PLC", Norveçin "Statoil", Amerika Birləşmiş Ştatlarının "Amoco Corp.", "Pennzoil Co.", "Unocal Corp.", və "McDermott International Inc.", Türkiyənin "Turkish Petroleum", Rusiyanın "Lukoil" şirkəti daxildir.

Gələcək ixrac boru kəmərinin marşrutu, onun maliyyələşdirilməsi və Xəzər dənizində sərhədlərlərin statusu ilə bağlı məsələlərdə hələ də qeyri-müəyyənliyin olmasına baxmayaraq, saziş Azərbaycan Parlamenti tərəfindən ratifikasia edildikdən sonra qüvvəyə minəcək.

Azərbaycan Dövlət Neft Şirkətinin rəhbəri Natiq Əliyev[139] konsorsium üzvləri ilə birgə keçirdiyi mətbuat konfransında bildirib: "Biz ixrac boru kəməri məsələsini həll etməyincə, bu müqavilə işləməyəcək".

ABŞ Enerji Departamenti katibinin qaz və neft üzrə köməkçisinin müavini Reg Spiller, Bakıdan telefon danışığı zamanı bildirib ki, boru kəmərinin marşrutu üçün "dörd və ya beş variant" var və tərəflər iqtisadi və siyasi baxımdan ən sərfəli variantı tapmağa çalışırlar.

Azərbaycan Prezidenti Heydər Əliyev[1] bildirib ki, bu saziş illərdir qeyri-sabitlikdən əziyyət çəkən və ərazisinin təxminən beşdə biri, Dağlıq Qarabağ anklavı[4] uğrunda döyüşən etnik erməni düşmənlər[140] tərəfindən işğal edilən ölkəsinə firavanlıq gətirəcək.

İlkin hesablamalara görə, Azərbaycan 30 illik sövdələşmədən təxminən 34 milyard dollar gəlir əldə edəcəyini təxmin edir.

Əsrin əvvəlində dünya neft hasilatının təxminən yarısı Azərbaycanın payına düşürdü,[141] lakin onun qurudakı yataqlarının çoxu tükənib və kənar yardım olmadan dənizdə işləri həyata keçirmək üçün vəsaiti yoxdur.

"British Petrolium" şirkətinin prezidenti Con Braun[142] bildirib ki, "Azəri" və "Çıraq" yataqlarının, eləcə də "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin işlənməsi və hasilatın

pay bölgüsü üzrə 30 illik müqavilənin icrası təxirə salınmadan həyata keçirilməlidir.

O, deyib ki, "bu, əsrin dörddə üçü ərzində beynəlxalq neft şirkətlərinin Azərbaycana ilk dəfə qayıdışının əlamətidir". Yataqlarda 3 milyard barreldən çox çıxarıla biləcək yüngül xam neftin olduğu təxmin edilir. Müqavilənin ratifikasiyasından sonrakı 18 ay ərzində neftin nəql olunmasının başlanması gözlənilir.

On bir ildən sonra hasilat ən yüksək səviyyəyə, gündə 600.000 barrellə çatmalıdır. Bu, Azərbaycanın hazırki illik hasilatından təxminən üç dəfə çoxdur. Cənab Əliyev Rusiya Xarici İşlər Nazirliyinin Xəzər dənizinin ehtiyatlarının həmsərhəd dövlətlər – Rusiya, Azərbaycan, Qazaxıstan, Türmənistan və İran tərəfindən birgə idarə olunması ilə bağlı bəyənatlarından narahat görünmür.

Cənab Spiller isə deyib: "Əgər üç il ərzində aparılan danışıqlar gərgin olubsa, onların icrası daha çətin olacaq"

Kreml bu sövdələşməni çox da alqışlamadı. Xarici İşlər Nazirliyinin sözçüsü Qriqori Karasin[143] dünən keçirdiyi mətbuat konfransında Rusiyanın bu müqaviləni "rəsmi olaraq tanınmayacağını" bildirib.

"Xüsusilə təbii ehtiyatlar və Xəzər dənizinə münasibətdə birtərəfli hərəkətlar beynəlxalq hüquqa ziddir və dənizin ekoloji sisteminə zərər vurma riski daşıyır" – o, deyib. Cənab Əliyev isə qeyd edib ki, Rusiyanın "Lukoil" şirkəti layihədə 10 faiz paya malikdir[97] və deyib ki, ötən ilin oktyabrında Rusiyanın cənub şəhəri Həştərxanda keçirilən görüşdə Azərbaycanın öz yurisdiksiyasına dair təminat alıb.

**Müəllif: Patrick Donovan**
**Tarix: 21.09.1994**
**Mənbə: The Guardian (İngiltərə)**
**Məqalənin adı: Boost for exports as BP wins share of oil bonanza: Patrick Donovan in Baku reports on the deal to exploit the Azerbaijan reserves**
***www. theguardian.com***

# NEFTDƏN PAYINI ALAN BP İXRACI ARTIRIR: BAKIDAN PATRİCK DONOVAN AZƏRBAYCANIN EHTİYATLARININ İSTİSMARI ÜZRƏ SÖVDƏLƏŞMƏ HAQQINDA MƏLUMAT VERİR

Dünən British Petroleumun rəhbərlik etdiyi konsorsium üç illik danışıqlara yekun vuraraq, Azərbaycanın dəniz neft ehtiyatlarının işlənməsinə dair, keçmiş Sovet İttifaqında indiyədək imzalanmış ən böyük xarici investisiya sazişi olan, 8 milyard dollar dəyərində (5,3 milyard funt sterlinq) yeni müqavilə imzaladı.[137]

Dünən "BP"-nin icraçı direktoru Con Braun[142] bildirib ki, Xəzər dənizi layihəsi Britaniya şirkətləri üçün "böyük imkanlar" açacaq, çünki neft axınına növbəti 18 ay ərzində başlamaq üçün sürətli sifariş proqramına malikdir.

İmzalanma mərasimində iştirak etmək üçün bir qrup deputatla Bakıda səfərdə olan energetika naziri Tim Eqqar[144] hökumətin ixracı maliyyələşdirmək üçün Azərbaycana kreditlər

verilməsinə qoyduğu qadağaya yenidən baxaraq, müqavilələrin bağlanmasında Britaniya şirkətlərinə yardım göstərmək yolları axtardığını söyləyib.

Layihə Xəzər dənizində sahildən 120 mildən çox məsafədə yerləşən və 4 milyard barrel neft ehtiyatı olan iki dəniz yatağını əhatə edir.[145] Bu, Britaniyanın iş azlığı ilə üzləşən, mühəndislik və neft hasilatı ilə məşğul olan şirkətləri üçün həyati əhəmiyyətli imkan kimi qiymətləndirilir.

Bir sıra şirkət, o cümlədən "Foster Wheeler" və "Kaiser Engineering" şirkətləri artıq sifarişlər uğrunda rəqabətə qoşulmaqda maraqlı olduqlarını bildiriblər, lakin hökumətin, ixrac kreditlərini maliyyələşdirməkdən imtina etməsi onların cəhdlərini gecikdirir.

Çoxdan gözlənilən saziş, artıq uzun müddətdir təşəkkül tapan neft sənayesinə malik və keçmiş Sovet İttifaqında üçüncü ən böyük xam neft istehsalçısı olan Azərbaycanda "BP"-nin kütləvi iştirakına imkanı verəcək.

Amerika, Norveç və Rusiyanın ən böyük neft istehsalçılarının daxil olduğu konsorsium mənfəətin 20 faizini bölüşəcək, qalan hissə isə Azərbaycan hökumətinə çatacaq.

17,1 faiz paya malik "BP"dən başqa, konsorsiuma "Amoco", "Pennzoil", "McDermott", "Ramco", "Statoil", "Turkish Petroleum", "Unocal" və Azərbaycan Dövlət Neft Şirkəti daxildir.

Digər böyük tərəfdaşlar arasında Moskva hökumətinin maraqlarını təmsil etdiyi hesab edilən Rusiya dövlət muxtar neft hasilatı şirkəti – "LUKoil" da var.

Dünən, az tanınan, Fars Körfəzində yerləşən, özəl şirkət olan, Səudiyyə Ərəbistanı kral ailəsi tərəfindən himayə olunduğu deyilən "Delta" şirkətinin gözlənilməz iştirakı ilə Səudiyyə hökumətinin də kiçik marağı olduğu üzə çıxdı.

Bu sövdələşmə, iqtisadiyyatın nəzarətdən çıxmasının qarşısını almaq üçün hər dəfə daha çox ümidsiz addımlar artan Azərbaycan üçün həyati əhəmiyyətə malikdir.

Keçmiş Dövlət Təklükəsizlik Komitəsinin generalı və Siyasi Büro üzvü, ötən il qansız qarşıdurmadan[9] sonra hakimiyyətə gələn ölkə prezidenti Heydər Əliyev[1] bildirib ki, konsorsium bazar iqtisadiyyatına yol açmaqda həlledici rol oynayacaq.

Cənab Eqqar bildirib ki, hökumət Azərbaycan hökuməti ilə tez-tez aparılan danışıqlar zamanı razılaşmanı dəstəkləyib, lakin o, təkid edib ki, bu razılaşma mübahisəli Dağlıq Qarabağ bölgəsi[12] uğrunda bu yaxınlarda Azərbaycanın Ermənistanla apardığı qanlı vətəndaş müharibəsi[146] ilə bağlı olmasın. "Heç bir gizli gündəlik" yox idi, cənab Eqqar deyib.

Müqavilə Azərbaycan Parlamentində rəsmi təsdiq olunmalıdır[147] – baxmayaraq ki, bundan imtina ediləcəyi ehtimalı azdır.

Neftin ixracı üçün kəmərin harada tikiləcəyi ilə bağlı siyasi yüklü məsələ hələ də həllini tapmayıb. Əsas variant İran və ya Rusiyadan keçə bilər – onların hər ikisi tərəfdaşlardan ən azı biri üçün qəbuledilməz olardı. Dünən “BP” boru kəmərinin tikintisi ilə bağlı üstünlükləri şərh etməkdən imtina etdi.

**Müəllif: Carey Scott**
**Tarix: 09.10.1994**
**Mənbə: Sunday Times (İngiltərə)**
**Məqalənin adı: Spy stories keep Baku on the jump; Azerbaijan**
***www. thesundaytimes.co.uk***

# CASUS HEKAYƏLƏRİ BAKINI GƏRGİNLİKDƏ SAXLAYIR; AZƏRBAYCAN

Lideri eyvana çıxarkən, günortadan sonra Bakıda isti günəş altında səbrlə gözləyən 20.000 nəfər azərbaycanlıdan ibarət izdihamdan güclü alqış və qışqırıq qalxdı. 71 yaşlı liderin portretlərini tutaraq irəli atılan başıörtüklü, beli bükülmüş yaşlı qadınlar, çiynində körpə uşaqları olan gənc atalar, nimdaş geyimli qaçqınlar və səliqəli geyinmiş neftçilər, hamısı, Azərbaycan xalqının "babamız" dediyi insanı uca səslə dəstəkləyirdilər.

Prezident Heydər Əliyev[1] nəinki ölkədəki son çevriliş cəhdinin[148] qarşısını ala bilmiş, hətta onların nəzərində o, keçmiş sovet respublikası olan Azərbaycanda yeni hökumətin Rusiyanın istəyi ilə devrilə bilməyəcəyini Moskvaya göstərmişdi. "'KQB hər şeyi təşkil edib, bu, açıq-aşkardır"' – camaatı seyr edən qızıl dişli, əlində silah olan bir polis dedi. "Moskva Azərbaycanın müstəqil və zəngin olması fikrinə dözə bilməz"'.

Ötən həftə Azərbaycanın daxili siyasətində qaranlıq intriqaların üzə çıxdığı bir vaxtda, Xəzərin qoxulu neft limanı olan

Bakıda söhbətlər casus romanından parçalar kimi səslənirdi. Qərblə bu yaxınlarda imzalanan, Britaniyanın "BP" şirkətinin aparıcı rol oynadığı və milyonlarla dollar dəyərində olan neft müqaviləsi[137] fonunda, Azərbaycana nəzarət uğrunda mübarizə ilə bağlı spekulyasiyalar getdikcə daha kobud hal alır.

Bazar ertəsi baş prokurorluq binasını ələ keçirən döyüşçü, müharibə qəhrəmanı Rövşən Cavadov[149] Siyasi Büronun veteranı Əliyevi prezident vəzifəsindən uzaqlaşdırmaq üçün, Rusiyadan ilhamlanan və Moskvaya keçmiş müstəmləkəsi üzərində daha çox hakimiyyət verəcək sui-qəsddə baş nazir Surət Hüseynovla[10] əlbir olubmu?

Yoxsa indi hakimiyyətdən uzaqlaşdırılan Hüseynovun özü məkrli planın qurbanı olub? O, çərşənbə axşamı gecə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə silahlı üsyana rəhbərlik etdiyini inkar edərək, bütün bu vaxt ərzində Bakıda olduğunu deyib. O, axşam yeməyində olduğu üçün prezidentin telefon zənglərinə cavab verməyib.

Bəziləri hesab edirdilər ki, Əliyev Hüseynovdan xilas olmaq və indi ona geniş səlahiyyətlər verən fövqəladə vəziyyət elan etmək üçün bütün bu rəngarəng tamaşanı əvvəlcədən təşkil edib. Ancaq daxili ittifaqlar nə olursa olsun, əksəriyyət bu xaosun arxasında Rusiyanın qaranlıq imperiya kölgəsini görə biləcəyinə əmin idi.

"Rusiya buradadır, o, hər yerdədir", – Azərbaycan Xarici İşlər Nazirliyinin yüksək səviyyəli rəsmisi deyib. "Onların nazirlikdə, orduda adamları var. KQB hələ də buradadır".

Şotlandiya boyda müsəlman respublikası olan Azərbaycan üzərində Rusiyanın nəzarəti saxlamaq səbəbinin tarixi müstəmləkəçilik marağından daha böyük olduğunu anlamaq çətin deyil. Sovet dövründə zəif texnologiya və komanda iqtisadiy-

yatı onun Xəzər sahillərində yerləşən böyük neft ehtiyatlarından kifayət qədər istifadə etməməsinə gətirib çıxarmışdı.

Azərbaycanın Moskvadan müstəqilliyi nə qədər kövrək olsa da, o, "BP" kimi qərbi neft şirkətlərinin diqqətini çəkib, onlar Bakını növbəti Küveytə çevirməyə və bu prosesdən böyük gəlirlər əldə etməyə ümid edirlər. Azərbaycanlılar da xarici sərmayəyə eyni dərəcədə həvəslidirlər; Rusiya inqilabından əvvəl Bakıda dünyada ilk neft buruğu yerləşirdi və Azərbaycan ümid edir ki, onun qara qızıl ehtiyatlarının yenidən kəşfi taqətdən düşmüş ölkəyə Dağlıq Qarabağ anklavı[4] uğrunda Ermənistanla apardığı altı illik müharibədən[3] qurtulmağa və Rusiyadan davamlı iqtisadi müstəqillik almağa kömək edə bilər.

Sentyabrın 20-də, çoxdan gözlənilən, uzun müddət təxirə salınan neft müqaviləsinin imzalanması üçün şampan şüşələri az qala açılmışdı ki, Bakının tozlu üfüqündə problem göründü. Rusiyanın "Lukoil" neft şirkəti müqavilədə 10% paya malik olsa da,[97] Moskvada sövdələşmənin "qeyri-qanuni" olması ilə bağlı səs-küy yarandı.

Rusiyanın iqtisadiyyat naziri Aleksandr Şoxin[150] deyib ki, Rusiya adından danışıqlar aparan hər kəs işdən azad edilməlidir, Xarici İşlər Nazirliyi isə Xəzər dənizinin ekologiyası ilə bağlı narahatlığını ifadə edib. "Onların bu kartı oynaya biləcəklərinə inanmaq olduqca çətindir", – ekologiya məsələlərində Rusiyanın acınacaqlı rekordunu qeyd edən qərbli bir neftçi deyib.

Rusiyanın razılaşmanı tənqid etməsi nəzərə alınsa, onda ötən həftə baş verən qarışıqlıq gözlənilməz deyildi. Prezident Əliyevin mətbuat xidmətinin rəhbəri Səlahəddin Quliyev[151] açıq deyib: "Mən heyrətamiz təsadüflərə inanmıram". Xarici İşlər Nazirliyinin rəsmisi bunun Rusiya ilə əlaqəli olduğuna da eyni

dərəcədə əmindir. "Bu dəfə onlar müxtəlif məmurlar arasında daxili toqquşmalar yaratmağa cəhd etdilər; kim bilir gələn dəfə nə olacaq?"

Rusiyanın Bakıdakı səfiri Valter Şoniya[152] Rusiyanın iştirakını qəti şəkildə inkar edib, lakin o, ironiyalı təbəssümlə bildirib: "Azərbaycanda potensial napoleonlar çoxdur". Bununla belə, yekun nəticə 8 milyard dollar dəyərində sövdələşmənin gedişatını əhəmiyyətli dərəcədə neytrallaşdırdı, çünki müqavilə, hazırda neft ilə bağlı məsuliyyəti bölüşdürməklə məşğul olan parlament tərəfindən də ratifikasiya edilməlidir.

Əliyev bu dəfə zirvəyə qalxdı və siyasi həyatda qalmağı başardı. "Əliyevin hakimiyyətdə qalması üçün Allaha dua edirəm" deyən Şoniyadan tutmuş, Əliyevin, onun prezidenti "bizi Rusiyanın kölgəsindən çıxara bilər" deyən gənc köməkçisinə qədər hamı Azərbaycanın onsuz batacağı fikri ilə razılaşır. Onun süqutunun qaçılmaz nəticələri bu həftə diqqət mərkəzində oldu və Rusiyanın həmişə kənarda gözlədiyini həm azərbaycanlı millətçilərə, həm də Qərb neftçilərinə xatırlatdı.

**Müəllif: Colin Barraclough**
**Tarix: 10.10.1994**
**Mənbə: İnsight on the News (ABŞ)**
**(Vol.10, İssue 41)**
**Məqalənin adı: War-weary Azerbaijan eyes Russian peace pipe**
***www.insightnews.com***

## MÜHARİBƏDƏN YORULMUŞ AZƏRBAYCAN RUSİYANIN SÜLH ÇUBUĞUNA GÖZ DİKİR

*(Peace pipe – təntənəli mərasimlərdə sülh müqavilələr bağlanarkən qəlyan çubuğundan istifadə edilirdi, termin buradan yaranıb – Tərcüməçi)*

Uzun illərdir Dağlıq Qarabağ ərazisində etnik qruplararası münaqişə[71] davam edir. Azərbaycanlılar inanırlar ki, həlledici güc Moskvanın əlindədir.

Azərbaycan müharibədən yorulub. Altı ildir ki, keçmiş sovet respublikasındakı qruplaşmalar Dağlıq Qarabağ ərazisi uğrunda mübarizə aparır, bu, keçmiş Sovet İttifaqı daxilində ən uzunmüddətli münaqişəyə çevrilib.

Döyüşlər Azərbaycanın iki prezidentinin devrilməsi və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi ilə nəticələnib. İqtisadiyyatın böyük bir hissəsi dayanma həddindədir. Görünür ki, ordu ələ keçirilən əraziləri geri qaytarmaq qabiliyyətində deyil və Bakıda bir neçə

ölümcül bomba hücumunun törədilməsi müharibənin paytaxta qədər gəldiyini göstərir.

Bundan başqa, 1 milyon nəfər azərbaycanlı, əhalinin səkkizdə biri, öz ölkəsində qaçqına çevrilib. Onlar, Birləşmiş Millətlər Təşkilatı və onlara yardım edən qeyri-hökumət yardım agentlikləri tərəfindən "köçkünlər" kimi tanınırlar.

İran, Türkiyə və Səudiyyə Ərəbistanı köçkünlərin bir qismini yerləşdirmək üçün düşərgələr tikiblər, lakin onların əksəriyyəti Bakıda məktəb və ya bələdiyyə binalarında yaşayır. Ermənilərin hücumlarından xilas olaraq qaçanlar isə, vaxtilə qışda heyvanları saxlamaq üçün nəzərdə tutulan sığınacaqlarda yaşayırlar. Yayda şiddətli istilər olur. Su təminatı kilometrlərlə uzaq məsafədən keçən şor sulu kanal vasitəsilə həyata keçirilir. Sığınacaqların nahamar taxta damlarında gizlənən ilanlar qaçqınların dərdini daha da artırır.

Nəhayət, azərbaycanlılar acınacaqlı reallıqla üz-üzədirlər. Sovet İttifaqından müstəqillik qazanan azərbaycanlılar ölkənin tam suveren olmamasından əziyyət çəkirlər. Qonşu ölkənin Azərbaycana qarşı apardığı müharibə ölkəni diz çökdürüb.

BMT-nin Bakıdakı nümayəndəsi istehza ilə qeyd edir ki, "Azərbaycan daş və qaya – Rusiya və İran – arasında, şeytan və mavi dəniz – Ermənistan və Xəzər – arasında sıxılıb qalıb".

Ağçabədi rayonunun yaxınlığındakı sığınacaqda yaşayan 55 yaşlı Meyxanım Şükürova deyir ki, "Mən burada təkəm". "Təhsilim yoxdur, siyasətdən bixəbərəm. Bircə onu bilirəm ki, ermənilər mənim qohum-qardaşımı girov saxlayıb, evimi dağıdıblar. Mən sadəcə öz torpağıma qayıtmaq istəyirəm".

Laçın rayonundan olan təhsilli köçkün Gülbəs Xudayarova oğlunun üzündən milçəkləri qovaraq deyir: "İki il əvvəl gö-

zəl evlərimiz, təmiz suyumuz var idi. Bir də indiki vəziyyətimizə baxın".

Dağlıq Qarabağ müsəlman Azərbaycanın daxilindədir, lakin burada əsasən pravoslav xristian ermənilər yaşayır. Ərazi kənd təsərrüfatı üçün yararlı və faydalı qazıntılarla, qiymətli sərvətlə zəngin dağlıq ərazidir. 1988-ci ildə, Sovet İttifaqı dağılana qədər, Qarabağın erməni əhalisi birtərəfli qaydada Azərbaycandan ayrılaraq, müstəqillik elan etmək və Ermənistana birləşmək niyyətində olduqlarını bəyan etdilər.[63] Mübahisə Sovet İttifaqı dağılandan sonra getdikcə dərinləşdi; etnoslararası qətllər, BMT-nin hesablamalarına görə, on beş min nəfərə yaxın əsgər və mülki şəxsin həyatına son qoyan hərbi toqquşmalara səbəb oldu. 1992-ci ildən bəri Ermənistan qoşunları Qarabağı əhatə edən Azərbaycan ərazisinin böyük hissəsini ələ keçirib.

Xudayarova kimi qaçqınların əksəriyyəti hesab edir ki, Azərbaycan itirilmiş torpaqlarını geri alana qədər mübarizəni davam etdirməlidir. Paytaxtda yaşayan azərbaycanlılar isə artıq müharibədən yorulublar. Onlar əzab-əziyyətdən, Bakının ən hündür yerindəki qəbiristanlığın sürətlə genişlənən ərazisini müşahidə etməkdən də yorulublar.

Yoldaşı döyüş zamanı itkin düşən 40 yaşlı İrina, "Mən gənc oğlumla ortada qaldım", – deyə şikayətlənir. "Yemək almaq kifayət qədər çətindir, paltar almağı isə ağlıma belə gətirə bilmirəm. Biz hamımız bu müharibədən bezmişik".

"Artıq iqtisadiyyat yoxdur – heç nə işə yaramır" – rəfiqəsi Xanım onunla razılaşır. "Yaşamaq mümkün deyil".

Hökumət müharibə xərclərini ödəmək üçün bələdiyyə xidmətlərini dayandıraraq, Bakının küçələrini çala-çuxura çevirib. Şəhərin su təchizatı o qədər pis vəziyyətdədir ki, hər gün cəmi bir neçə saat su verilir. Sahibsiz itlər səkidə getdikcə genişlənən zibilxanalarda eşələnirlər. Azərbaycanlılar, bir vaxtlar

sovet şəhərləri içərisində ən çox Avropanı xatırladan şəhərin ötüb-keçən gözəlliyindən təəssüflənirlər.

Müharibə, xüsusilə ölkə gəncləri arasında populyar deyil. Azərbaycanlı gənc kişilər hərbi xidmətdən rüşvətlə yayınmağa çalışırlar; çağırışçılar isə çox vaxt hərbi xidmətdən qaçırlar. "Mən Qarabağda bir il xidmət etmişəm" – bir neçə həftə əvvəl öz bölməsini tərk etmiş çağırışçı Qabil deyir, "sonra qaçdım. Qarabağ müharibə deyil, oyundur. Biz isə sadəcə piyadayıq".

Qabil vətənini yadelli təcavüzə qarşı müdafiə etdiyinə inanaraq, vətənpərvər kimi orduya qoşulmuşdu. İndi o, məyus halda, Rusiyanı Azərbaycanın müstəqilliyini məhdudlaşdırmaq üçün Qarabağ münaqişəsindən istifadə etməkdə ittiham edir. O, dostunun mənzilini tərk etməkdən qorxur, çünki polis gündüzlər sənədləri yoxlayır, gecələr isə yolları kəsir.

"Hazırda burada təzyiq qruplarından istifadə edirlər" – hərbi xidmətdən yayınmağı bacaran dostu Elçin məlumat verir: "Bir qrup əsgər, avtobus dayanacağında gözləyən hər kəsi toplayır və hamısını hərbi məntəqəyə aparır. Əgər şəxsiyyətinizi təsdiq edən sənədiniz yoxdursa, sizi ön cəbhəyə göndərəcəklər".

Müharibə artıq səngiyir. May ayında yerli komandirlər arasındakı faks mübadiləsi nəticəsində ilkin atəşkəs əldə edilib. 1992-ci ilin iyun ayında, Minsk Qrupu[90] kimi tanınan, beynəlxalq vasitəçilərdən ibarət qrup çərçivəsində başlayan sülh danışıqları yavaş-yavaş həll yoluna yaxınlaşır. Bununla belə, güclü nüfuzunu qoruyub saxlamaq istəyən Rusiya isə öz himayəsi altında problemin sürətli həllinə çalışır. "Rusiya regionun yeganə vasitəçisi və himayədarı olmağa can atır" – deyə Bakıdakı Qərb diplomatı bildirib.

Həqiqətən də, azərbaycanlıların əksəriyyəti əmindir ki, müharibənin həlli son nəticədə Moskvanın üzərinə düşür.

"Azərbaycanlıların rusların Qafqazda ipləri çəkməsi ilə bağlı bir neçə sui-qəsd nəzəriyyəsi var" - Qərb diplomatı deyir. "Mən Azərbaycanda sabitliyi pozmaq üçün Moskvada koordinasiya olunmuş siyasətin olduğuna əmin deyiləm, lakin ruslar, şübhəsiz ki, münaqişədən istifadə etməyə hazırdırlar".

Qarabağ anklavını[4] silah və texnika ilə təmin edən Ermənistan ərzaq, enerji və yanacaq baxımından Rusiyadan asılıdır.

Bundan başqa, Azərbaycan rəsmiləri Qarabağ erməniləri ilə yanaşı döyüşən rus qoşunlarını da əsir götürdüklərini iddia edirlər. Buna cavab olaraq, azərbaycanlılar iki min nəfər əfqan mücahidini öz tərəflərində döyüşmək üçün cəlb ediblər. Moskva isə sülh prosesinə nəzarət etmək üçün Azərbaycana rus qoşunlarını göndərmək istəyir. "Problem ondadır ki, azərbaycanlılar rusları bitərəf hesab etmirlər" - diplomat deyir. "Onlar Rusiyanın Ermənistanla müttəfiq olduğuna inanırlar".

Azərbaycanlılar, Sovet İttifaqının son günlərində artan müstəqillik hərəkatını yatırmaq üçün 1990-cı ildə Bakıya daxil olan rus qoşunlarını[153] da xatırlayırlar. Sovet xüsusi təyinatlıları, əsasən etnik ruslar, iki gün ərzində iki yüz nəfərə yaxın mülki vətəndaşı qətlə yetirib.

İstər-istəməz azərbaycanlılar seçim şanslarının az olduğunu etiraf edirlər. "Azərbaycanlılar rus qoşunlarının Azərbaycana gələcəyini qəbul etməyə başlayıb" – diplomat deyir. Buna baxmayaraq, Azərbaycan hökumətinin rəsmiləri Moskvanın Azərbaycana qoşun yeritməkdə gizli niyyətinin olduğundan şübhələnirlər. Onlar rusları, Qarabağ sülh sazişindən bəhanə kimi istifadə edərək, Azərbaycanda hərbi bazalar açmaq və Azərbaycanın İran və Türkiyə ilə cənub sərhədini idarə etmək planları hazırlamaqda ittiham edirlər.

Rusiya rəsmiləri, görünür ki, azərbaycanlıların qorxularını təsdiqləyirlər. "Biz azərbaycanlılarla onların cənub sərhədlərinin mühafizəsi ilə bağlı əməkdaşlıq etmək istəyirik" – Rusiyanın Bakıdakı səfirliyinin attaşesi Maksim Qorkun-Voevoda təsdiqləyib. "Praktika göstərir ki, Azərbaycan İran fundamentalizminin təsirinə açıqdır. Cənub cinahımızda bu cür təsirə son qoyulmalıdır".

Qeyri-sabitliyin hökm sürdüyü Şimali Qafqaz coşğun müsəlman xalqlarının bir qismini əhatə edir və Moskva üçün təhlükəsizlik problemləri yaratmaqda davam edir. Rusiya hökuməti Bakının əməkdaşlıqdan imtina edəcəyi təqdirdə Azərbaycanla sərhədini bağlamaqla hədələyib. Hətta Rusiyanın Azərbaycandakı səfiri Valter Şoniya[152] da Rusiyanın Azərbaycandakı dominant rolundan açıq danışır. "Rusiya bu ölkənin böyük qonşusudur" – o, qeyd edib. "Rusiya hakimiyyətinin reallığını inkar edən hər hansı bir siyasətçi vəzifədə uzun müddət qala bilməz". O, 1993-cü ildə Rusiyanın himayə etdiyi dövlət çevrilişi nəticəsində devrilmiş Azərbaycanın eks-prezidenti, türkçü, Əbülfəz Elçibəyə[8] işarə edib.

Bununla belə, azərbaycanlıların bir qisminin fikrincə, Rusiyanın gizli snayper atəşindənsə, Azərbaycanda onun açıq-aşkar mövcudluğu daha yaxşı olardı. Veteran zabitlərdən biri deyir: "Altı ildir ki, mən ölkəmin müstəqilliyi uğrunda mübarizə aparıram". "Mən bu qanlı müharibəyə nifrət edirəm, lakin nə qədər ki, Rusiya qoşunları Azərbaycanda yerləşib, bu, belə də davam edəcək".

Hətta yüksək rütbəli hökumət rəsmiləri belə qorxurlar ki, Rusiyanın iştirakı olmadan bağlanan sülh sazişi davamlı olmayacaq. "Heç kim Rusiyanı rədd etmir, heç kim Rusiyanı sıxışdırmır" – Azərbaycan xarici işlər nazirinin müavini Araz

Əzimov[154] deyib. “Biz Rusiyanı heç bir nizamlanmadan kənarlaşdıra bilmərik. Biz sadəcə istərdik ki, sülhə nəzarət edən müşahidəçilər bir neçə ölkədən olsun”.

Son həftələrdə, Rusiya prezidenti Boris Yeltsinin[32] təyin etdiyi xüsusi nümayəndə, Vladimir Kazimirovun[155] rəhbərliyi altında Rusiyanın vasitəçilik səyləri Minsk Qrupunu geridə qoyub, baxmayaraq ki, hər iki saziş layihəsinin şərtləri bir-birinə çox oxşayır. “Hazırda biz hər iki mövqenin oxşarlığını müşahidə edirik” – xarici işlər nazirinin Qarabağ üzrə müavini Tofiq Zülfüqarov[156] deyib. “Mən əminəm ki, biz Kazimirovun təklif etdiyi xətt üzrə razılığa gələ bilərik”. Zülfüqarov bildirib ki, Azərbaycan Ermənistandan Dağlıq Qarabağa müəyyənləşdirilmiş, məhdud girişi qəbul edəcək. “Əlbəttə, biz bundan məmnun deyilik, ancaq realist yanaşırıq”.

Minsk Qrupunun vasitəçiliyini dəstəkləmək bir yana, Qərb ölkələri Qarabağ münaqişəsinə qarışmaqdan çəkinirlər. Əgər Azərbaycan, Qərb neft şirkətləri konsorsiumu ilə, Azərbaycanın neft yataqlarına təxminən 9 milyard dollar sərmayə qoyuluşunu nəzərdə tutan gəlirli neft müqaviləsi[137] imzalayarsa, onda vəziyyət dəyişə bilər.

Əsrin əvvəlində Azərbaycan dünya neftinin yarısını istehsal edirdi. Sənaye ekspertləri deyirlər ki, hasilat 9 il ərzində gündə 600 min barrelə çata bilər ki, bu da onu Fars körfəzi dövləti olan kiçik Qətər ilə eyni səviyyəyə qoya bilər.

Amerikanın “Amoco”, “Pennzoil” və “Unocal” neft şirkətlərinin daxil olduğu konsorsium, layihə rəhbəri “British Petroleum” ilə birlikdə iyulun ortalarında “inam nümayişi” protokolu imzalasa da, Rusiyanın hərbi vasitə ilə hədə-qorxusu onları təlaşlandırıb. Qərb neft rəsmisi deyib: “Bu, bizim üçün

çox böyük riskdir." "Biz hələ öyrənmə yolundayıq. Danışıqlar çox həssas mərhələdədir."

Bununla belə, konsorsium müqaviləni bağlamaq astanasında olduğunu təsdiqləyib. "Ruslar 200 ildir ki, bu əraziyə nəzarət edir" – neft şirkətinin sözçüsü deyib. "Əgər Azərbaycan hökuməti Rusiyaya müqavimət göstərməyə çalışsa, burada daha bir vətəndaş müharibəsi olacaq".

Elçibəyin gedişindən sonra hakimiyyətə gələn Prezident Heydər Əliyev[1] ümid edir ki, neft sövdələşməsi vasitəsilə Qarabağ məsələsində Qərbdən konkret dəstək almağa nail olacaq. O, may ayında NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına imza atıb və o vaxtdan Türkiyə, Avropa və ABŞ-dən hərbi və siyasi zəmanət tələb edir.

"Burada ABŞ-nin üzərinə böyük vəzifə düşür" – Bakıdakı türk diplomat deyib. "Rusiyaya təzyiq göstərməlidirlər. Ruslar heç kimi dinləmir".

Bununla belə, ABŞ hökuməti Azərbaycana görə Rusiya ilə münasibətlərini pozmaq istəmir. Qərb üçün bu, prioritetlər məsələsidir. Üstəlik, Qərb diplomatları Moskva qarşısında nisbi gücsüzlüklərini çox yaxşı başa düşürlər. Bakıdakı yüksək rütbəli Qərb diplomatlarından biri deyib: "Mən ruslara qarşı sanksiyalar tətbiq edəcəyimizi düşünmürəm və biz onlara əlbəttə ki, bir çubuq da qaldırmayacağıq".

Azərbaycan ərazisinin beşdə birinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasına baxmayaraq, Ermənistana ticarət embarqosu tətbiq etdiyinə[58] görə Azərbaycanı təcavüzkar dövlət kimi təsnif edən 1992-ci il "Azadlığa Dəstək" Aktına edilən düzəliş[29] ABŞ-yə daha da mane olur.

Azərbaycanda işləyən əcnəbilər ölkənin beynəlxalq arenada dəstəyinin olmamasından şikayətlənirlər. Birləşmiş Millətlər

Təşkilatının Bakıdakı nümayəndəsi Roberto Laurenti:[157] "Bu ölkə çox şeyə sahib ola bilərdi". "Neft, zəngin kənd təsərrüfatı, hətta turizm. Biz bu fürsətin əldən getməsinə imkan verməməliyik".

**Müəllif: David J. Kramer**
**Tarix: 10.10.1994**
**Mənbə: İnsight on the News (ABŞ)**
**(Vol.10, İssue 41)**
**Məqalənin adı: İran,Turkey and Russia vie over Central Asian energy**
*www.insightnews.com*

# İRAN, TÜRKİYƏ VƏ RUSİYA MƏRKƏZİ ASİYANIN ENERJİ RESURSLARI UĞRUNDA MÜBARİZƏ APARIR

Bu yaxınlarda İran Türkmənistanla türkmən təbii qazının Türkiyə və Avropaya daşınması üçün boru kəməri tikilməsi barədə saziş imzalayıb. Qərb, Mərkəzi Asiyanın enerjisi resurslarının İran vasitəsilə ixracı ideyasına qəti şəkildə etiraz edir.

Tehranı bu regiondan enerji ixrac etmək rolundan məhrum etmək Qərbin İranın sabit valyuta gəlirlərini, islam fundamentalizmi və terrorizminin yayılması üçün istifadə oluna biləcək pulları məhdudlaşdırmaq strategiyasının bir hissəsidir.

İqtisadiyyatın sürətlə pisləşməsindən əziyyət çəkən İran Mərkəzi Asiya dövlətləri ilə əlaqələri daha sıx inkişaf etdirmək niyyətindədir.

İran, Sovet İttifaqının süqutundan sonra Türkmənistan, Azərbaycan və başqa dövlətləri inkişafın "İran modelinə" yönəltmək üçün uğursuz cəhd edib.

Türkiyə özünün "dünyəvi modeli" ilə regionda nüfuz uğrunda İranla rəqabət aparır.

Bununla belə, boru kəməri sazişi Türkmənistanın istər İran, istərsə də Türkiyə modelinə meyllənməsi ilə az əlaqəlidir, nəinki onun Rusiyanın təsirindən qurtulmaq cəhdləri ilə.

Keçmiş sovet məkanında ikinci ən böyük qaz istehsalçısı olan Türkmənistan dünya qaz istehsalının təxminən 3 faizini təmin edir. O, 8,1 trilyon kubmetr həcmində qiymətləndirilən qaz ehtiyatları ilə yanaşı, 700 milyon ton neft ehtiyatına da malikdir.

Təbii sərvətlərinə, aqrar bazasına və xarici sərmayələri cəlb etmək cəhdlərinə baxmayaraq, Türkmənistan biznes qurmaq üçün çətin yer olaraq qalır.

Ticarət departamentinin məlumatına görə, Amerikanın ölkədəki fəaliyyəti bir investorla məhdudlaşır: burada Amerikanın yalnız iki şirkətinin ofisi və ya əməliyyatları mövcuddur.

Türkmənistan ölkənin təbii qazını ixrac etmək üçün "Qazprom"dan – Rusiya dövlət qaz inhisarından – asılıdır. Son zamanlarda Rusiya Qazaxıstandakı və Azərbaycandakı xarici enerji müəssisələrindən əldə edilən gəlirlərdən pay almağa iddia edir. "Qazprom" şirkətinin Rusiyadan qaz ixracını artırmaq istəyi, Türkmənistanın öz qaz axınlarını artırmaq səyləri Rusiya maraqları ilə ziddiyyət təşkil edir.

Sadəcə olaraq, Moskva Mərkəzi Asiyadan enerji daşıyıcılarının ixracı üzərində özünün inhisarını və ya regionda təsirini itirmək istəmir. Boru kəmərinin tikintisinin 6-8 il çəkəcəyi gözlənilir. Layihənin maliyyələşdirilməsinə 7 milyard dollar ayırmaq iqtisadi çətinlikləri olan İran və Türkmənistan üçün çətin olacaq. Beynəlxalq kredit agentliklərinin yardımı olmasa –

ABŞ-nin İrana münasibəti nəzərə alınsa, bu az ehtimal olunur – boru kəməri razılaşması uzaqdadır.

Birləşmiş Ştatlar isə, Türkmənistana alternativ təklif etmədən, sadəcə razılaşmaya qarşı çıxa bilməz. Bir tərəfdən, ABŞ Rusiyanı Mərkəzi Asiya dövlətlərinə iqtisadi təzyiqi azaltmağa sövq edə bilər. Bu çətin baş tutar və həm də Moskvanı qıcıqlandıra bilər. Digər tərəfdən isə, Vaşinqton Dağlıq Qarabağ münaqişəsində davamlı razılaşmanın əldə olunması üçün fəallıq göstərə, Azərbaycandakı qeyri-sabitliyin əsas mənbəyini aradan qaldıra və Türkmənistandan başlayan, Azərbaycan ərazisindən keçən türk boru kəməri ideyasını canlandıra bilər, lakin bu da ümidverici deyil.

Türkmənistan üçün yalnız İran variantı qalır. Türkmənistan iqtisadi dirçəlişi üçün mübarizə aparır; özünün ixracını artırmaq üçün İrana üz tutmaq prezident Saparmurat Niyazovun[158] yeganə çıxış yoludur. Baxmayaraq ki, ABŞ və onun müttəfiqləri İranın qarşısını almaq cəhdlərini davam etdirirlər, onlar dərk etməlidirlər ki, Türkmənistan zərurət səbəbindən bu kampaniyaya qoşulmayacaq.

The Washington Post

**Müəllif: Lally Weymouth**
**Tarix: 11.10.1994**
**Mənbə: The Washington Post (ABŞ)**
**Məqalənin adı: Azerbaijan – Who'll stop the Russians?**
***www.washingtonpost.com***

## AZƏRBAYCAN – RUSLARI KİM DAYANDIRACAQ?

Müstəqil qonşu respublika Gürcüstanda güclü təsir imkanı əldə edən ruslar, hal-hazırda öz təsirlərini digər keçmiş sovet müstəmləkəsi olan Azərbaycan üzərində genişləndirməyə çalışırlar.

Öz qoşunlarını yenidən ölkəyə gətirmək, burada yenidən hərbi baza yaratmaq, neft ehtiyatlarına nəzarət etmək və sərhədləri mühafizə etmək Moskvanın Azərbaycandakı məqsədlərinə daxildir. Beləliklə, Klinton[41] administrasiyası keçmiş sovet respublikası barədə nə etməli olduğuna qərar verməlidir, ya Moskvanın istəklərinə baş əyməli, ya da Azərbaycanın müstəqil dövlət kimi mövcudluğuna kömək etməlidir. Bu region üzrə yüksək səviyyəli nümayəndə olmuş Con Mareskanın[159] sözlərinə görə, bu ABŞ – Rusiya münasibətləri üçün bir sınaq nümunəsidir.

Azərbaycan digər keçmiş sovet respublikalarından iki vacib məqama görə fərqlənir: Birincisi, orada rus quru qoşunları yoxdur. İkincisi, Moskva iddia edir ki, Gürcüstanda və digər respublikalarda sülhməramlı əməliyyatları həyata keçirmək üçün hələləik qüvvə yoxdur, lakin Azərbaycanda beynəlxalq sülhməramlı qüvvələr üçün baza artıq mövcuddur.

Bu, Ermənistanla davamlı münaqişə səbəbindən yaranıb. İki il əvvəl, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) beynəlxalq "Minsk Qrupu"[90] bu əraziyə müşahidəçilər göndərmək barədə razılıq əldə etmişdi. Bu ildən etibarən ATƏM beynəlxalq sülhməramlı qüvvələrin regiona göndərilməsi məsələsini də razılaşmaya daxil edib.

Bu razılaşmaya əsasən, Birləşmiş Ştatlardan quru qoşunları göndərmək tələb olunmayacaq. Belə olduğu halda, Vaşinqton logistik avadanlıq, maliyyə və müşahidəçilərlə töhfə verməyi təklif edib. Birləşmiş Ştatlar, eyni zamanda, ATƏM-in sülhyaratma üçün xərclərinin təxminən 9 faizini qarşılayacaq. (Birləşmiş Millətlərin qüvvəsi bu əraziyə göndərildiyi təqdirdə, xərclərin 33 faizi Vaşinqton tərəfindən ödəniləcək).

ATƏM səylərinə başladığı andan etibarən, ruslar onun fəaliyyətinə mütəmadi olaraq mane olmağa, danışıqları özlərinin istədiyi formada aparmağa çalışır və sonda, Rusiyanın və ya Müstəqil Dövlətlər Birliyinin (MDB)[35] ayrıca sülhməramlı qüvvələrini göndərmək təklifini irəli sürüblər.

Aydın məsələdir ki, azərbaycanlılar kəskin şəkildə Rusiyanın bu planının əleyhinə çıxırlar və bunu Moskvanın onların ölkəsində yenidən öz hökmranlığını qurmaq üçün bir vasitə kimi anlayırlar.

Sovet imperiyası dağıldığı andan etibarən, Azərbaycanda siyasi həyat mürəkkəb olub. 1992-ci ilin iyun ayında seçkilər keçirildi[7] və azərbaycanlılar Əbülfəz Elçibəyi[8] prezident seçdilər. O, Türkiyənin yaxın müttəfiqi idi və ruslar ona şübhə ilə yanaşırdılar.

Elçibəy Moskvadan asılı olmadığını, müstəqil olduğunu sübut etməyə çalışırdı, öz ölkəsi və Ermənistan arasında amansız və uzunsürən Dağlıq Qarabağ münaqişəsinin həllində

ATƏM qrupunu dəstəkləyirdi. O, neftlə zəngin olan Azərbaycanla Qərb neft şirkətləri arasında müqavilə bağlamağa səy göstərib.

Rusiyaya görə, Əbülfəz Elçibəy artıq sərhədləri keçmişdi. O, prezident olaraq, Londonda neft müqaviləsini imzalamaq ərəfəsində idi, bu səbəbdən də, rus ordusu ilə sıx əlaqələrə malik olan satqın korpus komandiri Surət Hüseynov[10] tərəfindən təşkil edilən çevriliş nəticəsində hakimiyyətdən uzaqlaşdırıldı. Əslində, çevriliş, Qafqazı "təsir dairəsi"nin bir hissəsi kimi görməyə davam edən Moskva tərəfindən maliyyələşdirilib və dəstəklənib.

Keçmiş Dövlət Təhlükəsizlik Komitəsinin generalı və Kommunist Partiyasının rəhbəri Heydər Əliyev[1] ölkənin prezidenti, Surət Hüseynov isə baş naziri olduqdan sonra hakimiyyət uğrunda mübarizə davam etmişdi. O zamandan etibarən, Heydər Əliyev xarici və daxili qüvvələri və təzyiqləri müdrikliklə idarə edərək, tədricən Kommunist Partiyasının aparat üzvündən milli liderə çevrildi.

Onun hakimiyyəti dövründə də hərbi vəziyyət pisləşməkdə davam edib. Mübahisəli Dağlıq Qarabağ vilayəti[12] üzərində nəzarəti tam təmin etməklə yanaşı, ermənilər Azərbaycan ərazisinin dörddə birini işğal etməyə müvəffəq olublar. Rusiyanın erməniləri dəstəklədiyinə, hətta silahla təmin etdiyinə heç bir şübhə yoxdur.

Heydər Əliyev neft müqaviləsindən Rusiyaya on faiz pay verməsinə baxmayaraq, Moskva Azərbaycan hökumətini təklif edilən neft müqaviləsini imzalamaqdan çəkindirmək üçün dəfələrlə xəbərdar etmişdi. Heydər Əliyev isə irəli addım atdı və sentyabrın 20-də "Amoko" və "Penzoil" şirkətlərinin daxil olduğu konsorsium ilə müqavilə imzaladı[137] və beləliklə, potensial olaraq Qərbə yaxınlaşdı.

Buna cavab olaraq, ruslar britaniyalılara diplomatik nota verdilər, onları Xəzər dənizi və onun resurslarının gələcəyi barədə danışıqlar aparmağa çağırdılar və Azərbaycan nefti də daxil olmaqla, dənizdən əldə olunan gəlirdən bərabər pay tələb etdilər.

Ruslardan çəkinməyən Heydər Əliyev sentyabrda Birləşmiş Ştatlara səfər etdi.[160] Həmin gün Birləşmiş Ştatların rəsmiləri və neft şirkətlərinin nümayəndələri ilə neft müqaviləsinin imzalanmasını qeyd etmək üçün təşkil olunan şam yeməyi zamanı Heydər Əliyev Bakıda, hökumətdə yer alan iki yüksək rütbəli rəsminin qətlə yetirildiyi[161] xəbərini aldı.

Bu qətllərdə Rusiyanın əlinin olduğunu söyləyənlər iddia edirlər ki, bu, həm azərbaycanlı millət vəkillərinə, həm də Heydər Əliyevin özünə xəbərdarlıq idi. Heydər Əliyev Bakıya qayıtdığı zaman Azərbaycanın ən böyük şəhərlərindən biri olan Gəncədə dövlət çevrilişinin hazırlandığını öyrəndi. Bakıda da iğtişaş var idi, DTK tərəfindən təlim görmüş xüsusi təyinatlı qüvvələr, həmçinin daxili işlər nazirinin müavini Rövşən Cavadova[149] sadiq olan şəxsi qüvvələr ilə Heydər Əliyevə sadiq olan qoşunlar arasında toqquşma baş verdi.

Prezident televiziyada çıxış edərək, xalqı öz tərəfinə çəkdi. Baxmayaraq ki, Heydər Əliyev Cavadovu "bağışladı", iğtişaşlara görə baş nazir Hüseynovun məsuliyyət daşıdığını bildirdi və sonra onu işdən qovdu. Buna əmin olmaq üçün sübut olmasa belə, Moskvanın bu hadisələrdə əlinin olmasına şübhə etmək qeyri-mümkündür.

Azərbaycan üzərində təzyiqi artırmaq məqsədilə tanklar üzrə maksimum həddi, şəxsi heyət üçün nəzərdə tutulmuş zirehli nəqliyyat vasitələrini, yaxın məsafədən zərbə endirmək üçün artilleriya qurğularını artırmağa çalışan Rusiya "Adi

silahlı qüvvələr haqqında" müqaviləni imzalamağa razı olub. Bu dəyişikliklər Moskvaya qüvvələrini Azərbaycanın şimal sərhədi boyunca yerləşdirməyə imkan verəcək.

Vaşinqton Azərbaycanın müstəqilliyi məsələsində möhkəm mövqe tutmaqla müdrik davranmış olardı. Rusiyanın ərazilərini genişləndirmə siyasətini dayandırmağın zamanıdır, Qafqaz regionuna biganə yanaşmağa son qoymaq lazımdır. Əgər Rusiya keçmiş sovet əyalətləri üzərində hökmranlığını yenidən bərpa edərsə, Moskvadakı sərt siyasətin tərəfdarları güclənmiş və cəsarətlənmiş olacaqlar. Gürcüstanı tərk etdikdən sonra administrasiya Azərbaycana qarşı biganə qala bilmir, burada keçmiş kommunist aparatının üzvü də mübarizə aparmaqda istəklidir. Əgər o, bu problemin öhdəsindən gəlməyə hazırdırsa, onda Vaşinqton da belə etməlidir.

**Müəllif: Paul Klebnikov**
**Tarix: 24.10.1994**
**Mənbə: Forbes (ABŞ)**
**Məqalənin adı: The quietly determined American**
***www.forbes.com***

# NƏHƏNG BAKI NEFT SÖVDƏLƏŞMƏSİNDƏ BU KİÇİK MÜLKİYYƏT MARAQLARININ ARXASINDA DURAN ADAM KİMDİR? SAKİT QƏRARLI AMERİKALI

Keçən ayın sonlarında neft nazirləri və dünyanın ən böyük neft şirkətlərinin rəhbərləri də daxil olmaqla, min nüfuzlu şəxs Xəzər dənizinin qərb sahilində yerləşən Bakıda, dəbdəbəli Gülüstan sarayında toplaşıb. Orada onlar son zamanların ən böyük neft sövdələşmələrindən birinin imzalanmasını[137] qeyd edirdilər. "British Petroleum" və "Amoco" şirkətləri başda olmaqla, on neft şirkətindən ibarət konsorsium Bakı yaxınlığında dənizdəki üç neft yatağının işlənməsi üçün təqribən 8 milyard dollar ayırıb. Seysmik tədqiqatlara və tarixi hasilata əsaslanaraq, ümumi ehtiyatlar təxminən 4 milyard barrel həcmində qiymətləndirilir; hasilatda pik sutkada 700.000 barrel, üstəgəl əhəmiyyətli miqdarda təbii qaz ola bilər.

Baş masada oturan, sakitcə şampan şərabına baxıb gülümsəyən, orta yaşlı, bir qədər cılız amerikalı idi. O gecə Gülüstanda olan hər kəs kimi, o da sövdələşməni inadla bu günə qədər

çatdırmış və indi bunun nəticəsində varlanmağa hazır idi. "Məmnun oldum", – "Remco Energy Plc" şirkətinin qurucusu və sədri Stiven Remp[162] deyib. "Bu, mənim bütün biznes karyeramın ən parlaq məqamı idi".

47 yaşlı Remp neft biznesində doğulub. Atası Texasda neft xidmətləri şirkətini idarə edib, babası və ulu babası isə Kaliforniyada qazmaçı olublar. Remp xatırlayır: "Uşaqlığımın çox hissəsini babamla keçirmişəm". O, məni neft mədənlərinə aparıb neft biznesini öyrədərdi.

1970-ci illərdə gənc Remp Şimal dənizindəki neft bumunun bir hissəsini almaq qərarına gəlib və beləliklə, Şotlandiyanın neft şəhəri olan Aberdinə köçüb və burada daşınmaz əmlak sahəsində çalışıb. 1977-ci ildə Remp Şimal dənizinin dəniz qazma qurğularını antikorroziya texnologiyası ilə təmin etmək üçün "Remco" şirkətini qurub. 1984-cü ildə şirkəti ictimaiyyətə təqdim edib. Tam vaxtında. İki il sonra neftin qiyməti düşüb və Şimal dənizində bütün neft sənayesi çöküb.

Beləliklə, Remp üzünü şərqə, dağılan sovet imperiyası tərəfə çevirib. O, 1986-cı ildə nəhəng Sibir neft hasilatçılarına xidmətlərini təqdim etmək ümidi ilə Rusiyaya gedib, lakin Sibir tezliklə Qərbin daha böyük neft xidməti şirkətləri ilə dolub. Böyük qazanc üçün kiçik "Remco" başqa yer axtarmalı olub.

1989-cu ildə Remp Azərbaycana getməyə qərar verib. Bu dəfə ərazi onun özünə məxsus idi. "Hər yerdə əsrin əvvəlindəki böyük neft partlayışının əlamətlərini görmək olardı", – o xatırlayır. "Köhnə Bakı milyonerlərinin möhtəşəm villaları və sarayları. Yararsız vəziyyətdə olan saysız-hesabsız qazma qurğuları. Qərbin izi-tozu yoxdur. Əsl zamanı idi".

O zaman Qərb neft ekspertlərinin əksəriyyəti hesab edirdi ki, sovetlər Bakının neft yataqlarını tamamilə tükədiblər, lakin

Rempin Şimal dənizində hasilat haqqında bilikləri və yerli mühəndislərlə danışıqları onu əmin etdi ki, sahildən uzaqlarda, Xəzərin ortasında hələ çoxlu neft tapılacaq. Azərbaycan rəsmiləri razılaşdılar, lakin onlar bilirdilər ki, ərazini istismar etmək üçün Qərb tərəfdaşına onların ehtiyacı var.

Remp Azərbaycan hökumətinin nazirləri və neft şirkətlərinin rəhbərləri ilə uzunmüddətli görüşlərə başlayaraq, Şimal dənizində qazma texnologiyası əldə etmək üçün onlara köməyini təklif etdi. Azərbaycanlılarla şəxsi münasibətlər və etibar qurmaq çətin və vaxt aparan iş idi. Remp deyir: "Onlar aldadılmaqdan çox qorxurlar. Orada çox olub onları inandırmalısan ki, sən sadəcə bir vasitəçi və ya təmirçi deyilsən, uzunmüddətli iş üçün ordasan".

Onlarla görüşdən sonra, 1990-cı ildə Azərbaycan hökuməti Xəzərdəki yataqların işlənməsi üçün Qərb tərəfdaşı tapmaqda onu təmsil etməyi Rempdən xahiş etdi. Bunun müqabilində Rempə yataqlarda dəqiqləşdirilməmiş səhm payı vəd edildi.

Remp Azərbaycan sahillərində geologiya ilə bağlı əldə edə bildiyi qədər məlumat topladı və Şimal Dənizində köhnə müştərisi olan "British Petroleum" şirkətini dəvət etdi. "BP" Norveçin dövlət neft şirkəti "Statoil" ilə birlikdə artıq Xəzərdəki yataqlara çıxış əldə etmək üzərində işləyirdi, lakin Remp Bakıda əla siyasi əlaqələrə malik idi və "BP"/"Statoil" qrupu sonda "Remco" şirkətini kiçik tərəfdaş kimi qəbul etməyə razılaşdı.

1992-ci ilin əvvəllərində "Amoco", "McDermott International", "Unocal", "BP", "Statoil" və "Remco" şirkətlərindən ibarət konsorsium üç yataqdan biri üzrə eksklüziv danışıqlar hüququnu qazandı; "BP"/"Statoil" ikincini qazandı, "Remco" isə üçüncü yatağa eksklüziv hüquqlar əldə etdi.

Balaca "Remco" qəfildən böyük liqalarda oynamağa başladı – bu, başqa şeylərlə yanaşı, işlənmə xərclərində onun payı böyük kapital, bəlkə də 500 milyon dollar tələb edirdi. "Remco" şirkətinin o zamankı səhm kapitalı təxminən 5 milyon dollar idi. "Bizim maliyyə problemimiz var idi" – Remp quru tərzdə deyir.

Masa arxasında qalmaq üçün Remp tanışı, "Pennzoil Co" şirkətinin neft və qaz əməliyyatlarına yenicə rəhbər təyin edilən Tomas Hamiltona müraciət etdi. Hamilton Rempi görməkdən məmnun idi. "Mənim vəzifəm "Pennzoil" şirkətinin beynəlxalq biznesini qurmaq idi" – Hamilton deyib. "Xəzər dünyanın ən mühüm gələcək neft əyalətlərindən biridir". "Pennzoil", işlənmə xərclərini ödəmək müqabilində "Remco" şirkətinin neft yatağında 82,5% pay aldı.

Bu arada, Bakıda azərbaycanlılarla böyük neft şirkətləri arasında danışıqlar uzandı. 1993-cü ilin yazında Azərbaycan hökuməti bütün yataqları işlətmək üçün vahid konsorsiumda birləşməyi neft şirkətlərindən xahiş etdi. Azərbaycanda böyüməkdə olan pantürk lobbisini yerləşdirmək üçün hökumət yeni oyunçu gətirdi: "Turkish Petroleum". (Nəhayət, Səudiyyənin "Delta-Nimir Xəzər" şirkəti də "Unocal" vasitəsilə konsorsiuma daxil oldu.)

Amma hansı şirkətin hansı payı alacağı barədə yeni danışıqlar başlayanda Azərbaycan prezidenti Bakıdan qaçdı.[23] Onu Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini və Leonid Brejnevin dövründə Siyasi Büronun üzvü olmuş, keşmiş kommunist olan güclü şəxs Heydər Əliyev[1] əvəz etdi. Azərbaycandan yeni vasitəçi təyin edildi.

Oktyabr ayına qədər ilkin razılaşma əldə edildi. Azərbaycanlı vasitəçilər konsorsiuma bildiriblər ki, əgər Qərb neft şir-

kətləri 100 milyon dollardan çox "xüsusi rüsum" ödəməyə hazır olsalar, saziş bağlana bilər. Qərblilər Prezident Əliyevə şikayət ediblər və o, azərbaycanlıların danışıqlardakı qrupunu işdən kənarlaşdırıb. Daha çox gecikmə. Ruslar Bakıya qoyulan keçmiş sovet sərmayələrinə görə kompensasiya almaq hüququna malik olduqlarını iddia etdikdə, Prezident Əliyev Rusiyanın qismən dövlətə məxsus nəhəng neft şirkəti olan "Lukoil" şirkətinə müqavilədə 10% pay verməyə[97] razı oldu.

Nəhayət, keçən ay razılaşma elan olundu. Tərəfdaşlar və onların səhm payları: Azərbaycan, 20%; "BP", 17%; "Amoco", 17%; "Lukoyl", 10%; "Pennzoil", 10%; "Unocal", 10%; "Statoil", 8%; "McDermott International", 2%; Turkish Petroleum", 2%; "Delta-Nimir", 2% və kiçik "Remko Energy", 2%.

"Remco" yəqin ki, çox uzun müddət qalmayacaq. London Fond Birjasında bir səhminin son qiyməti 2,15 funt sterlinq olan "Remco" şirkətinin bazar kapitallaşması təxminən 50 milyon dollar təşkil edir, lakin işlənməmiş Bakı ehtiyatlarının bir barelinin 2 dollar dəyərində olduğunu fərz etsək, "Remco" şirkətinin Bakı müqaviləsindəki payı hazırda təxminən 160 milyon dollar dəyərindədir; neft həqiqətən bazara çıxmağa başlayandan və konsorsiumun geoloqları yataq haqqında daha çox məlumat əldə etdikdən sonra bu, daha çox dəyər qazana bilər. Remp şəxsən "Remco" şirkətinin 25%-nə sahibdir; Çikaqolu maliyyəçi Sam Zellin başçılıq etdiyi bir qrup investor daha 20%-ə sahibdir.

"Remco" şirkətinin səhmlərinin onun Bakı neftinin dəyərindən kəskin şəkildə ucuz satılmasının tutarlı səbəbi var. Müqavilə hələ Azərbaycan Parlamenti tərəfindən ratifikasiya edilməlidir, tabesiz əlaqə.

Başqa bir sual: nefti bazara necə çıxarmaq olar? Ruslar, Aralıq dənizinə gedən tankerləri doldurmaq üçün boru kəməri-

nin onların ərazisindən Qara dənizə getməsini istəyirlər, amma Türkiyə hökuməti Bosfor və Dardanel boğazlarından çoxlu sayda tankerin keçməsinin ətraf mühit üçün təhlükələrindən şikayətlənir. Türkiyə neftin Türkiyə üzərindən Aralıq dənizinə boru kəməri ilə axmasını istəyir. Bu arada Bakıdan qərbdəki dağlarda Azərbaycan və Ermənistan arasında iyrənc kiçik etnik müharibə[71] gedir.

Stiven Remp demək olar ki, oradadır, lakin o, hələ evində deyil.

**Tarix: 09.12.1994**
**Mənbə: United Nations Chronicle**
**(ABŞ) (Vol.31, İssue 4)**
**Məqalənin adı: Un continues to monitor tense situations**
*www. un.org/en/chronicle*

# BMT GƏRGİN VƏZİYYƏTİ İZLƏMƏYƏ DAVAM EDİR

BMT bəzi keçmiş sovet respublikalarında vəziyyətin monitorinqini davam etdirərək, onun Tacikistanda "qeyri-sabit və təhlükəli", Ermənistan və Azərbaycan arasında münasibətlərdə "gərgin" və rus qoşunlarının çıxarılması fonunda Estoniya, Latviya və Moldovada "pozitiv" olduğunu bildirib.

**Ermənistan/Azərbaycan**

Baş katib bildirib ki, Azərbaycanda ermənilərin məskunlaşdığı anklav[4] olan Dağlıq Qarabağda və onun ətrafında vəziyyət gərgin olaraq qalsa da, mayın 12-də elan olunan atəşkəsə[105] əməl olunur. Bundan başqa, iyulun 27-də və avqustun 28-də tərəflər Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) müşahidəçilərinin və beynəlxalq təhlükəsizlik qüvvələrinin yerləşdirilməsi ilə bağlı danışıqları intensivləşdirməyə hazır olduqlarını təsdiq ediblər.

O qeyd edib ki, bu vaxta qədər onlar "heç bir şərtlə atəşkəsi pozmamaq" öhdəliyi götürüblər.

ATƏM-in Minsk Konfransının və Minsk Qrupunun[90] sədri Yan Eliasson[136] sentyabrın 26-da Təhlükəsizlik Şurasına (S/1994/1106) bildirib ki, atəşkəs "davamlı sülhə doğru sadəcə ilk addımdır". Faciəvi münaqişəyə son qoymaq üçün "həyat qabiliyyətli vahid sülh planına" ehtiyac var.

**Müəllif: Daniel Sneyder**
**Tarix: 06.01.1995**
**Mənbə: Christian Science Monitor (ABŞ) (Vol. 87, İssue 130)**
**Məqalənin adı: Ethnic conflict in ex-soviet region keeps riches out of reach**
***www.csmonitor.com***

# KEÇMİŞ SOVET BÖLGƏSİNDƏ ETNİK MÜNAQİŞƏ YENİ VÜSƏT ALIR

**Stepanakert,[14] Dağlıq Qarabağ**

Keçən ay Rusiya ordusu faşist Almaniyası üzərində qələbənin 50-ci ildönümünü qeyd etmək üçün Moskvada marş ilə keçərkən, eyni hərbi tamaşanın miniatür variantı bu dağlıq şəhərin mərkəzi meydanından keçirdi.

Burada 9 May daha geniş qeyd olunur, çünki üç il əvvəl bu gün ermənilər kurort şəhəri Şuşanı[164] ələ keçirərək, özlərinin azərbaycanlı ağalarını Dağlıq Qarabağdakı son qalalarından – Azərbaycanın tərkibində yerləşən və hazırda ermənilərin yaşadığı və əsasən nəzarət etdikləri qayalıq bölgədən çıxardılar.

Dağlıq Qarabağ ermənilərlə azərbaycanlılar arasında ərazinin statusu uğrunda 7 ildir davam edən müharibənin[3] və keçmiş sovet dövlətləri arasında ən ciddi etnik münaqişənin[71] mərkəzindədir.

Bayram zamanı Qarabağ ordusunun erməni bölmələri[140] sərt addımlarla, "Kalaşnikov" avtomatını sinələrində sıxaraq yürüş ediblər. Balkonda qondarma Dağlıq Qarabağ Respublikasının yeni seçilmiş "prezidenti"[109] Robert Koçaryan[114] dayanmışdı.

**Tənəffüs, lakin irəliləyiş yoxdur**

Bir il davam edən atəşkəs[105] sayəsində silahlar indi susub. Keçən ilin dekabrında Budapeştdə əldə olunan razılaşmadan[90] sonra Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) çərçivəsində Rusiya-Qərb birgə vasitəçilik səyləri nəticəsində sülh danışıqlarının bir neçə raundu keçirilib.

Qətllərə ara verilməsi danışıqlar masası arxasında çox az irəliləyişə səbəb olub. Qarabağda ermənilərin mini dövlətinin daha çox strukturlaşdırılması onların mövqelərini sərtləşdirirdi. Eyni zamanda, Dağlıq Qarabağ üzərində qələbəni döyüş meydanında əldə edə bilməyən Azərbaycan hökumətinin, buna danışıqlar masası arxasında nail olmaq əzmində olduğu görünür.

Azərbaycanın paytaxtı Bakıda yüksək rütbəli qərb diplomatı gileylənir: "Bizim gözəl fürsətimiz var idi və təəssüf ki, bu, fürsət olaraq qalır". "Biz Budapeştdən əvvəl olduğumuz yerdən irəli getməmişik."

Qarabağ məsələsində irəliləyişin olmaması Zaqafqaziyanın, etnik münaqişə bəlasına düçar olmuş regionunun başqa yerlərində də əks olunur. Gürcüstanda separatçı hərəkatla vətəndaş müharibəsinin getdiyi Abxaziya bölgəsində[130] də Rusiya və Birləşmiş Millətlər Təşkilatının vasitəçiliyi ilə atəşkəs əldə olunub. Amma Qarabağ məsələsində olduğu kimi, döyüşlərin başa çatması yalnız hərbi status-kvonu dondurub.

Müşahidəçilərin çoxu hesab edir ki, etnik müharibələr olmasaydı, bu regionun üç dövləti – Ermənistan, Azərbaycan və Gürcüstan – keçmiş Sovet İttifaqında ən çiçəklənən ölkələr

olardı. Xəzər dənizindəki zəngin neft yataqları bütün regiona potensial zənginlik vəd edir.

Bəzi Qərb analitikləri və hökumətləri "sülh kəmərindən", keçən il imzalanan və regionu əlverişli əməkdaşlığa bağlayacaq 8 milyard dollarlıq beynəlxalq neft müqaviləsindən[137] həvəslə danışırlar.

Ancaq sərvət haqqında təsəvvürlər yuxarıdan irəli sürülən, tez və aydın həll yollarını qəbul etmək üçün kifayət deyildir.

"Bir çoxları... düşünür ki, Ermənistan öz ərazisindən keçən boru kəmərində o qədər maraqlıdır ki, Qarabağ məsələsində müəyyən güzəştlərə getməyə hazırdır", – Ermənistan prezidenti Levon Ter-Petrosyan[61] "Monitor"a deyib. "Bu, çox bəsit fikirdir".

**15.000 insanın həyatı**

Qarabağ münaqişəsi 1988-ci ildə ermənilərin məskunlaşdığı Dağlıq Qarabağ anklavını[4] Azərbaycanın nəzarətindən çıxarmaq istəyən ermənilərin kütləvi hərəkatı ilə başlayıb. Bundan sonra baş verən müharibə ən azı 15.000 insan həyatına son qoyub və hər iki tərəfdən bir milyondan çox insan qaçqın düşüb.

Ermənistan respublikası israr edir ki, münaqişə Azərbaycanla Dağlıq Qarabağ erməniləri arasındadır,[6] baxmayaraq ki, döyüşlərdə bəzən nizami erməni qüvvələri də iştirak edir və Ermənistan Qarabağ ordusu və hökumətini dəstəkləyir.

1993-cü ildən Qarabağ qüvvələri, demək olar ki, bütün Dağlıq Qarabağa nəzarət edir və qərb və cənubda böyük bir ərazi ələ keçiriblər.

Son üç il ərzində vasitəçilik səyləri Qərblə Rusiya arasındakı parçalanma səbəbindən dalana dirənib. Yaxın zamanlara qədər Moskva yerlərdə Rusiya sülhməramlılarını yerləşdirməyi nəzərdə tutan öz sülh planını həyata keçirib. Rusiya qüvvələrini öz torpaqlarından sıxışdırıb çıxaran Azərbaycan isə ATƏT-in

təşkil etdiyi beynəlxalq qüvvələri dəstəkləyir. Budapeştdə, Çeçenistan müharibəsinin[131] yaxınlaşdığı və ABŞ-nin təzyiqlərinin artdığı bir şəraitdə Kreml ATƏT-in himayəsi altında birgə səy göstərməyə razı olub.

Rusiya tərəfindən hazırlanan plana görə, ATƏT-in danışıqları atəşkəsdən, Ermənistan silahlı qüvvələrinin Qarabağdan kənardakı ərazilərdən çıxarılmasını və Azərbaycanın Ermənistana qarşı iqtisadi blokadasının aradan qaldırılmasını əhatə edən siyasi razılaşmaya keçməli idi.

Bu ilin əvvəlindən isə Qarabağın son statusu ilə bağlı danışıqlar dalana dirənib. Azərbaycan Qarabağ nümayəndələrini danışıqlarda tamhüquqlu tərəf kimi qəbul etməkdən imtina edib.

Bu arada Azərbaycan rəsmiləri iddia edir ki, ruslar, regionda onlara az təsir imkanı verən Budapeşt razılaşmasını gizli şəkildə pozmağa çalışırlar. "Ona görə də onlar Köçəryana özünü [Dağlıq Qarabağın] prezidenti seçdirməyi, vəziyyəti mürəkkəbləşdirməyi və sülhün əldə olunmasını çətinləşdirməyi əmr ediblər", – danışıqlarda Azərbaycanın əsas nümayəndəsi Vəfa Quluzadə[165] deyib.

Qərb diplomatları da deyirlər ki, Rusiya vasitəçiləri danışıqları davam etdirməyə tələsmirlər. Onlar da, bu məsələdə inad göstərdiklərinə görə azərbaycanlıları günahlandırırlar.

"Onlar hesab edirlər ki, sizin dediyiniz hər şey Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınması deməkdir", – deyə Bakıdakı Qərb diplomatı şərh edir. "Bu, danışıqların irəliləməsinə imkan vermir".

Azərbaycanlı qaçqın icmasının nümayəndəsi ilə görüşməkdən imtina etməklə, ermənilər də güzəştə getməyə az istəkli görünürlər.

Dağlıq Qarabağın xarici işlər naziri Arkadi Qukasyan[166] deyib: "Onlar problemi vasitəçilərlə yox, bizimlə həll etməlidirlər". Onlar azərbaycanlıları Azərbaycan ərazilərini geri qaytarmaq və Azərbaycanın suverenliyinə zəmanət vermək üçün kənar güclərdən istifadə etməkdə ittiham edirlər. Ermənilər deyirlər ki, "Rusiya bunları təmin edə bilmədikdən sonra, Xəzərdəki nəhəng neft yataqlarının cazibəsinə aldanan Azərbaycan indi Qərbə baxır".

"[Azərbaycan Prezidenti] Heydər Əliyev[1] məsuliyyəti başqasının üzərinə qoymağa çalışır", – deyə Qarabağ lideri Köçəryan "Monitor"a bildirib. "O, Müstəqil Dövlətlər Birliyinə[35] daxil olanda hesab edirdi ki, Moskva onlar üçün problemi həll edəcək. İndi, neft müqaviləsini imzalayandan sonra Əliyev inanır ki, "böyük yeddilik" [neft şirkətləri] problemi həll edəcək. Birbaşa danışanda bizdə elə bir hiss yaranır ki, onlar müharibənin bitdiyini və məğlub olduqlarını başa düşürlər. Biz qrup halında olanda isə başqa şey deyirlər".

Atəşkəs, illərlə davam edən iztirablardan sonra Ermənistanın paytaxtı Yerevana iqtisadi yüksəlişin müsbət əlamətlərini gətirib. Bu, görünür, Qərb iqtisadi ekspertlərinin bölüşmədiyi, yaxşılaşma daimi sülh olmadan uzun müddət davam edə bilər fikrinə inamı gücləndirib.

Prezident Ter-Petrosyan deyib: "Daimidir və ya qeyri-daimidir, yenə də sülhdür". "Təbii ki, daimi sülh bizim perspektivlərimizi artıracaq. Bu, istər Azərbaycanla, istərsə də Türkiyə ilə kommunikasiyaların tam açılması deməkdir.... Amma indi mən o qədər optimistəm ki, bu müvəqqəti sülhün qorunub saxlanacağı və hərbi əməliyyatların bərpa olunmayacağı təqdirdə inkişafımızın daimi olacağına inanıram".

Ermənistan rəsmiləri də əmindirlər ki, Azərbaycan birbaşa danışıqlar yolu ilə əldə olunacaq güzəştlərə müqavimət göstərsə də, müharibəni bərpa etmək iqtidarında deyil.

Qərb diplomatik mənbələri isə ehtiyat edirlər ki, bu dalanda istənilən nəzarətsiz insident döyüşlərin bərpa olunmasını qaçılmaz edəcək. "Biz yenidən şorbada ola bilərik" – Qərb diplomatı ehtiyat edir.

**Tarix: 07.03.1995**
**Mənbə: United Nations Chronicle**
**(ABŞ) (Vol.32 İssue 1)**
**Məqalənin adı: Azerbaijan. The nations speak:**
**Eastern Europe**
***www.un.org/en/chronicle***

# AZƏRBAYCAN XALQLAR DANIŞIR: ŞƏRQİ AVROPA

<…>

Prezident Heydər Əlirza oğlu Əliyev[1] bildirib ki, Təhlükəsizlik Şurasının, bütün işğalçı qüvvələrin Azərbaycandan "dərhal, tam və qeyd-şərtsiz çıxarılması" ilə bağlı sərt tələbinə, onun ölkəsinin ərazisini ilhaq etmək planlarını açıq şəkildə həyata keçirən Ermənistan tərəfindən "indiyə qədər tamamilə etnasızlıq göstərilib". Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ plasdarmından istifadə edərək, "Dağlıq Qarabağdan dörd dəfə böyük əraziyə malik" daha altı rayonu işğal edib. Altı illik müharibədən sonra onun ölkəsinin ərazisinin 20 faizindən çoxu işğal altındadır, 20 min nəfərdən çox azərbaycanlı öldürülüb, təxminən 100 min nəfər yaralanıb, 6 min nəfər əsir götürülüb, 1 milyon nəfərdən çox insan – əhalinin təxminən 15 faizi qaçqın düşüb və çadırlarda yaşayır. Bu, BMT-yə üzv dövlətin müstəqilliyinin kobud şəkildə pozulması demək idi. Atəşkəs[105] davam etsə də, vəziyyət mürəkkəb olaraq qalır və atəşkəs "çox kövrək"

idi. Azərbaycan regionun erməni əhalisinə zəmanət verəcək; bununla belə, öz suverenliyini və ərazi bütövlüyünü "əbədi" hesab edir.

<…>

**Müəllif: Villiam J.Piayk**
**Tarix: 04.07.1995**
**Mənbə: World Oil (ABŞ) (Vol. 216, İssue 7)**
**Məqalənin adı: Early Caspian production**
*www.worldoil.com*

# XƏZƏRDƏ ERKƏN HASİLAT

Bu yaxınlarda "Brown & Root" şirkəti Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ)[138] üçün hazırladığı texniki-iqtisadi əsaslandırmada Xəzər dənizində, Azərbaycanın dənizindən təxminən 75 mil məsafədə yerləşən "Çıraq" yatağındakı "Çıraq 1" platformasının struktur bütövlüyü və istismar imkanlarını araşdırıb. Yataqda, yaxınlıqdakı "Azəri" yatağı və "Günəşli" yatağının dərinsulu hissəsi ilə birlikdə 4 milyard barrel həcmində çıxarıla bilən ehtiyatlar olduğu təxmin edilir.

Qazma və hasilat obyekti olan platforma yalnız qismən tamamlanıb və heç vaxt istismara verilməyib. Sualtı baxışa konstruksiyanın struktur elementlərinin bütövlüyünün, mümkün zədələrin və katod mühafizəsinin yoxlanılması daxildir. Suüstü baxış zamanı modulların, boru kəmərlərinin, cihazların, gəmi və maşınların yoxlanılması həyata keçirilib. "Neft-daşları" qaz emalı kompleksi və quruda yerləşən neftqəbuledici qurğularda əlavə yoxlamalar aparılıb.

Tədqiqat 1996-cı ilin ortalarına qədər mövcud qurğuların neft hasil etmək üçün dəyişdirilib dəyişdirilməyəcəyini müəyyən edəcək. Proqnozlaşdırılan ilkin hasilat sutkada təqribən 80.000 barreldir, 2004-cü ildə isə sutkada 700.000 barrel olacaq.

**Müəlliflər: Asil Gezen,**
**Morris Altschuler**
**Tarix: 04.10.1995**
**Mənbə: The Washington Post (ABŞ)**
**Məqalənin adı: Oil in Azerbaijan**
*www.washingtonpost.com*

# AZƏRBAYCANDA NEFT

"The Post" qəzetində çap olunan "Boru xətti diplomatiyası"[19 sentyabr] adlı məqalədə ABŞ siyasəti üçün, düzgün olaraq orta yol təklif edilir.

Həm Rusiya, həm də Türkiyə ərazisindən keçən boru kəməri alternativlərini dəstəkləmək bizim xeyrimizədir.

Məqalədə 1992-ci il Azadlığa Dəstək Aktına 907-ci düzəlişə[29] əsasən ABŞ hökumətinin Azərbaycana yardımının qadağan edilməsindən bəhs edilməyib. Akt Azərbaycandan başqa, bütün keçmiş Sovet ölkələrinə ABŞ yardımını təmin edir. Hökumətimizin yaxşı münasibət qurmağa çalışdığı Azərbaycan kimi neftlə zəngin bir ölkənin humanitar yardım belə ala bilməməsi ironik deyilmi? Axı biz Azərbaycan neftini Qərb bazarına çıxarmağa çalışırıq və bu prosesdə köhnə müttəfiqimiz Türkiyə və qeyri-sabit sülh tərəfdaşı Rusiyanın tranzit ödənişlərindən faydalanmasını gözləyirik.

Məqalədə haqlı olaraq qeyd edildiyi kimi, boru kəmərinin marşrutu ilə bağlı qərar şəxsi əllərdədir, lakin 907-ci düzəliş ilə bağlı qərar yalnız bizim hökumətin əlindədir. Biz başqa etibarlı

neft mənbəyinin tikintisinə başlamaq üçün 907-ci düzəlişi nəyə görə ləğv etməyək?

Hesab edirəm ki, bir çoxları, o cümlədən "The Post" qəzeti keçmiş Sovet İttifaqı dövlətlərinin neft ehtiyatlarının həcmini şişirdir. "Boru xətti diplomatiyası" adlı məqalədə qeyd edilir ki, bu neft ehtiyatları "Fars körfəzi ölçülərinə" uyğundur. Bu yaxınlarda bu ehtiyatların həcmini müəyyənləşdirmək cəhdimin nəticəsi, Azərbaycanda 4 milyard barrel neft ehtiyatının olduğunun bəyan edilməsi oldu. Bu, təbii ki, heç bir halda dünya neft ehtiyatlarının təxminən üçdə ikisinə sahib olan Fars körfəzi ölkələrinin 600 milyard barreldən çox neft ehtiyatları ilə müqayisə olunmur.

Bunun perspektivinə gəldikdə isə, təkcə ABŞ hər il təxminən 6 milyard barrel neft istehlak edir. Gələcək enerji ehtiyaclarımızı ödəmək üçün məhdud neft ehiyatlarına malik olan regiona arxalanmaq – siyasi, milli təhlükəsizlik və ətraf mühit sahəsində problemləri nəzərə almaqla – bu mühüm problemin uzaqgörən həlli kimi görünmür. Biz ölkə və dünya lideri kimi neftə əsaslanmayan enerji gələcəyi axtarmalıyıq.

The Washington Post

**Müəllif: Daniel Southerland**
**Tarix: 10.10.1995**
**Mənbə: The Washington Post (ABŞ)**
**Məqalənin adı: Companies offer Azerbaijan oil compromise consortium decides on two export pipeline routes to satisfy Russian, Turkish ambitions**
***www.washingtonpost.com***

# ŞİRKƏTLƏR AZƏRBAYCANA NEFT KOMPROMİSİNİ TƏKLİF EDİRLƏR KONSORSİUM RUSİYA VƏ TÜRKİYƏNİN AMBİSİYALARINI TƏMİN ETMƏK ÜÇÜN İKİ İXRAC BORU KƏMƏRİ MARŞRUTU HAQQINDA QƏRAR QƏBUL EDİR

Dünən beynəlxalq neft konsorsiumu,[138] rəqiblər olan Rusiya və Türkiyənin təkliflərini uzlaşdırmaq məqsədilə, böyük ehtiyatlara malik Xəzər dənizindən Azərbaycan xam neftini ixrac etmək üçün iki boru kəməri marşrutundan istifadə etmək barədə kompromis qərar qəbul edib.

Bölgədə neft ixracı üçün yeganə Rusiya marşrutu, dünyanın ən böyük neft ehtiyatlarının olduğu hesab edilən Fars körfəzi və Rusiyanın özü istisna olmaqla, Rusiyaya bütün digər boru kəmərləri ilə neft daşıma haqlarını toplamağa imkan verərdi.

Konsorsium bildirib ki, Xəzər dənizindən ilkin hasilat həm Rusiya, həm də Gürcüstan vasitəsilə "eyni vaxtda" nəql

olunacaq. Həm Türkiyə, həm də ABŞ tərəfindən dəstəklənən Gürcüstan marşrutu sonda Türkiyə boru kəmərinə qoşula bilər.

Prezident Klinton[41] keçən həftə Azərbaycan Prezidenti Heydər Əliyevə[1] zəng edərək, ölkədə hasil olunan "erkən neftin" ixracı üçün istifadə edilən Rusiya marşrutunun yeganə marşrut olmadığını bildirib. ABŞ aylar əvvəl açıq şəkildə bildirib ki, o, iki boru kəməri variantına üstünlük verir və Vaşinqtona görə, bu, Rusiyanın və NATO müttəfiqi Türkiyənin iqtisadiyyatına kömək edəcək. Eyni zamanda, ABŞ rəsmiləri bildiriblər ki, bu, keçmiş sovet respublikalarında Moskvanın iqtisadi cəhətdən dominantlıq etməsinin qarşısını alacaq.

Dünən konsorsiumun, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) üzvləri Xəzər dənizində hasil olunacaq erkən neftin Rusiya və Gürcüstan marşrutları ilə ixracının mümkünlüyünü, uzunmüddətli perspektivdə isə Türkiyənin Aralıq dənizindəki Ceyhan limanının[167] Xəzər nefti üçün əsas ixrac məntəqəsinə çevrilə biləcəyini bildirib. 1996-cı ilin sonu və ya 1997-ci ilin əvvəllərində erkən hasilatın gündə 80 min barrelə çatacağı gözlənilir. Əsrin sonuna doğru isə Xəzər yataqlarından təxminən 10 dəfə çox – gündə 700 min barrel neft hasil ediləcəyi gözlənilir.

"Biz inanırıq ki, Ceyhan vasitəsilə Aralıq dənizinə çıxan marşrut ən praktiki ixrac marşrutu olacaq", – Azərbaycanın paytaxtı Bakıda ABƏŞ-nin vitse-prezidenti Qreq Riç deyib.

Rich bildirib ki, Rusiya və Gürcüstan marşrutları erkən neft üçün "nisbi iqtisadi cəlbedicilik" təklif edir. Ceyhan marşrutu uzunmüddətli perspektivdə, Rusiya marşrutu üçün son təyinat məntəqəsi olan izdihamlı Bosforda qəza təhlükəsini azaldacaq.

Konsorsiumun hədəfləri yüksəkdir. Konsorsiuma daxil olan 11 xarici şirkət son nəticədə Xəzər hövzəsində Küveytlə rəqabət aparacaq səviyyədə neft hasil olunacağını təxmin edirlər.

Səkkiz Qərb neft şirkəti – "Amoco Corp.", "British Petroleum Co.", "Exxon Corp.", "McDermott International Inc.", "Pennzoil Co.", "Ramco Energy PLC", "Statoil" və "Unocal Corp." - 4 milyard barrel həcmində qiymətləndirilən neft və qaz ehtiyatlarının hasilatı üçün beynəlxalq konsorsiuma birlikdə 7,5 milyard dollar sərmayə qoyub.

1994-cü ilin sentyabrında konsorsium Azərbaycanla müqavilə imzalayanda, Rusiya əvvəlcə, bəzi ekspertlər tərəfindən "əsrin müqaviləsi" adlandırılan bu müqaviləni[137] tanımayacağını bildirmişdi.

Rusiya XIX əsrdən etibarən bu regionda neft üzərində inhisar nəzarətini saxlamışdı, lakin 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra ehtiyatlar uğrunda mübarizə başladı.

Bu yaxınlarda Rusiya Əliyevə, Rusiya boru kəməri marşrutuna üstünlük verməsi üçün təzyiq göstərib, bundan əvvəl isə iki ölkə arasındakı sərhədi bağlamaqla, Azərbaycanı faktiki olaraq blokadaya alıb. Azərbaycan rəsmiləri bildirirlər ki, Rusiya kəşfiyyatının agentləri Əliyevə qarşı çevriliş cəhdində iştirak ediblər.

Neft şirkətləri boru kəmərləri üçün uzunmüddətli marşrutların hazırlanmasını öhdəyə götürməzdən əvvəl, Azərbaycandakı yataqlardan ilk illərdə hasil ediləcək ilkin neft üçün marşrutlar seçməli idilər.

Dünənki qərara əsasən, ilkin neftin ixracı üçün marşrutlardan biri Rusiyaya, şimala gedəcək,[168] mövcud boru kəməri revers rejimində işləyəcək. Digər marşrut isə, Gürcüstan ərazisindən qərbə, Qara dənizdəki Supsa limanına gedəcək.[169]

"Bu, ABŞ və Türkiyə nöqteyi nəzərindən sizin üçün yaxşıdır" – Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin əməkdaşı Bülent Əliriza deyib.

Regionda nüfuz uğrunda mübarizədə Rusiyanın tarixi rəqibi olan Türkiyə ümid edir ki, erkən neftin ixracı üçün Azərbaycanın bu marşrutdan istifadə etməsi uzunmüddətli perspektivdə Türkiyənin Ceyhan limanının əsas ixrac məntəqəsinə çevrilməsinə gətirib çıxaracaq. Əliriza deyib ki, ola bilər ki, iki boru kəməri ilə ixrac olunacaq erkən neftin həcmi ilə bağlı ruslar və onların rəqibləri arasında mübarizə başlasın.

"Bu mübarizənin nəticəsi, qismən Gürcüstandan keçən Qərb marşrutunun qurulması sürətindən və təklif olunan əlverişli şərtlərin cəlbediciliyindən asılı olacaq" – Əliriza bildirib.

**Tarix: 1996**
**Mənbə: United Nations Chronicle (ABŞ) (Vol.33, İssue 2)**
**Məqalənin adı: Solution nearer on Nagorny Karabakh issue**
***www. un.org/en/chronicle***

# DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNİN HƏLLİ DAHA YAXINDIR

Aprelin 9-da Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) Minsk Konfransının həmsədrləri Heykki Talvitie[170] və Valentin Lozinski[171] Təhlükəsizlik Şurasına təqdim etdikləri məruzədə (S/1996/259) bildiriblər ki, Azərbaycanın ermənilərin daha çox məskunlaşdığı hissəsi – Dağlıq Qarabağ uğrunda münaqişənin tərəfləri 1994-cü il mayın 12-də elan olunan atəşkəs rejiminə[105] ümumilikdə riayət ediblər.

Məruzədə qeyd olunur ki, həmsədrlərin vasitəçiliyi ilə münaqişənin üç tərəfi – Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ arasında keçirilən danışıqların[172] bir neçə raundundan sonra "tənzimləmənin konturları görünür". Tərəflərin razılaşdıqları məsələlər sırasında bunlar yer alır: öz aralarındakı bütün mübahisəli məsələlərin "yalnız sülh yolu ilə, ilk növbədə danışıqlar yolu ilə" həlli; "atəşkəs rejiminin möhkəmləndirilməsi və hərbi əməliyyatların dayandırılması üçün hərbi-texniki tədbirlərin" həyata keçirilməsi; Dağlıq Qarabağın ATƏT-in Minsk konfransında müəyyən ediləcək hüquqi statusunun

"qarşılıqlı məqbul kompromis" əsasında işlənib hazırlanması; münaqişənin ziyan vurduğu ərazilərə humanitar yardımın çatdırılması; məcburi köçkünlərin və qaçqınların əvvəlki daimi yaşayış yerlərinə "təhlükəsiz, könüllü və balanslı qayıtması"; silahlı münaqişə zamanı işğal olunmuş ərazilərin boşaldılması; yerli və regional təhlükəsizlik tədbirlərinin, o cümlədən Dağlıq Qarabağdan Ermənistana təhlükəsiz və maneəsiz çıxışın yaradılması; siyasi razılaşmanın həyata keçirilməsinə kömək etmək üçün ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi və "bölgədəki maneələrin aradan qaldırılması və bütün normal əlaqələrin bərpası".

Bildirilir ki, bununla belə, Ermənistan və Azərbaycan arasında 1996-cı ilin əvvəlində keçirilən birbaşa danışıqların üç raundu göstərdi ki, "tərəflər konstruktiv dialoq aparmağa və kompromis axtarışına hazır olduqlarını hələ də nümayiş etdirmirlər".

Daha sonra həmsədrlər "Paket həll üçün çərçivə" hazırlayıblar, çünki onlar hesab edirdilər ki, əsas problemlərin ən mühüm elementləri üzrə paket sazişi "siyasi razılaşmanın tez bağlanması üçün sıçrayış" olacaq.

Çərçivə sənədi, həmsədrlər davam edib, "yaxın gələcəkdə danışıqlar prosesində, tərəflərin üzərlərinə götürdükləri aşağıdakı öhdəliklər əsasında işlənib hazırlanmalı və razılaşdırılmalı olan" məqamları özündə ehtiva etməlidir: bütün işğal olunmuş ərazilərin boşaldılması; Dağlıq Qarabağdan Ermənistana və əksinə maneəsiz çıxış; Dağlıq Qarabağ və onun əhalisinin təhlükəsizliyi; Azərbaycanın ərazi bütövlüyü və Dağlıq Qarabağ üçün "ən geniş şəkildə özünüidarəetmə"; bütün qaçqınlar və köçkünlərin əvvəlki daimi yaşayış yerlərinə könüllü və təhlükəsiz qayıtmaq hüququnun Şuşa[164] və Şaumyan[173] əhalisinə tətbiqi;

beynəlxalq humanitar hüquq normalarına riayət edilməsi və "açıqlıq və şəffaflıq, həmçinin regionda qarşılıqlı təhlükəsizliyin qorunması".

**Cənubi Qafqaz üçün müraciət**

1996-cı ilin ilk beş ayı ərzində Ermənistan, Azərbaycan və Gürcüstanda humanitar əməliyyatlar məqsədilə, hələ də münaqişədən zərər çəkmiş və ya ondan sonra bərpa olunmuş icmalardakı 900 000 nəfərdən çox qaçqın və məcburi köçkünün ehtiyaclarını ödəmək üçün əlavə təxminən 37 milyon ABŞ dolları ayrılması barədə müraciət fevralın 20-də Cenevrədə BMT tərəfindən qəbul edilib.

BMT-nin səkkiz agentliyinin, Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) və qeyri-hökumət təşkilatlarının layihələrini özündə ehtiva edən müraciətə əlavə olaraq, Ermənistan üçün 9,6 milyon, Azərbaycan üçün 8,7 milyon, Gürcüstan üçün 15,1 milyon və regional layihələr üçün 3,1 milyon dollar tələb edilib. BMT agentlikləri Ermənistanda 250 000, Azərbaycanda 405 000 və Gürcüstanda 250 000 insana yardım etməyə səy göstəriblər.

<...>

**Tarix:. 1996/1997**
**Mənbə: Earth Island Journal (ABŞ) (Vol.12, İssue 1)**
**Məqalənin adı: Suffering Sumgait**
***www.earthisland.com***

# SUMQAYIT ƏZAB İÇİNDƏ

1940-cı illərdə Sovet İttifaqı Azərbaycanda, Xəzər dənizinin sahilində Sumqayıt kimya və sənaye kompleksini inşa etdi. Bu kompleks özündə aliminium, xlorin, polietilen, sodium xlorid, polad, DDT və lindan istehsal edən 30-dan çox zavodu birləşdirirdi və bu zavodların tullantısı birbaşa Xəzər dənizinə axıdılırdı. “Surviving Together” jurnalının verdiyi məlumata əsasən hazırda həmin zavodlar öz potensialının cəmi 10-20 faizi həcmində fəaliyyət göstərirlər, lakin buna baxmayaraq Sumqayıtın havası hələ də gözləri, burun və boğazı acışdırmağa davam edir, sakinlər saç tökülməsi, anadangəlmə qüsurlar, əqli inkişafın ləngiməsi kimi problemlərdən əziyyət çəkirlər və bu ərazidə körpə ölümləri ilə bağlı göstəricilər həddən artıq yüksəkdir. Bu “ölü ərazi”dəki fəallar və alimlər Sumqayıtı təmizləmək və onun zavodlarını yenidən qurmaq üçün öz cəmiyyətlərini və Qərb dünyasını səfərbər edəcəklərinə ümidlidirlər. Fəallardan biri isə belə deyir: “Əgər bizə, bu zavodlarda işləmək, yaxud sağlamlığımızı qorumaq seçimi verilərsə, biz sağlamlığımızı seçirik”.

**Tarix: 10.01.1997**
**Mənbə: World Oil (ABŞ)**
**(Vol.218, İssue 1)**
**Məqalənin adı: Azerbaijan consortium to sign pact**
***www.worldoil.com***

# AZƏRBAYCAN KONSORSİUMU SAZİŞ ASTANASINDA

"Amoko"nun rəhbərlik etdiyi konsorsium Azərbaycan Dövlət Neft Şirkəti SOCAR ilə, Xəzər dənizi şelfində "Dan ulduzu" və "Əşrəfi" yataqlarında kəşfiyyat və hasilat işlərinin aparılması haqqında təqribən 1,5 milyard dollar dəyərində razılaşma imzalayacaq.[174] İlkin hesablamalara görə ehtiyatlar 30-50 milyard kub fut qaz, 72,7 milyon barrel neft təşkil edir. SOCAR Azərbaycan tərəfinin iştirak etdiyi istənilən beynəlxalq neft layihəsində ən çox 20% paya sahibdir. Bununla belə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti artıq Azəri/Çiraq yatağında üç sınaq quyusundan birincisində qazma işini uğurla yerinə yetirmişdir. Maksimum hasilat sutkada 6 000 barrel təşkil edir.

**Tarix: 04.03.1997**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: Baku-Supsa pipeline**
***www.themoscowtimes.com***

## BAKI-SUPSA BORU KƏMƏRİ

Bakı, Azərbaycan – Azərbaycanın böyük neft sərvətlərini istismar edən beynəlxalq konsorsium cümə günü qonşu Gürcüstanın Qara dəniz sahillərinə qədər uzanacaq boru kəmərinin[169] tikintisini maliyyələşdirməyi planlaşdırdığını açıqlayıb.

Konsorsium İdarəetmə Komitəsinin rəhbəri Terri Adams[175] mətbuat konfransında bildirib ki, bir neçə Qərb neft şirkətinə məxsus olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti[138] 315 milyon dollarlıq layihəyə sanksiya verib.

Adams qeyd edib ki, plan Bakıdan, Gürcüstanın Türkiyə ilə sərhəddinə yaxın yerləşən və yeni terminalın tikiləcəyi Supsa şəhərinə doğru qərb boru kəmərinin çəkilməsini nəzərdə tutur.

**Tarix: 30.04.1997**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: Rostropovich visits hometown of Baku**
***www.themoscowtimes.com***

# ROSTROPOVİÇ DOĞMA ŞƏHƏRİ BAKIYA SƏFƏR EDİB

Xəbər agentliyinin məlumatına görə, çərşənbə axşamı dirijor və violonçel ifaçısı Mstislav Rostropoviç,[176] özünün Bakı köklərini ailəsinə göstərmək üçün onlarla birlikdə vətəni Azərbaycana səfər edib.

Rostropoviç Azərbaycan Prezidenti Heydər Əliyevlə[1] görüşüb və o, dünya şöhrətli musiqiçiyə Azərbaycanın ən yüksək mükafatı olan "Şöhrət" ordenini təqdim edib. Azərbaycanın "Turan" Xəbər Agentliyinin məlumatına görə, Prezident Əliyev söyləyib ki, "Mən şadam ki, siz Vətəninizi unutmamısınız və mənim Bakıya dəvətimi qəbul etdiniz". O, əlavə edib ki, "Biz sizə yalnız görkəmli musiqiçi kimi deyil, eyni zamanda, ədalət uğrunda mübarizə aparan bir insan kimi münasibət bəsləyirik".

Azərbaycanın paytaxtında anadan olan və martda 70 yaşını qeyd edən Rostropoviç 2000-ci ilə qədər iş cədvəlinin dolu olduğunu söyləyib. Buna baxmayaraq, o, bəzi konsertləri ləğv edəcəyini və 1998-ci ildən başlayaraq, hər il Bakıda 10 günlük ustad dərsləri keçəcəyinə söz verib – "Turan" bildirib.

**Müəllif: Lawrence Sheets**
**Tarix: 30.05.1997**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: LUKoil signs agreement to discuss Azerbaijani oil**
***www.themoscowtimes.com***

# "LUKOİL" AZƏRBAYCAN NEFTİ İLƏ BAĞLI DANIŞIQLAR APARMAQ ÜÇÜN SAZİŞ İMZALAYIR

Rusiyanın ən böyük neft şirkəti "LUKOIL" Azərbaycan dövlət neft şirkəti ilə memorandum imzalayaraq və regionda neft hasilatı ilə əlaqədar digər şirkətlərlə danışıqlar apararaq, Xəzər regionunda öz mövqeyini möhkəmləndirib.

"LUKoil"un prezidenti Vahid Ələkbərov[177] müxbirlərə söyləyib ki, şirkət çərşənbə günü Xəzərdə "Yalama" dəniz neft yatağının birgə kəşfiyyatı və istismarı üzrə danışıqlara başlamaq üçün Azərbaycan Dövlət Neft Şirkəti və ya SOCAR ilə memorandum imzalayıb.

O, söyləyib ki, "LUKoil" Xəzərin Azərbaycan sektorunda digər layihələrdə də SOCAR, Birləşmiş Ştatların "Chevron" və Rusiyanın "Rosneft" şirkətləri ilə işləməkdə maraqlıdır.

Ələkbərov "Yalama" yatağından əldə edilə biləcək neft ehtiyatlarını 50 milyon ton həcmində qiymətləndirib. Neft yata-

ğının eni təxminən 25 kilometr, uzunluğu isə 30 kilometrdir və Xəzərin Azərbaycan və Rusiya sektorlarında yerləşir.

O, bildirb ki, "ehtiyatlar haqqında nəsə demək çətindir, çünki geofiziki məlumatlar və orada neft quyuları yoxdur, lakin apardığımız hesablamalara görə, ehtiyatların 50 milyon tona qədər ola biləcəyini düşünürük".

"LUKoil" eyni zamanda, Xəzər dənizindəki yataqların istismarı üzrə SOCAR ilə birgə həyata keçiriləcək daha üç layihədə paya malikdir.

Əvvəllər SOCAR və xarici neft şirkətləri arasında imzalanan oxşar memorandumlar qazma işləri və hasilatın pay bölgüsü haqqında tam hüquqlu müqavilələrin imzalanmasına səbəb olub.

Ələkbərov söyləyib ki, memorandum çərçivəsində SOCAR və "LUKoil" arasında hasilatın pay bölgüsü haqqında rəsmi müqavilənin hazırlanması üçün 90 günlük danışıqlar dövrü başlayacaq.

**Müəllif: Lee H. Hamilton**
**Tarix: 23.07.1997**
**Mənbə: Christian Science Monitor (ABŞ)**
**Məqalənin adı: Toward peace in the Caucasus**
***www.csmonitor.com***

# QAFQAZDA SÜLHƏ DOĞRU

Çox uzaq məsafədə yerləşən Azərbaycan və Ermənistan ABŞ-ni nə üçün maraqlandırmalıdır? Cavab ondan ibarətdir ki, bizim orada vacib maraqlarımız var.

Bizim erməni xalqı ilə çoxillik dostluq və qohumluq əlaqələrimiz var. Biz Azərbaycanla Ermənistan arasında doqquz ildir davam edən və hər iki ölkəni viran qoyan münaqişənin sona çatmasına kömək etmək istəyirik. Biz istəyirik ki, onlar güclərini iqtisadi və siyasi islahatlara yönəltsinlər. Rusiya və İranın hər iki ölkəyə təzyiqini məhdudlaşdırmaq və Qərbin Xəzər hövzəsi neftinə çıxışını təmin etmək istəyirik. Təəssüflər olsun ki, bizim siyasətimiz uğursuzluğa düçar olur. ABŞ-nin maraqlarını qorumaq və təşviq etmək üçün bizə daha yaxşı yanaşma lazımdır.

1994-cü ildə Azərbaycan və Ermənistan arasında atəşkəs elan edilib,[105] lakin müharibə bitməyib; o, yalnız dondurulub. Ermənistan əsasən ermənilərdən ibarət olan, Azərbaycanın tərkibindəki Dağlıq Qarabağ anklavına,[4] eləcə də bu ölkənin ərazisinin təxminən 20 faizinə nəzarəti davam etdirir. Azərbay-

candan Ermənistana yüklərin tranzit daşınmasına mane olan hərbi qarşıdurma erməni xalqına xeyli əziyyət verib.[58]

Bu münaqişə səbəbindən 1992-ci ildə Konqres keçmiş Sovet İttifaqına yardım göstərməyə icazə verən Azadlığa Dəstək Aktına, Azərbaycan hökumətinin "erməni və Dağlıq Qarabağ xalqına qarşı blokadanı və güc tətbiqinin digər növlərini dayandırmaq üçün nəzərəçarpacaq addımlar atmayana qədər ona yardımı qadağan edən müddəa"nı əlavə etdi.[29] Mən bu qərarı dəstəkləmişdim. Bunun düzgün yol olduğunu düşünürdüm. Beş ildən sonra isə, bu qərarı yenidən nəzərdən keçirmək lazımdır. Həm Azərbaycanın, həm də Ermənistanın təkidi ilə ABŞ hal-hazırda Minsk sülh danışıqlarında Rusiya və Fransa ilə birlikdə, üç həmsədrdən[90] biri olmaq rolunu öz üzərinə götürüb. ABŞ ilk dəfədir ki, sülh prosesində birbaşa və aşkar rol oynayır.

ABŞ-nin Azərbaycan hökumətinə yardımla bağlı qadağasının qüvvədə olması diplomatiyamız üçün problemdir. Bu, bizim səmərəli vasitəçi olmaq imkanımızı məhdudlaşdırır. Bu yardım qadağası qüvvədə qaldıqca, biz çevikliyə və təsir imkanlarına malik deyilik. Bir sıra səbəbə görə, Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması ABŞ-nin regionda maraqlarını təşviq etməyin açarıdır.

Birincisi, münaqişənin sülh yolu ilə həlli erməni xalqının əzabını yüngülləşdirməyin birbaşa yoludur. Bu, eyni zamanda, Azərbaycanda olan 780 000 məcburi köçkünə kömək etməyin ən yaxşı yoludur.

İkincisi, münaqişənin sülh yolu ilə həll edilməsi həm Ermənistanın, həm də Azərbaycanın suverenliyini və müstəqilliyini möhkəmləndirməyə, Rusiya və İranın onlara təzyiqini azaltmağa kömək edəcək.

Üçüncüsü, münaqişənin sülh yolu ilə həlli həm Azərbaycana, həm də Ermənistana diqqətlərini öz vətəndaşlarının həyatını yaxşılaşdırmaq üzərində cəmləşdirməyə imkan verər.

<…>

Dördüncüsü, sülh regionun enerji ehtiyatlarının inkişafına imkan verəcək. Azərbaycanın 34 milyard barrelə barabər təsdiqlənmiş və ehtimal olunan neft ehtiyatları təxminən Küveyt və ya ABŞ-nin ehtiyatlarına bərabərdir.

Minsk sülh danışıqlarında yeni həmsədrliyimiz sülh prosesini irəli aparmaq üçün bizə unikal imkan verir. Məqsədimizə çatmaqda maksimum təsir vasitələrinə sahib olmaq üçün Konqres Azərbaycana qoyulan qadağanı sülh naminə aradan qaldırmalıdır. Azərbaycanla daha yaxşı münasibətlər ABŞ-nin milli maraqlarına, sülh maraqlarına və Ermənistanın da uzunmüddətli maraqlarına xidmət edir.

**Müəllif: Peter Baker**
**Tarix: 02.08.1997**
**Mənbə: The Washington Post (ABŞ)**
**Məqalənin adı: Clinton courts head of oil – rich Azerbaijan**
***www.washingtonpost.com***

# KLİNTON NEFTLƏ ZƏNGİN AZƏRBAYCANIN RƏHBƏRİ İLƏ NƏZAKƏTLƏ DAVRANIR

Dünən Birləşmiş Ştatlar neftlə zəngin Azərbaycanla, insan hüquqlarının pozulması faktına[178] və onun qonşu Ermənistanla olan ərazi münaqişəsinin[3] uzanmasına baxmayaraq, öz iqtisadi əlaqələrini gücləndirmək üçün hərəkətə keçib.

Prezident Klinton,[41] böyük neft ehtiyatlarına görə dünya liderlərinin diqqət yetirdiyi kiçik Mərkəzi Asiya respublikası olan Azərbaycanın[179] Prezidenti, keçmiş sovet Dövlət Təhlükəsizlik Komitəsinin generalı Heydər Əliyevi[1] ilk dəfə Ağ Evdə fəxri qarovul və səmimi əl sıxma ilə qarşıladı.

Dostluq şəraitində keçən görüşdən sonra Klinton və Əliyev iki ölkə arasındakı əlaqələri inkişaf etdirməyə yönələn 2 geniş simvolik birgə bəyanat imzaladılar. Ayrıca olaraq, Ağ Evdə vitse-prezident Qorun[180] rəhbərlik etdiyi mərasimdə ABŞ-nin 4 neft şirkəti Xəzər dənizinin dərinliyindəki perspektivli neft yataqlarından faydalanmağa imkan verən müqavilələr imzaladı.

"Bütün bu müqavilələr... bizim gələcək iqtisadi əlaqələrimizin daha da genişlənməsi üçün möhkəm zəmin yaradacaqdır" – Əliyev daha sonra Qərb Qanadı (West Wing) tərk edər-

kən jurnalistlərə söyləyib. Əliyevi səmimi qəbul etməklə öz strateji qərarını nümayiş etdirən Klinton administrasiyası göstərdi ki, Mərkəzi Asiyadaki iqtisadi maraqlar onlar üçün vətəndaş qarşıdurmasından daha çox əhəmiyyət kəsb edir. Bu siyasət erməni tənqidçilər tərəfindən istehza ilə "neft üçün qan" ticarəti kimi qəbul edilsə də, adminiztrasiya inanır ki, ABŞ-nin regionun inikşafını dəstəkləməkdə böyük marağı var və bu da nəticədə əsas enerju mənbəyi kimi Fars körfəzinə alternativ ola bilər.

Birləşmiş Ştatlar rəsmiləri həmçinin Qafqaz regionunu Türkiyə, Rusiya və İranın iştirak etdiyi regional münaqişələrin qarşısını almaq üçün potensial bir bölgə hesab edirlər.

"Bizim fikrimizcə, bizim geniş əlaqələrimiz və hökumətlərlə olan iş birliyimiz ümumilikdə sabitliyin yaranmasına kömək edəcək" – Ağ Evin mətbuat katibi Maykl Makkarri[181] qeyd edib.

<…>

Dünənki görüş zamanı Klinton Azərbaycanın tərkibində etnik erməni anklavı[4] olan mübahisəli Dağlıq Qarabağ[12] ərazisindəki münaqişə səbəbindən Azərbaycana maliyyə yardımı ilə bağlı, Konqres tərəfindən qoyulan qadağanın[29] ləğv edilməsini dəstəklədiyini bir daha qeyd edib. Əliyev bildirib ki, onun ölkəsi heç bir yardım almadığı halda, Birləşmiş Ştatlar tərəfindən Ermənistana əhəmiyyətli yardım göstərilir.

Klinton və Əliyev, bu yaxınlarda Birləşmiş Ştatlar, Rusiya və Fransa tərəfindən irəli sürülən sülh təklifi əsasında "Dağlıq Qarabağ münaqişəsinin tezliklə və sülh yolu ilə həllinə" çağıran birgə bəyənat imzaladılar. Onlar iki ölkə arasında sərmayə qoyuluşu və kapitalın sərbəst hərəkətini nəzərdə tutan ayrıca müqavilə imzaladılar.

Mərasim zamanı “Chevron”, “Exxon” və “Mobil” şirkətləri Xəzərdə yüzlərlə kvadrat mil sahədə qazıntı işləri aparmaq haqqında müqavilə bağladılar, “Amoco” isə potensial olaraq 2 milyon barrel neft ehtiyatına malik olan digər bir yataq barədə danışıqlar aparmaq üçün eksklüziv hüquqlar əldə edib.

**Müəllif: Caspar W. Weinberger**
**Tarix: 25.08.1997**
**Mənbə: Forbes (ABŞ)**
**Məqalənin adı: Oil from the Caspian Sea**
*www.forbes.com*

# XƏZƏR DƏNİZİNDƏN İDXAL OLUNAN NEFT

ABŞ-nin xarici siyasətinin əsas prioritetlərindən biri, Xəzər dənizi regionundan nefti və qaz idxal etməyə imkan verən davamlı, sabit və aydın anlaşılan proqrama malik olmaqdır.

Neftin konservasiyası və ona qənaət üzrə müxtəlif səylərə baxmayaraq, biz gündəlik istifadə etdiyimiz 18,3 milyon barell neftin təxminən yarısını idxal edirik. Ehtimal olunur ki, 2010-cu ilə qədər biz neftin 70%-ni idxal etməli olacağıq. İndiki vəziyyətdə neftin böyük bir hissəsi münaqişəli Fars körfəzindən idxal olunacaq, baxmayaraq ki, Birləşmiş Ştatların təsdiqlənmiş neft ehtiyatları təxminən 2%-ə bərabərdir, hal-hazırda biz dünya neftinin dörddə birindən çoxunu istehlak edirik.

Məsələ nefti idxal etməkdə deyil, haradan idxal etməyimizdədir. Etibarlı neft təchizatı olmadan iqtisadiyyatımızı idarə edə və ya millətimizi müdafiə edə bilmərik. Belə olduğu təqdirdə, əlçatan digər ehtiyatlar var – Xəzər dənizi ərazisində. Bu ərazinin təxmini hesablanmış neft ehtiyatları 200 milyard barelldir. Biz düzgün addımlar atsaydıq, bu region Yaxın Şərqdən

daha stabil məkan ola bilərdi. Xəzərlə sərhədi olan Azərbaycan bu ərazinin ən böyük neft ehtiyatlarından birinə sahibdir. Bu keçmiş sovet respublikası ilə əlaqələrimizi inkişaf etdirmək və gücləndirmək bizim üçün prioritet məsələ olmalıdır. Düşünürəm ki, bu çətin olmamalıdır. Digər şirkətlərin rəqabətinin artmasına baxmayaraq, Azərbaycan Qərbin investisiyalarına müsbət yanaşır və ABŞ-nin enerji şirkətləri ilə çoxlu müqavilə imzalayıb. Azərbaycan isə yeganə keçmiş sovet dövlətidir ki, Rusiyanın burada əsgər yerləşdirmək tələbini qəbul etmir – Rusiyanın bu respublikalar üzərində nəzarəti yenidən ələ keçirmək planının bir hissəsi burada öz ordusunu yerləşdirməkdir. Azərbaycan həmçinin İranın Azərbaycan neftini ələ keçirmək üçün göstərdiyi təzyiqlərə müqavimət göstərib.

Bunları nəzərə alaraq, bizim mümkün qədər bu ölkəyə yaxın və yardımçı olmağa çalışacağımızı düşünə bilərdiniz, lakin, xeyr; 1992-ci ildə, erməni lobbisini sakitləşdirmək üçün qəbul edilən Azadlığa Dəstək Aktına 907-ci düzəliş[29] Azərbaycana birbaşa yardım göstərməyi qadağan edir. Bu əslində, yüz milyonlarla dollar dəyərində ABŞ avadanlığı və maşın hissələri idxal edən ölkəni Ən Xoş Millət statusundan kənarda qoyur. Bu absurd vəziyyətin bu vaxta qədər davam etməsi administrasiyanı qane edirdi, çünki Rusiyanın istədiyini cənab Klinton[41] da istəyir və ölkədəki güclü lobbilərin istəyini reallaşdırmaqla onları məmnun edir.

ABŞ-nin maraqları tələb edir ki, biz Azərbaycanı, Gürcüstanı, Qazaxıstanı, Türkmənistanı, Özbəkistanı və digər region dövlətlərini Rusiya və ya İranın dominantlığından qorumaq üçün etibarlı müttəfiq olacağımıza inandıracaq siyasət həyata keçirək. Bu ölkələr əsasən dünyəvi müsəlman dövlətləridir və bizim bu ölkələrə kömək etməyimizi vacib edən digər bir səbəb isə, Türkiyə

hökumətində olduğu kimi, onların hökumətlərinin də qatı müsəlman fundamentalizminə qarşı mübarizə aparmalarıdır.

Belə görünür ki, administrasiya öz siyasətində standart dəyişikliklərindən birinə, "hamını məmnun etmək" siyasətinə başlayıb. Bu yaxınlarda Prezident Klinton Qərb yönümlü siyasət aparan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə[1] görüşüb. Görünür ki, administrasiya Azərbaycana birbaşa yardım göstərməyimizə maneə olan 907-ci düzəlişin ləğvinə çalışa bilər, lakin, dövlət katibinin müavini vəzifəsinə Rusiya meylli Stroub Talbotu[182] təyin edən administrasiyaya çox da etimad edə bilmərik. Cənab Talbot bu yaxınlarda söyləyib ki, ABŞ bu regionda təsir dairəsinə sahib olmaq uğrunda mübarizə aparmamalıdır və bizim əsas məqsədimiz "münaqişənin həll edilməsi" olmalıdır. O, Azərbaycanla Dağlıq Qarabağ anklavında[4] əsas sakinlər olan ermənilər arasındakı münaqişəni nəzərdə tutur, sonradan təxminən 700000 nəfər azərbaycanlı qaçıb canını qurtarmışdı.

Keçmiş siyasətin əksinə olaraq, cənab Talbot etiraf edib ki, 907-ci düzəliş vəziyyəti tənzimləmək səylərimizə mane olur, lakin o, münaqişənin sonunun "çox da uzaqda olmadığına" ümid etdiyini söyləyib. O, keçmişdə qonşu dövlətlər arasında Rusiyanın, sözün əsl mənasında problem yaratdığını, lakin indi münaqişələrin həlli üçün onun beynəlxalq ictimaiyyətlə birlikdə çalışdığına inandığını qeyd edib. Bəs Rusiya və İranın, regionda ABŞ-nin təsir dairəsi əldə etməsinin qarşısını almaq üçün Xəzər hövzəsi dövlətləri ilə birgə əməkdaşlıq etmələrinin vacibliyi barədə 1996-cı il iyun Bəyanatı necə? Senator Səm Braunbək,[183] (Kanzasdan olan respublikaçı) biz də "Rusiya mərkəzçi" olduğumuz üçün bu vacib regionda dəyərli vaxtımızı itirmişik deyəndə haqlı idi.

Biz "münaqişənin həlli" ilə bağlı ağlayıb-sızlamağa davam edə bilmərik. Bizimlə daha sıx əlaqələr qurmaq istəyən Xəzər hövzəsi ölkələri ilə münasibətlərimizi möhkəmləndirməliyik. Əks təqdirdə, biz və digər azadlıqsevər xalqlar yaşamaq üçün neftə görə Yaxın Şərqdən asılı olmağa davam edəcəyik.

Pipeline & Gas Journal

**Tarix: 12.09.1997**
**Mənbə: Pipeline & Gas Journal (ABŞ)**
**Məqalənin adı: Caspian Sea development**
***www.pgjonline.com***

# XƏZƏR DƏNİZİ YATAQLARININ İŞLƏNMƏSİ

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti[138] Xəzər dənizindəki "Günəşli", "Çıraq" və "Azəri" yataqlarının işlənməsinin birinci fazasında mühəndis-texniki layihələndirmə işləri və satinalma xidmətlərinin yerinə yetirilməsini təmin etmək niyyəti barədə "Brown and Root Energy Services" şirkətinə məktub göndərib.

Müqaviləyə gündə 300.000 barrel neft hasil etmək üçün konseptual tədqiqatlar, ilkin layihələndirmə, təfərrüatlı mühəndis layihələndirməsi və avadanlıqların satınalınması daxildir.

İşlərin vahid texnoloji platformada, həmçinin iki buruq və 80 quyu ətrafı platformada mərkəzləşəcəyi gözlənilir. Eyni zamanda, buraya yataqdaxili boru xətləri, təxminən 124 mil məsafədə quruda yerləşən Sanqaçal terminalı, qurudakı terminalın genişləndirilməsi, Azərbaycandan Qara Dənizdə Rusiya (Novorosiysk)[168] və Gürcüstanın (Supsa)[169] limanlarına – müvafiq olaraq, şimal və qərbə uzanan mövcud və magistral ixrac boru kəmərlərinin təkmilləşdirilməsi daxildir.

“Günəşli”, “Çıraq” və “Azeri” yataqlarının işlənməsinin birinci fazası ABƏŞ-nin Azərbaycanda həyata keçirdiyi ikinci oxşar layihədir.

Birinci layihə sutkada 115.000 barrel neft hasilatını nəzərdə tutur və tezliklə həyata keçiriləcək.

**Tarix: 15.09.1997**
**Mənbə: World Oil (ABŞ) (Vol.218, İssue 9)**
**Məqalənin adı: U.S. welcomes Azeri president**
*www.worldoil.com*

# ABŞ AZƏRBAYCAN PREZİDENTİNİ QƏBUL EDİR

Azərbaycanın Ermənistanla ərazi münaqişəsinə və insan haqları ilə bağlı problemlərinə[178] baxmayaraq, ABŞ Prezidenti Klinton[41] Azərbaycan Prezidenti Heydər Əliyevi[1] Ağ Evdə qarşılayaraq, neftlə zəngin ölkə ilə iqtisadi əlaqələri gücləndirmək məqsədilə rəmzi xarakterli iki birgə bəyanat imzalayıb. Eyni zamanda, ABŞ-nin vitse-prezidenti Al Qor[180] Xəzər dənizinin şelfində yataqların kəşfiyyatı məqsədilə ABŞ-nin dörd neft şirkəti tərəfindən hasilatın pay bölgüsü haqqında sazişlərin imzalanmasına rəhbərlik edib. "Brown & Root" şirkəti "Günəşli, Çıraq, Azəri" dəniz yataqları üçün yataqdaxili boru kəmərinin layihələndirilməsi və satınalınması və Azərbaycandan Rusiya və Gürcüstanın Qara dənizdəki limanlarına uzanan əsas ixrac boru kəmərlərinin təkmilləşdirilməsi barədə müqavilə imzalayıb.

**Müəlliflər: Steve LeVine, Bill Powell**
**Tarix: 24.11.1997**
**Mənbə: Newsweek (ABŞ) (Vol.130, İssue 21)**
**Məqalənin adı: The game gets serious**
*www.newsweek.com*

# OYUN CİDDİLƏŞİR

Çin Xəzər regionunun neft xəzinəsi uğrunda mübarizəyə başlayır.

Onların hamısı Azərbaycan sahilindən 110 mil aralıda, neft qazma qurğusunda dayanmışdılar, üzləri xam neftə bulaşmışdı: Birləşmiş Ştatların energetika naziri Federiko Penya[184], onun Rusiyadan olan həmkarı Boris Nemtsov,[185] Türkiyənin baş naziri Məsud Yılmaz,[186] bir qrup beynəlxalq neftçi və ev sahibi Azərbaycan Prezidenti Heydər Əliyev[1]. Onlar oradakı fotoqraflar üçün köhnə Azərbaycan ənənəsini yerinə yetirdilər. Yeni quyudan neft çıxarılan zaman siz onu üzünüzə sürtürsünüz. Beləliklə, keçən çərşənbə günü bir araya gələn yüksək vəzifəli şəxslər kameralar qarşısında güldülər və barmaq boyama dərsindəki məktəblilər kimi, nefti üzlərinə sürtdülər.

Diqqəti daha da cəlb edən odur ki, onlar bir-birini soyuq Xəzər dənizinə atmaqdan çəkindilər. Təkcə bu amil diplomatiyanın kiçik bir qələbəsi idi, çünki keçən həftə neft qazma qurğusunda toplaşan insanların çoxu ictimaiyyət qarşısında deyib-gülmələrinə baxmayaraq, dost deyillər. Onlar rəqibdirlər və

onların maraqları Xəzərin dibindəki və ətrafındakı nəhəng neft yataqlarına yönəlib. Onlar arasında artan rəqabətin kökündə kəskin coğrafi fakt dayanır: Xəzər beş ölkə ilə əhatə olunur. Bu faktor Böyük Xəzər hövzəsi ölkələrinin karbohidrogen ehtiyatlarının daşınmasını xeyli çətinləşdirir – 90 milyard barelldən 200 milyard barellə qədər neft olduğu bildirilir. İqtisadi və siyasi fikir ayrılığı o qədər böyükdür ki, tərəflərdən heç biri bunun ən yaxşı yolu barədə razılığa gəlmir, lakin hamısının güclü və rəqabətli ideyaları var.

Hal-hazırda Azərbaycanda çıxarılan neftin böyük bir hissəsi yeni təmir edilmiş boru kəməri vasitəsilə Bakıdan şimala, müharibənin viran qoyduğu, quldurların cəmləşdiyi Çeçenistana[131] gedəcək. Son məntəqə olaraq isə, Rusiyanın Qara dənizdəki Novorossiysk limanına çatacaq.[168] Azərbaycandan Əliyev və demək olar ki, təxminən hamı Rusiyanın regionda dominantlığını azaltmaq məqsədilə, Xəzər nefti üçün alternativ yollar tapmaq istəyirlər. Beləliklə, bir çox dövlət – o cümlədən ABŞ, Türkiyə, İran və hal-hazırda Çin boru kəməri planlarını irəli sürüblər. Məsələ ondan ibarətdir ki, milyardlarla dollar potensial gəlirə və geosiyasi gücə malik bu ərazi 21-ci əsrdə dünyanın ən strateji əhəmiyyətli yerlərindən biri olacaq.

19-cu əsrdə Böyük Britaniya və Rusiya imperiyaları arasında Mərkəzi Asiyanı və onun sərvətlərini ələ keçirmək uğrunda, "Böyük oyun" adlandırılan qızğın mübarizə gedirdi. Sovet dövrünün başlamasından iki əsr əvvəl Moskva bu bölgəyə öz arxa həyəti və təsir dairəsinin olduğu ərazi kimi baxırdı. O vaxtdan bəri çox şey dəyişməyib və indi də dünyada üçüncü ən böyük neft və qaz mənbələri uğrunda (Fars körfəzi və Rusiyanın Sibirdəki yataqlarından sonra) yarışda oyun yenidən başlayır. Hal-hazırda bu, rusları Vaşinqtona qarşı qoyur, lakin hər iki

ölkə daha aqressiv və enerjiyə ehtiyacı olan Çinlə mübarizə aparmalı olur.

1994-cü ildə Bill Klinton[41] Xəzəri ABŞ-nin strateji maraq dairəsində olan ərazi elan etdi. O, bunu Fars körfəzinin həddən artıq təhlükəli yer olduğunu Səddam Hüseyn[187] tərəfindən bir daha aşkar şəkildə göstərilməsindən sonra edib. Vaşinqtonun Xəzərdəki gizli məqsədlərinə Moskvanın dominantlığına son qoymaq və regionda hasil edilən neft və qazın "Chevron" və "Unocal" kimi ABŞ neft şirkətlərinin səyləri ilə təhlükəsiz şəkildə Qərb bazarlarına çatdırılmasını təmin etmək daxildir.

Bu hədəflər kifayət qədər təhlükəsiz görünür. Vaşinqtonda Klinton administrasiyasının Rusiya və Amerikanın Xəzər dənizində rəqib olduğunu açıq şəkildə söyləməsi siyasi baxımdan hələ də düzgün hesab olunmur. Sovet İttifaqı dağılandan sonra bu iki ölkə aralarında hər hansı bir rəqabətin olmasını davamlı olaraq inkar ediblər. Keçən iyul ayında dövlət katibinin müavini Stroub Talbott[182] çıxışında "Böyük oyun" bənzətməsini qəti olaraq rədd edib, Birləşmiş Ştatlara və Rusiyaya "neft geosiyasətini 19-cu əsrə deyil, 21-ci əsrə uyğun şərtlərlə" həyata keçirmək barədə çağırış edib. O, bildirib ki, münaqişənin həlli "ABŞ-nin bölgədəki siyasəti üçün ilkin vəzifə olmalıdır".

Əgər bu doğrudursa, administrasiya böyük boru kəməri mübahisəsindən başlaya bilər. Ötən çərşənbə günü keçirilən rəsmi mərasimdən dərhal sonra ABŞ-nin energetika naziri Penya bildirib ki, Birləşmiş Ştatlar Azərbaycan üçün növbəti boru kəmərinin yaradılmasında israr edəcək, lakin Boris Yeltsinin[32] baş nazirlərindən birinin birinci müavini Boris Nemtsov Penyanın fikirlərinə kəskin cavab verib: xeyr. Nemtsov Azərbaycan neftinin ixracı üçün əsas boru kəmərinin Rusiyadan keçəcəyinə "100 faiz əmin olduğunu" bildirib. O, Novorossiyskə gedən

yolda Çeçenistandan yan keçəcək yeni bir marşrutun olacağına xüsusi təminat verib.

Keçən həftə Klintonun mesajının ikinci konkret auditoriyası Tehran idi və buna əlavə olaraq, indi dünyada bütün enerji şirkətləri İranla iş görməyə can atırlar. Keçən həftə Bakıda keçirilən bayramda iranlıların nümayəndəsi iştirak etməmişdi. İran, xəzərətrafı beş dövlətindən biri kimi, iddiasını getdikcə daha da artırıb və boru kəmərinə özü nəzarət etmək istəyir. Eyni zamanda, tarixi rəqiblər olan Moskva və Tehran Bill Klintonu qıcıqlandırmaqdan ümumi həzz almağa başlayıblar. Keçən ay, Rusiyanın nəhəng qaz şirkəti "Qazprom" İranda Fransanın rəhbərlik etdiyi 2 milyard dollarlıq qaz müqaviləsində böyük məmnuniyyətlə iştirak edəcəyini elan edib və ruslar Vaşinqtonun Tehranla heç kimin iş görməməsi ilə bağlı təkidinə məhəl qoymamağa davam edəcəklərini açıq şəkildə bildiriblər. Xəzərdə fəaliyyət göstərən Qərb neft şirkətlərinin əksəriyyəti eyni şeyi etmək istərdi, çünki İran vasitəsilə qaz nəqli iqtisadi cəhətdən əhəmiyyət kəsb edir. İranlılar indi açıq şəkildə ümid edirlər ki, Amerika neft şirkətləri ABŞ-nin İrana qarşı olan sanksiyalarını aradan qaldırmaq üçün Vaşinqtona öz təkliflərini verəcəklər. Bu yaxınlarda Pekində keçirilən Dünya Neft Konqresində Therandakı Beynəlxalq Neft Araşdırmaları İnstitutunun əməkdaşı Fereydoun Barkeşli[188] ABŞ neft şirkətlərinin Xəzər dənizi üçün İran boru kəməri xəttini yekdilliklə dəstəklədiklərini bildirib.

Bakıya gəlməyən mühüm şəxslər yalnız iranlılar deyildi. Çin neft şirkətləri də tədbirdə iştirak etməmişdi. Azərbaycandan aralıda, Xəzərin o tayında yerləşən, neft və qazla zəngin olan Qazaxıstanda fəaliyyət göstərən Qərb neftçiləri arasında Çinin Mərkəzi Asiyadakı enerji planlarına gözlənilmədən böyük maraq yaranıb. Son bir neçə ayda Pekində, dövlətə məxsus

neft şirkətləri Qazaxıstanın iki ən böyük neft yatağının işlənməsi hüququnu əldə ediblər və onlar Qazaxıstan neftini Çinin qərbindəki Sincan əyalətinə nəql edəcək daha bir boru kəmərinin tikintisi üçün Qazaxıstanla 3,5 milyard dollarlıq müqavilə imzalayıblar. Zamanla, Çin boru kəmərini şərq sahillərində, enerji istehlakının ən yüksək olduğu sənaye rayonuna qədər genişləndirməyi planlaşdırır.

Qərb neft şirkətləri inkişaf edən Asiya bazarının Xəzər regionundan neftin nəqli üçün aşkar bir hədəf olması ilə çoxdan razılaşıblar. Əsas məqam ondan ibarətdir ki, onlar nefti hasil və nəql etmək istəyirlər. Çinin, özəl səhmdarlar tərəfindən məhdudiyyətlər tətbiq edilməyən enerji şirkətləri külli miqdarda pul xərcləyə bilirlər və bu o deməkdir ki, onlar "Chevron", "Unocal" və "British Petroleum" kimi neft nəhənglərinin sıçrayış etdiklərini düşünüldüyü bir regionda birdən-birə güclü oyunçuya çevrilirlər. İndi onların böyük şirkəti var. Bu yaxınlarda "China Daily" qəzetində bir başlıqda qeyd edilir: XARİCİ NEFT MİLLƏT ÜÇÜN AÇAR ROLUNU OYNAYIR. "Böyük oyun" ifadəsi Bill Klintonun diplomatlarının xoşuna gəlməyə bilər. Çox təəssüf; keçən həftəki intriqa sadəcə onu göstərir ki, o, artıq başlamışdır.

**Müəllif: Marshall De Luca**
**Tarix: 05.01.1998**
**Mənbə: Offshore (ABŞ) (Vol. 58 İssue 1)**
**Məqalənin adı: Central Asia**
*www.offshore-mag.com*

# MƏRKƏZİ ASİYA

<.....>

Bu yaxınlarda Azərbaycan dövlət neft şirkəti SOCAR iki sazişin imzalanması ilə, Xəzər dənizində öz konsessiyalarının işlənməsi planlarını gücləndirib. SOCAR Türkmənistanla mübahisəli dəniz sərhədi yaxınlığında yerləşən "Bal Abiha" yatağının kəşfiyyatı və işlənməsi üçün "Royal Dutch/Shell" şirkəti ilə saziş imzalayıb. Bu yaxınlarda Azərbaycan parlamenti tərəfindən ratifikasiya olunmuş ikinci saziş "Naxçıvan" yatağının işlənməsi üçün "Exxon" şirkəti ilə imzalanıb.

Azərbaycan 2010-cu ilə qədər illik xam neft hasilatını sutkada təqribən 940.000 barellə, qaz hasilatını isə 16,5 milyard kubmetrə çatdırmaq (cari illik hasilatdan beş dəfə çox) planlarını açıqlayıb. Ölkə buna SOCAR dövlət neft şirkətinin proqnozlaşdırılan istehsalı və ölkədə fəaliyyət göstərən xarici şirkətlərin hesabına nail olmağı planlaşdırır. 1997-ci il üçün təxmini hasilat gündəlik 184.000 barell neft və 6,4 milyard kubmetr qaz olmuşdur.

<.....>

“Caspian International Petroleum” və “Pennzoil E&P” təsdiq ediblər ki, Xəzər dənizindəki “Qarabağ” blokunda KPS-1 quyusunun ilkin nəticələri təbii qazın olduğunu göstərir. Quyuda 3470 metr dərinlikdə qazma işləri davam etdirilir. KPS-1 1998-ci ilin sonuna qədər qazılması planlaşdırılan üç kəşfiyyat quyusundan birincisidir. “Qarabağ” bloku Bakıdan təxminən 125 km. şərqdə yerləşir və 16 000 akr[190] ərazini əhatə edir.

**Tarix: 01.02.1998**
**Mənbə: The Washington Post (ABŞ)**
**Məqalənin adı: Prize of the Caucasus: two leaders talk oil**
***www*.washingtonpost.com**

# QAFQAZ MÜKAFATI: İKİ LİDER NEFTDƏN DANIŞIR

Onlar keçmiş Sovet İttifaqında hakimiyyətin zirvəsinə çatan iki keçmiş "Soyuq döyüşçü" idilər. Lakin 1990-cı illərin əvvəllərində İttifaq dağılanda Heydər Əliyev[1] və Eduard Şevardnadze[11] vətənlərinə – doğma Qafqaza geri döndülər. Onlar o vaxtdan bəri uzun və amansız tarixə və böyük sərvət potensialına malik olan iki yeni respublikanın prezidenti oldular. Əliyev Azərbaycanda, Fars körfəzi ilə müqayisə edilə biləcək Xəzər dənizində, neft ehtiyatlarının üstündə oturdu. Şevardnadze isə Gürcüstanda – Qara dənizdə, bu neftin ixracı üçün ən səmərəli yollardan birinin üstündə. Lakin onlar Rusiya, İran, Türkiyə ilə çətin qonşuluq münasibətlərindədirlər və ABŞ də daxil olmaqla, hamısı nüfuz uğrunda mübarizə aparır. Ötən həftə 74 yaşlı Əliyev Şevardnadzeni 70 illik yubileyi münasibətilə təbrik etmək üçün Gürcüstanın paytaxtı Tbilisiyə uçub. "Vaşinqton Post" qəzetinin köşə yazarı Lalli Veyməs hər iki şəxsdən müsahibə alıb. Müsahibədən çıxarışları tədqim edirik:

**SUAL:** Siz Sovet İttifaqında qeyri-rus olan ən qüdrətli məmurlardan biri idiniz. Sonra prezident Qorbaçovla[64] aranızda mübahisə yarandı və nəticədə Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə gətirib çıxardı. Niyə?

**ƏLİYEV:** Mən uzun müddət Qorbaçovla işləmişəm və onu yaxşı tanıyırdım, amma o, Azərbaycana qarşı haqsızlıq etdi. O, mənim məsləhətimə qulaq asmadı. "Heç kəsin özündən daha yaxşı bilmədiyini düşünərək" daha da qəzəbləndi... Mənim Siyasi Büroda qalmağımı istəmədi və mənə belə də dedi... Sonra 1990-cı ilin yanvar ayında Qorbaçov, genişlənən xalq hərəkatını dayandırmaq üçün bura, Azərbaycana sovet ordusunun iri kontingentini yeritdi.

**SUAL:** Sovet qoşunları paytaxt Bakıda 120 nəfəri öldürmədimi?

**ƏLİYEV:** 134 nəfər qətlə yetirildi, 600 nəfərdən çoxu yaralandı. Bu, milli respublikaya qarşı törədilmiş cinayət idi... Moskvada keçirilən böyük yığıncağa getdim və Qorbaçovun Azərbaycana hərbi təcavüz siyasətinə qarşı bəyanat verdim. Bundan sonra eşitdim ki, məni həbs etməyi planlaşdırırlar.

**SUAL:** Üç il sürgündən sonra Azərbaycan Prezidenti olmaq üçün geri döndünüz. O vaxtdan bəri ölkənizdə neft sənayesini inkişaf etdirdiniz. Siz müxtəlif boru kəmərlərinin işlənməsi siyasətini Azərbaycanın müstəqilliyinin açarı kimi görürsünüz?

**ƏLİYEV:** Boru kəmərləri Azərbaycanın güclənməsinə kömək edən amillərdən yalnız biridir.

**SUAL:** Klinton[41] administrasiyası Bakıdan Türkiyənin Ceyhan[167] limanına kimi uzanan neft boru kəməri layihəsini dəstəkləyir. Bəs Siz?

**ƏLİYEV:** Bəli, mən də dəstəkləyirəm. Hesab edirəm ki, Xəzərdən çıxarılan neftin böyük bir hissəsi Ceyhana getməlidir. Bakı-Ceyhan xətti[108] təkcə Azərbaycan neftinin deyil, həm də Qazaxıstan və Türkmənistan neftinin ixracı üçün çox vacib olacaq... Düzdür, bu xətt Rusiya üçün əlverişli deyil. Onlar çalışırlar ki, biz neftin böyük hissəsini onların ərazisi vasitəsilə ixrac edək.

**SUAL:** İran prezidenti Məhəmməd Hatəmini[191] ölkənizə səfərə Siz dəvət etmisiniz?

**ƏLİYEV:** Bəli, mən onu dekabrda Tehranda olarkən dəvət etmişdim. Gələcəyinə söz verdi.

**SUAL:** Belə başa düşürəm ki, Siz İsraildə səfirlik açmağa hazırlaşırsınız və həmçinin ora getməyi də planlaşdırırsınız. Elədir?

**ƏLİYEV:** Bəli, planlarım belədir.

**SUAL:** İranlılar İsrailin baş naziri Benyamin Netanyahunun[192] ötən yay bura səfərindən Sizə şikayət edib?

**ƏLİYEV:** Bəli, şikayət etdilər; bundan narahat idilər. Bununla razılaşmırdılar.

**SUAL:** Azərbaycan-İsrail münasibətləri Sizin üçün mühümdür?

**ƏLİYEV:** İsraildə yaşayan Azərbaycan yəhudiləri var, Azərbaycanda da yaxşı şəraitdə yaşayan yəhudilər var. Buna görə də İsrail ilə ticarət əlaqələri və elm və mədəniyyət sahəsində əlaqələr labüddür.

**SUAL:** Belə anlayıram ki, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində göstərdiyiniz səylərinizə görə müxalifət tərəfindən hücuma məruz qalmısınız. Siz və Ermənistan prezidenti Levon Ter-Petrosyan[61] danışıqlarda eyni əsas prinsipləri qəbul etmisiniz. Bu münaqişənin həllinə ümid edirsinizmi?

**ƏLİYEV:** Mən ümid edirəm, fəqət müxalifət mənimlə razılaşmır. Petrosyanın da güclü müxalifləri var, xüsusən də Dağlıq Qarabağ liderləri. Oktyabrın 10-da biz – Azərbaycan prezidenti və Ermənistan prezidenti, birgə bəyanat verdik ki, Azərbaycan və Ermənistan ümumi prinsiplər üzrə razılığa gəliblər.

**SUAL:** Azərbaycanın ABŞ ilə münasibətləri necədir?

**ƏLİYEV:** Keçən ilin iyul ayında Amerikaya çox uğurlu səfərim baş tutdu. Prezident Klinton, vitse-prezident Qor[180] və dövlət katibi Olbraytla[193] görüşdüm. Ağ Evdə Amerikanın ən böyük neft şirkətləri ilə dörd neft müqaviləsi imzaladım. Prezident Klinton və onun administrasiyasının bir çox üzvü konqresin ABŞ-nin Azərbaycana yardımını qadağan edən 907 saylı qətnaməsini[29] ləğv etmək istəyirlər. Amma qətnamə hələ də qüvvədədir. Bu çox ədalətsizdir.

**SUAL:** Əgər 907 saylı qətnamə qüvvədə qalsa, bu, Azərbaycanda işləyən ABŞ neft şirkətləri üçün zərərli olacaqmı?

**ƏLİYEV:** Bilmirəm, bunu gələcək göstərəcək.

**SUAL:** Amerikalılar Sizin soyuq müharibənin başa çatdırılmasında oynadığınız mühüm rolu xatırlayırlar. Bundan sonra Siz doğma Gürcüstana qayıtdınız və çətin və qeyri-sabit bir dönəmdə vəzifənizi icra etdiniz.

**ŞEVARDNADZE:** Vətəndaş müharibəsinin ortası idi və tam xaos idi. Belə bir dövlət yox idi. Biz indi çiçəklənmirik, ancaq biz dövlətik, demokratik dövlət və bu çox əhəmiyyətlidir.

**SUAL:** Qayıdanda Abxaziyada[70] və Cənubi Osetiyada[68] [Gürcüstanın bir hissəsi] ixtilafla qarşılaşdınız; hər tərəfdən düşmən qüvvələr ilə əhatə olunmuşdunuz. ABŞ-yə getdiniz və kömək istədiniz. Ala bildiniz?

**ŞEVARDNADZE:** Bəli, ABŞ mümkün olanı etdi. O, ölkəyə böyük maliyyə yardımı göstərməklə yanaşı, Gürcüstanın xilas olmasına kömək etdi və aclığın qarşısını aldı.

**SUAL:** Rusiya Gürcüstana qoşun yeridib. Onlar hələ də buradadırlar…

**ŞEVARDNADZE:** Biz [Rusiya] sülhməramlılarının mandatının dəyişdirilərək məcburi köçkünlərin [Abxaziyadan olan gürcülərin] öz evlərinə təhlükəsiz qayıtmasını istəyirik. Hələki sülhməramlıların fəaliyyətindən o qədər də razı deyilik.

**SUAL:** Abxaziya üçün sülhməramlı qüvvələrin beynəlmiləlləşdirilməsini istəyirsinizmi?

**ŞEVARDNADZE:** Rusiya [sülh] danışıqları prosesində iştirak edir, lakin [davam edən] Cenevrə sülh danışıqları da gündəmdədir. Bu danışıqlarda ABŞ, Fransa, Almaniya və Böyük Britaniya da iştirak edir. Əgər sülh danışıqları istədiyimiz nəticəni verməsə, o zaman beynəlxalq qüvvələr işə cəlb olunmalı olacaq.

**SUAL:** Siz Abxaziya məsələsinin həlli üçün Bosniya həll yolundan bəhs etdiniz. Nəyi nəzərdə tutursunuz?

**ŞEVARDNADZE:** Deyton modeli yaxşı olardı – polis funksiyası yerinə yetirməyə qadir olan quru qoşunlarının yerləşdirilməsi. Əhaliyə qarşı cinayət törədən separatçılar bilməlidirlər ki, bunun əvəzini ödəyəcəklər.

**SUAL:** Sizcə, Gürcüstan ərazisindən keçən ilk neft kəməri nə vaxt başa çatacaq?

**ŞEVARDNADZE:** Bu ilin payızında başa çatdırılması nəzərdə tutulur.

**SUAL:** Gürcüstanın, Bakıdan Ceyhanadək uzanan əsas ixrac boru kəmərinin bir hissəsi olmasını təsəvvür edirsinizmi?

**ŞEVARDNADZE:** Hesab edirəm ki, əsas ixrac boru kəmərinin Gürcüstandan keçəcəyinə inanmaq üçün bütün əsaslarımız var.

**SUAL:** Boru kəmərləri və digər malların Şərq-Qərb ticarəti Gürcüstan üçün nə demək olacaq?

**ŞEVARDNADZE:** Bu Şərq-Qərb nəqliyyat dəhlizi digər [qonşu] ölkələrlə daha sıx əlaqələrə başlayan ölkə üçün çox şey nəzərdə tutur. Gürcüstan onlar üçün faydalı olmağa başlayır. Onun statusu artırılacaq. Gəlir daha çox olacaq. Mərkəzi Asiya, Avropa və Qafqaz dövlətləri Avropa-Asiya körpüsünə, köhnə "ipək yolu"na həyati dərəcədə maraq göstərirlər. Bu, Rusiyanın tranzit ölkə funksiyasından məhrum olacağı mənasına gəlmir.

**SUAL:** Rusiya ilk növbədə Abxaziyada problemi qızışdırdı, elə deyilmi?

**ŞEVARDNADZE:** Məncə, onlar dəyişiblər. Mən ruslara xəbərdarlıq etdim ki, bu (Abxaziya münaqişəsi) bumeranq kimi onların üstünə gələcək və belə də oldu. [Çeçenistandakı təcrübələrindən] ruslar indi başa düşürlər ki, stabil Gürcüstan onların marağındadır. Əks halda, Rusiya Federasiyasının cənub bölgəsində sabitlik olmayacaq.

**SUAL:** ABŞ-İran münasibətlərində dəyişiklik görmək istərdinizmi?

**ŞEVARDNADZE:** Əgər Sovet İttifaqı və ABŞ barışa bildilərsə, niyə bu, digər ölkələrlə də baş verməsin?

**SUAL:** Axı Sovet İttifaqı məğlub oldu.

**ŞEVARDNADZE:** Biz bu terminlərlə danışmağı özümüzə rəva görməməliyik. Qaliblərdən və uduzanlardan danışsaq, o zaman keçmişdə yaşadığımız çıxılmaz dairəyə geri qayıdacağıq. "Soyuq müharibə"nin sonunda məğlub olanlar yox idi – hamı qalib gəldi.

**SUAL:** İyirmi ildən sonra bu regionu necə görürsünüz?

**ŞEVARDNADZE:** Dünyanın ən çiçəklənən regionalrından biri olacaq.

**Müəllif: Kevin Whitelaw**
**Tarix: 23.02.1998**
**Mənbə: US News & World Report (ABŞ) (Vol.124, İssue 7)**
**Məqalənin adı: Oil, trouble flow down the Baku pipeline**
***www.usnews.com***

# NEFT, PROBLEM BAKI KƏMƏRİ İLƏ AXIR

Qərb neft şirkətləri üçün Azərbaycana sərmayə yatırmaq hələ də çılğın bir səyahət olmaqda davam edir ("Payoff in the Caspian", U.S. News, 10 noyabr 1997-ci il). Ötən ilin payızında Qərb konsorsiumu Xəzər dənizindəki platformadan ilk neftini hasil etdikdən sonra[194] paytaxt Bakıda bayram şənlikləri başladı. Bu neft bu həftə, təmir olunmuş boru kəməri ilə Rusiya ilə sərhəddə çatmalı idi.

Bölgənin üzərinə qara buludlar da çöküb. Fevralın əvvəlində Ermənistan prezidenti Levon Ter-Petrosyanın[61] məcburi istefa verməsindən sonra Azərbaycanın ermənilərin çoxluq təşkil etdiyi Dağlıq Qarabağ hissəsi ilə bağlı 10 ildir davam edən mübahisənin həllinə olan ümidlər puça çıxdı. 1994-cü ilin mayında Ermənistan və Azərbaycan arasında əldə olunan atəşkəs[105] qanlı döyüşləri dayandırdı və nəticədə ermənilər qonşularının 20 faizə yaxın ərazisini işğal etdilər. Ancaq sülh əlçatmaz olaraq qalır. Ter-Petrosyanın münaqişəyə son qoymaq üçün beynəlxalq planı dəstəkləməsi onun hökumətini parçaladı və prezidentliyinin sonu oldu.

Ermənistanın yeni prezidenti səlahiyyətlərini icra edən Robert Koçaryan[114] Dağlıq Qarabağın keçmiş prezidentidir[109] və beynəlxalq vasitəçilərin ərazilərin bir hissəsinin Azərbaycanın nəzarətinə qaytarılması təklifinin əleyhinədir. ABŞ rəsmiləri Ter-Petrosyanın qeyri-sağlam iqtisadiyyata görə artıq siyasi problemlər yaşadığını qeyd edərək, hər şeyi ən yaxşı şəkildə təqdim etməyə çalışırlar. ABŞ rəsmilərindən biri deyib: "İndi bizə sadəcə işləmək üçün hökumət lazımdır". "Heç bir dəstəyi olmayan adamla işləmək çətin idi". Ermənistanın gələcəyi martın 16-da keçiriləcək yeni seçkilərdən sonra müəyyənləşəcək. Populyar olan Koçaryanın qalib gəlmək şansı var, lakin o, mübahisəli Dağlıq Qarabağ bölgəsinin[12] keçmiş sakini kimi, ilk növbədə namizədliyini irəli sürmək hüququ ilə bağlı hüquqi məsələləri aydınlaşdırmalıdır.

Ermənistanda baş verən silkələnmə Qafqazdakı bəlaların əlamətlərindən yalnız biri idi. Gürcüstan Prezidenti Eduard Şevardnadze[11] ötən həftə, son 30 ayda ikinci dəfə sui-qəsddən son anda xilas olub. Hər iki hadisə Qərbin Azərbaycandakı neft şirkətlərini şoka salıb. Onlar qorxurlar ki, yeni qeyri-sabitlik Azərbaycan neftini Qərbə nəql etmək üçün lazım olan yeni boru kəmərlərinin tikintisinin qarşısını ala bilər. "Petroleum Finance Corp" şirkətinin Xəzər regionu üzrə eksperti Culiya Nanay deyib: "Bir çox sazişlər imzalanıb, lakin şirkətlər boru kəmərinin marşrutu məsələsində irəliləyiş görənə qədər çox pul xərcləməməyə çalışacaqlar".

**Tarix: 09.03.1998**
**Mənbə: The Oil and Gas Journal**
**(ABŞ) (Vol. 96, İssue 10)**
**Məqalənin adı: Central Asian FSU petrochem project contracts awarded**
***www.ogj.com***

# KEÇMİŞ SOVET İTTIFAQINDA MƏRKƏZİ ASİYA NEFT-KİMYA LAYİHƏSİ MÜQAVİLƏLƏRİ İMZALAYIB

Keçmiş Sovet İttifaqının Mərkəzi Asiya dövlətlərinin neft-kimya sektoruna sərmayə qoyuluşu sürətlənir, Azərbaycan[179] və Özbəkistanda iri layihələr üzrə müqavilələr bağlanır.

Yaponiya şirkətləri və kredit təşkilatları hər iki layihədə mühüm rol oynayır.<·····>

**Azərbaycan yenilənir**

Yaponiyanın İxrac-İdxal Bankı Azərbaycanda etilen zavodunun modernləşdirilməsi üçün "Nichimen Corp." və "Chiyoda Corp." şirkətləri ilə imzalanan inşaat müqaviləsini maliyyələşdirmək üçün 9,2 milyard [yen] maliyyə ayıracaq.

Keçən ayın sonunda Tokioda Bankın nümayəndəsi, 10 illik sindikatlaşdırılmış kreditin – İxrac-İdxal Bankın Mərkəzi Asiya ölkəsinə verdiyi ilk kreditin vaxtını uzatmaq üçün Azərbaycan Prezidenti Heydər Əliyevlə[1] görüşməli idi.

Maliyyələşdirmə İxrac-İdxal Bankı və “Sanwa” Bankın rəhbərlik etdiyi özəl bank qrupu tərəfindən həyata keçiriləcək. Faiz dərəcəsi açıqlanmayıb.

Paytaxt Bakının şimalında yerləşən Sumqayıt şəhərində fəaliyyət göstərən zavod ildə 260 000 metrik ton etilen istehsal edir. 1999-cu ildə zavodun yenidən qurulmasının başa çatdırılması nəzərdə tutulub.

**Müəlliflər: Chris Noble,**
**Kvaerner John Brown,**
**Vitali Begliarbekov**
**Tarix: 18.03.1998**
**Mənbə: Pipeline & Gas Journal (ABŞ) (Vol.225, İssue 3)**
**Məqalənin adı: Rebuilding Azerbaijan's natural gas infrastructure**
***www.* pgjonline.com**

# AZƏRBAYCANIN TƏBİİ QAZ İNFRASTRUKTURUNUN YENİDƏN QURULMASI

Azərbaycanın dövlət müstəqiliyi əldə etməsi[195] onun qaz sənayesində ciddi pozuntulara səbəb olub. Sovet dövründə Azərbaycanda yetkin və yaxşı inkişaf etmiş qaz sənayesi təşəkkül tapmışdı. Buraya yerli istehsal və emal, qonşu dövlətlərdən idxal, geniş daxili paylama sistemi, həmçinin qaz saxlama və digər dövlətlərə ötürmə sistemləri daxil idi. Bununla belə, bu sahədə, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərmək üçün zəruri olan kommersiya bazasının çox hissəsi yoxdur. Qaz satışı, alqı-satqı müqavilələri və qazın qiymətlərinin əsasları ilə bağlı məsələləri həll etmək lazımdır.

"Kvaerner Con Braun" şirkəti, Azərbaycanın qaz sənayesinin yenidən qurulması üçün ən səmərəli proqramın müəyyən edilməsində SOCAR-a (Azərbaycan Respublikası Dövlət Neft

Şirkəti) kömək etmək məqsədilə, ölkənin qaz emalı müəssisələrinin yenidən qurulması ilə bağlı araşdırma aparıb. Tövsiyələr investisiya qoyuluşu üçün beynəlxalq neft şirkətlərinə və maliyyə institutlarına təqdim olunacaq layihənin əsasını təşkil edəcək. Dünya Bankının Neft Sahəsində Texniki Yardım Layihəsi tərəfindən maliyyələşdirilən tədqiqat yeni qaz zavodunun konseptual layihəsini (yerləşməsi, ətraf mühit və təhlükəsizliyə təsirinin qiymətləndirilməsi də daxil olmaqla) və hərtərəfli iqtisadi və maliyyə təhlilini əhatə edir.

**Tələb və təklif**

Azərbaycanın enerji istehlakının 60%-i ənənəvi olaraq qazdan asılıdır və 1990-cı ildə tələbat pik həddə çataraq, təxminən 17,5 mlrd. kub metr təşkil edib. Azərbaycan əvvəllər Ermənistan və Gürcüstana qaz nəqlini təmin edirdi. Bununla belə, qazın həm idxalı, həm də ixracı məhdudlaşdırılıb və hazırda Azərbaycanda hasil olunan 4-5 milyard kubmetr həcmində qaz, respublikada iqtisadi fəallığın kəskin şəkildə aşağı düşdüyü halda belə, tələbatatdan xeyli azdır. Ölkənin rayonlarının çoxu qaz təchizatından məhrumdur.

SOCAR xarici neft şirkətlərindən ibarət konsorsiumlar ilə, hasilatın pay bölgüsü haqqında bir sıra müqavilə imzalayıb və bu konsorsiumlar müqavilə ilə onlara həvalə edilən sahələrdə neft ehtiyatlarını fəal şəkildə mənimsəyirlər. Bu, əhəmiyyətli dərəcədə əlavə səmt qazı ehtiyatlarının əldə olunacağına ümid yaradır. Hesablamalara görə, 2005-ci ilə qədər daxili qaz hasilatı 10-12 milyard kubmetrə çatacaq. O vaxta qədər, xüsusilə də elektrik enerjisi istehsalı qazdan istifadə etməklə reallaşarsa, Azərbaycan qaz bazarının bütün mövcud daxili ehtiyatlarının istehlak ediləcəyi gözlənilir.

Potensial qaz tələbatının ödənilməsi qaz təchizatı və paylama sisteminin, kommersiya baxımından fəaliyyət qabiliyyətli bir müəssisə kimi yenidən qurulmasından asılıdır. Azərbaycan geniş qazpaylayıcı infrastruktura malikdir, lakin onun aktivlərinin çoxundan ya istifadə olunmur, ya da az istifadə olunur. Sistemi saxlamaq və bərpa etmək, qazın keyfiyyət tələblərinə cavab verməsini təmin etmək məqsədilə, onu korroziyadan qorumaq üçün investisiya tələb olunur. Buna tezliklə nail olunmayacağı təqdirdə, sistemin daha da pisləşməsi riski mövcuddur və onda onun son bərpası daha çox xərc tələb edəcək. Yeni qaz emalı müəssisələrinə investisiya qoyuluşu təcili zərurətdir.

**İnfrastruktur**

Azərbaycanda hasil olunan qazın böyük hissəsi, Bakıdan təxminən 25 kilometr cənub-qərbdə yerləşən Qaradağ qaz zavoduna nəql olunur. Qaz zavoda iki qidalandırıcı magistral qaz kəməri, yəni dənizdə hasil olunan qazı toplayan "Günəşli" kəməri və zavodun cənubundakı yataqlardan hasil olunan qazı toplayan "Nərimanov və Bulla Dəniz" kəməri ilə nəql edilir. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ)[138] tərəfindən Səngəçalda, dəniz yataqlarından hasil edilən xam neftin toplanması və səmt qazının emalı üçün yeni obyektlər tikilir. Bütün izafi səmt qazı, sonradan qaz emalı müəssisələrinə nəql etmək üçün, terminalın girişində SOCAR-a verilir.

"Bahar" dəniz yatağından hasil olunan qaz kəmərlə birbaşa Serebrovskiyə[196] ötürülür. Yataqda təzyiq aşağıdır və qaz Bakı rayonunda paylanmaq üçün birbaşa "Azəriqaz"a satılır. Bu yataqdan hasil olunan qaz ümumilikdə yerli hasilatın əhəmiyyətli hissəsini təşkil edir, buna görə də sıxıcı və təmizləyici qurğulara təcili ehtiyac var.

Mövcud Qaradağ qaz zavodu 1960-cı illərdə qaz və kondensatın emalı üçün tikilib. Təmizlənmiş qaz "Azəriqaz"ın geniş paylayıcı sistemi vasitəsilə istehlakçılara paylanır. Qaradağda və Səngəçalda yerləşən əsas qazpaylayıcı stansiyalar "Azəriqaz" sisteminə rahat girişi təmin edir. Sıxılmış neft qazı və maye məhsullar üçün geniş saxlama və ixrac obyektləri Qaradağ Qaz Zavodu ilə bağlıdır. Qaradağda maye məhsulları nəql etmək üçün avtomobil, dəmiryolu və boru kəməri sistemləri mövcuddur.

Qaz emalı zamanı ölüm halları ola biləcək iki sahə tədqiqatın gedişində nəzərdən keçirilmişdir: biri Səngəçalda, mövcud qazpaylayıcı stansiya ilə yanaşı, digəri isə, Qaradağdakı mövcud qaz emalı zavodunun yanında. Bu sahələrin hər biri üçün ekoloji qiymətləndirmə və xərclərin təfərrüatlı tədqiqatı aparılmışdır. Bu mülahizələr nəticəsində, ətraf mühitə təsirləri və əsas xərcləri minimuma endirmək üçün Qaradağ əlverişli ərazi kimi tövsiyə edilmişdir. Qaradağ sahəsində fəaliyyət mövcud infrastrukturdan maksimum istifadə etməyə və işləmə xərclərini azaltmağa imkan verir.

Tarix: 20.03.1998

Mənbə: Pipeline and Gas Journal (ABŞ) (Vol.225, İssue3)

Məqalənin adı: Azerbaijan gas study announced

*www.pgjonline.com*

# AZƏRBAYCANDA QAZ YATAQLARININ TƏDQİQ OLUNACAĞI ELAN EDİLDİ

"Exxon" Azərbaycan MMC və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Azərbaycanda qaz ehtiyatlarının geniş miqyaslı tədqiqini həyata keçirirlər. Bir il davam edəcək tədqiqatın məqsədi yerli enerji bazarını və qaz ixracı imkanlarını dəyərləndirməkdir.

"Exxon" və SOCAR nümayəndələrindən ibarət tədqiqat qrupu bu işi Hyuston və Bakıda həyata keçirəcək. Nəticələrin isə hər iki şirkətə, həmçinin ABŞ və Azərbaycana xeyir gətirəcəyi gözlənilir. İndiyədək SOCAR Xəzər dənizinin Azərbaycana aid hissəsində potensial geniş neft və qaz yataqlarının işlənməsinə kömək etmək üçün beynəlxalq neft şirkətləri ilə doqquz müqavilə imzalamışdır.

"Exxon" Azərbaycan şirkəti, Azərbaycanın, noyabrda ilk neftin hasilatına başlanılan və ehtiyatları 5 milyard barrel həcmində dəyərləndirilən Azəri-Çıraq-Günəşli yatağının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında müqavilədə[137] 8% paya sahibdir.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti[138] və Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə konsorsium ilin sonuna qədər hasilatın gün ərzində 50000 barrelə çatacağını gözləyir.

“Exxon” Azərbaycan şirkətinin törəmə şirkəti olan “Exxon Exploration and Production Azerbaijan Ltd”, Xəzərdə, təbii qaz ehtiyatı, ilkin olaraq, 3 trillion kub fut olan “Naxçıvan” yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında müqaviləni keçən il sona çatdırdı.

Dərinlikdə yerləşən blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında müqavilə barədə SOCAR ilə danışıqlar davam edir və digər mövcud imkanlar müzakirə olunur.

**Tarix: 17.04.1998**
**Mənbə: World Oil (ABŞ) (Vol.219, İssue4)**
**Məqalənin adı: Looking ahead**
***www.worldoil.com***

# İRƏLİ BAXMAQ

<…>

“Conoco” və SOCAR Azərbaycan qazını araşdıracaq. “Conoco” və dövlətə məxsus SOCAR ölkənin qaz ehtiyatlarının, daxili istifadə və ixrac məqsədilə toplanması, emalı və nəqlinin məqsədyönlülüyünü müəyyən etmək üçün Azərbaycanda təbii qaz emalı sənayesi sahəsində 6 ay müddətində birgə tədqiqat aparacaqlar. Onların gəldiyi nəticələr Azərbaycanın qaz yataqlarının hansı hissəsinin işlənməsi ilə bağlı investisiya qərarlarına təsir edəcək. Bu arada, “LUKoil” və “ARCO” arasında müştərək müəssisə olan “LUKARCO”, Bakıdan təxminən 93 mil şimal-qərbdə yerləşən və Xəzər dənizində təxminən 386 kv.m ərazini əhatə edən “Yalama” blokunda[197] LUKoil-un 60% payını öz üzərinə götürməyə razılaşıb. “LUKARCO” operator funksiyasını öz üzərinə götürəcək və 1998-1999-cu illər ərzində seysmik əməliyyatlar aparmağı planlaşdırır.

<…>

The Moscow Times
INDEPENDENT NEWS FROM RUSSIA
30 YEARS

**Tarix: 02.07.1998**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: Romania seeks role in Caspian oil**
***www.themoscowtimes.com***

# RUMINİYANIN XƏZƏR NEFTİNİN İSTEHSALINDA İŞTİRAK ETMƏK NİYYƏTİ

Bakı, Azərbaycan – Rumıniya əlavə heç bir böyük investisiya tələb etməyən əsas tranzit və emal mərkəzi kimi, Xəzər dənizi ətrafında getdikcə böyüyən neft yarışlarına qoşulmağa hazır olduğunu bildirir.

Rumıniya Prezidenti Emil Konstantinesku,[198] paytaxtı Bakı Xəzər regionunda enerji ticarətinin yeni əsas mərkəzinə çevrilən Azərbaycana dövlət səfəri zamanı qeyd edib ki, Ruminiyanın Qara Dəniz limanları və neftayırma zavodları Azərbaycanda hasil olunan neftin böyük bir hissəsini qəbul edə bilər.

"Rumıniya 30 milyon tondan çox neft emal etmək imkanına malikdir və əgər Azərbaycan öz neftinin ixracı üçün bizim bütün potensialımızdan istifadə edərsə, biz buna şad olarıq", o, çərşənbə axşamı Azərbaycan Prezidenti Heydər Əliyevlə[1] birgə keçirdiyi mətbuat konfransında deyib.

Konstantinesku Qafqaz regionuna səfərinin ikinci günündə bildirib ki, Rumıniya mühüm infrastruktura, o cümlədən

Mərkəzi Avropaya uzanan boru kəmərlərinə, yaxşı dəmir yolu şəbəkəsinə və Konstantada[199] böyük limana malikdir.

"British Petroleum" və Norveçin "Statoil" şirkətinin rəhbərlik etdiyi şirkətlər konsorsiumu tərəfindən həyata keçirilən 12 milyard dollarlıq birgə layihədən əldə edilən ilkin xam neft hazırda Bakıdan Rusiyanın Novorossiysk limanına gedən boru kəməri[168] ilə nəql olunur.

**Tarix: 02.07.1998**
**Mənbə: The New York Times (ABŞ)**
**Məqalənin adı: Azerbaijan oil pacts**
***www.nytimes.com***

## AZƏRBAYCAN NEFT PAKTLARI

London. Bu gün burada "British Petroleum P.L.C.", "Amoco Corporation" və "Ramco Energy P.L.C." növbəti 15 il ərzində Azərbaycanın neft ehtiyatlarının işlənməsinə 13 milyard ABŞ dolları məbləğində sərmayə yatırmaq barədə müqavilələr imzalayıblar.

Azərbaycan Prezidenti Heydər Əliyev[1] Böyük Britaniyanın baş naziri Toni Bleyr[200] ilə görüşdən sonra şirkətlər və onların tərəfdaşları, o cümlədən "Monument Oil and Gas P.L.C." və Norveçin "Statoil" şirkəti ilə üç ayrı müqavilə imzalayıb.

Müqavilələr Qafqazda keçmiş sovet respublikası olan Azərbaycanın artıq imzaladığı 12 müqaviləyə əlavə olunur və Xəzər dənizi regionunda 30 milyard barreldən çox və ya təxminən Şimal dənizində olduğu qədər böyük neft ehtiyatlarının xarici şirkətlər tərəfindən işlənməsinin davam edəcəyini sığortalamağa kömək edir.

Newsweek

**Müəllif: Steve Levine**
**Tarix: 12.07.1998**
**Mənbə: Newsweek (ABŞ)**
**(Vol.132)**
**Məqalənin adı: Weak oil prices force an oil consortium to back off**
***www.newsweek.com***

# NEFT QİYMƏTLƏRİNİN AŞAĞI OLMASI NEFT KONSORSİUMUNU GERİ ÇƏKİLMƏYƏ MƏCBUR EDİR

Təxminən on ilə yaxındır ki, beynəlxalq neftçilər, diplomatlar və dünya liderləri enerji ilə zəngin Xəzər dənizi regionunu şişirdilmiş ifadələrlə təsvir edirlər – bu, növbəti Küveytdir, 1990-cı illərin Eldoradosudur.[201] Mistika qlobal iqtisadi böhranın yaxınlıqda tüğyan etdiyi vaxta – keçən həftəyə qədər davam edib. Azərbaycanın paytaxtı Bakıda əcnəbi neftçilər regionun ən böyük konsessiyasının işlənməsini qəflətən dayandırdıqlarını elan ediblər. Səbəb? Təxminən 4 milyard barel təsdiq olunnuş ehtiyatlara malik üç dəniz yatağına sahib olan, 12 şirkətdən ibarət Azərbaycan Beynəlxalq Neft Konsorsiumunun (ABƏŞ)[138] rəhbəri Con Leqqeyt[202] deyib ki, dünyada xroniki olan aşağı neft qiymətlərinin “bir müddət davam edəcəyi gözləniləndir”. Qərbin Bakıdakı səfirlərindən biri deyib: “Xəzərin işə yaramayacağını söyləmək tezdir”. “Ancaq bu, azərbaycanlıları narahat edir”.

Bir çox başqa insanları da, neftin bir barelinin 10 dollardan aşağı düşəcəyi ehtimalını nəzərə alan uzaq xarici hökumətlər, regional siyasi liderlər və neft şirkətlərinin rəhbərləri – keçən həftə Brent markalı neft 10,90 dollar səviyyəsində idi – ucuz neft qiymətinin Xəzər regionuna göstərdiyi iqtisadi təsirdən narahatdırlar. Pessimistlər, postsovet dövrün tənəzzülündən xilas olmaq üçün gələcək neft sərvətlərinə həddən artıq ümid edən yerli hakimiyyət orqanlarının süqutunu proqnozlaşdırırlar. Hətta optimistlər belə öz maliyyə zəifliyi ilə bağlı yeni baxış ortaya qoyurlar. Dünyanın demək olar ki, hər bir iri neft şirkəti Azərbaycan, Qazaxıstan və ya Türkmənistanda fəaliyyət göstərir və 50 milyard dollardan çox investisiya yatırmaq öhdəliyi götürüblər. Onlardan biri – Kaliforniyanın "Unocal" şirkəti demək olar ki, bütün regional əməliyyatlarını artıq dayandırıb. Vaşinqton Xəzər regionunu Rusiya və İran arasında güclü, qərbyönümlü ərazi zolağına çevirməyi hədəfləyir, lakin indi bu xarici siyasət məqsədi qeyri-müəyyənliklə üzləşib. "Getdikcə çox çətin olur" – qərb səfiri deyib.

Oktyabrda Azərbaycan konsorsiumu öz neftinin ixracı üçün yerüstü boru kəmərinin marşrutunu elan etməyi planlaşdırırdı. Bu qərar təxirə salındı və o vaxtdan bəri çox siyasiləşib. Vaşinqton və regional liderlər ABƏŞ-i Bakıdan Aralıq dənizindəki Ceyhan limanına[167] 4 milyard dollar dəyərində, həm Rusiya, həm də İrandan yan keçəcək boru kəməri çəkməyə[108] vadar edirlər. Bəzi neft şirkətləri, Xəzərdə Ceyhan xəttini doğruldacaq qədər neftin olub-olmamasının gələn yaya qədər məlum olmayacağını bildirərək, bu fikrə qarşı çıxıblar. Onlar Gürcüstanın Supsa limanına daha ucuz, 1,8 milyard dollar dəyərində boru kəməri[169] çəkməyə üstünlük verirlər. İndi şirkətlər bildirirlər ki, dekabrın 12-də onlar iki marşrutdan hansına üstünlük verdik-

lərini elan edə bilərlər. Ötən həftənin açıqlamasına qədər ABƏŞ hasilatı sutkada indiki 70 000 barreldən 300 000 barrelə çatdırmağı planlaşdırırdı, lakin indi bu cədvəl ən azı altı aydır təxirə salınıb.

Xəzər şarı partlaya bilərmi? Artıq hava sızır. İqtisadi problemlər getdikcə artır. Özbəkistan və Qırğızıstanın valyutaları avqust ayından bəri 100 faizdən çox ucuzlaşıb və Gürcüstan "fəlakətlə üz-üzədir" - Qafqazı müşahidə edən bir qərb diplomatı deyib. Son həftələrdə Qazaxıstan valyutasının dəyəri 10 faiz ucuzlaşıb. Qazaxıstan prezidenti Nursultan Nazarbayev[268] yenidən seçilmək üçün hazırkı kampaniyasında həmvətənlərini xəbərdar edir ki, "1999 və 2000-ci illər çətin illər olacaq". Neftin qiyməti tezliklə qalxmasa, region liderlərini bağışlamaya bilərlər. Onlar iqtisadiyyatı şaxələndirmək barədə qərbin xəbərdarlıqlarına diqqət yetirmədilər, bunun əvəzinə öz xalqlarına neftin sərvətə aparan, bakılı diplomatın sözləri ilə desək, "sürətli yol" olduğunu söylədilər. İndi sual olunur ki, o sürətli yol nə vaxt tikiləcək?

**Tarix: 27.07.1998**
**Mənbə: The Oil and Gas Journal**
**(ABŞ) (Vol.96, İssue 30)**
**Məqalənin adı: Azeri president signs three PSA deals**
***www.ogj.com***

# AZƏRBAYCAN PREZİDENTİ HASİLATIN PAY BÖLGÜSÜ ÜZRƏ ÜÇ SAZİŞ (PSA) İMZALAYIB

Azərbaycan Prezidenti Heydər Əliyev[1] Londona rəsmi səfəri zamanı xarici şirkətlərlə hasilatın pay bölgüsü haqqında üç saziş imzalayıb.

Sazişlərə dənizdə fəaliyyət üçün "BP Exploration Operating Co. Ltd." və "Amoco Corp." şirkətlərinə verilən iki lisenziya və quruda fəaliyyət üçün "Ramco Energy plc, Aberdin" şirkətinə verilən lisenziya daxildir.

**"BP" PSA**

"BP" Xəzər dənizində "Alov", "Araz" və "Şərq" yataqlarının işlənməmiş hissəsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalayıb. Saziş sahəsi 1400 kv. km. ərazini əhatə edir və Bakıdan 120 km. cənub-şərqdə, 300-800 m. dərinlikdə yerləşir.

Lisenziya paylarının 15%-i operator "BP" şirkətinə, 15%-i "Statoil AS" şirkətinə və 40%-i Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə (ARDNŞ) məxsusdur , 30% isə sonradan ARDNŞ tərəfindən ayrılacaq. "BP" 2001-ci ilə qədər blokda üç quyu, 2004-cü ilə qədər beş əlavə kəşfiyyat quyusu qazmağı və 3D

seysmik məlumat bazası əldə etməyi öhdəyə götürüb. "BP" bəyan edib ki, kəşfiyyat üzrə öhdəliklərdə onun payı 75 milyon dollar dəyərindədir.

Baxmayaraq ki, Xəzər regionunda Qərb standartlarına uyğun gələn qazma qurğuları çatışmır, operator gələn il blokda ilk quyunu qazmaq niyyətindədir. Şirkət artıq "Çıraq" yatağından sutkada 70 min barrel neft hasil edir və "Şahdəniz" yatağında kəşfiyyat qazma işləri aparır.

**"Amoco" PSA**

"Amoco" ötən ay əldə etdiyi, Bakıdan 160 km. cənubda yerləşən "İnam" bloku üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalayıb. (OGJ, 29 iyun 1998-ci il, səh. 34).

Paylar: operator "Amoco" 25%, "Monument Oil & Gas plc. of London" 12.5%, ARDNŞ 50% və Moskvada yerləşən "Central Fuel Caspian Sea Ltd." 12.5%. Blok 225 kv. km. ərazini əhatə edir.

"Amoco" ilkin 3 illik kəşfiyyat dövründə 3D seysmik məlumatlar əldə etməyi və ən azı iki quyu qazmağı öhdəsinə götürüb.

**"Ramco" PSA**

"Ramco" Bakıdan 110 mil cənub-qərbdə yerləşən "Muradxanlı", "Cəfərli" və "Zərdab" yataqlarında reabilitasiya, işlənmə və gələcək kəşfiyyat üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalayıb. Sazişin əhatə etdiyi sahə 565 kv.km. təşkil edir və payların 50%-i operator "Ramco" şirkətinə, 50% isə ARDNŞ-ə məxsusdur. "Ramco" bəyan edib ki, gələcəkdə lisenziya üzrə əlavə tərəfdaş axtarmaq imkanını nəzərdən keçirəcək.

Yataqlar 1969-cu ildən istismardadır və 1997-ci ilin sonuna qədər, gündəlik maksimal hasilat 9000 barrel olmaqla, 20 milyon barrel neft vermişdir. Hasilat əsasən təbaşir qatının yuxarı hissəsində aparılıb, lakin "Ramco" qeyd edir ki, yataqların orta Eosen və Paleosen-Eosen strukturları çox inkişaf etməyib.

Operator bildirir ki, orta Eosen qatları sınaq zamanı gündə 3000 barrel neft verib. O, hesab edir ki, inkişaf yataqları Azərbaycanın quruda ən böyük hasilatçısına çevrilə bilər.

Reabilitasiya işləri dərhal başlayacaq və 1999-cu ilin ortalarında ilk əlavə neftin alınması gözlənilir. Gələn ilin sonunda "Ramco" yataqlar üzərə 3D seysmik məlumatlar toplamaq və iki kəşfiyyat quyusu qazmaq niyyətindədir.

**Tarix: 08.08.1998**
**Mənbə: World Oil (ABŞ)**
**(Vol.219 İssue 8)**
**Məqalənin adı: Disparity exists between nations**
***www.worldoil.com***

# MİLLƏTLƏR ARASINDAKI FƏRQ

<.....>

**Azərbaycan**

Ötən il ölkə neft istehsalçısı kimi, 125 illiyini qeyd etdi. 1998-ci ilin əvvəlində Azərbaycanda, 42-si quruda və 26-sı dənizdə olmaqla, 68 neft və qaz yatağı var idi.

Lisenziyalaşdırma. Bu günə qədər Azərbaycan dənizdə yataqların kəşfiyyatı və/və ya işlənməsi üzrə hasilatın pay bölgüsü haqqında 12 saziş imzalayıb. Hazırda Azərbaycanın neft müqavilələrində ABŞ, Kanada, Böyük Britaniya, Norveç, Fransa, İtaliya, Belçika, Almaniya, Səudiyyə Ərəbistanı, Türkiyə, İran, İspaniya, Rusiya və Yaponiya daxil olmaqla, 14 ölkədən 21 xarici şirkət iştirak edir.

Eyni zamanda, Azərbaycan fəal şəkildə yeni layihələr həyata keçirir. 1998-ci ilin yazında ARDNŞ və dörd xarici neft şirkəti arasında "Kürdaşı" blokunun birgə kəşfiyyatı üzrə hasilatın pay bölgüsü haqqında iki saziş və bir ilkin sənəd imzalanıb. İmzalanma mərasimində ARDNŞ (50%), "Agip" (25%), Yaponiyanın "Mitsui" (15%), Türkiyənin "TPAO" (5%) və İspaniyanın

"Repsol" (5%) şirkətləri iştirak edib. Blok Xəzər dənizinin Azərbaycan hissəsinin cənubundadır.

Quruda yataqların kəşfiyyatı və işlənməsi üzrə hasilatın pay bölgüsü haqqında növbəti saziş ARDNŞ, "Union Texas Petroleum" (indiki "ARCO") və "British-Canadian Commonwealth Oil and Gas Co. Ltd" arasında imzalanıb. Şirkətlər təxminən 20 milyon ton (145,4 milyon barrel) qalıq neft və 12 milyard kubmetr (423,8 milyard barrel) qalıq təbii qaz ehtiyatlarının olduğu Şamaxı-Qobustan regionunda (Bakının qərbində) kəşfiyyat işləri aparacaqlar. Layihədə xarici şirkətlər 40%, ARDNŞ isə 20% paya malikdir.

ABŞ-ın "Frontera Resources" şirkəti, Səudiyyə Ərəbistanının "Delta Oil" və "Amerada Hess" şirkətləri birliyi ARDNŞ ilə quruda iki yatağın – "Kürsəngi" və "Qarabağlı" yataqlarının birgə kəşfiyyatı və işlənməsinin əsas prinsipləri haqqında saziş imzalayıb. Almaniyanın "Deminex" şirkəti də Bakı arxipelaqının mərkəzi hissəsində yerləşən perspektivli "Salatın" strukturunun birgə kəşfiyyatı və işlənməsi üzrə ARDNŞ ilə danışıqlara başlayıb.

Hasilatın pay bölgüsü haqqında sazişlər imzalamaq üçün ARDNŞ-nin əlavə dəniz layihələrinə "D-9/D38", "Abıx", "Yanar-Tava", "Atəşgah", "Muğan-Dəniz", "İnam" və "Ümid" blokları daxildir. "İnam" layihəsinə gəlincə, imzalamaq üçün, demək olar ki, hazır olan sövdələşməyə görə, "Amoco", "Monument Oil & Gas" və "Russian Central Fuel Company" müvafiq olaraq 25%, 12.5% və 12.5% paya sahib olacaq. ARDNŞ kəşfiyyat dövründə xarici tərəfdaşlar tərəfindən maliyyələşdiriləcək 50% payı öz əlində saxlayır. "İnam" blokunun potensial ehtiyatları 2 milyard barrel həcmində qiymətləndirilir.

"Ramco Energy" və ARDNŞ quruda yerləşən "Muradxanlı" yatağının kəşfiyyatı və işlənməsini sona çatdırır. Layihə digər xa-

rici şirkətlərin iştirakı üçün açıqdır. Haqqında müvəqqəti sənəd imzalanacağı "Abıx" layihəsi üzrə əsas iddiaçı "BP/Statoil" birliyidir və ehtimal ki, o, razılaşmada 50% paya sahib olacaq.

**Kəşfiyyat/işlənmə.** 1997-ci ildə "Qarabağ" və "Dan-Ulduzu Əşrəfi" layihələri üzrə kəşfiyyat qazma işlərinə başlanılıb. 1998-ci ilin fevralında "Amoco" ilkin kəşfiyyat quyusunda neft tapıldığını və sınaq zamanı sutkada 3500 barrel neft hasil edildiyini elan edib. "Əşrəfi" xarici şirkətlərlə əməkdaşlıq nəticəsində kəşf edilən ilk neft yatağı idi. Orada kəşfiyyat işləri "Amoco" (30%), "Unocal" (25,5%), Yaponiyanın "Itochu" (20%), Səudiyyə Ərəbistanının "Delta Oil" (4,5%) və ARDNŞ-dən (20%) ibarət konsorsium tərəfindən aparılır.

1998-ci ilin iyununda ARDNŞ "Qarabağ" strukturunda neft-qaz yatağının kəşf olunduğunu elan etdi.

"Qarabağ" layihəsində "LUKoil-Agip" birgə müəssisəsi, "LUK-Agip" (50%), "Pennzoil" (30%), "LUKoil" (7,5%) (birbaşa), ARDNŞ (7,5%) və "Agip" (5%) iştirak edir. 1996-cı ilin sonunda, layihənin operatoru olan "Caspian International Petroleum Company", CIPCO, kəşfiyyat qazma sahələrini müəyyənləşdirdi. Sahənin ilkin kəşfiyyatı 1999-cu ilin fevralına qədər başa çatdırılmalı idi.

"BP" "Şahdəniz" müqavilə sahəsində ilk kəşfiyyat quyusunu qazmağa başlayıb. Quyunun proqnozlaşdırılan dərinliyi 6,100 m. (20,013 fut) təşkil edir. Dədə Qorqud yarımqazma qurğusu ilə quyunun yuxarı intervalında 2500 m. (8200 fut) dərinliyə qədər qazma işi aparmaq nəzərdə tutulub. 1998-ci ilin oktyabrından 1999-cu ilin yanvarına qədər "BP" əlavə qazma işlərini davam etdirəcək.

Ötən il ARDNŞ 443 570 fut qazma işi həyata keçirib ki, bu da təxminən 45 quyuya bərabərdir. Bu, ilkin olaraq 1997-ci il

üçün nəzərdə tutulmuş həcmin 65,6%-ni, əvvəlki ilin qazma işlərinin isə 121,6%-ni təşkil edir. İstismar quyularında aparılan 418,635 fut qazma işləri də bura daxildir. İl ərzində dənizdə 216 864 fut, quruda isə 226 706 fut qazma işi aparılıb.

ARDNŞ dörd dəniz quyusunun qazılmasını başa çatdırmaq üçün öz vəsaitindən 3 milyon dollar ayırıb. Dövlət şirkəti həmçinin böyük həcmdə istismar qazma işi tələb edən beş dəniz yatağı üzrə reabilitasiya layihələrində iştirak etmək üçün xarici şirkət axtarır. Bu yataqlara "Bulla Dəniz", "Bahar", "Nərimanov NQDU", "NeftDaşları" və "PalçıqTəpəsi" daxildir.

**İstehsal.** 1997-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) 9,022 milyon ton neft (sutkada 179,698 barrel) və 5,964 milyard kubmetr qaz (577 milyon kubmetr) hasil etmişdir. 1996-cı ilin nəticələri ilə müqayisədə neft hasilatı 0,9% azalıb.

1997-ci il ərzində dəniz yataqlarından 7,5 milyon ton neft hasil edilmişdir (sutkada 149,385 barrel), bu da planlaşdırılan hasilatın 100,2%-ni təşkil edirdi. Dənizdə qaz hasilatı 5,7 milyard kubmetr (sutkada 551 milyon kubmetr) təşkil edib.

Bu il Azərbaycan Xəzər dənizindəki "Çıraq" yatağından, 9 milyon tonu (sutkada 179,6 min barrel) ARDNŞ, 1,1 milyon tonu (sutkada 21,9 min barrel) ABƏŞ tərəfindən olmaqla, 10,1 milyon ton (sutkada 201,5 min barrel) neft hasil etməyi planlaşdırır. Təbii qaz hasilatı, 300 milyon kubmetri (sutkada 29 milyon kubmetr) xarici müqavilə üzrə qaz yataqlarından olmaqla, 6,17 milyard kubmetr (sutkada 597 milyon kubmetr) həcmində gözlənilir. Son məlumatlara görə, "Azəri-Çıraq-Günəşli" sahəsində neft ehtiyatları 630 milyon ton (4,58 milyard barrel) təşkil edir.

**Müəlliflər: Den Morqan,**
**David B. Ottaway**
**Tarix: 04.10.1998**
**Mənbə: The Washington Post (ABŞ)**
**Məqalənin adı: Fortune hunters lured U.S. into volatile region**
*www.washingtonpost.com*

# SƏRVƏT OVÇULARI ABŞ-Nİ QEYRİ-SABİT REGİONA CƏLB ETDİLƏR

"Amoco Corp." şirkətindən T. Don Steysinin[203] 1996-cı il avqustun 6-da səhər vaxtı kiçik bir siyasi yığıncaqda verdiyi mesaj, Ağ Evə toplaşan lobbiçilərin və biznes maqnatlarının həmişəki narahatlıqları ilə müqayisədə anlaşılmaz görünürdü.

Çikaqoda yerləşən neft şirkətinin Avrasiya əməliyyatlarına rəhbərlik edən Steysi, ABŞ-nin, Xəzər dənizinin qərb sahilindəki ucqar Mərkəzi Asiya ölkəsinə[179] münasibətdə yanlış siyasət yürütməsindən hiddətlənmişdi. Bu yanlış siyasətin iştirakçılarından biri də Nyu-York yankilərinin sahibi Corc Steynbrenner idi.

Steysinin Azərbaycanın neft yataqlarının strateji əhəmiyyəti ilə bağlı fikirləri bir dinləyicinin diqqətini çəkdi. Prezident Klinton[41] bir neçə geosiyasi məqama aydınlıq gətirmək üçün, Steysinin çıxışını bitirməsini gözləmədən, söhbətə daxil oldu və

lövhəyə çıxaraq, Xəzər regionunun heyrətamiz dərəcədə dəqiq xəritəsini çəkdi.

Görüş başa çatmazdan əvvəl "Amoco" – Azərbaycan neft bumunun ABŞ-dən olan ən böyük sərmayəçisi – istəyinə nail oldu: Klintonun Azərbaycan prezidentini Vaşinqtona dəvət etmək vədinə. Altı ay sonra, ənənəvi olaraq Respublikaçılara ianə verən şirkət Demokratlar Partiyasına əlli min dollar yardım etdi. 1997-ci ilin avqustunda Klinton Prezident Heydər Əliyevi[1] böyük ehtiramla qəbul etdi, neft kəşfiyyatı haqqında "Amoco" şirkətinin yeni sazişinin imzalanmasında iştirak etdi və ABŞ-nin Azərbaycana qarşı iqtisadi sanksiyalarını[29] ləğv etmək üçün Konqresdə lobbiçilik edəcəyinə söz verdi.

"Amoco" və Azərbaycan arasındakı əlaqələr və ABŞ-nin xəzərətrafı bu ölkə ilə daha da yaxınlaşmasında "Amoco" şirkətinin rolu, özlüyündə, Rusiya və Yaxın Şərq arasındakı strateji sərhəd ərazilərdə nüfuz uğrunda mübarizə aparan neft şirkətlərinin, böyük güclərin və regional dövlətlərin iştirak etdiyi yeni mürəkkəb ansamblı əks etdirir.

Əsas oyunçular təkcə "Amoco", "Mobil Corp." və "Chevron Corp." kimi tanış şirkətlər deyil, həm də Vaşinqtondan Moskvaya və Pekindən Tehrana qədər uzanan hökumətlərin yüksək vəzifəli rəsmiləridir. Klintonun fəal müdaxiləsindən göründüyü kimi, hesablar, həm maddi, həm də geosiyasi baxımdan yüksək idi. Azərbaycan, qonşu Türkmənistan və Qazaxıstan kimi, özünün maliyyə və siyasi müstəqilliyini qoruyub saxlamaq üçün əvvəlcə ABŞ-nin neft şirkətlərinin, daha sonra isə ABŞ hökumətinin köməyini əldə etməyə can atırdı.

Əsas mükafat, otuz il bundan əvvəl Şimal dənizində və Alyaskanın şimal yamacında kəşf edilən yataqdan potensial olaraq daha böyük olan neft və qaz yatağıdır. ABŞ mütəxəs-

sislərinin hesablamalarına görə, 2010-cu ilə qədər regionda gündə ən azı üç milyon barrel neft hasil edilə bilər ki, bu da cari qiymətlərlə ildə 14 milyard dollar deməkdir. Bu isə, Səudiyyə Ərəbistanında hasil olunan neftdən qat-qat az, lakin Küveytdə olduğundan çoxdur – baxmayaraq ki, analitiklərin az bir qismi Xəzərin ehtiyatlarının əhəmiyyətli dərəcədə şişirdildiyini hesab edir. Dövlət Departamentinin hesabatına əsasən, region, nisbətən təmiz yanacaq hesab edilən təbii qaz ehtiyatlarına görə, çirklənmə və qlobal istiləşmədən əziyyət çəkən dünyada Yaxın Şərq və Rusiyadan sonra üçüncü sıradadır.

Amerika şirkətlərinin bu resurslardan istifadə etmək səyləri artıq tarixi miqyasda siyasi restrukturizasiyaya, həmçinin XIX əsrin ortalarından etibarən Rusiyanın, demək olar ki, fasiləsiz nəzarəti altında olan regionda Amerikanın da misli görünməmiş müdaxiləsinə yol açdı.

ABŞ-nin regiondakı marağı Birləşmiş Ştatlar üçün getdikcə artan risk və siyasi dilemmalar da yaradır.

Gündəmdə olan əsas məsələ ABŞ-nin Moskva ilə olan münasibətləridir. Həm Rusiya İmperiyası, həm də Sovet İttifaqı özlərini Xəzər dənizindəki ehtiyatların varisi hesab edirdilər. Hal-hazırda isə Rusiya rəsmi Vaşinqtonu, regionda Moskvanın gücünü zəiflədərək, Birləşmiş Ştatların təsir dairəsini artırmaq istəyində ittiham edir.

Xəzər nefti həm də Klinton administrasiyasının, ABŞ-nin Tehranla münasibətləri ilə bağlı daxili müzakirələrin də mərkəzindədir. Amerikanın bəzi neft şirkətləri İranı Xəzər nefti üçün ən ucuz, ən sürətli çıxış yolu kimi görürlər; bu, Klinton administrasiyasının siyasətinə və ABŞ hökumətinin İslam dövlətini təcrid etmək səylərini dəstəkləyən digər maraqlarına ziddir.

Onilliyin əvvəllərində, yeni müstəqil dövlətlər olan Azərbaycan, Qazaxıstan və Türkmənistan liderlərinin dünyanın yeganə super gücünün bayrağı altında işləyən şirkətləri cəlb etməkdə yeganə məqsədi məhz Amerikanın iştirakına nail olmaq idi.

"Onlar anladılar ki, onları əhatə edən qüvvələr – Rusiya və İran – olduğu halda, yalnız Birləşmiş Ştatlarla güclü əməkdaşlıq sabitliyə və qeyri-dominantlığa imkan verər" – ABŞ neft şirkətinin adının çəkilməsini istəməyən rəsmisi bildirib. "ABŞ hökuməti regionun əhəmiyyətini dərk etməkdə gecikdiyi üçün onlar ABŞ-nin işgüzar dairələri ilə əlaqələr qurublar".

Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti, ölkə prezidentinin oğlu İlham Əliyev[2] deyib: "Biz neftdən əsas məqsədimiz üçün... əsl ölkə olmaq üçün istifadə etdik".

Xəzər dənizində neft və qazın böyük hissəsinə sahib olan üç keçmiş sovet respublikasına 2 milyard dollardan çox sərmayə yatırmaqla, Amerika neft şirkətləri çökməkdə olan iqtisadiyyatı dirçəltməyə və Rusiyadan, bir əsrdən artıq davam edən iqtisadi asılılığa son qoymaqda böyük rol oynadı. Bununla yanaşı, şirkətlərin də siyasi və strateji qazancları oldu.

Amerika neft şirkətləri Xəzərin sərvətlərinə diqqəti cəlb etməklə, Xəzərin siyasi motivlərini dəstəkləməklə və Xəzəri Vaşinqtonun siyasi debatlarının gündəminə gətirməklə xəzərətrafı hökümətlərin Vaşinqtondakı müdafiəçisinə çevrildilər.

ABŞ rəsmisinin sözlərinə görə, misal üçün, Amerika neft şirkətlərinin Azərbaycandakı nümayəndələri, "hər forumda, görüşdə və naharda" administrasiya rəsmilərinə təzyiq edərək, Azərbaycan və Ermənistan arasındakı qanlı ərazi mübahisəsinin[3] dayandırılmasında fəal iştirak ediblər. Keçən il onlar Klintonun dəstəyi ilə, ABŞ-nin 1992-ci ildə Ermənistanla müharibə-

yə görə Azərbaycana tətbiq etdiyi iqtisadi sanksiyaları yumşaltmaq üçün Konqresdə uğurla lobbiçilik ediblər.

<…>

ABŞ-ni Xəzər regionu ilə birləşdirən əlaqələr, şübhəsiz ki, daha da güclənəcəkdir, çünki ABŞ enerji şirkətləri üçün cəlbedici olan alternativlər çox azdır. ABŞ siyasəti onların İran və İraqa sərmayə qoymasının qarşısını alıb və Xəzərlə müqayisədə digər yerlərdəki perspektivlər zəifdir.

Amerikalı bir neftçinin fikrincə, acı həqiqət bundan ibarətdir ki, "xaricdə daha çox Xəzər yoxdur".

<…>

**Potensialdan faydalanmaq**

1996-cı ildə Don Steysi Klintonla görüşəndə "Amoco" ABŞ-nin Azərbaycandakı ən məşhur təmsilçisi idi. Şirkət, Bakının qədim hissəsində yerləşən, təmtəraqlı bərpa edilmiş qərargahında uşaqların immunizasiya proqramını həyata keçirir, Azərbaycan musiqiçilərinə subsidiyalar verir və tələbə mübadiləsinə sponsorluq edirdi.

Bakıda neft xəstəliyinin ilk illərində "Amoco" – və ya hər hansı bir Amerika şirkətinin – sərvət ovçularından, vasitəçi poliqlotlardan və qızıl mədəninin iyini ilk duyan neft şirkətlərinin agentlərindən ibarət kiçik bir heyətə qalib gələcəyi şübhə altında idi. Amerika şirkəti güc tətbiq edərək, müdaxilə etməzdən əvvəl digər şirkətləri güc yolu ilə uzaqlaşdırmalı idi. Xüsusilə britaniyalılar, üç amerikalı ilə təmsil olunsalar da, Azərbaycanda əvvəlcədən üstünlük əldə etdilər.

1990-cı ildə Bakı hələ də sovet paytaxtı idi və ABŞ-nin bir neçə neft lideri onun potensialını yüksək qiymətləndirirdi. Azərbaycan neft sənayesi, Rotşildlər və dinamit ixtiraçısı Alfred Nobelin qardaşları Bakını, Avropada ağ neft bazarlarına nəza-

rət etmək uğrunda Con D.Rokfellerin "Standard Oil" şirkətinə meydan oxuya biləcək dünya neft mərkəzinə çevirdiyi XIX əsrdən bəri çətin dövrlərini yaşayırdı.

1990-cı ilə qədər geniş vüsət alan sovet istismarı geridə köhnə neft buruqları və qara neft gölməçələri olan boş ərazilər buraxdı. Azərbaycanda neft hasilatı kəskin şəkildə azalırdı. Bununla belə, sovet geoloqları Xəzər dənizinin "Abşeron Astanası" adlanan hissəsində 4,7 milyard barrel yüksək keyfiyyətli neft aşkar etməklə gələcəyə işıq saldılar. Nə qədər inanılmaz səslənsə də, xəzinə yüzlərlə fut suyun altında idi və sovet qazma texnologiyası üçün əlçatmaz idi.

"Abşeron Astanası"nın potensialını Qərbdə ilk dərk edənlərdən biri Amerika əsilli neft sahibkarı və vasitəçi Stiven E.Remp[162] oldu. Motosiklet sürən və Şotlandiya qalalarını bərpa edən cılız, narahat bir adam olan Remp, 1977-ci ildən Şotlandiyanın Aberdin şəhərində neft xidməti göstərən kiçik "Ramco" şirkətini idarə edirdi. Artıq 41 yaşında olan Remp, başqa şirkətlərin neft borularını təmizləməkdən yorulmuşdu. Dostlarına dediyi kimi, o, "fillərlə oynamaq" üçün kəşfiyyat və istehsalat sahəsində olmaq istəyirdi.

Rempin neft yataqlarına olan həvəsi irsi xarakter daşıyırdı. Onun Qərbi Virciniyadan olan ulu babası neft axtarışları üçün qərbə, Birləşmiş Ştatların o vaxtki neft mərkəzi sayılan Kaliforniyaya köç etmişdi. 1989-cu ildə "Aeroflot"un əsəbi gərginlik yaradan uçuşu ilə Moskvadan Bakıya səfər edən Remp, yerli məmurlarla içki badələri qaldıraraq, regiondakı perspektivlərin necə dəyərləndirilə biləcəyini öyrənməyə başlamışdı.

Bakı ürəyi zəif olanların yeri deyildi. Azərbaycanla qonşu Ermənistan arasındakı gərginlik artırdı. 1990-cı ilin yanvar ayında SSRİ prezidenti Mixail Qorbaçov[64] xalq hərəkatını yatırmaq üçün ordusunu Bakıya göndərdi.[153] Paytaxtda təxminən iki

yüzə yaxın nümayişçi öldürüldü. Bir neçə ay idi ki, küçələrdə tanklar dolaşır, azərbaycanlılar isə qara geyinərək həlak olanların xatirəsini yad edirdi.

Remp bilirdi ki, bu qarışıqlıqdan istifadə etməklə, əlaqələrini inkişaf etdirəcək və məlumat topladıqca böyük oyunçuları oyundan kənarda saxlaya biləcək.

1990-cı ildə, üsyan yatırıldıqdan sonra Remp böyük uğur əldə etdi. Azərbaycan Dövlət Neft Şirkəti, tezliklə "Azəri" yatağı adlandırılacaq əsas dəniz yataqlarında işləyə biləcək Qərb neft şirkətləri axtarmaq üçün onu işə götürdü. Remp Böyük Britaniyanın nəhəng transmilli korporasiyası olan "British Petroleum PLC" şirkəti ilə əlaqə saxladı. Onun əldə etdiyi məlumata görə, Xəzər Küveyti ilə bağlı hesabatlar toplayan "BP", onları yoxlamaq üçün Amerika əsilli iki rəhbər işçini göndərmişdi.

<…>

1990-cı ilin oktyabrına qədər "BP" konsorsiumu, Rempin "Ramco" şirkəti və "BP" şirkətinin uzunmüddətli tərəfdaşı olan Norveç Dövlət Neft Şirkəti, Felberqin dediyi kimi, "səltənətin açarlarına" sahib oldu: "Azəri" yatağının işlənməsinə dair qeyri-rəsmi vəd.

Həmin ayda Corctaun Universitetinin 30 yaşlı politologiya professoru Bakıya gələrək onların planlarını alt-üst etdi.

S.Rob Sobhaninin[204] azərbaycanlı ailəsi 1979-cu ildə Şimali İrandan ABŞ-yə mühacirət etmişdi. O vaxtlar Bakıda azərbaycandilli amerikalı yenilik idi. Sobhani, Kommunist Partiyasının rəhbəri Ayaz Mütəllibovun[25] geniş kabinetinə söhbətə çağırıldı.

Mütəllibov postsovet Azərbaycanda Amerika tipli demokratiya planları barədə həvəslə danışarkən, Sobhaninin diqqəti sovet dövlətinin banisi Vladimir Leninin[107] buxarının üstündəki

büstünə yönəldi. Partiya rəhbəri daha sonra "BP" ilə bağlanılan neft müqaviləsindən söz açdı.

Müəyyən müddətdən sonra Sobhani ödənişli məsləhətçi kimi "Amoco" üçün işləməyə başladı. O zaman o, müstəqil professor idi və sonradan vətənpərvərlik vəzifəsi adlandıracağı işi görürdü.

"Baxın" – Sobhani xatırlayır – "siz bunu BP ilə edə bilməzsiniz. Yalnız bir Amerika və yalnız bir həqiqi super güc var və siz yalnız onunla işləməlisiniz".

Sobhani, "BP" şirkətinin əcdadı olan "Anglo-Iranian Oil Co." şirkətinin Yaxın Şərqdəki "sərt" davranışını misal çəkdi. Məziyyətlərini təriflədiyi "yaxşı" Amerika neft şirkətlərinə nümunə axtaran Sobhani onlardan birini xatırladı: "Amoco".

<…>

Məhz həmin gün, Remp Azərbaycan Dövlət Neft və Qaz Agentliyinin rəhbərinin kabinetində olarkən, Mütəllibov telefonla zəng edərək, belə bir əmr verdi: "BP" ilə xüsusi razılaşmanı ləğv edin və amerikalılara "Azəri" yatağında şans verin.

**Mövqe uğrunda mübarizə**

ABŞ şirkətləri üçün oyun meydançası bərabərləşdirilmişdi, lakin uğura zəmanət verilmirdi.

1991-ci ilin aprelində "Amoco" şirkətinin nümayəndə heyəti "Azəri" yatağının işlənməsi ilə bağlı şirkətin təklifini təqdim etdi. İki aydan sonra azərbaycanlılar öhdəlik müqaviləsi üzrə danışıqlar aparmağı "Amoco" və onun tərəfdaşı olan "McDermott International Inc." şirkətinə həvalə etdilər.

İndi, birdən-birə itirilən xəzinəni tapmaq növbəsi "Amoco" şirkətində idi. Azərbaycan 1991-ci il avqustun 30-da müstəqilliyini elan etdi.[74] Sonrakı üç il ərzində yeni ölkə Ermənistanla qanlı müharibədə təhqir olunmuş, yüz minlərlə azər-

baycanlı öz yurd-yuvasından didərgin düşmüşdü. Ermənistan Dağlıq Qarabağı, Azərbaycanın, ərazisi Rod-Aylendin[205] ərazisinə bərabər olan dağlıq ərazisini nəzarət altına almışdı. Rəqabət aparan siyasi qruplar və yerli silahlı dəstələr hakimiyyət uğrunda mübarizə aparırdılar. 1994-cü ilin martında atəşkəs əldə olunana[105] qədər Bakıda hökumət dörd dəfə dəyişmişdi.

Siyasi rejimlər hakimiyyətə gəlib süqut etdikcə, əcnəbi neftçilər Bakının sahili yaxınlığında yerləşən "İnturist" mehmanxanasında toplaşaraq öz təkliflərini qüvvədə saxlamaq üçün manevr edirdilər. Nə "BP", nə də "Amoco" sövdələşməyə nail ola bilməmişdilər, digər şirkətlər, o cümlədən ABŞ-nin nəhəng "Pennzoil Co." və "Unocal Corp." şirkəti Azərbaycan bürokratiyası ilə işləmək üçün agentlər göndərdilər.

"İnturist", köhnə görünüşünə baxmayaraq, əcnəbi neftçilərin şayiələr yaydığı və bir-birini təqib etdiyi sığınacaq yeri idi, – amerikalı nümayəndənin də dediyi kimi, "sizə şəhərdə kimlərin olduğunu və hansı gündə kimlərlə görüşdüyünü xəbər verən qapalı icma idi".

Remp, əhval-ruhiyyəni yüksək saxlamaq üçün şotland viskisi və şotland peçenyeləri idxal edirdi. Gecələr neftçilər ya "İnturist"in, qapısına neft şirkətinin stikerləri vurulmuş cansıxıcı barına, ya da daimi müştərilərin karikaturalarını divara vuraraq, onları əbədiləşdirən yadelli amerikalının idarə etdiyi "Charlie's" restoranına gedirdilər.

Gündüzlər, çölə çıxmaq kifayət qədər təhlükəsiz olanda, neftçilər, hər yeni hökumət gələndə məmurların dəyişdiyi Azərbaycan nazirliklərində, öz maraqlarını qorumaqla, rəğbət qazanmağa çalışırdılar. Məsələn, "Unocal", Azərbaycanın İslam ölkələri ilə əlaqələri inkişaf etdirmək istəyinə cavab olaraq, Səudiyyə Ərəbistanından tərəfdaş qəbul etdi. "Pennzoil" şirkəti isə,

Azərbaycanda köhnə neft yataqlarından çıxan və boş yerə yandırılan qazın yığılması üçün layihəyə başladı.

<...>

**Britaniya "çevrilişi"**

1992-ci ilin sentyabrında "BP" rəqiblərini ruhdan salan və Britaniya şirkətini yenidən zirvəyə gətirən çevriliş etdi. Böyük Britaniyanın keçmiş baş naziri Marqaret Tetçer[206] Bakıya gələrək, "BP" şirkətinin ümumi dəyəri 30 milyon dollar olan iki çekini Azərbaycan hökumətinə təqdim etdi.

Bu məbləğ, "Çıraq" adlı, artıq tədqiq olunmuş yataq və "Şahdəniz" adlı, hələ tədqiq olunmamış blok üçün ilkin ödəniş idi. Azərbaycan rəsmilərinin fikrincə, "BP" ilə razılaşma Britaniya hökuməti ilə razılaşmaya bərabər idi. Bundan başqa, ölkəyə səfər edən Britaniya rəsmiləri nəinki şirkətin maraqları üçün yorulmadan lobbiçilik edir, həm də Böyük Britaniyanın Azərbaycandakı diplomatik missiyası aylarla "BP" şirkətinin ofislərindən kənarda fəaliyyət göstərirdi.

Bunun əksinə olaraq, Azərbaycan rəsmiləri Amerika şirkətləri ilə bağlı nə qərar verəcəklərini bilmirdilər, onların hökuməti ingilislərin Azərbaycandakı iştirakına mənfi – hətta düşmən – münasibət bəsləyirdi. Məsələn, 1992-ci ilin payızında erməni-amerikalı qrupların fəal lobbiçilik etdiyi Konqres Ermənistana səxavətli yardım ayırdığı halda, ABŞ-nin Azərbaycana birbaşa yardımlarının əksəriyyətini qadağan etdi.

"BP" şirkətindən ayrılaraq, "Pennzoil" şirkətinin dünya üzrə geoloji-kəşfiyyat şöbəsinin rəhbəri vəzifəsinə keçən Tom Hamiltonun[207] sözlərinə görə, məhdudlaşdırıcı qanun adlanan 907-ci düzəlişin qəbulundan sonra Bakıda ABŞ neftçiləri üçün "soyuqluq dərhal özünü göstərdi". Hamilton xatırlayır ki, 907-ci düzəliş "həmişə bir təzyiq vasitəsi, bir dəyənək idi, başqa heç nə işə yaramayanda sənə onunla güc tətbiq edirdilər".

1993-cü ilin ortalarında "Amoco" şirkətinin Xəzər əməliyyatlarını öz üzərinə götürən Steysinin sözlərinə görə, Vaşinqtonun təlimə ehtiyacı var idi.

"Biz Amerika neft şirkəti idik və azərbaycanlılar hökumətimiz üzərində bizim faktiki olduğundan daha çox təsirə malik olduğumuzu düşünürdülər" – Steysi sonradan bildirib. O, administrasiya rəsmiləri və Konqres üzvləri ilə görüşərək, Mərkəzi Asiyanın potensialı və geosiyasəti haqqında onlara məlumat verməyə başlayıb. Vaşinqtonda Xəzərlə bağlı məlumatsızlığın səviyyəsini nəzərə alaraq, o, tez-tez özü ilə ərazinin xəritəsini aparırdı.

**Amerikanın qayıdışı**

1993-cü ilin iyununda, seçki yolu ilə[7] seçilən prezident Əbülfəz Elçibəy[8] silahlı üsyan nəticəsində hakimiyyətdən getdikdən[23] sonra Heydər Əliyev hakimiyyətə gəldi. Yetmiş yaşlı Əliyev Dövlət Təhlükəsizlik Komitəsinin rəhbəri olmuş, Leonid Brejnevin[189] dövründə Sovet Siyasi Bürosunda işləmişdi. Bəzi azərbaycanlılar və Qərb neftçiləri, Bakının Qərb şirkətləri ilə böyük neft sövdələşməsinə mane olmaq ümidi ilə Moskvanın çevriliş etdiyini düşünürdülər.

Əliyev isə, Birləşmiş Ştatların neft şirkətlərinin ümid etdikləri lider, neft siyasətindən başı çıxan zirək operator oldu. Azərbaycanlıların, neft danışıqlarının başına slovakiyalı tapançalı iş adamını qoyduqları qarışıq dövrdən sonra Əliyev şəxsən özü məsələyə müdaxilə edərək, tabeçiliyində olanlara "Amoco" şirkətinin, Birləşmiş Ştatların neft sənayesinin ürəyi sayılan Hyustondakı ofisində sövdələşmə əldə etməyi tapşırdı.

"Amoco" şirkətinin binasının beşinci mərtəbəsində qollu köynəklərdə işləyən və danışıqlar gecə boyu uzandıqda pizza sifariş edən tərəflər, məlumatları yoxlamaq üçün "Amoco" şir-

kətinin kompüterlərindən istifadə edərək, razılaşmanı hazırladılar. 1994-cü il sentyabrın 20-də Əliyev və neft şirkətlərinin rəhbərləri Azərbaycan Prezidentinin "Əsrin müqaviləsi" adlandırdığı müqavilənin[137] təntənəli imzalanması üçün Bakıda görüşdülər.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ)[138] adlanan konsorsium üç əsas yatağın işlənməsi üçün 7,4 milyard dollar xərcləməyə razılaşdı: "Azəri", "Çıraq" və ona bitişik "Günəşli" yatağı. Qarşıya qoyulan hədəf, 2010-cu ilə qədər gündəlik 800.000-1 milyon barrel arasında neft hasil etmək idi.

ABŞ şirkətləri – "Amoco", "McDermott", "Unocal" və "Pennzoil" – ümumilikdə 40 faizdən çox pay aldılar, yəni bu gün üçün ən böyük blokdur. "Exxon Corp." isə konsorsiuma gələn il qoşulacaq. "BP" 17 faiz pay aldı, yerdə qalan hissə isə Azərbaycan Neft Şirkəti və müxtəlif kiçik xarici konsessiyaçılar arasında bölündü.

<...>

**Boru kəməri problemi**

1995-ci ildə ABƏŞ Bakıda, vaxtilə Sovet Hərbi Dəniz Donanmasının Mədəniyyət Evinin yerləşdiyi binaya köçdü. Simvolizm Moskvadan da yan keçmədi.

Rusiya artıq Xəzərdə ABŞ-nin istənilən iştirakına müqavimət göstərəcəyini bildirmişdi. 1994-cü ildə energetika nazirinin müavini Uilyam H.Uayt[208] regiona ilk səfərindən əvvəl Rusiyanın energetika naziri Yuri Şafranik[209] ilə telefon əlaqəsi saxlamışdı.

Uaytın dediyinə görə, Şafranik ona xəbərdarlıq edib: "Unutmayın, bunlar Rusiyanın ehtiyatlarıdır. Bu ehtiyatlar Rusiya tərəfindən işləniləcək".

Rusiya, ABƏŞ ilə müqavilədə yalnız kiçik bir hissəyə – Rusiyanın ən böyük özəl neft şirkəti olan "LUKoil" şirkətinə

məxsus 10 faizlik paya[97] sahibdir. Bununla belə, Rusiyanın coğrafi üstünlüyü var.

Quru ilə əhatələnən Xəzərin resursları dünya bazarlarına ancaq siyasi cəhətdən qeyri-sabit qonşular və ya İran və Rusiya kimi kommersiya rəqibləri vasitəsilə çıxarıla bilərdi. Azərbaycana gəldikdə, XIX əsrdə Nobellərin Bakıdan Qara dənizə çəkdiyi boru kəmərindən,[169] Hamiltonun dediyi kimi, "pas izi" qalmışdı. Azərbaycanın dünya neft bazarı ilə əlaqəsi, nefti Volqaya daşıya bilən bir neçə paslı barjadan və müharibə şəraitində olan Çeçenistan[131] ərzisindən keçərək, Rusiyadan Azərbaycana uzanan boru kəmərindən[168] ibarət idi.

İxracatçılar həm də özünəməxsus hüquqi problemlə üzləşdilər: Xəzər və onun resursları kimə məxsus idi? Əsrin əvvəlində İran və Sovet İttifaqı dənizi ortaq göl kimi təyin edən müqavilələr imzalamışdı. Sovet İttifaqı artıq mövcud deyildi, lakin Moskva özünün müstəsna müqavilə hüquqlarını müdafiə etməyə davam edirdi.

Vəziyyət ABƏŞ şirkətlərini, boru kəmərinin tranzit marşrutları ilə bağlı danışıqlarda beynəlxalq diplomatiyadan qeyri-adi dərəcədə asılı vəziyyətə saldı.

<…>

Administrasiyanın və ABƏŞ-in qarşısında duran aktual problem ilkin Xəzər nefti üçün ixrac marşrutunun seçilməsi idi. Əsas ixrac boru kəməri ilə bağlı qərar təxirə salındı.

Rusiya boru kəmərindən ucuz qiymətə revers qaydasında istifadə etmək olar, bu da neftin Azərbaycandan ixracına imkan verər. Bu, Rusiyaya ABƏŞ neftinin nəqli üçün kommersiya şərtlərini diktə etməyə imkan verəcək; boru kəməri Qara dənizdə, ilin bir neçə ayı ərzində buzla örtülən Novorossiysk limanına qədər uzanır.

Klinton administrasiyası və ABŞ şirkətləri başqa variantlar tapmaq istəyirdilər. "Chevron" 1990-cı ildə Qazaxıstandakı nəhəng "Tengiz" yatağını alandan sonra Rusiya "Tengiz" neftini öz ərazisindən ötürəcək boru kəmərinə maneələr yaradıb.

"Əgər alternativ (marşrut) olmasa idi, biz "Chevron" ilə eyni gəmidə olardıq" – Amerika neft şirkətinin nümayəndələrindən biri daha sonra bildirib. "Rusiya onlara daim kələk gəlirdi... Sizə həqiqətən də belə təzyiq vasitələri lazım idi".

1995-ci ilin yayında Berger[210] ABƏŞ şirkətləri ilə iki dəfə görüşüb. O, BP-nin icraçı direktoru, ABƏŞ prezidenti vəzifəsini icra edən Terri Adamsı[175] inandırmağa çalışıb ki, Rusiyanın nəzarətindən azad, Bakının qərbindən Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanına qədər uzanan, 250 milyon dollarlıq yeni boru kəmərinə ehtiyac var. "BP", Rusiyadan keçən boru kəmərinin təmirinə 50 milyon dollar xərcləyərək, daha ucuz həll yolu seçdi.

Berger qətiyyətli idi. 1995-ci ilin sentyabrında ABƏŞ həm Rusiya xəttindən, həm də ABŞ-nin dəstəklədiyi yeni qərb marsrutundan istifadə etməyə razılıq verdi. Klinton administrasiyasında belə bir siyasət formalaşmışdı: Xəzər nefti üçün "çoxlu sayda boru kəməri".

**Nəhayət, razılaşma**

Qərarın Əliyevə təqdim edilməsi nəzərdə tutulurdu, onun hökuməti qonşu ölkələrlə boru kəməri marşrutları barədə danışıqlar aparmalı idi. Rusiyanın təzyiqi nəzərə alınsa, bu dəstək qəti olmaqdan çox uzaq idi.

ABƏŞ-nin qərarından qısa müddət sonra, milli təhlükəsizlik üzrə müşavir Entoni Leyk,[211] Karter[212] administrasiyasındakı sələfi Zbiqnev Bjezinskidən[213] Klintonun məktubunu Əliyevə çatdırmağı şəxsi qaydada xahiş etmişdi. Məktubda ABŞ-nin iki

boru kəmərinə üstünlük verdiyi vurğulanır və stimul olaraq, Ermənistanla münaqişənin həllində Vaşinqtonun yardımı təklif edilirdi.

Nəticədə, Bjezinski "Amoco" şirkətinin ödənişli məsləhətçisi oldu. O, 1995-ci ilin sentyabrında Bakıya gedəndə, sonradan xatırladığı kimi, Rusiyanın Qafqazdakı niyyətlərindən narahat idi. Bjezinski, Əliyevin prezident sarayında verdiyi böyük şam yeməyində Klintonun məktubunu vaxt itirmədən təqdim etmək istəyirdi.

<…>

Bjezinski President ilə təkbətək danışmaq istəyini bildirəndə artıq gecə yarısı yaxınlaşırdı. Qonaqlığı tərk etmək məcburiyyətində qaldığına təəssüflənən Əliyev Bjezinskini kabinetinə apardı. Orada Bjezinski məktubu çıxardı və onun məzmunu haqqında ümumi məlumat verdi.

Sonrakı bir neçə gün ərzində iki nəfər uzun sürən danışıqlara başladı. Bjezinski öyrənib ki, ruslar bütün Azərbaycan neftinin Rusiyadan keçməsini və rus qoşunlarının Azərbaycanda yerləşdirilməsini tələb edirlər.

Oktyabrın 2-də Klinton ikili marşrut planını müdafiə etməyi Əliyevə təklif etdi. Vaşinqtonla müttəfiqliyi möhkəmləndirən Əliyev bir həftə sonra öz razılığını bildirdi.

1996-cı ilin əvvəllərində ruslar geri addım ataraq, belə qənaətə gəldilər ki, Azərbaycandan başlayan iki boru kəmərindən birinə nəzarət etmək, nəzarəti tamamilə itirməkdən daha yaxşıdır. Rusiya-Amerika çəkişməsi isə hələ təzə başlayırdı.

**Müəllif: Victor Schmidt**
**Tarix: 12.10.1998**
**Mənbə: Offshore (ABŞ)**
**(Vol. 58 İssue 10)**
**Məqalənin adı: Baku-Ceyhan**
*www.offshore-mag.com*

# BAKI – CEYHAN BEYNƏLXALQ DİQQƏT

Azərbaycanın Bakı şəhərindən Türkiyədə Ceyhana[167] qədər uzanacaq Xəzər neft kəməri[108] yavaş-yavaş irəliləyir. Azərbaycan Beynəlxalq Bankının prezidenti Fuad Axundov[214] tikinti xərclərinin 50-60%-ni Azərbaycanın maliyyələşdirəcəyini açıqlayıb. Avropa Yenidənqurma Bankının ikinci dərəcəli dəstəyi boru kəməri şirkətinin yaradılmasında ölkəyə kömək edəcək. Xərc smetaları hələ də hazırlanır.

**Tarix: 21.12.1998**
**Mənbə: The Oil and Gas Journal**
**(ABŞ) (Vol.96, İssue 51)**
**Məqalənin adı: İran to explore disputed Caspian area**
***www.ogj.com***

# İRAN MÜBAHİSƏLİ XƏZƏR ƏRAZİSİNİ TƏDQİQ EDİR

İran Milli Neft Şirkəti Xəzərin cənubunda seysmik tədqiqat aparmaq üçün konsorsium yaradıb.

İMNŞ, "Royal Dutch/Shell" və Londonda yerləşən müstəqil "Lasmo PLC." şirkəti 1000 kilometrlik 2D seysmik məlumat əldə etmək və əvvəllər tədqiq edilməmiş ərazilərdə geoloji və geofiziki tədqiqatlar aparmaq barədə razılığa gəliblər. Üç şirkət 18 aylıq tədqiqat zamanı bərabərhüquqlu tərəfdaş olacaqlar.

Bu elan, Xəzərdə sərhədləri müəyyən etmək üçün uzun müddətdir davam edən mübahisəni yenidən alovlandırdı, çünki Azərbaycan, tədqiqat ərazisinin bir hissəsinin onun ərazisi daxilində olduğunu bildirir.

**İran Milli Neft Şirkətinin müqaviləsi**

Dekabrın 14-də "Lasmo", Xəzərin cənubunda birgə kəşfiyyat tədqiqatları aparmaq məqsədilə İran Dövlət Neft Şirkəti və "Shell" şirkəti ilə konsorsium yaratdığını bildirib.

Özünün törəmə şirkəti olan "Lasmo Petroleum Development BV" vasitəsilə iştirak edən "Lasmo" şirkəti, müqavilənin

əhatə etdiyi sahənin hələlik qəti şəkildə dəqiqləşdirilmədiyini bildirib. Tədqiqatın təxminən 19 milyon dollara başa gələcəyi gözlənilir, bu da beynəlxalq neft şirkətləri arasında bölüşdürüləcək.

Seysmik və geofiziki tədqiqat aparmaqla yanaşı, şirkətlər altı ay ərzində seysmik məlumatları toplamağı, artıq mövcud olan sahələri müəyyən etməyi və əlavə iki perspektivli sahə seçməyi planlaşdırırlar.

Qrup bu ərazidə dördə qədər blok seçmək üçün üstünlük hüququna malik olacaq. Tədqiqat başa çatdıqdan sonra xidmət müqavilələri bağlamaq üçün 12 ay vaxt var.

“Lasmo” bildirib ki, daha sonra “British Petroleum Co PLC.” şirkəti də müqaviləyə qoşula bilər.

“Lasmo”nun yeni biznes direktoru Kris Rayt bildirb ki, “Tədqiqat proqramı “Lasmo” üçün Xəzər dənizinin İrana məxsus hissəsinə mühüm strateji girişi təmsil edir. Biz, bu sazişə İranın kəşfiyyat sektorunda gələcək maraqların yaradılması üçün əsas vasitə kimi baxacağıq”.

**Azərbaycanın reaksiyası**

Xəzər dənizi ilə həmsərhəd olan beş ölkə - Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan uzun müddətdir ki, dəniz ehtiyatlarını necə bölüşdürəcəklərini müzakirə edirlər (OGJ, 29 sentyabr 1997, s. 39).

Bu məlumata dərhal etiraz edən Azərbaycan, tədqiqat ərazisinin bir hissəsinin onun sahil hüdudları daxilində yerləşdiyini bəyan edib.

Respublika Xarici İşlər Nazirliyinin press-relizində deyilir: “Azərbaycan hesab edir ki, İranın birtərəfli, əsassız hərəkəti Xəzər dənizinin statusu ilə bağlı danışıqlarda qeyd olunan müs-

bət tendensiyaları pozur və regionda əməkdaşlıq ruhuna mənfi təsir göstərə bilər.”

İranın Xarici İşlər Nazirliyi Azərbaycanın ittihamına qarşı çıxaraq, bunun heç bir hüquqi əsası olmadığını bildirib. Bundan sonra Azərbaycan, mübahisəli ərazidə olduğu güman edilən üç neft yatağı üzrə tender elan edərək, tələbi yüksəldib.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) dekabrın 16-da dənizdəki D-43, D-44 və D-74 neft yataqlarının işlənməsi üzrə tender elan edib. Bununla belə, Azərbaycan Prezidenti Heydər Əliyev[1] İran müqaviləsinin hansı sahələri əhatə etdiyinin hələ də bəlli olmadığını bildirib və etiraf edib ki, təklif olunan üç neft yatağının İranın kəşfiyyat planlaşdırdığı ərazi hüdudlarından kənarda olması mümkündür.

Məlumata görə, Əliyev xəbərdarlıq edib ki, müqavilənin imzalanması “Shell” və “Lasmo” şirkətlərinin Azərbaycanda müqavilə bağlamalarını çətinləşdirə bilər. O, şirkətləri NIOC müqaviləsini imzalamalarından əvvəl “rəsmi” şəkildə xəbərdar etdiyini, lakin onların xəbərdarlığa məhəl qoymadıqlarını söyləyib.

Yerli mətbuatın məlumatına görə, Əliyev bildirib ki, hər iki şirkət Cənubi Xəzərin Azərbaycan sektorundakı “Alov” yatağında, qalan 20%-lik payın bir hissəsini almağa ümid bəsləsə də, indi bundan söhbət gedə bilməz.

**Müəllif: Lievellyn O. Hovell**
**Tarix: 21.03.1999**
**Mənbə: The World Watch (Avstraliya)**
**Məqalənin adı: Baku to Ceyhan: Pondering pipeline politics**
*www.worldwatch.news*

# BAKIDAN CEYHANA: BORU KƏMƏRİ SİYASƏTİNİ TƏHLİL EDƏRKƏN

Şəhər adlarının tanınması dünyanın böyük bir hissəsi üçün hələ də çətinlik yaratsa da, Bakı və Ceyhan[167] son bir il ərzində böyük strateji və iqtisadi əhəmiyyətə malik məkanlara çevrilib. Bakı yeni müstəqil Azərbaycan dövlətində, Ceyhan isə Türkiyədədir. Onlar Xəzər dənizindəki yataqlardan çıxarılan neft və təbii qazı Aralıq dənizindəki limana və oradan da tankerlərlə Avropaya daşıyacaq boru kəmərinin[108] iki qurtaracağıdır. Məsələ Xəzər dənizi sahəsindən çəkilməsi təklif olunan bir neçə boru kəmərlərindən hansının dəstəklənməli və həyata keçirilməli olmasından ibarətdir. Boru kəməri neft şirkətləri və ya investorlar tərəfindən maliyyələşdiriləcək. Klinton[41] administrasiyası Bakı-Ceyhan xətti üçün ciddi lobbiçilik edir. Bu, ən bahalı seçim olduğundan, administrasiya ilə neft şirkətləri (o cümlədən "Exxon", "Pennzoil" və "BP Amoco") arasında biznes xərcləri ilə bağlı mübahisə dumanlı məqamlardan birinə çevrilib.

Seçimi müəyyən etmək üçün çətin mübarizə gedir. Hansı faktorlar biznes yönümlü administrasiyanı həvəslə işləməyə çalışdığı tərəflərlə münaqişəyə gətirib çıxarıb? Boru kəməri ilə bağlı məsələlərin çoxluğu beynəlxalq siyasi iqtisadiyyatın tam spektrini əhatə edir:

**Neft və təbii qaz təchizatı.** Göründüyü kimi, məsələ bundan ibarətdir. Əlavə yanacaq mənbələri qiyməti nəzarət altında saxlamağa, təchizatı təmin etməyə və rəqabət qabiliyyətini gücləndirməyə kömək edəcək. Yeni və genişləndirilmiş alternativ mənbələr Yaxın Şərqdəki qeyri-sabit dövlətlərdən enerji asılılığını və iri həcmli neftin Hörmüz boğazından keçməsini azaldacaq. Hər iki tərəf, hazırda qiymətlərin aşağı olmasına baxmayaraq, gələcək tədarükün vacibliyi barədə razılığa gəlir.

**Demokratik təsisatların inkişafı.** Neft və qaz hasilatçılarının əldə edəcəkləri milli gəlir, uzun müddət Sovet İttifaqının tərkibində olan və əvvəllər (bəzən bu günədək), azad bazarlar və öz sərbəst fəaliyyətini davam etdirən siyasi və hüquqi strukturlar üçün maneəyə çevrilmiş oliqarxlar tərəfindən idarə edilən ölkələrdə demokratik təsisatları gücləndirə bilər. Xüsusilə Qazaxıstan, Azərbaycan və Türkmənistanda daha çox maliyyə sabitliyi ABŞ-nin strateji maraqlarına xidmət edərdi. Klinton administrasiyası bu məsələlərə hələ də diqqət yetirir, neft şirkətləri isə, görünür, bu məsələni vacib hesab etmirlər.

**İqtisadi inkişaf**. Bakı-Ceyhan boru kəməri enerji resurslarına əlavələr etməklə yanaşı, istehsal və kənd təsərrüfatında texnologiyanın tətbiqini inkişaf etdirəcək, özəl müəssisələrin gəlirini artıracaq və ehtiyacı olan ölkələrin milli büdcələrinə töhfə verəcək. Daha böyük inkişafa nail olmaq neft şirkətlərinin öhdəliyi deyildir.

**Ətraf mühit**. Əgər bu ehtiyatlar mövcud ehtiyatlara, xüsusilə də təbii qaz ehtiyatlarına əlavə olunarsa, onda bu, elektrik stansiyalarının tullantılarını azaltmağa və hasil olunan digər yanacaq növlərinin həddindən artıq istifadəsi nəticəsində yaranan iqlim təsirlərinə nəzarət etməyə kömək edəcəkdir. Bununla belə, Xəzər dənizindən çəkiləcək boru kəmərinin variantları arasında, İstanbula birbaşa bitişik, artıq yüklənmiş və təhlükəli olan Bosfor boğazından keçməklə, əhəmiyyətli dərəcədə əlavə neft və qazın tankerlərlə daşınmasına səbəb olacaq bir neçə variant da var. Türklər təbii olaraq, Avropaya fayda gətirəcək ucuz tədarük naminə özlərini neft sızıması ilə üz-üzə qoymaq istəmirlər. Bununla yanaşı, təklif olunan boru kəmərlərinin bəziləri, etnik və siyasi münaqişələrlə əhatə olunan Mərkəzi Asiya ölkələrindən keçir, bu da müharibə zamanı boru kəmərlərinin zədələnməsinə, nəqlin kəsilməsinə və sızma nəticəsində ətraf mühitə ziyan vura bilər. Ətraf mühitlə bağlı daha çox iş hökumətlərin üzərinə düşür.

**Böyük güclərin tarixi rəqabəti.** Qazaxıstan tarixən, xüsusilə Rusiya və Çin arasında dominantlıq uğrunda rəqabətin obyekti olan ölkələrdəndir. XX əsrdə Rusiya Qazaxstanda hökmranlıq edə bilib, lakin Çin mədəniyyət və iqtisadiyyata əhəmiyyət verərək, bu istiqamətdə özünü yenidən təsdiq edib. Çinin sürətli ekspansiyası enerjiyə böyük tələbat yaradıb və bir vaxtlar vassal aslılığında olan dövlətlərin yanacaq mənbələri onun üçün cəlbedicidir. Təklif olunan boru kəmərlərindən biri birbaşa Qazaxıstandan Çinin şimal-qərbinə çəkiləcək. Bakı-Ceyhanı seçməklə, ABŞ-nin bu məsələyə daxil edilməsi, onun Qərbə yönəlməsi ilə nəticələnə bilər.

**Böyük Rusiya.** Bakı-Ceyhan seçiminin qarşısının alınması Rusiyanın maraqlarına xidmət edir. Əgər təmir və genişləndirmə

üçün Bakı-Novorossiysk (Rusiya) boru kəməri[168] seçilsəydi – kiçik və köhnə xətt artıq mövcuddur – nəinki Qazaxıstan, hətta uzun müddət Rusiyanın nəzarətində olan regionda müstəqil agent kimi fəaliyyət göstərən digər Orta Asiya və keçmiş sovet respublikaları da asılı vəziyyətə düşəcəkdi. ABŞ və Avropa, həmişə Rusiyanın arxa bağçası hesab edilən yerdə möhkəmlənə bilərlər.

**İran**. Boru kəməri variantlarından biri İran ərazisindən keçir. Neft şirkətləri İranla işləməyə hazırdır, Klinton administrasiyası isə yox. Beynəlxalq terrorizmin mənbələri ilə bağlı məsələ hələ də həllini tapmayıb; neft şirkətlərinin maraqlarına zidd olaraq, 1979-cu ildə ABŞ şirkətlərinin islam hökuməti tərəfindən müsadirə edilməsi məsələsi hələ də məhkəmələrdə (yaxud başqa yerlərdə həll olunmamış) qalır; siyasi cəhətdən, Klinton administrasiyası, başqa hansı mənada olursa olsun, bu varianta razılığını verə bilməz.

**ABŞ biznesinin uğuru**. Klinton administrasiyası seçilən istənilən boru kəmərinin, iqtisadi və strateji səbəblərdən, Amerika şirkətlərinin nəzarətində olması ilə bağlı narahatdır. Bu boru kəmərinin Rusiya, Çin və ya İrandan deyil, ABŞ-nin müttəfiqi olan Türkiyədən keçməsi yaxşı olardı.

**Klinton administrasiyası və ABŞ-nin xarici iqtisadi siyasəti.** Biznes-iqtisadi, siyasi və hərbi-strateji səbəbləri əlaqələndirən Klinlon administrasiyası bütün mərclərini Bakı-Ceyhan seçiminə qoyub. Əgər neft şirkətləri tərəfindən başqa variant seçilərsə, administrasiya "soyuq müharibə"dən sonrakı dövrdə dövlətlərin beynəlxalq iyerarxiyasında bir nömrəli mövqeyini qoruyub saxlamaq üçün kritik döyüşü uduzan tərəf kimi tənqidə məruz qalacağına əmindir. Onun qlobal siyasi-iqtisadi problemin digər hissələrini idarə etmək qabiliyyəti zəifləyə bilər.

**Tarix: 19.11.1999**

**Mənbə: The Washington Post (ABŞ)**

**Məqalənin adı: Turkey, Georgia, Azerbaijan sign oil pipeline deal: U.S. denies anti – Russian aim.**

***www. washingtonpost.com***

# TÜRKİYƏ, GÜRCÜSTAN VƏ AZƏRBAYCAN NEFT BORU KƏMƏRİ MÜQAVİLƏSİ İMZALADILAR. ABŞ ANTİ-RUSİYA MƏQSƏDİNİ İNKAR EDİR

İstanbul, 18 noyabr – Bu gün Türkiyə, Azərbaycan və Gürcüstan Xəzər dənizinin zəngin neft ehtiyatlarını beynəlxalq bazarlara çatdırılmaq üçün, Rusuya və ya İran ərazisindən keçməmək şərtilə, neft boru kəmərinin tikintisi barədə müqavilə imzaladılar.

Prezident Klintonun[41] iştirakı ilə 3 dövlətin rəhbəri Azərbaycanın zəngin neft yataqlarından Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına[167] çəkiləcək boru kəməri barədə bəzi sənədləri imzaladı. Dəyəri 2.4 milyard dollar olacağı gözlənilən bu boru kəməri keçmiş sovet respublikası olan Gürcüstan ərazisindən keçəcək.

Gürcüstan Prezidenti Eduard Sevardnadze[11] qeyd edib ki, bu sazış Xəzər regionundakı "etibarlı tərəfdaşlar" arasında yeni əməkdaşlıqdan xəbər verir və o, fotoqraflardan bu tarixi imzalama mərasiminin şəkillərini "qoruyub saxlamağı və qiymətlən-

dirməyi" xahiş edib, çünki onlar "həqiqətən unikal olaraq, böyük əhəmiyyət kəsb edəcək".

Təklif olunan bu müqaviləyə əsas rəqib olan Rusiya, Azərbaycanı, sözü gedən borunun Rusiya ərazisindən keçməsinə razılıq verməyə təhrik edirdi.

İran Azərbaycan neftini İranın şimalında almaq, İranın cənubundakı yataqlardan hasil olunan nefti isə Azərbaycan adından satmaq barədə neft mübadiləsi sövdələşməsinə üstünlük verirdi. Bu razılaşma hər iki ölkə üçün nəqliyyat xərclərini azalda bilərdi.

Əvvəllər, Klintonun milli təhlükəsizlik üzrə məsləhətçisi olmuş Samuel R. "Səndi" Berger[210] Birləşmiş Ştatların Rusiyanın Çeçenistandakı mövqeyinə qarşı çıxdığı üçün sözü gedən neft kəmərini dəstəklədiyini inkar edirdi. "Boru kəməri sazişi heç bir halda Rusiyaya qarşı yönəlməyib" – Berger deyib. "Fikirləşirəm ki, yalnız Birləşmiş Ştatlar deyil, regiondakı ölkələr və beynəlxalq neft şirkətləri üçün də neftin nəql edilməsi məqsədilə başqa marşrutların yaradılması vacibdir".

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının sammitində müqavilənin imzalanması baş tutmadı, çünki Klinton Çeçen üsyançılarına qarşı mübarizəsinə görə Rusiyanı tənqid edən ATƏT üzvləri ilə həmrəy oldu.

1.080 mil uzunluğunda boru xətti qeyri-sabit Rusiya və potensial düşmən olan İran ərazisindən yan keçərək, neftin çox hissəsini ABŞ-nin əsas müttəfiqi olan və BMT tərəfindən tətbiq edilən sanksiyalara görə İraq neftinin nəqli üçün Türkiyənin istifadə etdiyi gəlirli neft kəmərinin bağlanmasından əziyyət çəkən Türkiyəyə ötürəcək, lakin sövdələşmənin iqtisadı çəhətdən əlverişli olacağı sual altındadır.

Xəzər neft yataqlarında fəaliyyət göstərən əsas Qərb şirkəti "BP Amoco PLC" rəsmilərinə görə regionda nəhəng neft ehti-

yatlarının mövcudluğu barədə ilkin hesablamalar şişirdilmiş ola bilərdi.

**Müəllif: John Boit**
**Tarix: 26.11.1999**
**Mənbə: Christian Science Monitor (ABŞ) (Vol.92, İssue 2)**
**Məqalənin adı: Azerbaijani court overturns religion-based deportation orders**
***www.csmonitor.com***

# AZƏRBAYCAN MƏHKƏMƏSİ DİNİ ƏSASDA DEPORTASİYA ƏMRLƏRİNİ LƏĞV EDİB

**ABŞ və Norveç xarici sərmayələrə ehtiyacı olan, neftlə zəngin bu ölkəyə əhəmiyyətli dərəcədə lobbiçilik ediblər.**

Diplomatik mənbələrin bu həftə verdiyi məlumata görə, sentyabrda Bakıda polisin Baptist kilsəsində apardığı axtarışdan sonra prozelitizmdə ittiham olunan səkkiz əcnəbi, əmr edildiyi kimi deportasiya edilməyəcək.

Verilən əmrlər əsasən müsəlmanlardan ibarət keçmiş sovet dövlətinin Qərb istiqamətində irəliləməsinə təhdid kimi qiymətləndirilib.

Buradakı ABŞ səfirliyinə aid mənbələrə görə, keçən həftənin sonunda Ali Məhkəmə bu əmrləri ləğv edib. Qərar ABŞ səfiri Stenli Eskudero[215] və Norveçin xarici işlər naziri, eyni zamanda, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının sədri Knut Vollebekin[216] Azərbaycan Prezidenti Heydər Əliyevə[1] göstərdikləri ciddi dəstəkdən sonra verilib.

Səfirlik, ATƏT-in Türkiyədə keçirilən yüksək səviyyəli sammitində iştirak edən Azərbaycanın bu addımının yazılı təsdiqini

alıb. Diplomatik rəsmilər isə bu qərarın siyasi baxımdan zamana uyğun olub-olmaması ilə bağlı şərh verməkdən imtina ediblər.

ABŞ diplomatlarından biri söyləyib: "Prezident Əliyevin ölkəsinin dini azadlıqlara sadiqliyini təsdiqləməsi bizi çox ruhlandırır". Amerikalılardan heç kimə bu ölkəni tərk etmək əmri verilməsə də, səfirlik bu məhkəmə işinə çox böyük diqqət yetirib.

Bu ayın əvvəlində Heydər Əliyev cənab Eskudero ilə görüşündə, deportasiya haqqında qərarın ləğv edilməsi üçün onun administrasiyasının "lazımi addımlar atacağını" söyləyib və "oxşar hadisələrin təkrarlanmayacağına" söz verib.

Prezident Əliyev həmçinin müsəlman, xristian və yəhudi dini liderləri ilə görüşüb və Azərbaycanda din azadlığına olan sadiqliyini bir daha vurğulayıb. Görüşlər ötən üç ayda Bakıda və onun ətrafında kilsələrə edilən ən azı beş reyddən dərhal sonra keçirilib.

Hadisələr Azərbaycanın özünü Avropa və Amerika ilə uyğunlaşdırmağa, postsovet tənəzzüldən çıxarmaq üçün xarici sərmayələr cəlb etməyə çalışdığı bir vaxtda baş verib. ATƏT-in sammiti zamanı Türkiyə, Azərbaycan, Gürcüstan və Türkmənistan Xəzər dənizinin neft və qaz ehtiyatlarını Qərb bazarlarına çıxarmaq məqsədilə sazişlər imzalayıblar və bu layihə ABŞ tərəfindən güclü surətdə dəstəklənib.

Eyni zamanda, Bakı, ABŞ hökumətinin Azərbaycana birbaşa yardım göstərilməsinə mane olan Azadlığa Dəstək Aktına 907-ci düzəlişin[29] Konqres tərəfindən ləğv ediləcəyinə ümid edir. Bundan əlavə, ABŞ-nin, diplomatik missiyalardan bütün dünyada dini azadlıqlarla bağlı hesabatlar hazırlamasını tələb edən yeni qanunu vəziyyəti daha da mürəkkəbləşdirir. Bəziləri ehtiyat edir ki, mənfi hesabatlar Azərbaycanda gələcək biznesi və ya yardımları təhlükə altına ata bilər.

Müntəzəm olaraq, 400 nəfərin ibadət etdiyi 100 yaşlı Evangelist Xristian Baptist Kilsəsinin üzvləri, sentyabrın 5-də günorta ibadətinin polis tərəfindən yarımçıq kəsilməsinə məəttəl qaldıqlarını söyləyiblər. Polislər 60 nəfər ibadətçini, o cümlədən qadın və uşaqlardan ibarət qrupu həbs edərək, dörd saatlıq sorğu-sual üçün yerli polis bölməsinə aparıblar.

Üç gün sonra aşağı instansiya məhkəməsinin hakimi qərara alıb ki, həbs edilənlər arasında səkkiz əcnəbi "qanunsuz təbliğatla məşğul olub" və "İslam dininə qarşı təbliğat aparıb və insanları bu dindən uzaqlaşdırmağa çalışıb". Yerli televiziya kanallarından birinin məlumatına görə, din xadimləri "Məhəmmədin bütpərəst olduğunu" təbliğ edirlər, lakin kilsə rəhbərləri heç vaxt İslam haqqında fikir söyləmədiklərini bildiriblər.

Bakıda əcnəbilər arasında fikir ayrılığı yaranıb, bəziləri Azərbaycan hakimiyyətini günahlandırmaqda tərəddüd edirlər.

İngilis dilində nəşr olunan həftəlik "Baku Sun" qəzetinin redaktoru Bill Reynolds əcnəbi dini qrupların "qarışıq bir çanta" olduğunu söyləyib.

"Bəziləri öz aləmindədir, digərləri isə aqresiv şəkildə dinini dəyişənləri axtarırlar" – o, deyib. "Amerikalılar üçün bu, yəqin ki, fundamentalist islam missionerlərinin dinini dəyişmək üçün Yaxın Qərbə getməsinə bərabərdir".

Norveçdən olan Trond Langen də verilən əmrə uyğun olaraq ölkəni tərk etməli olanlar arasında idi. O, hələ də əmrin ləğv olunduğuna dair rəsmi təsdiq almayıb və həftələrdir iş vizasının yenilənməsini gözləyir. "Əgər doğrudursa, bu, mənim üçün yaxşı xəbərdir" – o, deyib. "Amma bütün bunlardan sonra .... Bu viza məsələsi həllini tapmayana qədər mən rahat nəfəs ala bilməyəcəyəm".

The Moscow Times
INDEPENDENT NEWS FROM RUSSIA
30 YEARS

**Müəllif: Selina Williams**
**Tarix: 03.06.2000**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: Japan to upgrade Azeri oil industry**
**www.themoscowtimes.com**

# YAPONİYA AZƏRBAYCAN NEFT SƏNAYESİNİ İNKİŞAF ETDİRİR

Yaponiyanın "Nichimen Corp." və "Chiyoda Corp." şirkətləri keçmiş sovet respublikasının neft emalı və neft-kimya sektorunun modernləşdirilməsi üzrə baş planı Azərbaycan hökumətinə təqdim ediblər – cümə axşamı "Nichimen" şirkətinin Bakıdakı baş meneceri bu barədə məlumat verib. Yoşiyuki Kitaqava[217] müsahibəsində bildirib ki, hökumətin, on il ərzində xəzərətrafı dövlətin neft emalı, neft-kimya və qaz emalı sektorlarını mərhələli şəkildə birləşdirməyi nəzərdə tutan planı tezliklə təsdiqləyəcəyini gözləyir. "Bizim planımız unikaldır, çünki biz təkcə bir sahənin inkişafına deyil, qarşılıqlı inkişafı əlaqələndirmək üçün bütün sahələrə birlikdə baxırıq" – Kitaqava söyləyib. Azərbaycan Sovet İttifaqının neft-kimya məhsullarının cəmi 10 faizini, neft məhsullarının isə yalnız 4 faizini verirdi.

Respublikanın neft emalı və neft-kimya sahəsində regional mərkəzə çevrilmək potensialı var və o, yaxınlıqdakı Türki-

yə, Rusiya və Avropaya benzin, mazut, həm də plastik məhsullar ixrac etməkdə maraqlıdır.

Baş plan 2010-cu ilədək sutkada 260.000 barrel xam neft emal etmək üçün Bakının iki neft emalı zavodunda yeni avadanlıqların quraşdırılmasını nəzərdə tutur. Bu iki neft emalı zavodunun ümumi layihə gücü 360.000 barrel olmasına baxmayaraq, hazırda ildə 160.000 barrel neft emal edilir. 2010-cu ilə qədər yerli tələbatın sutkada 200.000 barrel olacağı gözlənilir, yerdə qalan hissəni isə, yapon şirkətləri Qara dənizə çıxan yeni kəmər vasitəsilə ixrac etməyi təklif edirlər.

2010-cu ilə qədər Azərbaycanda xam neft hasilatının artaraq, bugünkü 180. 000 barreldən təxminən 600.000 barrelə çatacağı proqnozlaşdırılır.

Kitaqava bildirb ki, neft emalı zavodlarının təkmilləşdirilməsi üçün tələb olunan 500 milyon dollar, yəqin ki, Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankından gələcək, bu zaman "Nichimen" şirkəti maliyyələşdirməni, "Chiyoda" şirkəti isə layihələndirmə və tikinti işlərini təşkil edəcək.

Kitaqava bildirib ki, Sumqayıtın neft–kimya kompleksinin, etilen istehsalını hazırki 30 min tondan 2007-ci ildə 300 min tona çatdırmaq, polietilen istehsalını isə indiki 100 min ton ilə müqayisədə ikiqat artırmaq üçün əsaslı təmirə ehtiyacı var.

"Baş planda biz Sumqayıtda illik istehsal gücü 100 min ton olan yeni polipropilen zavodunun tikintisini də təklif edirik və bunun üçün həm yerli səviyyədə, həm də Türkiyədə böyük bazar var" – o qeyd edib.

Plan həmçinin "Qarabağ" qaz emalı zavodunun yenidən qurulmasını, onun illik istehsalını indiki 2 milyard kub metrdən 6.5 milyard kub metrə bərabər ilkin layihə gücünə çatdırmağı nəzərdə tutur.

Plan Azərbaycanda artan təbii qaz hasilatına uyğun olaraq, emal qurğularının əlavə edilməsini də təklif edir.

1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin[1] Yaponiyaya səfərindən qısa müddət sonra "Nichimen" və "Chiyoda" şirkətləri baş plan üzərində işə başlayıblar. "Baş plan təsdiq edildikdən sonra sektorların inkişafının əsasını təşkil edəcək və biz ayrı-ayrı yenidənqurma layihələri üzrə təkliflər verməyə və prioritet olanlara istiqamətlənməyə başlayacağıq" – Kitaqava bildirib.

**Müəllif: Ken Silverstein**
**Tarix: 05.06.2000**
**Mənbə: Mother Jones**
**(Vol.25, İssue 3)**
**Məqalənin adı: Shape policy, profit privately: there's an oil rush on in Baku and a former DOE official is in the money**
*www.motherjones.com*

# SİYASƏTİ FORMALAŞDIRMAQ, ŞƏXSİ MƏNFƏƏT ƏLDƏ ETMƏK: BAKIDA NEFT HƏMLƏSİ VAR VƏ KEÇMİŞ DOE MƏMURU PUL İÇİNDƏDİR

Bəzi insanlar dövlət siyasəti ilə məşğul olur. Bəziləri bundan pul qazanır. Bill Uayt[208] bunların hər ikisini edir.

Prezident Klintonun[41] hakimiyyəti dövründə energetika nazirinin müavini olan Uayt Xəzər dənizi regionunda, "Washington Post"qəzetinin "XX əsrin son böyük neft həmləsi" adlandırdığı enerji siyasətinin formalaşmasında əsas rol oynayanlardan biri olub. O, bir neçə dəfə bu bölgəyə səfər edib, Gürcüstan və Azərbaycan liderləri ilə münasibətləri yaxşılaşdırmaq istiqamətində fəaliyyət göstərib, hər iki ölkəni Rusiyanın Moskvaya bölgədəki boru kəmərlərinə nəzarət etmək imkanı verəcək planına qarşı çıxmağa inandırıb. Uayt Azərbaycanın paytaxtı Bakı ilə Türkiyənin Ceyhan[167] şəhərləri arasında neft boru kəmərinin çəkilməsi planını dəstəkləyib – son nəticədə, bu plan xəzəryanı ölkələrin liderləri tərəfindən qəbul edilib.

Uayt 1995-ci ildə istefa verdikdən sonra, "bir vaxtlar siyasi və ya iqtisadi məhdudiyyətlər səbəbindən əlçatmaz olan ehtiyatların yeni yaranan bazarlarda Qərb şirkətləri üçün açıq olduğunu elan edərək", neft və qaz layihələri hazırlayan beynəlxalq enerji şirkəti "Frontera Resources" şirkətini təsis etdi. Yeni şirkət birbaşa Xəzər dənizinə istiqamətləndi. 1997-ci ildə, nəzərdə tutulan Bakı-Ceyhan boru kəmərinin[108] hər iki tərəfindəki ərazidə beş neft yatağının işlənməsinə dair razılaşma imzalayan "Frontera", Gürcüstanda neft və qaz hüquqlarına sərmayə qoyan ilk Amerika şirkəti oldu. Şirkət Azərbaycanda geniş miqyasda neft və qaz kəşfiyyatı ilə məşğul olan törəmə müəssisə yaratdı, dənizdə konsessiya əldə etdi və dövlət neft şirkəti ilə, iki nəhəng neft yatağında hasilatın pay bölgüsü haqqında müqavilə imzaladı.

Uayt Vaşinqtonda da güclü mövqeyə malikdir. Onun "Frontera" şirkətinin idarə heyətinə Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş direktoru Con Deyç[218] və keçmiş maliyyə naziri Lloyd Bentsen[219] kimi şəxslər daxildir. Uayt administrasiyaya qoşulana qədər Klinton üçün iri həcmdə ianə toplayan olmuşdu, hökumətdən ayrıldıqdan sonra isə Demokrat Partiyasına və onun namizədlərinə ən azı 18.000 dollar verib.

Uayt Xəzər bölgəsindəki liderlərin, xüsusilə də Azərbaycan Prezidenti Heydər Əliyevin[1] rəğbətini qazanmağa davam edib. <........>

"Azərbaycan və Gürcüstanda böyük demokratik təcrübə dalğası var" – "Frontera" şirkətinin baş icraçı direktoru Stiv Nikandros[220] deyib. "Onlar sovet hakimiyyətinin çətiri altından çıxmalı olublar". Azərbaycanı "qarışıq müharibə zonasından ABŞ-nin inkişaf edən tərəfdaşına" çevirən Əliyevin xidmətləri barədə Uaytın yazdığı məqalə 1997-ci ildə "Houston Chronicle"

jurnalında çap olunub. Bundan əlavə, Uayt qeyd edib ki, “onun ölkəsi ilə bizim ölkəmiz arasında əməkdaşlıq Texasda on minlərlə iş yerinin yaradılmasına təsir göstərəcək”. Uayt bunun öz büdcəsinə də təsiri olacağını qeyd etməyib.

“Frontera”, qonşu Ermənistanı blokadada saxlamağa[58] davam etdiyi üçün ABŞ-nin Azərbaycana yardım qadağasına[29] son qoymağa çağıran P.R filmin çəkilişinə vəsait qoyub. Yanvar ayında Amerika Azərbaycan Cəmiyyəti Konqresin əməkdaşları üçün “nahar brifinqi” zamanı filmi nümayiş etdirib. Növbəti ay Əliyev prezident Klintonla şəxsən görüşüb. Azərbaycanlı lider boru kəmərinin çəkilməsinə dəstəyini bir daha ifadə edib, Ağ Ev qadağanı aradan qaldırmaq çağırışını təkrarlayıb.

Uayt Əliyevi dəstəkləmək məsələsində keçmiş müdirindən də irəli gedib. Bir neçə ay əvvəl Bakıda Azərbaycan Prezidenti ilə görüşü zamanı Uayt, Amerikanın dəstəklədiyi kəmərə “Bakı-Ceyhan Boru Kəməri” adının verilməsi ilə bağlı Klintonun təklifini bəyənmədiyini deyib. Uayt bunun əvəzinə kəmərin “Əliyev Boru Kəməri” adlandırılmalı olduğunu deyib. <........>

**Müəllif: Selina Williams**
**Tarix: 06.06.2000**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: Azerbaijan plunges into Caspian oil, gas race**
***www.themoscowtimes.com***

# AZƏRBAYCAN XƏZƏR NEFT VƏ QAZ YARIŞINA ATILIR

Azərbaycan sonuncu dəfə illik neft və qaz sərgisinə ev sahibliyi etdiyi ildən bəri, neft hasil edən respublika iri qaz istehsalçısına və enerjiyə ehtiyacı olan Türkiyəyə mavi yanacaq ixracı üzrə yarışda güclü rəqubə çevrilib.

Çərşənbə axşamı Azərbaycanda yeddinci neft və qaz sərgisi açılanda, enerji və xidmət şirkətləri, xəzərətrafı bu ölkənin Türkiyə ilə qaz satışı barədə razılaşma imzaladıqdan və öz infrastrukturunu ixracata istiqamətləndirdikdən sonra necə sürətlə irəliləyə biləcəyini görəcəklər.

"Keçən ildən bu yana dəyişən, Azərbaycanın, Türkiyəni Xəzər qazı ilə təmin edən istənilən ixracatçıdan daha çox etimada malik olmasıdır və mənim fukrimcə bu, indi Azərbaycanın rəqabəti uduzması deməkdir" – Londondakı "Gas Strategies" konsaltinq şirkətinin tərəfdaş meneceri Ceyms Boll qeyd edib.

Bu ilin əvvəlində, qaz satışı barədə Türkiyə ilə və 2002-ci ildən başlayaraq, Xəzər dənizindən və Qafqazdan keçməklə Türkiyəyə ildə 16 milyard kub metr qazın ötürülməsi üçün neft boru kəmərinin inşasına hazır olan xarici konsorsiumla razılaşma imzalayan qaz istehsalçısı Türkmənistan, görünür Azərbaycandan önə keçib.

Keçən ay Türkmənistan Rusiyaya əlavə qaz satacağına söz verdikdən və kəmərin inşası üçün xarici konsorsiumun verdiyi yeni təklifi rədd etdikdən sonra ABŞ-nin dəstəklədiyi boru kəməri layihəsi dalana dirəndi. İndi xəttin inşası qeyri-müəyyən vaxtadək təxirə salınıb.

Analitiklərin bildirdiklərinə görə, Azərbaycanın öz liderliyini qoruyub saxlamaq üçün prioriteti, təkcə bir dəniz yatağında təxminən 1 trilyon kub metr dəyərləndirilən ehtiyatlardan səmərəli istifadə üçün aydın və dəqiq qaz strategiyasını hazırlamaqdan ibarətdir.

"Özünü sübut etmək üçün Azərbaycanın iki illik bir pəncərəsi var və onun, əgər indi bu, real məsələdirsə, Türkiyəyə satmaq üçün dəqiq və aydın qaz paketinin hazırlanması üçün zəruri olan daxili kommersiya və siyasi infrastrukturda əsaslı inkişafa ehtiyacı vardır" – Boll deyib.

Müstəqil ölkə kimi heç zaman qaz ixrac etməyən Azərbaycanın çoxlu daxili məsələyə, o cümlədən qazı hansı hökümət agentliyinin satacağına və daxili bazarda nə baş verəcəyinə aydınlıq gətirməsinə ehtiyacı vardır – o qeyd edib.

Baxmayaraq ki, son ildə Azərbaycan vacib regional qaz oyunçusuna çevrilib, o, neft hasilatında əsas güc olaraq qalır.

Keçən ilin əvvəlində neft qiymətlərinin aşağı olması və Xəzərin potensial ehtiyatları ilə bağlı ümidsizlik Xəzərin Rusiya sektorunda iri neft ehtiyatlarının tapılması, Qazaxıstan şelfində

iri ehtiyatların ilkin əlamətlərinin olması və xam neft qiymətlərinin bir barrel üçün yenidən təxminən 30 dollara qalxması ilə qismən kompensasiya olunub.

"Azərbaycanda ərazi əldə etməyə hələ də böyük maraq vardır, baxmayaraq ki, ixrac potensialının olmaması səbəbindən layihədəki gecikmə bu həvəsi azalda bilər" – London Qlobal Enerji Tədqiqatları Mərkəzinin Xəzər dənizi üzrə baş analitiki Culian Li qeyd edib.

Flaqman "BP Amoco" tərəfindən idarə edilən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və ya ABƏŞ[138] üçün, 3 milyad dollar dəyərində birinci fazanın inkişaf planı, ixrac məsələsi öz həllini tapana qədər təxirə salınıb.

ABƏŞ neftini Bakıdan Aaralıq dənizidə Türkiyə limanı Ceyhana[167] daşımaq üçün nəzərdə tutulan, bir neçə milyard dollar dəyərində olan neft boru kəməri[108] haqqında, tranzit və qəbul edən hökumətlər arasındakı sazişlər iştirakçı üç ölkədən ikisində bu yaxınlarda ratifikasiya edilib.

Dəyəri 2,4 milyard dollar olan neft xəttinin maliyyələşdirilməsi isə hələlik gözlənilmir, çünki gündəlik 1 milyon barrel neft üçün nəzərdə tutulan xəttin kommersiya baxımından əlverişli olması üçün ayrılan həcmlərdə çatışmazlıq vardır.

**Tarix: 07.06.2000**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: LUKoil, SOCAR sign oil deal**
***www.themoscowtimes.com***

# LUKOİL İLƏ SOCAR ARASINDA NEFT SAZİŞİ

Bakı, Azərbaycan – 1 nömrəli neft şirkəti "LUKoil" və Azərbaycanın dövlət neft şirkəti SOCAR arasında Azərbaycanda quruda iki neft yatağının bərpası və işlənməsi üzrə müqavilənin əsas prinsiplərini əks etdirən bəyanat imzalanıb.

Bu iki şirkətin iki ildən artıqdır haqqında danışıqlar apardığı hasilatın pay bölgüsü sazişinə əsasən "LUKoil" və SOCAR bərabər paya malik olacaqlar.

"LUKoil" şirkəti Abşeron yarımadasının cənubunda yerləşən 128 kvadrat kilometrlik "Hövsan" və "Zığ" müqavilə ərazisinə təxminən 250 milyon dollar investisiya qoymağı planlaşdırır.

"Son 35 ildə SOCAR tərəfindən qazılan 400 quyuda qalan ehtiyatlar 20 milyon tona yaxındır" – SOCAR prezidenti Natiq Əliyev[139] bazar ertəsi imza mərasimində bildirib.

Razılaşmaya əsasən, hasilatın pay bölgüsü sazişi imzalandıqdan sonra "LUKoil" iki il ərzində 1999-cu ildəki hasilatı 150 faiz ötməlidir.

"LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov[177] jurnalistlərə bildirib ki, yekun saziş iki ay ərzində imzalana bilər və bundan sonrakı 90 gün ərzində bu şirkət yeni quyuların bərpası və qazılması planını təqdim edəcək.

IFLR

**Müəlliflər: Dan Matthews,**
**Natik Mamedov**
**Tarix: 03.11.2000**
**Mənbə: İnternational Financial Law Review**
**(İngiltərə) (Vol.19, İssue 11)**
**Məqalənin adı: Azerbaijan:**
**Enforcement of foreign arbitral awards**
***www.iflr.com***

# AZƏRBAYCAN: XARİCİ ARBİTRAJ QƏRARLARININ İCRASI

1999-cu il dekabrın 15-də Azərbaycan, Nyu-York Konvensiyası (1958) kimi tanınan Xarici Arbitraj Qərarlarının Tanınması və İcra Edilməsi Konvensiyasına qoşulub. Ancaq Nyu-York Konvensiyasına qoşulma, Azərbaycanda özəl Arbitrajı reallığa çevirmək üçün kifayət deyil, çünki müqavilənin müddəalarının həyata keçirilməsi üçün müvafiq qanun və prosedurların əsas qaydalarını da tətbiq etmək lazımdır. Bu yaxınlarda Azərbaycanda bu məqsədlə iki qanun qəbul olunub: 2000-ci ilin sentyabrında qüvvəyə minən Mülki Prosessual Məcəllə və 1999-cu ilin fevralında qüvvəyə minən Beynəlxalq Arbitraj haqqında Qanun.

Beynəlxalq Arbitraj haqqında Qanunun qüvvəyə minməsi Azərbaycanda beynəlxalq ticarətə, bank və maliyyə işinə əhəmiyyətli təsir göstərmişdir. Birincisi, o, kommersiya mübahisə-

ləri üzrə beynəlxalq arbitrajın həm Azərbaycanda, həm də tərəflərin qarşılıqlı şəkildə qəbul etdiyi istənilən xarici yurisdiksiyada aparılmasına imkan verir.

Mübahisə ancaq Azərbaycana aid iki tərəf arasında olmadığı və birdən çox ölkəyə aidiyyəti olduğu halda, mübahisə tərəfləri arbitraj prosesini beynəlxalq arbitraj kimi təyin edə bilərlər.

İkincisi, Nyu-York Konvensiyasının və ya Beynəlxalq Arbitraj haqqında Qanunun pozulması səbəbindən icranın yerinə yetirilməməsi halları istisna olmaqla, Azərbaycanda xarici arbitraj qərarlarının tanınması və icra edilməsi nəzərdə tutulur.

Üçüncüsü, xarici arbitraj qərarlarının qarşılıqlı tanınması və icrası haqqında hər hansı bir müqavilədən asılı olmayaraq, xarici arbitraj qərarlarının ümumi tanınmasına və icra edilməsinə icazə verir.

Bu qanunvericilik aktlarının vacibliyi ondan ibarətdir ki, xarici investorlarla beynəlxalq ticarət əməliyyatları aparan azərbaycanlı hüquqi və fiziki şəxslərin çoxunun əsas aktivləri Azərbaycandadır. Böyük ehtimalla, Beynəlxalq Arbitraj haqqında Qanunun qüvvəyə minməsi ilə, xarici sərmayələrlə bağlı yaranan mübahisələr yerli məhkəmələrdə deyil, xarici arbitraj yolu ilə həll ediləcək.

Göründüyü kimi, Azərbaycanda kommersiya arbitrajı ilə bağlı məhdud təcrübə səbəbindən, arbitraj qərarlarını icra etmək təcrübəsi hələ də inkişaf etməmişdir. Nyu-York Konvensiyasına qoşulmaq isə, zəruri icra qanunvericiliyinin qəbulu ilə yanaşı, Azərbaycanda özəl kommersiya arbitrajı sisteminin inkişafı və qərarların sonrakı icrası üçün hüquqi zəmin yaradır. Əgər təcrübə qanunvericiliyin vədlərini təsdiq edərsə, onda Azərbaycan həm burada fəaliyyət göstərən xarici şirkətlər, həm də ölkənin özü üçün irəliyə doğru bir addım atmış olacaq.

**Müəllif: Smiz Pamela Ann**
**Tarix: 22.11.2000**
**Mənbə: The Middle East Journal (ABŞ)**
**Məqalənin adı: Azerbaijan eyes the Middle East... and vice versa**
*www.mei.edu*

# AZƏRBAYCAN YAXIN ŞƏRQƏ NƏZƏR YETİRİR... VƏ ƏKSİNƏ

**Artıq beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olan Azərbaycanın ulduzu yüksəlməkdə davam edir.**

Neftlə zəngin Xəzər dənizinin sahilində yerləşən Azərbaycan tarixən, Abbasilər və Osmanlı sülalələri, eləcə də Səfəvilər və Qacarlar dövründən başlayaraq, ərəb dünyası və İran ilə sıx əlaqələrə malik olub. İndi, müstəqillik əldə etdikdən və 70 illik sovet hakimiyyətini devirdikdən doqquz il sonra, respublika ticarət və investisiya, habelə sosial və mədəni əlaqələr qurmaq üçün yenidən Yaxın Şərqə baxır. Türkiyə ilə əlaqələr artıq möhkəmdir və oktyabrda Prezident Heydər Əliyev[1] Tehrana mühüm dövlət səfəri etdi.

Səudiyyə Ərəbistanı, Küveyt, Oman və Körfəzin digər ölkələrindən, eləcə də İrandan olan iş adamları cavab olaraq, Qafqaz dövlətində və Mərkəzi Asiyanın digər müsəlman ölkə-

lərində iştiraklarını genişləndirirlər. Bu əlaqələr, xam neft və digər enerji növlərinin dünyada çatışmadığını və güman ki, ən azı növbəti bir neçə il ərzində belə qalacağını bütün tərəflərin başa düşməsi ilə daha da möhkəmlənmişdir.

"Kaspian Travel" agentliyinin Bakıdakı meneceri Taira Xanın şərhinə görə: "Dubay nağıldakı şəhər kimidir". Həm azərbaycanlı, həm də xarici müştərilər ərəb və xarici restoranlar, musiqi və ailə əyləncələri və alış-veriş üçün Birləşmiş Ərəb Əmirliklərinin kommersiya paytaxtına getməyi xoşlayırlar. "Emirates Airlines" şirkəti həftədə bir neçə dəfə İstanbul və ya Tehran marşurutu ilə hərəkət etdiyi üçün səyahət nisbətən asandır.

Keçən ilin mart ayında Dubay Ticarət Festivalı zamanı azərbaycanlılar da "Emirates Holidays" şirkəti tərəfindən təklif olunan və beşulduzlu mehmanxanada üç gecə qalmağı nəzərdə tutan 99 dollarlıq paketdən yararlana bildilər. Dubayda malların çoxunun qiymətləri Bakıdakından daha ucuz olduğu üçün, fürsətdən istifadə edən azərbaycanlılar məişət əşyaları, elektronika malları, geyim, ətir və kosmetika məhsulları əldə etdilər.

Böyük Britaniyada "Online Travel" şirkəti Bakı, Azərbaycanın təmiz meşələri, qoruqları və Xəzər dənizi sahilindəki kurortları haqqında məlumat verən beynəlxalq veb-saytını yenidən istifadəyə verib. Avropalılarla yanaşı, "kəşf edilməmiş" yer axtaran səyahət agentlərinin məlumatına görə, Avropada yaşayan, çoxunun azərbaycanlı qohumları olan iranlılar və onların ailələri ölkəyə xüsusi maraq göstərirlər.

Paytaxtın görməli yerləri sırasında orta əsrlərə aid qalanı xatırladan "İçəri Şəhər", 14-15-ci əsrlərə aid və hal-hazırda ənənəvi Azərbaycan mətbəxinin yeməklərini təqdim edən məşhur restoranların yerləşdiyi füsunkar karvansaraylar, XV əsrdə Şir-

van şahı Xəlilin[221] və onun oğlu Fərrux Yasarın[222] tikdirdiyi Şirvanşahlar sarayı yer alır.

Şübhəsiz ki, Körfəzdən olan iş adamları üçün Azərbaycanda cəlbedici olan neftdir. Bakının mərkəzindəki, 19-cu əsrə aid əzəmətli, təmtəraqlı malikanələr Azərbaycanın dünya xam neftinin 50 faizini istehsal etməsi, onun yeni neft baronlarının 20-ci əsrin əvvəllərində Sankt-Peterburq kimi şəhərlərdə ilk küçə işıqlandırmasından, Avropa elitası tərəfindən alınan yeni avtomobillər üçün benzin və öz dövrünün möcüzələri kimi görünən bir sıra yeni dərman və məişət əşyaları hazırlamaq üçün xammal istehsalından qazanc əldə etməsi o əsrdə ölkənin əhəmiyyətinin sübutudur. İki azərbaycanlı – Əli və Mayk Humani qardaşları tərəfindən, Ceyms Bondun əsəri əsasında çəkilən "Dünya kifayət deyil" filmi neft sərvəti ətrafında qurulan nağılın müasir versiyasıdır və heç vaxt cazibəsini itirmir.

Sənaye və diplomatik mənbələr göstərir ki, ərəb neft hasilatçılarının Xəzərdəki hasilatçılarla çəkişməsi haqqında maraqlı tərəflər tərəfindən tez-tez yayılan Qərb təsəvvürləri yerli təcrübə ilə təsdiqlənmir. Baxmayaraq ki, OPEC-in bəzi nazirləri Xəzərin ehtiyatlarının həcmi ilə bağlı şişirdilmiş hesabatları haqlı olaraq şübhə altına qoyurlar, onlar daha çox bütün neft istehsalçılarının region daxilində qiymət və təchizat siyasətini əlaqələndirmək və investisiya imkanlarının hamı üçün açıq olmasını təmin etmək qayğısına qalırlar.

Səudiyyə Ərəbistanının ən böyük özəl neft şirkətlərindən biri olan "Nimr Petroleum" Rusiya və Qazaxıstanda fəaliyyətini inkişaf etdirdikdən sonra Azərbaycana nəzər salmağa başlayıb. 1994-cü ildə Səudiyyənin başqa bir konserni olan "Delta İnvestment Compani" Azərbaycanda işləmək üçün "British Petro-

leum", Norveçin "Statoil" və ABŞ-nin "Amoco" kimi transmilli nəhəngləri ilə birgə müəssisə yaradıb.

Hal-hazırda "Delta" yeddi müxtəlif ölkənin şirkətlərindən ibarət nəhəng holdinq olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ)[138] iki faizindən az hissəsinə sahibdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə yanaşı, o, ölkənin ən böyük və əhəmiyyətli dəniz ehtiyatlarının bəzilərində kəşfiyyat və hasilat hüququna malikdir. Hazırda hasilat orta hesabla gündə təxminən 100 000 barrel təşkil edir və onun böyük hissəsi Gürcüstan ərazisindən keçməklə Qara dəniz sahilindəki limana nəql olunur. Bu rəqəmin növbəti bir neçə il ərzində kəskin şəkildə artacağı və onilliyin sonunadək gündəlik ixracın təqribən 800,000 barrelə çatacağı gözlənilir, çünki ABƏŞ özünün qarışıq konsessiyalarını dövriyyəyə gətirir.

Növbəti bir neçə ildə həm quruda, həm də dənizdə yerləşən digər mühüm neft sahələrinin xarici investorlara veriləcəyi gözlənilir. Bununla belə, son aylarda dənizdə "Şahdəniz" və "Abşeron" yataqlarında son dərəcə əhəmiyyətli tapıntılardan sonra beynəlxalq diqqət ölkənin qaz perspektivlərinə yönəlməyə başlayıb. Sənaye üzrə ekspertlər deyirlər ki, təsdiq olunacağı təqdirdə, onlar Azərbaycanı dünyada, ekoloji cəhətdən təmiz enerji mənbəyi kimi getdikcə daha çox tələb olunan yanacağın aparıcı ixracatçılarından birinə çevirə bilər.

Yaxın Şərq hökumətləri artıq transmilli şirkətlərlə birlikdə regionun potensialına diqqət yetirirlər. Baxmayaraq ki, qazın böyük hissəsi, proqnozlara görə, yaxın illərdə tələbatın sürətlə artacağı Türkiyəyə göndərilə bilər, onu İranın şimalında əhalinin sıx məskunlaşdığı ərazilərdə yerləşən neftayırma zavodlarına da nəql etmək olar.

İslam Respublikası Qazaxıstan və Türkmənistandan özünün Xəzər limanlarına və şimal şəhərlərinə daşınan Xəzər neftinin bir hissəsini, xam neft üçün "mübadilə" razılaşmaları şəklində artıq Körfəzdəki cənub limanları vasitəsilə ixrac edir və əgər Azərbaycanın qaz potensialı reallaşarsa daha böyük rol oynayacaq.

Bu onunla bağlıdır ki, dünyanın ən sürətlə böyüyən neft və qaz bazarları Aralıq dənizində deyil, Hindistan subkontinentində, Çində və Uzaq Şərqdə yerləşir və bütün bu rayınlara Rusiya və ya Türkiyədən deyil, İrandan keçən boru kəmərləri ilə daha asan çatmaq olar.

Eyni zamanda, Ciddədə yerləşən İslam İnkişaf Bankı (İİB) Azərbaycanda həyati əhəmiyyət kəsb edən kənd təsərrüfatı sektorunu, eləcə də digər mühüm infrastruktur və maliyyə sxemlərini dəstəkləməyə davam edir.

İİB-nin Azərbaycanın kənd rayonlarındakı suvarma sistemində 35 milyon dollar dəyərində islahatlar və genişləndirmə layihəsi, əvvəllər tropik meyvələr, tərəvəz, gül, çay, qoz-fındıq, taxıl və pambıq kimi, Avrasiyanın ən yaxşı ixrac məhsullarını göndərən təsərrüfatların canlanmasına kömək edə bilər.

Körfəzlə dəniz, quru, hava və dəmir yolu əlaqələrinin bərpası və modernləşdirilməsi Küveytin yeni azad ticarət zonası vasitəsilə mümkündür, həmçinin yaxın illərdə bu zənginliklər Səudiyyə Ərəbistanı, Bəhreyn, Qətər, BƏƏ, Küveyt kimi ölkələrdə və MDB də istehlakçılar üçün əlçatan olacaq.

**Müəllif: Douglas Frantz**
**Tarix: 03.02.2001**
**Mənbə: The New York Times (ABŞ)**
**Məqalənin adı: How the nobels made a prize of Baku**
*nytimes.com*

# NOBEL QARDAŞLARI BAKINI NECƏ ƏLƏ KEÇİRDİLƏR

"Nobel" adını eşidəndə, insanların çoxu nüfuzlu mükafat, yaxud, ola bilsin, dinamitin kəşfi haqqında düşünür. Burada isveçli Nobellər, Azərbaycan iqtisadiyyatının keçmiş və gələcək qan damarı olan neftin sinonimidir.

XIX əsrin sonlarında Nobel ailəsi Azərbaycanın neft resurslarının işlənməsində hər kəsdən daha çox iş görmüşdür. Onlar primitiv sənayeyə neft boruları, yaxud buxarla işləyən tankerlər kimi yeniliklər gətirmiş, beləliklə də, Bakını qısa və şöhrətli bir dövr ərzində dünyanın aparıcı neft mənbələrindən birinə çevirmişdilər.

Hal-hazırda ölkənin postsovet iqtisadiyyatının tənəzzüldə olduğu və narazı əhalinin bu qış enerji çatışmazlığı ilə üzləşdiyi bir vaxtda, Nobel ailəsi ilə bağlı əhvalatlar, Xəzər dənizi sahilində növbəti enerji bumunun səbəb olacağı var-dövlət və yenidən axacaq neft pulları ilə bağlı ümidləri simvollaşdırır.

"Nobel ailəsi Azərbaycan tarixində böyük yerə malikdir, lakin ölkədən kənarda çox az adam bunu bilir" – xarici neft kompaniyalarını, Nobel şirkəti şəhərciyini yenidən bərpa etməyə səsləyən İsveç konsulu cənab Erdal Otuzbir[223] deyib.

Şəhərciyin qalıqları Bakının kənar ərazilərində, müasir neft rezervuarları və anbarlarının kölgəsində hələ də qalmaqdadır. “Nobel Villası” kimi tanınan, daşdan tikilmiş imarət, zibillə örtülmüş ərazidə dağıntıların arasındadır, onun döşəmələri çürümüş, bir vaxtlar əzəmətli görünən divarlarının suvağı isə ovulub tökülmüşdür. Yaxınlıqda, əvvələr ölkənin ən böyük teatrının yerləşdiyi məkanda, 1983-cü il yanğınından sonra binanın yalnız çöl divarları dağıntıya məruz qalmayıb.

İnkişafının çiçəklənmə dövründə bu ərazi rəsmi olaraq “Villa Petrolea” adlanırdı. Neft emalı zavodlarından qalxan ucsuz-bucaqsız his buludlarına görə isə hamı onu “Qara Şəhər” kimi tanıyırdı. Yerli həvəskar tarixçi Fuad Axundov[224] yazır ki, Qara Şəhəri ziyarət edən səyahətçilər bura gəlməyi, tüstü borusunun içinə girməklə müqayisə edirdilər.

Nobel qardaşları Bakıya təsadüfən gəliblər. 1873-ci ildə Robert Nobel – dinamiti ixtira edən və Nobel mükafatının təsisatçısı olan Alfred Nobelin qardaşı – çar ordusu üçün ailənin istehsal etdiyi tüfənglərin qundağını hazırlamaq üçün istifadə olunan qoz ağacı tapmaq məqsədilə Rusiyadan cənuba göndərilmişdi.

O, bunun əvəzinə, Xəzər dənizi sahillərində intişar etməkdə olan neft sənayesi ilə qarşılaşmışdı. Dünya neft xəstəliyinin hələ ilk mərhələlərində idi və neft bazarında Con D. Rokfeller və “Standart Oil” şirkəti dominantlıq edirdi. Cənab Nobel o qədər təsirlənmişdi ki, “qoz ağacı puluna” kiçik bir neft emalı və ağ neft zovodu almışdı.

Kimyaçı Alfred Nobel bu layihəyə şübhə ilə yanaşırdı, lakin Robert, üçüncü qardaş Ludviqi Bakıya gəlməyə və ona kömək etməyə razı sala bilmişdi.

Onlar qazma işləri və mərkəzləşdirilmiş neft emalı zavodları üçün ərazilər icarəyə götürdülər. O zaman, 1879-cu ildə rəs-

mi olaraq təsis edilən "Nobel Qardaşları Neft İstehsalı Şirkəti" Bakıda bizesdə dominantlıq edirdi.

Bakı qısa müddət ərzində Avropa, Çin, Hindistan və İran üçün neft və neft məhsullarının əsas təchizatçısına çevrildi. 1900-cü ilə qədər bu şəhər dünya neftinin təxminən yarısını verirdi, yerdə qalanın böyük hissəsi isə Amerika Birləşmiş Ştatlarından gəlirdi. Xəzər dənizinin sahili boyu ağac əsaslı neft buruqlarının sayı o qədər çox idi ki, onlar Nobellərin meşəsi kimi tanınırdı.

Neft yataqlarından hasil olunan nefti neft emalı zavodlarına daşıyan ilk boru xətti də daxil olmaqla, ailənin texniki bacarığı bir çox yeniliklərin tətbiqinə gətirib çıxarmışdı.

Bakı ilə neft bazarları arasında dəmiryol daşımalarının qiymətləri həddən artıq yüksəldikdə, Nobellər buxar mühərriki ilə işləyən ilk tankeri, metal gövdəli və rituallarında oddan istifadə edən dinin yaradıcısının şərəfinə "Zoroastr" adlandırılan gəmini istismara verdilər. Nəticədə, şirkətin donanmasında 130-dan çox gəmi vardı.

Gəmilər başqa bir böyük Nobel layihəsində – Qara Şəhərin mərkəzində parkın salınmasında də aparıcı rola malik idi. Bakı zəif təbii bitki örtüyünə sahib olan quraq bir yarımadada yerləşir. Cənab Axundova görə, Lüdviq Nobel, 1880-ci illərdə şirkətin İrana neft daşıyan bütün gəmilərinə, geri qayıdarkən münbit torpaq gətirmək göstərişi vermişdi.

Bu torpaq 25 akr[190] ərazidə dənizkənarı parkın salınmasında istifadə edilmişdi. Daha sonra Nobellər avropalı bir botaniki işə götürərək, ona Azərbaycan və dünyanın fərqli yerlərindən bitki və ağaclar gətirməyi tapşırmışdılar. Bir müddət sonra isə geri dönən gəmilərdən, park ərazisini suvarmaq məqsədilə təmiz su gətirmək üçün də istifadə olunurdu. Ailə parkın ərazisində öz malikanəsini, "Villa Nobel"i, işçilər üçün ev, inzibati binalar, xəstəxana və bir böyük teatr inşa etmişdi.

Ailə qeydləri şirkətin necə idarə edilməsi ilə bağlı ara-sıra müəyyən ziddiyətlərin olduğunu göstərir. Heç vaxt Bakıya gəlməyən Alfred, məktublar göndərərək işin daha da səmərəli aparılmasını tələb edirdi və neft gəlirləri Nobelləri dünyanın ən zəngin ailələrindən birinə çevirmişdi.

Onların uğuru rəqibləri, o cümlədən hollandları, britaniyalıları və Fransadan olan Rostşildləri cəlb etmişdi. 1917-ci il bolşevik inqilabı isə xarici şirkətləri fəaliyyəti dayandırmağa məcbur etmiş, Nobellər və başqaları ölkəni tərk etməyə məcbur olmuşdular.

Bakı iri neft təchizatçılarından biri olaraq qalırdı və buradakı neft yataqlarını ələ keçirmək, 1941-ci ildə Sovet İttifaqına hücum edən Hitlerin məqsədlərindən biri idi. II dünya müharibəsindən sonra isə həm istehsal, həm də Qara Şəhərin şöhrəti azalmışdı.

İsveçin fəxri konsulu olan cənab Otuzbir Azərbaycandakı ən nəhəng mobil şirkətlərdən birinin, "Azercell"in icraçı direktorudur. O, öz siyasi və biznes əlaqələrindən istifadə edərək, villanı muzeyə çevirməyə və parkın digər hissələrini bərpa etməyə çalışır.

Prezident Heydər Əliyev[1] və şəhər rəhbərliyi planı bəyənsə də, hökümətin pul ilə bağlı çətinlikləri vardır. Cənab Otuzbir bilir ki, o, Nobel qardaşlarını əvəz edən xarici şirkətlərdən maliyyə dəstəyi almalıdır.

Bir neçə gün öncə "Villa Nobel"in qalıqlarına baxarkən, cənab Otuzbir ehtiyatlı nikbinlik nümayiş etdirərək deyib: "Bu, neft tarixidir, ona görə də şirkətlər onu xatırlamağa maraq göstərməlidirlər".

**Müəllif: Chloe Arnold**
**Tarix: 08.02.2001**
**Mənbə: The Times (İngiltərə)**
**Məqalənin adı: Azeri law sends Cyrillic readers back to ABC**
*www.thetimes.com*

# AZƏRBAYCAN QANUNU KİRİL ƏLİFBASI İLƏ OXUYANLARI YENİDƏN ABC–YƏ QAYTARIR

Azərbaycanda əsaslı dəyişiklik, daha doğrusu "C" hərfi dəyişikliyi baş verir. Dünəndən etibarən Prezident Əliyevin[1] fərmanı ilə yazıda artıq kiril deyil, latın qrafikası istifadə olunmalıdır.

Prezident və onun tərəfdarları bildirirlər ki, dəyişiklik onların rus qonşularının boyunduruğundan qurtararaq Qərb dünyası ilə əlaqələrini möhkəmləndirmək üçün yeni bir yol açacaq. Tənqidçilər deyirlər ki, bu lazımsız sarsıntılara səbəb olacaq və keçmiş sovet reapublikasında savadlılıq səviyyəsi kəskin aşağı düşəcək.

Azərbaycanlıların dəyişiklik etməsi uzun sürmədi. Cənab Əliyev bir ay əvvəl yeni qanun elan edib. O vaxtdan rəsmi sənədlərdə, qəzetlərdə, kitablarda və jurnallarda, reklam lövhələrində əlifbanın dəyişdirilməsi yarışı gedir.

Azərbaycan bir əsrdə üçüncü dəfədir ki öz əlifbasını dəyişir. Azərbaycanlılar illər boyu ərəb qrafikasından istifadə edirdilər, lakin Sovet İttifaqına daxil olduqdqan sonra kiril qrafikasına keçmək məcburiyyətində qalıblar.Qəzet redaktorları son dəyişiklərdən hiddətlənirlər. "Yeni Müsavat" qəzetinin rəhbəri Rauf Arifoğlu[225] deyir ki, əlifbanın dəyişdirilməsindən sonra onun oxucu auditoriyası mütləq azalacaq, "Bu o deməkdir ki, insanlar dünyada baş verənlərdən xəbərdar olmayacaqlar", – o, söyləyib.

Heç də hamı dəyişikliyə qarşı deyil. Gənclər söyləyirlər ki, yeni latın qrafikası Azərbaycanı Qərbə daha da yaxınlaşdıracaq. "Sovet oraq – çəkicindən qurtulduğuma görə şadam" – Bakıda Qərb neft şirkətində işləyən 26 yaşlı Elnarə Sadıqova bildirib. "Biz tezliklə latın əlifbasına öyrəşəcəyik və mən ümüd edirəm ki, onu bir daha dəyişməzlər".

The New York Times

**Müəllif: Douglas Frantz**
**Tarix: 20.02.2001**
**Mənbə: The New York Times (ABŞ)**
**Məqalənin adı: Armenia and Azerbaijan signal progress in talks on enclave**
***www.nytimes.com***

# ERMƏNİSTAN VƏ AZƏRBAYCAN ANKLAVLA BAĞLI DANIŞIQLARDA İRƏLİLƏYİŞƏ İŞARƏ EDİRLƏR

Ermənistan və Azərbaycan arasında yeddi il davam edən problemli atəşkəsdən[105] və dalana dirənən sülh danışıqlarından sonra Dağlıq Qarabağ anklavı[4] ilə bağlı müzakirələrdə müsbət əlamətlər görünür.

Diplomatlar son hadisələrin, hər iki ölkədə ən azı bir milyon qaçqının yaranmasına gətirib çıxaran, Qafqazda və qonşu Türkiyədə sabitliyə təhdid yaradan problemin həlli istiqamətində irəliləyiş olduğunu söyləyiblər.

Keçən ay Ermənistan prezidenti Robert Koçaryanla[114] Azərbaycan Prezidenti Heydər Əliyev[1] Parisdə görüşüblər.[226] Qərb diplomatları bildiriblər ki, gələn ay ərzində prezidentlərin növbəti danışıqlar üçün yenidən görüşəcəkləri gözlənilir.

Onlarla Parisdə görüşən Fransa prezidenti Jak Şirak[227] fevralın 1-də prezident Buşa[228] zəng edərək, onu məlumatlandırıb. Cənab Şirakın mətbuat katibi telefon danışığının baş tutduğunu təsdiqləyib.

Qərb diplomatları cənab Şirak və cənab Buşun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı müzakirə apardıqlarını və Fransa prezidentinin mümkün tənzimləmə ilə bağlı ehtiyatlı nikbinlik ifadə etdiyini bildiriblər. Fransada bələdiyyə seçkiləri yaxınlaşdığı üçün cənab Şirak buradakı 400.000 nəfər etnik erməniyə bir həll yolu təklif etmək istərdi.

ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağ üzrə xüsusi vasitəçisi Keri Kavano[229] telefon danışığı ilə bağlı məlumatı təsdiqləməkdən imtina edib, lakin Fransa, ABŞ və Rusiyanın mümkün həll yolu ilə bağlı intensiv danışıqlarda iştirak etdiyini öz müsahibəsində bildirib.

Hər üç ölkə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının dəstəyi ilə münaqişəni həll etməyə çalışan Minsk Qrupunu[90] formalaşdırır.

Qarşıdakı həftələrdə digər istiqamətlərdə diplomatik fəallığın artması gözlənilir. İsveçin xarici işlər nazirinin, ölkəsinin Avropa İttifaqına sədrliyi çərçivəsində Ermənistana və Azərbaycana səfəri planlaşdırılır. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının vəzifəli şəxsləri gələn həftə Qafqaz regionuna üç günlük səfər planlaşdırırlar.

Yardım təşkilatları da, münaqişənin tənzimlənəcəyi təqdirdə, çoxmilyardlıq regional yardım paketi toplamağa başlayacaqlar. Altı il davam edən döyüşlər nəticəsində bir milyona yaxın qaçqın öz yurd-yuvasından didərgin düşüb və Dağlıq Qarabağın əsas infrastrukturuna ciddi zərər dəyib.

Cənab Əliyev və cənab Koçaryan arasında danışıqların təfərrüatları ciddi şəkildə gizli saxlanılır. Hər iki lider çox məlumat verərsə, onda ölkələrində müxalifətlə üzləşərlər. Diplomatlar hər iki prezidentin münaqişənin istənilən həll yoluna uyğun gələn tam yardım paketi işləyib hazırlamaq istədiklərini bildiriblər.

Cənab Şirakın iştirakı ilə yanaşı, keçən ay Rusiya prezidenti Vladimir Putin[230] Azərbaycana səfər edib və münaqişənin sülh yolu ilə həll edilməsinə Rusiyanın zəmanət verməyə hazır olduğunu cənab Əliyevə söyləyib.

Döyüşlər 1988-ci ildə, anklavdakı etnik ermənilərin Azərbaycandan ayrıldıqlarını və müstəqilliklərini elan etdikdən[63] sonra başlayıb. 1994-cü ildə atəşkəs[105] əldə olunmamışdan əvvəl, Yerevanın dəstəklədiyi separatçı etnik ermənilərin nəzarəti altında olan bu regionda[140] təxminən 35.000 nəfər ölüb.

Dekabrda Azərbaycan və Ermənistan müdafiə nazirləri zorakılığın qarşısını almaq məqsədilə iki ölkə arasında ünsiyyəti yaxşılaşdırmaq barədə razılığa gəlsələr də, sərhəddə vaxtaşırı toqquşmalar olub.

Şənbə günü Türkiyə münaqişənin sülh yolu ilə həllini müzakirə etmək üçün Azərbaycan və Ermənistana yüksək səviyyəli görüş təşkil etməyi təklif edib. Türkiyə Azərbaycanın müttəfiqidir, lakin Ermənistanla diplomatik əlaqələrə malik deyil. Türkiyənin xarici işlər naziri İsmail Cem[231] Qafqazda sabitlik haqqında keçirilən konfransda söyləyib ki, "Hər iki ölkənin və Türkiyənin rəsmi şəxsləri üçtərəfli formatda münaqişənin sülh yolu ilə həllinin tapılmasına ciddi töhfə verə bilərlər".

Konfransda iştirak edən Ermənistan Xarici İşlər Nazirliyinin rəsmisi Samuel Mkrtçyan üçtərəfli görüşün perspektivlərinin yüksək olmadığını bildirib.

**Müəllif: Steve Gutterman**
**Tarix: 04.04.2001**
**Mənbə: The Washington Post (ABŞ)**
**Məqalənin adı: Powell meets leaders of Armenia, Azerbaijan**
*www.washingtonpost.com*

# PAUELL ERMƏNİSTAN VƏ AZƏRBAYCAN LİDERLƏRİ İLƏ GÖRÜŞÜB

Ki Uest. April 3 – Dövlət katibi Kolin Pauell[232] bu gün Ermənistan və Azərbaycan liderləri ilə görüşərək, onları dağıdıcı müharibəyə səbəb olan və regionda gələcək münaqişə təhlükəsi yaradan mübahisəni həll etmək üçün "qarşılıqlı kompromisə" getməyə çağırıb.

Pauell, 1988-ci ildə Azərbaycandan ayrılan,[63] etnik ermənilərin yaşadığı dağ anklavı[4] olan Dağlıq Qarabağda altı illik müharibə nəticəsində 15 min nəfərdən çox insanın ölümünə və bir milyon nəfər insanın ev-eşiyindən didərgin düşməsinə səbəb olan döyüşlərin sülh yolu ilə nizamlanmasına dair dörd günlük danışıqlara başlayıb.

Pauellin sözlərinə görə, atəşkəsdən[105] 7 il keçsə də, sazişin bağlanmaması Ermənistan və Azərbaycanda iqtisadi inkişafa və siyasi sabitliyə əngəl törədir.

"Avropa ilə Asiya arasında kəsişmə nöqtəsi olan bu regionda sülh və sabitlik beynəlxalq ictimaiyyətin və dünyada

sülhün maraq dairəsindədir". Pauell bura gəldikdən və Azərbaycan Prezidenti Heydər Əliyev[1] və Ermənistan rəhbəri Robert Koçaryanla[114] ayrı-ayrılıqda görüşlər keçirdikdən sonra bildirib.

Son iki ildə iki prezident 16 dəfə görüşüb, lakin Dağlıq Qarabağla bağlı qətnamənin qəbuluna nail ola bilməyiblər. 1994-cü ildə əldə olunan atəşkəs nəticəsində anklav və ətraf ərazilərin bir hissəsi özünün suveren dövlət olduğunu iddia edən etnik ermənilərin[84] əlinə keçib.

The New York Times

**Müəllif: Jane Perlez**
**Tarix: 04.04.2001**
**Mənbə: New York Times (ABŞ)**
**Məqalənin adı: Powell begins new talks with leaders of Caucasus**
*www.nytimes.com*

# PAUELL QAFQAZ LİDERLƏRİ İLƏ YENİ DANIŞIQLARA BAŞLAYIR

Dövlət katibi Kolin L.Pauell[232] bu gün burada, Azərbaycan və Ermənistan arasında uzun müddətdir davam edən münaqişə ilə bağlı sülh danışıqlarını açıb və ümid edib ki, günəşin hər tərəfə istilik yaydığı bu istirahət zonası və Amerikanın ən mühüm diplomatının iştirakı iki ölkə prezidentlərini məsələnin həllinə sövq edəcək. Baş katib Pauellin iki keçmiş sovet qurumu arasında danışıqlarda birbaşa iştirakı ABŞ-nin Qafqazın neftlə zəngin regionunda sabitliyi təşviq etmək üçün mübahisənin həllini görmək istədiyinə bir işarə idi. Danışıqlar Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının himayəsi altında davam edib. Münaqişə Azərbaycan torpağı olan, lakin Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ anklavı[4] uğrundadır.

Münaqişənin həlli həm də Amerikanın mühüm müttəfiqi və Azərbaycanın himayədarı olan Türkiyənin Ermənistanla normal münasibətləri bərpa etməsinə imkan verən ilk addım

olacaq. General Pauell burada qaldığı dörd saatdan az müddətdə Ermənistan rəhbəri Robert Koçaryan[114] və Azərbaycan Prezidenti Heydər Əliyevlə[1] ayrı-ayrılıqda görüşüb. Daha sonra o, Trumenin Kiçik Ağ Evi kimi tanınan ağ rəngli konfrans mərkəzində rəsmi plenar iclasa başlamaq üçün onlara qoşulub. Söhbət Dağlıq Qarabağın siyasi statusu və 1994-cü ildə başa çatan altı illik döyüşlər zamanı anklav və ətraf rayonlardan qovulmuş təxminən bir milyon nəfər qaçqının gələcəyindən gedib. General Pauell deyib ki, dörd gün davam etməli olan danışıqların məqsədi, keçən ay Parisdə iki liderin "müəyyən etdiyi ortaq mövqeni inkişaf etdirmək" istiqamətində irəliləyişə nail olmaqdan ibarətdir. O, danışıqların "ilk və son görüş " olmayacağını, ancaq irəliləyişə ümidin az olduğunu deyib. General Pauell deyib ki, Qafqaz üçün sülhün əldə edilməsi cox vacibdir. Amerika rəsmiləri vurğulayırlar ki, nə qədər ki, Rusiya açıq-aşkar xristian Ermənistanla, Türkiyə isə müsəlman Azərbaycanla müttəfiqdir, döyüşlərin yenidən başlaması böyük uğursuzluq olardı. 1994-cü ildə Ermənistan və Azərbaycan arasında atəşkəs[105] haqqında danışıqlar aparılıb və sülhməramlıların olmamasına baxmayaraq, ona az-çox əməl olunur. Ancaq rəsmi sülh razılaşmasının olmaması və iki ölkə arasında olan yüksək gərginlik həll yolunun tapılmasına beynəlxalq maraq yaradıb. Azərbaycan lideri, Sovet İttifaqı Siyasi Bürosunun keçmiş üzvü cənab Əliyev açılış nitqində deyib ki, beynəlxalq danışıqların iştirakçıları həddən artıq qətiyyətsizdirlər. O, ABŞ, Fransa və Rusiyadan olan və Avropa təhlükəsizlik qrupunun rəhbərliyi altında işləyən nümayəndələri, "Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan 100 min nəfər ermənini" razı salmaq üçün beynəlxalq hüququn əsas normalarına məhəl qoymamaqda ittiham edib. Bundan

başqa, onun sözlərinə görə, danışıqların iştirakçıları "zəruri təsiri göstərmək" əvəzinə "vasitəçiliklə" daha çox məşğul olublar. Diplomatların sözlərinə görə, son 15 görüşdə hər iki prezident qətnamənin əsas elementlərinə toxunsalar da, tənzimləməyə yaxınlaşa bilməyiblər. 78 yaşı olan və oğlu İlhamı[2] varis kimi hazırlayan cənab Əliyev Dağlıq Qarabağa yüksək səlahiyyətlər vəd etsə də, formal suverenliyi saxlamaqda israrlıdır. Ermənistan isə öz növbəsində, israr edir ki, rəsmi status müəyyən edilənə qədər anklav öz silahlı qüvvələrini saxlasın, Azərbaycanın tamamilə dağıdılmış və boş qalmış altı rayonu onun qoşunlarının əlində qalsın. Cənab Koçaryan Dağlıq Qarabağın keçmiş baş naziridir.[109] Diplomatların fikrincə, bu fakt onun Azərbaycana ciddi güzəştlər təklif etməsini çətinləşdirir. Döyüşlər 1988-ci ildə, anklavda yaşayan 180 min etnik ermənin vətənlərini Ermənistana birləşdirməyi tələb etməsindən sonra başlayıb. O vaxtdan anklav ya tam müstəqilliyə, ya da Ermənistanla birləşməyə iddia edir.

Diplomatların dediyinə görə, danışıqları davam etdirən cənab Koçaryan həmişə bilir ki, onun sələfi Lev Ter-Petrosyan[61] 1998-ci ildə, Azərbaycanın mərhələli sülh təklifinin qəbul edilməsinə qarşı çıxan sərt xətt tərəfdarları tərəfindən devrilib. Həmin təklifə əsasən, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından geri çəkilməli və qaçqınlar geri qayıda bilməli idilər. Parisdəki danışıqların son mərhələsindən sonra cənab Koçaryan bildirib ki, cənab Əliyevlə danışıqlar dalana dirənib və ümid edir ki, buradakı görüş səyləri irəli apara bilər. General Pauell fikir ayrılığını aradan qaldırmaq üçün Dövlət Departamentinin hər hansı yeni ideyasını açıqlamayıb.

Daily Oil Bulletin

**Tarix: 20.04.2001**
**Mənbə: The Daily Oil (Kanada)**
**Məqalənin adı: Azeris plan energy ministry**
***www.dailyoilbulletin.com***

# AZƏRBAYCANIN ENERGETİKA NAZİRLİYİ PLANI

Qəzetlərin məlumatına görə, cümə axşamı Azərbaycan Prezidenti Heydər Əliyev[1] Yanacaq və Energetika Nazirliyinin yaradılması haqqında sərəncam imzalayıb. Əliyev nəhəng dövlət neft şirkəti SOCAR-ın nəzdindəki tikinti institutunun keçmiş rəhbəri Məcid Kərimovu[233] Yanacaq və Energetika naziri təyin edib. Bu vaxta qədər Azərbaycanın sürətlə inkişaf edən Xəzər neft və qaz sənayesini, 1994-cü ildən bəri xarici müqavilələr əsasında 50 milyard dollar cəlb edən SOCAR tənzimləyib. Xəzər dənizinin Azərbaycan sektorunda fəaliyyət göstərən iri Qərb neft şirkətinin rəsmisi bu addımı alqışlayıb. "Biz bunun müsbət addım olduğunu düşünürük. Nazirlik qanunvericilik elementini SOCAR-dan ala bilər, bu arzuolunandır", – deyə rəsmi bildirib. "Uzunmüddətli perspektivdə biz SOCAR-ın biznes tərəfdaşı və tənzimləyici olmasını yaxşı ideya hesab etmirdik".

IFLR

**Tarix: 05.05.2001**
**Mənbə: International Financial Law Review (İngiltərə) (Vol.20, İssue 5)**
**Məqalənin adı: Azerbaijan: electronic fund transfers introduced**
***www.iflr.com***

# BAKI AZƏRBAYCAN: ELEKTRON PUL KÖÇÜRMƏLƏRİ TƏQDİM EDİLDİ

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin qüvvəyə minməsindən əvvəl kağız əsaslı Azərbaycan ödəniş sistemi, banklararası köçürmələrin ləngliyinə və mürəkkəbliyinə səbəb olan əsas amil idi. Ölkədə kommersiya bank sistemi yaradılandan bəri elektron bank xidmətlərinə tələbat durmadan artmışdır. Bu tələb ilk dəfə olaraq, Azərbaycanda elektron bankçılıq və elektron imzaya icazə verən yeni Mülki Məcəllə qəbul edilən zaman tanındı. Bu ilk qanunvericilik addımı, əvvəllər avtomatlaşdırılmış bankomatların tətbiqi ilə məhdudlaşan elektron bankçılıq üçün zəmin yaratdı. Xoşbəxtlikdən, Azərbaycan Milli Bankı (AMB) bu yeni qanunvericilik bazasından Azərbaycanın bank sektorunda innovativ texnologiyaları tətbiq etmək məqsədilə istifadə etmişdir.

AMB-nin ilk ictimai addımı 2001-ci il fevralın 2-də, Azərbaycanda Bank müəssisələri tərəfindən banklararası köçürmələrin aparılması Qaydalarını qəbul etmək oldu. Qaydalara əsasən,

bank hesablarının sahibləri öz banklarına kağız və ya elektron qaydada ödəniş təlimatı vermək hüququna malikdirlər. Elektron pul köçürmələri üçün AMB hazırda müəyyən etmişdir:

– Banklararası Milli Hesablaşmalar Sistemi (AZIPS – ilk növbədə Dünya Bankı tərəfindən maliyyələşdirilən 3 milyon dollarlıq layihə);

– AZIPS Milli Hesablaşmalar Mərkəzi.

Artıq Azərbaycanda istənilən kommersiya bankı, əgər AZIPS-in üzvüdürsə, müştərilərə elektron bank xidmətləri təklif edə bilər. Azərbaycanda AZIPS əsaslı elektron ödənişlər SWIFT (Society of Worldwide Inter-In-Financial Telecommunication) sistemi və AZIPS Milli Hesablaşmalar Mərkəzi vasitəsilə həyata keçirilir. Bu mərkəz elektron banklararası pul köçürmələrinin məbləğini emitent bankın müxbir hesabının debitinə və benefisiar bankın hesabının kreditinə yazmaqla elektron banklararası vəsait köçürmələrini həyata keçirir.

Bank hesabı sahibinin emitent banka verdiyi ödəniş təlimatlarının elektron və ya kağız üzərində olması ilə bağlı qaydalar müəyyən qədər aydın deyil, çünki onlar ödəniş təlimatlarının iki nüsxədə verilməsini tələb edir. Bununla belə, bu qeyrimüəyyənlik elektron metodun xeyrinə şərh edilməlidir, çünki həm Mülki Məcəllə, həm də qaydalar elektron imzaya açıq şəkildə icazə verir. Xüsusən də, iştirakçı banklar aşağıdakılardan istifadə etməlidirlər:

* elektron imza;

* ödəniş təlimatlarının məxfiliyini təmin etmək üçün kriptoqrafiya və digər kriptoqrafik vasitələr.

Elektron ödəniş təlimatları AZIPS Milli Hesablaşmalar Mərkəzində rəsmiləşdirildikdən sonra SWIFT vasitəsilə benefisiar banka elektron şəkildə göndərilir. Bundan sonra benefisiar

bank emitent bankın ödəniş təlimatının iki çap variantını hazırlayır. Bu halda, çap olunmuş vərəqələrdən biri benefisiar bankda qalır, digəri isə benefisiar bankın nümayəndəsi tərəfindən imzalandıqdan və möhürlə təsdiq edildikdən sonra fond benefisiarına ötürülür.

Elektron ödənişlər AZIPS vasitəsilə səhər saat 10:00-dan 16:30-dək həyata keçirilir. Əməliyyat gününün sonunda emitent bankın vəsaiti elektron ödənişlərin aparılması üçün kifayət etmədikdə, emitent banka öz müxbir hesabına bu cür elektron ödənişlərin aparılması üçün zəruri olan məbləği mədaxil etmək üçün əlavə 30 dəqiqə vaxt verilir. Emitent bankın müxbir hesabına kreditin verilməsi istənilən üsulla həyata keçirilə bilər, o cümlədən:

– banklararası kreditlər;

– Milli Bankdan lombard kreditləri (overdraftlar).

AZIPS-in elektron pul köçürmələri Azərbaycanda bank əməliyyatlarını sürətləndirəcək. Hazırda Azərbaycanda kommersiya bankları hər gün ümumilikdə beş minə yaxın bank əməliyyatı həyata keçirir. AZIPS bu imkanları gündə on beş min əməliyyata qədər artırır.

AZIPS xidmətlərinin yaxın vaxtlarda Azərbaycan Milli Xəzinədarlığı, Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və Bakı Fond Birjasında istifadəyə veriləcəyi gözlənilir.

Hazırda Azərbaycan qanunvericiliyi Azərbaycanda elektron ödənişlərə icazə verdiyi üçün elektron əsaslı digər xidmət növlərinə tələbatın kəskin şəkildə artacağı gözlənilir. Nisbətən yeni olsa da, bir çox kommersiya bankları artıq müştərilərinə PC-bankçılıq, telefon bankçılıq və internet bankçılıq xidmətləri təklif etməyə hazırdır. Milli Məclisdə baxılan "Elektron ticarət haqqında" qanun layihəsinin də Azərbaycanda elektron bank xidmətlərinin gələcək inkişafına kömək edəcəyi gözlənilir.

The New York Times

**Müəllif: Michael Wines**
**Tarix: 27.05.2001**
**Mənbə: New York Times (ABŞ)**
**Məqalənin adı: Trying to tell a truce from a war; casualties mount in the long battle of Armenia and Azerbaijan**
*www.nytimes.com*

# MÜHARİBƏDƏN ATƏŞKƏS DANIŞIQLARINA KEÇMƏYƏ ÇALIŞILIR; ERMƏNİSTAN VƏ AZƏRBAYCAN ARASINDA UZUN SÜRƏN DÖYÜŞDƏ İTKİLƏR ARTIR

Azərbaycanla Ermənistan arasında uzun müddətdir davam edən müharibədə ərini və sahib olduğu hər şeyini itirən Anya Hüseynova sadəcə bir arzusunun olduğunu bildirir: öz şəhərindən 30 mil aralıda yaşadığı və xəstəliyin yayıldığı qaçqın düşərgəsini tərk etmək və 1993-cü ildən bəri Ermənistanın nəzarəti altında olan bu şəhərdəki evinə qayıtmaq.

"Yoldaşımın tək arzusu vətəni idi" – deyə o fəryad edir, gözyaşları üzündən süzülürdü. "Şəhərimiz Ağdam[5] olmadan yaşaya bilmərik".

O, Ağdamı da itirdiyinin fərqində deyildi. Təxminən on il əvvəl, xanım Hüseynova kimi, təxminən 50.000 nəfər azərbaycanlı qaçdıqdan sonra, bir-birinin ardınca baş verən talan dalğası bu şəhəri təməlinə qədər dağıtdı. Bu gün Ağdam alaq otla-

rı ilə örtülən əyilmiş metal və uçmuş divarların dağıntılarından ibarət təsiredici xarabalığa çevrilmişdir. Qraffiti ilə örtülmüş mərkəzi məscid təxminən otuz inəyin məskəninə çevrilib. Bir dənə də olsun dağılmamış bina qalmayıb.

"Bura planetin ən böyük tərk edilmiş məskəninə çevrilib" – Amerikanın münaqişə üzrə xüsusi nümayəndəsi Kerri Kavano[229] öz mikroavtobusu ilə Ağdam boyunca hərəkət edərkən bildirib.

Xanım Hüseynova kimi, azərbaycanlı qaçqınlar "şəhərin dağıdıldığını başa düşürlər" – o, deyib. "Lakin nə qədər dağıdılmasına dair bir fikirləri olduğunu düşünmürəm. Geriyə qayıtmaq və bu mənzərəni görmək onlar üçün çox çətin olacaq".

Dağıntılar 1988-ci ildən Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ, keçən əsrdə əhalisinin əksəriyyəti ermənilərdən ibarət olan, lakin rəqib Azərbaycanın daxilində yerləşən, möhtəşəm gözəlliyə malik dağ anklavı[4] uğrunda aparılan müharibənin nəticəsidir.

Altı il davam edən şiddətli müharibə və daha sonra yeddi il ərzində çətinliklə qorunan atəşkəs[105] min il və daha çox keçmişə gedən düşmənçiliyi daha da dərinləşdirib.

Hər iki dövlətin başçısı sülhün torpaqların bölüşdürülməsi və ya ondan imtina olunması kimi, zəiflik olaraq qiymətləndirilə biləcək güzəşt və kompromislər tələb etdiyini bildirməkdən çəkinirlər. ABŞ, Rusiya və Fransanın vasitəçiliyi ilə aparılan danışıqlar müharibəyə tezliklə son qoymaq üçün razılığın əsas şərtlərini müəyyənləşdirib, lakin bu şərtlərin mahiyyəti sirr olaraq qalır və hər iki tərəfdəki insanlar istənilən yekun razılaşmanın gətirəcəyi çətinliklər haqqında az-çox təsəvvürə malikdir.

Sülhlə bağlı hər hansı bir milli konsensus olmadığı halda, hər iki tərəf ən azı 30.000 insanın ölümünə və bəlkə də bir mil-

yondan çox insanın qaçqın düşməsinə səbəb olan müharibə qədər dağıdıcı atəşkəsə dözməkdə davam edir.

Dağlıq Qarabağ bir yandan İsveçrəni, digər yandan isə Toskananı təqlid edən mənzərəsi ilə min futluq qayalıqlar, meşələr, vulkanlar diyarıdır. 1980-ci illərin sonlarında Sovet İttifaqı zəifləyənə qədər sovet hakimiyyəti etnik ermənilərin millətçi hisslərini güclü nəzarət altında saxlayırdı. Ardınca qətliam başladı. Azərbaycanın paytaxtı Bakıda azərbaycanlılar çoxlu erməni qətlə yetirdi, onların qəbiristanlığını təhqir etdi, talanlar zamanı minlərlə insanı evlərindən qovdular.[234]

1991-ci ilin sonlarında ermənilərin, Azərbaycanın razılığı olmadan müstəqil elan etdikləri Dağlıq Qarabağda minlərlə azərbaycanlı və onların məzarlıqları oxşar aqibətlə üzləşib. Sonda Azərbaycana axışan erməni qoşunları Dağlıq Qarabağı ələ keçirib, Azərbaycan qüvvələrini darmadağın edib və son təhqir əlaməti olaraq, 1994-cü ildə atəşkəs əldə edilməzdən öncə, Azərbaycan ərazisinin bir hissəsini ələ keçiriblər.

Azərbaycan Ermənistanın işğal etdiyi ərazilərdən gələn yüz minlərlə qaçqının ağırlığı altında sarsılaraq çaşqınlıq içində qalıb. Bir tərəfdən Azərbaycanın, digər tərəfdən isə düşmən Türkiyənin blokadaya aldığı Ermənistan[58] daha ağır yoxsulluğa düçar olub. 1990-cı ildən bəri 3,5 milyon vətəndaşın ən azı 40 faizi ölkəni tərk edib.

Yeddi illik atəşkəsdən sonra Dağlıq Qarabağın və onun ətrafındakı Azərbaycan kəndlərinin, demək olar ki, hər birində hələ də dərin yaralar var: döyüş nəticəsində damları sökülən binalar, tövlələr və anbarlar səngərlərə çevrilib.

Dağlıq Qarabağın paytaxtı – Stepanakertdən[14] başını qaldırsan, inanılmaz dərəcədə yüksək hündürlükdə Şuşa[164] şəhərinə mənzərə açılır, Azərbaycan qoşunları onun yüksəkliklərin-

dən, şəhərdəki ipək fabrikini, doğum evini və çoxlu ev dağıdan mərmilər atıblar.

Ermənilər sonda Şuşanı tutdular, azərbaycanlıları oradan qovdular və müharibə nəticəsində onların dağılmış mənzillərinə Bakıdan qovulmuş təxminən 5000 erməni qaçqını yerləşdirdilər. Getməyə başqa yerləri olmadığı üçün onlar bu gün orada yaşayırlar. Onlar hökumətin verdiyi şəkər, yağ və öz şəxsi tərəvəzlərindən əldə etdikləri məhsulla dolanırlar, lakin anklavda zəngin tarixə malik olan azərbaycanlıların, dinc tənzimləmə çərçivəsində geri qayıtmalarına imkan vermək fikrləri də yoxdur.

Bahatur Xaçaturyan 55 il Bakıda yaşadıqdan sonra, həyat yoldaşı və dörd uşağı ilə birlikdə bura qaçan 70 yaşlı ermənidir. Onun dediyinə görə, azərbaycanlılar ona şəhəri tərk etməyəcəyi təqdirdə onu öldürəcəklərini deyiblər. Müharibədə ərini və atasını itirən 62 yaşlı iqtisadçı, azərbaycanlıların geri qayıtmaq ehtimalını ağlına belə gətirə bilmir. "Əgər onlar burada yaşasaydılar", o, ciddi şəkildə dedi, "onda biz harada yaşayardıq?"

Bu belə də davam edir. Ermənilərin azərbaycanlılara etdikləri hər təhqirə görə, ermənilərin unutmayacağı bir azərbaycanlı silləsi var. Ermənilər tərəfindən Şuşadan qovulan, həyat yoldaşını, əmisini və qardaşı oğlunu müharibədə itirən, Azərbaycanın Ağcabədi şəhərində qaçqın düşərgəsində yaşamağa məhkum olan Tamara Apasova kimi, hər bir azərbaycanlıya qarşı, 1988-ci ildə azərbaycanlılar tərəfindən Bakıdan qovulan və ərini itirən 64 yaşlı Jena Aqababyan kimi bir erməni var.

Xanım Aqababyan son 12 ilini, qızı Sveta ilə birlikdə Ermənistanın Spitak şəhərində metal yük konteynerində yaşayıb. "Budur, sənədlərimizdir" – o, pasportu və müxtəlif sənədləri çarəsizlik içində yelləyərək dedi: "Bizə kömək edin, xahiş edirəm, bizə kömək edin. Hər şeyimiz arxada qaldı".

Əksəriyyət müharibənin bitməsini istəyir. Sülh danışıqlarında amerikalı təmsilçi cənab Kavanoya görə, problem ondadır ki, onların az hissəsi düşmənin də qəbul edə biləcəyi sülhü istəyir. "İnsanların sülh üçün güzəştləri qəbul etməyə tam hazır olduqlarını düşünmürəm" – o, bildirib. "Hesab edirəm ki, onlar öz şərtləri əsasında sülh əldə edəcəklərini düşünürlər".

ABŞ, Rusiya və Fransa sülhə nail olmaq üçün Azərbaycan Prezidenti Heydər Əliyevlə[1] Ermənistan prezidenti Robert Koçaryan[114] arasında vasitəçilik etməyə çalışırlar. Aprel ayında Florida ştatının Ki Uest şəhərində iki tərəf arasında baş tutan görüşdə razılaşmanın hazırlıq mərhələsində olduğuna dair ilk konkret göstəricilər özünü büruzə verdi. Hər iki liderin öz xalqlarından öndə olduğu görünür. Sadəcə kompromis işarəsi belə Azərbaycanda siyasi müxalifətin bəzi nümayəndələrinin etirazına səbəb olub və hər iki prezident razılaşma ilə bağlı əvvəlki istəklərindən bir qədər geri çəkiliblər.

Son aylarda, danışıqlarda iştirak edən tərəflər razılaşmanın Ermənistan və Azərbaycana xarici yardım və sərmayə axınını təmin edəcəyinin mümkünlüyünü nəzərə alaraq, sülh danışıqlarını sürətləndiriblər.

"Burada çox şey olub. Son 2 ildə hər iki lider arasında əvvəllər heç vaxt olmayan dialoq olub" – deyə cənab Kavano bildirib. "Onlar dialoq nəticəsində bir nəticəyə gələ bilərlərmi? Bilmirəm".

"France-Presse" agentliyinin məlumatına görə, şənbə günü Ermənistan Xarici İşlər Nazirliyi iyunda iki prezident arasında Cenevrədə keçirilməsi planlaşdırılan zirvə görüşünün qeyri-müəyyən müddətə təxirə salındığını bildirib. Mətbuat katibi görüşün danışıqlarda irəliləyiş şansının olmadığını düşünən tərəflərin təklifi ilə təxirə salındığını söyləyib.

On il əvvəl Ağdamdan qaçan bəzi azərbaycanlılar keçmiş həyatlarına qayıtmaq fikrindən vaz keçiblər və Bakıda iş tapmaq üçün qaçqın düşərgələrini tərk ediblər. Onların əksəriyyəti qadınları Anya Hüseynovanın və digər 3200 evsiz azərbaycanlının yaşadığı Ağcabədi düşərgəsinin birotaqlı daş daxmalarında qoyub gedən kişilərdir.

Düşərgədə işıq var, amma su yoxdur. Xanım Hüseynovanın 22 yaşlı qızı Pərvanə düşərgədə malyariya xəstəliyinin yayıldığını, dərman çatışmazlığının olduğunu və tibb işçilərinin də bunu təsdiqləyini bildirir.

Xeyriyyə təşkilatları qida və tibbi yardımdan imtina edərək, iş təlimlərini önə çəkir, ya da düşərgələri tamamilə tərk edirlər. Yaxınlıqdakı digər düşərgələrdə vəziyyətləri buna oxşar və ya bundan da pis olan daha 15.000 qaçqın var. Bununla belə, Azərbaycanın qaçqın düşərgələrinin ləğv olunması Ermənistanla müharibənin bitdiyini və Azərbaycanın məğlub olduğunu qəbul etmək demək olardı. Qaçqınların az bir hissəsi bununla razılaşmağa hazırdır.

"Biz pis heç nə etməmişik" - Ağdam yaxınlığındakı kənddən olan keçəl, girdəsifət, 40 yaşlı Həsən Rəhman bildirib. "Əvvəlki kimi yaşamağa hazırıq. Biz öz vətənimizi istəyirik. Əks təqdirdə, torpaqlarımızı geri qaytarmaq üçün müharibə aparmağa hazırıq".

Pərvanə Hüseynovadan, bir neçə mil qərbdə səngərlərdəki ermənilərə münasibətini soruşduqda o, sərt cavab verib. "Biz onlara nifrət edirik"- deyib.

The Moscow Times
30 YEARS
INDEPENDENT NEWS FROM RUSSIA

**Müəllif: Sofiya Kudenhuv Veynberq**
**Tarix: 01.06.2001**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: Love story revives spirit of Old Baku**
***www.themoscowtimes.com***

# SEVGİ HEKAYƏSİ KÖHNƏ BAKININ RUHUNU CANLANDIRIR

Bakının köhnə içəri şəhərinin kənarında, sadə daş binaları, geniş həyətləri və tutqun interyerləri ilə Şirvan şahlarının ecazkar sarayı Azərbaycan paytaxtının ən sakitləşdirici yerlərindən biridir. Amma bu ciddi sakitlik aldadıcıdır? Saray, döşəməsində istifadə olunmayan fəvvarəyə bənzər sirli yarıqlar olan divanxana və ya məhkəmə ilə tamamlanır. Əfsanədə deyilir ki, yerin altında dayanan cinayətkarın yalnız başı üzdə olurdu. Boynu vurulan cinayətkarın başı onun yaxın qohumlarına verilir, bədəni isə, bir-biri ilə birləşən kanallar şəbəkəsindən keçərək Xəzər dənizinə axıdılırdı.

Qurban Səidin "Əli və Nino" əsəri Şirvan şahının uydurma varisi, inqilabdan əvvəlki Bakıda böyüyən fars aristokratı Əli Xan Şirvanşirin hekayəsindən bəhs edir. Əcdadlarının sarayı kimi, onun dünyası da sülh və zorakılığın yanaşı durduğu bir dünyadır və ikinci çox vaxt şərdən daha zəruri hesab olu-

nur: “Əsrlər boyu şəhərimizin xiyabanlarında çoxlu qan axıb. Bu qan bizi güclü və cəsur edib”.

Mən ilk dəfə “Əli və Nino” romanını Xəzər dənizi ətrafına uzun sürən səyahətimin əvvəlində oxudum və bu, hər hansı bələdçi kitabdan daha yaxşı idi. Bu, sevginin qürurla, Şərqin Qərblə, meşənin səhra ilə, görünənin görünməyən ilə yarışdığı bir kitabdır. Qafqazın ayrılmaz hissəsi olan bu münaqişələrin hamısı Əli və Ninonun həyatına gözəl şəkildə hörülmüşdür.

Romanın əvvəlində, Risiya İmperator Humanitar Liseyində oxuyan 13 yaşlı azərbaycanlı tələbə Əli, müəllimlərindən fərqli olaraq, onun gözəl şəhərinin Asiyada olduğuna və belə də qalacağına əmindir. Buranın, Əlinin əmisinin ona dediyi kimi, “qadınların, hətta kayzer və kralların qadınlarının belə saraylarda çılpaq gəzdiyi və bunun heç kimdə ikrah oyatmadığı”. Avropanın vəhşi adət-ənənələri və kafirlərlə mümkün qədər az əlaqəsi olmalıdır.

Bir məsələ isə Əlinin vətənpərvərliyini çətinləşdirir. O, “bıçaq-çəngəllə yemək yeyən, gözləri gülən və zərif ipək corab geyinən xristian” Nino Kipianini sevir. Nino gürcü şahzadəsidir, onun üçün Asiya şəhərin hüdudlarından çox uzaqlarda başlayır. O, Əliyə “Allaha şükür ki, Avropadayıq” deyir. “Əgər biz Asiyada olsaydıq, əvvəlki əsrlərdə olduğu kimi, mənə çadra geyindirərdilər və sən məni görə bilməzdin”.

Əli böyüdükcə Avropa onun sevimli şəhərinin divarlarına və onun həyat tərzinə daha da yaxınlaşır. Birinci Dünya Müharibəsi başlayır, onun dostları döyüşə atılır, Əli isə müqavimət göstərir. O, asiyalıdır və müharibə isə Avropada gedir. Bununla belə, o, hiss edir ki, vətəni və onun bütün adət-ənənələri təhlükəsizlikdə deyil. Görünməyən düşmən yaxınlaşır və Əli bilir ki, onunla mübarizə aparmaq üçün o, Bakıda qalmalıdır. Sonrakı

aylarda onun uzaqgörənliyi faciəli nəticələrlə gerçəkləşir. Bakı nisbi sülh dövründə də transformasiyaya uğrayan şəhərdir, o, Ninonu özü ilə İrana aparanda qızın hiss etdiyi kimi, Əli də qərbsayağı evində britaniyalılar üçün təşkil olunan ziyafətdə özünü artıq hiss edir.

Əli və Ninonu Qafqaza olan sevgi birləşirdirir və onlar özlərini, Tehranın hərəmxanalarından, Parisin bal mərasimlərindən uzaq olan Dağıstanın kiçik kəndində çox xoşbəxt hiss edirlər. Onların identikliyi, hər birini bölgəyə gələn və öz təsir toxumunu səpən fərqli mədəniyyətlərin formalaşdırdığı minlərlə təbəqədən ibarətdir. Zərdüştilikdən tutmuş almanlara qədər hər biri, nə Şərqə, nə də Qərbə aid olmayan bir keyfiyyət formalaşdırmağa kömək edib. Avropa və Asiya haqqında bütün deyilənlərə baxmayaraq, Əli və Ninonu birləşdirən, onların sevgisini bəsləyən məhz bu keyfiyyətdir. Bu, həm də sovet nəzarətinə və sonuncu neft bumu ilə gələn qərbləşməyə tab gətirən keyfiyyətdir. Şərqlə Qərb arasındakı gərginlik, Rusiyanın təsirinə qarşı mübarizə və Qurban Səidin köhnə Bakı haqqında verdiyi bir çox təsvirlər kitab ilk dəfə çıxanda tam doğru olmaya bilərdi. Əlinin vətənpərvərlik haqqındakı fikirləri və Qarabağla bağlı çox şişirdilmiş "tarixi" hekayələri dünən yazıla bilərdi.

"Əli və Nino" alman dilində yazılmış və ilk dəfə 1937-ci ildə nəşr edilmişdir. O, 1970-ci illərdə ingilis dilinə tərcümə edilmiş və geniş yayılmış, 1999-cu ildə və keçən il bərk cilddə yenidən nəşr edilmişdir. Potensial olaraq qazanclı müəllif hüquqları məsələsi gündəlikdə olduğundan, kitabın sirli müəllifi məsələsi yenidən araşdırılıb.

Qurban Səidin şəxsiyyəti uzun müddətdir müəmma olaraq qalır. Bu yaxınlara qədər ümumi qəbul olunmuş fikri, Azərbaycanda ilk neft bumu və müəllifin İstanbula səyahətlərindən

bəhs edən "Şərqdə qan və neft" kitabının giriş hissəsində tapmaq olardı. Kitabın girişində iddia edilir ki, kitabın müəllifi, 1930-cu illərin əvvəllərində Vyanaya köçməzdən əvvəl iudaizmi qəbul edən və adını Lev Nussimbaum olaraq dəyişdirən (çox qəribə seçim) və Qurban Səid təxəllüsü ilə "Əli və Nino" əsərini yazan, Bakı əsilli müsəlman Əsəd Bəydir. 1938-ci ildə bizə dedilər ki, o, İtaliyaya qaçıb və orada özünü bıçaqlayıb və sonra ölüb.

"Əli və Nino" əsərinin ən son nəşrində, son sözdə başqa bir versiya təqdim olunur: Nussimbaum kimi anadan olan Nussimbaum kiçik uşaq ikən Bakını tərk edib, sonra İslamı qəbul edərək, Əsəd Bəy adını götürüb və avstriyalı baronessa Elfrid Erenfels ilə "Qurban Səid" təxəllüsünü paylaşıb. Beləliklə, hekayə iki insanın həyatından Qafqaz tarixinə, Mərkəzi Avropaya qədər da uzanır.

Buna baxmayaraq, nəzəriyyə (Erenfelsin varisləri ilə əlaqəli olan hüquqşünas doktor Haynts Barazon tərəfindən irəli sürülüb) "Əli və Nino" əsərindən köhnə Bakının son qoxusunu alanlar tərəfindən dəhşətli bir xəyanət kimi qəbul olunur. Bu, uzaq uşaqlıq xatirələrinə və bir əcnəbinin təxəyyülünə əsaslanmayıb ki? Bəs, Bakını öz evi hesab edən kimsə bu qədər bitərəf yaza bilərmi? Bəs necə olur ki, müəllif qərbli üçün maraqlı ola biləcək Şərq qəribəliklərini qabardır? "Açıq üz, çılpaq bel, yarıaçıq sinə, nazik ayaqlarda şəffaf corablar – bütün bunlar bir qadının yerinə yetirməli olduğu vədlərdir". Bakıda müsəlman kimi böyüyən bir adam belə düşünə bilər, lakin o, belə davranışın norma olduğunu yazan qərblidən daha çoxunu yaza bilərmi?

Müəllifin əsl kimliyindən asılı olmayaraq, müəmma oxucuya zövq verir. Bu həll olunmayana qədər "Əli və Nino" hekayəsi heç vaxt bitməyəcək.

The Middle East Journal

**Müəllif: Pamela Ann Smiz**
**Tarix: 07.06.2001**
**Mənbə: The Middle East Journal (ABŞ)**
**Məqalənin adı: Azerbaijan sees a window of opportunity**
*www.mei.edu*

# AZƏRBAYCAN İMKANLAR PƏNCƏRƏSİNƏ BAXIR

Azərbaycan Prezidenti Heydər Əliyev[1] 12 ildir davam edən münaqişənin davamlı həllinə dair həlledici danışıqlar aparmaq üçün bu ay Cenevrədə erməni həmkarı Robert Köçəryanla[114] görüşməyə hazırlaşarkən, beynəlxalq investorlar, eləcə də azərbaycanlılar nəticələri səbirsizliklə gözləyirlər. Azərbaycanın Xəzərdəki nəhəng ehtiyatlarının işlənməsi nəticəsində neft və qaz gəlirlərinin əhəmiyyətli dərəcədə artması perspektivi sülh perspektivi ilə birlikdə, keçmiş Sovet İttifaqından müstəqillik əldə etdikdən 10 il sonra rifaha qayıtmağa yol aça bilərdi.

Danışıqlar Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk Qrupuna[90] həmsədrlik edən ABŞ, Fransa və Rusiyanın himayəsi altında keçirilir və iki prezidentin əldə etdiyi razılığın təmin edilməsində mühüm rol oynayacağı gözlənilir. Bu yaxınlarda ABŞ Prezidenti Corc Buş[228] bütün Cənubi Qafqazda vəziyyətin sabitləşməsinə kömək edəcək və bununla da, Xəzərin

karbohidrogen ehtiyatlarının Aralıq dənizi, Avropa və ABŞ-yə dinc yolla ixracına imkan verəcək tənzimləmə prosesinin təşviqi istiqamətində səylərini gücləndirib. Fransa Prezidenti Jak Şirak[227] da razılaşmanın bu ilin sonuna qədər əldə olunacağına ümid etdiyini bildirib, baxmayaraq ki, Bakıda bəzi diplomatik müşahidəçilər bunun daha tez, iyulda dövlət başçılarının Genuyada keçiriləcək beynəlxalq görüşündə baş verə biləcəyini bildirirlər.

Ərazi məsələsində nə isə razılaşdırıla bilər, beynəlxalq səviyyədə maliyyələşdirilən nəhəng yenidənqurma proqramının tamamlanması isə illərlə davam edə bilər.

Prezidentlərin bu il Parisdə və Floridada apardığı əvvəlki müzakirələrin məzmunu açıqlanmasa da, istənilən tənzimləmənin hər iki tərəfdən kompromis tələb edəcəyi getdikcə daha aydın olur. Azərbaycan üçün bu, 1994-cü ildə onun Ermənistanla imzaladığı və Azərbaycan ərazisinin təxminən 20 faizini Ermənistanın işğalı altında saxlayan atəşkəs razılaşmasının,[105] kənd təsərrüfatı sahələrini və həyati əhəmiyyətli digər mineral ehtiyatları əhatə edən torpaqların bir hissəsinin geri qaytarılmasını nəzərdə tutan sazişlə əvəz edilməsi ola bilər.

Bununla belə, danışıqlara yaxın olan diplomatlar güman edirlər ki, Azərbaycanın bir milyon nəfər qaçqın və köçkününün öz evlərinə qayıtmaq ümidləri puç ola bilər. Onlar qeyd edirlər ki, ərazi məsələsinin tənzimlənməsində nəyin razılaşdırılmasına baxmayaraq, işğal olunmuş ərazilərdə şəhər və kəndlərin geniş miqyasda dağıdılması, beynəlxalq səviyyədə maliyyələşdirilən kütləvi yenidənqurma proqramı tələb edir. Mənzillər, məktəblər, xəstəxanalar, yollar, rabitə vasitələri və ticarət obyektləri sıfırdan yenidən qurulmalı olacaq ki, bu da illər tələb edir.

Nəticədə, münaqişənin tezliklə həlli perspektivi Bakıda ümid və narahatlıqla qarşılanır. Bu ilin əvvəlində, mümkün

ərazi güzəştinə verilən ilkin reaksiyalar, Qarabağı və bütün Azərbaycan torpaqlarını geri qaytarmaq üçün müharibənin yenidən başlanmasına çağıran millətçi əhval-ruhiyyənin yayılmasına səbəb olsa da, iqtisadiyyatın acınacaqlı vəziyyəti və potensial itkilər bir çox azərbaycanlını düşünməyə vadar edib. Aydın olan odur ki, Prezident Əliyevin hökuməti, həm yenidənqurma üçün lazım olan xarici və özəl sərmayələrin əhəmiyyətli dərəcədə artımını təmin etmək, həm də, keçən bir neçə ildə azərbaycanlıların əksəriyyətinin sürətlə aşağı düşən həyat səviyyəsini qaldırmaq üçün çoxdan vəd edilən islahatlara başlamaq ilə bağlı getdikcə daha çox təzyiq altında qalacaq.

"Hökumətin kiçik bir fürsət pəncərəsi var" – Bakıdakı yüksək rütbəli qərb diplomatlarından biri deyib. "Nəticədə, razılaşma əldə edildikdən və neft pulları daxil olmağa başlayandan sonra, bir çox vicdansız insan üstünlük əldə edə bilər". Hökumətdə islahatlara yönələn tədbirlər, korrupsiya ilə mübarizə, özəl sektorun təşviqi və müflis olmuş dövlət şirkətlərinin yenidən qurulması və özəlləşdirilməsi xüsusilə təcili olaraq həyata keçirilməlidir, diplomat davam edib.

Diplomatik mənbələr əlavə edirlər ki, hər hansı yekun həllin həm Azərbaycanda, həm də Ermənistanda ümumxalq referendumuna gətirəcəyi ehtimalı hökumət üçün digər ağırlaşdırıcı amildir. Müxalifət partiyalarının insan haqlarına və demokratiyaya riayət edilməməsi ilə bağlı şikayətlərinə tam şəkildə baxılmalıdır, onlar qeyd ediblər. Bu ilin əvvəlində Prezident Heydər Əliyevin millət vəkilləri və bütün fraksiyalardan olan partiya liderlərini təklif irəli sürməyə dəvət etməsi və aşağı səviyyəli bürokratların və bəzi dövlət təşkilatlarının geniş tənqidinə baxmayaraq, bu ehtiyacın hökumətin ən yüksək səviyyələrində tanınması güclü və müsbət əlamət kimi görünür. Sovet

hakimiyyəti dövründən miras qalmış nazirliklərin geniş şəkildə yenidən təşkili ilə nəticələnən son islahatlar silsiləsi də bu qəbildənir. Tənqidçilər bildirirlər ki, səlahiyyətlərin təkrarlanması və bir çox məmurların texniki səriştəsizliyi bir yana, köhnə sistem qanunun aliliyinə və demokratik prosedurlara cavabdeh olmayan virtual strukturların inkişafına təkan verib. Ötən ay, təkrarlanmanın, eləcə də icra zamanı himayədarlığın qarşısını almaq üçün Ticarət, İqtisadiyyat və özəlləşdirmə nazirlikləri birləşdirilib. Yeni Energetika Nazirliyinin yaradılması planlaşdırılır və mühüm sahə olan turizm nazirlik səviyyəsinə qaldırılıb.

Xarici İşlər Nazirliyi təşəbbüsü öz üzərinə götürdü və indi o, ölkənin Avropa İttifaqı, Dünya Bankı və digər yardım agentlikləri kimi ikitərəfli və çoxtərəfli təşkilatlarla, eləcə də digər ölkələrlə bütün əlaqələrində təmsilçiliyə görə məsuliyyət daşıyır, xarici işlər nazirinin müavini, həmçinin Azərbaycanın Böyük Britaniya, İrlandiya, Danimarka, İsveç və Norveçdəki səfiri Mahmud Məmmədquliyev[235] bildirib. O, əlavə edib ki, nazirlik İqtisadiyyat, Ticarət və Nəqliyyat nazirliyi kimi digər nazirliklərlə "dövlət siyasətinin ardıcıl və davamlı olması və Azərbaycanın milli maraqlarının qorunması üçün bütün sahələrdə beynəlxalq əlaqələrimizi koordinasiya edəcək".

İnsan Hüquqları, Demokratikləşmə və Humanitar Məsələlər üzrə yeni departament yaradılıb və hadisələrə daha sürətli reaksiya vermək üçün Təhlükəsizlik Departamenti yenidən təşkil edilib. İşçilərin işə qəbulu ləyaqət, peşəkar keyfiyyət və ingilis dili biliyi əsasında aparılır. "Yeni strukturlar yarada bilərsiniz", Məmmədquliyev qeyd edir, "amma bu strukturları həyata keçirə biləcək diplomatlarınız yoxdursa, islahatlar sadəcə ideya olaraq qalır".

Ticarət Nazirliyində aparılan islahatlar ölkə xaricində, eləcə də daxildə sərgilərin keçirilməsinə gətirib çıxarıb. Sərgilər keçən il Səudiyyə Ərəbistanı və Türkiyədə, bu il isə Əlcəzair və Yaponiyada keçirilib. Meyvə-tərəvəz, balıq, ət və ət məhsulları, qoz-fındıq və şərab ixracı əsas prioritetdir, ən azı ona görə ki, illərlə gübrə və pestisidlərə az sərmayə qoyulub və Azərbaycan kənd təsərrüfatı məhsullarının əksəriyyətinin orqanik və əlavələrdən təmiz olması ilə öyünə bilər.

Ölkənin böyük turizm potensialını təşviq etmək üçün də islahatlar aparılır. Əbülfəz Qarayevin[236] rəhbərlik etdiyi yeni Turizm, Gənclər və İdman Nazirliyinin yaradılması ilə yanaşı, Bakının yeni meri, keçmiş baş nazirin müavini Hacıbala Abutalıbov,[237] paytaxtın abadlaşdırılması, muzeylərin təmiri və abadlaşdırılması üçün uğurlu proqram həyata keçirib.

Dənizkənarı bulvar boyunca və Fəvvarələr Meydanı kimi ərazilərdə şəhərin məşhur kafelərinin yenidən açılması ilə yanaşı, ictimai parkları və şəhər nəqliyyatını canlandırmaq üçün digər tədbirlərin həyata keçirilməsi gözlənilir. Bakıda yerləşən “Attas PR” və Böyük Britaniyada fəaliyyət göstərən “R&A Financial Management” şirkətlərinin yaratdığı birgə müəssisə meriya ilə birlikdə, 600 kvadratmetr sahədə təxminən 500 nəfər nümayəndənin yerləşə biləcəyi yeni sərgi, konfrans və istirahət mərkəzi yaradır. Azərbaycan Sahibkarlar Assosiasiyası standartları yüksəltmək və ölkənin xaricdə tanıdılmasına kömək etmək məqsədilə ölkədəki turizm şirkətləri üçün seminarlar təşkil edir.

“Baku Hotels Company” şirkətinin prezidenti və tərəfdaşı Paolo Pərviz[238] qeyd edir ki, Yaxın Şərq, eləcə də işgüzar ziyarətçilər üçün attraksionlar əla ola bilər. İnsanlar Beyruta və ya Dəməşqə gedirlər, amma burada mülayim iqlim, dəniz sahili və

sabitlik var. Burada Londonda olduğundan xeyli uzuz, ikinci evə sahib ola bilərsiniz, – deyə o əlavə edir. İnsanlar “çox mehriban və qonaqpərvərdirlər, cinayət nisbəti dünyanın əksər ölkələrindəki göstəricinin yarısına bərabərdir və gecəsi 25 dollardan başlayan qiymətlərlə çoxlu kiçik, iki və ya üç ulduzlu otellər var. Bakıda “Park Hyatt”, “Hyatt Regency” və “Hyatt” Beynəlxalq Mərkəzi şəbəkəsini quran Pərviz ölkənin kənd təsərrüfatı və qida emalı, xidmət, neft-kimya, nəqliyyat və kommunikasiyalar kimi sahələrinə Yaxın Şərq sərmayəsinin cəlb edilməsi haqqında da yüksək fikirdədir.

“Dubay kimi bir ölkə, o qeyd edir, “sübut etdi ki, səhrada nəsə yarada bilər, lakin sərmayə qoyuluşu çox baha başa gələcək. Burada təkcə neft yox, dörd mövsüm iqlim var. Aralıq dənizi atmosferi, dağlar, düzənliklər və yarımtropik ərazilər. Burada hər şeyi yetişdirə bilərsiniz”. O, əlavə edir ki, “hökumət həm birgə müəssisələrə, həm də uzunmüddətli, tam mülkiyyətdə olan istənilən layihəyə xarici investisiyaların cəlb olunmasını dəstəkləyəcək, çünki bu, ölkə üçün xeyirlidir. Biznes üçün lazım olan bütün imkanlar mövcuddur və Avropa ilə müqayisədə daha ucuzdur”.

Bununla belə, Pərviz, ölkənin aparıcı investorlarından biri kimi, problem və çətinliklərdən, islahatlara olan ehtiyacdan da xəbərdardır. “Siz realist olmalısınız” – o, xəbərdarlıq edir. “İnsanlara azadlıq versən, xalq inkişaf edər. Sistem yaxşı olarsa, daha sürətli irəliləyiş əldə edəcəksiniz. Əks təqdirdə, daha yavaş olacaq”. Əlbəttə, “səhv olan çox şey var. Amma Prezident Əliyev bu ölkəni küldən tikib. O, maestrodur” – deyə o, fikrini yekunlaşdırır.

**Tarix: 25.07.2001**
**Mənbə: New York Times (ABŞ)**
**Məqalənin adı: İran is accused of threatening a research vessel in the Caspian Sea**
*www.nytimes.com*

# İRAN XƏZƏR DƏNİZİNDƏ TƏDQİQAT GƏMİSİNİ TƏHDİD ETMƏKDƏ İTTİHAM OLUNUR

Azərbaycan bu gün bildirib ki, İranın hərbi gəmisi Xəzər dənizində Azərbaycan sahillərində neft kəşfiyyatı aparan gəmini təhdid edib,[239] bu da neft hasil edilən daxili dənizdə gərginliyin artdığını göstərir. "British Petroleum" bu ərazidə neft kəşfiyyatını dayandırdığını elan edib və Azərbaycanın baş naziri Artur Rasizadə[240] İran səfiri Əhəd Qəzaini[241] çağıraraq insidentlə bağlı etirazını bildirib. Xəzər neft yatağı Azərbaycan dövlət neft şirkəti "SOCAR", "Exxon Mobil", Norveçin "Statoil", Türkiyənin "TPAO", "Alberta Energy" və "BP" şirkətlərinin daxil olduğu konsorsium tərəfindən işlənilir.

İranın dövlət radiosu bu gün bildirib ki, naməlum rəsmi şəxsin dediyinə görə, Azərbaycan hərbi gəmisi İran sularına yaxınlaşıb, lakin İran döyüş təyyarəsinin xəbərdarlığından sonra

geri dönüb. Bu, xalqlar arasında bu günə qədər ən ciddi qarşıdurma idi. Azərbaycan Prezidenti Heydər Əliyevin[1] bir neçə həftədən sonra Tehrana səfəri planlaşdırılır.

Azərbaycan Xarici İşlər Nazirliyi bildirib ki, bazar ertəsi günortadan sonra İran Hərbi Hava Qüvvələrinə məxsus təyyarə Azərbaycanın iki tədqiqat gəmisi üzərində iki saat uçuş keçirib və İran hərbi gəmisi gəmilərdən birinə ərazini tərk etməyi əmr edib, əks halda güc tətbiqi ilə üzləşəcəklərini bildirib. Tədqiqat gəmiləri Azərbaycanın paytaxtı Bakıdan təxminən 90 mil cənub-şərqdə, "Araz-Alov-Şərq" neft yatağında olub. Yataq Azərbaycan sularında ikinci ən böyük neft layihəsidir və onun neft və qaz ehtiyatları 9 milyard dollar dəyərində qiymətləndirilir. İran yatağın onun ərazisində olduğunu deyir. İranın səfiri cənab Qəzai bu gün keçirdiyi mətbuat konfransında deyib: "İran mübahisəli ərazilərdə belə işlərin aparılmasının yolverilməz olduğunu dəfələrlə bəyan edib".

Bu gün Bakıda təxminən 100 nəfər nümayişçi İran səfirliyi qarşısında etiraz aksiyası keçirib. Xəzər dənizində dünyanın üçüncü ən böyük neft yataqlarının olduğu təxmin edilir. Rusiya, Qazaxıstan və Türkmənistan neft payı almağa iddia edirlər. İllərlə davam edən müzakirələrə baxmayaraq, dördü keçmiş sovet dövləti olmaqla, beş ölkə daxili dənizin neft, balıq və digər ehtiyatlarının necə bölüşdürülməsi ilə bağlı razılığa gələ bilməyib. Regionda nüfuz uğrunda Rusiya və ABŞ arasında gedən mübarizə gərginliyi daha da artırır. Azərbaycanla İran arasında əlaqələr keçmişdə gərgin olub. Azərbaycan İranı Dağlıq Qarabağ anklavı[4] uğrunda Azərbaycanla müharibə aparan Ermənistanı dəstəkləməkdə ittiham edir. Azərbaycanın keçmiş prezidenti Əbülfəz Elçibəy[8] dəfələrlə İranın bir hissəsini Azərbaycana birləşdirilməyə çağırıb.[242] İran həmçinin iddia edir ki, Azər-

baycan Xəzər neftini Türkiyənin Ceyhan limanına[167] daşıyacaq boru kəmərinin[108] güclü dəstəkçisi olan ABŞ-nin təzyiqlərinə məruz qalır, marşrutun Rusiya və İrandan yan keçməsi isə, Xəzərin ehtiyatları üzərində onların nəzarətini zəiflədir. İran dənizin beş bərabər sektora bölünməsini təklif edir.

**Tarix: 11.08.2001**
**Mənbə: World Oil (ABŞ)**
**Məqalənin adı: A roaring comeback continues**
*www.worldoil.com*

# SÜRƏKLİ GERİDÖNMƏ DAVAM EDİR

**Azərbaycan**

Ötən il ölkədə kəşfiyyat və hasilat sektoru üçün tədrici, lakin davamlı tərəqqi dövrü olmuşdur. Bir sıra iri neft şirkətləri bölgəyə daxil olmuş, bir neçə kiçik oyunçu isə oranı tərk etmişdir. Bundan əlavə, "Wood Mackenzie" qrupunun qeyd etdiyi kimi, "Agip" şirkətinin "Kür Daşı" blokunda ilk kəşfiyyat quyusunun və "Ramco" şirkətinin qurudakı "Muradxanlı" yatağında apardığı qiymətləndirmənin zəif nəticələri də daxil olmaqla, bəzi məyusedici hallar yaranmışdır. Buna baxmayaraq, meqa-inkişaf layihələri olduğu kimi qalır.

**Kəşfiyyat**

"Moncrief Oil" şirkəti ötən il quruda yerləşən "Kəmaləddin-Mişovdağ" müqavilə sahəsini əldə edib. "LUKoil" şirkəti "Hövsan-Zığ" müqavilə sahəsini alıb, "BP" şirkəti isə, ümüdləri doğrultmayan "Dan Ulduzu" blokundan imtina edib. "Devon Energy" şirkəti "BP"-nin rəhbərlik etdiyi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti[138] (ABƏŞ) tərəfindən işlənən "Azəri-Çıraq-Günəşli" (AÇG) konsessiyasında payını artırıb. "Devon"

şirkəti "Ramco Energy" şirkətindən 0,8% pay alıb. Yeni lisenziyalara "Zəfər Məşəl" dərinsulu blokunda 20% pay qazanan "Conoco" şirkəti, "İnam" müqavilə sahəsində "CFC" və "Lasmo" şirkətlərindən 25% pay alan "Şell" şirkəti və "Cənub-Qərbi Qobustan" müqavilə sahəsində "Commonwealth" şirkətindən 12,75% pay əldə edən "Sooner Petrolium" şirkəti daxil idi.

"Exxon" şirkəti ötən ilin sentyabrında, Bakıdan 68 mil cənub-şərqdə yerləşən "Zəfər-Məşəl" dərinsulu blokunda üç ay müddətində 328 kvadrat mil sahədə 3D ölçülü seysmik tədqiqat aparıb. Bundan əlavə, ötən ilin aprel ayında, "Exxon" şirkətinin törəmə şirkəti olan "Oğuz Operating Co." Bakıdan 37 mil şərqdə yerləşən "Neft Daşları Şərqi1" yatağında qazma işlərinə başlayıb. 2001-ci ilin üçüncü rübündə "Exxon" şirkəti "Naxçıvan" sahəsində işə başlayacaq. 260 günə 21,140 futa qədər qazma işi aparılacaq.

Dövlət şirkəti ARDNŞ bilidirib ki, "Günəşli 1" ACG konsessiyasında "Günəşli" yatağının dayaz hissəsində 2 mld. kub metr qazın olduğunu təsdiqləyib. Bu, qaz ehtiyatlarını sübut etmək üçün beş quyudan ibarət proqramın bir hissəsidir. ARDNŞ platforma tikməyi və daha səkkiz quyu qazmağı planlaşdırır.

Keçən ilin dekabrında "Chevron" "Abşeron" dəniz blokunda, suyun 1.700 fut dərinliyində ilk quyu qazmağa başladı. Qazma işləri iyulda, quyu 16.075 futa çatdıqdan sonra başa çatdırılmalı idi.

"BP" həmçinin "İnam" dəniz blokunda suyun 450 fut dərinliyində ilk quyunu qazmağa başlayıb. Qazma işləri fevral ayında, 14.574 fut dərinlikdə qeyri-adi yüksək lay təzyiqlərinə rast gəldikdən sonra dayandırılıb. Müqavilə başa çatmalı idi, çünki başqa qazma qurğusunun işə düşməsi üçün bu iş yayın ortalarına qədər dayandırılıb.

“Ramco” şirkəti qurudakı “Muradxanlı” yatağında əlavə kommersiya ehtiyatlarının olduğunu sübut etməyə ümid edirdi. Bununla belə, MOC 1 ilk qiymətləndirmə quyusu idi, keçən ilin mart ayında MOC1 quyusunda kommersiya əhəmiyyətli neftn oduğu sübut edilmədi.

Kəşfiyyat işləri dənizdə adekvat qazma qurğularının çatışmazlığı səbəbindən məhdudlaşdırılıb. Bununla belə, yeni “Qurtuluş” qurğusunun fəaliyyətə başlaması və “Dədə Qorqud” və “İstiqlal” yarımdalma qurğularında təkmilləşdirmə işlərinin başa çatması ilə fəallıq artmalıdır. Bundan əlavə, keçən ilin fevral ayında “Exxon” şirkəti Xəzərdə istifadə məqsədilə sualtı qurğunun tikintisi üçün 250 milyon dollarlıq müqavilə bağlamışdı. Keçən il aparılan kəşfiyyat işləri nəticəsində əhəmiyyətli heç bir əlavə ehtiyat aşkar edilməyib. “Wood MacKenzie” şirkəti hələ də kəşf edilməmiş ehtiyatları 2-11 milyard barrel neft və 14-90 tcf qaz səviyyəsində qiymətləndirir.

**Qazma işlərinin inkişafı.**

Keçən il operatorlar qazma işlərini xeyli artırıblar. Qazılan quyular 33%, qazma isləri isə 34% artaraq 403.448 futa çatıb. Dənizdə kəşfiyyat qazma işlərinin aparıldığı sahə 20% artaraq, 267.697 kvadrat milə çatıb. Bu il qazma işlərində 9% artım proqnozlaşdırılır.

May ayında “BP Azərbaycan” şirkətinin assosiativ prezidenti Devid Vudvord[243] təqdimat mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevə[1] deyib ki, onun şirkəti və tərəfdaşları ACG və “Şahdəniz” yataqlarının işlənməsinə 8 milyard dollardan çox vəsait xərcləyəcək. “BP” keçən ilin may ayında “Şahdəniz” yatağında qazma platforması üçün mükəmməl mühəndis layihələndirmə müqaviləsi imzalayıb. Planlaşdırıldığı kimi, qazma işləri 2004-cü ilin ikinci rübündə, ilk hasilat isə 2004-cü

ilin üçüncü rübündə başlayacaq. ABƏŞ-in "Çıraq" yatağının gələcək inkişaf layihəsi ilə yanaşı, qazma qurğusu və separator gəmilərinin təkmilləşdirilməsi, gücləndirici nasosların genişləndirilməsi də davam edir. ACG-də hasilatı 117.000 barreldən 130.000 barrelə çatdırmaq üçün daha üç quyu qazılacaq.

**İstehsal**

Xam neft və kondensat hasilatı birlikdə 2% artaraq, sutkada 278.298 barrel təşkil edib. Təbii qaz hasilatı 5% azalaraq, sutkada 608 milyon kubmetr təşkil edib. "BP" bildirib ki, ABƏŞ "Çıraq" yatağından hasil edilən qazdan istifadə etməyə başlayıb, 95 milyon kub metr qazı yandırmaq əvəzinə Neft Daşları stansiyasına göndərib. Qəribədir ki, quruda və dənizdə 10 ildən artıq müddətdə fəaliyyət göstərməyən ən azı 20 quyu, noyabrın sonunda ərazidə baş verən böyük zəlzələdən sonra (Rixter cədvəli üzrə 6.5 bal gücündə) təbii qaz verməyə başlayıb. ARDNŞ-dən bildirilib ki, zəlzələdən sonra quyularda təzyiqin artması boru kəməri sisteminə daha çox qaz vurulmasına şərait yaradıb. ARDNŞ bütün köhnə quyuların tam yararlılığını müəyyən etmək üçün onları sınaqdan keçirir. 2010-cu ilə qədər ACG yataqlarında hasilat Azərbaycanın ümumi hasilatının təxminən 60-70%-ni təşkil etməlidir. 1999-2000-ci illər arasında maye qaz istehsalında təxminən 9.000 barrel artım əldə olunub. 2000-ci ildə ACG-nin orta hesabla sutkalıq hasilatı 104.000 barrel və ya ümumi hasilatın 37%-ni təşkil etmişdir.

Qaz hasilatının gələcək inkişafı Türkiyənin qaz bazarının genişlənməsindən və onun təmin oluna biləcək payından asılıdır. Keçən ilin mart ayında Azərbaycan və Türkiyə prezidentləri tərəfindən, 2004-cü ildə "Şahdəniz" yatağından hasil ediləcək 70 milyard kub fut qazın Türkiyə tərəfindən alınacağı barədə sazişin imzalanması böyük bir addım oldu. Bu həcm 2007-ci ilə qədər ildə 231 milyard kub futa qədər yüksələ bilər.

The New York Times

**Müəllif: Douglas Frantz**
**Tarix: 25.08.2001**
**Mənbə: The New York Times (ABŞ)**
**Məqalənin adı: A mayor who's big on cleanup. Sound familiar?**
***www.nytimes.com***

## TƏMİZLİK HƏVƏSKARI OLAN MER. TANIŞ SƏSLƏNİRMİ?

İcra başçısı Hacıbala Abutalıbov[237] şəhərin yenidən təmir edilmiş parklarından birinə gözlənilməz səfəri zamanı öz qara mersedesindən düşən kimi, xeyirxahları tərəfindən əhatəyə alındı. Adamlar səmimiyyətlə onun əlini sıxır, paytaxtı təmizliyə qovuşdurduğu üçün ona təşəkkür edir və əlbəttə ki, öz şəxsi problemlərinin həlli üçün kömək istəyirdilər.

Cənab Abutalıbov lazer fizikası üzrə mütəxəssis olsa da, təbiətcə siyasətçidir. O, bütün tərifləri və xahişləri bənzər şövq və çoşquyla qəbul edir, gülümsəyir, başını yelləyir və tam səmimi şəkildə onlara cavablar verirdi.

Üzünü tük basmış, gözlərindən isə yuxusuzluğu hiss edilən bir kişi ayaqlarındakı nimdaş ayaqqabılara işarə edib, bir qədər də qəzəblə işsiz olduğunu deyəndə, cənab Abutalıbov qolunu onun çiyninə dolayaraq, Azərbaycanın kasıb əhalisinin ağır vəziyyəti haqqında mərhəmətlə danışmağa başladı.

Saçları ağarmış və çox da can-cüssəli görsənməyən 57 yaşlı cənab Abutalıbov yanvar ayının sonunda icra başçısı təyin edildiyi vaxtdan bəri, üç milyonluq şəhəri təmizləməklə bağlı başlatdığı və uğurla ictimailəşdirilən kampaniya sayəsində ciddi bir məşhurluğa nail olmuşdur.

İctimai məkanlara mütamadi olaraq etdiyi gözlənilməz səfərlər cənab Abutalıbovu, uzun müddətdir hakimiyyətdə olan və ona bu işi həvalə edən Prezident Heydər Əliyevdən[1] sonra Azərbaycanın ən məşhur ikinci siyasətçisinə çevirmişdir.

Cənab Abutalıbov Amerikanın meqapolislərindən birinin daha məşhur merindən nümunə götürərək, bir vaxtlar küçələri və səkiləri ağzına alan səyyar satıcılara qarşı səlib yürüşü elan etmiş, əxlaqsızlığa qarşı mübarizəyə başlamış, son onillikdə dağılmağa başlayan 50-dən çox fəvvarəni, saysız-hesabsız abidə və parkı təmir etdirərək, yenidən qurmuşdur.

"Mən Rudi Culiani[244] ilə görüşməmişəm, ancaq mənə onun haqqında çox şey danışıblar və mən bilirəm ki, o, Nyu-York şəhəri üçün çox işlər görüb" – bəzi adamların aqressiv hesab etdiyi strategiyalardan istifadə etdiyi üçün, eynən Culiani kimi, narazılıqlara səbəb olan cənab Abutalıbov deyib. "Öz şəhərini sevən şəxs böyük dəyişikliklərə nail ola bilər".

Cənab Abuatlıbovun öz şəhəri üçün böyük məqsədləri var. "Mən Bakını dünyanın ən təmiz və ən gözəl şəhərinə çevirməkdə qərarlıyam" – İcra Hakimiyyətinin yüzillik tarixə malik olan, digər gözəl şəhər olan Parisdəki meriya binasının üslubunda tikilən, təmtəraqlı binasında müsahibə zamanı cənab Abutalıbov belə deyib.

Xəzər dənizinin sahilində yerləşən Bakı şəhərinin tarixi, eramızdan əvvəl yeddinci əsrə gedib çıxır. Geniş bulvarların kənarını bəzəyən barokko üslublu evlər, eləcə də ofis binaları

isə 20-ci əsrin əvvəllərində, şəhərdə birinci neft bumu zamanı inşa edilmişdir.

Bir əsr öncə Nobellər, Rotşildlər və Rokfellerlər Xəzər dənizi sahilində kəşf edilən neft yataqlarının istismarı üçün Bakıya gəliblər.

Onlar şəhərin ilk qızıl əsrində gözəl malikanələr, muzeylər və teatrlar inşa etdiriblər. Sovet hökuməti Bakı və Azərbaycanı idarə etdiyi 70 il ərzində şəhər arxitekturasına – əvvəlkilərlə müqayisədə gözəlliyi nisbətən az olsa da – özünəməxsus yeni nümunələr əlavə edib.

1991-ci ildə Sovet İttifaqının süqutundan sonra Azərbaycan, çətin bir vətəndaş qarşıdurması dövründən keçmiş, etnik erməni anklavı[4] uğrunda qonşu Ermənistanla apardığı savaşı uduzmuşdur. 1990-cı illərin ortalarında ikinci neft bumu yaşansa da, çiçəklənmə və inkişafın əlamətləri sadəcə bir neçə gözəl restoranla və xarici şirkətlərin yerləşdiyi yeni ofis binaları ilə məhdudlaşırdı.

Yanvar ayında cənab Əliyev şəhəri yenidən dirçəltməyin zamanı gəldiyini düşünmüş və bu işi gözlənilməz bir namizədə həvalə etmişdir.

Cənab Abutalıbov fizik kimi öz karyerasını əsasən Rusiyanın Sankt-Peterburq şəhərində keçirmişdir. O, öz doğma Azərbaycanına müstəqillikdən sonra, 1992-ci ildə qayıdıb və əvvəlcə kiçik bir bələdiyyədə mer, daha sonra isə cənab Əliyevin dövründə baş nazirin az tanınan müavini olmuşdur. "Prezidentin mənə verdiyi ilk tapşırıq şəhəri təmizləmək idi" cənab Abutalıbov deyib. Onun ofisində cənab Əliyevin yeddi şəkli və haqqında yazılmış bir neçə kitab var.

İlk görüləcək iş bütün ərazilərdə parklar və meydanlarda yerləşən fəvvarələri təmir etmək idi. Onların heç biri yararlı və-

ziyyətdə deyildi. İndi isə əllidən çox fəvvarə işləyir və bu fəvvarələrin bəziləri elektron musiqi ilə təchiz edilərək "musiqili fəvvarələrə" çevrilib, nəticədə bütün bu baş verənlər merə "Cənab fəvvarə" ləqəbini qazandırıb.

O, həmçinin bütün parkların yararlı vəziyyətdə olan içməli bulaqlarla, ot örtüyü ilə, çoxlu gül ilə təchiz edilməsinin qayğısına qalıb.

O, yollardakı çala-çuxurları aradan qaldırmış, şosse yollarını, eləcə də hava limanından şəhərin mərkəzinə gedən yolu, zamanın sınaqlarından çıxmış Amerika üslubunda bərpa etmişdi.

Altı ay əvvəl Bakıya səyahət edən və indi yenidən bu şəhərə qayıdan şəxslər, nəticəni açıq-aşkar görə bilərlər. Qonşu ölkə Gürcüstanın bir vaxtlar eleqant hesab edilən paytaxtı Tbilisi indi sönük və köhnə görsəndiyi halda, Bakının park və meydanları gəzişən adamlarla, fəvvarələrdə su ilə oynayan uşaqlarla doludur, üfüqdə isə tikintisi davam edən azı 20 göydələn görmək mümkündür. Sayı onlarla hesablanan köhnə binalar isə yenidən bərpa edilir.

Tarixi qala divarları ilə əhatələnən İçəri Şəhərdə tikinti işləri plan və izacələr İcra Hakimiyyəti və Dünya mədəniyyət təşkilatı olan YUNESKO-nun nümayəndələri tərəfindən təsdq edilənə qədər təxirə salınıb.

Cənab Abutalıbovun fəaliyyəti ilə bağlı daha böyük mübahisələrə səbəb olan məqam isə küçələri fahişələrdən və səyyar satıcılarından təmizləmək üçün görülən sərt tədbirlərdir.

O, satıcıları öz piştaxtalarını xüsusi təşkil edilən bazarlara köçürməyə və məhsullarını satmazdan əvvəl tibbi müayinədən keçməyə vadar etmişdir. Müntəzəm gecə reydləri zamanı isə fahişələrin kütləvi həbsi həyata keçirilmişdir.

"Bakıdakı ən sonuncu fahişəyə qədər biz bu işimizi davam etdirəcəyik" – mer belə deyir və dediyi hər kəlməsində, seks-şoplar və fahişəlik əleyhinə mübarizə aparan cənab Culiani kimi öz sərtliyini nümayiş etdirir.

Bu strategiyanın tərkib hissəsi kimi, küçələrin daha təhlükəsiz olması üçün gecəyarısı barların və gecə klublarının bağlanmasını tələb edən yeni bir qanun da qəbul edilmişdir.

Gecəyarısından sonra hələ də işlədiyinə görə məşhur pizza restoranının 25 nəfər polis tərəfindən bağlanması bu həftə bir sıra kiçik etirazların baş verməsinə səbəb olmuşdur, obyektin sahibi isə bunun qanunda əks olunmadığını bildirmişdir.

Küçə satıcılarının fəaliyyətinin qadağan olunmasının tənqid edilməsi, onların əksəriyyətinin Bakıda yaşayan 250.000 nəfərlik yoxsul qaçqın əhalinin nümayəndələri olması ilə bağlı idi və onlar küçələrin künc-bucaqlarında ikinci əl paltarlar, yaxud digər şeylər sataraq, güclə dolanırdılar. Bir qisim şikayətlər isə insanların qida əldə etmək üçün indi uzaq məsafə qət etmək məcburiyyətində qalmaları ilə bağlı idi.

"İndi mən dilənməkdən başqa nə edə bilərəm?" – şəhərin ticarət rayonunun düz mərkəzində, Fəvvarələr Meydanında öz balaca qutusundakı meyvələri satmaqla dolanan Elçin Məmmədov bu sualı verir.

Belə görünür ki, insanların çoxu merin fəaliyyətinə dəstək verir. "İndi artıq sivil rəqabət mövcuddur" Fəvvarələr Meydanında paltar dükanı işlədən Tərlan Əliyev belə deyir və o, bu sözləri ilə həm də bir sıra digər tacirlərin və gəzintiyə çıxan adi adamların fikrini təkrarlayır.

Cənab Abutalıbovun geniş şöhrətə səbəb olan bu uğurları istər-istəməz bir çox insanda belə bir fikir yaratmışdır ki, o,

daha yüksək vəzifəyə, ola bilsin ki, baş nazir vəzifəsinə təyin ediləcək.

Bu fikirləri qəbul etməyən cənab Abutalıbov isə belə cavab verib: "Hal-hazırda bu şəhərdə görmək üçün mənim kifayət qədər çox işim var".

The New York Times

**Müəllif: Douglas Frantz**
**Tarix: 02.09.2001**
**Mənbə: The New York Times (ABŞ)**
**Məqalənin adı: Breaking old Soviet ties, letter by letter**
***www.nytimes.com***

# KÖHNƏ SOVET ƏLAQƏLƏRİNİ TƏDRİCƏN KƏSƏRƏK

Sovet İttifaqı Azərbaycanda ərəb dilini sıradan çıxarmaq üçün kitab yandırmağa başlayanda Həsən Firuzi hələ uşaq idi. O, on il sonra, 1939-cu ildə Stalin[66] latın əlifbasının kiril əlifbası ilə əvəzlənməsini əmr etdiyi dövrün hadisələrini daha yaxşı xatırlayır.

"Mən tələbə idim və bu dəyişiklik çox qıcıqlandırıcı idi, uyğunlaşmaq üçün vaxt lazım idi" – ötən gün, Bakının mərkəzində yerləşən parkdakı oturacaqda əyləşərək dincələn və yanında kiçik qara tibbi çantası olan 76 yaşlı həkim söyləyib. "Bu dəfə də uyğunlaşacağıq".

Həkim Firuzi və onun həmyerliləri Qafqazda, Xəzər dənizinin sahilində yerləşən kiçik və tez-tez işğala məruz qalan Azərbaycanda əvvəllər olduğu kimi, musiqi əlifbası ilə bağlı ən son oyuna uyğunlaşırlar.

Avqust ayının 1-də Prezident Heydər Əliyev[1] rəsmi sənədlərin, jurnalların, qəzetlərin və lövhələrin, rus dilində istifadə edilən kiril qrafikası əvəzinə, Qərbdə istifadə olunan latın

qrafikası ilə yazılması haqqında sərəncam verdi. Bu, ölkənin sovet keçmişindən uzaqlaşması, Avropa və ABŞ istiqamətində irəliləmək üçün atılan növbəti addımı idi.

Cənab Əliyevin sərəncamında qeyd edilib ki, "Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, onun tarixinə və mədəni inkişafına hörmətlə yanaşmaq üçün Azərbaycan dilinin normalarına, xüsusilə latın qrafikasına əməl etmək zəruridir". Prezident Əliyev 10 il əvvəl, Sovet İttifaqının süqutundan sonra Azərbaycanın müstəqillik əldə etdiyi zaman yazılan qanunu icra edirdi. Prezidentin köməkçiləri söyləyibilər ki, cənab Əliyev müstəqilliyinin on illik yubileyi yaxınlaşan ölkənin buna hazır olduğunu hiss edib.

Səkkiz milyon nəfər əhalisi olan bu ölkədə insanların əksəriyyəti həm rus, həm də Azərbaycan dilində danışaraq böyüyüb, lakin son 60 ildə hər iki dildə yazı, rus dili üçün hazırlanmış kiril qrafikası ilə yazılmışdır. Sovet dövründə rus dili dövlətin rəsmi dili olduğu üçün üstünlüyə malik idi. Ölkə müstəqillik əldə etdikdən sonra bu dominantlıq aradan qalxdı. Latın əlifbasına keçid əksər azərbaycanlılar tərəfindən, Moskvanın diktəsi ilə hərəkət etməyin əksinə olaraq, Azərbaycanın özü üçün etdiyi müsbət seçim kimi qiymətləndirilir.

Bu dəyişiklik ölkəyə baha başa gəlir. Bəzi yaşlı insanlar latın qrafikasını öyrənməkdə çətinlik çəkirlər, rus və ya Azərbaycan dilində olmağından asılı olmayaraq, kitabların böyük əksəriyyəti kiril qrafikası ilə yazılır. Kitabxana rəsmiləri söyləyirlər ki, mərkəzi kitabxanadakı dörd milyon cilddən yalnız bir neçə mini latın qrafikası ilə Azərbaycan dilindədir, əksər kitablar rus dilindədir.

Buna baxmayaraq, neftdən gələn pul axını və cənab Əliyev hökumətinin Qərb yönümlü mövqe tutması insanların

əksəriyyətinin ən azından latın əlifbasından xəbərdar olduqları anlamına gəlir. Reklamların əksəriyyəti həm kiril, həm də latın əlifbasındadır və bəzi qəzetlərdə, latın əlifbasını öyrənən oxuculara kömək etmək məqsədilə məqalələr hər iki əlifbada dərc edilir.

Gənc azərbaycanlıların çoxu işləmək üçün xarici şirkətləri seçirlər və iş bacarığı kimi, ingilis dilində danışmaq rus dilində danışmağı üstələməyə başlayır.

Dövlət sənədlərinin və hüquqi müqavilələrin kiril əlifbasından latın əlifbasına keçirilməsi gələcəkdə rus dilinə olan tələbatın zəifləməsini qaçılmaz edəcək.

“Gənclərin latın əlifbasından istifadə etməsi asan olacaq, çünki biz bir çox cəhətdən bu əlifbanın təsirinə məruz qalmışıq” – İsveç konsulluğunun 22 yaşlı əməkdaşı Aybəniz Xudadatova söyləyib. “Valideynlərim və nənəm üçün bu daha çətindir, çünki onlar hər şeyə yenidən başlamalıdırlar”.

Azərbaycanlılar dil məsələsində dəfələrlə hər şeyi yenidən başlayıblar. Azərbaycan dili dördüncü və ya beşinci əsrlərə aid türk dilidir. Tarixinin böyük bir dövründə bu ərazi ardıcıl olaraq farslar, müsəlman ərəblər, monqollar, Osmanlı türkləri və ruslar tərəfindən işğal edilmişdir. Hər bir işğal isə özünün linqvistik mirasını qoymuşdur.

1920-ci ildə sovetlər hakimiyyətə gələnə və rus əlifbasını tətbiq edənə qədər, ərəb əlifbası 1000 il idi ki, istifadə edilirdi. 1929-cu ilə qədər Sovet hökuməti Azərbaycanda və Orta Asiya respublikalarında müsəlman təsirini aradan qaldırmaq məqsədilə ərəb əlifbasını qadağan etmişdi. Azərbaycan dili latın qrafikasından istifadə etməklə işlənirdi.

On il sonra latın əlifbasını ləğv edən Stalin, Azərbaycanı onun müsəlman keçmişindən və ərəb əlifbasından latın əlifbası-

na keçən böyük qonşusu Türkiyənin təsirindən kənar tutmaq üçün qəsdən yalnız kiril qrafikasının tətbiqində israr etdi.

Tətbiq edilən istənilən dəyişiklik mədəni kimliyin itirilməsinə səbəb olurdu. Nüfuzlu "Azerbaijan International" jurnalın redaktoru, amerikalı Betti Bleyer[245] bildirib ki, "Bu hal millətin yaddaşını itirməsinə, bir sözlə, millətdə unutqanlığa səbəb oldu. Hamının bilməli olduğu məsələlər aradan qalxdı".

Yetmiş səkkiz yaşlı cənab Əliyev, ibtidai sinif şagirdi kimi, Azərbaycan dilini latın qrafikası ilə öyrəndi və latın əlifbasına keçdi. Ümumiyyətlə, hətta yaşlı azərbaycanlılar da dəyişikliyi qəbul etməyə hazır görünürlər.

Parkda oturacaqda əyləşən həkim Firuzi yaşlı insanların latın hərflərini oxumağı öyrənməkdə çətinlik çəkəcəkləri fikrinə istehza ilə yanaşdı. O, qətiyyətlə bildirdi ki, "bu, dostlarımın çoxu və mənim üçün problem deyil".

Problemlər mövcuddur və ən böyük çətinliklərdən biri də latın əlifbasında dərsliklərin olmamasıdır. Azərbaycan yoxsul ölkə olaraq qalır və məktəblər də sovet dövründən qalan, kiril əlifbası ilə yazılmış köhnə dərsliklərdən asılıdır.

Rus dili və ədəbiyyatı üzrə professor Larisa Haqverdiyeva soruşur ki, "Kitabxanada hər şey kiril əlifbası ilə olduğu halda, tələbələr kitabları necə oxuyacaqlar?"

Fərman avqust ayının əvvəlindən qüvvəyə minsə də, dəyişikliklər tədricən həyata keçirilir. Nəhayət, televiziya verilişləri azərbaycan dilində olmalıdır və rusdillilər bunun onların dilinə son zərbə olacağından narahatdırlar.

Mobil telefonu ilə rus dilində danışan 30 yaşlı etnik rus Nataşa Klyuçnikova söhbətinə ara verərək bildirdi ki, "Mən bəzi telekanalların rus dilində qalmasını istərdim. Bu, zəngin bir dildir. İstənilən halda, yayımın dublyajla aparılmasına nifrət edirəm".

**Tarix: 01.10.2001**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: Azerbaijan, Georgia sign gas pipeline agreement**
*www.themoscowtimes.com*

# AZƏRBAYCAN VƏ GÜRCÜSTAN QAZ BORU KƏMƏRİ SAZİŞİ İMZALAYIR

Şənbə günü Azərbaycan və Gürcüstan təbii qazın tranziti, nəqli və satışı üzrə saziş imzalayıblar və bununla da, Azərbaycanda "BP" şirkətinin rəhbərlik etdiyi nəhəng dəniz yatağından Türkiyəyə boru kəməri[246] çəkilməsi layihəsinin reallaşması üçün yol açılıb.

Azərbaycan Prezidenti Heydər Əliyev[1] və Gürcüstan Prezidenti Eduard Şevardnadze[11] Azərbaycan qazının Gürcüstan ərazisindən nəqlinə dair şərtləri razılaşdıran sazişi Azərbaycanın paytaxtı Bakıda imzalayıblar.

Prezident Əliyev söyləyib ki, "bu regionda neft məhsullarının neft və qaz boru kəmərləri ilə Türkiyəyə nəql edilməsi siyasi əhəmiyyətə malikdir. Birincisi, bu yolla Qərb və Şərq arasında inteqrasiya daha da genişlənir, ikincisi, bu, regionumuzda təhlükəsizlik və sabitliyin möhkəm təminatıdır".

Gürcü rəsmiləri söyləyirlər ki, bir milyard dollarlıq boru kəmərinin tikintisi ilkin olaraq, 2001-ci ilin sonuna planlaşdırılmışdı, lakin o, 2002-ci ilin ortalarına qədər təxirə salınıb. Boru kəmərinin tikintisi başa çatdıqdan sonra o, ildə 7,2 milyard kubmetr qaz nəql edə biləcək.

Prezident Əliyev söyləyib ki, qazın ilk nəqlinin 2004-cü ildə, Azərbaycanın, təbii qaz ehtiyatları 1 trilyon kubmetr həcmində qiymətləndirilən nəhəng "Şahdəniz" dəniz yatağından həyata keçiriləcəyi gözlənilir. "BP" və Norveçin "Statoil" şirkətləri birgə "Şahdəniz" qaz yatağının 51 faizinə sahibdirlər və onun operatorlarıdır.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev[139] söyləyib ki, boru kəmərinin istismarının ilk illərində Gürcüstan ərazisindən nəql olunan qazın hər 1000 kubmetri üçün Gürcüstana 2,50 dollar ödəniləcək. Tarif növbəti 20 il ərzində tədricən 5 dollara qədər artırılacaq. Gürcüstan 5-10 dollar ödəniləcəyinə ümid edirdi, lakin investorlar ilk beş il ərzində cəmi 2 dollar təklif ediblər.

Neft şirkətinin prezidenti söyləyib ki, Gürcüstan, boru kəmərinin illik nəqlinin 5 faizindən çox olmamaq şərtilə, ödənişin bir hissəsini qaz şəklində ala bilər.

Gürcüstan 2004-cü ildən Azərbaycandan, hər 1000 kubmetri orta hesabla 55 dollar olmaqla, ildə təxminən 500 milyon kubmetr əlavə qaz almağı planlaşdırır.

**Tarix: 11.10.2001**
**Mənbə: Worldwide Energy (ABŞ) (Vol.12, İssue 10)**
**Məqalənin adı: Puma signs letter of intent for Caspian oil field**

# "PUMA" XƏZƏR NEFT YATAĞI ÜÇÜN NİYYƏT MƏKTUBU İMZALAYIB

"Puma Energy Inc." (Pink Sheets: PUMX) şirkəti "Heinrich Grunewald" şirkəti ilə, Azərbaycan Respublikasındakı Ramanı VII neft yatağında "Grunewald & Co., GmbH" şirkətinə məxsus payların 50 faizini almaq barədə niyyət məktubu imzalayıb.

Niyyət məktubunda "Puma" şirkətinin "AzGerneft J.V." şirkətindən 30 faiz dolayı pay almaq hüququnun şərtləri qeyd edilir. Ramana VII neft yatağı Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) yurisdiksiyasında olan Balaxanı, Sabunçu və Ramanı neft yataqlarının bir hissəsidir.

Bu yataqlar "AzGerneft J.V." və "Balaxanıneft" şirkəti tərəfindən istismar olunur və işlənilir. Hal-hazırda "Puma Energy" şirkəti başqa neft yatağı ilə bağlı, 2001-ci ilin iyulunda ARDNŞ-ə təqdim edilmiş ayrıca saziş əsasında hasilatın pay bölgüsü üzrə danışıqların başlamasını gözləyir.

"Azərbaycan Respublikasında Balaxanı, Sabunçu və Ramanı (BSR) neft yataqlarının da daxil olduğu blok üzrə bərpa,

işləmə və hasilatın pay bölgüsü sazişinin əsas kommersiya prinsipləri və müddəaları haqqında" saziş "Balaxanıneft" tərəfindən idarə olunan əsas BSR yatağına aiddir.

"Grunewald & Co., GmbH" ilə bağlı bu niyyət məktubu Xəzər regionunda enerji imkanlarının inkişaf etdirilməsi yönündəki əsas məqsədimizə doğru atılan mühüm addımdır" – deyə "Puma" şirkətinin prezidenti və baş icraçı direktoru, həmçinin şirkətin Dallasdakı beynəlxalq bazasının idarəçisi Edvard V. Blessing deyib.

"Biz Balaxanı, Sabunçu və Ramanı neft yataqlarının işlənməsi üçün bütün variantları yoxlamağa davam etdikcə bu saziş ərazidə gələcək səylərin genişləndirilməsinin əsasını qoyur".

2001-ci il oktyabrın 31-dək qəti razılaşma əldə olunduqdan sonra "Puma", yataqda hasilatın artırılması üçün tətbiq olunacaq açıqlanmayan məbləği "J.V."-yə təqdim edəcək. Bu məbləğ "Puma"ya "J.V."-nin gəlirləri hesabına ödəniləcək.

Adi zəmanət və təqdimatlar da daxil olmaqla, yekun sənədlər yeni seysmik tədqiqatlar, əməliyyat şirkəti və onun mülkiyyəti, əməliyyat razılaşmasının şərtləri və bu sahədə iş üçün vaxt qrafiki də daxil olmaqla, "Puma"nın investisiya proqramına əlavə ediləcək.

Elanın ardınca Böyük Britaniyada yerləşən "Gaffney, Cline & Associates Ltd." (GCA) şirkəti tərəfindən aparılan texniki-iqtisadi əsaslandırmanın və zəruri araşdırmanın əlverişli ilkin nəticələri açıqlanıb, bu da analoji Balaxanı, Sabunçu və Ramanı yataqlarında əhəmiyyətli neft ehtiyatlarının olduğunu göstərir.

Xəzər regionunda gələcək imkanlar üçün variantları ən yaxşı şəkildə həyata keçirmək üçün bu yaxınlarda "Puma" şirkəti, Məsləhət Şurasının ləğvi və İstanbuldakı əlaqə ofisinin bağlanması da daxil olmaqla, daxili yenidənqurmaya təşəbbüs göstərib.

**Müəllif: David Young**
**Tarix: 29.10.2001**
**Mənbə: Oil and Gas Journal (ABŞ)**
**Məqalənin adı: Tariff agreement signals important step for natural gas line to Turkey**
***www.ogj.com***

# TARİF RAZILAŞMASI TÜRKİYƏYƏ TƏBİİ QAZ XƏTTİ ÇƏKİLMƏSİ ÜÇÜN ATILAN MÜHÜM ADDIMA İŞARƏDİR

Keçən ay Bakıda Azərbaycan və Gürcüstan dövlət rəsmilərinin imzaladığı razılaşma Türkiyəyə qaz ixrac boru kəmərinin çəkilməsinə doğru atılan digər mühüm addıma işarədir.

İmzalama mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev[1] və Gürcüstan Prezidenti Eduard Şevardnadze[11] ilə yanaşı, Azərbaycanın Neft və Energetika naziri Məcid Kərimov[233] və Gürcüstan Beynəlxalq Neft Şirkətinin prezidenti Georgi Çanturiya[247] da iştirak edib.

Dövlətlərarası razılaşmaya Cənubi Qafqaz Boru Kəməri[246] sisteminin keçəcəyi iki dövlət arasında təbii qazın tranzitinin, nəqlinin və satışının detalları daxildir.

Razılaşma dövlətlərin ərazisindən qazın sərbəst tranziti prinsiplərini, müvafiq infrastrukturun inkişafını, torpaq hüququnun təmin olunmasını, ekologiyanın və yatırımların qorunmasını, gələcəkdə alqı-satqı razılaşmalarının şərtlərinə əsasən, ayrı-seçkilik etmədən qaz almaq hüququnu özündə əks etdirir.

İki ay əvvəl Bakıda bu dövlətlərin belə bir razılaşma imzalamağa yaxın olduqları bildirilib, lakin Dünya Bankının müşahidəçilərinin şərhləri planları pozub.

Sentyabrın əvvəlində Londonda onlar yenidən razılaşmanı imzalamağa yaxın idilər, lakin prezident E.Şevardnadzenin prezident Heydər Əliyevdən, görünür, güzəştlər qoparmaq cəhdləri səbəbindən razılaşmanın imzalanması sentyabrın 29-da baş tutdu.

**Planlaşdırılmış obyektlər.** "Şah Dəniz" boru xəttinin uzunluğu 1000 km. olacaq: 440 km. Azərbaycandan, 280 km. Gürcüstandan və 280 km. Türkiyədən keçəcək. Boru xəttinin ölçüsü hələ qərarlaşdırılmayıb, lakin 26-42 inç olacağı gözlənilir.

Qaz nəqlinə 2005-ci ildə başlanılacaq və Türkiyəyə ixrac sürətlə artaraq ildə 6,6 milyard kub metrə yüksələcək. Azərbaycan və Türkiyənin hər biri boru xəttindən qaz almaq istəyini bildirib, lakin bunun həcmi haqqında heç bir fikir söyləməyib.

Layihələndirilmiş boru xəttinin dəyəri təxminən 1 milyard dollar, onu, dəniz strukturları ilə birləşdirdikdə isə 1,5 milyard dollar olacaq. Şelfdə işlər sabit platformanın, yeni qazın emalı və sıxlığının sabitləşdirilməsi üçün obyektlərin planlaşdırıldığı Səngəçal terminalına gedən 100 km. uzunluğunda iki boru xəttinin, 26 inç ölçüdə qaz xətti və 12 inç ölçüdə maye boru xətti, tikintisindən ibarətdir. "BP PLC" müəssisə və terminalın operatorudur.

**Digər ilkin hazırlıqlar.** Buna baxmayaraq, bəzi mühüm məsələlər tamamlanmayıb, xüsusilə də, razılaşma hər iki dövlətin parlamenti tərəfindən ratifikasiya olunmalıdır.

İndi ilkin razılaşma əldə edilib və o, layihə ilə bağlı olaraq, beynəlxalq hüquqdan irəli gələn məcburi öhdəliklərlə birlikdə, dövlətlərin üstün hüquqi rejimi olan hər iki parlamentə təqdim ediləcək.

Gürcüstan və layihə investorları arasında "Qəbul edən hökumət ilə razılaşma" və Azərbaycan Respublikası və layihə investorları arasında "Qəbul edən hökumət ilə razılaşma" razılaşmaya əlavələr olaraq daxil edilib. Bunlar, boru kəməri layihəsində müvafiq dövlətlə sərmayəçilər arasında münasibətləri, məsələn, sağlamlıq, təhlükəsizlik və ekologiya ilə bağlı standartları, qaz boru kəmərinin inşası və fəaliyyəti standartlarını, torpaq satın alma prosedurlarını, dövlətlər və sərmayəçilər arasında əməkdaşlıq mexanizmlərini və sərmayəçilər tərəfindən qəbul edən dövlətə ödənilməli olan vergiləri müəyyən edir.

Keçən ay imzalanan hökümətlərarası razılaşma ratifikasiya olunduqdan sonra, qazın Xəzər dənizindən Ərzuruma göndərilməsi üçün boru kəmərinin inşasında maraqlı olan sərmayəçilər üçün növbəti addım Türkiyə və dünya qaz bazarı ilə alt razılaşmalara nail olmaqdır.

Layihənin operatoru və əsas səhmdari olan "BP PLC" bildirib ki, boru kəməri layihəsi kommersiya cəhətdən əsaslandırıldığı halda davam etdiriləcək. Keçən ay baş tutan imzalamada "BP" layihə ilə bağlı razılığın ilin sonunda veriləcəyinə və ilk qazın 2004-cü ilin sonunda nəql olunacağına ümüd etdiyini bildirib.

Şah Dəniz layihəsinin 25,5%-nə "BP", 25,5%-nə "Statoil", 10%-nə "LukAGİP", 10%-nə SOCAR (Azərbaycan Dövlət Neft Şirkəti), 10%-nə "Offshore Iran Energy Co", 9%-nə "TPAO" (Türk Dövlət Neft Şirkəti) və 10%-nə "Total FinaElf" şirkəti sahibdir.

**Müəllif: Bob Edvards**
**Tarix: 07.11.2001**
**Mənbə: Morning Edition (ABŞ)**
**Məqalənin adı: Azerbaijan introducing new alphabet**
*www.npr.org*

# AZƏRBAYCANDA YENİ ƏLİFBA TƏTBİQ EDİLİR

Azərbaycan son yüz ildə üçüncü dəfə yeni əlifba tətbiq edir. 1939-cu ildən azərbaycanlılar kiril əlifbasından istifadə edirlər. Avqustun 1-dən etibarən keçmiş sovet respublikasında bütün lövhələr, rəsmi sənədlər, qəzetlər və kitablar Azərbaycan latın əlifbası ilə çap olunacaq. Bu reportajı BBC-nin müxbiri Kler Doyl[248] hazırlayıb.

(Yeni əlifbanı öyrənən uşaqların səsi)

KLer Doyl məlumat verir:

Bu uşaqlar latın əlifbası ilə Azərbaycan dilində oxumağı öyrənirlər. Onların böyük qardaş və bacıları və valideynlərinin nəsli üçün vəziyyət çox fərqli idi. Onlar sovet hakimiyyəti illərində, Azərbaycan dilinin rəsmi yazı üsulu olan kiril əlifbasını öyrəniblər. Dilçi müəllim Jalə Qəribova[249] mənə latın əlifbasının azərbaycanlılar üçün əhəmiyyətindən danışdı.

Jalə Qəribova (dilçi müəllimi): Əlifba dəyişikliyi əslində müstəqillik ruhundan irəli gəlir. Bu, hər kəsin hiss etdiyi gözəl hissdir. Latın dili təkcə Rusiya ilə deyil, dünyanın bir çox ölkələri ilə inteqrasiya etməyə kömək edir. Bu hiss müəyyən formada digər problemlərin qarşısını alır.

Doyl: Əlbəttə, problemlər olacaq. Latın əlifbasına keçmək üçün ilk addımlar 1991-ci ildə, müstəqillik əldə etdikdən sonra atılsa da, nəticədə qarışıqlıq yaranıb. Məsələn, qəzetlərin çoxunda başlıqlar latın qrafikası ilə, məqalələr isə kiril qrafikası ilə çap edilir.

Mən Bakıda alış-veriş mərkəzindəyəm və ətrafa baxanda müxtəlif dildə və əlifbada işarələr görürəm. Mən burada "Vətən" kinoteatrının yanındayam. "Vətən" sözü Azərbaycan latın qrafikası ilə yazılıb. Bu gün nümayiş olunan film rus dilindədir və kənarda "kinoteatrda kondisioner bütün günü işləyir" cümləsi kiril qrafikası ilə yazılıb.

Budur, qadın paltarları satılan "Woman" adlı mağaza var. Burada şəhərdə ən aşağı qiymətlər reklam edilir, lakin bildiriş təkcə kiril qrafikası ilə deyil, əslində rus dilindədir. Görəsən, avqustun 1-də o lövhə qanunsuz olanda mağaza sahibi nə edəcək?

İlk bir neçə ayda bir az çətin olsa da, insanların çoxu yeni əlifbanı öyrənmək ideyası ilə barışıb. Azərbaycanın mədəni və ədəbi irsi ilə maraqlananları isə daha böyük maneələr gözləyir. Qəzetlər öz çap üsullarını inkişaf etdirsələr də, hazırda yeni latın qrafikası ilə çox az kitab çap olunub. Kiril əlifbası ilə oxuyanların sayı azaldıqca, sovet dövründə çap olunan bütün ədəbiyyat və tədqiqat materiallarının əlçatmaz olması təhlükəsi var.

Xanım Betti Bleyer:[245] Çap edilməsi lazım olan hər kitabı yenidən çap etmək çox bahadır.

Doyl: Betti Bleyer Azərbaycan mədəniyyəti ilə bağlı jurnal nəşr etdirir. O, düşünür ki, kitabları Azərbaycan latın qrafikası ilə təkrar çap etmək əvəzinə, veb-saytlarda təqdim etmək olar və insanların özləri onları yükləyib çap edə bilər, bu isə daha ucuz başa gələr.

Xanım Bleyer: Azərbaycan öz əlifbasında dəyişikliyi tarixin ən əlverişli vaxtında edir, çünki kompüterlər dəyişiklikləri həqiqətən sürətləndirə bilər.

Doyl: Təəssüf ki, hal-hazırda kompüterlərin və İnternetin qrafika dəyişikliyinə necə kömək edə biləcəyi barədə anlayış çox azdır. Azərbaycan latın əlifbasının standart forması və razılaşdırılmış klaviatura yoxdur, bu isə o deməkdir ki, yeni rəsmi qrafika ilə veb saytlar yaratmaq və ya elektron məktublar yazmaq çox çətindir.

**Müəllif: Thom Shanker**
**Tarix: 16.12.2001**
**Mənbə: New York Times (ABŞ)**
**Məqalənin adı: Rumsfeld to visit troops stationed in Afghanistan**
*www.nytimes.com*

# RAMSFELD ƏFQANISTANDA YERLƏŞDİRİLƏN QOŞUNLARA BAŞ ÇƏKƏCƏK

Amerika rəsmilərinin bu səhər Kabildən verdikləri məlumata görə, bu gün müdafiə naziri Donald H. Ramsfeld[250] paytaxtın şimalındakı hava bazasında Amerika hərbçiləri qarşısında çıxış etmək üçün Əfqanıstana səfər edəcək. Raymond Kordell "Reuters" agentliyinə bildirib ki, bu, cənab Ramsfeldin Əfqanıstana ilk səfəri olacaq və o, burada, Baqramda SSRİ tərəfindən tikilmiş bazanı mühafizə edən Amerika və Britaniya hərbçiləri ilə görüşməyi planlaşdırır.

Şənbə günü cənab Ramsfeld hər üç Qafqaz respublikasının paytaxtını ziyarət edib, iki ölkəyə qarşı tətbiq olunan sanksiyaların tezliklə ləğv olunacağını proqnozlaşdırıb və vəd edib ki, terrora qarşı mövcud müharibədə onların, məhdud da olsa, əməkdaşlığı ABŞ ilə hərbi əlaqələrin yeni erasına gətirib çıxaracaq.

Cənab Ramsfeldin Azərbaycanın paytaxtı Bakıya, daha sonra Ermənistanın paytaxtı Yerevana və Gürcüstanın paytaxtı Tbilisiyə səfərləri, Avropa və Asiyanın, Rusiya və Yaxın Şərqin kəsişməsində yerləşən mühüm regionla Amerika arasında hərbi əlaqələri möhkəmləndirmək planı üzərində təşkil olunmuşdur. Oktyabrın 7-də Əfqanıstanda terrora qarşı Amerikanın başçılığı altında başlayan müharibə bu üç dövlət tərəfindən, onların hava məkanından istifadə olunmasına icazə verən razılaşmaların sürətli qəbul olunması ilə dəstəkləndi və şənbə günü cənab Ramsfeldin paytaxtların hər birində qəbulu, şübhəsiz ki, bütün regionda intensiv və tarixi təhlükəsizlik maraqlarına malik olan Moskvanın da diqqətindən kənarda qalmadı.

"Mən hiss etdim ki, 11 sentyabr hadisələri dünya ölkəsinin çoxunun prioritetlərini və onların ABŞ və dünyadakı problemlər haqqındakı baxışlarını"' dəyişdi - cənab Ramsfeld ilk dayanacağında deyib. "Mənə elə gəlir ki, bu, yeni şəraitdə həmin ölkələrlə əlaqələri yenidən qurmaq üçün fürsət yaradır". Bu yeni imkanlar fəsadlardan da xali deyil, çünki vaxtilə kecmiş Sovet İttifaqının bir hissəsi olan bu ölkələrin perspektivləri etnoslararası münaqişələrin, Rusiya ilə münasibətlərin gərginləşməsinin, mütəşəkkil cinayətkarlığın, hökumətdə korrupsiyanın, insan hüquqlarının pozulmasının və kasibcılığın kölgəsində qalır. Əslində, ABŞ-nin terrora qarşı müharibəyə cəlb etdiyi bu iki dövlətin – Ermənistan və Azərbaycan -əhalisi müntəzəm olaraq qarşılıqlı ittihamlar irəli sürür, tərəflərdən hər biri iddia edir ki, etnik mənsubiyyətdən və ərazi ambisiyalarından qaynaqlanan terror hücumlarının həyata keçirilməsində və hətta onlara sponsorluq etməkdə qarşı tərəf günahkardır.

Cənab Ramsfeld şənbə günü gəlib, əvvəlcə Azərbaycanda, sonra isə Ermənistanda bildirib ki, Birləşmiş Ştatlar Konqresi

bir neçə gün sonra, 1992-ci ildə Azadlığa Dəstək Aktına əsasən, Azərbaycanın tərkibində əsasən etnik erməni əhalinin yaşadığı Dağlıq Qarabağ anklavı[4] ətrafında gedən şiddətli mübahisəyə cavab olaraq tətbiq edilmiş sanksiyalardan[29] imtina edəcək.

Aktın 907-ci maddəsi Azərbaycana aiddir (prezidentlər pariteti saxlamaq naminə onu Ermənistana da şamil ediblər), o, Ağ Ev, Azərbaycanın hücum əməliyyatlarını dayandırdığını, Ermənistan və Dağlıq Qarabağa qarşı blokadanı aradan qaldırdığını Konqres qarşısında təsdiq edənə qədər sanksiyalar tələb edir. Üç istisna mümkündür: demokratiya proqramlarına, silahların yayılmasına qarşı mübarizəyə və yaşayış yerlərinin minalardan təmizlənməsinə yardım göstərilməsinə icazə verilir. Hal-hazırda Konqresə təqdim edilən yeni güzəştlər paketi Amerikanın antiterror səylərini dəstəkləyən hərbi yardımlara icazə verəcək, yoxsa ABŞ və onun koalisiya tərəfdaşlarının döyüş hazırlığına yardım edəcək. Bununla belə, istənilən yardım sülh səylərinə xələl gətirməməli və ya Ermənistana qarşı hücumda istifadə olunmamalıdır. Uzun müddət keçmiş sovet siyasətində fəaliyyət göstərən, hazrda respublikanın millətçi prezidenti olan Heydər Əliyev[1] cənab Ramsfeldi, Amerikanın müstəqil Azərbaycana səfər edən ilk müdafiə naziri kimi salamlayıb. Cənab Əliyev cənab Ramsfeldin imtina xəbərini gətirdiyinə ümid etdiyini bildirib, cənab Ramsfeld isə "'Mən də umid edirəm"' cavabını verib.

Yerevanda Ermənistanın müdafiə naziri Serj Sarkisyan[251] bildirib ki, ABŞ ilə hərbi əlaqələrin genişləndirilməsi hər iki ölkənin xeyrinə olacaq.

Ən isti qarşılanma Tbilisidə, gecə saatlarinda keçirilən mətbuat konfransında, Gürcüstanın hava məkanının Rusiya tərəfindən pozulduğunu və vəzifəyə gəldiyi gündən həyatına

iki dəfə sui-qəsd edildiyini cənab Ramsfeldə xatırladan Gürcüstan prezidenti cənab Eduard Şevardnadzedən[11] gəlib. "Birləşmiş Ştatlar Gürcüstana ciddi dəstək və yardım göstərib" – keçmiş sovet xarici işlər naziri və ölkəsini ABŞ ilə münasibətlərin yeni mərhələsinə aparan cənab Şevardnadze deyib. Cənab Şevardnadze qlobal terrorçuluğa qarşı mübarizəyə yardımı davam etdirəcəyini vəd edib və "ölkəsində mövcud olan zorakı separatçıları" terror elementi kimi qiymətləndirib.

**Tarix: 27.01.2002**
**Mənbə: The New York Times (ABŞ)**
**Məqalənin adı: Progress made in disputes over Caspian**
*www.nytimes.com*

# XƏZƏRLƏ BAĞLI MÜBAHİSƏLƏRDƏ İRƏLİLƏYİŞ ƏLDƏ OLUNUB

Bu gün Azərbaycan Prezidenti Heydər Əliyev[1] Xəzər dənizinin keçmiş dörd sovet dövləti və İran arasında bölünməsi[252] ilə bağlı mübahisələrin həllində əhəmiyyətli irəliləyiş əldə olunduğunu bildirib.

Moskvaya üç günlük səfərinin[253] yekunları ilə bağlı mətbuat konfransında çıxış edən cənab Əliyev deyib ki, Rusiya, Qazaxıstan və onun ölkəsi sərvətlərlə zəngin dənizlə bağlı əməkdaşlıq haqqında razılaşma əldə etsə də, hələ çox iş görülməlidir.

Səfər zamanı cənab Əliyev Rusiya Prezidenti Vladimir Putinlə[230] görüşüb və Azərbaycan ərazisində Rusiyanın raket izləmə stansiyasının statusu[254] müəyyən edilib. Onun sözlərinə görə, Rusiya və Azərbaycan Xəzər dənizində sərhədləri müəyyən edən orta xətt barədə razılığa gəliblər, – Rusiya və Qazaxstan bunu artıq ediblər.[255] O, bildirib ki, həm Rusiya, həm də Azərbaycan Türkmənistan ilə danışıqlara başlayıb.

Quru ilə əhatələnən dənizin bölünməsi ilə bağlı mübahisələr 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra region-

dakı münasibətləri pisləşdirib. Rusiya, Qazaxıstan və Azərbaycan, hər bir ölkənin yurisdiksiyasının onun sahillərinin uzunluğu ilə bağlı olması haqqında əsasən razılığa gəliblər, İran isə dənizin beş bərabər hissəyə bölünməsini istəyir.

"Biz indi Rusiya ilə Azərbaycan arasında orta xəttin müəyyənləşdirilməsi barədə razılaşdıq", – cənab Əliyev bildirib. "Xəzərin mineral ehtiyatlarından üç dövlətin istifadəsi məsələsi bundan sonra qəti şəkildə həll olunacaq"'.

Türkmənistan Azərbaycanın, onun da iddia etdiyi yataqları istismar etmək səylərindən narahat olaraq, indiyədək istənilən razılaşmadan imtina edib.

Dənizin bölünməsi üzrə danışıqlarda Rusiyanın əsas nümayəndəsi, xarici işlər nazirinin müavini Viktor Kalyujnı[256] apreldə razılığın əldə oluna biləcəyini güman edir.

Xəzər dənizi üzrə zirvə toplantısı, mübahisələrin uzanması səbəbindən dəfələrlə təxirə salınıb. Ötən il İran Azərbaycanın iddia etdiyi sularda kəşfiyyat işləri aparan "BP" neft şirkətinə məxsus iki gəmini təqib etmək üçün döyüş gəmiləri göndərib.[239] Türkmənistan, hər iki ölkənin iddia etdiyi yataqda işləri dayandırmaq barədə Azərbaycana xəbərdarlıq edib.

Cənab Əliyevin səfəri, Rusiyaya Hindistan, Pakistan və Körfəzin də daxil olduğu regiona nəzarət üçün Sovet İttifaqı tərəfindən inşa edilən Qəbələ raket izləmə stansiyasından istifadə etmək imkanı verən, 10 il müddətinə imzalanan, lakin stansiyanı Azərbaycanın mülkiyyəti kimi tanıyan razılaşma ilə yekunlaşıb. SSRİ dağılandan bəri stansiya ilə bağlı mübahisələr Moskva ilə Azərbaycanın paytaxtı Bakı arasında münasibətləri pozmuşdu. İki ölkə arasında 2010-cu ilə qədər iqtisadi əlaqələrin inkişafına dair saziş imzalanıb.

**Tarix: 02.02.2002**
**Mənbə: APS Diplomat Recorder (Vol.56, İssue 5)**
**Məqalənin adı: RUSSIA - Jan. 28 - Aliyev in Moscow**

# RUSİYA – 28 YANVAR – ƏLİYEV MOSKVADA

Azərbaycan Prezidenti Heydər Əliyev[1] Moskvaya səfəri çərçivəsində[253] Prezident Putinlə[230] görüşündən sonra keçirilən mətbuat konfransında bildirib: "Biz Rusiya və Azərbaycan arasında orta xəttin müəyyənləşdirilməsi üzrə işə başlamaq barədə razılaşdıq". O, qeyd edib ki, Putinlə danışıqlar Xəzər dənizinin sektorlara bölünməsi ilə bağlı iki ölkə arasında uzun müddətdir ləngiyən razılaşmaya nail olmaq üçün tərəfdaşlığın yaranmasına kömək edə bilər.

O deyib ki, Moskva və Bakı arasında belə bir razılaşma əldə edilən kimi "Xəzər dənizinin mineral resursları məsələsi biz üç dövlət arasında tamamilə həll ediləcək… Biz bütün xəzəryanı dövlətlər arasında razılaşmaya nail olmaq üçün işimizi davam etdirməliyik. Düşünürəm ki, buna nail olacağıq, amma bunun nə qədər vaxt alacağını demək çətindir".

(Dünyada üçüncü hesab olunan ən böyük neft ehtiyatları da daxil olmaqla, Xəzər dənizinin resurslarından istifadə İran və Sovet İttifaqı arasındakı sazişlə tənzimlənirdi. 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra, beş sahilyanı ölkə Xəzərin sərvətləri ilə bağlı bir-birinə zidd olan iddialar irəli sürdülər. Rusiya, Azərbaycan və Qazaxıstan hesab edirlər ki, akvatoriya ümumi istifadə üçün açıq olsa da, dənizin dibi milli sektorlara bölünməlidir və bu zaman ən kiçik sektor İrana düşür. Tehran

dəniz dibinin bərabər bölünməsini istəyir, Türkmənistan isə bu iki təklif arasında ortaq məxrəc tapılması fikrinin tərəfdarıdır. Moskva və Bakı Qazaxıstanla, Xəzər dənizində özlərinin müvafiq sektorları arasında xətti müəyyənləşdirmək barədə ikitərəfli razılaşma imzalayıblar. Xəzəryanı ölkə liderlərinin, bundan əvvəl iki dəfə ləğv edilmiş görüşünün 2002-ci ildə Türkmənistanda keçirilməsi planlaşdırılır. Xəzər dənizi ilə bağlı oxşar mövqe tutmalarına baxmayaraq, Moskva və Bakı razılaşma əldə edə bilmədilər, çünki digər sahələrdə mübahisələr qalmaqdadır. Keçmişdə Azərbaycan Moskvanı, Azərbaycanda etnik erməni anklavı[4] olan Dağlıq Qarabağ uğrunda 14 ildir davam edən münaqişədə Ermənistana tərəfkeşlik etməkdə günahlandırmışdı.)

Günün əvvəlində xarici işlər naziri İqor İvanovla[257] görüş zamanı Əliyev bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Rusiya həlledici rol oynaya bilər.

**Müəllif: Tony Dawe**
**Tarix: 21.05.2002**
**Mənbə: The Times (İngiltərə)**
**Məqalənin adı: İnternet goldmine ready to be found**
*www.thetimes.com*

## İNTERNET QIZIL MƏDƏNİ TAPILMAQ ÜZRƏDİR

İnvestorlar azərbaycanlıların İnternetə olan marağına diqqət yetirməlidirlər, Tony Dawe deyib.

Azərbaycan Xəzər dənizi ilə həmsərhəd olan ən kiçik ölkə ola bilər, lakin o, iqtisadi inkişaf və uğurlu investisiyalar üçün bəlkə də ən böyük potensiala malikdir. İstifadə olunmamış böyük neft və qaz yataqlarının olması, ÜDM-in ildə 8 faiz artması və islam Şərqi ilə xristian Qərbi arasında strateji mövqeyi xarici investorları davamlı olaraq bu ölkəyə cəlb edir.

Neft bumuna və biznesin inkişafına yardım edəcək telekommunikasiya sənayesi artıq bundan faydalanmışdır. Rabitə Nazirliyi və "Lukoil Avropa" şirkəti tərəfindən (Böyük Britaniya) birgə uğurlu "AzEuroTel" şirkəti yaradılıb və hazırda o, regiondakı neft şirkətlərinin 70 faizini bütün rabitə xidmətləri ilə təmin edir.

Avropa banklarının koalisiyası həmçinin "Azercell" Azərbaycan-Türkiyə birgə mobil telefon operatorunun inkişafı üçün

7 milyon funt sterlinq kreditin ayrılması barədə razılığa gəlib. Bu, Azərbaycan hökumətindən zəmanət tələb olunmadan verylən ilk Avropa kreditidir.

Ölkənin digər mobil operatoru "Bakcell" də İsrail sərmayəsi ilə yaradılan birgə müəssisədir. Bu operatorların, əksəriyyəti "Azercell"ə aid olan 550 000 abonenti var, onların çoxu öncədən ödənişli proqramlara malikdir. Qeyri-adekvat sabit şəbəkəyə malik olan ölkədə mobil operatorların sürətli inkişafı qaçılmazdır. Bəzi şəhərlərdə evlərin və biznesin yalnız 10 faizi qoşulub, bu da mobil operatorlara ən sərfəli xidməti təklif etmək üçün yol açır.

"Azercell" və "Bakcell"in uğuru, hökumətin ötən ilin sonunda üçüncü operator üçün təklif etdiyi lisenziyaya iddialı olan digər potensial investorlar üçün zərbə olub.

Əvəzində rabitə naziri Nadir Əhmədov[258] mövcud şirkətlərin ölkənin mobil telefona ehtiyacını adekvat şəkildə ödədiyini və üçüncü operatora ehtiyac olmadığını açıqlayıb.

Bununla belə, investorlar öz diqqətini hökumətin özəlləşdirməyə çalışdığı "Aztelecom" dövlət telefon şirkətinə və hökumətin öz payını satmaq istədiyi üç dövlət-özəl telekommunikasiya müəssisəsinə yönəldə bilərlər.

"Aztelecom" böyüyən iqtisadiyyata uyğun xidmət göstərmək istəyirsə, onda özəl investisiyalara böyük ehtiyac var. Hazırda o, cəmi 850.000 əsas xətti təmin edir və onun şəbəkələrinin çoxu köhnə və səmərəsizdir.

İnvestorlar biznesin böyüməsindən faydalanmaqla yanaşı, İnternet xidmətlərinin inkişafından da qazanc əldə etmək imkanına malikdirlər. Hesablamalara görə, ölkədə cəmi 12 000 istifadəçi var, lakin şirkətlərin çoxu və informasiya texnologiyaları

sahəsində bilikləri olan azərbaycanlılar İnternetə getdikcə daha çox maraq göstərirlər.

Onun inkişafı Trans-Asiya-Avropa fiber-optik kabel xəttinin tikintisinə əsaslanacaq, bu da Azərbaycanda müəssisələrə və fiziki şəxslərə qlobal rabitə kanallarına çıxış imkanı verəcək.

Paytaxt Bakıdan kənarda keyfiyyətsiz və qeyri-sabit xətlərin olması regionlarda İnternet provayderləri peyk vasitəsilə qoşulmaq barədə düşünməyə vadar edir. Bu ehtiyac Qərbdə avadanlıq istehsalçıları və şəbəkə inteqratorları üçün ən yaxşı satış perspektivlərindən birini təqdim edə bilər.

"AzEuroTel" özəl investisiya ilə nəyə nail oluna biləcəyini nümayiş etdirib. 1990-cı illərin ortalarında hökumət sənayedə kommunikasiya infrastrukturu yaratmaq məqsədilə yardım üçün neft şirkətlərinə müraciət etdikdə, yeganə cavab verən "Lukoil" olmuşdu. O, yeni şirkətin yaradılması üçün Rabitə Nazirliyi ilə birgə yaradılmış müəssisəyə 8 milyon funt sterlinq sərmayə qoymuşdu.

"Biz Azərbaycanda yeganə olan magistral xətt yaratdıq, beynəlxalq və uzun məsafəli rabitə üçün peyk terminalları, simsiz çıxış və məlumat təminatı şəbəkəsi və İnternet xidmətləri üçün avadanlıqlar quraşdırdıq", – baş direktor Nuri Əhmədov[259] deyib. "Xülasə, biz neft şirkətlərinə, mobil rabitə istisna olmaqla, bütün rabitə xidmətləri göstərmişik".

Şirkətin ən böyük nailiyyəti regionda unikal olan "Sistem X" rəqəmsal birjanın yaradılması olub. O, hər hansı bir nasazlıq ehtimalını istisna edən, mühüm satış nöqtəsi olan, zəlzələlərə meylli bir ölkədə avtonom fasiləsiz enerji təchizatı ilə dəstəklənir.

"Digər keçmiş sovet telefon şirkətləri yerli şəbəkələr üçün analoq avadanlıqlardan istifadə etməklə və ənənəvi xidmətlər göstərməklə modernləşməyə davam edərkən, biz onillik ənə-

nəni pozduq", – Əhmədov deyib. "Əvəzində isə geniş çeşiddə xidmət göstərmək üçün biz rəqəmsal rabitə yolu ilə getdik".

Şirkət ən son avadanlığın quraşdırılmasını davam etdirmək üçün texnologiya şirkətləri ilə tərəfdaşlıq etməyə hazırdır. O, həmçinin xidmətlərini beş dəfə artırmaq istəyir, lakin nazirliyin şirkətdəki iştirakı genişlənmə planlarına mane olur.

Əhmədov şirkətin tam özəlləşdirilməsinə calışır və "Lukoil Avropa" şirkətinin hökumətin 50 faizlik payını alacağını proqnozlaşdırır. Hökumətin sonda digər iki birgə müəssisə olan "Katel" və "Ultel" telekommunikasiya şirkətlərindəki payını da itirəcəyi gözlənilir.

TORONTO STAR

**Müəllif: Viktor L. Simpson**
**Tarix: 23.05.2002**
**Mənbə: Toronto Star (Kanada)**
**Məqalənin adı: Frail Pope keeps up gruelling schedule**
**Azerbaijan first stop of busy travel period**
***www.thestar.com***

# GƏRGİN SƏYAHƏTİNİ YORUCU QRAFİKLƏ DAVAM ETDİRƏN ZƏİF PAPANIN İLK DAYANACAĞI AZƏRBAYCANDIR

BAKI, Azərbaycan – Beli bükülmüş, ləng və zəif Papa İoan Pavel[260] dünən bu müsəlman ölkəsinə səfərə başlayıb, "nə qədər ki, nəfəs alıram" sülhə nail olmaq əzmindədir, lakin o, çıxışlarının yalnız bir neçə sətirini oxuya bilib və çox vaxt yerində oturub.

Azərbaycan və Bolqarıstana beş günlük səfər, şənbə günü 82 yaşı tamam olan və getdikcə zəif görünən İoan Pavel üçün çətin səyahət dövrünün başlanğıcı oldu.

Papanın sözçüsü Xoakin Navarro-Valls, Romadan uçuş zamanı İoan Pavelin səhhəti ilə bağlı suala "Gördüyünüz kimidir" cavabını verib. Papanın nitqi qarışır və əlləri titrəyir – parkinson xəstəliyinin əlamətləridir, – diz və bel ağrıları səbəbindən çətinliklə yeriyir.

Bu keçmiş sovet respublikasında Papanın gündəliyinə fundamentalizmin pislənməsi, dini dözümlülüyə və din adı altında heç vaxt zorakılıq etməməyə çağırış daxildir.

Dünən Papa Prezident sarayında çıxışının, 24 illik papalığını davam etdirmək niyyətinin də əks olunduğu qalan hissəsini oxumaq üçün keşişə verməzdən əvvəl rus dilində qarışıq, çətinliklə eşidilən şəkildə danışıb.

"Mən Azərbaycana sülh səfiri kimi gəlmişəm. Nə qədər ki, nəfəs alıram: "Allah naminə sülh" deyə qışqıracağam".

Navarro-Valls keçən həftə iki nüfuzlu kardinalın, səhhəti missiyasını yerinə yetirməyə imkan vermədiyi təqdirdə papanın istefa barədə nə düşündüyü haqqında açıqlamalarına İoan Pavelin reaksiyası ilə bağlı suallardan yayınaraq, "o, qəzetləri oxuyur" deyib.

İoan Pavel papa olaraq səyahətləri zamanı ilk dəfə, Romada təyyarəyə minərkən və Bakıda enərkən mobil liftdən istifadə edib.

Vatikanın statistikasına görə, 7,5 milyon nəfər əhalisi olan və Roma-katolik məzhəbinə aid cəmi 120 nəfərin yaşadığı Azərbaycan, papanın səfər etdiyi ölkələr arasında ən kiçik katolik icmasına malikdir. Azərbaycanda Vatikanın diplomatik missiyası belə yoxdur, İoan Pavel pontifikliyi dövründə bütün xarici səfərləri zamanı ilk dəfə mehmanxanada qalmağa məcbur olub.

Bu gün İoan Pavel Bolqarıstana yola düşməzdən əvvəl, idman arenasında ibadət mərasimi keçirəcək. Roma Papası Meksika, Qvatemala və vətəni Polşaya səfərdən əvvəl, iyulun 22-28-də Ümumdünya Gənclər Günü münasibətilə Torontoya səfər edəcək.

**Müəllif: Alice Lagnado**
**Tarix: 19.09.2002**
**Mənbə: The Times (İngiltərə)**
**Məqalənin adı: US backing for Caspian oil pipeline sidesteps Russia**
*www.thetimes.com*

# ABŞ-NİN DƏSTƏKLƏDİYİ XƏZƏR NEFT KƏMƏRİ RUSİYADAN YAN KEÇİR

Dünən, Xəzər dənizində ABŞ-nin dəstəklədiyi neft kəmərinin[108] tikintisinin davam etdiriləcəyi açıqlanıb.

Üç milyard dollarlıq boru kəməri illərdir mübahisə mövzusu olub və perspektivli Xəzər neft yataqları üzərində Rusiyanın təsirini azaldacağı gözlənilir.

O, Azərbaycandan, keçmiş sovet peyk şəhəri Bakıdan başlayıb, Gürcüstandan keçməklə, Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına[167] qədər uzanacaq.

Bu, Xəzər dənizindən başlayıb Rusiya ərazisindən yan keçən ilk böyük boru kəməri olaraq, Moskvanın Xəzər hövzəsi üzərində nəzarəti qarşısında problem yaradacaq. Neft analitikləri deyirlər ki, ABŞ üçün onun strateji əhəmiyyəti kommersiya mülahizələrini üstələyir. O, Amerikanın Körfəz ixracatçılarından və Rusiya boru kəmərlərindən asılılığını azaltmalıdır.

Layihə səkkiz ildir planlaşdırılıb, lakin Qərb şirkətləri bu layihənin kommersiya cəhətdən məqsədəuyğunluğunu şübhə altına aldıqları üçün onun reallığa çevrilməsi çətin görünürdü.

İran və Rusiyadan keçən digər iki marşrutun daha qısa və daha ucuz olmasına baxmayaraq, onlar Vaşinqton tərəfindən rədd edilib.

Xəzər hövzəsinin dünyada üçüncü ən böyük neft və qaz ehtiyatlarına malik olduğu düşünülsə də, analitiklər orada gözlənilәndən daha az neft ola biləcəyindən narahatdırlar.

İki il əvvəl layihə demək olar ki, iflasa uğramışdı. Vaşinqtondakı Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin energetika üzrə mütəxəssisi Robert Ebel o zaman deyirdi ki, "Boru kəmərini doldurmaq üçün kifayət qədər neftiniz olmalıdır və orada kifayət qədər neft yoxdur".

Rusiyalı skeptiklər iddia edirlər ki, Amerikanın əsas məqsədi Cənubi Asiya cinahında ABŞ yönümlü, neftlə zəngin dövlətlərin – Gürcüstan, Azərbaycan, Qazaxıstan və Türkmənistan - oxunu yaratmaqdır.

Onlar deyirlər ki, Buş[228] administrasiyası və Klinton[41] administrasiyası sərmayə qoymaları üçün neft şirkətlərinə təzyiq ediblər. Onların fikrincə, bu kəmərin çəkilməsi İranın Xəzər neftindən qazanc əldə etməsinə mane olacaq və Rusiyanın regionda çoxəsrlik təsirini azaldacaq.

Yerli liderlər ümid edirlər ki, boru kəməri onların dağılmış iqtisadiyyatlarına yeni həyat verəcək. Kommunizmin süqutundan sonra Qafqaz regionu yoxsul, kriminal və qeyri-sabit yerə çevrilib.

**Tarix: 24.09.2002**
**Mənbə: The Moscow Times (Rusiya)**
**Məqalənin adı: Putin, Aliyev ink accorord on Caspian**
**www.themoscowtimes.com**

# PUTİN VƏ ƏLİYEV XƏZƏR DƏNİZİ BARƏDƏ SAZİŞ İMZALAYIBLAR

Bazar ertəsi Rusiya və Azərbaycan Xəzər dənizinin bölünməsi haqqında ikitərəfli saziş imzaladılar. Bu, Moskvanın, neftlə zəngin olan sularda həmsərhəd olan dövlətlə imzaladığı ikinci belə sazişdir.

Aprel ayında xəzəryani beş dövlət - Azərbaycan, İran, Rusiya, Qazaxıstan və Türkmənistan arasında daha böyük razılaşma barədə aparılan danışıqlar nəticəsiz başa çatdıqdan sonra Rusiya və bəzi digər xəzərətrafı dövlətlər, okeana çıxışı olmayan dənizin bölünməsi barədə ikitərəfli sazişlər imzalamağa başladılar.

Prezident Vladimir Putin[230] və Azərbaycan lideri Heydər Əliyev[1] arasında bazar ertəsi imzalanan saziş, Rusiya və Qazaxıstan arasında ötən ilin mayında, üç böyük neft və qaz yatağının iki dövlət tərəfindən birgə işlənməsinə dair razılıq əldə olunmasından sonra imzalanan oxşar sazişdən sonra imzalanıb.

1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra, Şimal dənizində olan qədər neft ehtiyatının olduğu güman edilən Xəzər dənizinin yeni hüquqi statusa ehtiyacı vardır.

O vaxta qədər isə o, yeganə sahilyanı dövlətlər olan İran və Sovet İttifaqı arasında 1970-ci ildə bağlanmış müqavilə ilə tənzimlənirdi.

İran dənizin beş dövlət arasında bərabər bölünməsini istədiyi halda, Rusiya, Qazaxıstan və Azərbaycan onun, Xəzər dənizinin ən az hissəsinin İrana çatmasını təmin edən orta xətt prinsipi əsasında bölünməsinə tərəfdar olduqlarını bildiriblər.

Bazar ertəsi Kremildə imzalama mərasimində çıxış edən Əliyev bildirib ki, Azərbaycan, Qazaxıstan və Rusiya ortaq mövqeyə gəldiyi üçün müqavilənin böyük əhəmiyyəti vardır. "Mən əminəm ki, bu İran və Türkmənistanın mövqeyinə təsir edəcək" – o, deyib.

**Tarix: 2001-2002**
**Mənbə: Country Watch (ABŞ)**
**Məqalənin adı: Environmental issues**
***www.countrywatch.com***

# EKOLOJİ MƏSƏLƏLƏR

**Ümumi icmal.** Keçmiş Sovet respublikalarından biri kimi, Azərbaycan illərlə nəzarətsiz sənayeləşməyə məruz qalmışdır. Qeyri-rasional ekoloji təcrübələr, xüsusilə Xəzər dənizi regionunda, onilliklərlə davam etmişdir.

**Cari ekoloji məsələlər.** Azərbaycanda mühüm cari ekoloji məsələlər aşağıdakılardır:

• Bakı, Sumqayıt və Xəzər dənizi daxil olmaqla, Abşeron yarımadasında havanın, suyun və torpaqın kəskin çirklənməsi

• ziyanverici həşəratlara qarşı mübarizədə pestisid olaraq DDT-dən[261] və pambıq becərilməsində zəhərli defoliantlardan[262] istifadə edilməsi nəticəsində torpağın çirklənməsi

• məişət, sənaye və radioaktiv tullantıların toplanması

• meşələrin qırılması

• sahil eroziyası

•biomüxtəlifliyin məhv olması

• ekologiya ilə bağlı xəstəliklərdə artım halları

Təklif edilən qanunvericiliyə ətraf mühit ilə bağlı hesabatlılıq sistemi, məhvolma təhlükəsi qarşısında qalan növlərin qorunması, eroziya və meşələrin məhv olmasına qarşı aparılan

mübarizə tədbirləri, suyun keyfiyyətinin yaxşılaşdırılması, aqrokimyəvi maddələrin, pestisidlərin, mineral gübrələrin, neft-kimya sahəsinin, metallurgiyanın və s. tənzimlənməsi və təkrar emal texnologiyalarının inkişafı barədə müddəalar daxildir.

**Təbii təhlükələr.** Azərbaycanda əsas təbii təhlükələrə quraqlıq və bəzi ovalıq ərazilərdə Xəzər dənizi səviyyəsinin artması daxildir.

**Ətraf mühitə hüquqi nəzarət və tənzimləmə.** Azərbaycanda ətraf mühitin mühafizəzi və tənzimlənməsi Dövlət Ekologiya və Təbii Sərvətlər Komitəsinin səlahiyyətindədir.

**Əsas ekoloji təşkilatlar.** Azərbaycanda ekoloji sahə üzrə əsas qeyri-hökümət təşkilatı Azərbaycan Yaşıllaşdırma Hərəkatıdır. Əvvəlki layihələrə Kür çayı boyunca çirklənmə faktlarının toplanması, sənaye tullantıları haqqında faktların toplanması, qida məhsullarının radioaktiv çirklənməsinə nəzarət edilməsi, Bakıda ağac əkilməsi və Abşeron yarımadasında neftlə çirklənmiş göllərdə qışlayan köçəri quşların məhv olmasının qarşısının alınmasına yardım edilməsi daxildir.

**Beynəlxalq ekoloji sazişlər.** İqlim Dəyişikliyi haqqında Saziş ekologiya sahəsində Azərbaycanın qoşulduğu əsas beynəlxalq sazişdir.

Azərbaycan Biomüxtəliflik haqqında Sazişi imzalayıb, lakin ratifikasiya etməyib.

**Tarix: 03.01.2003**
**Mənbə: Economist Intelligence Unit N.A. Incorporated (İngiltərə)**
**Məqalənin adı: Azerbaijan economy: IMF ties complicated**
***www.eiu.com***

# AZƏRBAYCAN İQTİSADİYYATI: BVF İLƏ ƏLAQƏLƏR MÜRƏKKƏBLƏŞİR

**İqtisadi kəşfiyyat bölməsindən**

Azərbaycan hökuməti ilə BVF arasında struktur islahatları və nəzərdə tutulmayan neft gəlirlərinin toplandığı milli fond olan Azərbaycan Respublikası Dövlət Neft Fondunun[263] (ARDNF) vəsaitlərindən istifadə məsələlərində fikir ayrılığı yaranıb. Azərbaycan, BVF-nin 2001-ci ildə qəbul etdiyi Yoxsulluğun Azaldılması və İnkişaf Proqramı (YAİP) çərçivəsində, ən azından xərcləri ödəmək üçün daxili enerji qiymətlərini tədricən artırmalıdır.

Hökumət həmçinin özəlləşdirməni davam etdirməyi, məsələn, Azərbaycan Beynəlxalq Bankındakı (ABB) dövlət payının uzun müddət təxirə salınan satışı ilə bağlı addımlar atacağını öhdəsinə götürüb, lakin hökumət hələ də bu razılaşmaları yerinə yetirməyib. Buna görə də, BVF may ayından etibarən YAİP çərçivəsində üçüncü kredit tranşını dayandırıb. Hökumət ABB-nin özəlləşdirilməsini 2003-cü ildə başa çatdıra biləcəyini bildirib, lakin enerji qiymətləri məsələsində, onun sosial gərginliyə

səbəb ola biləcəyini düşündüyü üçün heç bir çeviklik nümayiş etdirməyib.

Hökumət digər əsas sahələrdə islahatlar aparmasa, onun mövqeyi çox güman ki, kreditin ayrılmasına mane olacaq. Buna baxmayaraq, kreditin kəsilməsi ciddi narahatlıq doğurmur, çünki yaxın bir neçə il ərzində Azərbaycanın hər il Birbaşa Xarici İnvestisiyalar şəklində ən azı 1 milyard ABŞ dolları əldə edəcəyi gözlənilir.

Enerji təchizatına görə ödənişlərin aparılmaması müəssisələrarası iri miqdarda borcun (debitor borcları çıxılmaqla) yaranması ilə nəticələnib və iyunun sonu üçün bu, 9,5 trilyon manat (illik ÜDM-in 35%-i) səviyyəsində qiymətləndirilir. Problemin miqyası işıq və qazın topdansatış qiymətlərinin aşağı olmasından aydın görünür. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) Rusiyadan hər 1000 kubmetri 52 ABŞ dolları olan qaz idxal edir, əlavə olaraq hər 1000 kubmetr üçün 4 ABŞ dolları nəqliyyat xərci ödəyir. İdxal edilən qaz daha sonra ARDNŞ tərəfindən, hər 1000 kubmetri 75 manata (15,5 ABŞ dolları), dövlətə məxsus yerli qaz təchizatçısı olan "Azəriqaz"a satılır.

"Azəriqaz" isə bu qaz tədarükü üçün ARDNŞ-ə nadir hallarda pul ödəyir. "Azəriqaz" bu qazı istehlakçılara daha ucuz qiymətə – hər 1000 kubmetrini 35,6 manata (7,3 ABŞ dolları) satır. Bu satışlar üzrə gecikdirilən borcların səviyyəsi təxminən 75% təşkil edir. ARDNŞ isə bu itkiləri qarşılamağa məcbur olan şirkətdır. Eyni zamanda, ARDNŞ maliyyə baxımından Azərbaycanda ən mühüm şirkətdir, 2001-ci ildə ümumi büdcə gəlirlərinin təqribən 35%-i onun payına düşürdü.

**Boru kəməri üçün ödəniş**

Hökumətin Bakı-Tbilisi-Ceyhan[108] (BTC) neft kəmərinin maliyyələşdirilməsində ARDNŞ-in payının böyük hissəsinin ödənilməsi üçün ARDNF-nin vəsaitlərindən istifadə etmək qərarı BVF ilə münasibətləri daha da mürəkkəbləşdirib. Boru kəməri konsorsiumu 70:30 nisbətində borc kapitalı ilə bağlı qərar qəbul edib. Konsorsiumda 25% paya malik olan ARDNŞ 2,9 milyard ABŞ dolları dəyərində layihə çərçivəsində 725 milyon ABŞ dolları ödəməlidir.

ARDNŞ 40% paya malik olduğu və 3,2 milyard ABŞ dolları dəyərində olan "Şahdəniz" qaz layihəsi üçün daha böyük hesab ödəməlidir. Hökumət BTC-nin maliyyələşdirilməsi üzrə payını ARDNŞ-dən borc götürərək və onun bəzi vəsaitlərdən istifadə etdərək ödəmək qərarına gəlib. Prezident Heydər Əliyev[1] iyulda bildirib ki, ARDNŞ-nin BTC-də payının 70%-i kreditlər, qalan hissəsi isə hökumət mənbələri, yəni ARDNF və büdcə hesabına ödəniləcək.

BVF bu qərara etiraz edib, çünki ARDNF-nin qaydalarına görə, BTC kimi kommersiya müəssisələri Neft Fondundan maliyyələşdirilə bilməz. ARDNF-nin qanunvericilik bazasının 4.5-ci maddəsində qeyd olunur ki, "onun vəsaitləri nə dövlət orqanlarına, ictimai və ya qeyri-dövlət müəssisələrinə (təşkilatlarına) kredit vermək üçün, nə də Azərbaycan Respublikasının himayəsində olan hər hansı qurumun borcları (öhdəlikləri, zəmanətləri) və ya digər öhdəlikləri üçün girov kimi istifadə edilə bilməz".

Hökumətin istinad etdiyi 4.3-cü maddəyə görə isə, ARDNF-nin vəsaiti "ölkənin sosial-iqtisadi tərəqqisi məqsədilə strateji əhəmiyyətli infrastruktur obyektlərinin tikintisi və yenidən qurulması üçün" istifadə edilə bilər. Hökumət uzun müd-

dətdir ki, BTC-ni strateji əhəmiyyətli infrastruktur layihəsi hesab edir. Bundan başqa, indi hökumətin maliyyə vəziyyəti yaxşıdır və BVF-nin maliyyəsinə ehtiyacı yoxdur. BVF-nin YAİP üzrə krediti üç il müddətinə 100 milyon ABŞ dollarıdır, halbuki 2002-ci ilin birinci yarısında birbaşa xarici investisiyalar (BXİ) 450 milyon ABŞ dollarından çox olmuşdur.

THE TIMES

**Müəllif: Carl Mortished**
**Tarix: 14.02.2003**
**Mənbə: The Times (İngiltərə)**
**Məqalənin adı: Oil pipeline has the power to change lives**
*www.thetimes.com*

# NEFT KƏMƏRİ HƏYATLARI DƏYİŞDİRMƏK GÜCÜNƏ MALİKDİR

Gürcüstanın Borjomi[264] şəhərindəki bankın çirkli ofisində palto və çadraya bürünmüş yaşlı qadın kiril hərfləri ilə "CCCP" yazılmış kitabçanı irəli uzadır. Notarius köhnə sovet pasportunu gözdən keçirib sənədlər toplusunu hazırlamağa başlayır. Qadın həyatının, mümkündür ki, ən vacib maliyyə əməliyyatına daxil olmaq üzrədir.

O, torpağını "BP"-nin idarə etdiyi şirkətə satır və onun müqaviləsi böyük, mürəkkəb və siyasi baxımdan həssas enerji layihəsinin kiçik bir parçasıdır.

Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri[108] Xəzər dənizinin Azərbaycan sahilindən Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan[167] terminalına qədər 1800 kilometr (1120 mil) məsafədə uzanacaq. O, Azərbaycandakı səhradan Gürcüstana daxil olacaq, Qafqaz dağlarında 2800 metr (9190 fut) yüksəkliyə qalxaraq, yaşlı gürcü qadına məxsus kiçik bir torpaq sahəsindən keçəcək.

Notariuslar imza üçün digər sənədləri hazırlayarkən, ofisdə kiçik bir izdiham toplanır və parkinson xəstəliyindən titrəyən zəif adama uşaqları stulda əyləşməyə kömək edir. BTC-nin Gürcüstandakı torpaq alqı-satqısı üzrə koordinatoru David Maisuradzenin sözlərinə görə, torpaq sahiblərini tapmaq böyük problemə çevrilib. Belə ki, Sovet İttifaqının dağılmasından sonrakı on ildən də az müddətdə torpaq mülkiyyəti sahiblərinə verilib və reyestrdə səhvlər var.

Torpaq bazarı yoxdur və buna görə də təsərrüfat gəlirlərinə əsaslanan kompensasiya düsturu icad etmək lazım idi. BTC-nin Tbilisidəki kommersiya meneceri Bill Taunsend deyir: "Biz onlara ədalətli təzminat və bəlkə də bir az daha çox pul vermək istəyirik". Gürcü fermerlər üçün bu böyük məbləğdir. Onlar ayda 40 lari, təxminən 12 funt sterlinq qazana bilər, lakin Borjomidəki bankın kassası bir neçə illik gəlirə bərabər minlərlə dollar həcmində nağd ödənişlər edir – heç kim banklara etibar etmir. Bu yaxınlarda Ahalsıxda[265] bir torpaq sahibi təxminən 35.000 dollar (21.400 funt sterlinq) dəyərində pulla bankdan çıxıb, şahanə gəlirdir.

Gürcüstanda quldurlar və girovlar görünməyən bir şey deyil və belə cekpot uduşu "BP"-nin gürcü əməkdaşları arasında müəyyən təşviş yaradır, çünki onlar boru kəmərinin sponsorunun, bəxti gətirən fermeri gürcü həmkarlarından qorumaq öhdəliyinin olub-olmamasından narahat idilər.

O, etnik və siyasi rəqabətin hökm sürdüyü bərbad, pis idarə olunan və yoxsul bir ölkədir. Vətəndaş müharibəsi nəticəsində dağılan və sovet imperiyasının süqutunndan sonra sənayedən məhrum olan Gürcüstanın böyük əraziləri hökumətin nəzarətindən kənardadır və şimal qonşusu Rusiya Tbilisi höku-

mətini Pankis vadisində terrorçu çeçenlər üçün təhlükəsiz sığınacaq yaratmaqda ittiham edir.

Gürcüstan "BP"nin boru kəməri zəncirinin zəif halqasıdır və o, boru kəmərinin tikintisini dayandırmaqda qərarlı olan ətraf mühit müdafiəçiləri qrupları, insan hüquqları fəalları və siyasi etirazçılardan ibarət koalisiyaya diqqət yetirir.

Boru kəmərinin ətraf mühitə və sosial sahəyə təsirini öyrənmək məqsədilə, BTC, 1800 kilometrlik marşrut boyunca torpaq və insanlar haqqında, sonda 1000 səhifəlik hesabatla yekunlaşan ətraflı araşdırma aparmağı sifariş edib. Qafqazın, faktiki olaraq xəritəsi olmayan ucqar əraziləri ilk dəfə sənədləşdirilib. Bununla belə, hesabatın dərc olunması gileylənənləri sakitləşdirmək əvəzinə, iqlim dəyişikliyi fəallarından tutmuş, Avrasiya qonur ayısının dostlarına və Qafqaz dağsiçanının tərəfdarlarına qədər hamının narahatlığına səbəb olub.

Dekabr ayında Gürcüstan hökuməti, aylarla davam edən qərarsızlıqdan sonra BTC layihəsinə davam etmək üçün icazə verdi, lakin neft şirkətlərinin problemləri bununla bitmədi. Lobbiçilər diqqətlərini maliyyəçilərə, Dünya Bankının Beynəlxalq Maliyyə Korporasiyasına (BMK), Avropa Yenidənqurma və İnkişaf Bankına (AYİB) və ixrac kredit agentliklərinə yönəltdilər. Çad-Kamerun boru kəməri və uğursuz İlisu bəndi kimi digər mübahisəli infrastruktur layihələrinin maliyyələşdirilməsində rollarına görə tənqidlərə məruz qalan BMK və AYİB üçün şans yoxdur.

Məsləhətçilər ordusu Gürcüstan, Azərbaycan və Türkiyəyə boru kəməri marşrutu boyunca araşdırma aparmaq və üzə çıxarmaq, süzmək və nümunə götürmək üçün gəliblər. Bu il, bir müddət sonra – son tarix yoxdur – qurumlar kredit verib-ver-

məyəcəyinə, nə qədər və hansı şərtlərlə kredit ayıracaqlarına qərar verəcəklər.

BTC konsorsiumu irəliləyir - 12 metr uzunluğunda və hər birinin çəkisi üç ton olan nəhəng boru hissələri Batumi Qara dəniz limanında boşaldılır. Böyük neft şirkətləri üçün pul problem deyil. “BP” və “Statoil”, “Unocal” və “ENI” kimi, BTC üzrə digər tərəfdaşlar Dünya Bankının yardımı olmadan öz paylarını maliyyələşdirə bilərlər.

Azərbaycan dövlət neft şirkəti olan ARDNŞ üçün AYİB-in kredit zəmanəti, vəsait cəlb etmək üçün vacibdir, lakin dünya maliyyə institutları tərəfindən təmin edilən qoruyucu çələng daha vacibdir.

“BP”-nin bu layihədə Dünya Bankının dəstəyinə, onun beynəlxalq standartlara cavab verdiyinə əminliyə və hökumətlərin öz öhdəliklərini yerinə yetirməsi üçün beynəlxalq qurumların onlara göstərə biləcəyi təzyiqlərə ehtiyacı var. “BP”-nin belə bir təsdiq möhürünə ehtiyacı var və boru kəmərinə etiraz edənlər bunu bilirlər.

Neft şirkətləri, yəqin ki, iqlim dəyişikliyi fəallarından aralana bilərlər; “Friends of the Earth” və “London Rising Tide” kimi, “artıq neftə ehtiyac yoxdur” mövqeyində duran təməlçi qrupların Vaşinqtondakı BMK-nın kondisioner dünyasında ürəkləri və zehinləri idarə etmək ehtimalı azdır. Daha kəskin tənqidlər “Bankwatch” kimi qruplardan gəlir. Praqada yerləşən və AYİB üçün daimi tikan olan bu qrup təməl sualı verir: uzunmüddətli perspektivdə, bu boru kəməri keçdiyi ölkələrin yerli əhalisinə hansı faydanı verəcək?

“Bankwatch”-dan Petr Hlobil hesab edir ki, böyük neft və qaz infrastruktur layihələri yerli insanlar üçün deyil, neft şirkətləri üçün yaxşıdır. “Biz gözləyirik ki, əgər bu qurumlar

dövlət pullarından istifadə edirsə, bu, ictimai rifah üçündür. Bunun nəyi yaxşıdır? Belə cəmiyyətlərdə əhəmiyyətli inkişaf nailiyyətləri olmalıdır, ancaq belə olmur" – o, deyib.

"Bankwatch" xüsusilə, hökumətin BTC layihəsində öz payını maliyyələşdirmək məqsədilə, ictimai rifah üçün nəzərdə tutulan və neft gəlirləri fondu olan Dövlət Neft Fondundan[263] istifadə etdiyinə görə BVF tərəfindən töhmət verilən Azərbaycanda daha çox şəffaflıq istəyir.

"Ölkənin onsuz da tamamilə neftdən asılı vəziyyətdə olduğu bir vaxtda, Azərbaycanda neft layihələrinin dövlət tərəfindən maliyyələşdirilməsinin nə mənası var? " – Hlobil soruşur. "Daha çox müxtəliflik olmalıdır" – o əlavə edib.

Tikanlı sözlər, çaşqınlıq və maliyyə gecikmələri, layihənin sadəcə millərlə polad borudan daha çox şey kəsb etdiyini hesab edən Azərbaycan və Gürcüstandakı BTC tərəfdaşlarını çaşdırır və qəzəbləndirir.

Bu, azərbaycanlılar, həmçinin skeptik neft şirkətləri, şübhəli və narazı qonşularla illərlə davam edən gərgin danışıqlar zamanı üç ölkədən keçən boru kəmərinin qeyri-adi marşrutunu müdafiə edən Prezident, keçmiş Dövlət Təhlükəsizlik Xidmətinin zabiti Heydər Əliyev[1] üçün milli taleyüklü bir məsələdir.

Əliyev üçün azərbaycanlıları türk qohumları və neftə ehtiyacı olan Avropa ilə birləşdirən neft marşrutu onun liderliyinin bir abidəsidir, boru kəmərini öz ərazisindən keçirməyə çalışan Rusiya və İrana, həmçinin Azərbaycanın əzəli düşməni Ermənistana qarşı illərlə aparılan siyasi manevrlərin bəhrəsidir.

Əliyevin maliyyə gecikmələrindən və təşviqat qruplarının onun Qərbə gedən karvanının üstündə milçək kimi vızıldamasından qəzəbləndiyi deyilir. Qafqaz siyasətinin qeyri-şəffaf dünyasında onun arzusunun yun papaqlı və əllərində banner-

lər olan bir qrup tələbə tərəfindən darmadağın edilməsi ağlasığmazdır. Ötən həftə Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev[139] (qohumluq əlaqəsi yoxdur) layihəni dayandırmaq istəyən və "öz gündəmləri olan qruplara" dolayısı ilə eyham vurub. "Biz onların arxasında kimin dayandığını bilirik"- o deyib. Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti Georgi Çanturiyanın[247] sözlərinə görə, sui-qəsdçilər Gürcüstanda işləyirlər. O, Borjomi vadisindəki milli parkdan yan keçməsi üçün kəmərin marşrutunun dəyişdirilməsi kampaniyasının arxasındakı "qaranlıq qüvvələr"i günahlandırıb.

Bu həftə qaranlıq qüvvələr – onların dördü də - "BP"-nin Londondakı baş qərargahının qarşısında etiraz mitingi keçiriblər. Onlar bannerlər yelləyərək və vərəqələr paylayaraq, "BP"-ni boru kəməri ərazisində insan hüquqlarının pozulmasına göz yummaqda ittiham ediblər. Əgər layihə iflasa uğrayarsa, bu, erməni qəsdindən daha az sensasiyalı səbəblərdən ola bilər.

BTC, fikir sahibi olan hər şeyi özünə cəlb edən bir lampadır. BTC-nin baş icraçı direktoru Mayk Taunsend deyib: "Bu, xəritədə xəttdir, insanların danışacağı bir şeydir və onlar üçün realdır".

Reallıq çox vaxt yazılanlardan fərqli olur. Boru kəməri Gürcüstanın Şüşə və Mineral Su Şirkətinin mineral su mənbəyindən 15 kilometr aralıdan keçir. Qərb damaq dadına görə, Borjomi suyu kükürdlüdür, lakin bu brend Rusiyada XIX əsrdən bəri çox sevilir. Qablaşdırma zavodu postsovet Gürcüstanının alaqaranlıq dünyasında ixracatdan qazanan ən son şirkətlərdən biridir.

Ətraf ərazi öz gözəlliyinə görə Gürcüstanda çox sevilir, hətta dağlarda xizək sürmək üçün yerlər də var. Buna baxmayaraq, Dünya Bankının məsləhətçisi şoka düşə bilər. Dağlar gözəl olsa

da, bu mənzərə sovet sənayesinin dağıntıları ilə yaralanmış, dağıdılmış mənzərədir. Dağılmış qüllənin blokları və talan edilmiş fabriklər vadini zibilləyir. Mineral su zavodunun darvazalarından bayırda itlər zibil qalıqlarının içərisində eşələnir, bir qrup kişi isə nəyəsə ümid edərək, günlərini boş keçirirlər.

BTC-nin məlumatına görə, geniş geoloji tədqiqatlar göstərir ki, qeyri-mümkün hesab edilən boru kəmərində qəza yeraltı sulara təsir göstərə bilməz. Qablaşdırma şirkəti isə, neft axıntısı olmasa belə, neftlə assosiasiya olunmasından onun brendinin zərər görəcəyindən qorxur.

Borjomi tərəfdarları kəmərin dəyişdirilməsini istəyirlər. Bir-birinə qarışan və mızıldayan neft şirkətləri isə bunun mümkün olmayacağını deyirlər. Cənubda Rusiya hərbi bazasının və şayiələrə görə, erməni anklavının olması Gürcüstan hökuməti üçün açıqlanmayan potensial utanc məsələsidir. Sonda zavodla maliyyə müqaviləsi bağlanacaq və "qaranlıq qüvvələr" müəmmalı şəkildə yox olacaq.

Borular basdırıldıqdan, əmək düşərgələri söküldükdən və torpaq bərpa olunduqdan sonra hər şey daha yaxşı görünəcək. Məsləhətçilər və lobbiçilər yeni işə, yeni kampaniyaya, növbəti qrant və qonorara keçdikdə, Borjomi işsizləri hələ də nəyisə gözləyəcəklər.

Bu ehtiyacı ödəmək üçün BTC növbəti bir neçə ildə icma inkişafına 25 milyon dollar ayırıb və ideyaları stimullaşdırmaq üçün qeyri-hökumət təşkilatlarından layihələr təklif etməyi xahiş edib. Təəssüf ki, əsas diqqət gələcəyin qurulması qədər, keçmişin bərpasına da yönəlib. Boru kəmərinin xərclərini minimuma endirmək, onun "izini" məhdudlaşdırmaq məqsədilə məsləhətçilərə on milyonlarla dollar xərclənib. Bu, əksər Qərb fəallarının da məqsədidir və otla örtülmüş Alp çəmənliklərində

ətraf mühit üçün zərərsiz atların belində kişilərin hərəkət etməsi "BP"-nin təbliğatının proqnozlaşdırdığı mənzərədir. Boru kəməri marşrutu ilə bağlı yerli əhalinin müxtəlif fikirləri var. Onlar dəyişiklik, fabriklər və sənayenin olmasını istəyirlər, bundan artığını yox.

Ceyhan yaxınlığındakı Kurtpınarı kəndində yerli kəndlilər, tezliklə tankerlərin gündə bir milyon barrel Azərbaycan xam neftini daşıyacağı Türkiyə limanında boru kəmərinin tikintisini səbirsizliklə gözləyirlər. Onlar tikinti işləri gözləyirlər və "Botaş" milli boru kəməri şirkətinin terminal meneceri Gürhan Ünal gözləntiləri idarə etməkdə çətinlik çəkir.

"Onlar iş tapmağı gözləyirlər" – o, deyib. "Onlar kənd təsərrüfatı ilə məşğul ola bilirlər, lakin qiymətlər aşağı olduğu üçün kənd təsərrüfatı ilə dolanmaq çətindir. Onların bacarıqları yoxdur".

Boru kəməri üzrə podratçılar boruları qaynaq etmək, avadanlıqları və buldozerləri idarə etmək üçün qrup şəklində axışacaqlar. Bu müddət ərzində yerli sakinlər işə alınanlar, daşıyıcılar və mühafizəçilər olacaqlar. "Biz türklər emosional insanlarıq" – "Botaş"ın meneceri deyib. "Biz hökumətimizə bir ata kimi baxırıq. İşə qəbul olunmusunuz demək yaxşıdır, bəs işdən çıxarılırsınız sözünü kim deyəcək?"

2008-ci ilə qədər Xəzərdəki "Azəri", "Çıraq" və "Günəşli" platformalarından Ceyhana bir milyon barrel yüksək keyfiyyətli xam neft göndəriləcək. Əgər o zaman neftin bir barrelinin qiyməti 20 dollara bərabər olarsa, indiki qiymətin üçdə birindən az, boru kəməri və işlənmə xərcləri çıxdıqdan sonra ümumi gəlir gündə təxminən 12 milyon dollar təşkil edəcək. Başqa sözlə, layihə bir neçə il ərzində icmalara qoyulan sərmayəni iki gündə qazanacaq.

Bu, ev sahibliyi edən hökumətlərin əldə edəcəyi gəlirləri nəzərə almayan kobud müqayisədir, lakin izahı yaxşıdır. Hər kəsin həyatını dəyişdirmək "BP"-nin məsuliyyətinə daxil deyil, lakin fürsət varsa daha bir az cəhd etməmək ayıb görünür. Bütün çətinliklərdən və çəkişmələrdən sonra "BP"-nin otlu yoldan başqa arxada heç nə qoymaması qəribə bir mirasdır. Davamlı inkişaf üçün uzunmüddətli öhdəliklər lazımdır.

Neft gəlirlərinin həyat şəraitini yaxşılığa doğru dəyişə biləcəyinə dair bəzi sübutlar var. Keçən həftə Qayoz Bitsadze 48 kvadratmetr biçənəyə görə Borjomidəki bankdan kompensasiya alıb. Ödəniş 1000 dollar idi və həyat yoldaşı onu ziyankar əcnəbilərdən uzaqlaşdırmazdan əvvəl, bu pulu göz əməliyyatı üçün istifadə edəcəyini bildirib.

**Müəllif: Carl Mortished**
**Tarix: 14.02.2003**
**Mənbə: The Times (İngiltərə)**
**Məqalənin adı: Land – locked Caspian Sea nations win a way to the West**
*www.thetimes.com*

# XƏZƏR HÖVZƏSİNİN DƏNİZƏ ÇIXIŞI OLMAYAN ÖLKƏLƏRİ QƏRBƏ DOĞRU ÖZLƏRİNƏ YOL AÇIRLAR

Link Türkiyənin, qədim "ipək yolu" ilə enerji daşımaq arzusunu həyata keçirir.

Supertankerlər Türkiyənin Ceyhan[167] Dəniz Terminalında İraq neftini yükləmək üçün səbrlə gözləyirlər. Xam neft daşıyan beş böyük tanker keçən həftənin sonunda dənizdə lövbər salıb, eyni zamanda, bir milyon barrel neft Norveç gəmisinə vurulub, bu proses bir gün yarım çəkə bilər (Karl Mortişed yazır).

Bu növbə baha başa gəlir: boş gəmilər üçün dayanma haqqı sutkada 50.000 ABŞ dollarına (30.000 funt sterlinq) çata bilər. Türkiyənin boru kəməri şirkəti "Botas"ın regional meneceri Urhan Günal söyləyir ki, "bu olduqca qeyri-adidir". "Yəqin ki, onlar müharibədən əvvəl mümkün qədər çox neft yükləməyə çalışırlar".

Bu gəmiləri icarəyə götürən hər kəs düşünür ki, bunu gözləməyə dəyər. Neftin bir barrelinin 30 dollardan baha oldu-

ğu halda, milyon barrel yükün dəyəri müəyyən əlavə xərcləri qarşılaya bilər.

Hələlik. Bir neçə ildən sonra isə bu biznesin iqtisadi şərtləri dəyişəcək.

Müharibə – əgər varsa – bitəcək və Ceyhanda yeni neft tədarükçüsü olacaq. İraq terminalı ilə yanaşı olan ikinci körpüdə, Xəzər dənizindən, sutkada bir milyon barrel olmaqla, ixrac edilən xam neft yüklənəcək. Qapalı Xəzər dənizindən neftin Qərb bazarlarına çıxarılması son onilliyin çox hissəsi ərzində neft sənayesində böyük oyun olmuşdur. Xəzəryanı dövlətlərin hər biri böyük neft ehtiyatlarına və zəif iqtisadiyyata malikdir. Sovet İttifaqı bir vaxtlar Azərbaycanın köhnələn neft quyularının məhsulunu mənimsəyirdi, lakin müstəqillik özü ilə həm imkan, həm də Qərb kapitalı gətirdi. ABŞ, Britaniya, Fransa və İtaliya şirkətləri sövdələşmələr üçün Bakıya və Alma-Ataya axışırdılar.

Xəzəryanı yeni respublikaların təkəbbüründən qəzəblənən və Sibir nefti ilə rəqabət aparacağından ehtiyat edən Rusiya onun ərazisindən yan keçəcək boru kəmərlərinin qarşısını almağa çalışırdı. ABŞ regionda dostlar tapmaq və Moskvadan ayrılmağı təşviq etmək üçün pul xərcləyirdi. Kənarda qalmaq istəməyən İran Xəzər dənizinin bölünməsinə yönələn bütün cəhdlərin qarşısını alıb və bu yaxınlarda Azərbaycan neft şirkəti SOCAR-ın apardığı seysmik tədqiqatları dayandırmaq üçün gəmilər göndərib[239].

Bahalı və siyasi bir məsələ olan Bakı-Tbilisi-Ceyhan (BTC) xətti[108] illər boyu Azərbaycan Prezidenti Heydər Əliyevin[1] arzusu hesab edilərək, qəbul olunmurdu. Nəhayət, türk millətçiliyi, "BP"nin praqmatizmi və Vaşinqtonun bir qədər təşviqi nəticəsində xətt xəritədə yer aldı. Amerikanın diqqəti, Moskvanın

terrorçulara sığınacaq verməkdə ittiham etdiyi ən zəif halqa olan və qamçılanmış Gürcüstana yönəlib. Hərbi məsləhətçilər Gürcüstan ordusuna təlim keçərkən və Gürcüstanın Qara dəniz limanlarına nəzarət edərkən, ABŞ dağılmaqda olan respublikaya pul tökərək, onun valyutasını möhkəmləndirirdi.

Türkiyə üçün Bakı ilə əlaqə onun, qədim "İpək yolu" marşrutu ilə neft və qaz karavanı arzusunu reallaşdırır. Azərbaycanın "Shahdəniz" yatağından hasil ediləcək qaz Bakıdan Türkiyə və Yunanıstana ikinci boru kəməri ilə daşınacaq. Qazaxıstan neftinin Xəzərdən keçərək Bakıya gətirilməsi və BTC xəttinə qoşulması ilə bağlı danışıqlar aparılır.

Mərkəzi Asiya üçün enerji qovşağı və Qərbə doğru körpü mövcud olacaqdır.

**Müəllif: Killgore, Andrew I.**
**Tarix: 22.02.2003**
**Mənbə: Washington Report on Middle East Affairs (Vol.22, İssue 1)**
**Məqalənin adı: The Baku-Ceyhan oil pipeline-whether there is oil or not-or bust**

# BAKI-CEYHAN NEFT BORU KƏMƏRİ – NEFT VAR YA YOX-NƏYİN BAHASINA OLURSA OLSUN

Təxminən iki il öncə Türkiyə, Gürcüstan və Azərbaycan prezidentləri Bakıdan (Azərbaycan) Ceyhana[167] (Türkiyə) neft boru kəmərinin[108] çəkilməsinə dair ciddi bir sənəd imzalamaq üçün İstanbulda görüşüblər. Mərasimdə iştirak etmək üçün İstanbula uçan keçmiş prezident Bill Klinton[41] sənədin ciddiliyini sübut etmək məqsədilə, şahid qismində onu imzalayıb.

2002-ci il sentyabrın 18-də Bakıda "boru kəməri inşa edək" rəmzi məna daşıyan son mərasim baş tutdu. Həmin üç regionun prezidentləri başqa sənəd imzalamaq üçün deyil, faktiki olaraq inşası 2003-cü ildə başlayacaq Bakı-Ceyhan boru kəmərinin ilk hissəsinin əsasını qoymaq üçün bu mərasimdə iştirak ediblər.

"Assoşeyted Press" agentliyinin məlumatına görə, energetika naziri Spenser Abraham[266] Bakıda keçirilən bu mərasimdə iştirak edib və prezident Corc Buşun[228] təbrik mesajını səsləndirib.

Buna baxmayaraq, bir sual qalır: neft haradan gələcək – Bakı-Ceyhanın iqtisadi cəhətdən məqsədyönlü olması üçün gündə milyon barrel neft tələb olunacaq.

Azərbaycanın məhdud həcmdə olan nefti, bu yaxınlarda genişləndirilən boru kəməri vasitəsilə Gürcüstanın Qara dəniz sahilindəki Supsaya[169] ixrac edilir. Qazaxıstan İran ərazisindən keçəcək boru kəmərini tədqiq edir. Bu, öz neftini suyu duzlu olan limana çatdırmaq üçün daha qısa və daha ucuz bir marşurut olmaqla yanaşı, həm də Xəzər dənizinin dibi ilə çəkiləcək, ekoloji və digər səbəblərdən İran və Rusiyanın aşkar şəkildə əleyhinə çıxacaqları boru kəmərinə ehtiyacı aradan qaldıracaq.

Bu ilin əvvəlində dövlət katibi Kolin Pauell[232] Qazaxıstanın yeni paytaxtı Astanada[267] olarkən, prezident Nursultan Nazarbayev[268] İran vasitəsi ilə Fars körfəzinin duzlu sularına uzanacaq neft boru kəmərini təqdir etdiyini ona bildirib. Pauell cavabında ABŞ-nin Türkiyə və Rusiya (yəni, İran yox) marşurutlarına üstünlük verdiyini qeyd edib.

Hər şey Qazaxıstandan asılıdır. Bu yaxınlarda genişləndirilən digər boru kəməri nefti Qazaxıstanın nəhəng "Tengiz" yatağından Rusiyanın Qara dəniz sahilindəki Novorossiysk limanına çatdırır, "Kaşaqan" yatağı ( Xəzər dənizi) isə "Tengiz"dən daha böyükdür. Yenicə birləşən "Conoco Phillips" şirkətinin Vaşinqtondakı nümayəndəsi "Washington Report"a bildirib ki, növbəti 6-10 ildə "Kaşaqan"da hasilat başlamayacaq.

Xəzər neftinə marağı olan bütün ölkələr əvvəlcə Bakı-Ceyhana qarşı çıxırdılar. Buna baxmayaraq, o vaxtdan bəri Britaniya daha uzun və daha bahalı marşurutu dəstəkləməkdə ABŞ və

İsrailə qoşulub. Bütün bunların arxasında isə Türkiyə ilə yəhudi dövlətinin müttəfiqliyinin bəhrə verdiyini Vaşinqtonda sübut etməyə çalışan İsrail dayanır.

Amerika Birləşmiş Ştatları simvolizmə çox sərmayə yatırıb. İndi Bakı-Ceyhanın inşa edilməsinin əsil vaxtıdır, onun tikintisi iki il sonra, yəni 2005-ci ildə yekunlaşmalıdır. "Conoco Phillips" şirkətinin məlumatına görə isə, "Kaşaqan"da hasilat 2008-ci ilədək, bəlkə də 2010-cu ilədək başlamayacaq.

Biz 2005-ci ildə Bakı-Ceyhan boru kəmərinə sahib ola bilərik, bəs onun içindən nə axacaq?

WASHINGTON REPORT On Middle East Affairs

**Müəllif: Killgore, Andrew I.**
**Tarix: 04.04.2003**
**Mənbə: Washington Report on Middle East Affairs (Vol.22, İssue 3)**
**Məqalənin adı: Baku-Ceyhan update-oil and water don’t mix**

# BAKI-CEYHAN YENİLƏNİR-NEFT VƏ SUYU QARIŞDIRMAYIN

Üç il əvvəl, şübhələri aradan qaldırmaq məqsədilə, keçmiş prezident Bill Klinton,[41] Azərbaycan və Türkiyə tərəfindən Bakı (Azərbaycan) və Ceyhan[167] (Türkiyə) neft boru kəmərinin[108] inşası haqqında ciddi bir sənədi imzalamaqdan ötrü İstansbula xüsusi səfər edib. Keçən il Bakı yaxınlığında hər iki dövlət boru xəttinin rəmzi olaraq ilk hissəsinin əsasını qoydu. Energetika naziri Spenser Abraham[266] prezident Corc Buşun[228] təbrik sözlərini səsləndirdi.

Buna baxmayaraq, gözlənilməz bir maneə yaranıb, çünki boru xətti Gürcüstan Respublikasının Borjomi vadisindəki, yüksək dəyərləndirilən mineral suya təhlükə yaradır. Fəallar, layihəni maliyyələşdirməli olan Avropa Yenidənqurma və İnkişaf Bankının Londondakı ofislərinin qarşısında artıq nümayiş keçiriblər. Bu o deməkdir ki, bu ilin ikinci yarısına qədər bankdan kreditin verilməsi mümkün olmaya bilər.

İsrail – həmçinin ABŞ – Türkiyənin İsraillə müttəfiqliyinin Vaşinqtonda bəhrə verdiyini Türkiyəyə sübut etmək üçün boru kəmərinin reallaşmasına ciddi şəkildə dəstək verir. 1100 mil uzunluğunda, 3 milyard dollar dəyərində olan Bakı-Ceyhan boru kəmərini inşa etmək üçün 11 üzvdən ibarət konsorsiuma başçılıq edən "BP" şirkəti layihənin yüksək xərc tələb etməsi, texniki çətinliklər, təhlükəsizlik və ekoloji problemlər səbəbindən xaricdən maliyyələşmənin şərtlərinin razılaşdırılmasında çətinliklərlə üzləşir.

"Faynenşl Tayms" qəzetinin fevralın 6-na olan məlumatına əsasən, boru kəmərində 25% payı olan Azərbaycan da daxil olmaqla, konsorsiumun daha kiçik üzvləri "malik olmadıqları əhəmiyyətli məbləğdə nəğd pulu tapmağa məcbur olacaqlar". Bu o deməkdir ki, ABŞ və ya Amerikanın təsiri altında olan beynəlxalq maliyyə təşkilatı pul təqdim etməlidir.

"BP" şirkəti də daxil olmaqla, Xəzər dənizi regionunda fəaliyyət göstərən bütün neft şirkətləri əvvəlcə Bakı-Ceyhanın əleyhinə idilər. Böyük Britaniyanın baş naziri – Billin köhnə və Corcun hazırki dostu – Toni Bleyr[200] "BP" şirkətinin diqqətini özünün Birləşmiş Ştatlarla olan "xüsusi əlaqələrinə" yönəltmişdi. Bakı-Ceyhanı işlək vəziyyətə gətirmək üçün gündəlik milyon barrel neftin haradan gələcəyi isə sirr olaraq qalır.

Nəzərə alınsa ki, Azərbaycan "məyusedici dərəcədə az həcmdə" neft hasil edir, onda əlavə neft üçün yeganə mənbə, Qazaxıstanın şelfdə (Xəzər dənizində) çox böyük neft yatağı olan "Kaşaqan" yatağıdır. "Kaşaqan" yatağında isə hasilat 6-10 il müddətində başlamayacaq. Bundan əlavə, Qazaxıstan İran ərazisindən Fars körfəzinə gedən neft boru kəmərini təqdir edir.

**Müəllif: Hilary Mccutcheon**
**Tarix: 12.06.2003**
**Mənbə: Offshore (ABŞ)**
**Məqalənin adı: Mixed fortunes in the Caspian**
***www.offshore-mag.com***

# XƏZƏR DƏNİZİNDƏ QARIŞIQ MÜLKLƏR

Xəzər dənizi ilə bağlı aktiv fəaliyyətin hal-hazırki səviyyəsi, maraq və investisiya cəlb etmək üçün sahilyanı ölkələrin göstərdiyi cəhdləri açıq-aydın şəkildə əks etdirməkdədir. Qazaxıstan və Rusiyaya aid olan dəniz sektorlarında bir sıra kəşfiyyat layihələri ilə bağlı qızğın iş getsə də, cənuba doğru irəlilədikcə, daha interaktiv mövqe tutan Türkmənistan və İranın timsalında bu marağın nisbətən səngidiyinə şahid oluruq. Azərbaycan sektoru isə həmişəki kimi, dövlətin rəhbərlik etdiyi bir sıra layihələr və beynəlxalq kəşfiyyat konsorsiumlarının qarışıq toplusunu ehtiva edir və onlar yaxşı xəbərə ciddi bir ehtiyac duyurlar.<.....>

**Azərbaycan**

"Azəri-Çıraq-Günəşli" yatağında işlər, 2002-ci ilin sentyabrında "Faza 2" layihəsinə sanksiya verilməsindən sonra davam edir. Mərkəzi "Azəri" yatağında qazıntı öncəsi işlər 2003-cü ilin ikinci rübündə yekunlaşacaq və daha sonra eyni işlər Qərbi "Azəri" yatağında davam edəcək. Bakı-Tbilisi-Ceyhan xəttinin[108] inşası 2003-cü ilin birinci rübündə başladı, boru xət-

tinin çəkilməsi işinə isə aprelin sonlarında start verildi. BTC boru xəttinin "Faza 1" layihəsi çərçivəsində "AÇG" yatağından hasil olunan neftin 2005-ci ilin əvvəlində nəql ediləcəyi gözlənilir.

2002-ci ilin dekabrında "LUKoil" şirkətinin "AÇG" layihəsindəki öz payını "İnpeks" şirkətinə satması, çox ehtimal ki, Xəzər dənizinin şimalında digər layihələrini davam etdirməsi üçün şirkətə nəğd pul əldə etmək imkanı verəcək. On faizə bərabər pay üçün 1.35 milyon dollara bərabər satış qiyməti, "Wood Mackenzie" şirkətinin 1.16 milyon dollara bərabər dəyərləndirməsindən nəzərəçarpacaq dərəcədə yüksəkdir. 2003-cü ilin aprelində şirkət genişlənmiş "Yalama" (D22) lisenziyasındakı payını 80 faizə qaldırdı və 2004-cü ilin ikinci yarısında blokda, "DSS-20" qurğusundan istifadə etməklə, ilk quyusunu qazmağı planlaşdırır. Əgər bu, uğurlu olarsa, "LUKoil" şirkəti lisenziya üzrə növbəti qazma əməliyyatını həyata keçirmək üçün "Şelf 7" yarısualtı qazma qurğusunu daha da təkmilləşdirmək haqqında düşünə bilər.

Dəniz kəfiyyatı əməliyyatlarının yeni mərhələsində, fevral ayında "Faza 1" layihəsinə sanksiya verilməsindən sonra, Azərbaycanın indiyə qədər yeganə uğuru olan "Şah Dəniz" layihəsində ciddi irəliləyişə nail olunacağı gözlənilir. "Statoil" şirkəti bu layihənin kommersiya operatoru (daşınma və marketinq) hesab edilir, "BP" isə əsas operator olaraq qalır. 2003-cü ilin aprel ayında "İstiqlal" qazma qurğusu ilə üç quyunun qazılması üzrə hazırlıq işlərinə başlanılıb.

"Yanan Tava"da Yaponiya-Azərbaycan neft şirkətinə məxsus olan ikinci quyuda da təəssüfdoğurucu nəticələr əldə olunmasından sonra digər dəniz bloklarında kəşfiyyat qazma işlərinin həqiqətən də böyük çətinliklərlərlə üzləşdiyi bir daha

üzə çıxdı. İlkin qazma əməliyyatlarının aparılacağı növbəti quyular "Exxon-Mobil" şirkətinə məxsus "Zəfər Maşal" və "Naxçıvan" bloklarında yerləşir və qeyd edilən əməliyyatlar, müvafiq olaraq, 2003-cü ilin sentyabrında və 2004-cü ilin ikinci rübündə həyata keçiriləcəkdir. Bu quyular, 2003-cü ilin 3-cü rübündə tamamlanması gözlənilən yeni "DSS-20" yarısualtı qazma qurğusu vasitəsilə qazılacaq. 2004-cü ildə "BP" şirkətinə məxsus "İnam" və "LUKoil" şirkətinə məxsus "Yalama" blokunda qazma işləri aparılacaq.

SOCAR beynəlxalq layihələrdən kənarda 2003-cü il üçün başqa heç bir qazma işi planlaşdırmır, bunun əvəzində isə dövlətə aid olan köhnə yataqlarda istehsalın azalmasının qarşısını almaq fikrindədir. Növbəti kəşfiyat qazma işləri aparmaq əvəzinə əsas diqqət cari qazma işlərinin davam etdirilməsinə və avadanlıqların optimallaşdırılmasına yönəldilib.

Eyni zamanda, SOCAR qazma qurğularından "Neft Daşları" və "Darvin Bankası" yataqlarında hasilat platforması kimi istifadə etməyi planlaşdırır.

# QEYDLƏR

*1. Heydər Əlirza oğlu Əliyev (1923-2003) – general-mayor, tarixçi, memar, 1967-ci il iyunun 21-dən 1969-cu il iyulun 14-dək Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, 1969-cu il iyulun 14-dən 1982-ci il dekabrın 13-dək Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1982-ci il noyabrın 22-dən 1987-ci il oktyabrın 21-dək Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, 1982-ci il noyabrın 24-dən 1987-ci il oktyabrın 23-dək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışıb. 1990-cı ilin iyulunda Moskvadan Azərbaycana qayıdan Heydər Əliyev həmin ildə Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilib. Heydər Əliyev 1991-ci il sentyabrın 3-dən 1993-cü il iyunun 24-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olub. Onun təşəbbüsü ilə Ali Məclis Naxçıvan MSSR Ali Sovetinin adının dəyişdirilərək, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması və Azərbaycan Xalq Cumhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərarlar qəbul edib, həmin bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırılıb. 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilib və Heydər Əliyev partiyanın sədri seçilib. O, Naxçıvan Muxtar Respublikasını Ermənistanın işğal təhlükəsindən qorumaq, Türkiyə və İranla iqtisadi əlaqələri genişəndirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq və s. istiqamətlərdə əhəmiyyətli addımlar atıb. 1993-cü il iyunun 4-də Gəncədə hökumət qüvvələri ilə keçmiş kor-*

*pus komandiri Surət Hüseynovun başçılıq etdiyi 709 saylı hərbi hissə arasında baş verən silahlı toqquşma nəticəsində Azərbaycanda hərbi-siyasi böhran yaranmışdı. Vəziyyətdən çıxış yolu tapmaq üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Bakıya dəvət olunub və iyunun 15-də o, Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib. Prezident Əbülfəz Elçibəy iyunun 17-də, xəbərdarlıq etmədən Bakını tərk edərək, Ordubad rayonunun Kələki kəndinə gedib və onun geri dönməkdən imtina etməsindən sonra, iyunun 24-də Milli Məclis, Konstitusiyaya uyğun olaraq, prezident səlahiyyətlərinin icrasını Milli Məclisin sədri Heydər Əliyevə həvalə edib. Prezident Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında 1993-cü il avqustun 29-da keçirilən referendumun rəsmi nəticələrinə görə, referendumda iştirak edənlərin 97,5%-i prezidentə etimadsızlıq göstərib. 1993-cü il oktyabrın 3-də və 1998-ci il oktyabrın 11-də keçirilən prezident seçkilərində Heydər Əliyev qalib gələrək, Azərbaycan Respublikasının Prezidenti seçilib. 1992-2003-cü illərdə o, Yeni Azərbaycan Partiyasının sədri olub.*

*2. İlham Heydər oğlu Əliyev (1961) – siyasətşünas, tarixçi, 1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin viitse-prezidenti, birinci vitse-prezidenti, 1995-ci il noyabrın 12-dən 2003-cü il avqustun 4-dək Azərbaycan Milli Məclisinin deputatı, 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri, 2003-cü il avqustun 4-dən oktyabrın 30-dək Azərbaycan Respublikasının Baş naziri olub, 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, 2003-cü il oktyabrın 30-dan Azərbaycan Respublikasının Prezidenti, 2005-ci ildən Yeni Azərbaycan Partiyasının sədridir.*

*3. Ermənistan-Azərbaycan münaqişəsi 1988-ci ilin əvvəllərində, yaxın və uzaq havadarlarının, dünyanın müxtəlif ölkələrində*

*fəaliyyət göstərən erməni lobbisinin və erməni terror təşkilatlarının yardımlarından istifadə edən Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsi ilə başlayıb. 1988-1991-ci illərdə həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində, müasir Ermənistan ərazisində yaşayan azərbaycanlıların bir hissəsi qətlə yetirilmiş, digər hissəsi tarixi yurdlarından qovulmuş, Dağlıq Qarabağda isə ermənilərin azərbaycanlılara qarşı təzyiq siyasəti həyata keçirilmişdir. 1991-ci ilin sonlarından başlayaraq, Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlamışdır. Hərbi əməliyyatlar 1992-ci il mayın 8-də Şuşanın işğalına qədər keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində, bundan sonra isə, onun hüdudlarından kənarda aparılmış və ümumilikdə Azərbaycan ərazisinin 20%-i işğal olunmuşdu. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən "Qırx dörd günlük" müharibədə Azərbaycan Ermənistanı sarsıdıcı məğlubiyyətə uğradaraq, işğal altında olan torpaqlarını azad edib.*

*4. Dağlıq Qarabağ anklav (bir dövlətin ərazisinin başqa dövlətin ərazisi ilə tamamilə əhatə olunan hissəsinə anklav deyilir) deyil, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisinin bir hissəsidir.*

*5. 1993-cü il iyulun 23-də Ermənistan silahlı qüvvələri Ağdam şəhərini və rayonunun 124 kəndindən 80-ni, yəni rayon ərazisinin 77,4%-ni işğal ediblər. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın imzaladıqları Birgə Bəyanata əsasən, noyabrın 20-də işğalçılar Ağdamı tərk ediblər və rayon Azərbaycanın nəzarətinə keçib.*

*6. Müharibə Azərbaycan və Dağlıq Qarabağ erməniləri arasında deyil, Dağlıq Qarabağdakı separatçıları idarə edən Ermənistanla*

*Azərbaycan arasında gedirdi. Müharibə Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddialarının nəticəsi idi və Ermənistan ordusu Azərbaycana qarşı hərbi əməliyyatların iştirakçısı olub. Ermənistan hərbiçilərinin Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafındakı rayonlarında baş verən hərbi əməliyyatlarda iştirakına dair rəsmi və qeyri-rəsmi mənbələrdə kifayət qədər sübut mövcuddur. Məsələn, Ermənistanın rəsmi qiymətləndirməsinə görə, 1988-1994-cü illərdə Azərbaycan ərazisində aparılan döyüşlər zamanı 5856 erməni hərbçisi ölüb. Onlardan 3291 nəfəri Dağlıq Qarabağ sakini, 2565 nəfəri isə Ermənistan vətəndaşı idi (Потери в Карабахской войне 1992-4 гг. Потери общие и потери армянской стороны / https://www.kavkaz-uzel.eu/). 1993-cü ilin avqust ayında ermənilərin Füzuli-Cəbrayıl istiqamətindəki hücumunu təsvir edən erməni zabiti, 1992-1994-cü illərdə Ermənistan ordusunun Azərbaycan ərazisindəki hərbi əməliyyatlarında iştirak edən 5-ci motoatıcı briqadasının komandiri, polkovnik Remik Mərdanyan yazır: "Bu əməliyyatda Qoris istiqamətindən 4-cü motoatıcı alayın taboru, 2-ci motoatıcı briqadanın taboru və bir neçə özünümüdafiə dəstəsi iştirak edirdi" (Воспоминания Ремика Марданяна / http://os.x-pdf.ru/20istoriya/ 586852-4- vospominaniya-remika-mardanyana-kniga-pervaya-predislovie-hotel-p.php).*

*7. 1992-ci il iyunun 7-də Azərbaycanda keçirilən prezident seçkilərində Azərbaycan Xalq Cəbhəsinin rəhbəri Əbülfəz Elçibəy qalib gəlib və Azərbaycan Respublikasının Prezidenti seçilib.*

*8. Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) (1938-2000) – şərqşünas, tarixçi, 1992-ci il iyunun 7-dən 1993-cü il iyunun 25-dək Azərbaycan Respublikasının Prezidenti, 1989-1995-ci illərdə Azərbaycan Xalq Cəbhəsinin, 1995-2000-ci illərdə Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri olub.*

*9. 1993-cü il iyunun 4-də Gəncədə Azərbaycanın hökumət qüvvələri ilə keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi və Müdafiə Nazirliyinə tabe olmaqdan imtina edən 709 saylı hərbi hissə arasında silahlı toqquşma baş verib, hökumət qüvvələrinin qeyd olunan hərbi hissəni tərksilah etmək cəhdi uğursuzluqla nəticələnib, Gəncəyə ezam olunan rəsmi şəxslər Surət Hüseynova tabe olan qüvvələr tərəfindən girov götürülüb, ümumilikdə 35 nəfər ölüb və ölkə vətəndaş müharibəsi həddinə çatıb. İyunun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, təcrübəli siyasətçi Heydər Əliyevin Bakıya dəvət olunmasından və mövcud böhranı aradan qaldırmaq üçün fəaliyyətə başlamasından, iyunun 13-də onun Gəncəyə səfər edərək, vəziyyəti yerində müzakirə etməsindən və iyunun 15-də Milli Məclisin sədri seçilməsindən sonra respublikada vəziyyət tədricən, amma geridönməz şəkildə sabitləşməyə başlayıb.*

*10. Surət Davud oğlu Hüseynov (1959) – mühəndis-texnoloq, 1992-ci ilin iyulundan 1993-cü ilin fevralınadək Azərbaycan Respublikası baş nazirinin müavini, prezidentin Qarabağ üzrə fövqəladə səlahiyyətli nümayəndəsi və Milli Ordunun korpus komandiri, 1993-cü il iyunun 30-dan 1994-cü il oktyabrın 7-dək Azərbaycan Respublikasının baş naziri olub.*

*11. Eduard Amvrosieviç Şevardnadze (1928-2014) – tarixçi, 1965-ci il mayın 21-dən 1972-ci ilin avqust ayınadək Gürcüstan SSR daxili işlər naziri, 1972-ci il sentyabrın 29-dan 1985-ci il iyulun 6-dək Gürcüstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1985-ci il iyulun 1-dən 1990-cı il iyulun 13-dək Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, 1985-ci il iyulun 2-dən 1990-cı il dekabrın 20-dək SSRİ xarici işlər naziri, 1991-ci il noyabrın 19-dan dekabrın 26-dək SSRİ xarici əlaqələr naziri, 1992-ci il martın 10-dan noyabrın 4-dək Gürcüstan Dövlət Şurasının sədri, 1992-ci il noyabrın 4-dən*

*1995-ci il noyabrın 25-dək Gürcüstan Parlamentinin sədri, 1995-ci il noyabrın 26-dan 2003-cü il noyabrın 22-dək Gürcüstan Respublikasının prezidenti olub.*

*12. İstər SSRİ dövründə, istərsə də müasir dövrdə Dağlıq Qarabağ mübahisəli ərazi statusunda tanınmamışdır. Tarixi, coğrafi, iqtisadi, siyasi, hüquqi və inzibati cəhətdən Azərbaycanın tərkib hissəsi olan region beynəlxalq birlik tərəfindən də Azərbaycan ərazisi kimi tanınır. Cənubi Qafqazda maraqları olan iri dövlətlərin əlində alətə çevrilən Ermənistan, havadarlarının yardımından istifadə edərək, Dağlıq Qarabağı işğal etməyə və özünə birləşdirməyə cəhd etmiş və uğursuzluğa düçar olmuşdur.*

*13. 1992-ci ilin may ayında Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olnduqdan sonra, Ermənistanı Dağlıq Qarabağla birləşdirən Laçın dəhlisi ermənilərin tam nəzarəti altına düşdü. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın imzaladıqları Birgə Bəyanata əsasən, dekabrın 1-də Laçın rayonu Azərbaycanın nəzarətinə qaytarılıb. Laçın dəhlizində müvəqqəti olaraq Rusiya sülhməramlıları yerləşdirilib.*

*14. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il noyabrın 26-da qəbul etdiyi "Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında" qanuna əsasən, Stepanakert şəhərinin tarixi adı özünə qaytarılaraq, Xankəndi şəhəri adlandırılıb.*

*15. Martuni – Azərbaycanda, keçmiş DQMV-də şəhər, eyni adlı rayonun inzibati mərkəzi. 1991-ci ildə DQMV ləğv olunduqdan sonra Martuni və Hadrut rayonlarının əsasında Xocavənd rayonu yaradılıb, şəhərin tarixi adı bərpa edilərək, Xocavənd adlandırılıb.*

*16. Vazgen Mikaeloviç Manukyan (1946) – riyaziyyatçı, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsinin*

*əsas təşəbbüskarlarından və rəhbərlərindən biri, 1990-cı il avqustun 23-dən 1991-ci il noyabrın 22-dək Ermənistanın baş naziri, 1992-ci il oktyabrın 20-dən 1993-cü il avqustun 21-dək müdafiə naziri olub.*

*17. Gümrü (Leninakan) – Ermənistanın Şirak vilayətində şəhər. 1837-ci ilə qədər Gümrü, 1837-1924-cü illərdə Aleksandropol, 1924-1990-cı illərdə Leninakan, 1990-cı ildə isə Kumayri adlandırılıb.*

*18. SSRİ Silahlı Qüvvələri Zaqafqaziya Hərbi Dairəsinə daxil olan 7-ci Qvardiya Ordusu 1946-cı ildə Ermənistan ərazisində yerləşdirilib. Sərəncamında Kirovakanda yerləşən 15-ci, Leninakanda yerləşən 127-ci və Yerevanda yerləşən 164-cü motoatıcı diviziyalar olan ordu 1990-cı ildə 250 ədəd tank, 641 ədəd PDM və ZTR, 357 ədəd top, minaatan və yaylım atəşli reaktiv sistemlər, 55 ədəd hərbi və 37 ədəd nəqliyyat helikopterinə malik idi. 1992-ci il avqustun 14-də Rusiya Ordusu Baş Qərargahının direktivinə əsasən, 7-ci Qvardiya Ordusu ləğv edildi, 15-ci və 164-cü diviziyaların bazasında Ermənistan ordusu yaradıldı, 127-ci diviziya isə Ermənistan ərazisində Rusiyanın 102-ci bazasına çevrildi (Вооруженные Силы СССР после Второй мировой войны: от Красной Армии к Советской. Ч. 1, Томск, 2013 с. 533-534). Artıq məlumdur ki, 7-ci ordunun sərəncamında olan silah və sursatın bir hissəsi Ermənistana qeyri-qanuni yollarla, məxfi şəkildə verilib. 1996-1998-ci illərdə Rusiya Dövlət Dumasında Müdafiə Komitəsinin sədri olan, general-leytenant Lev Roxlinin məlumatına görə, 1992-1994-cü illərdə Ermənistana "Zaqafqaziyada qruplaşdırılan ordudan, heç bir direktiv olmadan silah və hərbi texnika – 9,5 min ədəddən çox raket-artilleriya silahları, 600 vaqon döyüş sursatı, 72 ədəd tank əleyhinə silah və texnika, 21314 ədəd texniki yanacaq, 64,2 ton yanacaq, rabitə vasitələri və texnika – 15977 ədəd rabitə*

*vasitəsi və 41003 kilometr səhra kabeli..." verilib (Э.Мамедов. Двадцать лет спустя. Баку, 2008, c. 102). Onu da qeyd etmək lazımdır ki, 1991-1992-ci illərdə Azərbaycan torpaqlarının işğalı zamanı 7-ci ordu Ermənistan silahlı qüvvələrinə yardım göstərib. Məsələn, 1992-ci ilin mayında Laçının işğalı prosesində bu ordunun xüsusi təyinatlıları və rus hərbçiləri tərəfindən idarə olunan Mi-24 və Mi-8 hərbi helikopterləri da iştirak edib (Сафаров Б. Исполняется 19 лет со дня оккупации армянами Лачина. Газета «Эхо», 2011, 18 мая).*

*19. Azad İsazadə – psixoloq, 1993-cü ilin fevralından 1995-ci ilin martınadək Azərbaycan Respublikası Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəhbəri olub.*

*20. Təcavüzkarlıq siyasətini davam etdirən Ermənistan 1993-cü ilin aprelində Azərbaycanın Kəlbəcər rayonunu işğal edib. Kəlbəcərin işğalı zamanı, rəsmi məlumatlara görə, 511 nəfər dinc azərbaycanlı öldürülüb, 311 nəfər əsir götürülüb və ya itkin düşüb. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın imzaladıqları Birgə Bəyanata əsasən, noyabrın 25-nə qədər işğalçılar Kəlbəcəri tərk edib və rayon Azərbaycanın nəzarətinə keçib.*

*21. Zəngilan 1993-cü il oktyabrın 29-da Ermənistan ordusu tərəfindən işğal olunub, 2020-ci il oktyabr ayının 20-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilib.*

*22. 1993-cü il avqustun 23-də Füzuli Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Oktyabrın 24-də ermənilər Horadizi ələ keçiriblər. Həmin ilin dekabr ayının ortalarında başlayan və 1994-cü il yanvarın 6-dək davam edən "Horadiz" əməliyyatı nəticəsində Azərbaycan ordusu Füzuli rayonunun 21 kəndini və Horadiz qəsəbəsini və Cəbrayıl rayonunun Çocuq Mərcanlı kəndini*

*işğalçılardan təmizləyib. 2020-ci il oktyabrın 17-də Füzuli şəhəri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib.*

*23. 1993-cü il iyunun 4-də Gəncədə hökumət qüvvələri ilə keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi 709 saylı hərbi hissə arasında baş verən silahlı toqquşma nəticəsində Azərbaycanda hərbi-siyasi böhran yaranmışdı. Vəziyyətdən çıxış yolu tapmaq üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Bakıya dəvət olundu və iyunun 15-də o, Milli Məclisin sədri seçildi. İyunun 17-də prezident Əbülfəz Elçibəy xəbərdarlıq etmədən Bakını tərk edərək, Ordubad rayonunun Kələki kəndinə getdi və onun geri dönməkdən imtina etməsindən sonra, iyunun 24-də Milli Məclis Konstitusiyaya uyğun olaraq, prezident səlahiyyətlərinin icrasını Milli Məclisin sədri Heydər Əliyevə həvalə etdi. Prezident Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında 1993-cü il avqustun 29-da keçirilən referendumun rəsmi nəticələrinə görə, referendumda iştirak edənlərin 97,5%-i prezidentə etimadsızlıq göstərib.*

*24. 1992-1993-cü illərdə Azərbaycan Respublikası müdafiə nazirinin müavini vəzifəsində çalışan polkovnik Ələkrəm Hümmətov 1993-cü ilin avqustunda Azərbaycanda yaranan hərbi-siyasi böhrandan və rəhbərlik etdiyi qanunsuz silahlı birləşmədən yararlanaraq və Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə xəyanət edərək, qeyd olunan ayın 7-də özünün rəhbərliyi altında və Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarını əhatə edən qondarma "Talış-Muğan Respublikası"nın yaradıldığını bəyan edib. Azərbaycanın keçmiş müdafiə naziri Rəhim Qazıyev tərəfindən himayə olunan və məqsədlərindən biri keçmiş prezident Ayaz Mütəllibovu yenidən hakimiyyətə qaytarmaq olan Ələkrəm Hümmətov qeyd olunan rayonlarda qanuni hakimiyyət orqanlarının işini iflic edib, hədə-qorxu və təzyiq yolu ilə yerli əhalini özünə*

*tabe etməyə çalışsa da, uğursuzluğa düçar olub. O zaman respublika prezidentinin səlahiyyətlərini icra edən, Milli Məclisin sədri Heydər Əliyev problemi danışıqlar yolu ilə həll etməyi təklif etsə də, separatçılardan müsbət cavab almayıb və bundan sonra televiziya ilə Azərbaycanın cənub bölgəsində yaşayan insanlara müraciət edib. Xalqın dəstəyi və Azərbaycanın hakimiyyət orqanlarının uğurlu fəaliyyəti nəticəsində, avqustun 23-də qondarma "Talış-Muğan Respublikası"nın mövcudluğuna son qoyulub, separatçıların bir qismi həbs olunub, digər qismi isə Rusiyaya qaçıb.*

*25. Ayaz Niyazi oğlu Mütəllibov (1938-2022) – mühəndis, 1979-cu il iyulun 4-dən 1982-ci il oktyabrın 30-dək Azərbaycan SSR yerli sənaye naziri, 1982-ci il oktyabrın 30-dan 1989-cu il yanvarın 20-dək Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, Dövlət Plan Komitəsinin sədri, 1989-cu il yanvarın 27-dən 1990-cı il yanvarın 26-dək Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990-cı il iyulun 1-dən 1991-ci il avqustun 21-dək Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, 1990-cı il yanvarın 25-dən 1991-ci il sentyabrın 14-dək Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1991-ci il sentyabrın 8-dən 1992-ci il martın 6-dək Azərbaycan Respublikasının Prezidenti olub.*

*26. Horadiz – Azərbaycanın Füzuli rayonunda şəhər. 1993-cü il oktyabrın 24-də Ermənistan ordusu tərəfindən işğal olunub, Azərbaycan ordusunun həmin ilin dekabr ayının ortalarında başlayan və 1994-cü il yanvarın 6-dək davam edən "Horadiz əməliyyatı" nəticəsində işğalçılardan azad edilib.*

*27. 1993-cü il avqustun 23-də Cəbrayıl şəhəri Ermənistan ordusu tərəfindən işğal olunub, 2020-ci il oktyabrın 4-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib.*

*28. Robert Patrik Con Finn (1945) – diplomat, 1992-ci il martın 16-dan sentyabrın 15-dək ABŞ-nin Azərbaycanda müvəqqəti işlər vəkili, 1998-ci il noyabrın 11-dən 2001-ci il iyulun 13-dək Tacikistanda, 2002-ci il martın 21-dən 2004-cü il avqustun 1-dək Əfqanıstanda fövqəladə və səlahiyyətli səfiri olub.*

*29. 1992-ci ildə ABŞ Konqresi keçmiş sovet respublikalarında demokratiyanın, plüralizmin və bazar iqtisadiyyatının inkişafına yardım məqsədilə hazırladığı "Azadlığa yardım aktı"na, Azərbaycana federal yardım göstərilməsini qadağan edən 907-ci düzəlişi qəbul etdi. Azərbaycanın Ermənistanı blokadada saxlaması haqqında həqiqətdən uzaq iddialar əsasında meydana gələn bu düzəliş ABŞ-dakı erməni lobbisinin Konqresdəki himayədarlarının təsiri altında qəbul edilib. ABŞ-nin keçmiş müdafiə naziri R.Çeyni qeyd edirdi ki, "Məncə bu sarsaq siyasətdir. ABŞ-nin regiondakı maraqları nöqteyi nəzərindən bu mənasızdır. Bu maddə ABŞ-nin daxili siyasəti, yəni Konqres üzvlərinin öz seçiciləri ilə münasibətlərinin nəticəsində qəbul olunmuşdur". Sonrakı illərdə ABŞ şirkətlərinin Azərbaycanın neft sektorunda təmsil olunması, Ağ evin Xəzər-Qara dəniz və Mərkəzi Asiya regionlarındakı strateji maraqlarına cavab verən tarixi "İpək Yolu"nun bərpası istiqamətində görülən işlər və s. Azərbaycan-ABŞ münasibətlərinə müsbət təsir göstərmiş, 1994-1998-ci illərdə qəbul edilən bir sıra qanunvericilik aktları 907-ci düzəlişi tamamilə aradan qaldırmasa da, onun təsirini müəyyən qədər zəiflətmişdi. 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ-nin milli təhlükəsizlik maraqlarını əsas götürən prezident C. Buş 907-ci düzəlişin hüquqi qüvvəsinin dayandırılması haqqında qərar qəbul edib, 2002-ci il yanvarın sonlarında isə, ermənilərin müqavimətinə baxmayaraq, Azərbaycana ABŞ yardımının göstərilməsi üçün qapıların açıldığını bildirilib.*

*30. Tansu Pənbə Çillər (1946) – iqtisadçı, 1991-ci il noyabrın 6-dan 2002-ci il noyabrın 3-dək Türkiyə Böyük Millət Məclisində millət vəkili, 1991-ci il noyabrın 20-dən 1993-cü il iyunun 9-dək Türkiyə Cümhuriyyətinin iqtisadiyyat üzrə dövlət naziri, 1993-cü il iyunun 13-dən 2002-ci il dekabrın 14-dək Türkiyə Doğru Yol Partiyasının sədri, 1993-cü il iyunun 25-dən 1996-cı il martın 6-dək Türkiyə Cümhuriyyətinin baş naziri, 1996-cı il iyunun 28-dən 1997-ci il iyunun 30-dək Türkiyə Cümhuriyyətinin baş nazirinin müavini, xarici işlər naziri, olub.*

*31. Naxçıvan Muxtar Respublikası Azərbaycanın anklavı deyil, eksklavıdır. Ölkənin əsas ərazisindən ayrı olan və birdən çox ölkənin ərazisi ilə əhatə olunan hissəsi eksklav adlanır.*

*32. Boris Nikolayeviç Yeltsin (1931-2007) – mühəndis-inşaatçı, 1976-cı il noyabrın 2-dən 1985-ci il aprelin 18-dək Sovet İttifaqı Kommunist Partiyası Sverdlovsk Vilayət Komitəsinin birinci katibi, 1985-ci il dekabrın 24-dən 1987-ci il noyabrın 11-dək Sovet İttifaqı Kommunist Partiyası Moskva Şəhər Komitəsinin birinci katibi, 1989-cu ilin iyun ayından 1990-cı ilin dekabr ayınadək SSRİ Ali Soveti Millətlər Şurasının üzvü, 1990-cı il mayın 29-dan 1991-ci il iyulun 10-dək RSFSR Ali Sovetinin sədri, 1991-ci il iyulun 10-dan 1999-cu il dekabrın 30-dək Rusiya Sovet Federativ Sosialist Respublikasının (1991-ci il dekabrın 25-dən Rusiya Federasiyasının) prezidenti olub.*

*33. 1993-cü il sentyabrın 9-da Türkiyənin baş naziri Tansu Çillər Moskvaya səfər edib və bu səfər çərçivəsində Rusiya rəhbərləri ilə keçirilən görüşlərdə ikitərəfli Türkiyə-Rusiya münasibətləri, beynəlxalq və regional məsələlərlə yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində səyləri əlaqələndirmək məsələsi də müzakirə olunub (Визит премьер-министра Турции / Газета «Коммерсантъ» , 10 сентября 1993 г). Türkiyənin Cə-*

*nubi Qafqaz siyasətində Rusiya ilə münasibətlərə toxunan Tansu Çillər "Bölgəyə Rusiya ilə eyni pəncərədən baxırıq" fikrini söyləyib (**Aslanlı A. Qlobal siyasətdə Qafqaz: 22 il əvvəl və indi** / https://www.qafsam.az/).*

*34. 1992-ci il mayın 15-də Daşkənddə, MDB üzvü olan Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Ermənistan tərəfindən Kollektiv Təhlükəsizlik Müqaviləsi imzalandı. 1993-cü ilin sentyabr ayında Azərbaycan, dekabr ayında isə Gürcüstan və Belarus bu müqaviləyə qoşuldular. Müqavilə 1994-cü ilin aprel ayında qüvvəyə minib. 1999-cu ildə Azərbaycan, Gürcüstan və Özbəkistan müqavilənin onların təhlükəsizliyinə təminat vermədiyini əsas götürərək, onun prolonqasiyasından imtina ediblər. 2002-ci ildə Kollektiv Təhlükəsizlik Müqaviləsi əsasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı yaradılıb.*

*35. Müstəqil Dövlətlər Birliyi – keçmiş SSRİ məkanında dövlətlərarası əlaqələri tənzimləmək məqsədilə yaradılan beynəlxalq təşkilat. MDB-nin əsası 1991-ci il dekabrın 8-də Rusiya prezidenti B.Yeltsin, Ukrayna prezidenti L.Kravçuk və Belorusiya Ali Sovetinin sədri S.Şuşkeviç tərəfindən "Müstəqil Dövlətlər Birliyi yaradılması haqqında razılaşma"nın imzalanması ilə qoyulmuşdur. Dekabrın 21-də Qazaxstanın paytaxtı Alma-Ata şəhərində keçirilən görüşdə Azərbaycan, Ermənistan, Qazaxstan, Qırğızstan, Moldova, Tacikstan, Türkmənistan və Özbəkstanın da MDB-yə qoşulması barədə qərar qəbul olundu. Azərbaycan Parlamenti bu qərarı 1993-cü il sentyabrın 24-də ratifikasiya edib.*

*36. Azərbaycan Respublikası Milli Məclisinin sədri, eyni zamanda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyev 1993-cü il sentyabrın 6-dan 8-dək Moskvada səfərdə olub, Rusiya prezidenti Boris Yeltsin və digər rəsmi şəxslərlə görüşüb. O, bu səfəri "Rusiya ilə münasibətlərdə respublikanın*

*əvvəlki rəhbərliyinin buraxdığı səhvlərin aradan qaldırılması" kimi qiymətləndirib və Azərbaycanın MDB-yə daxil olmasının lehinə çıxış edib (Камышев Д. Гейдар Алиев приехал исправлять чужие ошибки, Газета «Коммерсантъ», 7 сентября 1993 г.).*

*37. Maykl Tçanz – 1993-cü ildə Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakıda rəsmi nümayəndəsi olub.*

*38. 1993-cü il avqustun 31-də Qubadlı şəhəri Ermənistan ordusu tərəfindən işğal olunub, 2020-ci il oktyabrın 25-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib.*

*39. 1993-cü ilin noyabrında Rusiyanın energetika naziri Yuri Şafrannik və "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərovun Bakıya səfəri zamanı, Azərbaycan ilə Rusiya arasında enerji müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Azərbaycan "Azəri", "Günəşli" və "Çıraq" yataqlarında iştirak payının 10%-ni "LUKoil" şirkətinə verib. Azərbaycan bu yolla Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsindəki mövqeyini və Qərb neft şirkətləri ilə imzalamağa hazırlaşdığı neft sazişlərinə qarşı siyasətini yumşaltmağa çalışırdı. ("Əsrin müqaviləsi necə imzalandı? – Cavid Vəliyevin şərhi / https://1news.az/az/news/201909201 22716712-Esrin-muqavilesi-nece-imzalandi-Cavid-Veliyevin-SHERHI).*

*40. 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Heydər Əliyevin Azərbaycan ərazisində rus hərbi bazalarının, Azərbaycan-İran sərhəddində isə rus qoşunlarının yerləşdirilməsi barədə müəllifin, heç bir konkret fakta əsaslanmadan irəli sürdüyü fikir reallıqda öz təsdiqini nəinki tapmamış, əksinə Həydər Əliyevin həyata keçirdiyi və Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə yönələn balanslı xarici siyasət kursu ilə tamamilə inkar olunur.*

*41. Villiam Cefferson (Bill) Klinton (1946) – hüquqşünas, 1977-ci il yanvarın 3-dən 1979-cu il yanvarın 9-dək Arkanzas şta-*

*tının baş prokuroru, 1979-cu il yanvarın 9-dan 1981-ci il yanvarın 19-dək Arkanzas ştatının qubernatoru, 1993-cü il yanvarın 20-dən 2001-ci il yanvarın 20-dək ABŞ-nin prezidenti olub.*

*42. Uorren Maynor Kristofer (1925-2011) – hüquqşünas, 1993-cü il yanvarın 23-dən 1997-ci il yanvarın 20-dək ABŞ-nin dövlət katibi olub.*

*43. XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində kommunist düşərgəsinin böhranı keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikası ərazisində bir sıra etnik münaqişənin meydana gəlməsinə və Federasiyanın süqutuna səbəb oldu. 1991-2001-ci illəri əhatə edən Yuqoslaviya müharibələri serblərin bosniyalılar, slovenlər, xorvatlar və albanlar ilə, xorvatların bosniyalılar ilə, makedoniyalıların albanlar ilə münaqişəsini əhatə edirdi. 1995-ci ilin iyul ayında Serbiya Respublika Ordusunun Bosniya müsəlmanlarına qarşı törətdiyi və 8 min nəfərdən çox mülki insanın öldürülməsi ilə nəticələnən Serebrenitsa soyqrımı bu müharibələrin ən qanlı səhifəsidir. Proseslərə müdaxilə edən NATO qüvvələri, müsəlman bosniyalılar və albanlarla xüsusi amansızlıqla davranan serb hərbi birləşmələrinə qarşı hərbi əməliyyatlar həyata keçirib, 1995-ci ildə Bosniya serblərinin, 1999-cu ildə isə, Serbiyanın tərkibinə daxil olan Kosovoda etnik təmizləmə siyasəti həyata keçirən və Serbiya və Çernoqoriyadan ibarət olan İttifaq Respublikasının mövqelərinə hava zərbələri endirib. 2008-ci ildə Kosovo müstəqil respublika elan edildi. Yuqoslaviya müharibələri zamanı törədilən cinayətləri təhqiq etmək məqsədilə, keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Tribunal yaradılıb.*

*44. Hüsaməddin Cindoruk (1933) – hüquqşünas, 1991-ci il noyabrın 16-dan 1995-ci il oktyabrın 1-dək Türkiyə Böyük Millət Məclisinin sədri olub, 1993-cü il aprelin 17-dən mayın 16-dək Türkiyə Cümhuriyyəti Prezidentinin səlahiyyətlərini yerinə yetirib.*

*45. Araz çayı üzərində inşa edilən, Naxçıvanla Türkiyəni birləşdirən, açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və Türkiyə Respublikasının baş naziri Süleyman Dəmirəlin iştirak etdiyi və "Ümid körpüsü" adlandırılan Sədərək-Dilucu körpüsü 1992-ci il mayın 28-də istifadəyə verilib.*

*46. Ermənistan-Azərbaycan münaqişəsində sovet hökumətinin və SSRİ Silahlı Qüvvələrinin Azərbaycana kömək etməsi ilə bağlı iddialar həqiqətdən çox uzaqdır. Əksinə, münaqişənin əvvəlində Ermənistan tərəfindən SSRİ və Azərbaycan SSR konstitusiyalarının, sovet qanunvericiliyinin pozulmasına göz yummaqla, separatizmə qarşı ciddi tədbirlər görməməklə, Sumqayıtda, Bakıda və Azərbaycanın digər bölgələrində təxribatlar planlaşdırıb, həyata keçirməklə və s. məkrli addımlarla Kreml Azərbaycanın mövqelərini zəiflətmiş, Ermənistan ərazisində yaşayan azərbaycanlıların deportasiya olunması və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı üçün zəmin hazırlamışdır. SSRİ-nin süqutundan sonra Rusiyanın Ermənistana həm canlı qüvvə, həm də silah-sursat ilə kömək etməsi konkret faktlarda öz təsdiqini tapmışdır. 1996-1998-ci illərdə Rusiya Dövlət Duması Müdafiə Komitəsinin sədri vəzifəsini tutan general-leytenant Lev Roxlinin məlumatına görə, 1992-1994-cü illərdə Rusiya Ermənistana 9,5 min ədəddən çox raket-artilleriya silahı, 600 vaqon döyüş sursatı, 72 ədəd tank əleyhinə silah və texnika, 21314 ədəd texniki yanacaq, 64,2 ton yanacaq, 15977 ədəd rabitə vasitəsi və 41003 kilometr səhra kabeli verib (Э.Мамедов. Двадцать лет спустя. Баку, 2008, с. 102). Ümumkyban kazak qoşunlarının atamanı, polkovnik Vladimir Qromovun Kuban, Don və Terek kazaklarına ünvanladığı müraciətində deyilir: "Bizə məlum olmuşdur ki, kazakların az bir hissəsi Azərbaycanla Ermənistan arasındakı hərbi əməliyyatlarda ermənilərin tərəfində iştirak*

*edir..." (Заплетин Г., Ширин-заде Г. Русские в истории Азербайджана. Баку, 2008, с. 260). 1992-ci ildə Dağlıq Qarabağda hərbi əməliyyatlar zamanı ermənilər tərəfdə vuruşan rus hərbiçilərindən ibarət dəstə azərbaycanlılar tərəfindən əsir götürülmüşdü (Чернявский С.И. Новый путь Азербайджана. М., 2002, с. 302) və s.*

*47. Süleyman Dəmirəl (1924-2005) – mühəndis, 1964-cü il noyabrın 29-dan 1980-ci il sentyabrın 12-dək Türkiyədə "Ədalət" Partiyasının sədri, 1965-ci il oktyabrın 27-dən 1971-ci il martın 26-dək, 1975-ci il martın 31-dən 1977-ci il iyunun 22-dək, 1977-ci il iyulun 11-dən 1978-ci il yanvarın 5-dək, 1979-cu il noyabrın 12-dən 1980-ci il sentyabrın 12-dək, 1991-ci il noyabrın 20-dən 1993-cü il mayın 17-dək Türkiyə Cümhuriyyətinin baş naziri, 1987-cü il sentyabrın 27-dən 1993-cü il mayın 16-dək "Doğru Yol" Partiyasının sədri, 1993-cü il mayın 16-dan 2000-ci il mayın 16-dək Türkiyə Cümhuriyyətinin Prezidenti olub.*

*48. Samuel Fillips Hantinqton (1927-2008) – sosioloq və siyasətşünas, 1977-1978-ci illərdə ABŞ Milli Təhlükəsizlik Şurası Planlaşdırma Şöbəsinin əlaqələndiricisi, 1978-1989-cu illərdə Harvard Universitetinin nəzdindəki Beynəlxalq Münasibətlər Mərkəzinin direktoru olub. Sivilizasiyaların etno-mədəni bölgüsü haqqında konsepsiyasının müəllifidir.*

*49. Nevzat Ayaz (1930-2020) – hüquqşünas, 1979-1988-ci illərdə İstanbul valisi, 1988-1990-cı illərdə İzmir valisi, 1991-1993-cü illərdə Türkiyə Cümhuriyyətinin müdafiə naziri, 1993-1995-ci illərdə təhsil naziri olub.*

*50. Morton İsaak Abramovitz (1933) – diplomat, ABŞ Dövlət Departamentində müxtəlif vəzifələrdə çalışıb, 1978-1981-ci illərdə ABŞ-nin Tailandda, 1989-1991-ci illərdə Türkiyədə fövqəladə və səlahiyyətli səfiri olub.*

*51. Oğuzxan Asiltürk (1935-2021) – mühəndis-inşaatçı, 1973-1980, 1991-2002-ci illərdə Türkiyə Böyük Millət Məclisinin deputatı, 1974-1977-ci illərdə Türkiyə Cümhuriyyətinin daxili işlər naziri, 1977-1978-ci illərdə sənaye və texnologiyalar naziri, 2011-2021-ci illərdə "Səadət" partiyası Yüksək Məşvərət Şurasının sədri olub.*

*52. Vladimir Petroviç Lukin (1937) – tarixçi, 1992-ci il yanvarın 24-dən 1994-cü il fevralın 8-dək Rusiya Federasiyasının ABŞ-də fövqəladə və səlahiyyətli səfiri, 2004-2014-ci illərdə Rusiya Federasiyasının insan hüquqları üzrə müvəkkili olub.*

*53. Timati Ceyms Kolton (1947) – tarixçi, Harvard Universiteti nəzdindəki Rusiya və Avrasiya Tədqiqatları Mərkəzinin direktoru, həmin universitetin Dövlət idarəçiliyiyi kafedrasının professoru və rəhbəri olub.*

*54. SSRİ-nin süqutu və MDB-nin meydana gəlməsindən sonra İttifaq dövlətinin sonuncu müdafiə naziri, aviasiya marşalı Yevgeni Şapoşnikov SSRİ Silahlı Qüvvələri bazasında MDB-nin Birləşmiş Silahlı Qüvvələrini yaratmaq təklifi ilə çıxış edib. Təklifə görə, növbəti 5 il müddətində Birləşmiş Silahlı Qüvvələr vahid komandanlıq altında fəaliyyət göstərməli, MDB ölkələri müstəqil silahlı qüvvələrini yaratmaqdan çəkinməli idilər. 1992-ci il fevralın 14-də Minskdə Azərbaycan, Belorus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan nümayəndələri MDB-nin Birləşmiş Silahlı Qüvvələrinin yaradılması barədə sənəd imzalayıblar, Yevgeni Şapoşnikov bu qüvvələrin baş komandanı təyin olunub. Keçmiş SSRİ-nin digər respublikaları qeyd olunan sənədi imzalamaqdan imtina ediblər. Postsovet məkanda etnik və ərazi münaqişələrinin genişlənməsi, respublikaların öz silahlı qüvvələrini yaratmaq istiqamətindəki fəaliyyəti və s. müstəqil addımları Minskdə imzalanan sənədin əhəmiyyətini heçə endirib.*

*1992-ci ilin mayında Daşkənddə MDB ölkələri tərəfindən Kollektiv Təhlükəsizlik Müqaviləsinin imzalanmasından sonra MDB-nin Birləşmiş Silahlı Qüvvələri parçalanma mərhələsinə daxil olub və 1993-cü ildə onun mövcudluğuna son qoyulub.*

*55. Yevgeni İvanoviç Şapoşnikov (1942-2020) – aviasiya marşalı, 1991-ci il avqustun 29-dan 1992-ci il fevralın 14-dək SSRİ-nin müdafiə naziri, 1992-ci il fevralın 14-dən 1993-cü il sentyabrın 24-dək MDB Birləşmiş Silahlı Qüvvələrinin baş komandanı olub.*

*56. Huşəng İsfəndiyar Çehabi (1954) – beynəlxalq münasibətlər və tarix üzrə mütəxəssis, professor, Harvard Universitetinin keçmiş müəllimi, Boston Universiteti Frederik Pardi adına Qlobal Tədqiqatlar Məktəbində İran üzrə tədqiqatçı.*

*57. Yevgeni Arşakoviç Ambartsumov (1929-1910) – siyasətşünas, 1992-1993-cü illərdə Rusiya Federasiyası Ali Soveti Beynəlxalq İşlər və Xarici İqtisadi Əlaqələr Komitəsinin sədri, 1994-cü il mayın 24-dən 1999-cu il avqustun 27-dək Rusiya Federasiyasının Meksikada, eyni zamanda, 1995-ci il mayın 22-dən 1999-cu il avqustun 27-dək Belizdə fövqəladə və səlahiyyətli səfiri olub.*

*58. 1988-ci ilin əvvəllərindən başlayaraq, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsi və onun ərazi bütövlüyünü tanımaqdan imtina etməsi, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirməsi və məqsədinə çatmaq üçün işğalçılıq müharibəsi yolunu seçməsi bu iki respublika arasında bütün əlaqələrin kəsilməsi ilə nəticələnib. Onu da qeyd etmək lazımdır ki, baş verən proseslər, Azərbaycanın əsas hissəsi ilə yerüstü nəqliyyat əlaqələri kəsilən Naxçıvan Muxtar Respublikasını ağır sosial-iqtisadi problemlərlə üz-üzə qoyub. 1993-cü ilin aprelində, təcavüzkarlıq siyasətini davam etdirən Ermənistan Azərbaycanın Kəlbəcər rayonunu işğal etdikdən sonra, buna cavab olaraq, Türkiyə Ermənistan ilə sərhədlərini bağlayıb.*

*59. 1993-cü ildə Ermənistan və Azərbaycan arasında hərbi tarazlığı bərpa etmək üçün Rusiyadan 200 nəfər məsləhətçinin Azərbaycana gəlməsi barədə məlumat həqiqəti əks etdirmir. Nəzərə almaq lazımdır ki, SSRİ-nin süqutundan sonra məhz Rusiyanın leqal və qeyri-leqal yardımları nəticəsində Ermənistan Azərbaycan qarşısında hərbi üstünlüyə malik olub.*

*60. Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağda qanuni əsaslarda fəaliyyət göstərən hərbçilər deyil, erməni separatçılarından, Ermənistan vətəndaşlarından, dünyanın müxtəlif ölkələrindən cəlb olunan muzdlulardan və terrorçulardan ibarət, Azərbaycana qarşı işğalçılıq müharibəsində iştirak edən silahlı quldur dəstələri fəaliyyət göstərib.*

*61. Levon Akopoviç Ter-Petrosyan (1945) – filoloq, 1990-cı il avqustun 4-dən 1991-ci il noyabrın 11-dək Ermənistan SSR/Ermənistan Respublikası Ali Sovetinin sədri, 1991-ci il oktyabrın 16-dan 1998-ci il fevralın 3-dək Ermənistan Respublikasının prezidenti olub.*

*62. IV əsrdə Cənubi Qafqazda xristianlığın beşiyi kimi Ermənistanın göstərilməsi yanlışdır, çünki 1918-ci ilə qədər regionda Ermənistan adlı dövlət mövcud olmayıb. Qeyd olunan əsrdə, indiki Ermənistanın əhatə etdiyi ərazinin çox hissəsi Qafqaz Albaniyasına daxil idi və bu ərazidəki xristian abidələri də ermənilərə deyil, albanlara məxsusdur. Ermənilər heç bir əsas olmadan alban abidələrinə sahib çıxmağa çalışırlar. Şəki rayonunun ərazisində yerləşən Kiş apostol kilsəsi Qafqaz Albaniyasında xristianlığın ilkin mərkəzi hesab olunur. "Albaniya tarixi" əsərinin müəllifi, alban tarixçisi M.Kalankatuklu bu kilsəni ümumilikdə Şərqin ən qədim kilsəsi hesab edir: "O, (Yelisey – A.Ş.) Albaniyada xristianlığı təbliğ edib və orada, Kişdə bütün Şərqdə olan kilsələrin ulu anası olan kilsəni bina edib və o zaman ermənilərdə kilsəyəbənzər heç bir şey yox idi (Kalankatuklu M. Albaniya tarixi. Qoş M. Alban salnaməsi. Bakı, 1993, c. 84).*

*63. 1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin sessiyasında Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət qəbul edilib, fevralın 21-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Dağlıq Qarabağa aid qəbul etdiyi qətnamədə bu müraciətin konstitusiyaya zidd olduğu bildirilib. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistanın tərkibinə qatılmasına razılıq verib, öz növbəsində Azərbaycan SSR Ali Soveti iyunun 17-də, DQMV-nin Ermənistana verilməsi tələblərinin qeyri-qanuni olduğu barədə qərar qəbul edib. İyunun 21-də DQMV Xalq Deputatları Soveti Dağlıq Qarabağın Ermənistana verilməsi xahişi ilə yenidən SSRİ Ali Sovetinə müraciət ünvanlayıb, iyulun 12-də isə DQMV-nin Azərbaycanın tərkibindən çıxması barədə qeyri-qanuni qərar qəbul edib. 1989-cu il yanvarın 12-də SSRİ Ali Soveti "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar verib. 1989-cu il sentyabrın 23-də Azərbaycan SSR-nin suverenliyi haqqında Konstitusiya qanunu qəbul olunub, həmin il noyabrın 28-də SSRİ Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyətin normallaşdırılması tədbirləri haqqında" qərar qəbul edib və bu qərara uyğun olaraq, Xüsusi İdarə Komitəsi ləğv edilib. Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında", 1990-cı il yanvarın 9-da "DQMV-nin sosial-iqtisadi inkişaf planının Ermənistan SSR-in dövlət planına daxil edilməsi haqqında" qərarlar qəbul edib, yanvarın 10-da SSRİ Ali Soveti Ermənistan SSR Ali Sovetinin bu qərarlarının SSRİ Konstitusiyasına zidd olduğu, Azərbaycanın suverenliyini pozduğu və bu respublikanın ərazisində tətbiqinin mümkünsüzlüyü barədə qərar çıxarıb və Ermənistandan öz qərarlarını SSRİ Konstitusiyasına uyğunlaşdırmağı tələb edib.*

*1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti Azərbaycanın 1920-ci ildə itirilmiş müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat qəbul edib. Bunun ardınca, sentyabrın 2-də DQMV və Şaumyan rayonunun Xalq Deputatları sovetlərinin birgə iclasında "Dağlıq Qarabağ Respublikası"nın yaradılması qərara alınıb. 1991-ci il oktyabrın 18-də qəbul olunan "Azərbaycan Respublikasının Dövlət Müstəqiliyi haqqında Konstitusiya Aktı"nda göstərilir ki, Azərbaycan unitar dövlətdir, onun sərhədləri və ərazisi toxunulmazdır. Buna baxmayaraq, Ermənistanın Azərbaycana qarşı təxribatları və silahlı təcavüzü davam edib, 1990-cı il noyabrın 20-də, içərisində Azərbaycanın dövlət və siyasi xadimlərinin, jurnalistlərin, Rusiya və Qazaxstan nümayəndələrinin olduğu helikopterin Dağlıq Qarabağ səmasında vurulması vəziyyəti daha da gərginləşdirib və bütün qeyd olunanlara cavab olaraq, 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi qanun ilə Dağlıq Qarabağın muxtariyyət statusu ləğv edilib.*

*64. Mixail Sergeyeviç Qorbaçov (1931-2022) – hüquqşünas, aqronom, 1970-ci il aprelin 10-dan 1978-ci il dekabrın 4-dək Sovet İttifaqı Kommunist Partiyası Stavropol Vilayət Komitəsinin birinci katibi vəzifəsində çalışıb, 1978-ci il noyabrın 27-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi seçilib, 1979-cu il noyabrın 27-dən 1980-ci il oktyabrın 21-dək Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlüyünə namizəd, 1980-ci il oktyabrın 21-dən 1991-ci ilin noyabrınadək Siyasi Büronun üzvü, 1985-ci il martın 11-dən 1991-ci il avqustun 24-dək Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi, 1988-ci il oktyabrın 1-dən 1989-cu il mayın 25-dək SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, 1989-cu il mayın 25-dən 1990-cı il martın 15-dək SSRİ Ali Sovetinin sədri, 1990-cı il martın 15-dən 1991-ci il dekabrın 25-dək isə SSRİ-nin prezidenti olub.*

*65. Azərbaycanın tarixi ərazisi olan Qarabağ e.ə. IV əsrdən 1920-ci ilədək ardıcıl olaraq Qafqaz Albaniyası, Ərəb Xilafəti, Sacilər, Salarilər, Şəddadilər, Eldənizlər, Hülakülər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövlətinin, Qarabağ xanlığının, Rusiya imperiyasının, Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da, ermənilərin iddialarına baxmayaraq, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qalmışdır. RK(b)P MK Qafqaz Bürosunun 1921-cü il iyulun 7-də keçirilən plenumunda Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq qərara alındı, 1923-cü il iyulun 7-də Azərbaycan Sovetlərinin Mərkəzi İcraiyyə Komitəsi Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret qəbul etdi (К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925: Документы и материалы. Баку, 1989, с. 92, 152-153). Region 1991-ci ilədək Azərbaycan SSR-in tərkibinə daxil olmuş, SSRİ-nin süqutundan sonra isə dünya birliyi tərəfindən Azərbaycan Respublikasının ərazisi kimi tanımışdır.*

*66. İosif Vissarionoviç Stalin (Cuqaşvili) (1878-1953) – 1922-ci il aprelin 3-dən 1934-cü il fevralın 10-dək Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin baş katibi, 1934-cü il fevralın 10-dan 1952-ci il oktyabrın 14-dək Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin (1952-ci ildən Sovet İttifaqı Kommunist Partiyası) katibi, 1941-ci il mayın 6-dan 1953-cü il martın 5-dək SSRİ Xalq Komissarları Sovetinin (1946-cı ildən SSRİ Nazirlər Soveti) sədri olub.*

*67. Dağlıq Qarabağın 1923-cü ildə Azərbaycana verildiyi haqqında iddia tarixi saxtalaşdırmaq cəhdidir. 1921-ci il iyulun 5-də* ***RK (b) P MK Qafqaz Bürosu plenumunun iclasında*** *RKP MK üzvü Stalin və Qafqaz bürosunun üzvləri Orconikidze, Kirov,*

*Oraxelişvili, Fiqatner, Nərimanov, Myasnikov və ASSR xalq xarici işlər komissarı Hüseynovun iştirakı ilə Qarabağ haqqında çıxarılan qərara əsasən: "Müsəlmanlar və ermənilər arasında milli sülhün zəruriliyindən və yuxarı və aşağı Qarabağın Azərbaycanla kifayət qədər iqtisadi əlaqələrini nəzərə alaraq, Dağlıq Qarabağ ASSR tərkibində saxlanılsın, ona muxtar vilayətin tərkibində saxlanılan, inzibati mərkəzi Şuşa ş. olmaqla geniş vilayət muxtariyyəti verilsin". (К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925: Документы и материалы. Баку, 1989, с. 92, 152-153). Göründüyü kimi, Qarabağın Azərbaycana verilməsi yox, onun tərkibində saxlanılması qərara alınmışdı.*

*68. 1990-cı ilin iyununda Gürcüstan Ali Soveti respublika ərazisində SSRİ-nin bütün qanunvericilik aktlarının, o cümlədən Gürcüstan SSR-nin tərkibində Cənubi Osetiya Muxtar Vilayətinin yaradılması haqqında 1922-ci il 20 aprel tarixli aktın qüvvədən düşdüyü barədə qərar qəbul etdi. Buna cavab olaraq, Cənubi Osetiya Vilayət Xalq Deputatları Soveti muxtar vilayətin ərazisində yalnız SSRİ konstitusiyasının və SSRİ-nin digər qanunvericilik aktlarının qüvvədə olması barədə qərar qəbul etdi. Eyni zamanda, Cənubi Osetiya Muxtar Vilayətinin adı dəyişdirilərək Cənubi Osetiya Sovet Demokratik Respublikası adlandırıldı. 1990-cı il dekabrın 11-də Gürcüstan Ali Soveti tərəfindən Cənubi Osetiya vilayətinin ləğv olunması haqqında qərar qəbul olundu. Tbilisi və Tsixinvalidə bir-birinə zidd olan qərarların qəbul olunması gürcülərlə osetinlər arasındakı qarşıdurmanı daha da dərinləşdirmiş, tərəflər arasında silahlı toqquşmalara gətirib çıxarmışdı. 1992-ci il yanvarın 19-da Cənubi Osetiyada keçirilən "referendumda" iştirak edənlərin 99%-dən çoxu Gürcüstanın tərkibindən çıxaraq, Rusiya Federasiyasına daxil olmağın lehinə səs vermişdi. Mayın 29-da isə*

*Cənubi Osetiya Ali Soveti Cənubi Osetiya Respublikasının müstəqillik aktını qəbul etdi. 1992-ci il iyulun sonlarında ATƏT-in fakt-araşdırma missiyası münaqişə zonasına göndərildi və bu missiyanın geri qayıtmasından sonra təşkilatın Yüksək Vəzifəli Şəxslər Komitəsi regionda ATƏT-in xüsusi nümayəndəsini təyin etmək barədə qərar qəbul etdi. Xüsusi nümayəndə kimi təyin olunan macar diplomatı İ.Dyarmati və onun rəhbərlik etdiyi missiya öz işinə dekabrda başladı. 2008-ci il avqustun 8-də Gürcüstan ordusu Tsixinvaliyə hücum edərək, şəhər üzərində nəzarəti ələ keçirsə də, Rusiyanın 58-ci ordusunun proseslərə müdaxiləsi nəticəsində Rusiya-Gürcüstan müharibəsi başladı. Avqustun 9-dan 12-dək davam edən hərbi əməliyyatlar zamanı Rusiya aviasiyası Senaki, Kutaisi, Qori, Şavşebi, Bolnisi, Marneuli, Vaziani, Qaçinani və Kareli daxil olmaqla, bütün Gürcüstan ərazisinə zərbələr endirmişdi. Moskva aparıcı dövlətlərin və beynəlxalq təşkilatların ikili standartlara əsaslanan siyasətindən istifadə edərək, Cənubi Osetiyanı müstəqil dövlət kimi tanımış və bununla da regionda davamlı sülhün bərpa olunması prosesinə zərbə endirmişdir.*

*69. Zviad Konstantinoviç Qamsaxurdiya (1939-1993) – filoloq, 1991-ci il aprelin 14-dən 1992-ci il yanvarın 6-dək Gürcüstan Respublikasının prezidenti olub.*

*70. 1990-cı ilin avqustunda Abxaziya Ali Sovetinin sessiyası Abxaziya Muxtar Sovet Sosialist Respublikasının dövlət müstəqilliyi haqqında Bəyannamə qəbul etdi. 1992-ci ilin iyul ayında Gürcüstan Dövlət Şurası Gürcüstanın 1921-ci il Konstitusiyasını bərpa etmək haqqında qərar qəbul etdi və eyni zamanda Gürcüstan SSR-nin Sovet İttifaqına daxil olması haqqında 1922-ci il müqaviləsi etibarsız elan olundu. Abxaziya Ali Soveti buna cavab olaraq, Abxaziyanın 1925-ci il Konstitusiyasının bərpası və respublikanın Gürcüstanın tərkibindən çıxması barədə qərar qəbul etdi. Abxaziya*

*hakimiyyət orqanlarının qərarları Güscüstan Dövlət Şurası tərəfindən qeyri-qanuni elan olundu. Nəticədə, tərəflər arasında silahlı qarşıdurma yarandı. 1993-cü il iyulun 27-də Rusiyanın Soçi şəhərində münaqişə tərəfləri arasında atəşin dayandırılması haqqında müqavilə imzalandı. 1994-cü il avqustun 23-də Abxaziya parlamenti Abxaziyanın suveren dövlət və beynəlxalq hüququn subyekti olduğu barədə qərar qəbul etdi. Yenə həmin ildə Tbilisi ilə Suxumi arasında atəşin və hərbi əməliyyatların dayandırılması haqqında imzalanmış razılaşmaya görə, Rusiya hərbçilərindən ibarət sülhyaradıcı qüvvələr Gürcüstanı Abxaziyadan ayıran İnquri çayı boyunca yerləşdirildi. 2008-ci il avqustun 8-dən 12-dək davam edən Rusiya-Gürcüstan müharibəsindən sonra, avqustun 26-da Rusiya Abxaziyanın müstəqilliyini tanıdı və sentyabrın 17-də Moskvada "Rusiya Federasiyası və Abxaziya Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə" imzalandı. Rusiyanın bu addımına cavab olaraq, 2008-ci il avqustun 28-də Gürcüstan parlamenti "Gürcüstan ərazisinin Rusiya Federasiyası tərəfindən işğalı haqqında" qərar qəbul etdi.*

*71. Ermənistan-Azərbaycan münaqişəsi, bu barədə fikir yürüdən bəzi müəlliflərin təqdim etdiyi kimi, dini və ya etnik amillər səbəbindən meydana gəlməmişdir, yəni dinlərarası və ya etnoslararası fərqliliklərin və ziddiyyətlərin nəticəsi deyildir. O, Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları nəticəsində meydana gələn ərazi münaqişəsidir və eyni zamanda, etnik və dini münaqişələr üçün xarakterik olan bəzi əlamətlərə də malikdir.*

*72. Azərbaycan Respublikasında əhalinin 2009-cu ildə keçirilən siyahıyaalınmasının nəticələrinə görə, respublikada yaşayan ləzgilərin sayı 180,3 min nəfərə bərabərdir (https://stat.gov.az/source/demoqraphy/).*

*73. Riçard Kozlariç (1944) – diplomat, 1994-cü il aprelin 20-dən 1997-ci il iyulun 20-dək Amerika Birləşmiş Ştatlarının Azərbaycanda, 1997-ci il avqustun 1-dən 1999-cu il avqustun 20-dək Bosniya və Hertseqovinada səfiri olub.*

*74. 1991-ci il avqustun 30-da Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə qəbul edilib.*

*75. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, separatçı erməni dəstələri və Rusiyanın 366-cı motoatıcı alayının birgə hücumu nəticəsində azərbaycanlıların yaşadığı və Qarabağın qədim yaşayış məskənlərindən olan Xocalı şəhəri dağıdıldı. Azərbaycanlılara qarşı törədilən bu soyqırım nəticəsində 63 nəfəri azyaşlı uşaq, 106 nəfəri qadın, 70 nəfəri yaşlı insan olmaqla, 613 nəfər öldürülüb, 7 ailə tamamilə məhv edilib, 25 nəfər uşaq hər iki valideyinini, 224 nəfər uşaq isə bir valideyinini itirib, 76 nəfəri uşaq olmaqla, 487 nəfərə ağır bədən xəsarəti yetirilib, 1275 nəfər girov götürülüb, onlardan 150 nəfərin, o cümlədən 68 nəfər qadın və 26 nəfər uşağın taleyi bu günə qədər məlum deyildir (Boran Əziz. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı, 2008, s. 90).*

*76. 1991-ci il sentyabrın 8-dən Azərbaycan Respublikasının Prezidenti olan Ayaz Mütəllibov, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı faciəsindən sonra, martın 6-da tutduğu vəzifədən istefa verməyə məcbur olub və Azərbaycan Respublikasının Ali Soveti bu barədə qərar qəbul edib. Bundan sonra prezident səlahiyyətlərini icra etmək Ali Sovetin sədri Yaqub Məmmədova həvalə edilib və iyun ayının 7-də yeni prezident seçkiləri keçirmək planlaşdırılıb. Qeyd olunan il mayın 14-də Azərbaycan Respublikası Ali Soveti Ayaz Mütəllibovun istefasına dair qərarın etibarsız olduğu barədə yeni qərar qəbul etməklə, onu prezident vəzifəsinə*

*qaytarıb. Xalq etirazı ilə qarşılaşan Ayaz Mütəllibov mayın 16-da yenidən istefa verib.*

*77. XX əsrin 80-ci illərinin ikinci yarısında keçmiş SSRİ-də getdikcə genişlənən ictimai hərəkat fonunda ictimai-siyasi xarakterli müxtəlif təşkilatlar meydana gəlirdi. Azərbaycan Xalq Cəbhəsi də belə təşkilatlardan biri idi. AXC-nin 1989-cu il iyulun 16-da keçirilən təsis konfransında Əbülfəz Əliyev (Elçibəy) onun sədri seçilib. 1989-1993-cü illərdə Azərbaycanda cərəyan edən proseslərdə AXC fəal rol oynayıb. 1992-ci il iyunun 7-də keçirilən prezident seçkilərində Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Prezidenti seçilib. 1995-ci ildə AXC daxili ziddiyyətlər səbəbindən parçalanıb və onun bazasında bir neçə siyasi partiya yaradılıb.*

*78. 1991-ci il oktyabrın 18-də Azərbaycanın "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildikdən sonra ölkədə "kommunist bloku" və "demokratik blok" adlandırılan iki siyasi qüvvə arasında kompromis əldə etmək məqsədilə, noyabrın 26-da Azərbaycan Ali Sovetinin nəzdində Milli Şura yaradıldı. Azərbaycan Ali Sovetinin Milli Şurasına Ali Sovetin 340 deputatından, 25 nəfəri "kommunist blokuna", 25 nəfəri isə "demokratik bloka" aid olmaqla, 50 nəfər seçildi.*

*79. 1993-cü il oktyabrın 3-də Azərbaycanda keçirilən prezident seçkilərində üç namizəd, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev, Vahid Azərbaycan Partiyasının sədri Kərrar Əbilov və Hümmət Partiyasının sədri Zakir Tağıyev iştirak edib. Seçici səslərinin 98,80%-ni toplayan Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.*

*80. 1993-cü ildə Ermənistanla müharibənin davam etdiyi, daxili sabitliyin pozulduğu və xarici təzyiqlərin mövcud olduğu bir şəraitdə Azərbaycanda dezinformasiyanın yayılmasının, bəzi partiya və qrupların qanunazidd hərəkətlərinin qarşısını almaq istiqamətin-*

*də atılan müəyyən addımlar dövlətçiliyi və müstəqilliyi möhkəmləndirmək zərurətindən irəli gəlirdi. Prezident Heydər Əliyevin rəhbərliyi altında respublikada siyasi sabitlik bərpa olunduqdan sonra demokratik islahatlar həyata keçirildi və Azərbaycan demokratik inkişaf yoluna qədəm qoydu. 1998-ci ildə isə senzura ləğv edildi.*

*81. 1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, ermənilərin iddialarına baxmayaraq, RK(b)P MK Qafqaz Bürosu 1921-cü il iyulun 7-də keçirilən plenumunda Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamağı qərara aldı, 1923-cü il iyulun 7-də isə Azərbaycan Sovetlərinin Mərkəzi İcraiyyə Komitəsi Azərbaycan SSR-nin tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret qəbul etdi (К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925: Документы и материалы. Баку, 1989, с.92, 152-153). Beləliklə, Qarabağın dağlıq hissəsində yaşayan ermənilərə Azərbaycanın tərkibində özünüidarə hüququ verildi.*

*82. Məqalədə, münaqişəsinin səbəblərinə aydınlıq gətirmədən, yəni problemin Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddialarının nəticəsi olduğu diqqətdən kənarda saxlanılaraq, Azərbaycanda ermənilərə qarşı etnik təmizləmə siyasətinin həyata keçirildiyinə dair əsassız iddia irəli sürülür. Ermənistan-Azərbaycan münaqişəsi dövründə Azərbaycan tərəfi, Ermənistandan fərqli olaraq, etnik təmizləmə siyasəti həyata keçirməmiş, özünün ərazi bütövlüyü və suverenliyinin bərpa olunması uğrunda mübarizə aparmış, Dağlıq Qarabağ ermənilərini isə Azərbaycan vətəndaşları kimi qəbul etmişdir. Bunun əksinə olaraq, terroru dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistan hakimiyyətinin 1988-1991-ci illərdə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində, indiki Ermənistan ərazisində yaşayan 200 min nəfərdən çox azərbaycanlının bir hissəsi qətlə yetirilmiş, digər hissəsi isə tarixi yurdlarından*

*qovulmuşdur. Bundan başqa, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı rayonlarda da ermənilər azərbaycanlılara qarşı təzyiq siyasəti həyata keçirmiş, qətliamlar törətmişdir.*

*83. 1988-ci ildən başlayaraq, Azərbaycanın Xanlar (indiki Göygöl) və Goranboy rayonlarının ermənilər yaşayan kəndlərində, Ermənistandan gələn silahlıların iştirakı ilə qeyri-qanuni silahlı dəstələr yaradılmışdı. Bu dəstələr azərbaycanlı əhaliyə qarşı silahlı basqınlar təşkil edir, terrorçuluq fəaliyyəti ilə məşğul olurdular. 1991-ci il aprelin 30-da SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının, sovet ordusunun, Azərbaycanın Xüsusi Təyinatlı Milis Dəstəsinin və Azərbaycan Təhlükəsizlik Komitəsinin bölmələrinin iştirakı ilə "Çaykənd" ("Halqa") əməliyyatı həyata keçirilib, Çaykənd, Qarabulaq, Kamo, Yeni Zod, Todan və digər yaşayış məntəqələrində pasport rejimi yoxlanılıb və qeyd olunan ərazilər qeyri-qanuni silahlı dəstələrdən təmizlənib.*

*84. 1991-ci il sentyabrın 2-də DQMV və Şaumyan rayonunun Xalq Deputatları sovetlərinin birgə iclasında "Dağlıq Qarabağ Respublikası"nın yaradılması qərara alınıb. Hüquqa zidd olaraq atılan bu addım nəticəsində yaradılan "respublika" dünyanın heç bir dövləti və təşkilatı tərəfindən tanınmamış, əksinə beynəlxalq birlik Qarabağın dağlıq hissəsini birmənalı olaraq, Azərbaycan ərazisi kimi qəbul etmişdir.*

*85. 1991-ci il noyabrın 20-də Azərbaycanın Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 helikopterinin Ermənistan silahlı bölmələri tərəfindən vurulması nəticəsində Azərbaycan, Qazaxıstan və Rusiyadan olan rəsmi şəxslər, hərbçilər və mətbuat nümayəndələri – Azərbaycan Respublikasının dövlət katibi Tofiq İsmayılov, baş prokuroru İsmət Qayıbov, dövlət müşaviri Məhəmməd Əsədov, Baş Nazirinin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, meliorasiya və su təsər-*

*rüfatı nazirinin müavini Qurban Namazəliyev, Milli Məclisin deputatları Vaqif Cəfərov və Vəli Məmmədov, DQMV-nin prokuroru İqor Plavski, DQMV Daxili İşlər İdarəsinin rəisi Vladimir Kovalyov, Dağlıq Qarabağ üzrə Milli Təhlükəsizlik Şöbəsinin rəisi Sergey İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Jinkin, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, milis general-mayoru Mixail Lukaşov, polkovnik-leytenant Oleq Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmmədov, telejurnalist Alı Mustafayev, AzTV-nin əməkdaşları Arif Hüseynzadə və Fəxrəddin Şahbazov, helikopter heyətinin üzvləri Vyaçeslav Kotov, Gennadi Domov və Dmitri Yarovenko – həlak olublar.*

*86. 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında" qanun qəbul edib.*

*87. 1991-ci il dekabrın 10-da Azərbaycanın Dağlıq Qarabağ regionunda, yalnız ermənilərin iştirak etdiyi və qondarma "Dağlıq Qarabağ Respublikası"nın statusunun müəyyənləşdirilməsi ilə bağlı keçirilən və iştirakçıların 99%-dən çoxunun "DQR"-in müstəqilliyinə səs verdiyi "referendum" həm SSRİ Konstitusiyasına, həm Azərbaycan Konstitusiyasına, həm də beynəlxalq hüquqa zidd idi və bu səbəbdən də həmin "referendum"un nəticələri təkcə Azərbaycan deyil, BMT üzvü olan heç bir ölkə tərəfindən tanınmadı. Ermənistan tərəfi "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 1990-cı il 3 aprel tarixli SSRİ Qanununa (Закон СССР от 03.04.1990 "О порядке решения вопросов, связанных с выходом союзной республики из СССР" / https://docs.cntd.ru/document/ 902002993) istinad edərək, "referendum"un nəticələrini legitimləşdirmək üçün əsassız cəhdlər edir. Həmin qanunun birinci maddəsində qeyd olunur ki, müttəfiq respublikanın SSRİ-nin tərkibindən çıxması ilə bağlı mə-*

*sələlər 1977-ci il SSRİ konstitusiyasının 72-ci maddəsinin tələblərinə uyğun həll edilməlidir. Qanunun ikinci maddəsində göstərilir ki, SSRİ-nin tərkibindən çıxmaq məsələsi yalnız müttəfiq respublikanın Ali Soveti tərəfindən və ya həmin respublikanın ərazisində yaşayan əhalinin onda bir hissəsinin tələbi ilə qaldırıla və bu məsələ yalnız müttəfiq respublika əhalisinin iştirak etdiyi referendum yolu ilə həll oluna bilər, yəni SSRİ-nin tərkibindən çıxmaq məsələsini qaldırmaq hüququ Azərbaycan SSR Ali Sovetinə və ya Azərbaycan əhalisinin ən azı onda bir hissəsinə məxsus idi. Qanun DQMV-yə belə bir hüquq vermirdi. Referendum, müttəfiq respublikanın SSRİ-nin tərkibindən çıxmaq barədə məsələ qaldırmaq haqqında qərar qəbul etdiyi andan etibarən, altı aydan tez, doqquz aydan gec olmayaraq keçirilməli idi. Qanunun üçüncü maddəsi, müttəfiq respublikanın tərkibində muxtar qurumlar olarsa, bu qurumların hər birində ayrıca referendum keçirməyi nəzərdə tutur. Başqa sözlə, Azərbaycan SSR SSRİ-nin tərkibindən çıxmaq məsələsini qaldırdığı təqdirdə DQMV-də ayrıca referendum keçirilə bilərdi, lakin Azərbaycan, 1991-ci il dekabrın 26-da SSRİ-nin rəsmən süqutuna qədər belə bir məsələ qaldırmamışdı. Referendumun təşkili, vaxtının müəyyənləşdirilməsi və nəticələrinin ümumiləşdirilməsi işini, qanunun dördüncü maddəsinə əsasən, müttəfiq respublikanın Ali Soveti tərəfindən yaradılan komissiya həyata keçirməli idi, yəni referendumu təşkil edən komissiyaları Azərbaycan SSR Ali Soveti yaratmalı idi və s. Göründüyü kimi, "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" SSRİ Qanunu ermənilərin 1991-ci il dekabrın 10-da özbaşına keçirdikləri "referendum" üçün hüquqi baza ola bilməz.*

*88. Butros Butros Qali (1922-2016) – diplomat, 1977-ci il noyabrın 17-dən 1991-ci il dekabrın 31-dək Misirin xarici işlər üzrə dövlət naziri, 1992-ci il yanvarın 1-dən 1996-cı il dekabrın 31-dək BMT-nin baş katibi olub.*

*89. 1992-ci il martın 17-də BMT baş katibinin xüsusi nümayəndəsi, ABŞ-nin keçmiş dövlət katibi Sayrus Vəns Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı regionda yaranan vəziyyətlə tanış olmaq və bu barədə fakt toplamaq məqsədilə Azərbaycana səfər edib.*

*90. 1992-ci il martın 24-də Helsinkidə ATƏM-in Xarici İşlər Nazirləri Şurasının iclasında Ermənistan-Azərbaycan münaqişəsini dinc vasitələrlə həll etmək üçün Minskdə konfrans çağırmaq barədə qərar qəbul edildi. Həmin il iyunun 21-də keçirilməli olan konfransın işində Azərbaycan, Türkiyə, Rusiya, ABŞ, Almaniya, Belorus, Çexiya və Slovakiya Federativ Respublikası (1993-cü il yanvarın 1-də Çexiya Respublikası və Slovakiya Respublikasına bölünmüşdür), İsveç, İtaliya, Fransa və Ermənistan iştirak etməli idi, lakin Ermənistanın işğalçılıq siyasətini davam etdirməsi nəticəsində konfrans planı iflasa uğrayıb. Sonrakı illərdə ATƏM-in (1995-ci ildən ATƏT) Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi istiqamətində fəaliyyəti, baş tutmayan konfransın işində iştirak etməli olan dövlətlərin daxil olduqları Minsk qrupu çərçivəsində həyata keçirilib. ATƏM-in 1994-cü il Budapeşt sammitində həmsədrlik institutu yaradıldı. İlk olaraq Rusiya və Finlandiya, 1995-1996-cı illərdə Rusiya və İsveç Minsk qrupunun həmsədr ölkələri olub, 1997-ci ildən isə bu funksiyanı Rusiya, ABŞ və Fransa həyata keçirib. Fəaliyyət göstərdikləri müddətdə münaqişənin həlli istiqamətində heç bir konkret nəticə əldə etməyən Minsk qrupunun həmsədrləri ikili standartlardan çıxış edərək, Ermənistanın işğalçılıq siyasəti nəticəsində regionda yaranan status-kvonu qoruyub saxlamağa çalışırdılar. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən "Qırx dörd günlük" müharibədə Azərbaycan Ermənistanı sarsıdıcı məğlubiyyətə uğradaraq, işğal altında olan torpaqlarını azad etdi və nəticədə Minsk qrupu öz əhəmiyyətini itirdi.*

*91. Azərbaycan ərazisində türk sivilizasiyasının başlanğıcını, XI əsrdə bura gələn səlcuq türkləri ilə əlaqələndirmək tarixi həqiqəti əks etdirmir. Azərbaycan ərazisində prototürk tayfaları (su, turukki və s.) e.ə. III-II minilliklərdə yaşamışdır. E.ə. VIII-VII əsrlərdə, türk mənşəli kimmer, iskit və sak tayfalarının Azərbaycanda məskunlaşması, b.e. VI-VII əsrlərində möhtəşəm türk abidəsi olan "Kitabi Dədə Qorqud" dastanının formalaşması və s. faktlar Azərbaycanın qədim türk yurdu olduğunu sübut edir.*

*92. Cənubi və Şimali Azərbaycanın heç vaxt vahid dövlətin tərkibində olmadığı barədə fikir yanlışdır. Səfəvilər dövlətinin süqutuna qədər olan dövrdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin (Sacilər, Salarilər, Atabəylər, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər) ərazisi, müəyyən dövrlər istisna olmaqla, Azərbaycanın hər iki hissəsini əhatə etmişdir.*

*93. Səfəvilər fars deyil, türk mənşəli sülalədir. A.Oleari, J.Şarden, E.Kempfer, A.Cenkinson, İsgəndər bəy Münşi və başqalarının məlumatları, O.Əfəndiyev, Y.Mahmudov, Z.Bayramov, V.Bartold, A.Krımski, İ.Petruşevski və digər tədqiqatçıların konkret faktlara əsaslanan araşdırmaları Səfəvilərin türk mənşəli olduğuna şübhə yeri qoymur.*

*94. Pavel Sergeyeviç Qraçov (1948-2012) – ordu generalı, 1990-cı il dekabrın 30-dan 1991-ci il avqustun 31-dək SSRİ Hava Desant Qoşunlarının komandanı, 1991-ci il avqustun 23-dən 1992-ci ilin fevralına qədər SSRİ müdafiə nazirinin müavini, 1992-ci il mayın 18-dən 1996-cı il iyunun 17-dək Rusiya Federasiyasının müdafiə naziri olub.*

*95. 1994-cü il fevralın 22-dən 25-dək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Böyük Britaniyada rəsmi səfərdə olub və bu ölkənin baş naziri Con Meycor, xarici işlər və birlik işləri üzrə naziri Duqlas Hördlə görüşüb. Səfər çərçivəsində Azərbaycan Respu-*

*blikası və Böyük Britaniya arasında "Dostluq və əməkdaşlıq haqqında birgə Bəyannamə" və müxtəlif sahələrə aid səkkiz müqavilə imzalanıb.*

*96. Con Meycor (1943) – siyasətçi, 1989-cu il iyulun 24-dən 1989-cu il oktyabrın 26-dək Böyük Britaniyanın xarici işlər naziri, 1990-cı il noyabrın 28-dən 1997-ci il mayın 2-dək Böyük Britaniyanın baş naziri olub.*

*97. 1993-cü ilin noyabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Rusiyanın "LUKoil" şirkəti arasında əməkdaşlıq haqqında sənədlər imzalandı. 1992-ci ilin martında "LUKoil" şirkəti, Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü barədə ARDNŞ ilə danışıqlar aparan Qərb neft şirkətlərinin konsorsiumuna daxil oldu. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi"ndə "LUKoil" şirkəti 10 %-lik paya malik idi.*

*98. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822 (Kəlbəcərin işğalı ilə bağlı), 853 (Ağdamın işğalı ilə bağlı), 874 (Füzuli, Cəbrayıl və Qubadlının işğalı ilə bağlı) və 884 saylı (Zəngilanın işğalı ilə bağlı) qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı, işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələbi ilə bağlı müddəalar yer alsa da, işğalçının adı konkret olaraq göstərilməmişdir, bununla da Təhlükəsizlik Şurası məsələyə ikili standartlarla yanaşaraq, işğalçı Ermənistanın məsuliyyətdən kənarda qalması üçün şərait yaratmışdır.*

*99. BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il 11 noyabr tarixli 884 saylı Qətnaməsi*

*Təhlükəsizlik Şurası*

*30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993) saylı qətnamələrini təsdiq edərək,*

*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həyata keçirilən sülh prosesi, və ATƏM-in Minsk Qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini təsdiq edərək,*

*ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının fəaliyyətdə olan Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına ünvanlanmış 9 noyabr 1993-cü il tarixli məktubunu və ona əlavələri (S/26718) nəzərə alaraq,*

*Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı gərginliyin regionda sülh və təhlükəsizliyi təhlükə altına atması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək,*

*Atəşkəsin pozulması və buna cavab olaraq gücün həddindən artıq tətbiq edilməsi, xüsusilə Azərbaycan Respublikasında Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı nəticəsində hərbi əməliyyatların genişlənməsini həyəcanla qeyd edərək,*

*Azərbaycan Respublikasının və regionun digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,*

*Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etmək məqsədilə gücün tətbiqinin yolverilməzliyini bir daha təsdiq edərək,*

*Son zamanlar böyük sayda mülki şəxsin yerlərinin dəyişməsi və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək,*

*– Tərəflər arasında əldə edilmiş atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların yenidən başlanmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikası ərazisinin bombardman edilməsini pisləyir;*

*– Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə və hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır;*

*– ATƏM-in Minsk Qrupunun doqquz üzvünün 4 noyabr 1993-cü il tarixli Bəyannaməsini alqışlayır və onun tərkibində atəşin dayandırılması haqqında olan birtərəfli bəyanatlarla bağlı təklifləri yüksək qiymətləndirir;*

*– Maraqlı tərəflərdən ATƏM-in Minsk Qrupunun 2-8 noyabr 1993-cü il tarixində Vyanada keçirilən iclasında edilən düzəlişlərlə, "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların yenilənmiş cədvəlinə" uyğun olaraq, hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, Zəngilan rayonundan və Horadiz şəhərindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş başqa rayonlarından işğalçı qüvvələrin çıxarılmasını tələb edir;*

*– Maraqlı tərəfləri, ATƏM-in Minsk Qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi təcili bərpa, onu effektiv və daimi etməyə və ATƏM-in Minsk prosesi və Minsk Qrupunun 2-8 noyabr 1993-cü il tarixli iclasında edilmiş düzəlişlərlə birlikdə "Yenilənmiş cədvəl" kontekstində münaqişənin danışıqlar vasitəsilə həllinin axtarılmasına təkidlə çağırır;*

*– Regionda olan bütün dövlətləri münaqişənin genişlənməsinə və regionda sülh və təhlükəsizliyin pozulmasına gətirib çıxara biləcək hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə bir daha çağırır;*

*– Baş katibdən və müvafiq beynəlxalq qurumlardan Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədinin əhalisi də daxil olmaqla, zərər çəkmiş əhaliyə təcili humanitar yardım göstərməyi və qaçqın və məcburi köçkünlərə təhlükəsiz və layaqətlə öz evlərinə qayıtmaqda köməklik etməyi xahiş edir;*

*– Baş katibdən, ATƏM-in fəaliyyətdə olan sədrindən və ATƏM-in Minsk Konfransının sədrindən Minsk prosesinin gedişi və yerlərdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında məruzələrin Şuraya təqdim olunmasının davam etdirilməsini xahiş edir;*

*- Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.*

*100. BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel tarixli 822 saylı Qətnaməsi*

*Təhlükəsizlik Şurası*

*Dağlıq Qarabağ münaqişəsinə dair Təhlükəsizlik Şurası sədrinin 1993-cü il 29 yanvar (S/25199) və 1993-cü il 6 aprel (S/25539) tarixli bəyanatlarına əsaslanaraq,*

*Baş katibin 1993-cü il 14 aprel tarixli məruzəsini (S/25600) nəzərə alaraq, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlığını ifadə edərək,*

*Silahlı hərbi əməliyyatların genişlənməsini və xüsusilə, yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu həyəcanla qeyd edərək,*

*Belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratması ilə əlaqədar narahat olaraq,*

*Böyük sayda mülki şəxsin yerlərinin dəyişməsi və regionda, xüsusilə Kəlbəcər rayonunda, fövqəladə humanitar vəziyyətlə bağlı ciddi narahatlığını ifadə edərək,*

*Regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bir daha təsdiq edərək,*

*Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,*

*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bəyan edərək və silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə biləcəyindən dərindən narahat olaraq,*

*– Möhkəm atəşkəsin əldə edilməsi məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın bu yaxınlarda işğal olunmuş digər rayonlarından dərhal çıxarılmasını tələb edir;*

*– Münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk Qrupunun sülh prosesi çərçivəsində həll edilməsi məqsədilə maraqlı tərəfləri danışıqları dərhal bərpa etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirən hər hansı hərəkətlərdən çəkinməyə çağırır;*

*– Mülki əhalinin əzablarını yüngülləşdirmək üçün regionda, xüsusilə münaqişəyə məruz qalmış rayonlarda, humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinə çağırır, bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir;*

*– Baş katibdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin fəaliyyətdə olan sədri, həmçinin Müşavirənin Minsk*

*Qrupunun sədri ilə məsləhətləşmədə regionda, xüsusilə Azərbaycanın Kəlbəcər rayonunda vəziyyətin qiymətləndirilməsini aparmağı və Şuraya növbəti məruzəni təqdim etməyi xahiş edir;*

*– Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.*

*101. BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il 29 iyul tarixli 853 saylı Qətnaməsi*

*Təhlükəsizlik Şurası*

*30 aprel 1993-cü il tarixli 822 (1993) saylı qətnaməsini təsdiq edərək,*

*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk Qrupu sədrinin 1993-cü il 27 iyul tarixli məruzəsini (S/26184) nəzərdən keçirərək,*

*Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onlar arasındakı gərginliklə əlaqədar ciddi narahatlığını ifadə edərək,*

*Tərəflərin 822 (1993) saylı qətnamənin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər planını qəbul etməsini alqışlayaraq,*

*Hərbi əməliyyatların genişlənməsini və, xüsusilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğal edilməsini həyəcanla qeyd edərək,*

*Belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratmasının davam etməsi ilə əlaqədar narahat olaraq,*

*Azərbaycan Respublikasında böyük sayda mülki şəxsin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar ciddi narahatlığını yenidən ifadə edərək,*

*Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,*

*Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,*

*– Ağdam rayonunun və Azərbaycan Respublikasının bu yaxınlarda işğal olunmuş digər rayonlarının işğalını pisləyir;*

*– Bundan başqa, regionda bütün düşmənçilik hərəkətlərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayonların bombardman edilməsini pisləyir;*

*– Bütün hərbi əməliyyatların dərhal dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş digər rayonlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir;*

*– Tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır;*

*– Yuxarıdakı 3 və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını bir daha təkrar edir.*

*– 822 saylı (1993) qətnamənin həyata keçirilməsi səyləri də daxil olmaqla, ATƏM-in Minsk Qrupunun münaqişənin sülh yolu ilə həllinə nail olmaq üzrə davam edən səylərini bəyənir və hərbi əməliyyatların genişlənməsinin bu cəhdlər üçün doğurmuş dağıdıcı nəticələri ilə bağlı ciddi narahatlığını ifadə edir;*

*– ATƏM-in müşahidə missiyasının və yerləşdirmə cədvəlinin hazırlanmasını, həmçinin Müşavirənin regionda iştirakının təmin edilməsi təklifinin Müşavirə çərçivəsində nəzərdən keçirilməsini alqışlayır;*

*– Tərəfləri münaqişənin sülh yolu ilə həllinə mane olan hər cür hərəkətlərdən çəkinməyə və ATƏM-in Minsk Qrupu çərçivəsində, həmçinin birbaşa əlaqələr vasitəsilə məsələnin qəti həllinin əldə edilməsi məqsədilə onlar arasında danışıqları davam etdirməyə təkidlə çağırır;*

*– Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun ermənilәri tərəfindən 822 saylı (1993) qətnamənin və hazırkı qətnamənin müddəalarına riayət edilməsi və bu tərəfin ATƏM-in Minsk qrupunun təkliflərini qəbul etməsi məqsədilə Ermənistan Respublikasının hökumətini öz təsirini göstərməkdə davam etməyi təkidlə çağırır;*

*– Dövlətləri münaqişənin intensivləşməsinə və ya ərazi işğalının davam etdirilməsinə apara biləcək hər hansı silahın və hərbi sursatın təchiz edilməsindən çəkinməyə təkidlə çağırır;*

*– Mülki əhalinin artan əzablarını yüngülləşdirmək məqsədilə, regionda, xüsusilə münaqişəyə məruz qalmış bütün rayonlarda, humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz təmin edilməsinə bir də çağırır və bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir;*

*– Baş katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi və qaçqın düşmüş şəxslərin öz evlərinə qayıtmalarına kömək göstərməyi xahiş edir;*

*– Baş katibdən ATƏM-in fəaliyyətdə olan sədri, həmçinin Minsk Qrupunun sədri ilə məsləhətləşmədə vəziyyət barədə Şuraya məruzələr təqdim etməsinin davam etdirilməsini xahiş edir;*

*– Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.*

*102. BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il 14 oktyabr tarixli 874 saylı Qətnaməsi*

*Təhlükəsizlik Şurası*

*30 aprel 1993-cü il tarixli 822 saylı (1993) və 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə Təhlükəsizlik Şurası sədrinin Şuranın adından verdiyi bəyanata (S/26326) əsaslanaraq,*

*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Dağlıq Qarabağ üzrə Minsk konfransının sədrinin Təhlükəsizlik Şurası sədrinin adına ünvanlanmış 1 oktyabr 1993-cü il tarixli məktubunu (S/26522) nəzərdən keçirərək,*

*Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin regionda sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyi ilə əlaqədar dərin narahatlığını ifadə edərək,*

*8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilən görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə həll edilməsinə töhfə verəcəyinə dair ümidlərini ifadə edərək,*

*Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,*

*Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,*

*Münaqişə üzündən insanların məruz qaldığı əzablar və regionda ciddi fövqəladə humanitar vəziyyətlə əlaqədar və xüsusilə Azərbaycan Respublikasında böyük sayda mülki şəxsin yerlərini dəyişməsi ilə əlaqədar özünün ciddi narahatlığını bir daha ifadə edərək,*

*– Maraqlı tərəfləri ATƏM-in Minsk Qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi effektiv və daimi etməyə çağırır;*

*– ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini və Minsk Qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini yenidən bəyan edir;*

*– 28 sentyabr 1993-cü il tarixində ATƏM-in Minsk Qrupunun iclasında üzə çıxarılan və Minsk Qrupunun doqquz digər üzvünün hərtərəfli dəstəyi ilə Qrupun sədri tərəfindən maraqlı tərəflərə təqdim olunan "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların yenilənmiş cədvəli"ni alqışlayır, tərəflərin diqqətinə çatdırır və tərəfləri onu qəbul etməyə çağırır;*

*– Münaqişədən irəli gələn və yenilənmiş cədvəldə bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll olunmamış məsələlərin Minsk prosesi kontekstində sülh danışıqları vasitəsilə tezliklə həll edilməsinin vacibliyinə əmin olduğunu ifadə edir;*

*– Bu yaxınlarda işğal edilmiş ərazilərdən qoşunların çıxarılması və rabitə və nəqliyyat üçün bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk Qrupunun yenilənmiş cədvəlində nəzərdə tutulan qarşılıqlı və təcili addımların dərhal həyata keçirilməsinə çağırır;*

*- ATƏM-in Nazirlər Şurasının 24 mart 1992-ci il tarixli mandatına uyğun olaraq, yenilənmiş cədvəldə nəzərdə tutulduğu kimi, münaqişənin danışıqlar yolu ilə həll edilməsinə nail olmaq məqsədilə, tezliklə Minsk konfransının keçirilməsinə çağırır;*

*– Baş katibdən ATƏM-in Minsk konfransında iştirak etmək üçün nümayəndə göndərmək dəvətinə müsbət cavab verməyi və Konfransın açılmasından sonra məsələyə dair başlanan danışıqlara bütün mümkün köməyi göstərməyi xahiş edir;*

*– ATƏM tərəfindən yaradılmış müşahidəçilər missiyasını dəstəkləyir;*

*– Bütün tərəfləri beynəlxalq humanitar hüququ pozmaqdan çəkinməyə çağırır və münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinin təmin edilməsinə dair 822 (1993) və 853 (1993) saylı qətnamələrindəki çağırışlarını təkrar edir;*

*– Regionda bütün dövlətləri münaqişənin genişlənməsinə gətirib çıxaran və regionda sülh və təhlükəsizliyi pozan hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə təkidlə çağırır;*

*– Baş katibdən və müvafiq beynəlxalq qurumlardan, zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardımın göstərilməsini və qaçqınlara və məcburi köçkünlərə təhlükəsiz şəraitdə və ləyaqətlə öz evlərinə qayıtmağa köməklik edilməsini xahiş edir;*

*– Baş katibdən, ATƏM-in fəaliyyətdə olan sədrindən və ATƏM-in Minsk Konfransının sədrindən Minsk prosesinin gedişi və yerdə vəziyyətin bütün aspektləri və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrin verilməsini davam etdirməyi xahiş edir;*

*– Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.*

*103. 1988-ci ildə Qarabağ ermənilərinin Azərbaycandan Ermənistana transfer olunmalarını tələb etmələri barədə fikir həqiqətdən uzaqdır. Reallıqda Ermənistan və Dağlıq Qarabağda yaşayan separatçılar Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüş, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirməyi tələb etmişdilər.*

*104. Azərbaycanda heç vaxt 420 min nəfər erməni yaşamamışdır. 1989-cu il əhalinin ümumittifaq siyahıyaalmasının nəticələrinə görə, Azərbaycanda (Dağlıq Qarabağ da daxil olmaqla) yaşayan ermənilərin sayı 390505 nəfərə bərabər olub (Всесоюзная перепись населения 1989 года/ http://www.demoscope.ru/).*

*105. 1994-cü il mayın 5-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində MDB ölkələri Parlamentlərarası Assambleyanın sədri Vladimir Şumeyko, MDB ölkələri Parlamentlərarası Assambleya Şurası Katibliyinin rəhbəri Mixail Krotov, Rusiya Federasiyası*

*Prezidentinin səlahiyyətli nümayəndəsi, Rusiya vasitəçilik missiyasının rəhbəri Vladimir Kazimirov, Qırğızıstan Ali Sovetinin sədri Medetxan Şerimkulov, Ermənistan Milli Məclisinin sədri Babken Ararktsyan və qondarma "Dağlıq Qarabağ Respublikası"nın nümayəndəsi Karen Baburyan Azərbaycan və Ermənistan arasında atəşkəsin əldə edilməsi barədə "Bişkek protokolu"nu imzaladılar. Mayın 8-də Bakıda Azərbaycan Respublikası Milli Məclisin sədri Rəsul Quliyev protokolun sürətini imzalayıb. "Bişkek protokolu" mayın 12-də qüvvəyə minib və həmin gün Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunub.*

*106. Heydər Əliyevin ermənilərin Azərbaycan torpaqlarından tam çıxarılmasını Dağlıq Qarabağın statusunu müzakirə etmək üçün şərt kimi irəli sürməsi barədə müəllifin fikri yanlışdır. Azərbaycan tərəfi Azərbaycan vətəndaşı olan dinc erməni əhalinin deyil, Ermənistan vətəndaşlarından, Dağlıq Qarabağdan olan separatçılardan və əcnəbi muzdlulardan təşkil olunan silahlı birləşmələrin respublika ərazisindən çıxarılmasını həmişə və bütün səviyyələrdə tələb edib.*

*107. Vladimir İliç Ulyanov (Lenin) (1870-1924) – hüquqşünas, Rusiyada 1917-ci il Oktyabr inqilabının əsas təşkilatçısı və rəhbəri. 1917-ci il noyabrın 9-dan 1924-cü il yanvarın 21-dək Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Sovetinin sədri, 1923-cü il iyulun 6-dan 1924-cü il yanvarın 21-dək SSRİ Xalq Komissarları Sovetinin sədri, 1918-ci il noyabrın 30-dan 1920-ci ilin aprelinədək RSFSR Fəhlə və Kəndli Müdafiə Şurasının sədri, 1920-ci ilin aprelindən 1923-cü il iyulun 17-dək RSFSR Əmək və Müdafiə Şurasının sədri, 1923-cü il iyulun 17-dən 1924-cü il yanvarın 21-dək SSRİ Əmək və Müdafiə Şurasının sədri olub.*

*108. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandıqdan sonra Xəzər dənizinin karbohidrogen ehtiyatlarını dünya bazarına çıxarmaq üçün marşrutların müəyyənləşdirilməsi məsələsi əsas müzakirə obyektinə çevrilmişdi. 1998-ci ilin may ayında Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq konfransda Xəzərin və Mərkəzi Asiyanın enerji daşıyıcılarının dünya bazarlarına ixrac marşrutları haqqında layihələr müzakirə olunmuşdu. Konfransda ABŞ-nin keçmiş energetika naziri Federiko Penya Bakı-Ceyhan marşrutunu "ən ağıllı marşrut" adlandırmışdı. Əsas ixrac neft kəmərinin öz ərazisindən keçməsinə çalışan Rusiya Federasiyası isə bu marşrutun reallaşmasında maraqlı deyildi. 1998-ci il oktyabrın 29-da Azərbaycan Prezidenti H.Əliyev, Gürcüstan Prezidenti E.Şevardnadze, Türkiyə Prezidenti S.Dəmirəl, Qazaxstan Prezidenti N.Nazarbayev, Özbəkistan Prezidenti İ.Kərimov və ABŞ-nin o zamankı energetika naziri B.Riçardsonun iştirakı ilə, Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşdırılmasını nəzərdə tutan Ankara Bəyannaməsi imzalandı. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul sammitinin gedişində Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxstan, Türkmənistan, həmçinin ABŞ prezidentləri tərəfindən imzalanan sənədlər paketini Bakı-Tbilisi-Ceyhan ətrafında gedən danışıqların yekunu hesab etmək olar. Bu paketdə əsas ixrac boru kəməri ərazisindən keçəcək dövlətlərin hüquqları, maraqları və vəzifələri, kəmərin tikintisinin vaxtı müəyyənləşdirilmişdi. Tikintisinə 2003-cü ildə başlanılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin uzunluğu 1767 kilometrə bərabərdir. Onun 443 kilometri Azərbaycan, 248 kilometri Gürcüstan, 1076 kilometri isə Türkiyə ərazisindən keçir. Kəmərin illik buraxılış gücü 50 milyon tondan çoxdur. Layihənin həyata keçirilməsi üçün 2002-ci ildə, ARDNŞ, "BP", "Unocal", "Statoil", "TPAO", "ENİ", "TotalFinaElf", "İtochu", "İnpex", "Conoco Phillips" və "Amerada Hess" şirkətlərinin daxil*

*olduğu "BTC.Co boru kəməri" şirkəti təsis edilib. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri 2006-cı ildə istifadəyə verilib.*

*109. Azərbaycanın tarixi torpaqlarının bir hissəsini təşkil edən, onun beynəlxalq birlik tərəfindən tanınan ərazisinə daxil olan Dağlıq Qarabağda yaradıldığı elan edilən qondarma və qeyri-legitim "Dağlıq Qarabağ Respublikası" və "onun hakimiyyət orqanları və digər strukturları" dünyanın heç bir ölkəsi və beynəlxalq təşkilatı tərəfindən rəsmi olaraq tanınmamışdır və onların fəaliyyətinin nəticələri hüquqi əhəmiyyət daşımır. Bu qondarma qurumun meydana gəlməsi Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddialarının nəticəsidir.*

*110. Hal-hazırda Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin bir hissəsini, 1828-ci il Türkmənçay müqaviləsindən sonra Rusiya hökuməti tərəfindən bura köçürülənlər, digər hissəsini isə Qriqorian kilsəsinin təsiri altında erməniləşən albanlar təşkil edir. Qədim albanların erməniləşmiş nəsillərinin müxtəlif istiqamətlərdən Qarabağın dağlıq hissəsinə köç etməsi nəticəsində burada məlikliklər meydana gəlmişdir: 1603-cü ildə Göyçə mahalından gələnlər Vərəndə məlikliyinin, 1637-ci ildə Zəngəzur mahalından gələnlər Giləbörd məlikliyinin, XVIII əsrin əvvəllərində Loridən gələnlər Dizaq məlikliyinin, Şirvandan, Qəbələnin Nic kəndindən gələnlər Gülüstan məlikliyinin, yerli əhali isə, Xaçın məlikliyinin əsasını qoymuşdur (Mahmudov Y. Şükürov K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı, 2005, s. 28-29). 1810-cu ildə Qarabağ xanlığının ərazisində 12 min ailə yaşayırdı, onlardan cəmi 2.500 ailə xristian qriqorian ailəsi idi (Мархулиа Г., Нуриева Ш. "Многострадальная Армения": мифы и реальность. Баку, 2011. с. 94). Sonrakı dövrlərdə rus hökumətinin köçürmə siyasəti nəticəsində regionda məskunlaşan ermələrin sayı davamlı olaraq artmışdı. 1832-ci ildə həyata keçirilmiş kameral hesablamalara görə, Qarabağ*

*əyalətində 32,4 min nəfər azərbaycanlı, 17,4 min nəfər erməni yaşayırdı (Ermənilərin köçürülməsi rusdilli mənbələrdə // http://-1905.az). 1897-ci ildə Rusiyada keçirilmiş siyahıyaalmanın nəticələrinə görə, Qarabağda 54.841 ailə yaşayırdı. Bu ailələrin 29.350-si azərbaycanlılara, 18.616-sı ermənilərə, yerdə qalanlar isə digər xalqlara aid idi. 1917-ci ildə Qarabağda yaşayan 574.194 nəfər əhalinin tərkibində azərbaycanlıların sayı 317.861 nəfərə, ermənilərin sayı isə 243.627 nəfərə bərabər olmuşdu (Xəlilov X.D. Qarabağın etnik tarixindən. // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988, № 3, s. 43). Azərbaycanlıların regiondan sıxışdırılması siyasəti sovet hakimiyyəti illərində də davam etmişdi.*

*111. 1923-cü ilə qədər Dağlıq Qarabağda Ermənistana aid muxtar respublikanın mövcudluğu barədə məqalədə yer alan fikir cəfəngiyyat və tarixin kobud şəkildə saxtalaşdırılmasıdır. Birincisi, Dağlıq Qarabağda muxtar respublika heç vaxt mövcud olmayıb. İkincisi isə, Qarabağın dağlıq hissəsi tarix boyu Azərbaycanın tərkib hissəsi olub. 1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, ermənilərin iddialarına baxmayaraq, RK(b)P MK Qafqaz Bürosu 1921-cü il iyulun 7-də keçirilən plenumunda Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamağı qərara alıb, 1923-cü il iyulun 7-də isə Azərbaycan Sovetlərinin Mərkəzi İcraiyyə Komitəsi Azərbaycan SSR-nin tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret qəbul edib (К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918 - 1925: Документы и материалы. Баку, 1989, с. 92, 152-153). Beləliklə, Qarabağın dağlıq hissəsində yaşayan ermənilərə Azərbaycanın tərkibində özünüidarə hüququ verilib.*

*112. Dağlıq Qarabağ Muxtar Vilayəti yarandığı zaman orada 200 min nəfər insanın yaşdığı barədə müəllifin fikri həqiqətə uyğun deyil. Belə ki, vilayətin mövcud olduğu dövrdə orada əhalinin sayı heç vaxt məqalədə göstərildiyi qədər olmayıb. 1926-cı il Ümumittifaq siyahıyaalmasının nəticələrinə görə, DQMV-də 125300 nəfər yaşayıb. Sonrakı illərdə həyata keçirilən siyahıyaalmaların nəticələrinə görə isə, burada əhalinin sayı 1939-cu ildə 63056 nəfərə, 1959-cu ildə 130406 nəfərə, 1970-ci ildə 150313 nəfərə, 1979-cu ildə 160901 nəfərə, 1989-cu ildə 187769 nəfərə bərabər olub (http://www.demoscope.ru/).*

*113. Azərbaycana qarşı hərbi əməliyyatlarda yalnız Ermənistan silahlı qüvvələri və separatçı erməni silahlı dəstələri deyil, keçmiş sovet ordusunun Ermənistanda və Dağlıq Qarabağda yerləşən hissələri də fəal iştirak etmişdilər. Bunu sübut edən kifayət qədər dəlil mövcuddur. Məsələn, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan ordusunun hissələri keçmiş sovet ordusunun 366-cı alayı ilə birlikdə Xocalıda azərbaycanlılara qarşı soyqrım həyata keçiriblər. Bu hadisəyə qədər onlar Dağlıq Qarabağda azərbaycanlıların yaşadıqları Malıbəyli, Qaradağlı və digər kəndlərdə də oxşar hadisələr törədiblər.*

*114. Robert Sedrakoviç Koçaryan (1954) – mühəndis-elektromexanik, 1997-ci il martın 20-dən 1998-ci il aprelin 10-dək Ermənistan Respublikasının baş naziri, 1998-ci il aprelin 9-dan 2008-ci il aprelin 9-dək Ermənistan Respublikasının prezidenti olub. Ermənistanda, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı rayonlarda dinc azərbaycanlı əhaliyə qarşı cinayətlər törədən dəstələrə başçılıq edib.*

*115. Birinci dünya müharibəsi illərində Şərqi Anadoluda yaşayan ermənilər, təbəələri olduqları Osmanlı dövləti Rusiya ilə döyüşdüyü zaman üsyan qaldırıb və xəyanət edərək, türk ordusuna arxadan zərbə endirməyə təşəbbüs göstəriblər. Buna cavab olaraq,*

*Osmanlı hökuməti təxminən 500 min nəfər ermənini Anadoludan dövlətin digər vilayətlərinə köçürmək barədə qərar qəbul edib. Köç prosesində ermənilərin bir hissəsi müxtəlif səbəblərdən həyatını itirib.*

*116. Seyran Aramaisoviç Baqdasaryan (1959) – iqtisadçı, 1990-cı ildə Ermənistan parlamentinə deputat seçilib, Dağlıq Qarabağ məsələsi üzrə parlament komissiyasının sədri olub, Rusiya Erməniləri İttifaqı Şurasının üzvüdür, davamlı olaraq, Azərbaycan və Türkiyə əleyhinə əsassız və saxta ittihamlarla çıxış edir.*

*117. IV Henri (1553-1610) – 1589-1610-cu illərdə Fransa kralı olub.*

*118. Acarıstan – rəsmi adı Acarıstan Muxtar Respublikası, Gürcüstanın tərkibində inzibati-siyasi region, inzibati mərkəzi Batumi şəhəridir.*

*119. Dağıstan – rəsmi adı Dağıstan Respublikası, Rusiya Federasiyasının subyekti. Şimali Qafqaz Federal Dairəsinə daxildir, paytaxtı Mahaçqala şəhəridir.*

*120. Çeçenistan – rəsmi adı Çeçenistan Respublikası, Rusiya Federasiyasının subyekti. Şimali Qafqaz Federal Dairəsinə daxildir, paytaxtı Qroznı şəhəridir.*

*121. Şimali Osetiya – rəsmi adı Şimali Oseyiya-Alaniya Respublikası, Rusiya Federasiyasının subyekti. Şimali Qafqaz Federal Dairəsinə daxildir, paytaxtı Vladiqafqaz şəhəridir.*

*122. İnquşetiya – rəsmi adı İnquşetiya Respublikası, Rusiya Federasiyasının subyekti. Şimali Qafqaz Federal Dairəsinə daxildir, paytaxtı Maqas şəhəridir.*

*123. Krasnodar – rəsmi adı Krasnodar diyarı, Rusiya Federasiyasının subyekti. Cənub Federal Dairəsinə daxildir, inzibati mərkəzi Krasnodar şəhəridir.*

*124. Stavropol – rəsmi adı Stavropol diyarı, Rusiya Federasiyasının subyekti. Şimali Qafqaz Federal Dairəsinə daxildir, inzibati mərkəzi Stavropol şəhəridir.*

*125. Kuban – Şimali Qafqazda tarixi-coğrafi region. Qədim türk torpağı olan Kubanda e.ə. I minilliyin birinci yarısında əsasən kimmer, iskit və sak tayfaları məskunlaşmış, e.ə. VII əsrdə Qara dənizin şərq sahillərində yunan koloniyaları meydana gəlmiş, b.e. I minilliyində isə regionda hunlar, bulqarlar, xəzərlər, qıpçaqlar, alanlar üstünlük təşkil etmişdilər. Orta əsrlərdə Böyük Bulqar dövləti, Xəzər xaqanlığı, Alan dövləti, Qızıl Orda, Noqay Ordası və Krım xanlığının, 1783-cü ildə Rusiya imperiyası tərəfindən ilhaq edildikdən sonra, 1917-ci ilədək bu imperiyanın tərkibində olub. 1917-1920-ci illərdə regionda Kuban Xalq Respublikası mövcud olub. 1920-1991-ci illərdə Rusiya Sovet Federativ Sosialist Respublikasının tərkib hissəsi olub, 1991-ci ildən isə Rusiya Federasiyasına daxildir. XVII əsrdə Kubana rusların köçü başlayıb, regionun Rusiya tərəfindən işğalından sonra isə burada yerli türk əhali sıxışdırılmış və onların torpaqlarına ruslar köçürülmüşdür. Hal-hazırda Kuban regionuna Adıgey Respublikası, Qaraçay-Çərkəz Respublikası və Krasnodar diyarının çox hissəsi, Stavropol diyarının qərb hissəsi və Rostov vilayətinin cənubunda kiçik bir hissə daxildir.*

*126. Azərbaycanın tarixi ərazisi olan, təxminən 3500 il bundan əvvəl şəhər mədəniyyətinin meydana gəldiyi Naxçıvan Azərbaycan ərazisində dövlətçiliyin meydana gəldiyi andan 1920-ci ilədək, ardıcıl olaraq Manna, İskit, Midiya, Əhəməni imperiyası, Atropatena, Qafqaz Albaniyası, Ərəb Xilafəti, Sacilər, Salarilər, Rəvvadilər, Eldənizlər, Hülakilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövlətinin, Naxçıvan xanlığının, Rusiya imperiyasının, Araz Türk Respublikasının tərkibində olub. 1920-ci il iyulun 28-də Naxçıvan Sovet Sosialist Respublikası yaradılıb, 1921-ci il Moskva və Qars müqavi-*

*lələrinin şərtlərinə görə, Naxçıvan, üçüncü bir dövlətə güzəştə gedilməməsi şərti ilə, Azərbaycan SSR-yə verilib. 1924-cü ildə Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradılıb və hal-hazırda Azərbaycan Respublikasının tərkibində muxtar dövlət statusuna malikdir.*

*127. 1921-ci il martın 16-da Moskvada Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və qardaşlıq haqqında müqavilə imzalanıb. Müqavilənin 3-cü maddəsinə əsasən, Naxçıvan Azərbaycanın tərkibində muxtar ərazi təşkil edir və Azərbaycan onu üçüncü dövlətə güzəştə gedə bilməz. 1921-ci il oktyabrın 13-də Türkiyənin Qars şəhərində Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Türkiyə arasında, Rusiya Sosialist Federativ Sovet Respublikasının iştirakı ilə müddətsiz müqavilə imzalanıb. Müqavilənin 5-ci maddəsində qeyd olunur ki, "Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilən sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi yaradır".*

*128. "Etibarsız" xalqların deportasiya olunması, əhalinin məcburi surətdə başqa ərazilərə köçürülməsi sovet milli siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. İkinci dünya müharibəsi illərində "alman qüvvələri ilə əməkdaşlıqda" təqsirləndirilən kalmıklar, inquşlar, çeçenlər, qaraçaylar, balkarlar, noqaylar və başqa xalqlar Şimali Qafqazdan, krım tatarları Krım yarımadasından, məshəti türkləri Gürcüstandan Orta Asiyaya, Qazaxıstana və Sibirə, 1948-1953-cü illərdə 100 min nəfərdən çox azərbaycanlı indiki Ermənistan ərazisindən Azərbaycana deportasiya edilmiş və onların tərk etdikləri tarixi torpaqlarında digər xalqların nümayəndələri yerləşdirilmişdir. 1950-ci illərin sonlarından başlayaraq, köçürülmüş xalqların çoxu bəraət almış və bundan sonra onların vətənlərinə qayıtmaları ərazi problemləri, etnik-milli qarşıdurmalar yaratmışdı.*

*129. Vladimir Volfoviç Jirinovski (1946-2022) – hüquqşünas, 1989-cu il dekabrın 13-dən 1992-ci il aprelin 18-dək Sovet İttifaqı Liberal Demokrat Partiyasının, 1992-ci il aprelin 18-dən 2022-ci il aprelin 6-dək Rusiya Liberal Demokrat Partiyasının sədri, 1993-cü il dekabrın 12-dən 2022-ci il aprelin 6-dək Rusiya Federasiyası Federasiya Məclisi Dövlət Dumasının deputatı, 2000-ci il yanvarın 19-dan 2011-ci il dekabrın 21-dək Dövlət Duması sədrinin müavini olub.*

*130. Abxaziya – Gürcüstanın inzibati-ərazi bölgüsünə görə Gürcüstanın tərkibində muxtar respublika. BMT tərəfindən də Gürcüstanın tərkib hissəsi kimi tanınır. 1994-cü il noyabrın 26-da Abxaziya müstəqilliyini və Gürcüstanın tərkibindən çıxdığını elan edib və faktiki olaraq, qismən tanınan Abxaziya Respublikasının hakimiyyət orqanları tərəfindən idarə olunur.*

*131. 1990-cı ilin noyabrında Qroznıda çeçen xalqının qurultayında Çeçen Respublikası Noxçi-Çonun dövlət suverenliyi haqqında sənəd qəbul olundu. Həmin il noyabrın 27-də Çeçen-İnquşetiya Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti Çeçen-İnquşetiya Respublikasının dövlət suverenliyi haqqında Bəyanat qəbul etdi. 1991-ci il iyunun 8-də Çeçen Xalqının Ümummilli Konqresi Çeçen Respublikası Noxçi-Çounun dövlət müstəqilliyi, onun həm SSRİ-dən, həm də Rusiyadan ayrılması haqqında qərar qəbul etdi, oktyabrın 27-də isə C. Dudayev Çeçenistanın Prezidenti seçildi. 1992-1994-cü illərdə Moskva ilə Qroznı arasında Çeçenistanın statusu haqqında aparılmış danışıqlar heç bir nəticə vermədi. 1994-cü il dekabrın 9-dan 1996-cı il avqustun 31-dək davam edən birinci Çeçenistan müharibəsində Çeçenistan qalib gəldi. 1996-cı il aprelin 22-də C. Dudayev öldürüldükdən sonra Çeçenistanı vitse-prezident Zəlimxan Yandarbiyev idarə edirdi. Avqustun 31-də Xasavyurd şəhərində Rusiya Təhlükəsizlik Şurasının katibi, gene-*

*ral A.Lebed ilə Çeçenistan rəhbərliyi arasında, Qroznı ətrafında yerləşən iki briqada istisna olmaqla, federal qoşunların Çeçenistan ərazisindən çıxarılması haqqında razılaşma imzalandı. 1997-ci ilin mayında Moskvada Rusiya Prezidenti Boris Yeltsin və Çeçenistan Prezidenti Aslan Məshədov tərəfindən Rusiya-Çeçenistan sülh müqaviləsi imzalandı. Buna baxmayaraq, Rusiya rəhbərliyinin 1999-cu il sentyabrın 23-də qəbul etdiyi qərara əsasən, hərbi əməliyyatlar yenidən başladı. 1999-cu il avqustun 7-dən 2000-ci il aprelin 20-dək davam edən ikinci Çeçenistan müharibəsi federal qüvvələrin qələbəsi ilə başa çatdı. 2003-cü ildə Çeçenistanda keçirilən seçkilərdə Əhməd Kadırov prezident seçildi. 2004-cü ildə Ə. Kadırov terror aktı nəticəsində öldürüldü. 2004-2007-ci illərdə Alu Alxanov Çeçenistan prezidenti oldu, 2007-ci ildən isə Ramzan Kadırov bu vəzifəni yerinə yetirir.*

*132. Cövhər Musayeviç Dudayev (1944-1996) – aviasiya general-mayoru, 1991-ci il oktyabrın 27-dən 1996-cı il aprelin 21-dək İçkeriya Çeçen Respublikasının Prezidenti olub.*

*133. Əli Rza Bozkurt (1942-2018) – mühəndis, ABŞ vətəndaşı, bu ölkədə "müdhiş türk" kimi tanınıb, inşaat, neft, qida sənayesi, ticarət sahələrində biznez fəaliyyəti ilə məşğul olub, Azərbaycan və Qazaxıstanda ilk neft sazişlərini imzalayıb, 2008-ci ildə ABŞ Konqresinə seçkilərdə namizədliyini irəli sürüb.*

*134. Henri Alfred Kissincer (1923) – diplomat, 1969-cü il yanvarın 20-dən 1975-ci il noyabrın 3-dək ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə məsləhətçisi, 1973-cü il sentyabrın 22-dən 1977-ci il yanvarın 20-dək ABŞ-nin dövlət katibi olub.*

*135. Meçislav İvanoviç Qrib (1938) – hüquqşünas, 1994-cü il yanvarın 28-dən 1996-cı il yanvarın 10-dək Belarus Respublikası Ali Sovetinin sədri olub.*

*136. Yan Eliasson (1940) – diplomat, 1992-1994-cü illərdə BMT baş katibinin humanitar məsələlər üzrə birinci müavini, 2000-2005-ci illərdə İsveçin ABŞ-də fövqəladə və səlahiyyətli səfiri, 2005-ci il sentyabrın 13-dən 2006-cı il sentyabrın 12-dək BMT Baş Assambleyasının sədri, 2006-cı il aprelin 24-dən oktyabrın 6-dək İsveçin xarici işlər naziri, 2012-ci il iyulun 1-dən 2016-cı il dekabrın 31-dək BMT baş katibinin müavini olub.*

*137. 1994-cü il sentyabrın 20-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında, əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırılan müqavilənin imzalanma mərasimi keçirildi. Müqavilə 8 ölkənin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 iri neft şirkəti ("Amoco", "BP", "Mac Dermott", "Unocal", ARDNŞ, "LUKoil", "Statoil", "Exxon", "Turkish Petroleum", "Penzoil", "İtochu", "Ramco" və "Delta") arasında imzalandı. Müqavilənin həyata keçirilməsi nəticəsində əldə olunan təmiz gəlirin 80%-i Azərbaycanın, 20%-i isə sərmayəçilərin payına düşürdü. 1997-ci ildə "Çıraq" yatağında neft hasilatına başlanıldı. 1999-cu ilin dekabrında isə Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında, düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. Saziş Azərbaycan Hökuməti, "SOCAR", "BP", "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətləri arasında imzalandı və qeyd olunan yataqların işlənilməsi 2050-ci ilə qədər uzadıldı.*

*138. 1994-cü il sentyabrın 20-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinliklərində yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında "Əsrin müqaviləsi" imzalandı. 1995-ci il fevralın 24-də, "Əsrin müqaviləsi"ni həyata keçirmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı. ABƏŞ-ə ilkin olaraq 6 ölkəni (Böyük Britaniya, ABŞ, Rusiya, Norveç, Türkiyə, Səudiyyə Ərəbistanı) təmsil edən 11 xarici neft şirkəti – "BP", "Amoco", "Unocal", "LUKoil", "Statoil", "Exxon", "Turkish Petroleum", "Penzoil", "Mac Dermott", "Ramco", "Delta" daxil idi. Sonradan Yaponiyanın "İtochu" şirkəti də ABƏŞ-ə qoşuldu. Şirkətin operatoru və ən böyük sərmayədarı "BP" şirkətidir.*

*139. Natiq Ağaəmi oğlu Əliyev (1947-2017) – geoloq, 1993-cü il avqustun 9-dan 2005-ci il dekabrın 9-dək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti, 2005-ci il dekabrın 9-dan 2013-cü il oktyabrın 22-dək Azərbaycan Respublikası sənaye və energatika naziri, 2013-cü il oktyabrın 22-dən 2017-ci il iyunun 9-dək Azərbaycan Respublikası energatika naziri olub.*

*140. Azərbaycanlılara qarşı müharibəni təkcə Dağlıq Qarabağ erməniləri aparmırdı. Bu müharibədə iştirak edən erməni qüvvələrinin əsas hissəsini Ermənistan ordusunun əsgərləri, Ermənistan vətəndaşı olan yaraqlılar, xarici ölkələrdən cəlb edilən muzdlular və terrorçular təşkil edirdi. Bundan başqa, Ermənistanın və onun havadarlarının hərbi, siyasi, iqtisadi və maliyyə resursları da Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin bir hissəsini işğal etmək üçün cəlb edilmişdi.*

*141. 1901-ci ildə Bakıda 667,1 mln. pud (təxminən 11 mln. ton) neft hasil olunmuşdu, bu da dünyada hasil olunan neftin 50%-dən çox idi.*

*142. Con Braun Medingli (1948) – 1995-2007-ci illərdə "British Petroleum" şirkətinin prezidenti olub.*

*143. Qriqori Borisoviç Karasin (1949) – diplomat, 2000-ci il martın 6-dan 2005-ci il iyunun 9-dək Rusiya Federasiyasının Böyük Britaniyada fövqəladə və səlahiyyətli səfiri, 2005-ci il oktyabrın 19-dan 2019-cu il sentyabrın 10-dək Rusiya Federasiyası xarici işlər nazirinin müavini olub, 2019-cu il sentyabrın 12-dən Rusiya Federasiyası Federasiya Məclisi Federasiya Şurasının üzvü, 2021-ci il martın 17-dən Rusiya Federasiyası Federasiya Məclisi Federasiya Şurasının xarici işlər üzrə komitəsinin sədridir.*

*144. Timoti Con Kromellin Eqqar (1951) – britaniyalı siyasətçi və iş adamı. 1989-1990-cı illərdə Böyük Britaniyanın məşğulluq naziri olub, 1990-1991-ci illərdə təhsil və elm departamentində çalışıb, 1992-1996-cı illərdə energetika naziri olub.*

*145. "Əsrin müqaviləsi" iki deyil üç yatağı – "Azəri", "Çıraq" və "Günəşli" yataqlarını əhatə edir.*

*146. Azərbaycanın Ermənistanla vətəndaş müharibəsi aparması fikri həqiqəti əks etdirmir. Reallıqda Azərbaycan Ermənistanın silahlı təcavüzünə məruz qalmışdı. Belə ki, 1988-ci ilin əvvəllərində Ermənistan Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüş, 1988-1991-ci illərdə, Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilmiş, 1991-ci ilin sonlarından başlayaraq, Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlamış və Azərbaycan ərazisinin 20%-ni işğal etmişdi. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən "Qırx dörd günlük" müharibədə Azərbaycan Ermənistanı sarsıdıcı məğlubiyyətə uğradaraq, işğal altında olan torpaqlarını azad etdi.*

*147. 1994-cü il dekabrın 12-də "Əsrin müqaviləsi" Azərbaycan Parlamentində təsdiq edilib.*

*148. 1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi" imzalandıqdan sonra, oktyabrın 2-də, Rusiyanın təşkilatçılığı və Azərbaycan Respublikasının baş naziri Surət Hüseynovun rəhbərliyi ilə Azərbaycanda dövlət çevrilişi həyata keçirmək üşün qiyam qaldırılıb və Gəncə şəhərində dövlət əhəmiyyətli binalar qeyri-qanuni silahlı dəstələr tərəfindən ələ keçirilib, Bakıda Xətai rayon prokuroru Mahir Cavadov, nəzarətində olan silahlı dəstə ilə birlikdə Azərbaycan Respublikası Prokurorluğunun inzibati binasına basqın edib. Bu zaman ABŞ-də səfərdə olan Prezident Heydər Əliyev dərhal Bakıya qayıdıb. Oktyabrın 4-də Bakıda fövqəladə vəziyyət elan olunub, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev baş verənlərlə bağlı olaraq, xalqa müraciət edib, xalqın hakimiyyəti dəstəkləməsi nəticəsində qiyam yatırılıb, Surət Hüseynov vəzifədən kənarlaşdırılıb və həbs olunub.*

*149. Rövşən Bəxtiyar oğlu Cavadov (1951-1995) – həkim, 1993-cü il iyunun 17-dən 1993-cü il iyulun 3-dək Azərbaycan Respublikası daxili işlər nazirinin səlahiyyətlərini icra edib, 1993-cü il fevralın 10-dan 1995-cü il martın 15-dək Azərbaycan Respublikası daxili işlər nazirinin müavini olub.*

*150. Aleksandr Nikolayeviç Şoxin (1951) – iqtisadçı, 1991-ci il avqustun 26-dan noyabrın 10-dək RSFSR əmək naziri, 1991-ci il noyabrın 10-dan 1992-ci il iyunun 14-dək RSFSR/Rusiya Federasiyası əmək və əhalinin məşğulluğu naziri, 1993-cü il dekabrın 25-dən 1994-cü il yanvarın 20-dək Rusiya Federasiyası baş nazirinin müavini, 1994-cü il yanvarın 20-dən 1994-cü il noyabrın 6-dək Rusiya Federasiyası iqtisadiyyat naziri, 1996-1997-ci illərdə Rusiya Federasiyası Federasiya Məclisi Dövlət Duması sədrinin müavini olub.*

*151. Səlahəddin Məlik oğlu Quliyev (1958-2022) – jurnalist, 1993-2004-cü illərdə Azərbaycan Respublikası Prezidentinin mətbuat xidmətinin rəhbəri olub.*

*152. Valter Aleksandroviç Şoniya (1936) – diplomat, 1992-ci il martın 2-dən 1995-ci il iyunun 25-dək Rusiya Federasiyasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri olub.*

*153. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini pozaraq, yanvarın 20-də Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi haqqında fərman verdi. Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, ağır texnika və müxtəlif tipli silahlardan dinc əhaliyə atəş açılıb və nəticədə, 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 4 nəfər itkin düşüb, 400 nəfər isə həbs edilib. Yanvarın 22-də Azərbaycan Respublikasının Ali Soveti Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərar qəbul etsə də, İttifaq hakimiyyət orqanları bu qərarı tanımayıb. 1991-ci il avqust ayının 30-da Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə və Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərar qəbul edib və bununla da, Azərbaycan paytaxtında fövqəladə vəziyyət rejiminə son qoyulub.*

*154. Araz Böyükağa oğlu Əzimov (1962) – şərqşünas, 1994-cü il iyunun 25-dən Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini vəzifəsində çalışır.*

*155. Vladimir Nikolayeviç Kazimirov (1929) – diplomat, 1992-1996-cı illərdə Dağlıq Qarabağ üzrə danışıqlarda Rusiya Federasiyası vasitəçilik missiyasının rəhbəri, Rusiya Federasiyası Prezidentinin xüsusi nümayəndəsi, 1996-1999-cu illərdə Rusiya Federasiyasının Kosta-Rika və Qvatemalada fövqəladə və səlahiyyətli səfiri olub.*

*156. Tofiq Nadir oğlu Zülfüqarov (1959) – 1998-ci il martın 5-dən 1999-cu il oktyabrın 26-dək Azərbaycan Respublikasının xa-*

*rici işlər naziri, 2005-ci il iyunun 27-dən 2010-cu il oktyabrın 11-dək Latviya Respublikasında, 2007-ci il aprelin 10-dan 2015-ci il noyabrın 25-dək Estoniya Respublikasında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri olub.*

*157. Roberto Laurenti – UNICEF-in Azərbaycandakı nümayəndəsi olub.*

*158. Saparmurat Atayeviç Niyazov (1940-2006) – mühəndis-energetik, 1985-ci il martın 18-dən 1986-cı il yanvarın 4-dək Türkmənistan SSR Nazirlər Sovetinin sədri, 1985-ci il dekabrın 21-dən 1991-ci il dekabrın 16-dək Türkmənistan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1990-cı il oktyabrın 27-dən 1991-ci il oktyabrın 27-dək Türkmənistan SSR-nin prezidenti, 1991-cı il oktyabrın 27-dən 2006-cı il dekabrın 21-dək Türkmənistan prezidenti, 1991-cı il dekabrın 16-dan 2006-cı il dekabrın 21-dək Türkmənistan Demokrat Partiyasının sədri olub.*

*159. Con (Cek) Mareska (1937) – diplomat, 1986-1989-cu illərdə ABŞ müdafiə nazirinin köməkçisinin müavini, 1989-1992-ci illərdə ATƏM-də ABŞ-nin nümayəndəsi, 1992-1994-cü illərdə Kipr və Dağlıq Qarabağ münaqişələrində vasitəçilik üzrə ABŞ-nin xüsusi nümayəndəsi olub.*

*160. Heydər Əliyev 1994-cü il sentyabrın 25-dən 30-dək ABŞ-də işgüzar səfərdə olub, ayın 29-da Nyu-Yorkda BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edib.*

*161. 1994-cü il sentyabrın 29-da Bakıda Azərbaycan Ali Soveti sədrinin müavini Afiyəddin Cəlilov və Azərbaycan Respublikası Prezidenti yanında Xüsusi İdarənin rəisii Şəmsi Rəhimov qətlə yetirilib.*

*162. Stiven Remp – Şotlandiyanın "Ramco" şirkətinin iİdarə heyətinin sədri olub.*

*163. Albert Salamov (1934) – DTK polkovniki, 1989-2001-ci illərdə Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*

*olub, 1993-cü ilin iyunundan sentyabrın 2-dək Azərbaycan Respublikası xarici işlər nazirinin səlahiyyətlərini icra edib.*

*164. Azərbaycanın mədəniyyət mərkəzi, strateji əhəmiyyətə malik Şuşa şəhəri 1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, 2020-ci il noyabrın 8-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib.*

*165. Vəfa Mirzəağa oğlu Quluzadə (1940-2015) – şərqşünas, diplomat, 1970-1973-cü illərdə SSRİ-nin Misirdəki, 1987-1990-cı illərdə Əlcəzairdəki səfirliyində, 1973-1987-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində müxtəlif vəzifələrdə çalışıb, 1990-cı ilin noyabrından 1999-cu il noyabrın 11-dək Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə dövlət müşaviri və Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının üzvü olub.*

*166. Arkadi Arşaviroviç Qukasyan (1957) – filoloq, Dağlıq Qarabağda erməni separatçılarının rəhbərlərindən biri olub.*

*167. Ceyhan – Türkiyənin Adana ilində, Aralıq dənizi sahilində liman şəhəri.*

*168. 1983-cü ildə istifadəyə verilən Bakı-Novorossiysk neft boru kəməri Qərbi Sibirdə hasil olunan neftin bir hissəsini Azərbaycanda yerləşən neft emalı zavodlarına ötürmək üçün istifadə olunmuşdur. 1996-cı il fevralın 18-də AMOKO, Azərbaycan Dövlət Neft Şirkəti və "Transneft" arasında Azərbaycan neftinin Bakı-Novorossiysk kəməri vasitəsilə ixrac olunması haqqında üçtərəfli müqavilə imzalandı və həmin ildə boru kəməri revers rejiminə keçirildi. İllik buraxılış gücü 18 milyon ton, ümumi uzunluğu 1330 kilometr olan bu kəmərin 1099 kilometri Rusiya, 231 kilometri isə Azərbaycan ərazisindən keçir.*

*169. Bakı-Supsa neft kəməri – 1996-cı il martın 8-də Tbilisidə "Amoco", Azərbaycan Dövlət Neft Şirkəti və Gürcüstan höku-*

*məti arasında, SSRİ dövründə mövcud olan Bakı-Batum neft kəmərinin yenidən qurulması haqqında müqavilə imzalandı. Xəzərin karbohidrogen ehtiyatlarının ixracı üçün alternativ marşrutlardan biri olan, 1999-cu ildə istifadəyə verilən və uzunluğu 837 kilometr olan bu kəmərin yenidən qurulması Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yardımı ilə həyata keçirilmişdir. İlk vaxtlar sutkada 115 min barrel xam neft ötürmək qabiliyyətində olan Bakı-Supsa neft kəmərinin buraxılış qabiliyyəti sonradan 220 min barrelə çatdırılmışdır.*

*170. Heykki Talvitie (1939) – diplomat, 1984-1988-ci illərdə Finlandiyanın Yuqoslaviyada, 1988-1992-ci illərdə SSRİ-də və Rusiyada, 1996-2002-ci illərdə İsveçdə səfiri olub.*

*171. Valentin Vadimoviç Lozinski (1931) – diplomat, 1986-1988-ci illərdə SSRİ XİN-nin Beynəlxalq təşkilatlar idarəsinin rəisi, 1988-1994-cü illərdə Rusiyanın BMT-dəki daimi nümayəndəsinin birinci müavini olub.*

*172. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində ATƏT-in vasitəçiliyi ilə aparılan danışıqlarda Dağlıq Qarabağın müstəqil tərəf kimi iştirak etməsi barədə fikir yanlışdır. Danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb.*

*173. Şaumyan rayonu – 1930-cu ildə Azərbaycan SSR-in tərkibində yaradılan inzibati-ərazi vahidi. Azərbaycan SSR Ali Sovetinin 1991-ci il yanvarın 14-də verdiyi fərmanla Şaumyan rayonu ləğv olunub, onun ərazisi Qasım İsmayılov rayonunun tərkibinə daxil edilib. Qasım İsmayılov rayonunun tarixi adı bərpa edilərək, Goranboy rayonu adlandırılıb.*

*174. 1996-cı il dekabrın 14-də Xəzərin Azərbaycan Respublikası sektorundakı "Dan ulduzu" və "Əşrəfi" neft strukturlarının kəşfiyyatı, birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında*

*ARDNŞ, ABŞ-nin "Amoco", "Unocal", Yaponiyanın "İtochu" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri arasında müqavilə imzalanıb. 2018-ci il mayın 31-də . SOCAR və* ***Norveçin*** *"Equinor" şirkəti arasında "Xəzər dənizinin Azərbaycan sektorunda "Əşrəfi"-"Dan Ulduzu"-"Aypara" sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü" haqqında yeni saziş imzalanıb.*

*175. Terri Adams – 1995-1997-ci illərdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti olub.*

*176. Leopold Vitoldoviç Rostropoviç (1927-2007) – musiqiçi, XX əsrin məşhur violenç ifaçılarından biri, insan hüquq və azadlıqlarının müdafiəçisi olub.*

*177. Vahid Yusif oğlu Ələkbərov (1950) – mühəndis, 1987-1990-cı illərdə Rusiyada "Koqalımneftqaz" Birliyinin baş direktoru, 1990-1991-ci illərdə SSRİ neft-qaz sənayesi nazirinin müavini və birinci müavini, 1992-1993-cü illərdə "Lanqepasuraykoqalımneft" şirkətinin prezidenti, 1993-2022-ci illərdə "LUKoil" şirkətinin prezidenti olub.*

*178. Azərbaycanda insan haqları ilə bağlı vəziyyətin pis olması barədə fikirlər əsassız və subyektiv xarakter daşıyır. 1993-cü ildə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev respublikada ictimai-siyasi sabitliyin bərqərar olması istiqamətində ciddi addımlar atıb və bundan sonra hüquqi və demokratik dövlət quruculuğu sahəsində sistemli tədbirlər görməyə və islahatlar həyata keçirməyə başlayıb. Ümummilli lider qarşıda duran vəzifələrlə bağlı demişdi: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir". 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının,*

*Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan ilk və demokratik məzmuna malik Konstitusiyası referendum yolu ilə qəbul edildi. Konstitusiyanın 7-ci maddəsində Azərbaycan dövlətinin əsasları ilə bağlı qeyd olunur: "Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır; Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır; Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir". Əsas qanunun 3-cü fəslində insan və vətəndaşın hüquq və azadlıqlarının qorunması ilə bağlı müddəalar yer almışdır. 1998-ci ildə Heydər Əliyev tərəfindən "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman, "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzalandı, "İnsan hüquqlarının müdafiəsinə dair" Dövlət Proqramı təsdiq olundu, Azərbaycanda ölüm hökmü və senzura ləğv edildi, 2001-ci ildə Azərbaycan Avropa Şurasına üzv qəbul edildi, İnsan Haqları üzrə Beynəlxalq Konvensiyaya qoşuldu və s. Bütün bunlar Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanın demokratik dövlət quruculuğu yolu ilə inkişaf etdiyini göstərir.*

*179. Azərbaycan Respublikası Mərkəzi Asiyada deyil, Qərbi Asiyada yerləşir.*

*180. Albert Arnold Qor (1948) – hüquqşünas, 1993-cü il yanvarın 20-dən 2001-ci il yanvarın 20-dək ABŞ-nin vitse-prezidenti olub.*

*181. Maykl Demari Makkarri (1954) – incəsənətşünas, 1994-cü il dekabrın 22-dən 1998-ci il avqustun 4-dək Ağ Evdə mətbuat katibi olub.*

*182. Nelson Strobric Talbott (1946) – siyasətşünas, 1994-cü il fevralın 23-dən 2001-ci il yanvarın 19-dək ABŞ dövlət katibinin müavini olub.*

*183. Samuel (Səm) Deyl Braunbek (1956) – vəkil, 1996-cı il noyabrın 7-dən 2011-ci il yanvarın 3-dək ABŞ Senatında Kanzas ştatından senator, 2011-ci il yanvarın 10-dan 2018-ci il yanvarın 31-dək Kanzas ştatının qubernatoru, 2018-ci il fevralın 1-dən 2021-ci il yanvarın 10-dək ABŞ-nin Beynəlxalq Dini Azadlıq üzrə səfiri olub.*

*184. Federiko Fabian Penya (1947) – hüquqşünas, 1983-cü iyulun 2-dən 1991-ci il iyulun 15-dək ABŞ-nin Denver şəhərinin meri, 1993-cü il yanvarın 21-dən 1997-ci il fevralın 14-dək ABŞ-nin nəqliyyat naziri, 1997-ci il martın 12-dən 1998-ci il iyunun 30-dək energetika naziri olub.*

*185. Boris Yefimoviç Nemtsov (1959-2015) – fizik, 1991-ci il noyabrın 30-dan 1997-ci il martın 17-dək Rusiya Federasiyası Nijeqorod vilayətinin qubernatoru, 1997-ci il aprelin 24-dən noyabrın 20-dək Rusiya Federasiyası yanacaq və energetika naziri, müxtəlif vaxtlarda Rusiya Federasiyası Federasiya Məclisi Federasiya Şurası və Dövlət Dumasının üzvü və rəhbər şəxslərindən biri, Yaroslav Vilayət Dumasının deputatı olub.*

*186. Əhməd Məsud Yılmaz (1947-2020) – iqtisadçı, 1986-cı il oktyabrın 17-dən 1987-ci il dekabrın 22-dək Türkiyə Cümhuriyyətinin mədəniyyət və turizm naziri, 1987-ci il dekabrın 21-dən 1990-cı il fevralın 21-dək xarici işlər naziri, 1991-ci il iyunun 23-dən noyabrın 20-dək, 1996-cı il martın 6-dan iyunun 28-dək, 1997-ci il iyunun 30-dan 1999-cu il yanvarın 11-dək baş naziri olub.*

*187. Səddam Hüseyn Əbdülməcid əl Tikriti (1937-2006) – hüquqşünas, 1979-cu il iyulun 16-dan 2003-cü il aprelin 9-dək İraq prezidenti olub.*

*188. Fereydoun Barkeşli – Vyana Enerji Araşdırmalar Qrupunun prezidenti, İran Beynəlxalq Enerji Araşdırmaları İnstitutunun prezidenti olub.*

*189. Leonid İliç Brejnev (1906-1982) – mühəndis, 1946-cı il avqustun 30-dan 1947-ci il noyabrın 22-dək Ukrayna Kommunist Partiyası Zaparojye Vilayət Komitəsinin, 1947-ci il noyabrın 21-dən 1950-ci il iyunun 26-dək Dnepropetrovsk Vilayət Komitəsinin birinci katibi, 1950-ci il iyunun 26-dan 1952-ci il noyabrın 25-dək Moldova Kommunist Partiyası Mərkəzi Komitəsinin, 1955-ci il avqustun 6-dan 1956-cı il martın 6-dək Qazaxstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1960-cı il mayın 7-dən 1964-cü il iyulun 15-dək, 1977-ci il iyunun 16-dan 1982-ci il noyabrın 10-dək isə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, 1964-cü il oktyabrın 14-dən 1966-cı il aprelin 8-dək Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1966-cı il aprelin 8-dən 1982-ci il noyabrın 10-dək Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi olub.*

*190. Akr (ing. acre) – ingilis ölçü vahidi, 1 akr = 0,405 hektara bərabərdir.*

*191. Seyid Məhəmməd Hatəmi (1943) – filosof, 1982-ci il sentyabrın 12-dən 1992-ci il mayın 24-dək İranın mədəniyyət və islam təmayülü naziri, 1997-ci il avqustun 3-dən 2005-ci il avqustun 2-dək İran İslam Respublikasının prezidenti olub.*

*192. Binyamin Netanyahu (1949) – siyasətşünas, iqtisadçı, memar, 1996-cı il iyunun 18-dən 1999-cu il iyulun 6-dək, 2009-cu il martın 31-dən 2021-ci il iyunun 12-dək İsrailin baş naziri, 1996-cı il iyunun 18-dən avqustun 7-dək dini işlər üzrə nazir, 1996-cı il iyunun 18-dən sentyabrın 4-dək ədliyyə naziri, 1996-cı il iyunun 18-dən 1997-ci il iyulun 9-dək elm, mədəniyyət və idman naziri, 1996-cı il iyunun 18-dən 1999-cu il iyulun 6-dək inşaat naziri,*

*2002-ci il noyabrın 6-dan 2003-cü il fevralın 28-dək, 2012-ci il dekabrın 18-dən 2013-cü il noyabrın 11-dək xarici işlər naziri, 2003-cü il fevralın 28-dən 2005-ci il avqustun 9-dək maliyyə naziri, 2014-cü il noyabrın 5-dən 2017-ci il fevralın 21-dək rabitə naziri, 2018-ci il noyabrın 18-dən 2019-cu il noyabrın 12-dək müdafiə naziri, 2019-cu il iyunun 4-dən 2020-ci il yanvarın 20-dək diasporla iş üzrə nazir olub, 2022-ci il dekabrın 29-dan İsrailin baş naziri vəzifəsindədir.*

*193. Madlen Korbel Olbrayt (1937-2022) – siyasətşünas, 1997-ci il yanvarın 23-dən 2001-ci il yanvarın 20-dək ABŞ-nin dövlət katibi olub.*

*194. 1997-ci ilin noyabr ayında "Çıraq" yatağında ilkin neft hasil olunub.*

*195. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən, Azərbaycanın 1920-ci ildə itirilmiş müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat qəbul olundu. Həmin il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul etdi və dekabrın 29-da Azərbaycanda keçirilən referendumda Azərbaycan Respublikasının səsvermə hüququ olan vətəndaşlarının 95,27%-i iştirak edib və onların 99,58%-i Azərbaycanın dövlət müstəqilliyinin lehinə səs verib.*

*196. "Xəzərdənizneft" Birliyi Serebrovski adına (indiki "Qum adası") neft və qazçıxarma idarəsinin neft emalı zavodu.*

*197. "Yalama" neft-qaz strukturu Xəzər dənizində, sahildən 30 kilometr məsafədə, bərabər hissələrlə dənizin Azərbaycan və Rusiya sektorlarında yerləşir. 1997-ci ildə SOCAR və Rusiyanın "LUKoil" şirkəti arasında "Yalama" strukturunda kəşfiyyat, hasilat və hasilatın pay bölgüsü haqqında razılaşma imalanıb. 1997-ci il dekabrın 10-da Azərbaycan Respublikası Milli Məclisi razılaşmanı*

*ratifikasiya edib. 2003-cü ildə yataqla bağlı əlavə razılaşmalar paketi imzalanıb, nəticədə "LUKoil" şirkətinin layihədəki payı 60%-dən 80%-ə qaldırılıb. 2008-ci ildə "LUKoil" şirkəti layihədəki payının 15%-ni Fransanın "Gaz de France" şirkətinə satıb. Bundan sonra iştirakçı şirkətlərin pay bölgüsü belə olub: "LUKoil" – 65%, SOCAR – 20 %, "Gaz de France" – 15%. "Yalama" strukturunda aparılan sınaq qazma işləri nəticəsində gözlənilən səviyyədə karbohidrogen ehtiyatları aşkar edilmədiyi üçün, 2009-cu ildə tərəflər bu struktur ilə bağlı razılaşmaya xitam veriblər.*

*198. Emil Konstantinesku (1939) – hüquqşünas, geolog, 1996-cı il noyabrın 29-dan 2000-ci il dekabrın 20-dək Rumıniyanın prezidenti olub.*

*199. Konstanta (türkcə Köstence) – Rumıniyanın Qara dəniz sahilində, Dobruca regionunda liman şəhəri.*

*200. Toni Çarls Linton Bleyr (1953) – hüquqşünas, 1997-ci il mayın 2-dən 2007-ci il iyunun 27-dək Böyük Britaniyanın baş naziri olub.*

*201. Eldorado – Cənubi Amerikada qızıl və digər qiymətli metal və daşlarla zəngin olan mifik ölkə.*

*202. Con Stefen Leqqeyt (1947) – 1998-ci il iyulun 1-dən 1999-cu il yanvarın 1-dək Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin direktoru olub.*

*203. Tomas Donie Steysi (1934-2014) – neft mühəndisi, "Amoco Canada Petroleum Company Ltd." və "Amoco Eurasia Petroleum" şirkətlərində prezident və idarə heyətinin sədri olub.*

*204. Rob Söhrab Sobhani (1960) – siyasətşünas, 1991-ci ildə Azərbaycan hökuməti ilə ABŞ-nin "Amoco" şirkəti arasında danışıqlarda vasitəçilik edib. "Sparo Corporation" şirkətinin təsisçisi və baş direktoru, "Caspian Group" şirkətinin icraçı direktorudur.*

*205. Rod-Aylend – ərazisinə görə ABŞ-nin ən kiçik ştatı. Ərazisi 3144 kvadrat kilometrdir.*

*206. Marqaret Hilda Tetçer (1925-2013) – kimyaçı, hüquqşünas, 1970-ci il iyunun 20-dən 1974-cü il martın 4-dək Böyük Britaniyanın maarif və elm naziri, 1975-1990-cı illərdə Mühafizəkarlar Partiyasının sədri, 1979-cu il mayın 4-dən 1990-cı il noyabrın 28-dək Böyük Britaniyanın baş naziri olub.*

*207. Tomas Hamilton (1943) – geolog, 1991-1997-ci illərdə "Pennzoil Exploration & Production Company" şirkətinin prezidenti, 1997-2002-ci ildə "EEX Corp." şirkətinin presidenti və icraçı direktoru olub, 2003-cü ildən "Medora Investments, LLC" şirkətinin təsisçisi və sahiblərindən biridir.*

*208. Uilyam Hovard Uayt (1954) – hüquqşünas, iqtisadçı, 1993-cü il iyunun 26-dan 1995-ci il yanvarın 20-dək Amerika Birləşmiş Ştatları enerji nazirinin müavini, 2004-cü il yanvarın 2-dən 2010-cu il yanvarın 2-dək Hyuston şəhərinin meri olub, Xəzər dənizi regionunda neft və qaz hasilatı ilə məşğul olan "Frontera Resources" şirkətini təsis edib.*

*209. Yuri Konstantinoviç Şafrannik (1952) – mühəndis, 1993-cü il yanvarın 12-dən 1996-cı il avqustun 6-dək Rusiya Federasiyasının yanacaq və energetika naziri olub.*

*210. Samuel Riçard "Səndi" Berger (1945-2015) – hüquqşünas, 1997-ci il martın 14-dən 2001-ci il yanvarın 20-dək ABŞ prezidentinin milli təhlükəsizlik üzrə məsləhətçisi olub.*

*211. Uilyam Entoni Kirsopp Leyk (1939) – siyasətşünas, 1993-cü il yanvarın 23-dən 1997-ci il martın 14-dək ABŞ prezidentinin milli təhlükəsizlik üzrə məsləhətçisi, 2010-cu il aprelin 30-dan 2017-ci il dekabrın 31-dək YUNİSEF-in icraçı direktoru olub.*

*212. Ceyms Ərl (Cimmi) Karter (1924) – 1971-ci il yanvarın 12-dən 1975-ci il yanvarın 14-dək ABŞ Corciya ştatının qubernatoru,*

*1977-ci il yanvarın 20-dən 1981-ci il yanvarın 20-dək ABŞ prezidenti olub.*

*213. Zbiqnev Kazimir Bjezinski (1928-2017) - 1977-ci il yanvarın 20-dən 1981-ci il yanvarın 20-dək ABŞ prezidentinin milli təhlükəsizlik üzrə məsləhətçisi olub.*

*214. Fuad Namiq oğlu Axundov (1966) – mühəndis-iqtisadçı, 1995-2001-ci illərdə Azərbaycan Beynəlxalq Bankının idarə heyətinin sədri olub.*

*215. Stenli Tuemler Eskudero (1942) – diplomat, 1992-ci il oktyabrın 19-dan 1995-ci il iyunun 1-dək ABŞ-nin Tacikistanda, 1995-ci il oktyabrın 12-dən 1997-ci il oktyabrın 3-dək Özbəkistanda, 1997-ci il dekabrın 4-dən 2000-ci il oktyabrın 1-dək Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri olub.*

*216. Knut Vollebek (1946) – iqtisadçı, 1997-ci il oktyabrın 17-dən 2000-ci il martın 17-dək Norveçin xarici işlər naziri, 2001-ci il aprelin 17-dən 2007-ci il aprelin 17-dək Norveçin ABŞ-də fövqəladə və səlahiyyətli səfiri olub.*

*217. Yoşiyuki Kitaqava – Yaponiyanın "Nichimen Corporation" şirkətinin Bakıda əsas nümayəndəsi olub.*

*218. Con Mark Deyç (1938) – kimyaçı, 1994-cü il martın 11-dən 1995-ci il mayın 10-dək ABŞ müdafiə nazirinin müavini, 1995-ci il mayın 10-dan 1996-ci il dekabrın 15-dək Mərkəzi Kəşfiyyat İdarəsinin rıhbəri olub.*

*219. Lloyd Millard Bentsen (1921-2006) – hüquqşünas, 1971-ci il yanvarın 3-dən 1993-cü il yanvarın 20-dək Texas ştatından senator, 1993-cü il yanvarın 20-dən 1994-cü il dekabrın 22-dək ABŞ maliyyə naziri olub.*

*220. Stiv Nikandros – 1997-2017-ci illərdə "Frontera Resources" şirkətinin icraçı direktoru, şirkətin idarə heyətinin sədri olub.*

*221. Şirvanşah I Xəlilullah (-1465) – 1417-1465-ci illərdə Şirvanşahlar dövlətinin hökmdarı olub.*

*222. Fərrux Yasar (1441-1500) – 1465-1500-cü illərdə Şirvanşahlar dövlətinin hökmdarı olub.*

*223. Erdal Asim Durukan (Otuzbir) – 1996-cı ildə Azərbaycanda ilk GSM mobil rabitə operatoru olan "Azercell Telekom"u yaratmış və 2002-ci ilədək onun baş direktoru, 1998-2008-ci illərdə İsveç Krallığının Azərbaycanda fəxri konsulu, 2001-2007-ci illərdə "TeliaSonera" şirkətinin Avrasiya bölməsinin prezidenti olub.*

*224. Fuad Hüseyn oğlu Axundov (1968) – teleaparıcı, tarixçi, 1992-1993-cü illərdə Bakıda pedaqoji fəaliyyətlə məşğul olub, 1993-2006-cı illərdə İnterpolun Milli Mərkəzi Bürosunda çalışıb.*

*225. Rauf Arif oğlu Abbasov (Rauf Arifoğlu) (1966) – jurnalist, "Yeni Müsavat" media qrupunun təsisçisi və rəhbəri.*

*226. 2001-ci il yanvarın 26-da Fransa prezidenti Jak Şirakın vasitəçiliyi ilə Parisdə Azərbaycan və Ermənistan prezidentləri Heydər Əliyev və Robert Koçaryan arasında görüş keçirilib. Nəticəsiz başa çatan bu görüşdə tərəflər müzakirələri davam etdirmək barədə razılığa gəliblər.*

*227. Jak Rene Şirak (1932-2019) – siyasətçi, 1974-cü il mayın 27-dən 1976-cı il avqustun 26-dək, 1986-cı il martın 20-dən 1988-ci il mayın 10-dək Fransanın baş naziri, 1977-ci il martın 20-dən 1995-ci il mayın 16-dək Paris şəhərinin meri, 1995-ci il mayın 17-dən 2007-ci il mayın 16-dək Fransa prezidenti və Andorra knyazı olub.*

*228. Corc Volker Buş (1946) – iqtisadçı, 1995-ci il yanvarın 17-dən 2000-ci il dekabrın 21-dək Texas ştatının qubernatoru, 2001-ci il yanvarın 20-dən 2009-cu il yanvarın 20-dək ABŞ-nin prezidenti olub.*

*229. Keri Edvard Kavano (1955) – diplomat, 1992-ci ildə ABŞ-nin Gürcüstandakı missiyasının rəhbəri, 1998-1999-cu illər-*

*də ABŞ-nin Kipr üzrə xüsusi əlaqələndiricisi (səlahiyyətləri icra edən), 1999-2001-ci illərdə ABŞ-nin Avrasiyada münaqişələr üzrə xüsusi nümayəndəsi və ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri olub.*

*230. Vladimir Vladimiroviç Putin (1952) – hüquqşünas, 1998-ci il iyulun 25-dən 1999-cu il avqustun 9-dək Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, 1999-cu il martın 29-dan avqustun 9-dək Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi, 1999-cu il avqustun 16-dan 2000-ci il mayın 7-dək, 2008-ci il mayın 8-dən 2012-ci il mayın 7-dək Rusiya Federasiyası hökumətinin sədri, 2008-ci il mayın 7-dən 2012-ci il mayın 26-dək "Vahid Rusiya" partiyasının sədri olub, 1999-cu il dekabrın 31-dən 2000-ci il mayın 7-dək Rusiya Federasiyası prezidentinin səlahiyyətlərini icra edib, 2000-ci il mayın 7-dən 2008-ci il mayın 7-dək Rusiya Federasiyasının prezidenti olub, 2012-ci il mayın 7-dən həmin vəzifəni yerinə yetirir.*

*231. İsmayıl Cem (1940-2007) – hüquqşünas, jurnalist, 1995-ci il iyulun 7-dən oktyabrın 26-dək Türkiyə Cümhuriyyətinin mədəniyyət naziri, 1997-ci il iyunun 30-dan 2002-ci il iyulun 11-dək xarici işlər naziri olub.*

*232. Kolin Lüter Pauell (1937 – 2021) – siyasi xadim, 1987-ci il noyabrın 23-dən 1989-cu il yanvarın 20-dək ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri, 2001-ci il yanvarın 20-dən 2005-ci il yanvarın 26-dək ABŞ dövlət katibi olub.*

*233. Məcid Zahid oğlu Kərimov (1958) – neft-qaz mühəndisi, 2001-ci il aprelin 18-dən 2004-cü il dekabrın 6-dək Azərbaycan Respublikasının yanacaq və energetika naziri, 2004-cü il dekabrın 6-dan 2005-ci il dekabrın 9-dək Azərbaycan Respublikasının sənaye və energetika naziri olub.*

*234. 1990-cı il yanvarın 13-də Bakıda, SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən planlaşdırılan və təxribatçılar tərəfindən həyata keçirilən erməni talanları törədilib. Bu zaman SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin Bakıda yerləşdirilən silahlı qüvvələrinə milli münaqişəyə qarışmamaq əmri verilib. Şahmatçı Harri Kasparov bildirib ki, "Bakıdakı erməni talanlarının arxasında DTK durur" (Гарри Каспаров: «КГБ стоял за погромами армян в Баку» / https://1news.az/world/ 20090427121409515.html). "Human Rights Watch" təşkilatının məlumatına görə, bu təxribat nəticəsində 48 nəfər erməni öldürülüb (Playing the "communal card": Communal Violence and Human Rights / https://www. hrw. org/ reports/ 1995/ communal/). Bu hadisələr zamanı azərbaycanlılar yüzlərlə erməninini öz evlərində gizlədərək, xilas ediblər.*

*235. Mahmud Əhməd oğlu Məmmədquliyev (1949) – hüquqşünas, 1993-cü il noyabrın 25-dən 2001-ci il mayın 25-dək Azərbaycan Respublikasının Böyük Britaniya, İrlandiya, Danimarka, İsveç və Norveçdə fövqəladə və səlahiyyətli səfiri, 1995-ci il noyabrın 24-dən 2000-ci il noyabrın 12-dək Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub, 1993-cü il sentyabrın 14-dən Azərbaycan Respublikası xarici işlər nazirinin müavinidir.*

*236. Əbülfəz Mürsəl oğlu Qarayev (1956) – dilçi, 1994-cü il iyulun 26-dan 2001-ci il aprelin 18-dək Azərbaycan Respublikasının gənclər və idman naziri, 2001-ci il aprelin 18-dən 2006-cı il yanvarın 30-dək Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri, 2006-cı il yanvarın 30-dən 2018-ci il aprelin 20-dək Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri, 2018-ci il aprelin 23-dən 2020-ci il mayın 21-dək Azərbaycan Respublikasının mədəniyyət naziri olub.*

*237. Hacıbala İbrahim oğlu Abutalıbov (1944) – fizik, 1995-ci il fevralın 16-dan 2000-ci il yanvarın 17-dək Suraxanı rayon*

*İcra hakimiyyətinin başçısı, 2001-ci il yanvarın 30-dan 2018-ci il aprelin 21-dək Bakı şəhər İcra hakimiyyətinin başçısı, 2018-ci il aprelin 21-dən 2019-cu il oktyabrın 21-dək Azərbaycan Respublikası Baş Nazirinin müavini olub.*

*238. Paolo Əmir Pərviz – 2001-ci ildə "Baku Steel Company" MMC-ni təsis edib və 2008-ci ilədək onun rəhbəri olub.*

*239. 1998-ci ilin iyulunda ARDNŞ, "BP", "Statoil", "ExxonMobil", TPAO və "Albert energy" şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Araz – Alov – Şərq" strukturunun kəşfiyyatı və işlənməsi üzrə hasilatın pay bölgüsünə dair saziş imzalanıb. 2001-ci ildə strukturda kəşfiyyat işləri həyata keçirən beynəlxalq konsorsiumun əməkdaşları İran sərhəd gəmiləri tərəfindən hücuma məruz qalıb. Nəticədə, həmin ərazidə kəşfiyyat işləri dayandırılıb.*

*240. Artur Tahir oğlu Rasizadə (1935) – mühəndis, 1986-cı il yanvarın 14-dən 1991-ci il mayın 22-dək Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, 1996-cı il fevralın 15-dən noyabrın 25-dək Azərbaycan Respublikası Prezidentinin köməkçisi, 2003-cü il avqustun 4-dən noyabrın 4-dək Azərbaycan Respublikası baş nazirinin birinci müavini, 2003-cü il oktyabrın 31-dən 2018-ci il aprelin 21-dək Azərbaycan Respublikasının baş naziri olub.*

*241. Əhəd Qəzai – 2000-2006-cı illərdə İran İslam Respublikasının Azərbaycan Respublikasında səfiri olub.*

*242. Hal-hazırda İranın tərkibində olan Cənubi Azərbaycanın Azərbaycan Respublikasına birləşdirilməsi nəzərdə tutulur.*

*243. Devid Vudvord (1946) – mühəndis, 1998-2006-cı illərdə "BP-Azərbaycan" şirkətinin rəhbəri olub.*

*244. Rudolf Uilyam Luis „Rudi" Culiani (1944) – hüquqşünas, 1994-cü il yanvarın 1-dən 2001-ci il dekabrın 31-dək Nyu-York şəhərinin meri, 2017-ci il yanvarın 20-dən 2021-ci il yanvarın 20-dək ABŞ prezidentinin kibertəhlükəsizlik üzrə məsləhətçisi olub.*

*245. Betti Bleyer – jurnalist-tədqiqatçı, 1993-cü ildə, Firuz Xanlou ilə birlikdə təsis etdiyi və ABŞ-də ingilis dilində nəşr olunan "Azerbaijan International" aylıq jurnalının baş redaktorudur.*

*246. Cənubi Qafqaz Boru Kəməri (Bakı-Tbilisi-Ərzurum Boru Xətti) – Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən yataqlardan çıxarılan təbii qazın Gürcüstan və Türkiyəyə nəqli üçün inşa edilmişdir. Kəmərin uzunluğu 692 kilometrdir, bunun 443 kilometri Azərbaycandan, 248 kilometri Gürcüstandan keçir. Boru kəməri ildə 20 milyard kubmetrədək ötürmə gücünə malikdir. 2006-cı ildə istifadəyə verilib. Bütövlüklə boru kəmərinin istismar əməliyyatlarına və tikintisinə Cənubi Qafqaz Boru Kəməri Şirkəti cavabdehdir. 2020-ci il martın 20-dək "BP" şirkəti kəmərin texniki operatoru, "SOCAR Midsteam Operation Limited" şirkəti isə kommersiya operatoru olub. Qeyd edilən tarixdən "SOCAR Midsteam Operation Limited" şirkəti həm də kəmərin texniki operatorudur.*

*247. Georgi Otaroviç Çanturiya (1957-2018) – 1992-1993-cü illərdə Gürcüstanın Azərbaycan, ABŞ, Böyük Britaniya, Almaniya İsveçrə və İsraildəki diplomatik missiyalarında fəaliyyət göstərib, 1994-1996-cı illərdə Gürcüstanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri, 1996-2004-cü illərdə Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti olub.*

*248. Kler Doyl – 1991-2007-ci illərdə "BBC World Service" radiosunun jurnalisti olub, 2007-ci ildən BMT-də media və kommunikasiyalar sahəsində çalışır.*

*249. Jalə Əhməd qızı Qəribova (1963) – dilçi, 2001-2003-cü illərdə Qərb Universitetində elmi işlər üzrə prorektor, 2004-2007-ci illərdə Azərbaycan Dillər Universiteti Beynəlxalq münasibətlər kafedrasının müdiri olub, 2004-cü ildən Azərbaycan Dillər Universitetində beynəlxalq əlaqələr üzrə prorektor vəzifəsində çalışır.*

*250. Donald Henri Ramsfeld (1932-2021) – kapitan, 1975-ci noyabrın 20-dən 1977-ci il yanvarın 20-dək, 2001-ci il yanvarın 20-dən 2006-cı il dekabrın 18-dək ABŞ-nin müdafiə naziri olub.*

*251. Serj Azatoviç Sarkisyan (1954) – filoloq, 1993-cü il avqustun 21-dən 1995-ci il mayın 17-dək, 2000-ci il mayın 20-dən 2007-ci il aprelin 4-dək Ermənistanın müdafiə naziri, 1995-ci ildən 1996-cı ilin noyabr ayınadək, 1999-cu ilin iyunundan noyabrın 13-dək Ermənistanın milli təhlükəsizlik naziri, 1996-cı ilin noyabr ayından 1999-cu ilin iyun ayınadək Ermənistanın daxili işlər və milli təhlükəsizlik naziri, 2008-ci il aprelin 9-dan 2018-ci il aprelin 9-dək Ermənistan prezidenti, 2018-ci il aprelin 17-dən 23-dək Ermənistanın baş naziri olub. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsinin əsas fiqurlarından, Xocalı soyqırımına rəhbərlik edənlərdən, dinc azərbaycanlılara qarşı törədilən çoxsaylı cinayətlərin təşkilatçılarından və iştirakçılarından biridir.*

*252. 1991-ci ildə SSRİ-nin süqutundan sonra Xəzər regionunda yeni reallıqlar meydana gəldi və dəniz beş müstəqil dövlətin – Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran – münasibətlər sistemina daxil oldu. Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi, dənizin təbii resurslarından istifadə, təhlükəsizlik və ekoloji məsələlərin həlli ilə bağlı danışıqlar başladı. Xəzər dənizinin hüquqi statusu ilə bağlı məsələlərin müzakirəsi üç səviyyədə aparılırdı: 1. dövlət başçıları səviyyəsində; 2. xarici işlər nazirləri səviyyəsində; 3. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın işlənməsi üzrə xarici işlər nazirləri müavinlərinin xüsusi işçi qrupu səviyyəsində. Xüsusi işçi qrup Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin 1996-cı il noyabrın 11-12-də Aşqabadda keçirilən iclasında yaradılıb. Dövlət başçıları səviyyəsində altı görüş keçirilib (2002-ci ildə Aşqabadda, 2007-ci ildə Tehranda, 2010-cu ildə Bakıda, 2014-cü ildə Həştərxanda, 2018-ci ildə Aktauda, 2022-ci ildə*

*Aşqabadda). Bu sammitlər zamanı gəmiçilik, balıq ovu, ekologiya və s. məsələlər haqqında müəyyən razılaşmalar əldə olunmuş, 2018-ci ildə "Xəzər dənizinin hüquqi statusu haqqında" yekun Konvensiya imzalanmışdı. Konvensiyanın preambulasında Xəzər dənizinin Xəzəryanı dövlətlər üçün həyati əhəmiyyət kəsb etdiyi, yalnız onların Xəzər dənizinə və onun resurslarına münasibətdə suveren hüquqlara malik olduqları, Xəzər dənizi ilə bağlı məsələlərin həllinin onların müstəsna səlahiyyətinə aid olduğu qeyd edilir. Konvensiyaya uyğun olaraq, Xəzər dənizinin akvatoriyası daxili sular, ərazi suları, balıqçılıq zonaları və ümumi su məkanına bölünür. Hər bir tərəfin suverenliyi quru ərazisi və daxili sularının hüdudlarından kənarda bitişik olan ərazi suları adlandırılan dəniz zolağına, eyni ilə onun dibi və təkinə, eləcə də üzərində olan hava məkanına şamil olunur. Xəzəryanı dövlətlərin hər biri müəyyən edilən çıxış xətlərindən ölçülən, eni 15 dəniz milindən artıq olmayan ərazi sularını müəyyən edir. Hər nöqtəsi çıxış xəttinin ən yaxın nöqtəsindən ərazi sularının eninə bərabər məsafədə yerləşən xətt ərazi sularının xarici sərhəddi kimi müəyyənləşdirilir. Ərazi sularının xarici sərhədinin müəyyən edilməsi məqsədilə, dənizə ən çox uzanan liman sisteminin tərkib hissəsini təşkil edən daimi liman qurğuları sahilin bir hissəsi hesab edilir. Sahilyanı qurğular və süni adalar daimi liman qurğuları hesab olunmur. Ərazi sularının xarici sərhədi dövlət sərhəddi hesab olunur. Sahilləri yanaşı olan dövlətlər arasında daxili və ərazi sularının bölünməsi, beynəlxalq hüququn prinsip və normaları nəzərə alınmaqla, onlar arasında razılaşmalar yolu ilə həyata keçirilir. Xəzər dənizinin dibinin və təkinin sektorlara bölünməsi, beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları nəzərə alınmaqla, yanaşı və qarşı-qarşıya yerləşən dövlətlər arasında razılaşmalar yolu ilə, onların dibin təkindən istifadəsinə və dibin və təkin resurslarının mənimsənilməsi ilə*

*bağlı digər qanunauyğun təsərrüfat-iqtisadi fəaliyyətinə olan suveren hüquqlarının həyata keçirilməsi məqsədilə yerinə yetirilir. Azərbaycan bu Konvensiyanı 2019-cu il fevralın 12-də təsdiq edib.*

*253. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2002-ci il yanvarın 24-dən 26-dək Rusiya Federasiyasında dövlət səfərində olub, Rusiya Prezidenti Vladimir Putin, Rusiya Federasiyası hökumətinin sədri Mixail Kasyanov, Rusiyanın xarici işlər naziri İqor İvanov, Moskva şəhərinin meri Yuri Lujkov, M.Lomonosov adına MDU-nun rektor V.Sadovniçi, İTAR-TASS agentliyinin və Rusiya Federasiyasının digər aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşlər keçirib. Səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2010-cu ilədək olan dövr üçün uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müqavilə", "Azərbaycan Respublikası ilə Rusiya Federasıyası arasında Qəbələ Radiolokasiya Stansiyasının ("Dəryal" RLS) statusu, ondan istifadə olunmasının prinsipləri və şərtləri haqqında saziş", "Rusiya Federasiyası Prezidentinin və Azərbaycan Respublikası Prezidentinin birgə Bəyanatı", Rusiya Federasiyası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında, istehsal kooperasiyası haqqında, vergi qanunvericiliyinin pozulması sahəsində mübarizədə əməkdaşlıq və informasiya mübadiləsi haqqında, sərhəd nümayəndələrinin fəaliyyəti haqqında sazişlər imzalanıb.*

*254. Azərbaycanın Qəbələ rayonunda yerləşən, 6000 km. radiusda ərazini nəzarətdə saxlamaq qabiliyyətində olan "Daryal" Raketdən Müdafiə Kompleksi 1985-ci ildə istifadəyə verilib. 2002-ci il yanvarın 25-də Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasıyası arasında Qəbələ Radiolokasiya Stansiyasının ("Dəryal" RLS) statusu, ondan istifadə olunmasının prinsipləri və şərtləri haqqında saziş" imzalandı. Sazişə əsasən "Dəryal" RLS-in statusu, iş*

*prinsipləri və istifadə şərtlərini müəyyənləşdirilmiş və o, 10 il müddətinə Rusiyaya icarəyə verilmişdi. 2012-ci ildə Azərbaycan və Rusiya stansiyanın icarəsi ilə bağlı kommersiya şərtlərinə dair yeni razılaşma əldə edə bilməmiş və nəticədə RLS öz fəaliyyətini dayandırmışdı.*

*255. 1998-ci il iyulun 6-da Xəzər dənizinin dibinin şimal sərhədində dəniz dibinin bölünməsinə dair Rusiya-Qazaxıstan Sazişi imzalandı. 2001-ci il yanvarın 11-də, Rusiya Prezidenti Vladimir Putinin Bakıya rəsmi səfəri zamanı Xəzər dənizi dibinin milli sektorlara bölünməsi barədə Rusiya və Azərbaycan arasında razılıq əldə olundu, 2002-ci il sentyabrın 23-də isə, Azərbaycan Prezidenti Heydər Əliyevin Moskvaya səfəri çərçivəsində Azərbaycan və Rusiya arasında Xəzər dənizinin dibinin həmsərhəd hissələrinin və təkinin bölüşdürülməsi haqqında razılaşma imzalandı. Razılaşmada dəniz dibinin həmsərhəd hissələrindən keçən bölüşdürücü xəttin coğrafi koordinatları müəyyənləşdirilmişdi. 2003-cu il mayın 14-də Xəzər dənizinin dibində həmsərhəd hissələrə aid fərqləndirici xətlərin kəsişmə noqtələri haqqında Azərbaycan, Rusiya və Qazaxıstan arasında üçtərəfli saziş imzalandı. Sazişə uyğun olaraq, Rusiya və Azərbaycanın hər biri dəniz dibinin 19%-nə, Qazaxıstana isə 29%-nə sahib oldu.*

*256. Viktor İvanoviç Kalyujnı (1947) – neft mühəndisi, siyasətçi. 1999-cu il mayın 25-dən 2000-ci il mayın 7-dək Rusiya Federasiyasının yanacaq və energetika naziri, 2000-ci il mayın 31-dən 2004-cü il iyulun 29-dək Rusiya Federasiyası xarici işlər nazirinin müavini, Rusiya Federasiyası Prezidentinin Xəzər dənizinin statusunun tənzimlənməsi məsələləri üzrə xüsusi nümayəndəsi, 2004-cü il sentyabrın 1-dən 2008-ci il yanvarın 11-dək Rusiya Federasiyasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri olub.*

*257. İqor Sergeyeviç İvanov (1945) – diplomat, 1991-ci il dekabrın 25-dən 1994-cü il iyulun 5-dək Rusiya Federasiyasının İs-*

*paniyada fövqəladə və səlahiyyətli səfiri, 1998-ci il sentyabrın 11-dən 2004-cü il martın 9-dək Rusiya Federasiyasının xarici işlər naziri, 2004-cü il martın 9-dan 2007-ci il iyulun 17-dək Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi olub.*

*258. Nadir Əli oğlu Əhmədov (1940-2020) – mühəndis, 1985-1991-ci illərdə Azərbaycan SSR, 1991-1997-ci illərdə Azərbaycan Respublikası rabitə nazirinin müavini, 1997-ci il iyulun 16-dan 2004-cü il fevralın 20-dək Azərbaycan Respublikasının rabitə naziri olub.*

*259. Nuri Əhmədov – mühəndis, 1995-ci ildə "AzEvroTel" Azərbaycan-Britaniya birgə müəssisəsini yaradıb və 2014-cü ilədək onun baş direktoru olub.*

*260. İoan II Pavel (Karol Yozef Voytıla) (1920-2005) – ilahiyyatçı, 1964-cü il yanvarın 13-dən 1978-ci il oktyabrın 16-dək Krakov arxiyepiskopu, 1978-ci il oktyabrın 16-dan 2005-ci il aprelin 2-dək Roma papası olub.*

*261. DDT (dixlor difenil trixlormetilmetan) – ziyanverici həşəratlara qarşı istifadə edilən kimyəvi maddə.*

*262. Defoliant – bitkilərin yarpaqlarını tökmək və qozaların açılmasını sürətləndirmək üçün istifadə olunan kimyəvi maddə.*

*263. Azərbaycan Respublikası Dövlət Neft Fondu 1999-cu ildə yaradılıb, neft və qazdan əldə edilən gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini və gələcək nəsillər üçün saxlanmasını təmin edən büdcədənkənar dövlət təsisatıdır.*

*264. Borjomi – Gürcüstanın Samtsxe-Cavaxeti diyarında şəhər. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin bir hissəsi Borjomi dərəsindən keçir.*

*265. Ahalsıx – Gürcüstanda şəhər, Samtsxe-Cavaxeti diyarının və Ahalsıx bələdiyyəsinin inzibati mərkəzi. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin bir hissəsi Ahalsıx ərazisindən keçir.*

*266. Edvard Spenser Abraham (1952) – hüquqşünas, 2001-ci il yanvarın 20-dən – 2005-ci il yanvarın 31-dək ABŞ-nin energetika naziri olub.*

*267. Astana – 1997-ci ildən Qazaxstan Respublikasının paytaxtıdır. Şəhər 1961-ci ilədək "Akmola", 1961-1992-ci illərdə "Selinoqrad", 1992-1998-ci illərdə yenidən "Akmola", 1998-2019-cu illərdə "Astana", 2019-2022-ci illərdə "Nur-Sultan", 2022-ci ildən yenidən "Astana" adlandırılıb.*

*268. Nursultan Əbiş oğlu Nazarbayev (1940) – iqtisadçı, 1984-cü il martın 22-dən 1989-cu il iyulun 27-dək Qazaxıstan SSR Nazirlər Sovetinin sədri, 1989-cu il iyunun 22-dən 1991-ci il avqustun 28-dək Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1990-cı il fevralın 22-dən aprelin 24-dək Qazaxıstan SSR Ali Sovetinin sədri, 1991-ci il dekabrın 16-dan 2019-cu il martın 20-dək Qazaxıstan Respublikasının Prezidenti olub.*

# MÜNDƏRİCAT

**Ön söz**
İlk təşəbbüs – faydalı mənbə ... 4

***Hugh Johnson*** *(The Gazette (ABŞ))*
Erməni qoşunlarının Azərbaycan ərazisinə basqını ... 9
***Serge Schmemann*** *(The New York Times (ABŞ))*
Müharibə və siyasət Azərbaycanın zənginliyə gedən yolunu bağlayır ... 11
***Edith M. Lederer*** *(The Daily Herald (ABŞ))*
Qələbəsinə ümidini üzən Ermənistan Azərbaycandan uzaqlaşır ... 14
***Robert Haupt*** *(The Sydney Morning Herald (Avstraliya))*
Ermənilərin Azərbaycanlılar üzərinə yeni hücumu ... 17
*The new york times (ABŞ)*
Azərbaycandakı müharibə köçə təkan verib ... 19
***Rashit Gurdilek*** *(The Press Democrat (ABŞ))*
Türk qoşunları sərhəddə ... 21
***Deborah Seward*** *(Pittsburgh Post-Gazette (ABŞ))*
Türkiyə lideri Qafqaz müharibəsini müzakirə etmək üçün Rusiyada ... 24
***Bill Keller*** *(The New York Times (ABŞ)*
Azərbaycanın iddiasına görə ermənilər onların əsas şəhərlərindən birini ələ keçiriblər ... 27
*The Economist (İngiltərə)*
Ayı fasilə edir: Azərbaycan ... 30
***Lyle Goldstein*** *(EBSCO (ABŞ)*
Qaynar nöqtə ... 33
***Steve Levine*** *(EBSCO (ABŞ))*
Qurban zorakiya çevriləndə ... 46

***Besik Urigashvili*** ***(****Bulletin of the Atomic Scientists (ABŞ)*
Zaqafqaziya: qan bağları ........................................................................48
*EBSCO (ABŞ)*
Azərbaycan ..............................................................................................52
*The Economist (İngiltərə)*
Dövrümüzün qəhrəmanı: Rusiya və Zaqafqaziya ........................62
*The Moscow Times (Rusiya)*
Neft razılaşması yaxındadır – Əliyev deyib ....................................64
***Gina Gianzero*** *(Europe)*
Xaos içində nizam: Respublikalarda kim kimdir ............................65
***Jonathan Rugman*** *(The Guardian (İngiltərə)*
Neft Rusiyanın Qarabağda sülh planını asanlaşdırır: bu gün Azərbaycan Prezidentinin Londona rəsmi səfəri başlayır. Conatan Raqman Britaniyanın biznes və siyasətə dair ümidləri haqqında məlumat verir ................................................................................67
*Un Chronicle*
Münaqişələr və qeyri-stabillik davam edir ......................................70
***Dilip Hiro*** *(New Statesman & Society (İngiltərə)*
Azərbaycanlılar rus oyunu oynayır..................................................73
***Julie Corwin*** *(Us. News & World Report (ABŞ)*
Ehtiyac içində olan keçmiş sovet respublikaları Moskvaya bel bağlayır................................................................................................76
***Michael Specter*** *(The New York Times (ABŞ))*
Dünya; uzaq müharibədə qan görünmədən axır ............................78
*The Economist (İngiltərə)*
Rusiyanın Qafqaz qazanı ....................................................................83
*Modern Power Systems (İngiltərə)*
İran Ordubad layihəsinə yardım edir ..............................................88
***Alan Kovski*** *(Daily oil Bulletin (ABŞ)*
Nyu Cersi şirkəti Azərbaycanla hasilat müqaviləsi bağlayan ilk qərb şirkəti oldu ..........................................................................90

*Charles Fenyvesi (Us. News & World Report (ABŞ))*
Artıq müharibə yoxdur ......................................................................93
*Un Chronicle (ABŞ)*
Zorakılıq yolu ilə yeni nizam axtarırsınız?....................................94
***Daniel Southerland*** *(The Washington Post (ABŞ))*
Azərbaycan və qərb şirkətləri Xəzər dənizində neft quyularının qazılması planı üzrə razılığa gəliblər .............................................96
***Brian Killen*** *(The Globe & Mail (Kanada))*
Azərbaycan 7 milyard dollarlıq neft müqaviləsi imzalayır. Qərb şirkətləri neft yataqlarının işlənməsi üçün keçmiş sovet respublikası ilə birləşir ......................................................................99
***Patrick Donovan*** *(The Guardian (İngiltərə)*
Neftdən payını alan BP ixracı artırır: Bakıdan Patrick Donovan Azərbaycanın ehtiyatlarının istismarı üzrə sövdələşmə haqqında məlumat verir ..........................................................................102
***Carey Scott*** *(Sunday Times (İngiltərə)*
Casus hekayələri Bakını gərginlikdə saxlayır; Azərbaycan.......105
***Colin Barraclough*** *(Insight on the News (ABŞ)*
Müharibədən yorulmuş Azərbaycan Rusiyanın sülh çubuğuna göz dikir.........................................................................................109
***David J. Kramer*** *(Insight on the News (ABŞ))*
İran, Türkiyə və Rusiya Mərkəzi Asiyanın enerji resursları uğrunda mübarizə aparır...............................................................118
***Lally Weymouth*** *(The Washington Post (ABŞ))*
Azərbaycan – rusları kim dayandıracaq? .....................................121
***Paul Klebnikov*** *(Forbes (ABŞ))*
Nəhəng Bakı neft sövdələşməsində bu kiçik mülkiyyət maraqlarının arxasında duran adam kimdir? Sakit qərarlı amerikalı ..................................................................126
*United Nations Chronicle (ABŞ)*
BMT gərgin vəziyyəti izləməyə davam edir ................................132

***Daniel Sneyder*** *(Christian Science Monitor (ABŞ))*
Keçmiş sovet bölgəsində etnik münaqişə yeni vüsət alır ........... 134
*United Nations Chronicle (ABŞ)*
Azərbaycan xalqlar danışır: Şərqi Avropa ................................... 140
***Villiam J. Piayk*** *(World Oil (ABŞ))*
Xəzərdə erkən hasilat ........................................................... 142
***Asil Gezen, Morris Altschuler*** *(The Washington Post (ABŞ))*
Azərbaycanda neft ................................................................ 143
*Daniel Southerland (The Washington Post (ABŞ))*
Şirkətlər Azərbaycana neft kompromisini təklif edirlər konsorsium Rusiya və Türkiyənin ambisiyalarını təmin etmək üçün iki ixrac boru kəməri marşrutu haqqında qərar qəbul edir ........................................................................ 145
*United Nations Chronicle (ABŞ)*
Dağlıq Qarabağ məsələsinin həlli daha yaxındır ........................ 149
*Earth Island jurnalı (ABŞ)*
Sumqayıt əzab içində .............................................................. 152
*World Oil (ABŞ)*
Azərbaycan konsorsiumu saziş astanasında ................................ 153
*The Moscow Times (Rusiya)*
Bakı-Supsa boru kəməri ........................................................... 154
*The Moscow Times (Rusiya)*
Rostropoviç doğma şəhəri Bakıya səfər edib .............................. 155
***Lawrence Sheets*** *(The Moscow Times (Rusiya))*
"Lukoil" Azərbaycan nefti ilə bağlı danışıqlar aparmaq üçün saziş imzalayır ................................................................ 156
***Lee H. Hamilton*** *(Christian Science Monitor (ABŞ))*
Qafqazda sülhə doğru ............................................................. 158
***Peter Baker*** *(The Washington Post (ABŞ))*
Klinton neftlə zəngin Azərbaycanın rəhbəri ilə nəzakətlə davranır ........................................................................... 161

***Caspar W. Weinberger*** *(Forbes (ABŞ))*
Xəzər dənizindən idxal olunan neft ........ 164
*Pipeline & Gas Journal (ABŞ)*
Xəzər dənizi yataqlarının işlənməsi ........ 168
*World Oil (ABŞ)*
ABŞ Azərbaycan prezidentini qəbul edir ........ 170
***Teve Levine, Bill Powell*** *(Newsweek (ABŞ))*
Oyun ciddiləşir ........ 171
*Marshall de Luca (Offshore (abş))*
Mərkəzi Asiya ........ 176
*The Washington Post (ABŞ)*
Qafqaz mükafatı: iki lider neftdən danışır ........ 178
***Kevin Whitelaw*** *(Us News & World Report (ABŞ))*
Neft, problem Bakı kəməri ilə axır ........ 184
*The Oil and Gas Journal (ABŞ)*
Keçmiş sovet ittifaqında Mərkəzi Asiya neft-kimya layihəsi müqavilələri imzalayıb ........ 186
***Chris Noble, Kvaerner John Brown,Vitali Begliarbekov*** *(Pipeline & Gas Journal (ABŞ))*
Azərbaycanın təbii qaz infrastrukturunun yenidən qurulması ........ 188
*Pipeline and Gas Journal (ABŞ)*
Azərbaycanda qaz yataqlarının tədqiq olunacağı elan edildi ... 192
*World Oil (ABŞ)*
İrəli baxmaq ........ 194
*The Moscow Times (Rusiya)*
Rumıniyanin Xəzər neftinin istehsalında iştirak etmək niyyəti ........ 195
*The New York Times (ABŞ)*
Azərbaycan neft paktları ........ 197
***Steve Levine*** *(Newsweek (ABŞ))*
Neft qiymətlərinin aşağı olması neft konsorsiumunu geri çəkilməyə məcbur edir ........ 198

*The Oil and Gas Journal (ABŞ)*
Azərbaycan prezidenti hasilatın pay bölgüsü üzrə üç saziş (PSA) imzalayıb ........ 201
*World Oil (ABŞ)*
Millətlər arasındakı fərq ........ 204
***Den Morqan, David B. Ottaway*** *(The Washington Post (ABŞ))*
Sərvət ovçuları ABŞ-nin qeyri-sabit regiona cəlb etdilər ........ 208
***Victor Schmidt*** *(Offshore (ABŞ))*
Bakı – Ceyhan beynəlxalq diqqət ........ 224
*The Oil and Gas Journal (ABŞ)*
İran mübahisəli Xəzər ərazisini tədqiq edir ........ 225
***Lievellyn O. Hovell*** *(The World Watch (Australia))*
Bakıdan Ceyhana: boru kəməri siyasətini təhlil edərkən ........ 228
*The Washington Post (ABŞ)*
Türkiyə, Gürcüstan və Azərbaycan neft boru kəməri müqaviləsi imzaladılar. ABŞ anti-Rusiya məqsədini inkar edir ........ 232
***John Boit*** *(Christian Science Monitor (ABŞ))*
Azərbaycan məhkəməsi dini əsasda deportasiya əmrlərini ləğv edib ........ 235
*Selina Williams (The Moscow Times (Rusiya))*
Yaponiya Azərbaycan neft sənayesini inkişaf etdirir ........ 238
***Ken Silverstein*** *(Mother Jones)*
Siyasəti formalaşdırmaq, şəxsi mənfəət əldə etmək: Bakıda neft həmləsi var və keçmiş DOE məmuru pul içindədir ........ 241
*Selina Williams (The Moscow Times (Rusiya))*
Azərbaycan xəzər neft və qaz yarışına atılır ........ 244
*(The Moscow Times (Rusiya))*
Lukoil ilə Socar arasında neft sazişi ........ 247
***Dan Matthews, Natik Mamedov***
*(International Financial Law Review (İngiltərə)*
Azərbaycan: xarici arbitraj qərarlarının icrası ........ 249

***Smiz Pamela Ann*** *(The Middle East)*
Azərbaycan Yaxın Şərqə nəzər yetirir... və əksinə ......................251
*Douglas Frantz (the New York Times (ABŞ))*
Nobel qardaşları Bakını necə ələ keçirdilər..................................256
*Chloe Arnold (The Times (İngiltərə))*
Azərbaycan qanunu kiril əlifbası ilə oxuyanları yenidən ABC-yə qaytarır......................................................................260
***Douglas Frantz*** *(The New York Times (ABŞ))*
Ermənistan və Azərbaycan Anklavla bağlı danışıqlarda irəliləyişə işarə edirlər ..............................................................262
***Steve Gutterman*** *(The Washington Post (ABŞ))*
Pauell Ermənistan və Azərbaycan liderləri ilə görüşüb.............265
***Jane Perlez*** *(New York Times (ABŞ)*
Pauell Qafqaz liderləri ilə yeni danışıqlara başlayır...................267
*The Daily Oil (Kanada)*
Azərbaycanın Energetika Nazirliyi planı ....................................270
*International Financial Law Review (İngiltərə)*
Bakı Azərbaycan: elektron pul köçürmələri təqdim edildi........271
***Michael Wines*** *(New York Times (ABŞ)*
Müharibədən atəşkəs danışıqlarına keçməyə çalışılır; Ermənistan və Azərbaycan arasında uzun sürən döyüşdə itkilər artır.........274
***Sofiya Kudenhuv Veynberq*** *(The Moscow Times (Rusiya)*
Sevgi hekayəsi köhnə Bakının ruhunu canlandırır.....................280
***Pamela Ann Smiz*** *(The Middle East (ABŞ))*
Azərbaycan imkanlar pəncərəsinə baxır ......................................284
*New York Times (ABŞ)*
İran Xəzər dənizində tədqiqat gəmisini təhdid etməkdə ittiham olunur.................................................................................290
*World Oil (ABŞ)*
Sürəkli geridönmə davam edir .....................................................293
***Douglas Frantz*** *(The New York Times (ABŞ))*
Təmizlik həvəskarı olan mer. Tanış səslənirmi?.........................297

***Douglas Frantz*** *(The New York Times (ABŞ))*
Köhnə sovet əlaqələrini tədricən kəsərək ....................................303
*The Moscow Times (Rusiya)*
Azərbaycan və Gürcüstan qaz boru kəməri sazişi imzalayır ....307
*Worldwide Energy (ABŞ)*
"Puma" Xəzər neft yatağı üçün niyyət məktubu imzalayıb......309
***David Young*** *(Oil and Gas Journal (ABŞ))*
Tarif razılaşması Türkiyəyə təbii qaz xətti çəkilməsi üçün atılan mühüm addıma işarədir ..............................................................311
***Bob Edvards*** *(Morning Edition (ABŞ))*
Azərbaycanda yeni əlifba tətbiq edilir .........................................314
***Thom Shanker*** *(New York Times (ABŞ))*
Ramsfeld Əfqanistanda yerləşdirilən qoşunlara baş çəkəcək ...317
*The New York Times (ABŞ)*
Xəzərlə bağlı mübahisələrdə irəliləyiş əldə olunub ....................321
*Aps Diplomat Recorder*
Rusiya – 28 yanvar – Əliyev Moskvada........................................323
***Tony Dawe*** *(The Times (İngiltərə))*
İnternet qızıl mədəni tapılmaq üzrədir.........................................325
***Viktor L. Simpson*** *(Toronto Star (Kanada))*
Gərgin səyahətini yorucu qrafiklə davam etdirən zəif papanın ilk dayanacağı Azərbaycandır......................................................329
***Alice Lagnado*** *(The Times (İngiltərə))*
ABŞ-nin dəstəklədiyi Xəzər neft kəməri Rusiyadan yan keçir..331
*The Moscow Times (Rusiya)*
Putin və Əliyev Xəzər dənizi barədə saziş imzalayıblar ............333
*Country Watch (ABŞ)*
Ekoloji məsələlər ..........................................................................335
***Economist Intelligence*** *(Unit N.A. Incorporated (İngiltərə))*
Azərbaycan iqtisadiyyatı: BVF ilə əlaqələr mürəkkəbləşir ........337
***Carl Mortished*** *(The Times (İngiltərə))*
Neft kəməri həyatları dəyişdirmək gücünə malikdir .................341

***Carl Mortished*** *(The Times (İngiltərə))*
Xəzər hövzəsinin dənizə çıxışı olmayan ölkələri qərbə doğru özlərinə yol açırlar ........ 350
***Killgore, Andrew I.*** *(Washington Report on Middle East Affairs)*
Bakı-Ceyhan neft boru kəməri – neft var ya yox-nəyin bahasına olursa olsun ........ 353
***Killgore, Andrew I.*** *(Washington Report on Middle East Affairs)*
Bakı-Ceyhan yenilənir – neft və suyu qarışdırmayın ........ 356
***Hilary Mccutcheon*** *(Offshore (ABŞ))*
Xəzər dənizində qarişiq mülklər ........ 358

**Qeydlər** ........ 361